Redaktoru: **Raziyə Muradova**

Ə.Hacızadə. Əsərləri, X cilddə, VI cild, Bakı, «Nafta-Press», 2005, 500 səh.

Yazıçı Əlibala Hacızadənin bütün əsərlərini əhatə edən X cildliyinin VI cildinə müəllifin «Dünyanı tanı» romanı daxil edilmişdir.

H $\frac{4702060000 \quad - 6}{071\,(2005\,)}$ **Qrifli nəşr.**

© «Nafta-Press» nəşriyyatı, 2005



ROMAN



DÜNYANI TANI

PROLOQ

— Canım, belə də iş olar? Tanrının qorxusundan yalan danışmaq olmur, bəndənin qorxusundan doğru,— söylədi qoca.

Nəzər müəllimin ağ, pırpız qaşları az qala alnının ortasına qalxdı; sinə dolusu köks ötürüb caçları qar kimi ağarmış başını kədərli-kədərli bulayıb:

— Yox, qoca, — dedi. — Sözünün yarısı ilə razıyam, yarısı ilə yox.

— Niyə ki?

— Deyirsən, tanrının qorxusundan yalan danışmaq olmur. Bax, bununla razı deyiləm. Bilirsən niyə? Ona görə ki, indi adamların ürəyində tanrı qorxusu qalmayıb, bir zərrə də qalmayıb, kişi. Onun üçün də adamlar o tanrı dediyindən əsla qorxmadan, çəkinmədən hər cür yalan danışırlar. Təkcə yalan danışmaqla kifayətlənmirlər, qoca, hətta utanmadan, qızarmadan, vicdan əzabı çəkmədən yalan da yazırlar, qoca! Amma bəndənin qorxusu! Bax, bunu düz deyirsən. Həqiqətən, bəndənin qorxusundan doğru danışmaq olmur. Əgər kişisənsə, hünərin varsa, bir vicdansızın, bir bürokratın, bir oğrunun-əyrinin gözünün içinə de: «Sən vicdansızsan, bürokratsan, oğrusan, əyrisən» — onda gör iki barmağıyla bax belə — o, sağ əlinin qoşa barmağını açıb irəli uzatdı — sənin gözlərini necə deşərlər. Mənim gözlərimi deşən kimi...

Qoca, Nəzər müəllimin gözlərinə altdan-yuxarı diqqətlə baxdı: yox, gözləri yerindəydi. Ancaq bir az da fəhmlə nəzər yetirəndə gördü ki, o qonur, nurlu gözlərin dərinliyində qəribə, dərin bir kədər yatır.

BİRİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Bu tut ağacını iyirmi səkkiz il qabaq, boz-bulanıq bir payız günü, iki qəşəng, totuq-potuq qızdan sonra bu balaca ailənin, səliqəli, yaraşıqlı ev-eşiyin dünyasını sevinclə dolduran sonbeşik Qərib anadan olanda, məktəbdən nigaran qayıdıb şad xəbəri eşidən, oğul həsrəti çəkmiş bir ata kimi yerə-göyə sığışmayan Nəzər müəllim özü əkmişdi. Həyətdə ondan başqa da ağaclar var idi, onları da o basdırmışdı, hamısı da meyvə ağaclarıydı, bar verirdilər. Alma, armud, gilas, gilənar, heyva, şaftalı, göyəm, qaysı. Amma o ağaclar bir yanaydı, bu tut ağacı bir yana. Nə sirr idisə, o ağacı çox istəyirdi, lap çox istəyirdi. Elə bil qəlbinin bir parçasını kəsib yerə sancmışdı; üstündə əsim-əsim əsmişdi. Xüsusi qulluq göstərmişdi ona. Tut da torpağı yaxşı, suyu bol olduğu üçün, adına əkdiyi aman-zaman oğlundan çox tez böyümüş, qol-budaq atmış, sarmaşıqlı hasar içindəki həyətin, çiy kərpicdən tikilib palçıqla suvanıb ağardılmış üç çeşməli, eyvansız evin eyvanı, kölgəliyi olmuşdu. Boz, dığır-dığır gövdəsi tüfəng lüləsi kimi düz idi, adam boyundan yuxarı budaqları haçalanıb sağa-sola meyillənmiş, irili-xırdalı beşbarmaq əllərə oxşayan yaşıl yarpaqları bir-birinə sığınıb-sıxılıb təbii, gömgöy bir çətir əmələ gətirmişdi. İsti-qızmar yay günəşi düzü-dünyanı yandırıb adamın nəfəsini tıncıxdıranda belə bu ağacın altı səpsərin olardı, yerə bir zərrə gün işığı düşməzdi. Aylı gecələrdə isə, hər yan süd kimi ağ ay nuruna bələnib mürgü vuran zaman bura çırağı sönmüş alaqaranlıq otağa-çadıra bənzəyirdi. Hava sakit olanda yarpaqlar nəfəs çəkib qımıldanmazdı; yüngül meh əsdimi, beşbarmaq əllərə oxşayan o yarpaqlar asta-asta çəpik çalardılar elə-bil, qəribə, pıçıltıya, xışıltıya bənzər bir nəğmə oxuyardılar elə bil və bütün həyətə, burada oturub çay içən, söhbət eləyən adamların ürəyinə, canına sehrli bir rahatlıq bağışlayardılar.

Beş nəfərdən ibarət ailə yazın gözü açılıb istilər düşməyə, ağaclar, çöllər — bütün təbiət yaşıl donunu geyinib göz-könül oxşamağa başlayandan, payızın dumanlı-çənli gözləri dolub ağlamağa başlayana, soyuqlar, şaxtalar düşənə qədər bu tut ağacının altında «yaşayar», yeyib-içər, dincələrdi. Göylər xəlbirə dönüb torpağa şıdırğı sel-su axıdanda da onlar hələm-hələm evə yığışmazdı, çünki

yarpaqların sıxlığı üzündən bura bir damcı da yağış düşməzdi, küçələr, yollar, həyətin açıq yerləri islanıb palçıq olardı, amma bura qupquru qalardı və belə günlərdə, çox vaxt arvad-uşaq qaçıb otaqlara təpilsə də, Nəzər müəllim özünün düzəltdiyi uzun taxta stol arxasında oturub həmişə cibində gəzdirdiyi qara müştüyünə «Avrora» sancıb aramla tüstülədə-tüstülədə, artıq yavaş-yavaş üstünə payızın xınayı xalları qonmağa başlayan və günbəgün seyrələn yarpaqları yeknəsəq bir tappıltı ilə döyəcləyən yağışın insan ürəyinə hardansa elə bil lap göylərin dərinliyindən bir az qəribəlik, bir az kövrəklik və niskil gətirən səsinə-mahnısına qulaq asardı, bəzən gündüz gördüklərini, eşitdiklərini, elədiklərini saf-çürük eləyərdi, bəzən ömür yolunun uzaqlarda qalmış çağlarını, xatirələrini yad edib düşünərdi, bəzən isə kitab oxuyardı. Üstü güllü müşəmbəli stoldan azca aralı, kiçik arxın yanında bir taxt vardı və bu taxtı da, miz kimi, özü mişarlayıb, mıxlayıb düzəltmişdi. Havaların şaxı sınandan Bikə xanım Nəzərin yorğan-döşəyini çölə çıxarıb o taxtın üstünə salardı, ağ cuna miçətkənini qurardı və bir də ilk qar yağanda, ilk bərk şaxta düşəndə, kişi özü dilə gəlib iri, damarları gömgöy göyərən əllərini ovxalaya-ovxalaya: «Balam, bu gecə yaman soyuq idi, canım heç qızmayıb!» deyəndə yorğan-döşəyi, miçətkəni yığışdırıb içəri aparırdı. Bu tut ağacının altı Nəzər üçün dünyanın ən gözəl, ən rahat yeriydi; bütün ömründə çox şəhərlər, məmləkətlər gəzib dolaşmışdı, axar-baxarlı mənzərələr görmüşdü, ancaq heç biri könlünü oxşamamışdı bura kimi. Bunu Nəzər kimsəyə demirdi, demək istəmirdi, qorxurdu ki, bu zərif, bu gözəl, bəlkə də dilə gətirilib izah olunmaz bu incə hissi başa düşməyələr, gülələr. Hətta az qala onunla bir damın altında bir ömür yaşamış, onun üçün yaxşı həyat yoldaşı olmuş, ürəyini gözündən oxumağa qadir Bikə xanıma da bu barədə heç nə deməmişdi; çünki o zaman da — bu ağacı əkdiyi o boz-bulanıq payız günündə də, sonralar da arvadına söyləməmişdi ki, bu tut ağacını nə niyyətlə əkib. Onda elə-belə, ürəyindəcə, öz-özünə danışa-danışa əkmişdi o ağacı və ancaq özü eşidə biləcək bir səslə pıçıldamışdı: «Bu ağacı sənin adına əkirəm, oğul. Tut ağacı uzun ömürlü olur, torpağa dərin kök atır. Sən də onun kimi qollu-budaqlı ol, kölgəli ol, oğul. Mən ata məhəbbətindən məhrum olmuşam, çünki atamın üzünü də görməmişəm. O, mənim üçün nağıl olub, əfsanə olub, dərd olub, nisgil olub, bala. Nə öldüsünü bilirəm, nə qaldısını. Sən başa düşməzsən, qorxuram heç böyüyüb yekə oğlan olanda da başa düşməyəsən ki, bu necə dəhşətli bir ağrıdır asılıb ürəyimin başından. Nə açа bilmişəm,

nə bükə bilmişəm. Atasız böyümüşəm, bilirəm atasız böyümək nə deməkdi; odur ki, bir atasız uşaq görəndə qəlbimin başı göynəyir, oğul. Taleyim o iki qız uşağından sonra səni mənə bəxş eləyib və elə bil dünyanı bağışlayıb. Sən dünyaya gələnə qədər də mən elə yaşamışam və bundan sonra da elə yaşayacağam ki, sən şax gəzəsən yer üzündə, adamların gözünün içinə dik baxa biləsən, oğul. Sən isə... mənim — ata nəvazişi görməyən mənim həm atam olasan, həm oğlum olasan gərək, oğul!»

Sonralar da heç vaxt, heç yerdə, heç kəsin yanında bu sözləri dilinə gətirməmişdi, heç pıçıldamamışdı da Nəzər müəllim. Sadəcə tuş qanadlı, zaman atlı illər uçub keçdikcə gündə bir buğda böyüyən oğluna və qol-budaq atıb günəşə — göylərə can atan tut ağacına baxıb fərəh içində yaşamışdı. Ancaq o xoş, unudulmaz həyəcanlı gündən dördmü-beşmi il keçəndan sonra, ağaclar yarpaqlayıb çiçəkləyəndə bu yaşıl sevincin üstünə bir sarı xal düşmüşdü — məlum olmuşdu ki, tut ağacı erkək imiş, barsız imiş! Bu dəhşətli həqiqəti (Nəzər üçün bu təsəvvürəgəlməz dərəcədə dəhşətli idi, demək olar ki, dərd idi) dərk edəndə həyətlərdən, bağlardan tut sovulanacan qəmli gözlərini o ağacdan çəkməmişdi, getmişdi-gəlmişdi, baxmışdı ona — ancaq ağac yalnız yaşıl yarpaqlarını tərpətməklə, öz bağbanını salamlamaqla kifayətlənmişdi və susmuşdu. Kişi ona gələn il də ümidlə baxmışdı, o biri il də. Lakin tut ağacı boy-buxuna vermişdi, bar verməmişdi. Və bu, Nəzərin aləmində bəd fal olub qalmışdı — o, oğluna bəslədiyi ümidlərin də üstünə bir kölgənin qanad gərdiyini hiss eləmişdi, pərt olmuşdu, xiffət çəkmişdi. Amma açıb-ağartmamışdı, tək çəkmişdi dərdini. Hətta uzun müddət oğlu ilə bu barsız ağac arasında özündən başqa kimsənin görmədiyi o gizli bağlılığı, əlaqəni unutmağa çalışmışdı. Lakin bacara bilməmişdi heç cür. Hətta bir dəfə balta götürüb kəsmək də istəmişdi onu dibindən, ancaq ürəyi gəlməmişdi. Çünki onun nəzərində, o tut ağacı canlı idi, yaşayırdı, hələ deyəsən öz dilində nəsə danışırdı da elə bil. Hərdən Nəzərə elə gəlirdi ki, barsızlığından xəcalət də çəkir o!

Tut ağacı kimi Qərib də boy atıb böyüyürdü və Nəzər bir ata təkin ondan göz çəkmirdi, hər hərəkəti, hər sözü nəzərindəydi və həmişə də oğlu haqqında nigarançılıqla fikirləşirdi. Qollu-budaqlı körmək istəyirdi onu bu tut aqacı kimi, kölgəli görmək istəyirdi, ancaq barsız yox. Övlad yetişib hasilə gəlincə, bar-bəhər verincə, kölgəsi olunca, ata-ana ürəyini yeyirmiş, sən demə! Qərib böyüyürdü, tut ağacı qol-budaq atıb nəhəng, yaşıl çadıra dönürdü.

Bikə xanım ötən illər ərzində fəhmlə bunu yaxşı başa düşmüşdü ki, kişi məktəbdən, içlasdan, səfərdən nə qədər yorğun-arğın qayıdıb gəlsə də, burada, çətir ağacın altında, uzun mizin arxasında oturub bir stəkan çay içib, bir loxma çörək yeyən kimi, ağappaq, pırpız qaşları altında, uzun kirpiklərin hasarı içində gizlənib dünyaya həmişə az qala bir uşaq heyrətiylə baxan qonur gözlərini dolandırıb bircə dəfə bu həyət-bacaya, o ağaca, balalarına — Güldanəyə, Güllüyə, Qəribə, onlar da olmayanda Bikə xanımın özünə ötəri nəzər salan kimi, tamam dəyişib dincəlir, şənlənir, deyib-gülür, dönüb büsbütün başqa adam olurdu; Bu, Bikə xanıma xüsusi ləzzət eləyirdi və o, bəxtindən, taleyindən çox razı qalırdı. Kişisini evə-eşiyə bağlı, ailəcanlı, uşaqcanlı görmək bütün qadınların ən gizli və ən böyük arzusu deyilmi?! Heç nəyin də olmasa, yalnız elə bununla onları xoşbəxt etmək olmurmu? Bikə xanım bu sarıdan özünü dünyanın bəxtəvəri sanmışdı həmişə. Nəzər cavanlığında çox gözəl kişi olmuşdu, elə indinin özündə — yaşı altmışın ağ, qarlı zirvəsindən aşandan, saçı-saqqalı ağappaq olandan sonra da yenə o gözəlliyini, o qamətini saxlamışdı, şax gəzirdi, şıq geyinirdi, üzünü hər gün təraş edib səliqəsindən-sahmanından qalmırdı. Bikə xanım bir qadın sövqi-təbii ilə həmişə duymuşdu ki, bu cür kişilər qadınların bəzisinin — zövqü, ürəyi, məhəbbəti gözlərində olanlarının çox xoşuna gəlir və bunu da hiss eləmişdi ki, ömrün bu uzun yollarında Nəzərdən xoşlanan, gizlincə baxıb köks ötürən, bir himini-işarəsini gözləyən qadınlar az olmamışdı, ancaq Nəzər — onun ağıllı və mehriban əri onların heç birinə — ən gözəlinə belə başqa gözlə, özgə niyyətlə baxmamışdı, Bunu Bikə xanım əlinin, içi kimi bilirdi və ərinə öz varlığı kimi inanırdı. Bikə xanımın fikrincə, arvadını qısqandırmayan kişi əsl kişi, ərini qısqandırmayan arvad isə əsl arvad idi; Nəzər onu heç vaxt qısqandırmadığı kimi, Bikə də Nəzəri qısqandırmamışdı. Deyəsən, bu nöqtədə ər-arvadın fikri birləşmişdi ki, ailələrin bir çoxunun dağılmasına, uşaqların atalıykən atasız, analıykən anasız böyüməsinə səbəb olan bir çox şeylərdən biri, bəlkə də elə birincisi qısqanclıqdı, çünki hər ikisi bilirdi ki, kasıblıq ev dağıtmaz, ehtiyac ev dağıtmaz, amma qısqanclıq və onun dalınca əliqılınclı gələn xəyanət dağıdır, rəhmsizcəsinə dağıdır evləri, ailələri.

Yaxşı ömür-gün sürmüşdülər, can deyib-can eşitmiş, bir ömür üz-üzə, göz-gözə yaşamışdılar. Özünü həmişə «adi müəllim baba» adlandıran Nəzər, az tapmışdı, az yemişdilər, çox tapmışdı, çox yemişdilər. Kəndin uşaq bağçasında tərbiyəçi işləyən Bikə xanım

əriylə əl-ələ verib üç gözəl, hərəsi bir dünya olan övlad böyütmüşdü. Nə qədər ki, onlar balaca idilər, məktəbdə oxuyurdular, bu həyət səsli-küylü, get-gəlli idi. Xüsusilə axşamlar hamısı bir yerə yığışanda, qızların — Güldanənin və Güllünün rəfiqələri, oğlanın — Qəribin yoldaşları bura cəmləşib dərs hazırlayanda, gizlən-qaç oynayanda ağız deyəni qulaq eşitmirdi. Bu da Nəzərə, Bikə xanıma ləzzət eləyirdi. Ancaq vaxt hiss olunmadan dolanıb keçmiş, qızlar böyüyüb, bir-bir ata ocağından uçub getmişdilər. Əvvəlcə böyük qız Güldanə köçmüşdü; uzağa yox, qonşu Cürəli kəndinə. O, universitetin kitabxana-naçılıq fakültəsini bitirmişdi. Bakıda oxuduğu beş il müddətində ürəyini heç kəsə verməmişdi, heç kimlə gəzib-dolanmamışdı, ata-anası necə yola salmışdısa, eləcə də doğma kəndə qayıdıb gəlmişdi. Bu, bir ata kimi Nəzərin, bir ana kimi Bikə xanımın ürəyini dağa döndərmişdi, Ali təhsilli kitabxanaçı olub qayıdan Güldanə əvvəlcə elə öz kəndlərində, ərə gedəndən sonra isə Cürəli kənd kitabxanasında işləmişdi. Nəzər onu özünün dərs dediyi məktəbə gələn, çox yaxşı tanıdığı, başıaşağı, mərifətli oğlan kimi hamının rəğbətini qazanmış Tapdığa vermişdi. Tapdıq Nəzərin cəbhə dostunun oğluydu. Müharibədən demək olar ki, yarımcan qayıtmış Sahib dünyadan köçəndən sonra yetim, kimsəsiz qalan Tapdağın ömrünün üç ili — səkkiz-onuncu siniflərdə oxuduğu illər Nəzərin gözünün qabağında keçmişdi. Tapdıq o zaman məktəbin böyründəki birmərtəbəli, üç-dörd çeşməli köhnə yataqxanada qalırdı; başqa yaxın-uzaq kəndlərdən oxumağa gələn uşaqlarla bir yerdə yaşayırdı, yeyib-içməyi isə Nəzərgildəydi. Bikə xanım onu öz uşaqlarından ayırmırdı, palını-paltarını yuyurdu, anası kimi əzizləyib, güldən ağır bir söz demirdi, elə bilirdi uşağı üç deyil, dörddü - həftədə bir dəfə — bazar axşamları öz kəndlərinə gedir, ev-eşiklərinə baş çəkir, birinci gün yenə tezdən özünü məktəbə çatdırırdı. Onuncunu bitirib oxumağa getmə-mişdi, traktorçular briqadasında əvvəlcə kotançı işləmişdi, əskərliyini çəkib qayıdandan sonra isə əməlli-başlı traktorçu olmuşdu.

Sonralar heç kəsin ağlına gətirmədiyi qəribə bir iş baş vermişdi: ev uşağı sayılan Tapdıq, əskərlikdən dönəndən üç il sonra, bir yay axşamı elə məktəbə, Nəzər müəllimin yanına gələrək çoxdan gözaltı elədiyi, ağzını arayıb «hə» cavabı aldığı Güldanənin elçiliyini özü eləmişdi. Tapdığın bu gözlənilməz hərəkəti — cəsarəti Nəzərin çox xoşuna gəlmişdi: bu təklif ürəyincə olsa da, kişi əvvəlcə çaşmışdı, bir siqaret yandırıb fikrə getmişdi, sonra oğlanı evə gətirib xəlvətdə arvadı ilə xısınlaşaraq götür-qoy eləyəndən, Bikə də qızının rəyini

soruşub öyrənəndən sonra xeyir işə razılıq vermişdi.

Güldanə ilə Tapdığın toyunu da Nəzər özü eləmişdi və o yetim oğlanın ev-eşik sahibi olmasına səbəbkar olmuşdu. Güldanə indi xoşbəxt idi: bir qız, iki oğul anasıydı.

İki il sonra Güllü pərvazlanmışdı. Ancaq o, uzağa uçmuşdu — Bakıya gedib düşmüşdü. Onu Əskərabada pambıq yığmağa Bakıdan tələbə gətirmiş Balıqçılıq texnikumunun müəllimi — cavan, zirək, od parçası olan Sadıq müəllim «ovlamışdı». Tələbələr məktəb binasında, klubda qalırdılar. Sadıq onların ümumi rəhbəri idi, çöldə, tarlada həmişə yanlarında olurdu. Deyən, gülən, tez qaynayıb-qarışan bir oğlan idi. Bir neçə günün içində kənd camaatı ilə, sədr Mikayılla, məktəb müəllimləri ilə, o cümlədən Nəzərin özüylə də tanış olub mehribanlaşmışdı. Hamı elə bilirdi ki, Sadıq bura dünən gəlməyib, elə buralıdı. Sadığı Nəzərin şagirdləri də tanıyıb isinişmişdilər. Onuncu sinifdə oxuyan Güllü heç özü də bilməmişdi ki, bu ucaboy, qəşəng oğlana haçan, harda, günün, saatın hansı çağında vurulub. Güllü ancaq bunu hiss eləmişdi ki, Sadıq da ona biganə deyil; tarlada, uşaqların arasında hərlənib-fırlanıb əlindəki, ciblərindəki pambığı gətirib ancaq ona verir, önlüyünün içinə təpir. Güllü, nə qədər qəribə olsa da, Sadığı görməyə o qədər can atırdı ki, hətta istəyirdi gecələr də onlara pambıq yığdırsınlar, çöldə saxlasınlar, Sadıq da elə hey hərlənib-fırlanıb onun yanına gəlsin, baxıb gülümsünsün. Noyabrın əvvəllərində, bayrama bir neçə gün qalmış, Sadıq öz tələbələrini «İkarius» avtobusuna yığıb Bakıya yola düşəndə, Güllü xəlvətə çəkilib ağlamışdı da. Canını qoymağa yer tapmayan qız, imtahanlar qurtaran kimi, ata-anasını sevindirərək: «Mən Bakıya oxumağa gedirəm!» — demiş və şəhərə gəlmişdi. Çünki Sadıq müəllim ona möhkəm söz vermişdi ki, «Sən gəlməyində ol, hansı institutun üstünə barmağını qoysan, o bu qara lələşinin (Sadıq həmişə özünün qəşəngliyini daha çox nəzərə çarpdırmaq üçün belə deyərdi) boynuna».

Gözəllikdə, boy-buxunda ilk baxışda başdan ağıl aparan Güllü bu həvəslə şəhərə qanad açmış, axtarıb Sadığı tapmışdı, ancaq bir də onda gözünü açıb görmüşdü ki, imtahanlar çoxdan qurtarıb, özü isə hamilədi. Sən demə, Sadıq oxumamış, gözəl-göyçək, ev tərbiyəsi görmüş kənd qızı axtarırmış ki, evlənsin. Beləliklə, Güllü Sadığın arvadı olmuşdu.

Bu bəd xəbəri eşidən Nəzəri az qala infarkt vurmuşdu. Bikə xanımın qayğısı, diqqəti olmasaydı, kişi bəlkə də çoxdan ölmüşdü. Yazıq ana Bakı ilə rayon yollarını ağarda-ağarda, yalan-doğru yaxşı

xəbərlər gətirə-gətirə Nəzəri birtəhər sakitləşdirib toxtatmışdı. Buna baxmayaraq, bu hadisə onu el-oba içində yaman sındırmışdı. Üç il küsülü qalandan sonra Bikənin təkidi ilə Güllüylə barışmışdı, iki yaşlı şeytan nəvəsini qucağına alıb üzündən öpmüşdü. Adını nüdrə-tən dilinə gətirərdi. Ürəyi sınmışdı. Həmişə nədənsə ondan nigaran idi. Bir dəfə də arvadına: «Ata-ana xeyir-duası olmadan ərə gedən qızın xoşbəxt olacağına nədənsə mən heç cür inana bilmirəm, ar-vad!» — demişdi. Və bu illəri beləcə nigaran-nigaran yaşamışdı Nəzər. Güllünün Bakıda üçotaqlı evi, bağı vardı, yeməyi, geyməyi vardı. Ancaq xoşbəxtliyi vardımı? — Nəzər bircə bunu bilmirdi. Çünki Sadıqdan gözü su içmirdi.

Ailə qurmayan, oxuyub bir yana çıxmayan, Nəzərin ürəyincə oğul ola bilməyən bircə Qərib idi ki, onun dərdi kişini içəridən sökürdü, qəlbini parçalayırdı. Nəzər öz əliylə əkdiyi tut ağacına baxırdı, boy-buxunlu, lay kürəkli oğluna baxırdı, dərin fikrə gedirdi, yanıb-yaxılırdı. «Mənim dərdim böyükdür, aləmin uşağını oxudan mən, bircə oğlumu da oxudub ortalığa çıxarda bilmədim. Məndən olub, mənə oxşamadı. Düz deyiblər, oddan kül törəyər» — deyə vaysına-vaysına ürəyindən keçirir, çarəsiz-çarəsiz dözürdü.

İKİNCİ FƏSİL

Elə bil Nəzər müəllimin ürəyindəmi, beyninin içindəmi gözə-görünməz əllə qoyulmuş, səssiz-səmirsiz işləyən, heç vaxt kökdən düşməyən çox dəqiq bir elektron cihaz vardı, gecələr nə vaxt yatmağından asılı olmayaraq, hər səhər düz səkkizin yarısında o sehrli elektron cihaz çıqqıltısız, zəngsiz, cinkiltisiz ona xəbər verirdi ki, Nəzər müəllim, oyan, vaxtdı, dərsə kecikərsən. Və Nəzər müəllim də əmri sözsüz-sovsuz yerinə yetirməyə adət eləmiş əskərsayağı, yuxulu gözlərini ağır-ağır açardı, qışda — evdə yatanda qarşı divara vurulmuş qədimi, kəfkirli saata, yazda-yayda çöldə — tut ağacı altındakı taxtda yatanda isə qolundakı köhnə «Pobeda» saatına baxmadan da bilərdi ki, indi saat səkkizin yarısıdı — nə bir dəqiqə o yan, nə bir dəqiqə bu yan. Qəribəydi ki, bunu bilə-bilə o, ya kəfkirli saata, ya «Pobeda»ya nəzər yetirməkdən özünü saxlaya bilməzdi. Və hər gün də eyni vaxtda — düz səkkizin yarısında ayılmasına köhnəlməyən bir möcüzə kimi heyrət eləyərdi; sabahın bu vədəsində o, eşidilməz əmrlə yuxudan oyanar, yorğan-döşəyinin içində yünkülcə

əl-qol atıb qulunçunu qırar — guya idman eləyərdi; sonra tələsik geyinər, əl-üzünü yuyub Bikə xanımın obaşdandan hazırladığı səhər yeməyini yeyərək sol qıçını çəkə-çəkə məktəbə — işıqlı sinif otaqlarındakı qırmızı qalstuklu, komsomol nişanlı uşaqlara dərs deməyə gedərdi. Qıçı uşaqlıqdan şikəst deyildi, cavanlıqda atdan, damdan yıxılmamışdı. Müharibə vaxtı, qırx beşinci ilin aprelin iyirmi yeddisində, Berlinin lap darvazaları ağzında gedən qızğın döyüşdə partlayan qumbaranın qəlpələri sol qıçını dağıtmış, lülə sümüyünü sındırmışdı; qumbaranı atan alman əskərini öz gözüylə görmüşdü, yanında qalxan toz-duman çəkiləndən sonra o, qıçının xıncım-xıncım olduğunu hiss edib, başında dəbilqə olan uzunsifət, sarışın düşmən əsgərinin də vurulub öldürüldüyünü yəqin edib ufuldaya-ufuldaya: «Faşist oğlu faşist!» — deyə söymüşdü. Qospitaldan müharibə qurta-randan sonra çıxıb Vətənə qayıdan Nəzər xeyli keçmiş bilmişdi ki, bir qəlpə lülə sümüyünün içində qalıb, çıxarılmağına ümid yoxdu; özü də zərərsizdi. Beləliklə, Nəzər müharibədən qıçında bir qəlpə, dilində də bir söyüş gətirmişdi. Qəlpə incidəndə dişlərini bir-birinə qısıb dözürdü, ah-uf eləməyi kişiliyinə sığışdırmırdı. Ancaq xoşuna gəlməyən, pis iş tutan, alçaqlıq eləyən adama «faşist oğlu faşist» deməkdən çəkinmirdi. Onun nəzərində faişstdən pis məxluq yox idi yer üzündə. Həyatda, işdə gördüyü pis adamlar da onun üçün elə faşist kimi bir şey idi.

Bu da maraqlı idi ki, Nəzər o vaxtdan özünün əsl doğulduğu günün — mayın dördünün üstündən qələm çəkmişdi, yaralandığı günü — aprelin iyirmi yeddisini anadan olduğu gün hesab eləməyə başlamışdı. Həmin gün ölə də bilərdi. Ölməyib — demək, o gün anadan olub! Çoxdan, lap çoxdan arvadı da, uşaqları da, dostları da Nəzərin ad gününü aprelin iyirmi yeddisində keçirirdilər, əsl təvəllüd günü demək olar ki, hamının, bəlkə özünün də yadından çıxmışdı.

Bir də təəccüblü idi ki, hərəyə bir ayama qoymağa adət eləmiş Əskərabad camaatı Nəzərə «axsaq Nəzər» deməmişdi. Halbuki axsaqlığı buna gözəl imkan verirdi. Böyük də, kiçik də ona «Nəzər müəllim» deyirdi. Qorxmamışdılar, çəkinməmişdilər, Sadəcə hörmət eləmişdilər. Və bu hörməti o özü qazanmışdı, Lap cavanlığından ciddi, zabitəli, eyni zamanda uşaq kimi mehriban və həlim bir oğlan kimi tanımışdı camaat onu. Bu kənddən Bakıya ali məktəbə oxumağa birnci gedən də o olmuşdu. Səlminaz arvadın kirpikləri ilə od götürə-götürə, atasız böyütdüyü bu yetim oğlan ilk ali savadlı müəllim kimi qayıtmışdı kəndə. Sentyabrın birində ilk dərsini demişdi, ikisində

cəbhəyə könüllü yola düşmüşdü. Yaşlı arvadlar, kişilər indi də onun necə əskər getdiyini yaxşı xatırlayırdılar.

Qırx birinci il sentyabrın birində sinifdən çıxan, dərs dediyi uşaqları yadında saxlamağa belə imkanı olmayan Nəzər, o sinfə bir də qırxbeşin sentyabrında, əynində əskər paltarı, əskər şineli, əlində jurnal qayıtmışdı. Sinəsində neçə orden-medal vardı — bunu kənd camaatı da, əksəriyyəti qadınlar olan müəllimlər də, məktəbdəki uşaqlar da görmüşdü. Bir də bunu görmüşdülər ki, Nəzər müəllim sol qıçını yüngülcə çəkir. Ancaq onlar sol qıçının lülə sümüyü içindəki o «faşist oğlu faşistin» qəlpəsini görə bilməmişdilər; görə də bilməzdilər. Nəzər elə o vaxtdan bu məktəbin — bu qədim, qırmızı kərpicdən tikilmiş və ona körə hamının «Qırmızı məktəb» adlandırdığı məktəbin dəyişməz müəllimi olmuşdu; şəvə saçları burada ağarmışdı, burada qocalmışdı, Özü də vaxtilə bu məktəbdə oxumuşdu; müəllimlərinin çoxu yox idi. Öləni, itəni vardı, qocalıb xanənişin olanı vardı. Nəzər öz ilk müəllimi Əli Nurlu ilə çiyin-çiyinə neçə illər işləmişdi. Həmişə də özünü onun — bu qamətli, üzü azca çil, iri alınlı müəllimin şagirdi hesab eləmişdi, öyrənmişdi, məsləhət almışdı. O, Əli müəllimlə dost olmuşdu, onu sadəcə müəllim yox, ağıllı, müdrik dost sanmışdı. Məktəb, Əli müəllim kimi, onun da ikinci evinə çevrilmişdi. O da eynən vaxtilə Əli müəllimin etdiyi kimi, səhərlər məktəbə gəlib dərslərini deyəndən sonra dəfə-darağını yığışdırıb dərhal evə qaçmamışdı, dərsi oldu, olmadı, bir də axşamçağı, axırıncı zəng çalınandan da iyirmi-iyirmi beş dəqiqə sonra qayıtmışdı. Evdə, həyət-bacada gəzəndə də, arvad-uşağı ilə danışanda da fikrən, xəyalən məktəbdə olardı, gah bu müəllimlə, gah o uşaqla, gah bu valideynlə qəlbində danışar, qəzəblənər, sevinər, gülümsünərdi. Adi müəllim olanda da belə olmuşdu, direktor olanda da belə olmuşdu. Dörd il idi ki, yenə adi müəllim idi — yenə beləydi Nəzər. Uşaqlarının anası Bikə xanım kişinin qəlbən, ruhən məktəbdə yaşadığını, evi-eşiyi də bəzən unutduğunu görəndə dözüb-dözüb axırda hirslənər, «sənin elə adın, kölgən burdadı kişi, ürəyin, fikrin-zikrin o məktəbdədi. Yorğan-döşəyini də aparıb orda yatsaydın, birdəfəlik biz də öz işimizi bilərdik, vallah!» — deyərdi, Nəzər müəllim belə hallarda mənalı-mənalı qımışar, qara müştüyünə bir «Avrora» keçirib yandırar, astadan, arxayın-arxayın: «Sən yəqin zarafat eləyirsən. Sən bunun ləzzətini bilməmiş olmazsan, arvad. Bax, sən o burnu fırtıqlı, o balaca uşaqlarından, bağça uşaqlarından ayırsalar, darıxmazsan? Vallah darıxarsan, billah darıxarsan! Balığı

sudan çıxartdın, atdın qumun üstünə, öldürdün, Sədnikin qızı. Məktəb mənim üçün həyatdı, yaşamaqdı, arvad. Onsuz mən ölərəm, Sədnikin qızı!» — deyə cavab verərdi. «Ta belə yox də, Nəzər, Sən lap ağ eləmisən. Səndən də başqa bu kənddə müəllim var, bu rayonda müəllim var. Amma bircəciyi sənin kimi deyil,— deyərdi Bikə xanım. O ki qaldı mənə, mənciyəz o burnu fırtıqlı uşaqlardan elə bezmişəm ki, dilnən demək mümkün deyil. Axşamacan cığ-vığ, cığ-vığ!.. Yuxuda da uşaq səsi eşidib ayılıram, vallah!..» «Demək, sən də evdə olanda o uşaqların qayğısı ilə yaşayırsan, Sədnikin qızı...» Bikə xanımın hirsi soyuyub gülürdü: «Sən dildən pərgarsan, sənə söz çatdırmaq olmur. Düz deyirsən, kişi. Kolxozçular gəlib uşaqlarını aparandan, qayıdıb evə gələndən sonra da o uşaqların xəstəsi, öskürəni yadımdan çıxmır, yarı canım qalır yanlarında».

...Sabah sentyabrın biri idi. Hər il bu gün ərəfəsində, birinci dəfə sinfə girəcək cavan müəllim kimi, böyük həyəcan keçirirdi, bir yerdə rahat dayana bilmirdi; təzə köynəyini, kostyumunu şkafdan çıxarırdı, qalstuk bağlayırdı. Və sabahkı günü səbirsizliklə gözləyirdi, o gecə rahat yata bilmirdi. Yatağının içində çevrikə-çevrikə xəyalən ötən illərə uçurdu, müəllim yoldaşlarını xatırlayırdı, vaxtilə dərs dediyi, indi səsi-sorağı uzaqlardan gələn, adlı-sanlı şagirdlərindən tutmuş, yanında, gözünün qabağında işləyənlərəcən — az qala hamısını yadına salıb fərəhlənirdi. Yuxusu gözündən qaçan Nəzər, bir də görürdü ki, artıq səhərdi. Qalxırdı. Yorğun, yuxusuz yox, gümrah, şən...

O, bu kün də eyni həyəcan içində idi. Bikə xanım hələ işdən — bağçadan gəlməmişdi. İyulda Bakıda — kiçik qızı Güllünün yanında olarkən aldığı təzə, boz rəngli fin kostyumunu şkafdan çıxarıb gətirmişdi, ağ köynəyini öz səliqəsi ilə ütüləmiş, stulun başına keçirmişdi. Xana-xana cib dəsmalı da ayırmışdı.

«Qırx il... Az deyil... Bir igidin ömrüdü. Bir il də işləyəcəyəm, sonra çıxacağam təqaüdə, Nə, təqaüd? — Bu sözdən bədəni üşənmişdi. — Yox, yox, nə təqaüd, ay kişi?! Mən hələ ən azı on il də dərs deyə bilərəm. Deyə bilərəm, əlbəttə, deyə bilərəm!» Belə düşünürdü Nəzər müəllim. Mizin arxasında əyləşmişdi, qabağında qırmızı papaqlı» çaynikdən süzdüyü xoruzquyruğu çay buğlanırdı, müştük də damarındaydı. Qara telefon lal-dinməz dayanıb susurdu. Balaca, qara radioqəbuledicidən konsert verirdilər, Kim isə Nəzərin çox sevdiyi «Sağ ol, əzizim» mahnısını oxuyurdu — səsi də gözəl idi, aydın-aşkar eşidilən sözləri də gözəl idi o mahnının və Nəzər ləzzət

alırdı, Yüz dəfə dinləmişdi, ancaq doymaq bilmirdi, çünki elə bil ürəyinin sözləriydi o mahnıda deyilənlər və bütün ömrü boyu da eşitsəydi, yenə bezməyəcəyinə əmin idi. «Yaxşı sənət əsəri belədi, həyat kimi doyulmazdı! — deyirdi öz-özünə — həyat kimi şirindi!» Gözü stulun başından asdığı təzə kostyumuna, köynəyə, qalstuka sataşdı, bir anlığa özünü o qətəcər libasın içində gördü: yaxşı yaraşırdı, elə bil əyninə biçilmişdi. Fikrində gecə keçdi, səhər açıldı, beynindəmi, ürəyindəmi gizlənmiş o elektron cihazının əmrilə səkkizin yarısında yuxudan oyandı... Taxta körpüdən keçdi, məktəbə yollandı... həyət uşaqla dolu idi, səs-küydən qulaq tutulurdu. İlk zəng çalındı...

O zəng hələ sabah çalınacaqdı, ancaq Nəzər indi, tut ağacının altında otura-otura səhər çalınacaq o zəngin səsini eşidirdi... Ürəyi anlaşılmaz bir titrəyişlə çırpınırdı...

...Həyatın qəribə işdəkləri varmış! Elə indicə bax, Nəzər müəllim ürəyində səhər çalınacaq zəng cingildəyən bu anlarda otuz beş il həvəslə gedib-gəldiyi o doğma «Qırmızı məktəbdə özünün neçə illər direktor kimi əyləşdiyi «direktor» otağında onun taleyinin yeni, əzablı hökmünü oxuyurdu Şakir müəllim.

Şakir Şakirzadə kabinetin arxaya, idman meydançasına baxan pəncərəsinin bir layını açmışdı, qapını da aralı qoymuşdu ki, yel çəksin, çünki hava çox istiydi, elə bürküdü ki, heç nəfəs almaq mümkün deyildi. Kabinet sadəydi, elə bəzək-düzəyi yox idi. Arxasında oturduğu stolun üstündə bir «aşdım-daşdım» çiçəyi əkilmiş dibçək vardı, sağ divara bir xəritə vurulmuşdu. Başının üzərindən isə Leninin qızılı çərçivər salınmış şəkli asılmışdı. Divarların dibində beş-altı stul düzülmüşdü.

Şakir öz yerində əyləşmişdi — əzik-üzük dəsmalıyla tez-tez ətli, qırmızı üzünün, boyun-boğazının tərini silirdi, kabinetdə oturan müəllimlərə — tədris hissə müdiri Məhər müəllimə, partkom Hüsü müəllimə, dil-ədəbiyyat müəllim Zəhnra xanıma baxa-baxa deyirdi:

— Avqust müşavirəsi də belə keçdi getdi. Ancaq sizi bilmirəm, mən çox pərtəm. Üstündən gör neçə gün keçib, mən hələ də özümə gəlməmişəm.

Hüsü müəllim daz başını qaşıya-qaşıya:

— Niyə ki? — dedi. —Nə üçün pərt olubsan?

— Əh, səni də başa düşə bilmirəm, vallah. Guya orda yox idin, görmədin bizim hörmətli Nəzər müəllim nə oyun çıxartdı? Bütün məktəbi biabır elədi. Takcə rayon kollektivi olsaydı, dərd yarıydı.

Bakıdan — nazirlikdən gələn nümayəndənin qabağında elə danışmaq...

— O, təkcə bizim məktəb haqqında danışmırdı ki, Şakir müəllim! — Məhər göy, qıyıq gözlərini açıb yuma-yuma söhbət qarışdı,

— Bəli, — Hüsü dedi, —Nəzər müəllimin çıxışı — Mən göz qoyurdum, — hamının ürəyincə idi, gördün nə qədər əl çaldılar?

— Nə olsun əl çaldılar? Əl çalanlar bizimkilər idi. Bakıdan gələn yoldaşın —Şərifzadənin acığına gəldi, yaman acığına gəldi. O boyda kişi üz gözünü elə qırışdırdı ki.

— Nəzər müəllim çoxumuzun müəllimi olub, təcrübəlidi, görüb-götürmüş adamdı, onun dediklərində böyük həqiqət vardı, Şakir müəllim, — Zakirə xanım əlində tutduğu kiçik yaylığı əzişdirə-əzişdirə sözə müdaxilə elədi. — Bizim təhsil sistemimizdə həqiqətən bəzi mühum qüsurlar var ki, demək lazımdı, yazmaq lazımdı. Şərifzadə yoldaşın üz-gözünü qırışdırmağı o demək deyil ki, heç kəs heç nə deməməlidir!

Şakir Şakirzadə stolunun üstündəki şüşəni barmaqları ilə döyəcləyirdi, deyilənlərə qulaq asırdı.

— Yox, hər halda, Nəzər müəllim gərək elə danışmayaydı. hayana dönsə, bizim məktəbin adı hallanacaq, — deyə Şakir yenə üzünün tərini sildi, — Nəzər qocalıb daha. Bəzən nə danışdığını da bilmir. Onun təqaüdə çıxmaq, dincəlmək vaxtıdı, yoldaşlar. Nəzər müəllim gör nə vaxtın müəllimadi! Nadiri qundaqda görüb, Şah Abbası taxtda. Yorulub daha. Həm də əsəbi olub. Nə özü işləyə bilir, nə də bizi qoyur işləməyə. Hər şeyə irad tutur, hər şeydə nöqsan axtarır. Bu xəstəlik o qədər şiddətlənib onda ki, daha balaca məsələlərlə kifayətlənmir, yuxarılara da əl atır. Belə çıxır ki, o, hamıdan ağıllıdır. Yəni Bakıda, Moskvada — nazirlikdə oturan yoldaşlar onuncan bilmir? Orta məktəbdə bal sisteminin əleyhinə çıxmaq bilirsiz nə deməkdi?..

...Şakir də, indi bu rayonda müəllim, həkim, muhəndis, aqronom, traktorçu, katib,.. işləyən tanınmış, üzdə sayılan bir çoxları kimi, vaxtilə Nəzər müəllimin şagirdi olmuşdu. Nəzər müəllim bu məktəbdə çox uşaqlar oxudub kamal attestatı verərək Bakıya, Gəncəyə, Moskvaya, Leninqrada, Kiyevə yola salmışdı, xeyir-dua vermişdi. Təbii ki, dərs dediyi uşaqların hamısı yaxşı olmamışdı, yadda qalmamışdı. Onların bir çoxunun xasiyyəti, hərəkətləri, yaxşılıqları, pisliklərı illərin dumanına bürünüb hafizəsindən heç vaxt şikayətlənməyən Nəzərin xatirindən çıxmışdı. Şakirdən da heç nə xatırla-

mırdı. Bircə ümumi şəkildə bunu unutmamışdı ki, Şakir o zaman — şagirdlik illərində çox da seçilən, sevilən şagird deyildi; bir az cüvəllağı, bir az dikbaş uşaq olub, vəssalam.

Ancaq sonralar... O, Bakıda universiteti bitirib bura, öz doğma məktəbinə müəllim kimi gələndə, Nəzərlə çiyin-çiyinə işləməyə başlayanda bəzi xırda-para xatirələrini danışmışdı və bu zaman Nəzərin fikri durulmuşdu, çox şey hafizəsində canlanmışdı. Sən demə, Şakir Nəzər müəllimi də, Əli müəllimi də, başqalarını da incidibmiş, əziyyət veribmiş. İpə-sapa yatmayan uşaq imiş.

Öz keçmiş şagirdini, uzun illər keçəndən sonra, öz yanında cavan, yaraşıqlı bir muəllim kimi görən Nəzər, təbii ki, çox sevinmişdi, gəlişi və müəllim olması münasibətilə onu bağrına basıb üzündən öpmüşdü: «Darıxma, hər şey yaxşı olacaq, əl-ələ verib işləyəcəyik!» — demişdi. Keçmiş günlərin xatirələri vərəqlənən zaman Şakir özü gülə-gülə danışmışdı ki, doqquzuncu sinifdə oxuyanda, pambıq yığımı zamanı, axşam qapanın dibində kisələri çəkdirəndə bir dəfə Nəzər müəllim şübhələnib; çünki Şakirin kisəsi çox ağır gəlib. Nəzər briqadirin, uşaqların, kolxozçuların yanında Şakirə üz tutub: Ay bala, burada əlli kilo pambıq olmaz. Vallah olmaz, billah olmaz!» Şakir deyib: «Müəllim, qapana da inanmırsız?» Onda Nəzər müəllim tənbəllik eləməyib, əlini kisənin içinə salıb və üç-dörd dənə kal qarpız çıxarıb. Hamını gülmək tutub. «Bu nədi, a bala?» — Nəzər soruşub. «Doğrudan da bu nədi? Bunu kim qoyub bura?» — Şakir üzə dirənib və uşaqların üstünə yıxıb. Nəzər pərt olub və Şakirə deyib: «Ə, bu sənin ağlına gələr ancaq. Onun-bunun günahına batma. Ta yekə oğlansan. Bəs sən nə vaxt adam olacaqsan, a bala?»

Bunu Şakir Bakıdan təzə gələndə danışmışdı. Elə-belə, xatirə kimi, gülmək üçün. Ancaq bir neçə ildən sonra, əmisi Murad Muradzadəni maarif şöbəsinə müdir təyin eləyəndən çox keçməmiş, Nəzər müəllimi məktəb direktorluğundan çıxarıb, yerinə Şakiri qoydular. Nəzər buna qəti etiraz eləmədi. Murad deyən kimi ərizəsini yazdı və vəzifəsini böyük sevinc içində şagirdinə təhvil verdi: «Nə fərqi var. Mən oldum, o oldu, təki işimiz yaxşı getsin. O da bizim deyilmi?» — deyə düşündü Nəzər müəllim.

Onda, elə o günlərin birində Şakir öz evlərində direktor təyin edilməyi münasibətilə balaca bir məclis təşkil eləmişdi, təzə vəzifəsini «yumaq» istəyirdi. Kənar adam yox idi, müəllim yoldaşları idi. Aydındı ki, Nəzəri də çağırmışdı, Yeyib-içmişdilər, deyib-gülmüşdülər. Və hardansa bu qarpız əhvalatı yenə yada düşmüşdü: Nəzər

müəllim gülə-gülə həmin əhvalatı danışmışdı, əlbəttə, özünün o vaxt dediyi axırıncı sözləri — «Bəs sən nə vaxt adam olacaqsan?» — sözlərini dilinə gətirməmişdi. Məclisdəkilər o ki var uğunmuşdular. Bu zaman gözlənilməz. bir hadisə olmuşdu. Şakir içdiyindənmi, ya nədənsə, bu adi sözlərə başqa məna verərək, o qədər adamın içində yarıciddi-yarızarafat üzünü Nəzər müəllimə tutub demişdi:

— Deyirəm, vaxt-zaman gör necə dolanıb keçir ey, Nəzər müəllim?! Onda o qarpızı kisəmdən çıxaranda demişdiniz: «Bəs sən nə vaxt adam olassan, a bala?» Görürsüz də, adam da olmuşam, müəllim də olmuşam, indi də direktor oldum, Nəzər müəllim».

Gözlənilmədən, qəfil deyilmiş bu sözlər Nəzər müəllimi bərk tutmuşdu, kişi pörtmüşdü, günahsız uşaq kimi oturanların üzünə məsum-məsum baxaraq əlindəki çəngəli yerə qoymuş və demişdi:

— O, nə yaman kişiymişsən, Şakir?! Mən heç belə təsəvvür eləməzdim. Düz deyirsən, bala, adam da oldun, müəllim də oldun, direktor da oldun. Amma hayıf, ziyalı ola bilməyibsən. Vallah, ola bilməyibsən, billah, ola bilməyibsən, Şakir! Ziyalılıq bilirsən nədi? Ziyalılıq bütün sənətlərin, məxsusən, müəllimliyin, alimliyin başının tacıdı, bəzəyidi, bala! Əgər ziyalı deyilsənsə, demək heç fərli müəllim də deyilsən, ziyalı deyilsənsə, demək, heç fərli alim də deyilsən. Bunu yaxşı yadında saxla. Bütün sənətlərin bəzəyi — ziyalılıqdı, mədəniyyətdi, mərifətdi.

Onda, o qonaqlıq məclisində o mərifətsiz sözləri deyən anda Şakir Nəzərin gözündə «ölmüşdü» və sonralar ha çalışmışdısa, əlləşmişdisə, «dirilə» bilməmişdi. Şakir unutmuşdu, başa düşməmişdi ki, müəllim ürəyi şüşədi, onu sındırmaq olmaz, ona ləkə vurmaq olmaz. Bu, ancaq nadanların əlindən gələ bilər və əgər sən müəlliminin ürəyini qıra bilirsənsə, onda hər şeyin üstündən asanlıqla qələm çəkə bilərsən. Bunu isə heç kəs sənə bağışlaya bilməz.

Evdə o gecə ən incə və bəlkə də sözlə izah edilməz ən zərif hissi təhqir olunmuş Nəzər müəllim onun məhəbbətini ürəyindən həmişəlik silib atmışdı. Sonralar da bəzi qəlp işlər eləmişdi Şakir. Deyilənə görə, kiməsə attestat satmışdı, kolxoz sədrinin — Mikayılın oğluna qızıl medal düzəltmişdi, kiminsə qiymətini artırmışdı. Bunlar isə Nəzərin qəlbini qanatmışdı, heysiyyətinə — müəllim heysiyyətnnə toxunmuşdu, Və bir ağsaqqal kimi, bu və gözünə dəyən başqa nöqsanlarını — mənəmliyini, özbaşınalığını və tamah-karlığını partiya iclasında, pedsovetdə qorxmadan, çəkinmədən düz üzünə demişdi... «Bu məktəb müqəddəsdi, bu məktəbdə Əli müəllimin ruhu

yaşayır. Heç kəsin haqqı yoxdu ki, Əli Nurlu kimi bir müəllimin adını daşıyan bu məktəbin təmizliyini, müqəddəsliyini camaatın gözündə ləkələsin, ayaqlar altına atıb tapdalasın!» — söyləmişdi, Nəzər – müəllimi yaxşı tanıyanlar yaxşı bilirdilər ki, şəxsən onun özünü təhqir etsən, bəlkə də dözər, keçər, bağışlardı, ancaq məktəbi, müəllimi alçaldana, bu iki müqəddəs şeyə, həqarətlə baxana güzəşt yox idi — əgər tək-tük də belə adamlara ürcah olsaydı, onlar Nəzərin ən qatı düşmənləriydi, Onları görəndə kişinin gözü ağrıyırdı, insan yerinə qoymurdu, xeyrinə-şərinə getmirdi. Və Nəzərin bu xüsusiyyətini təkcə kənddə yox, bütün rayonda hamı bilirdi. Ondan xoşu gələnlər çox idi, amma zəhləsi gedənlər də var idi. İş, münasnbətlər elə gətirmişdi ki, şagirdi olmasına baxmayaraq, Şakir, də sonuncular cərgəsinə keçmişdi çünki unutmuşdu Nəzərin öz müəllimi olduğunu, ağsaqqallığını. Nəzərin kənddəki müəllim kollektivi arasındakı, ümumən məktəbdəki hörməti, nüfuzu Şakirin üstünə çox qatı bir kölgə salırdı, neçə ildi direktor işləməyinə bax-mayaraq, o, bu kölgənin altından çıxa bilmirdi, onun, nüfuzunu qırıb parçalaya bilmirdi. Bu isə hikkəli, xudpəsənd adam olan Şakirə yamanca əzab verirdi, buna görə onu göyrməyə gözü yox idi. Rəs-miyyət və mədəniyyət xatirinə salam verib, salam alırdısa da, qəlbinin dərinliyində Nəzərə sonsuz bir nifrət duyurdu. Hər gün, hər saat məktəbdə olduğu o qədər vaxt ərzində neçə dəfə üz-üzə gəlir-dilər, bir-birlərinin görürdülər və bir-birindən zəhlələri, getdiyini bilə-bilə dözürdülər; Şakir bunu özünə böyük dərd eləmişdi.

Ancaq Nəzərin gəzişindən; duruşundan, söhbətlərindən belə aydın olurdu ki, heç nə vecinə deyil. Dərsini deyirdi, işlərini görürdü, axşam da sakit və rahat vicdanla evinə qayıdırdı. Şakir yox idi elə bil onun üçün. Və hamı — müəllim yoldaşları Nəzərin bu təmkininə, səbrinə təəccüb etməyə bilmirdilər. Şakir ha çalışırdı, vuruşurdu, ona bir irad tutmaq istəyirdi, ancaq bacarmırdı, Nəzər buna imkan vermirdi. Bu, məsələnin zahiriydi. Əslində Nəzərin ürəyini acı bir təəssüf yandırıb-yaxırdı. «Niyə Şakir belədi?» Təkcə bu sualın cavabını tapmaqda aciz idi Nəzər müəllim.

— Mən nə deyirəm, o kişi tərsinə eləyir. Bilirəm məndəi zəhləsi gedir, ona görə mənim sözlərimi həzm eləyə bilmir. Ancaq daha dözmək mümkün deyil. Belə işləmək olmaz. Bu, bütün mək-təbə, bütövlükdə təlim-tərbiyə işimizə çox mane olur, mənfi təsir göstərir. Elə o gün, müşavirə günü Murad müəllimin də, Şərifzadə yoldaşın da fikri belə oldu ki, Nəzəri göndərək pensiyaya. Bu, onun

özü üçün də yaxşı olar, bizim üçün də.

Şakir susub müəllimlərə baxdı, kimsənin etiraz eləmədiyini görüb, bir az cəsarətləndi.—Bu məsələni onun nəzərinə çatdırmaq lazımdı. Mən desəm, əsəbiləşəcək, min yerə yozacaq. Ancaq sizlərdən biriniz desəniz, razı olar. Bu, dövlətin qanunudur, onu pozmağa bizim haqqımız yoxdu, yoldaşlar! Altmışa çatdın, get dincəl! O isə altmışı çoxdan keçib.

Hamı susdu. Bir müddət kimsə danışmadı. Baxışlar bir-birinin üzündə, gözündə gəzdi.

Birinci partkom dilləndi:

— Mən bu qərara qol qoya bilmərəm, Şakir müəllim!

— Niyə, Hüsü?

— Ona görə ki, Nəzər müəllim hələ o qədər də qoca deyil, bu bir! Nəzər müəllim tək bizim məktəbin yox, bütün rayonumuzun ən məşhur, ən təcrübəli müəllimidi, bizim fəxrimizdi, ondan sonra mən bu məktəbi heç cür təsəvvür eləyə bilmirəm, bu da iki!

Məhər müəllim gözlərini qırpa-qırpa:

— Mən heç razı deyiləm, Şakir müəllim!—söylədi.

Zakirə xanım birdən ayağa durdu, oturanların nəzəri ona dikiləndə gördülər ki, onun zəif olduğuna görə həmişə eynək taxdığı gözlərindən yaş axır. Şakir bunu birinci tutdu:

— Boy, ay qız, sən niyə ağlayırsan? Zakirə xanım hönkür-tüsünü güclə boğub:

— Sənin heç vicdanın yoxmuş, Şakir,—dedi və Şakirin nə söyləyəcəyini gözləmədən, dikdaban ayaqqabılarını taxta döşəmədə taqqıldada-taqqıldada kabinetdən çıxdı. Hamının üstünə elə bil su çiləndi. Zakirə xanımın ayaq səsləri eşidilməz olanda, Məhər də ayağa qalxdı, titrək səslə:

— Bu, cinayətdi, Şakir, — dedi. — Unutma ki, sən də həmişə belə cavan qalmayacaqsan: bu qocalıq deyilən şey bir gün sənin də qapını döyəcəkdir. Sən də qocalacaqsan. İndi sən nə elədiyini hələ başa düşmürsən. Bunu o zaman başa düşəcəksən ki, bir zaman bu sözləri bir ürəksiz də sənə deyəcək. Sən şəxsi münasnbətləri həmişə üstün tutursan. Bu isə sənə başucalığı gətirməz, Şakir. Mən bircə onu bilirəm ki, Nəzəri məktəbdən uzaqlaşdırsaq, o, çox yaşamayacaq. Sadəcə, bağrı çatlayıb dünyadan gedəcək,—deyib kabineti tərk eləyəndə Şakir də ayağa durdu:

— Adə, bunlara nə olub belə?—deyə kürəyini divara söykəmiş Hüsüyə sarı döndükdə o, çiyinlərini çəkdi. Şakir dedi:

— Bə bunlar nə istəyir? İstəyir ki, mənim bağrım çatlasın? Qorxmasınlar. Nəzərin canı bərkdi, səni-məni yarıyolda qoyacaq. Sən bir bu Məhərə bax, Zakirəyə bax. Nəzəri çox istəyən olublar. Nə olsun ki, Nəzər mənim müəllimim olub? Dərs deyib, pulunu da alıb da. Yəni deyirsiz çıxardaq bu kişinin pulunu qaytaraq özünə? Ondan ötrü bu boyda dövlətin qanunlarını pozum yəni? Deməzlər ki, ay, yoldaş Şakirzadə, bəs biz səni bura nəyə qoymuşuq? Deyərlər, hələ bir partbiletimi də alarlar əlimdən. Mən bu boyda risq eləyə bilmərəm, yoldaşlar. Nəzər müəllim danışanda ağzına çullu dovşan sığışmır—qanun belə deyir, ustav belə deyir!.. Cavan kadrlar belə gəldi, elə getdi. Cavan kadrların qayğısına elə çox qalırsansa, odur ha, neçə cavan müəllim institutu bitirəndən sonra boynun büküb dərs saatı gözləyir, boş yer gözləyir! Məktəbdə bir müəllim öləndə, dərsi az olanların bir gözü ağlayırsa, bir gözü də gülür. Nə var, nə var, yer boşalıb, saat çoxalıb!.. Əgər sən yaxşı kommunistsənsə, yaxşı insansansa, çəkil də bu meydandan, qoy onlar da işləsinlər, qabiliyyətlərini göstərsinlər. Nəhayət, ac qalmasınlar. Bəlkə onların arasından səndən də yaxşı müəllimlər çıxacaq, hə? Hardan bilirsən ki, çıxmayacaq?! Düz demirəm; yoldaşlar!

Böyründəki stulda oturub, qıçını qıçının üstünə aşırıb, Şakirin düz gözlərinin içinə baxan Hüsü müəllimi gülmək tutdu; o elə bərkdən güldü ki, Şakir səsini xırp kəsdi:

— Niyə gülürsən, ay Hüsü? Düz demirəm? Hüsü uğunmağını güclə saxlayıb:

— Düz deməyinə düz deyirsən ey, Şakir, ancaq elə bil iclasda danışırsan. Biz burda ikimiz qalmışıq ey, —dedi.— Bir də bunları mənə niyə deyirsən ki? Guya mən sənin ürəyindəkiləri bilmirəm? Sən Nəzəri buradan kürümək istəyirsən, bunun üçün də qanunu yaxşı bayraq eləmisən əlində!..

Şakir elə bil yuxudan ayılıb otağa göz gəzdirdi və yalnız indi xatırladı ki, Zakirə xanım da, Məhər müəllim də bayaq nümayişkaranə çıxıb getmişdi. O da Hüsüyə qoşulub güldü:

— Doğrudan ha! Elə ikimizik ki!..—susdu. Birdən yadına nə düşdüsə, Hüsüyə üz tutdu:

— Bura bax; sən də qəribə adamsan ha! Baş açа bilmirəm nə məzhəbə qulluq eləyirsən! Az qalmışdın deyəsən ki, Nəzər müəllim Makarenkodaj da böyük pedaqoqdu.

Hüsü yenə bic-bic güldü:

— Sənin qəti siyasətin-zadın yoxdu, Şakir! Mən özüm qəsdən

belə deyirdim ki, görək Məhər, Zakirə nə deyəcək. Yoxlamaq, ağızlarını aramaq istəyirdim onların. Gördün, o saat ürəklərindəkini açıb dedilər!

— Hə!—deyə Şakir ağzını geniş açıb, başını divara söykədi:— Mən də çaşıb qalmışam ki, ə, bu niyə belə eləyir! Sən demə, qaqaşım su altdan saman yeridirmiş!.. Vay səni, Hüsü!

— Bəs nə bilmişdin?! Səhər Nəzərin ərizəsi sənin stolunun üstündədi!

— Elə şey olmaz, Hüsü! Necə yəni stolumun üstündədi?

— Baxarsan... Mən nahaq yerə o iki nəfəri bura çağırtdırmadım. İndi ya Məhər, ya Zakirə bu söhbəti bitdə-bitdə Nəzərin ovcuna qoyur. İnanmırsan, dur gedək yoxlayaq!

— Yox, əşşi, lazım deyil.

— Çünki mən bilirəm ki, Nəzər Məhərin də, Zakirənin də canı-ciyəridi, Şakir!

— Sən nə ağıllı adamsan, ay Hüsü!

ÜÇÜNCÜ FƏSİL

Hava qaralmışdı. Hardansa uçub gəlmiş sərçələr budaqların üstünə qonub yaşıl yarpaqlar arasında civildəşirdi, toyuq-cücə tara qalxırdı yavaş-yavaş.

Nəzər tut ağacının budağından asdığı elektrik lampasını burub yandırmışdı, gur işıq altında kitab oxuyurdu. Birdən bir qanadı yanıb ütülmüş pərvanə vərəqin üstünə düşərək çırpınıb-çırpınıb öldü. Nəzər baxışlarını qaldırıb yuxarı baxdı: lampanın böyür-başında saysız-hesabsız pərvanə-kəpənək uçuşurdu, gah çırağa, gah bir-birinə dəyib, təzədən hərlənib-fırlanırdı.

Baş barmağı ilə ölmüş pərvanəyə toxundu: «İşıq aşiqiydi yazıq. İnsan həqiqət aşiqi olan kimi, o da işıq aşiqiydi.

Onu işıq da yandırdı. Amma ora bax, o birilər görürlər ki, yoldaşları odda yanıb torpağa düşdü, yenə işığın başına dolanmaqdan, özlərini oda yaxmaqdan çəkinmirlər. İnsan da belədi. İnsan gördü ki, Mənsur Həllacın, Nəsiminin həqiqət dediklərinə görə dərisini soydular, amma qorxmadı insan həqiqəti deməkdən. İndi də qorxmur, sabah da qorxmayacaq... Çünki insan həqiqət pərvanəsidi, qardaş!»— deyə düşünə-düşünə Nəzər qəribə bir ehtiram hissilə,—bunun nə demək olduğunu o özü də bəlkə izah edə bilməzdi — yanmış

pərvanəni ehtiyatla götürüb uzağa — arxın o tayındakı kol-kosun içinə atdı, elə bil onun ayaqlar altında qalacağından ehtiyat edirdi. Nəzərin fikrincə, o fədakar pərvanə tapdanmağa layiq deyildi.

Düşüncələrə elə dalmışdı ki, Zakirə xanımın haçan darvazanı açıb həyətə girdiyindən xəbəri olmamışdı. Zakirə xanım məktəb binasından çıxan kimi əlindəki dəsmalla gözlərinin yaşını silib, təzədən eynəyini taxaraq kəndin o başındakı evlərinə getmək istəmişdi, ancaq indicə Şakirin kabinetində Nəzər müəllim barədə olan xoşagəlməz, qanqaraldan söhbətin təsiri altında bir də onda ayılmışdı ki, sarmaşıqlı qapının ağzındadı. Məktəbdən bura — çoxdan ayaq basmadığı bu həyətə qədər olan yolu necə gəldiyini xatıplayırdı. Qulaqlarında Şakirin xırıltılı, kobud səsi çingildəyirdi: «Getməlidi!» Və bu sözə heç cür inanmaq istəmirdi. Bunu ən böyük qanunsuzluq, ən böyük qəddarlıq hesab eləyirdi. Zakirə xanımın aləmində, Nəzər müəllim bu məktəbin qızıl sütunu idi, yaraşığı idi. Bu məktəbi, Əln Nurlu öləndən sonra, ancaq Nəzərin adı ilə bütün respublikada tanıyırdılar.

«İndi birdən-birə Nəzər getməlidi? Nə var-nə var müşavirədə çıxış eləyib, məktəbin nöqsanlarından, ümumən təhsil sisteminin bəzi kəsirlərindən danışıb, maarif şöbəsinin müdiri Murad Muradza-dəni tənqid eləyib? Nə var-nə var, o danışanda Bakıdan —maarif nazirliyindən gəlmiş nümayəndə — Şərifzadə yoldaşa dodağını büzüb, qaşlarını çatıb? Bəlkə bu zaman Şərifzadə yoldaşın canı ağrıyırmış, ona görə dodağını büzüb, qaşlarını çatıbmış? Olmazmı?! Yox. Bunu Nəzər müəllimə demək lazımdır. Qoy bilsin, bir tədbir görsün. Nəzər müəllim uşaq-muşaq deyil ki, onunla Şakir istədiyi kimi rəftar eləsin. Şakir əslində öz meydanını təmizləmək, sərbəstliyə çıxmaq istəyir. Çünki ondan xoşu gəlmir Şakir müəllimin!..»

Zakirə xanım pərişan fikirlər əlində çırpına-çırpına bura— həyətə gələnəcən məsələnin ancaq bu tərəfini düşünmüşdü. Səssiz-səmirsiz onun mizinə yaxınlaşıb kitab oxuduğunu, səhər dərsə geyəcəyi paltarlarını səliqə ilə stulun başından asdığını (onun bu adətinə bələd idi) görəndə, gəldiyinə peşiman oldu. Nəzər müəllimin indidən ürəyinə sığışmayan sabahkı sevincinin, fərəhinin üstünə necə su çiləmək olardı, Şakirin o qara fikrini ona necə çatdırmaq olardı?.. Buna Zakirənin dili necə dönərdi? Yox, yox deyə bilməzdi. Bu, ən azı günah idi.

Zakirə xanım bacardığı qədər həyəcanını boğmağa, narahatlığını gizlətməyə çalışaraq şən bir əhvali-ruhiyyə ilə özünə yad və

kədərli görünən səslə:

— Axşamınız xeyir, Nəzər müəllim,—dedi. — Kişi səksəndi. Başını qaldırıb Zakirə xanımı qabağında görcək hədsiz sevinc içində:

— Ah, gör nə yaxşı adam gəlib bizə, aman allah,—söylədi.— Ay aqibətin xeyir, qızım. Xoş gəlib, səfa gətirmisən. Gəl, gəl, əyləş. Nə yaxşı oldu gəldin, ay qızım. Lap darıxmışdım.

Zakirə xanım Nəzər müəllimii qənşərində oturdu:

— Elə mən də sizin üçün darıxmışdım, müəllim. Dedim bir baş çəkim, görüm neyləyirsiniz?!

— Eh, neyləyəcəyəm, ay qızım. Oturmuşam, kitab oxuyuram. Məktəbdən, uşaqlardan, müəllim yoldaşlardan ötrü yaman darıxmışam, Zakirə. Sabahı böyük intizarla gözləyirəm. Sabah sentyabrın biridi, qızım.

— Hə, elədi,—Zakirə xanımın ürəyi sancdı; üngülcə köks ötürdü.

Nəzər müəllim iri, qonur gözlərini xəyalpərvərliklə qıyıb elə bil keçmiş günlərinə qayıtdı bir anlığa. Və dumanlı baxışlarını Zakirənin üzündə saxladı:

— Sentylbrın biri!.. Bilirsən, qızım, bu gün, mənə doğulduğum gün, ölümdən qurtardığım gün kimi əzizdir. Siz cavanları bilmirəm, amma mənim üçün bu gün bayram kimidi, əziz bayram! Bu gün hesablamışam, sabah düz qırx ildi ki, müəllim işləyirəm. Sağlıq olsa, bax elə bu həyətdə bu yaxınlarda sizi başıma yığıb müəllimliyimin qırx illiyini qeyd edəcəyəm, elə-belə, xudmani.

Bu sözləri eşidəndə Zakirə xanımın ürəyinin başı göynədi. Bədəninə soyuq tər gəldi, baxışlarını Nəzərin sevinc aşıb-daşan gözlərindən yayındırdı. Barmaqlarının ucunda müşəmbənin üstünə düşmüş sarı yarpağı götürüb kənara ataraq:

— İnşallah!—dedi güclə. Səsi titrədi. Sonra Zakirə xanım daha davam gətirə bilməyəcəyini, uşaq kimi kövrəlib ağlayacağını hiss eləyib, ürək sıxan bu söhbətin səmtini dəyişmək üçün:

— Güldanədən nə xəbər var, ay Nəzər müəllim? —dedi. — Haçandı görmürəm. Axı, o mənim ən yaxın rəfiqəm olub. On il bir sinifdə oxumuşuq. Siz bizə dərs deyirdiniz. Yadınızdan çıxmayıb ki?

— Yox, yox, nə danışırsan, Zakirə? Güldanə yaxşıdır.

— Hayıf, yollarımız ayrıldı. O, kitabxanaçı oldu.

— Hə, — Nəzər müəllim köks ötürdü. — Qəribədir, mən çox arzu eləmişdim ki, uşaqlarımdan heç olmasa birini özüm kimi müəllim görüm. Oxusun, gəlsin, yanımda müəllim işləsin. Mən də

baxıb fərəhlənim. Amma qismət olmadı... Amma kitabxanaçı da elə bir növ müəllimdi, qızım. Nur paylayandı o da, sənin kimi.

— Canınız sağ olsun, müəllim. Bunu dərd eləməyin özünüzçün.

— Gərək belə eləməyəydilər, qızım, mənim uşaqlarım. Hayana dönsə, mən Nəzər müəllim idim. Gərək onlar buna qiymət qoyaydılar. Heç olmasa biri müəllim olaydı, onda mən dünyadan rahat gedərdim.

— Sənət—taledir, müəllim. Siz belə deyirdiz həmişə.

— İndi təsəllim bircə budur ki, mənim sənin kimi şagirdlərim var, bir gün bu dünyadan köçəndə məni əvəz eləyənlər olacaq. Bilirsən, bilmirəm Güldanə ilə yoldaşlıq elədiyindəndi, ya nədəndi, mən səni öz qızım kimi istəmişəm həmişə. Səninlə şagird vaxtı da, müəllim vaxtında da fəxr eləmişəm, qızım. Səni o məktəbdə əlində jurnal siniflərə girən görəndə elə bilirəm Güldanə balamsan, Güllü balamsan, Zakirə.

— Sağ olun, Nəzər müəllim. Mənim əziz müəllimim olubsunuz. Müəllim isə heç vaxt unudulmasın gərək. Mən sizi həmişə ata kimi sevmişəm, Nəzər müəllim.

Bayaqdan bəri susan qara telefon çingildəyib haray-həşir qopartdı. Zakirə təəccüb elədi ki, onun səsi niyə belə bərk çıxır, sonra səbəbini tapdı: çöldə həyətdə qoyulduğuna görə özü qəsdən bu cür qurub ki, özləri evdə, bir az kənarda olanda da səsini eşidə bilsinlər. Ancaq indi ilk anda Zakirəyə elə gəldi ki, bu zəng adi zəng deyil, nəsə yanğına, bədbəxtliyə bənzər bir hadisəni xəbər verəcəkdir.

Nəzər tələsmədən, arxayın-arxayın dəstəyi götürdü və:

— Eşidirəm, — dedi, — hə, mənəm. Sağ ol. Sən necəsən? Yaxşı ol. Hə. Nə? Nə olub ki? Yox, heç nədən xəbərim yoxdur! Mənə deməyib. Aha,— sükut — Aha... sonra? Ay bala, niyə kəkələyirsən. Açıq danışsana! Hə... Elə belə də dedi?.. — sükut — ha. nə olar, canın sağ olsun... Xəbər verdiyin üçün çox sağ ol!

Nəzər dəstəyi yerinə qoydu və ovuclarını çənəsinə dayaq verib, sual dolu baxışlarla Zakirə xanıma baxmağa başladı. Zakirə xanım hiss edirdi ki, nə isə pis bir xəbər verdilər indicə Nəzər müəllimə. Çünki kişinin bayaqdan bəri sifətində gəzib dolaşan o fərəhdən, o sevincdən bircə anın içində əsər-əlamət qalmadı. Kişinin iri, sümüklu vücudu elə bil balacalaşdı, şax kürəyi donqarlaşdı. Bir anlığa gözləri yol çəkdi. Bu da aydın hiss olunurdu ki, o, Zakirə xanımdan

nəsə soruşmaq istəyirdi, ancaq ürək eləmirdi. Deyəsən danışmaq həvəsi də qalmamışdı. Zakirə xanım onun halındakı bu aşkar dəyişikliyi görüb ondan qabağa düşdü:

— Nə olub, Nəzər müəllim?... Yoxsa bir hadisə-zad baş verib?

— Yox, yox...—Tələsik cavab verdi.—Nə hadisə baş verə bilər ki?..

— Bilirsiniz.. telefonla danışandan sonra... birtəhər olduz ey, Nəzər müəllim...

— Yox, ürəyim sancdı nə isə...

Zakirə xanım ürəyinə daman şübhəni yoxlamaq istədi:

— Zəng eləyən kim idi ki?..

Nəzər müəllim diqqətlə Zakirənin közlərinin içinə baxdı, mənalı-mənalı qımışıb:

— Məhər idi,—söyladi. Bu sözü eşidən kimi Zakirənin qəşəng gözləri girdə eynək şüşələrinin altında böyüyüb, elə az qala o şüşələr boyda oldu. Gümanı düz çıxmışdı. Məhər Şakirin fikrini, qərarını Nəzərə telefonla demişdi. Zakirə çıxılmaz vəziyyətdə qaldı. Günahkar-günahkar gözlərini döyməyə başladı. Görəsən Nəzər müəllim onu başa düşəcəkdimi? İzah eləmək istəyirdi ki, Nəzər özü dilləndi:

— Halal olsun sənə, Zakirə.

Zakirə xanıma əvvəl elə gəldi ki, o bu sözləri kinayə ilə deyir. Tələsik, bəraət üçün söylədi:

— Vallah, mən...

— Yox; yox, qızım, —Nəzər ona danışmaq imkanı vermədi.— Mən səni başa düşürəm.

— Düzü, gəlmişdim sizə deyim. Ancaq gördüm siz sabahkı günü elə səbirsizliklə gözləyirsiz, dilim var gətirmədi. Heç deyə bilməzdim də. Siz qırx illiyiniz barədə danışanda az qaldım lap ağlayam, inanın, Nəzər müəllim. Mənim ürəyim necə gələrdi ki, sizin o boyda sevincinizin üstünə su səpim? Şakirin ciyəri yansın. Elə oradaca, gözünün içinə dedim ki, sənin heç vicdanın yoxdur, Şakir!

— Sən mənim şagirdimsən, Zakirə.

— Axı, o da sizin şagirdiniz olub!

— Beş barmağın beşi də bir olmur, qızım. Deyir, köpək qaya kölgəsində yatar, elə bilər öz kölgəsidir. Murada arxayındı o! Bir də mən elə o vaxt—kisəyə pambıq əvəzinə kal qarpız doldurub qapanın üstünə qoyaraq bizə sırımaq istəyəndə onun xasnyyətnaməsini düz yazmışmışam, qızım. Sən bu əhvalatı bilirsən. İndi ona elə gəlir ki, artıq adam olub, direktor olub, hər şeyə çatıb! Yox, belə deyil,

Zakirə. Yəqin Şakir unudur ki, dünyada insan olmaq əsas şərtdi. Özü də elə-belə, adicə insan yox, kamil insan! Kamillik insanlığın, insan ömrünün zirvəsidi. O zirvəyə, o kamillik zirvəsinə hər adam, hər müəllim, hər direktor gedib çıxa bilmir! Mən onu qınamıram. Quyuya su tökməklə sulu olmaz, qızım. Deyirsən, o da sənin şagirdin olub. Düzdü, olub, elədi. Mənim xoşbəxtliyim ondadır ki, onun kimiləri tək-təkdir, ancaq sənin kimi şagirdlərim rayonumuzun az qala hər məktəbində var. Yaxşı, müfəssəl danış görək söhbət necə olub?

Zakirə xanım o dörd nəfərlik xudmani iclas barədə yerli-yataqlı söz açdı. Şakirin dediklərini təkrar elədi, Hüsü müəllimin birinci etiraz səsini ucaltdığını, Məhərin qocalıq haqqında söylədiklərini ətraflı nağılladı.

— Sağ olsunlar. Hüsü mənim xətrimi həmişə çox istəyib. Məhər də, sən də şagirdim olubsuz. Sağ olun. — Sonra Nəzər heç nə demədi. Onun əsəbiləşmədiyni, özündən çıxmadığını, həddindən artıq təmkin və soyuqqanlılıq göstərdiyini görüncə, ərk eləyib atasının üstünə çımxıran bir övlad kimi, təbdən çıxdı:

— Mən belə görürəm ki, siz əlinizi əlinizin üstünə qoyub oturacaqsınız! Şakir də bildiyini eləyəcək?

— Bəs neyləyim, qızım? Qanun qanundur, qanunu müzakirə olunmaq üçün vermirlər, Zakirə, icra olunmaq üçün verirlər,

— Yox, Nəzər müəllim. Hər qanunda bir istisna da olur, məncə. Bax, Bakıda — nazirliyimizdə sizi yaxşı tanıyırlar, onlar kömək edə bilərlər sizə. Təzə katibimiz — Süleyman müəllim də sizin şagirdiniz olub eşitdiyimə görə. Gedin yanına, deyin, bir tədbir görsün.

— Belə kiçik şeylər üçün nə naziri, nə birinci katibi narahat eləməyimə dəyməz, Zakirə. İnsan gərək öz ləyaqətini qorusun. Ləyaqət, insan ləyaqəti bilirsən nədi? Tacdı o, insanın tacıdı, yerdə qalan şeylər —mərdlik, insanlıq, gözəllik, şəxsiyyət onun daş-qaşıdı, bər-bəzəyidi, qızım. Ləyaqət olmasa, o qiymətli daş-qaş, bər-bəzək həyat yollarında bir-bir düşüb itəcək, inan! İnsan işdən, vəzifədən, hətta dünyadan gedəndə də ləyaqətlə getməyi bacarmalıdı. Yox, belə kiçik şey üçün mən heç kəsin yanına gedən deyiləm, qızım!

— Sizcə, Şakirin sizi pensiyaya göndərməyi kiçik, şeydi?

— Hə, qızım.

— Siz nə danışırsız, Nəzər müəllim?

— Həyatın əzəli-əbədi qanunları var, qızım. Doğulan —

böyüməlidi, gələn — getməlidi, cavan — qocalmalıdı, Elə həqiqətlər var ki, onlardan qaçmaq heç cür mümkün deyil; həyatın hökmü iti qılınc kimidir: o qılınc heç zaman vaxtsız-vədəsiz qalxmır, qalxdımı — kəsib doğrayacaq. Onda qohumbazlıq, üzgörənlik, yaltaqlıq, «mən ölüm», «sən öləsən» fəlsəfəsi yoxdur, Zakirə. Şakir düz deyir, yorulmuşam mən, qocalmışam daha...

Nəzər bu sözləri astadan deyirdi. Səsindəki hüzn o qədər güclü idi ki, duymamaq mümkün deyildi. Hüzndən başqa o səsdə qəribə, sirayətedici bir inciklik, küskünlük də vardı. Bunu hiss elədiyi üçün idi ki, Zakirənin eynək şüşələrn arxasından pərişan-pərişan baxan gözəl gözləri qeyri-ixtiyari nəmləndi, həssas, tükü tükdən seçməyə qadir olan və buna görə də həmişə tələtümlü əzablar içərisində yaşamış Nəzər, Zakirə xanımın — onu həqitətən müəllim, ağsaqqal kimi çox sevən bu kövrək qadının əsmər yanaqları aşağı bir an sonra axacaq o göz yaşlarını görməmək üçün baxışlarını qaçırtdı.

DÖRDÜNCÜ FƏSİL

Sən demə, Nəzər özünü Zakirənin yanında sındırmaq istəmirmiş. Onun özündən başqa yəqin heç kəs heç vaxt bilməzdi və bilməyəcəkdi də ki, bu təqaüd əhvalatını eşidəndə nə hala düşmüşdü — elə bil qəlbində nə isə çox qiymətli və əziz bir şey qəfildən əsən tufanınmı, küləyinmi təsiri ilə daşa-qayaya dəyib çilik-çilik olmuşdu; sevinc içində göylərdə uçan o, birdən-birə qanadı qırılmış quş kimi, başı üstə yerə gəlmişdi. Qəribə idi ki, torpaq da ayağı altından qaçırdı elə bil.

Qənşərində oturmuş Zakirə sanki güc imiş, qüdrət imiş, iradə imiş onun vücudunda. O gedən kimi kişi sanki sustaldı, taqətsizləşdi. Uşaq kimi ağlamaq istədi, ancaq saxladı özünü. Ayağa qalxıb sərxoş adamsayağı səndələyə-səndələyə həyəti bir neçə dəfə o baş-bu başa ölçdü, elə bil nəyi isə itirmişdi, ya nəyisə hara qoyduğunu unutmuşdu — otaqların üçünə də baş çəkdi. Ən çox öz otağında — yazı masası və kitabxanası olan kəllayı otaqda ayaq saxladı. Dörd divar boyu, tavana qədər rəflərə düzülmüş sevimli kitablarına dağınıq nəzərlərlə xeyli tamaşa elədi və qəmli-qəmli gülümsündü. Bütün ömrü boyu var-dövlət yox, qızıl-gümüş yox, kitab yığmışdı. Kitablar onun həmdəmi, həmdərdi olmuşdu. Əsirdi onların üstündə — övladı kimi. Vaxt var idi — cavanlıq çağlarında Bikə xanım onu bu kitablara

da az qalırdı qısqansın. Çünki elə bilirdi ki, bax bu adi kitablar, Nəzərini onun əlindən almaq istəyirlər.

O, gülümsünüb başını bulaya-bulaya yenə həyətə çıxdı, gəlib tut ağacının altında — döşəkçəli stulunda əyləşdi. Sağ tərəfindəki balaca əl televizorunu yandırdı, beş-on saniyə keçmiş ekran ağardı. Bakıdan «Günün ekranı» xəbərlər proqramı verilirdi. Ağ xalat geymiş cavan qız hansı fermadasa ala inəyi tumarlayırdı, üzü ekranda görünməyən müxbir təmtəraqlı sözlərlə ala inəkdən çoxlu süd sağmış o ağ xalatlı qızı yaman tərifləyirdi. Nəzər ikrah hissilə üzünü yana çevirdi, saata nəzər yetirdi. Doqquza on dəqiqə işləmişdi və Bikə xanım bağçadan hələ də qayıtmamışdı. Qərib də yəqin dünəki, srağakünkü kimi, bu kün də evə gəlməyəcəkdi — rayon mərkəzində, yataqxanadakı mənzilində qalacaqdı.

Yaxşı ki, evdə tək idi. Arvadının, oğlunun yanında bu söhbət olsaydı, o, sözsüz əsəbiləşəcəkdi, çünki hərəsi bir sual verəcəkdi. Bikə xanım, şübhəsiz, Şakirin dalınca alıb-verəcəkdi. Qərib də, güman ki, kinayə ilə, «hə, eşitmişəm, bu yaxınlarda Əli Nurlu adına məktəbin həyətində bir adama heykəl qoyacaqlar!» — deyəcəkdi və bu sözü Nəzəri hər şeydən çox yandıracaqdı.

— Ey gidi dünya!—dedi bərkdən, əlini uzadıb stolun üstündəki kağız-kuğuzunun arasından ağ bir vərəq çəkdi, qarşısına qoyub xeyli fikirləşəndən, götür-qoy eləyəndən, xəyalında neçə dəfə yazıb-pozandan sonra cəmi bircə cümləlik o müdhiş ərizəni qaralayıb imzaladı. Bu zaman elə bil göy guruldadı — qulaqlarında, beyninin içində bir uğultu, gurultu gəzib-dolaşdı. Ona elə gəldi ki, indicə yağış yağacaq, güclü bir yağış. Elə bildi ki, hava da soyudu. Üşüyən kimi oldu — sol qolundakı tüklər biz-biz durmuşdu.

Ancaq heç nə olmadı —nə göy guruldadı, nə hava soyudu. Yağış-filan da yox idi.

Nəzər vərəqi səliqə ilə dörd büküb, yarımqol köynəyinik döş cibinə qoydu.

Döyülmüş kimi idi, sümükləri sızıldayırdı. Həddindən çox halsızlığını duyub, Bikə xanımın gəlişini də gözləmədən, şam eləməmiş, durub taxtına sarı getdi və tənbəl-tənbəl soyunub miçətkənin altına girdi.

Çox keçməmiş Bikə xanımın səsi həyətdə, mizin yanında eşidildi. Nəzərin şalvar-köynəyinin stulun başından asıldığını görüb:

— Boy, bismillah, bu kişi nə ertədən yatıb? Nəzər ay Nəzər,— deyə taxta yaxınlaşdı,—yatıbsan?

— A kişi, yoxsa xəstələnib eləyibsən?

Bikə xanım miçətkənin ətəyini qaldıraraq alaqaranlıqda ərinin üzünə fikir verdi. Nəzərin gözləri yumuluydu. Sol əlini əlinə aldı, istisi yox idi. Nəbzini tutdu, qaydasında döyünürdü ürəyi, Bikə xanım sakitləşdi.

— Səhər dərslər başlayır axı! Ona görə tez yatıb ki, tezdən də oyansın!...—deyərək çəkilib getdi.

Nəzər arvadının dediklərini, çağırışını eşidirdi, ancaq özü səsini çıxarmırdı: istəmirdi ki, arvadı onu bu düşkün vəziyyətində görsün.

Təbii ki, o gecəni səhərəcən çimir belə eləmədi, yatağına qor dolmuş adam kimi çırpınıb-çevrilib taxtını cırıldatdı. Gözəl cavanlıq çağlarını, ömrünün ən mənalı illərini keçirdiyi o doğma «Qırmızı məktəb»in siniflərini bir-bir gəzib-dolaşdı, xatirələrini təzədən yaşadı, dərs dediyi minlərlə uşaq uzaq-yaxın illərin arxasından boylanıb baxdı, müəllim yoldaşları, xüsusən Əli müəllim ilə xeyli dərdi-dil elədi.

Ancaq bu xatirələr onu sakitləşdirmədi; əksinə, bir az da həyəcanlandırdı.

— Kaş sağ olaydın, ay ana, yanıma gələydin, başımı qoyardım dizinin üstünə, uşaq kimi ağlayardım.—Bu sözləri astadan pıçıldadı Nəzər və gecənin qaranlığı içindənmi, göylərdənmi, xəyallarının, qatmaqarışıq dünyasındanmı gəlmiş anasının — Səlminaz arvadın qırışmış çöhrəsi gözlərinin qabağında canlandı: Nəzərin canı isindi, bədənini gəzib dolaşan gizilti çəkilib yox oldu. Ürəyini sıxıb əzən düşüncələr harasa uçub getdi.

Nəzərin ağ balışdan seçilməyən ağappaq saçları şəvə kimi qaraldı, o bir cavan oğlana döndü, arvad bax, o aralıdakı otaqda, döşəkçənin üstündə oturub, madar oğlunun başını dizi üstünə aldı. İsti, yumşaq barmaqlarını Nəzərin qalın saçları arasında gəzdirdi. Çoxdan, lap çoxdan eşitmişdi bu səsi, indi də məhrəm, nəvaziş dolu səsi eşidəndə ürəyi çırpındı. Ana pıçıltı ilə soruşdu:

— «Naxoşlamısan nədi, qurbanın olum?»

Nəzər də dilini-dodağını tərpətmədən, ürəyindəcə cavab verdi və qəribə idi ki, dilinə gətirmədiyi sözləri qulağı apaydın aldı:

— «Yox, ana. Naxoşlamamışam, qocalmışam, ana!»

— «Nə danışdığındı, oğul? Qocalıq nədi? Sən dünənki uşaq döyülsənmi, ağrın alım! Heç saçlarına dən də düşməyib, bala!»

— «Yox. Bir yaxşı bax. Başımda bir dənə də qara tük qalma-

yıb. Görmürsən? Yəqin sən də qocalıbsan, ana, ağı-qaradan seçəmmirsən ta!»

— «Mən kedəndən sonra lap yetim qaldın, can bala!.. Bikə səni incitmədi ki? Yox, incitməz, o səni çox istiyir. Atan da gəlib çıxmadı!, hə?»

— «Yoxxx...»

— «Onun yolundan gözlərini yığ, ayağının altında ölüm. O, nə məni, nə səni istəmirmiş, canım-ciyərim. Mən heç kəsə deməmişəm, bircə sənə deyirəm, yaxşı adam deyildi atan. Yaxşı adam olsaydı, o kişiyə elə xəyanət eləməzdi, bizi qoyub getməzdi, ümidim, pənahım. Küsmüşdü məndən, heç nə demədən çıxıb getdi. Mənə yazığı gəlmirdi-gəlmirdi, Heç olmasa sənə, dünyaya hələ göz açmamış körpəsinə yazığı gələydi, bala. Oğlan, ya qız olduğunu da bilməmiş çıxıb getdi. Gözləmə onun yolunu, gözlərimin işığı. Gör neçə ildi gedib. Ta gözləmə!»

Bu da qəribə idi ki, isti və bürkülü yay gecəsinin yarıdan keçən bu vaxtı miçətkənin içində, yaddaşının hansı küncündənsə eşitdiyi bu səssiz-səmirsiz ana-bala söhbəti, Nəzər onuncu sinfi bitirib Bakı deyilən şəhərə oxumağa getməmişdən azca qabaq olmuşdu, bəlkə də bütün təfərrüatı ilə ona görə yadında qalmışdı ki, o çağa qədər, müəyyən mülahizələrə görə, əsl həqiqəti gözünün ağı-qarzsı tək balasından gizli saxlayan Səlmlnaz o gün: «Daha yekə kişidi, maşallah. Hər şeyi bilsə yaxşıdı. Dünya ölüm-itim dünyasıdı, bu gündən sabaha ümid yoxdu» — deyə düşünərək, hər şeyi olduğu kimi danışmışdı. Bir tərəfdən, doğrudan da, oğlunun gözlərini yollardan yığmışdı. O biri tərəfdən isə o cavanın qəlbinə, sonralar da həmişə, lap indinin özünəcən onu göynədib incidən bir intizar və nikarançılıq dastanı yazmışdı.

Və bu, qırx üç il bundan əvvəlin söhbətiydi, altmış il qabaq, — aprel ayının axırıncı günü — bütün kəndləri, obaları, oymaqları bir qırmızı xəbər kəzib dolaşanda baş vermişdi.

BEŞİNCİ FƏSİL

...Canəli bəyin əlindən bütün kənd camaatı tük salardı. Bəy, adamların təkcə malının, mülkünün ağası deyildi, həm də canının sahibi idi, az-çox xoşbəxt olan vardısa, bəy idi onun səbəbkarı. Bədbəxt olanın da bədbəxtliyinin səbəbkarı o idi. Camaat yuxarıda,

göylərdə, gözəgörünməz Allahdan, aşağıda, torpaq üstündə isə ancaq Canəli bəydən qorxub çəkinərdi. Uzunsifət, sallaqbığ, sür qaragül dəridən şüş qarapapaq qoyub, vəzinəli çuxa geyən, zəhmli Canəli bəyin hökm-fərmanlığı o əndazəyə gəlib çatmışdı ki, kimin ixtiyarı nəydi onun razılığı olmadan evlənəydi, ya qız ərə verəydi. Özü evlənən, oğul evləndirmək istəyən adam, gərək əvvəlcə (əlbəttə, qız evi ilə gizli dil tapandan sonra) boynu zınqırovlu bir qara qoçu (qoç mütləq qara olmalıydı, çünki bəyin qara qoçdan, qara atdan xoşu gəlirdi və bunu artıq kənd adamları yaxşı bilirdi) qabağına qataydı, çəkinə-çəkinə bəyin kənddə yeganə olan ikimərtəbəli evinin qabağına gələydi, işarə ilə nökər Kərimi çağırıb, onun da ovcuna bir şey — şirinlik basıb içəri sifariş göndərəydi, bəydən icazə alandan sonra həyətə keçib, adətən ikinci mərtəbədə, öz otağında, ya da eyvanda əyləşib təsbeh çevirə-çevirə çay içən kişinin hüzurunda əli sinəsində dayanaraq mətləbini ərz eləyəydi. Bəy də mütəkkəyə dirsəklənmiş halda:

— Xub, xub, — deyəydi, bığlarını sol əlinin arxasıyla sığallaya-sığallaya, — Hm, nə olar, nə olar. Bir qız bir oğlanındı. Bizim borcumuz cavanlara kömək eləməkdi, yol göstərməkdi. Mən... etiraz eləmirəm, mübarəkdi, — söyləyəydi.

Üç gün sonra da qız adamları eyni qayda ilə gəlib, Canəli bəydən icazə almalıydı.

Kürdən kanal çəkdirmişdi — kanalın ağzında o vaxt bu tərəflərdə heç kəsin görmədiyi su nasosu qoydurmuşdu — pambıq əkdirirdi, nə qədər torpağı vardı, başını döndərmək mümkün olmayan sürüləri vardı ki, hesabını, miqdarını özü də düz-əməlli bilmirdi Canəli bəy.

Kərimi bu həyətə gətirəndə on beş yaşı ancaq olardı. Arıq, sısqa, cırın-cındırın içində olan bir uşaq idi. Yetim oğlan idi, kimi-kimsəsi yox idi. Dağ kəndindən gəlmişdi, dediyinə görə, atası qan qusub ölmüşdü.

Təmiz oğlandı, səliqəsindən, üzüyolalığından, həyalı-abırlı olmağından bəyin xoşu gəlirdi. Dindirsən dinərdi, dindnrməsən yox. Bəy yeməyini-içməyini verirdi, onunla həmyaş olan oğlu Muradın köhnə paltarlarını verirdi, vəssalam. Həyətin aşağı başındakı daxmada yatıb-durardı Kərim. Canla-başla qulluq eləyərdi ağasına. Vaxtının çoxunu Canəli bəyin qara kəhərinə sərf eləyərdi. Evin-həyətin bütün işləri — süpürmək, odun doğramaq, su gətirmək, samovarda çay qaynatmaq onun boynuna idi. Bütün nökərlər kimi, o

da hamıdan tez durub, hamıdan gec yatardı. Ağadan əlavə, oğlu Murad da, arvadı Xanımcahan xanım da onun xətrini çox istəyərdi.

Beləcə, darvazanın yanındakı balaca otaqda yaşaya-yaşaya bir də onda ayılıb gördü ki, səkkiz ildi bəyin qapısındadı, böyüyüb, bığlı-saqqallı bir cavan olub. Və bir də bunu başa düşdü ki, çayın qırağında yaşayan, var-dövlət adına kiçik bir küməsi, bir uzunqulağı olan hacı Məsimin gözəl-göyçək qızı Səlminaza vurulub. Səlminaz ondan beş yaş balaca idi, anasını itirəndən sonra damın altında dədəsilə yaşayırdı. Kərim onu o yay ilk dəfə qara kəhəri çaya suvarmağa aparanda görmüşdü. Əvvəllər də görərdi, ancaq heç fikir verməzdi, uşaq hesab eləyərdi. Sən demə, Kərimin ona məhəl qoymamağı qızlar bulağından su içmiş Səlminazı yaman yandırırmış, cırnadırmış.

O yay Kərim sanki birdən yuxudan ayılmışdı, fikir vermişdi ki, o, at belində bura — çay qırağına gələn kimi, Səlminaz da cuna örpəyini başına bağlayıb, qırmızı mis farşı da çiyninə keçirib suya gəlir. Kərimə qabaqlar heç baxmazdı da, kirimişcə suyunu götürüb gedərdi. Ancaq son vaxtlar əl-üzünü, ayaqlarını yumağa başlamışdı. Bir dəfə gözləri rastlaşmışdı və ikisi də qeyri-ixtiyari gülümsünmüşdü. Kərimin elə bil onda gözləri açılmışdı: qızın çiyinlərindən düşüb topuqlarını döyəcləyən qoşa hörüyünə, saya çitdən geydiyi donunun yaxasını qabardan sinəsinə və mütənasib bədəninə heyran-heyran baxıb-baxıb, nə vaxt dəli-divanə olduğunu bilməmişdi.

Qara kəhəri çayda o qədər yumuşdu ki, heyvanın qara tükləri az qala ağarmağa başlamışdı. Və arada bir kəlmə də kəsməsələr, onların sevdası dilə-dişə düşmüşdü.

Günlərin birində isə Xanımcahan xanımın kənd içindəki bütün yenilikləri, məlumatları vaxtlı-vaxtında, isti-isti gətirən «simsiz teleqrafı» Məsmə arvad bu xəbəri də astaca onun qulağına pıçıldamışdı. O sözdən sonra Xanımcahan xanım gündə beş-on dəfə görüb buyurduğu Kərimə zənlə baxıb başa düşmüşdü ki, Məsmə arvadın bu xəbəri də düzdü, çünki Kərimin iri, qara gözləri qabaqkı kimi qayğısız, şən deyildi, fikirli-fikirli gəzib-dolanırdı, tez-tez ah çəkirdi, deyilən tapşırıqları yaxşı yadında saxlaya bilmirdi.

Bəy arvadı əzazil deyildi, zülm etməyi xoşlamazdı, çünki uşaq vaxtı, lap elə yeniyetmə çağlarınacan — Canəli bəyin arvadı olanacan özü analıq əlindən çox zülmlər görmüşdü. Ona görə onsuz da çox istədiyi Kərimə rəhmi gəldi, gecələrin birində pərqu yorğan-döşəkdə uzanıb istirahət eləyən vaxtı, bəyin kefini duru görüb, əhvalatı açıb ona dedi:

— Savabdı, ay kişi, sən dədəyin goru, uşağın — Kərimi deyirəm ey — qabağına düş, ağsaqqallıq elə, evləndir. Hacı Məsimin qızı Səlminaz da, deyirlər, pis uşaq döyül. Gətirərsən, o da bizə kömək olar, ev-eşikdə əlimdən tutar. Yoxsa bir də görəcəksən Kərim sənin qara kəhərini yuya-yuya ağ kəhərə döndərib!

Bəy uğunub güldü:

— Deyirəm axı... Adə, bu Kərimi nə vaxt axtarırsan, çaydadı. Sən demə, iş varmış.

Xanımcahan xanımın sözü ağlına batmışdı. Səhəri Kərimi yanına çağırıb:

— Ə, Kərim, gözümə birtəhər dəyirsən? — demişdi. — Nə olub? Kərim ağasının yanında məktəbli kimi əlləri böyründə dayanıb, gözlərini döymüşdü:

— Heç nə, bəyim!

Bəy əlini bığına çəkmişdi:

— Məndən gizləmə, ə. De görüm sənə nə olub?

— Vallah, heç nə, bəyim.

— Hə, onda aramız dəyəcək,—deyə o, özünü inciyən kimi göstərmişdi,—ə, böyümüsən deyə, şərtimiz yadından çıxıb?

— Nə şərt, bəyim?

— O şərt ki, nə sözün-sovun olsa, kişi kimi gəlib mənim özümə deməlisən!

— Yadımdadı, bəyim.

— Dərsurəti ki, yadındadı, de gəlsin! — deyə Canəli bəy gözləmişdi.

—…

— Hə, görürəm, utanırsan. Onda qulaq as, mən deyim.

—…

Bəy təsbehini şaqqıldatmışdı:

— Sən Hacı Məsimin qızına aşiq olmusan, Kərim. Cavanlıqdı da, olar belə şeylər. Sən də evlənmək istəyirsən, ancaq fikrləşirsən ki, Məsim qızını mənə verməz. Mən nökər babayam, heylədimi?

Kərim təəccübdən donmuşdu — «Bəyim bunları hardan bilir?» — düşünmüşdü, qıpqırmızı qızarıb, başını aşağı salmış, çarığının şiş burnu ilə torpağı cıza-cıza başını tərpətmişdi.

Canəli bəy gülmüşdü, özündən razı halda:

— Görürsən də, Canəli bəy hamısını bilir,—demişdi.

— Allah bəyimin, köməyn olsun! Nəhayət Kərim razılığını bu üç-dörd sözlə bildirmişdi. Ürəyindən keçənləri, onu səhərə qədər

yatmağa qoymayan arzularını sehrkar kimi üzünə oxuyan bəyin qabağına gəlib əlindən öpmək istəmişdi. Ancaq Canəli bəy qoymamışdı. Boğazı büzməli, zərli pul kisəsini çıxarıb:

— Al bunu, get dərzi Ələskərin yanına, de ki, bəyim göndərib, sənə bir yaxşı paltar tiksin. Denən, bacardıqca tez eləsin! – deyərək Kərimin ovcuna pul qoymuşdu. Kərim baxmadan bilmişdi ki, bu, qızıl onluqdu. — Denən, başdan-ayağa bəzəndirsin səni. Özün də qayıdıb gəl, o imarətini — daxmaya işarə eləmişdi — səliqə-sahmana sal. Elə et ki, Hacı Məsimin qızı hürküb qaçmasın. Nə lazımsa da, Xanımcahan xanımdan istə, utanma.

Kərim deməyə söz tapmamışdı. Gözləri yaşla dolmuşdu.

Bir həftə sonra Canəli bəy Səlminazla Kərimin toyunu eləmişdi. Kənd camaatının yaman xoşuna gəlmişdi bəyin bu hərəkəti. Eşidən-bilən əlindən qopanı — kimi pul, kimi parça, kimi qoyun kətirmişdi Canəli bəyin həyətinə. Kimi, Kərimin adına, kimi bəyin adına, Canəli bəy gələn hədiyyələri — qara qoçlardan başqa — təzə bəylə gəlinə bağışlamışdı, Xanımcahan xanım da çox da böyük olmayan mağara girib qız-gəlinin arasında əyləşmiş Səlminazın başına Xorasandan Canəli bəyin gətirdiyi tirmə şalı bağlamış, əyilib onun göyçək üzündən öpmüş və:

—Xoşbəxt ol, qızım! — demişdi. Anasını çoxdan itirmiş, bu xoş günündə ana xeyir-duası eşitmək arzusu ilə qəlbi çırpınan, ancaq bunun heç vaxt mümkün olmayacağını başa düşüb taleyi ilə barışaraq niskilli bir sevinc içində oturmuş Səlminaz ədəblə ayağa qalxaraq Xanımcahan xanımın əlindən öpüb başını sinəsinə söykəmiş, ağlamışdı.

Səlminazın o gecə başına yağan ağ noğullar sakit, mülayim qış gecəsində yağan lapar-lapar qar dənələri kimi sonralar da heç vaxt yadından çıxmamışdı. Və əslində, Səlminazın o gecədən şirin gecəsi olmamışdı ömründə.

Toydan bir həftə keçəndə, Xanımcahan xanım Səlminazı yuxarı, yanına, ikinci mərtəbəyə çağırmışdı, Ağzı, burnu yaşmaqlı təzə gəlin şiş burun, əl işləməsi olan çəkmələrini sürütləyə-sürütləyə xanımın otağına girəndə onu yaxasına, ətəklərinə, qolçaqlarına mirvari düzülmüş, mavi ipək gecəköynəyində qu tükündən düzəldilmiş ağappaq yorğan-döşəyin içində görüb özünü itirmiş, geri çəkilmək istəmişdn. Xanımın gecə köynəyinin yaxasının qızıl düymələri, demək olar ki, ayaqlarının ucuna qədər açıq idi və onun gün görməmiş ağ bədəni ay parçası kimi gəlinin gözünü qamaşdırıb utandırmışdı.

Xanımcahan xanım gəlinin ürkdüyünü görüb şaqqanaq çəkərək gülmüşdü:

— Aaz, hara gedirsən?—demişdi. — Utanma, yaxın gəl. — O barmaqlarına brilyant üzük taxılmış əlini yuxarı qaldırıb, gülməyinə ara verməyərək: — gəl, gəl, otur yanımda, — söyləmişdi. Səlminaz, xanımın istəyinə sözsüz əməl eləyib çəkinə-çəkinə çarpayısının böyrünə gəlmişdi.

— Ay dəli, nədən utanırsan? Sən də qadınsan, mən də. Burda kişi ha yoxdu. Sən gözəlsən, Səlmi! Mən qadın olsam da, sənin gözəlliyinin qabağında ürəyim əsir! Barı o nökər sənin qədrini bilirmi, qız? Bilməsə, o gərək kor olsun!

— Yox, bilir, xanım! — Kərimin kor olmasını istəmədiyindən tələsik cavab vermişdi.

— Hə?

— Hə, xanım. Bilir.

Bu ilk söhbətdən sonra, Xanımcahan xanım bildirmişdi ki, aşağıda tək oturmasın, gəlsin yuxarı, o da darıxır, söhbət eləsinlər.

Səlminaz, beləliklə, Xanımcahan xanımın dostuna və qulluqçusuna çevrilmişdi.

Cavan ər-arvada hər şey yuxu kimi görünmüşdü. Saadətlərinə inanmaq istəməmişdilər. Ancaq həqiqətə necə inanmayasan?! Xoşbəxt idilər. Əl-ələ verib yaşayırdılar. Axşamlar gündüzkü qaçaqaçdan, qovhaqovdan sonra, yorğun-ərğın həsir döşənmiş yerdə, yorğan-döşəklərinə girəndə, yuxuya getməzdən qabaq Canəli bəyin özünə, Xanımcahan xanıma, uşaqlarına dua edib, sonra yatardılar.

Günlər, həftələr, aylar keçirdi.

Səlminaz ilkinə — bax, bu Nəzərə — hamilə idi, bu gün-sabah ana olacaqdı. Ancaq...

...Ancaq Canəli bəy yaman narahat idi. Adəti üzrə, hər gün tezdən oyanan, vəznəli çuxasını çiyninə salıb, çəliyini əlinə alaraq bağçanı dolaşan, az qala hər ağaca, kola diqqətlə baxa-baxa gəzib, hava alandan sonra gəlib həyətdə əl-üzünü yuyan, eyvana qalxan Canəli bəy, o gün bağçadan çıxanda qap-qara qaralmışdı. Elə bil taqəti yox idi kişinin. Ayaqlarını güclə sürüyə-sürüyə həyətin ortasına çatıb dayanmışdı, heykəl kimi hərəkətsiz idi. Bu o zaman idi ki, Kərimlə Səlminaz həsirin üstündə bardaş qurub süfrə başında oturaraq çay içirdilər. Divarın içindəki ocaq gurhagur yanırdı. Qapı açıq idi deyə, Səlminaz buradan bəyi yaxşı görürdü.

Nəhayət, heykəl yerindən qopub ağır addımlarla qapıya yaxın-

laşmış, uca qamətini əyib içəri girmişdi. Salamsız-kəlamsız... Bu neçə ayda birinci dəfəydi ki, Canəli bəy onların daxmasına baş salırdı.

Hər ikisi dərhal ayağa qalxmışdı. Səlminaz yaşmanıb:

— Bəyim xoş gəlib, səfa gətirib! — demişdi və əl uzadıb divar dibində qoyulmuş alabəzək sandığın üstündəki yükdən döşəkçəni götürüb yerə atmışdı:—Oturun, bəyim. Bir stəkan çay için.

Kərimin lal-dinməz dayanması və bəyə heç nə deməməsi Səlminazın nəzərindən qaçmamışdı, özlüyündə buna təəccüb eləmişdi, ancaq açıb-ağartmağa imkanı olmamışdı. Canəli bəy geniş açılmış gözlərini nəsə axtaran adam kimi, evin içində dolandırıb Kərimə çox diqqətlə, uzun-uzadı baxmışdı. Kərim də ondan gözlərini gizləməmişdi.

Birdən Canəli bəy xırıltılı səslə:

— Qızılları hara qoymusan, Kərim? — deyə xəbər alanda Kərim kəkələmişdi.

— Nnə... nə qızıl, bəyim?

Səlminazın rəngi cunası kimi ağappaq olmuşdu.

— O çəpərin dibindən çıxartdığın küpü deyirəm, Kərim! Ə, yoxsa sən də bu ətrafda sümsünüb araya qatmaqarışıq salan o bolşovoy köpək uşağının adamıymışsan, hə?

—…

— Niyə dillənmirsən, ə? Səndən söz xəbər alıram, — o, çəliyinin ucunu yerə döyəcləmişdi. — Ə, düzünü de, Bolşovoylara verdin var-yoxumu?

Kərimi əsməcə tutmuşdu və dili topuq çala-çala:

— Bəyyim, həz... həzrət Abbas haqqı... Mən bolşovoy-zad tanımıram. Bolşovoy kimdi?

Canəli bəyin sağ üzü səyrimişdi, bığının sağ qanadı titrəmişdi:

— Mənim həyətimə quş quşluğu ilə səkə bilmir, bəs necə oldu mənim qızıllarım? Sən vurmadın, mən yıxılmadım, bəs bu nə təhər oldu, Kərim?

Kərim əssə də, yenə şinimişdi:

— Hansı qızıl ey, bəyim?

— Ə, küçük, vallah, mənim sənə elədiyim yaxşılıqlar gözündən gələr. Gətir qızılları! Mənim bağrımı çatlatma. Elə eləmə, əlim qana batsın,—o, sağ əlini arxa cibinə, tapançaya aparmaq istəmişdi, ancaq nə fikirləşmişdisə, əlini qaytarıb, qulağını qaşımışdı.

— Bəyim, vallah...

Qorxudan qansız dodaqları çatlamış Səlminazın qaşları çatılmışdı. Birdən yadına düişüşdü: ey dadi-bidad, gecənin bir aləmi deyəsən Kərim ocağın qırağında eşələnirdi axı! Hə, hə, elədir ki, var! Ocaq xarab idi, daşları əyilmişdi, qazan, aftafa durmurdu üstündə, aşırdı, çay, xörək dağılırdı. Bir vaxt Səlminaz özü Kərimə demişdi ki, ocağı düzəltsin. Ancaq Kərim günü günə satmışdı. «İmkanım olanda qayıraram!» — demişdi. Bu gecə isə gəlin yarıyuxulu halda hiss eləmişdi ki, Kərim nəsə ocaqla əlləşir, evə girir-çıxır. Düşünmüşdü ki, yəqin ocağı düzəldir və ürəyində ona bir minnətdarlıq da duymuşdu.

Gəlin qorxa-qorxa ocağa fikir vermişdi və tükləri biz-biz olmuşdu: «Ay allah, bu nə müsibətdi bizim başımıza gəldi?! Kərim bəyimizə xəyanət eləyib, qızıllarını oğurlayıb? Yox, eləməz Kərim, eləməz. İlahi, kaş eləməyəydi!.. Yox, qızılları Kərim götürüb, burdadı, bu ocaqdadı qızıllar! İndi mən başıma haranın külünü töküm, ilahi? Deyəcəyəm, bəyim öldürəcək onu!.. Deməyəcəyəm, özünün...» Səlminaz çaşıb qalmışdı. Odla su arasındaydı sanki.

Qəzəb qarışıq bir yazıqlıqla Kərimi süzürdü. Ürəyində Allaha yalvarırdı ki, Kərim ona baxsın, o da işarə eləsin: «Nə qədər gec deyil, ver kişinin qızıllarını» — desin. Ancaq o baxmırdı Səlminaza. Canəli bəy isə hələ də səbirli idi, dözürdü, təmkinini itirmirdi.

— Kərim!..

— Bəli, bəyim!

— Sən istəyirsən ki, mənim bağrım çatlasın?

— Yox, bəyim, Allah eləməsin!

— Demək, istəmirsən hə, mən ölüm?

— Əlbəttə, bəyim... Siz...

— Ay bərəkallah, mən bilirəm, sən məni çox istəyirsən, mən bilirəm, sən namərd deyilsən, Kərim. Mənim çörəyimi yeyən namərd ola bilməz, Kərim!..

Bayaqdan bəri, bu gərgin anların içində, Kərim birinci dəfə olaraq öz ürəyində danışmışdı: «Sənin çörəyin var idi ki!... Hamısı haramdı, qandı, irindi sənin çörəyin! O qızıllar da sənin döyül. Bu camaatın ürəyinin qanıdı o qızıllar! Mən öz çörəyimi yemişəm, sənin çörəyini yeməmişəm, bəy!»

Və birdən Kərimin yadına düşmüşdü ki, bəy deyəsən adamın ürəyindən keçənləri oxuya bilir — necə ki, o zaman, Səlminazın eşqi ürəyini yandıranda onun arzularını gözündən oxuyub üzünə demişdi. Bu, onu sarsıtmışdı. Kərim elə bilmişdi ki, ayağının altında yer

aralandı və o, nəhayətsiz bir boşluğa düşdü.

Yaxşı ki, bu zaman bəy dillənmişdi:

— Sənin qulağın söz çalıb, Kərim. Mən bilirəm, sən elə bilirsən bolşovoylar gəlib, sənə yiyə duracaqlar, çörəyini, paltarını verəcəklər; evini verəcəklər, Canəli bəy kimi. Sən elə bilirsən, istəsən, qabağına düşüb səni evləndirəcəklər bolşovoylar, Canəli bəy kimi!.. Səhv eləyirsən, Kərim. Onlar məni də güllələyəcəklər, səni də. Mənə qulluq elədiyin üçün sənin lap dərini soyacaqlar, Kərim! Gəl daşı tök ətəyindən, Kərim. «Hayıf ki, ölü danışa bilmir, Kərim, yoxsa mən səni çoxdan it kimi gəbərtmişdim burda!..»

Bəy bu son sözləri ürəyində demişdi və yazıq-yazıq Kərimin ağzına baxmışdı.

Kərim isə bu dəfə də onun ümidini qırmışdı:

— Mənim xəbərim yoxdu, həzrət Abbas haqqı, bəyim!

Elə bu zaman Səlminaz özünü daha saxlaya bilməmişdi və gözlərindən min yerdən yaş tökə-tökə, dodaqları səyriyə-səyriyə:

— A Kərim, yalandan niyə and içirsən? Axı, həzrət Abbas belini qırar, ağzın əyilər, ədə! Tez ol, əstəqfürullah de! — demişdi.

Və ərinin elə o an hədəqəsindən çıxıb qan çanağına dönən gözlərini görəndə qorxusundan Canəli bəyin böyrünə keçib:

— Bəyim, qızıllar burdadı, ocaqın içindədi, bəyim. Bu gecə gətirib basdırıb!—söyləmişdi və üzünü divara çevirib hönkürmüşdü.

— Yalandır! — Kərim qışqırmışdı və elə çılğınlıqla, elə ucadan qışqırmışdı ki, Canəli bəy də, Səlminaz da səksənmişdi. Ancaq bu bircə kəlmə sözlə də Kərimin qəzəbi, yalanı, ümidləri, hər şey, hər şey sanki canını birdən-birə tərk eləmişdi, quruca cəsədi qalmışdı. İndi o, müti qul kimi idi, nə desəydin eləyən idi, hara buyursaydın gedən idi.

Canəli bəy isə toxtamışdı, üstündən dağ götürülmüş təki, dərindən nəfəs alıb, kürəyini divara söykəmişdi. Enli, qırış alnına soyuq tər gəlmişdi.

Və sonra inanılmayası bir şey olmuşdu: Canəli bəy gülməyə başlamışdı — qızılın yerini biləndən sonra Səlminaz (elə Kərimin özü də) gözləmişdi ki, bax, indicə bəy Kərimi öldürməsə də, hökmən döyəcək, elə döyəcək ki, daha sınmamış qabırğası qalmayacaq, ölməsə də, yarımcan olacaq. Lakin qəribə idi ki, Canəli gülmüşdü, gülüşündən dam-daş titrəmişdi. Çiyinləri atılıb düşə-düşə, sol əlinin dalıyla yaşarmış gözlərini silə-silə demişdi:

— Ay sənin saqqalın ağarsın, Kərim. Yamanca qorxuzmuşdun

məni. Ay sənin, xi-xi-xi..

Bəyin gülüşü elə sirayətedici idi ki, çaşıb nə edəcəyini bilməyən Kərim də ona qoşulub gülmüşdü, qalın ətli dodaqları arasında ağ mirvari kimi saf dişləri görünmüşdü. Və elə bu zaman, sanki o anı gözləyirmiş, Canəli bəy, qəfildən gülməyə başladığı kimi, qəfildən də gülüşünü xırp kəsib, sağ əlindəki gümüş işləməli çəliklə Kərimin ağzına çəpəki elə ilişdirmişdi ki, Kərim «Ay» deyə bilmiş və gülüşü ufultuya qarışmışdı. Əlini ağzına aparmışdı, barmaqlarının arasından qan axmağa başlamışdı. Kərim özünə gəlməmiş, bəyin səsi çınlamışdı:

— Namərd! — o, quyruğu tapdanmış gürzə kimi fısıltıyla yerindəcə fırlanıb, içəri açılan qapının dalından tiyəsi par-par parıldayan beli götürərək Kərimə vermişdi:—Qaz! Qaz ocağın içini, çıxart o sarıları!

Kərim heç nə demədən beli almışdı, ağzını dolduran qanı tüpürmüşdü, tüpürcəyinin içindən nə isə həsirin üstünə düşub tappıldamışdı. Canəli bəy tappıltı gələn tərəfə baxmışdı, çəliyinin ucu ilə qanlı tupürcəyin içindəki üç diş qırığını saymışdı, qəzəbli-qəzəbli çımxırmışdı:

— Cəld ol, küçük!

Səlminaz namüəyyənlik içində donub qalmışdı hələ də. «Kərim məni öldürəcək! Öldürəcək!» — fikri buludlu, tutqun göylərdə çaxan ildırım təkin beynini gah işıqlandırırdı, gah zülmətə qərq eləyirdi. «Öldürə... cəək!.»

Kərim ocağın qabağındaydı, yeri qazırdı.

Çox çəkmədi, iri, qırmızı rəngli küp artıq ortalıqdaydı. Səliqə ilə ağzı bərk-bərk bağlanmışdı — elə bil nehrə ağzı bağlamışdılar.

Küpü görən kimi Canəli bəyin gözləri qızıl parıltısına bənzər bir işıq saçıb nurlanmışdı: kişi çömbəlib küpün torpağını titrəyən əllərilə siyirib yerə tökmüşdü, sonra, pişik balasını sığallayan kimi, sığallamışdı. Başını qaldıraraq hələ də yerindəcə donub qalmış Səlminaza baxmış, bayaqkı qəzəb və sərtliyi ilə heç cür uyuşmayan bir mehribanlıqla demişdi:

— O taxçadakı kasanı bəri gətir, qızım! — Küpün ağzını açmışdı, boğazını irəli uzadıb içinə baxmışdı: içəridən elə bil kişinin gözlərinə gün işığı axmışdı. Xoşbəxt-xoşbəxt gülümsünmüşdü.

Səlminaz əlini uzadıb taxçadakı iki güllü kasadan birini götürmüşdü, bəyə sarı uzatmışdı. Canəli bəy küpün içindəki qızıllardan xışma-xışma ovuclayıb kasaya tökmüşdü. Səlminaz ilk dəfəydi qızıl

görürdü. Gözləri böyümüşdü: «ay allah, qızıl bu imiş! Bu imiş qızıl?! Gör necə istidi, Allah! Ordan istisi məni vurur. Bəs görəsən bəyin əlini yandırmır? Çirink-çirink!»

Kasa dolmuşdu. Silələmə dolmuş kasanı bəy Səlminaza tərəf uzatmışdı.

— Al bunu sənə bağışlayıram, qızım. Sağ ol, anayın südü sənə halal olsun.

— Yox, yox, bəyim, mənə heç nə lazım deyil, — deyə Səlminaz etiraz eləmişdi, ancaq qəlbində elə o andaca baş qaldıran anlaşılmaz bir duyğu onu yerindən tərpətmişdi; o qızıllar onu özünə sarı çəkirdi elə bil. Maqnit idi, nə idi? Səlminaz heç nə başa düşmədən gözlərini döymüşdü.

— Götür, qızım, halaldı sənə. Bunu sənə, bir də ona,— deyə bəy gəlinin qarnına işarə eləmişdi. — Sənə və ona verirəm!

Səlminaz özü də bilməmişdi haçan kasanı almışdı bəydən. Bir kasa qızıl! Aman allah, gör necə də sarı işıq saçır! Və o sarı işıq onun gözlərini qamaşdırmışdı, əlləri boşalmışdı, kasa tappıltı ilə yerə düşmüşdü.

— Ay,—demişdi Səlminaz.

Bayaqdan tövşüyə-tövşüyə bu mənzərəni seyr eləyən Kərim qeyri-iradi əyilib ora-bura dığırlanıb dağılan qızılları yığmaq istəyəndə, güclü bir əl onun sırıqlısının yaxasından yapışıb qaldırmışdı:

— Sən yox, sən yox! Sənin əlin natəmizdir, sən onlara toxunub murdarlama, gədə!

Kərim, yenə də ağzını dolduran qanı qapıdan çölə tüpürmuşdü, çörəyə baxan ac adam kimi yerə səpələnmiş qızılları süzüb udqunmuşdu. Canəli bəy çaşqın-çaşqın dayanıb həsirin üstünə dağılmış qızıllara tamaşa eləyən və ayıqlıqdamı, yuxudamı bunların baş verdiyini ayırd eləməyə çalışan Səlminaza müraciət eləmişdi:

— Özün yığ, qızım. Bu gədədən ehtiyatlı ol, oğrudu o! Səndən də oğurlayar, qızım!.. — Kərimə tərs-tərs baxmışdı, nə fikirləşmişdnsə, barmaqlarının ucunda küpdən üç dənə qızıl çıxarıb Kərimin ovcuna basmışdı:

—Üç dişini vurub salmışam, özünə qızıl diş qayırtdırarsan. Ətrafda gədə-güdə çoxdur, qoy paxıllıqdan yanıb-yaxılsınlar. Qoy desinlər, gör Canəli bəyin nə qədər qızılı var ki, nökərinin də dişlərini qızıldan düzəltdirib. Eşidirsən? Mütləq düzəltdir ha! — Qara, uzun çubuğunu doldurub sümürdü, xeyli sükutdan sonra gur səslə dilləndi: — Yaxşı, mısmırığını sallama. Özün də hazırlaş, atları da

hazırla, gecə ova çıxacağıq, Şəhriyar düzünə gedəcəyik. O qara qoçu da kəs, kabab elə. Hamısını kabab elə. Qonağımız çox olacaq. Muxtar bəy də gələcək! Eşidirsən? Ya hələ fikrin küpdədi?

Sonra dönüb Səlminaza baxmışdı, qayıdıb Kərimə tapşırmışdı:

— Bu qıza çırtma vursan, sən öl, başını kəsərəm, eşitdin?

— Bəli, bəyim...

Kərimin səsi elə bil quyudan gəlmişdi.

«...Səhərlər közlərimi açanda heç vaxt Kərimi yanımda görməzdim. O məndən həmişə tez oyanardı, əvvəl ocaqı yandırardı, çay qoyardı, sonra həyətə çıxıb öz işləri ilə məşğul olardı. Bu hadisə baş verən günü, ertədən yerimə girsəm də, yata bilmirdim. Yuxum elə bil ərşə çəkilmpşdi. Bədənim təndir kimi yanırdı elə bil. Gündüzkü əhvalat, söz-söhbət heç cür yadımdan çıxmırdı. Ürəyim mənə deyirdi ki, bizi bədbəxtlik tutub, çərximiz dönüb. Nə isə olacaq, özü də dəhşətli bir şey olacaq!... Yorğan canımı qızdırmırdı. Qızılları yığıb gizləmişdim. Elə yerdə — evin içində gizləmişdim ki, heç kəsin gümanı gəlməzdi. Qəribəydi ki, bəyimin sözü ağlıma batmışdı, mənə elə gəlirdi ki, doğrudan da Kərim oğurlaya bilər o qızılları. Ancaq bir az sonra fikirləşdim ki, Kərim qızıl küpünü bəydən oğurlayanda mənim üçün, ailəsi üçün oğurlayıb, məndən kim üçün, nə üçün oğurlamalıdır? Çırağı söndürmüşdüm, amma kümə yenə işıq idi. Elə bil başımın üstdəki tavandan bəyimin yataq otağındakı iri, par-par parıldayan çilçıraq asılmışdı: işıq gözlərimi qamaşdırırdı. Gözlərimi yumanda da o işıq azalmırdı. Elə bil göz qapaqlarımı kəsib götürmüşdülər. Sonra başa düşdüm ki, o işıq dərində — sandığın altındakı çuxurda gizlədiyim qızılların işığıdı. Zəhrimar torpağın altından da işıq saçırmış! Onda başa düşdüm ki, bəyimin də, arvadının da, oğlunun da gözləri niyə elə işıqlıymış həmişə!

Kərim məndən küsmüşdü, — ancaq bilmirəm küsdüyünə görəmi, ya bəyimin qorxusundanmı bütün günü məni heç dindirmədi də. Üzümə də baxmadı. Axşam isə... həyətdə kabab bişirirdi. Ov tədarükü görürdü. İçəri gəlmədi. Mən çörəyimi yeyib uzandım.

Sonra... səhərə yaxın yuxu apardı məni. Ayılanda gec idi — gün xeyli qalxmışdı. Birinci ocağa baxdım. Yanmırdı. Qalxıb geyindim, həyətə çıxdım. Səs-səmir yox idi. Nə Kərim var idi, nə də bir ins-cins... Əvvəl ağlıma heç nə gəlmədi. Dedim, yəqin... hə, yadıma düşdü, ova getməli idilər axı. At yox idi. Ağır-ağır pillələri qalxdım; adətimə görə, Xanımcahan xanıma salam verib, halını soruşmaq istəyirdim. Murad da gözümə dəymədi. Xanımın yataq otağının

qapısı açıq idi — girdim, o da yox idi. Bir şey başa düşməyib, otaqları bir-bir gəzdim. Ay allah.. Gediblər. Hamısı gedib! Yaxşı, deyək kişilər ova kedib, bəs Xanımcahan xanım hanı? Yəni odamı ova gedib? Axşamacan tək qaldım. Həyət-baca, ev-eşik üstümə gəlirdi...

Üç gündən sonra... məlum oldu ki, Canəli bəy arvadını, oğlunu, vəzncə yüngül, qiymətcə ağır nəyi varmışsa, götürüb qaçıb!.. Kərimi də özüylə aparıb!.. Hara, bilən olmadı. Ey, oğul. Kərim — sənin atan o gedən getdi. Sən, o gedəndən dörd gün sonra dünyaya gəldin, oğul... Sənin atan da, anan da mən oldum, can bala!..

— Bəs... o qızılları neylədin, ana? — Nəzər soruşmuşdu.

— Ay saqqalın ağarsın... Bəs görmürsən o qızılları?— Ana gülmüşdü.

— Yox, hanı!?

— Sənsən o qızıl, oğul, mənəm o qızıl, bax, bu ev-eşikdi o qızıllar. Can bala!..

ALTINCI FƏSİL

Bu, dünən olmuşdu, dünən Nəzər ömrünün ən ağır gününü yaşamışdı; bu, təkcə ağır gün deyildi, həm də ağrılı gün idi. Müharibə vaxtı, Belorus meşələrində on üç gün ac qalanda, Berlin darvazasının ağzında düşmən mərmisi qıçını dağım-dağım edəndə belə ağrı duymamışdı canında. Can ağrısına dözmək asan imiş, ürək ağrısına dözmək olmurmuş!..

...Gecəni səhərəcən yata bilməmişdi, dan yeri qızaranda azcana çimir eləmişdi, quş yuxusu alıb yenə, adəti üzrə, saat səkkizin yarısında ayılmış, geyinib-kecinmiş, yeməyini yeyib yola düşmüşdü — məktəb yoluna.

Nəzər damağındakı siqareti tüstülədə-tüstülədə, həmişə xoşbəxt-xoşbəxt gedib-gəldiyi o yolda eyni həvəslə addımlayırdı. Taxta körpüyə çatdı. Buradan «Qırmızı məktəb»in səhərlər gün düşəndə tonqal kimi göz qamaşdıran iri lay pəncərələri aydın görünürdü. O, körpünü adladı, başını qaldırıb gün işığında alışıb-yanan o pəncərə şüşələrinə baxdı və elə bil yuxudan ayıldı. Sanki ayaqlarını yerə mıxladılar. Gözləri qaranlıq gətirdi, qulaqları guruldadı. Ürəyini, beynini acı, ağrılı bir hiss yandırıb keçdi. Və o, birdən-birə dünən, sentyabrın birində, uşaqların da, müəllimlərin də sevinə-sevnnə məktəbə ketdiyi əziz gündə başına gələn o qəlb ağrıdan əhvalatı

xatırladı...

Sifəti od tutub yandı sanki və öz-özünə, elə dayandığıca yerdə astadan pıçıldadı:

«Sən o məktəbə daha niyə gedirsən, Nəzər? Sən daha müəllim deyilsən».

Qəhər onu boğdu. Geri qayıtdı. Torpaq yolda qıçını, çəkə-çəkə gedirdi. Ancaq nədənsə, həmişə bir göz qırpımında getdiyi, taxta körpüdən evlərinə qədər olan altı-yeddi yüz metrlik bu yol ona çox uzun göründu. Ömru boyu keçdiyi butün yollardan uzun idi bu torpaq yol. Nəzər buna təəccüb elədi, bir də buna təəccüb elədi ki, axı, onu sabahın gözü açılanacan yatmağa qoymayan, ömrünün enişli-yoxuşlu dolaylarını dolaşan, acılı-şirinli xatirələrini tərpədib oyadan, ağlı söz kəsəndən ən ağır anlarında belə yaş görməyən gözlərini yaşardan o dünənki hadisəni, çimir elədiyi bir-iki saatın içində necə olub unudub? «Yaddaşım xarab olub, ya doğrudan da Şakir Şakirzadə deyən kimi qocalmışam?»

Dünən səhər-səhər bu yolda addımlayanda ona elə gəlmişdi ki, Zakirə xanım gedəndən sonra yazıb cibinə qoyduğu o bir cümləlik ərizə — o bir vərəq kağız köynəyinin üstündən ürəyinin başını yandırır, elə bil o bombadı, ya bu torpaq yolda, ya məktəbdə, otuz uşağın oturduğu siniflərin birində, ya da Şakir Şakirzadənin kebinetində dəhşətli bir gurultu qoparıb partlayacaq və bu partlayış elə həmin dəqiqə, ən çoxu isə iki-üç saatdan sonra bütün kənddə, bütün rayonda, bəlkə də lap Bakının özündəcə — maarif nazirliyinin binasında əks-səda verəcək, hamının heyrətinə, təəccübünə səbəb olacaq. «Yox, əşşi. Sən nə danışırsan?», «Nəzər müəllim ha?», «Ola bilməz, canım!», «Vay sənin, gidi dünya.» — deyənlər tapılacaq. Və hətta nazir — dağdan ağır o kişi telefonu götürüb ya Murada — maarif şöbəsi müdirinə, ya da Süleyman Həmidov yoldaşa — rayon partiya komitəsinin təzə birinci katibinə zəng çalıb: «Bu nə biabırçılıqdı? Qaytarın kişini məktəbə! Nəzər kimi müəlliminiz yəni belə çoxdu ki, qədrini bilmirsiniz?!» — deyəcək. Yəqin teleqram vuranlar da olacaq: «Siz neyləyirsiniz?..»

O bir əlcə kağız ürəyinin başında tufan qopara-qopara məktəbə sarı gedərkən fikirləşirdi: «Demək belə... Şakir Şakirzadə istəyir ki, mən pensiyaya çıxım. Deməli, mən qocalmışam, daha dərs deyə bilmərəm, nə danışdığımı bilmirəm. Yox, sən səhv eləyirsən, Şakir, mən qocalmamışam hələ. Mən hələ on il də dərs deyə bilərəm. Yorulmamışam, yox, yorulmamışam. Mən sadəcə qoymuram sən əl-

qol açasan, ağlına gələni eləyəsən. Ona görə sən məni başından eləmək istəyirsən. Nə olar, eybi yoxdu. Mən gedərəm, mən sənin kimi natəmiz adamla bir yerdə işləməyi özümə sığışdıra bilmərəm. Sən qiymət satan gündən yoxsan mənim üçün, Şakir! Amma sən hələ güclüsən, sənə mən batmaqda acizəm; sənin dalında durnlar var hələ. Nə qədər ki, bu divar var, tuta-tuta gedirsən. Vay o gündən ki, o divar yıxıla, uçub-dağıla — görüm onda nədən tutub gedəcəksən! Sənə, sənin kimi müəllimə bu gül balaların taleyini tapşırmaq böyük günahdı. Yox, günah nədi, cinayətdi. Vallah, cinayətdi, billah, cinayətdi».

Nəzər beləcə içində, ürəyində danışa-danışa nə vaxt məktəbə gəlib çatdığını bilməmişdi.

Hasarlı, bağ-bağatlı həyətdə qarışqa kimi qaynaşan, deyib-gülən, oynaşan-qaçışan uşaqlarla salamlaşmış, müəllim yoldaşları ilə görüşüb hal-əhval tutmuşdu. Heç nə olmayıbmış kimi, yaxud bir azdan sonra heç nə olmayacaqmış kimi, demişdi, gülmüşdü, ağrısını, qüssəsini gizləməyə çalışmışdı. Həmişəki adətini bu gün də pozmamışdı; çox şıq geyinmişdi — kostyum da, köynək də, qalstuk da ona yaxşı yaraşırdı.

Məktəbin həyətində, dəhlizdə, müəllimlər otağında bacardıqca şax gəzmişdi, qocalmadığını, canının hələ sulu olduğunu Şakirə sübut eləmək istəmişdi elə bil. Ancaq Şakir həyətdəki ilk ötəri görüşdən sonra, dəhlizdə, müəllimlər otağında günahkar adam kimi, Nəzərə baxmamağa çalışmışdı, gözlərini onun nüfuzedici baxışlarından yayındırmışdı. Çünki Məhər müəllim zəng eləyib Nəzərə xəbər verdiyini Hüsüyə demişdi. Zakirə xanım da, bəlkə Şakiri bu fikirdən daşındırdı deyə, təqaüdə getmək barədəki söhbəti axşam Nəzər müəllimə açdığını söyləmişdi və xüsusi olaraq bunu da nəzərinə çatdırmışdı ki, Nəzər o söhbəti eşidəndə çox pis hala düşmüş, gözləri uzun-uzadı yol çəkmiş və doluxsunmuşdu — Zakirə xanım bunları görməmişdi əslində, hiss eləmişdi, — Şakir dinməyib uzaqlaşmışdı ondan.

Nəzər buna da diqqət yetirmişdi; Şakir özünü elə aparırdı, sanki heç nə olmamışdı, ya ötəri bir söz-sov idi, keçib getmişdi.

Lakin Zakirə xanım dünənkindən də çox həyəcan keçirmişdi, müəllimlər otağına sığışmamışdı, pərişan-pərişan, qayğılı baxışlarla öz əziz müəlliminə baxmış, köks ötürmüş, indicə nə isə xoşa gəlməyən və bəlkə də sonra heç vaxt düzələ bilməyəcək bir səhvin baş verəcəyini nigaran-nigaran gözləmişdi.

Bütün fikri müəllimindəydi, hər sözünə, hər hərəkətinə diqqət yetirirdi, yadda saxlamaq istəyirdi sanki. Nəzər müəllim özünü nə qədər şax, tox tutsa da, Zakirə xanımın hardasa ona yazığı gəlirdi.

Nəzər müəllim isə çox sevdiyi aləmdən əbədilik ayrılacağını bilən adam kimi hamıya, hər şeyə indi ayrı cür baxırdı. Gizləməyə çalışsa da, baxışlarının dərinliyində pünhan bir niskil, bir kədər var idi. Elə bil o, səssiz-səmirsiz, heç kəsə hiss etdirmədən məktəblə vidalaşırdı. Hətta pəncərə qabağındakı gül dibçəklərinə də o, özgə cür tamaşa eləyirdi.

İlk təntənəli zəng çalınmış və Zakirə xanım rahat nəfəs almışdı: «Şükür, heç nə olmadı!» — deyə sevinmişdi. Başqa müəllimlər kimi, Nəzər də sarı, şüşələri sınmış uzun şkafdan onuncu sinfin jurnalını götürmüş, ağır, özünə xas ləngərli yerişlə, heç kəsin üzünə baxmamağa çalışaraq dəhlizdə, gəzib, o başdakı sinfə girmişdi.

Hələ kimsənin xəbəri olmasa da, özü yaxşı bilirdi ki, bu, onun axırıncı dərsidi; sonra o, heç vaxt, heç bir sinfə girməyəcək, şövqlə, bəlağətlə, özünü də, uşaqları da unudaraq həvəslə dərs deməyəcək. Bəli, bu, axırıncı dərsdi. İlk dərsin həyəcanını, qorxusunu, şirinliyini o zaman — qırx birin sentyabrında dadmışdı. Və o zaman heç ağlına da gəlməmişdi ki, sonuncu dərs də ola bilər. Düşünməmişdi ki, əgər ilk dərs varsa, son dərs də olmalıdır. Və bu son dərs, təsadüfənmi, qanunauyğun olaraqmı, — bilmirdi, — yenə sentyabrın birinə düşmüşdü. Son dərsin də, sən demə, özünə görə həyəcanı, qorxusu, şirinliyi varmış, əlavə olaraq, hələ ağrısı, acısı da, təəssüfü də varmış! Bunu Nəzər ancaq indi başa düşürdü.

Bəli, bu axırıncı dərsdi. Bir saat sonra, sabah, o biri gün Şakir Şakirzadə yalvarsa da, «hələ kağız-kuğuzun qaydaya düşüncə, təqaüdün «oformit!» olununca qal, işlə, Nəzər müəllim!» — söyləsə də, o əsla razı olmayacaq, çünki o, Nəzər müəllimdir, dediyindən döndüyünü görən olmayıb hələ.

Nəzər onuncu sinfin uşaqlarına da mümkün qədər hiss etdirmədən əvvəlki şövqlə dərsini deməyə başlamışdı. Ancaq yenə kimsə bilməsə də, təkcə özü duymuşdu, anlamışdı ki, dərs ürəyincə alınmır, səsindəki kədəri, hüznü gizləyə bilmir; özu burdadı — sinifdədi, fikri, xəyalı uzaqlarda, bəzən lap unutduğu çağlarda gəzir, dolaşır... Və qəribə idi ki, bu vaxta qədər zəngin çölə nə zaman çalındığını çox vaxt eşitməyən o, indi bu qırx beş dəqiqənin acı bağırsaq kimi necə də uzandığından yaman darıxırdı.

Nəhayat, zəng çalınmış və Nəzər sinifdən çıxarkən, indiyəcən

dilindən çıxmayan iki-üç kəlmə söz eşitmişdi uşaqlar: «Salamat qalın, balalarım!»

Əlbəttə, onlar buna ayrı məna verməmiş, adi şey kimi baxmamışdılar. Təkcə özü bilmişdi ki, sevimli şagirdləri ilə — səkkizdə, doqquzda dərs dediyi uşaqlarla vidalaşmışdı. İkinci saatda, anlaşılmaz tələsikliklə, kimisə axtaran adam kimi, bir-bir qalan siniflərin qapısını açmış, partaların arxasında əyləşən uşaqlara baxmış, heç nə demədən çıxıb qapını ehmalca arxadan örtmüşdü.

Direktorun kabineti açıq idi, Şakir Şakirzadə yerində idi, telefonla kiminləsə danışırdı. Nəzər müəllim içəri girmiş, Şakir əlilə oturmaq işarəsi verəndən sonra sağ tərəfdə, divarın dibində düzülmüş stullardan birində əyləşmişdi, arxayın bir hərəkətlə qara müştüyündəki siqarını alışdırmış, yanıq kibrit çöpünü qutuya qoyub, bükülməyən sol qıçını qarşısındakı mizin altına uzatmışdı. Şakir telefon söhbətini bitirib, ətli üzündə çox xırda görünən qara gözlərini Nəzərin sifətində gəzdirib:

— Hə, eşidirəm, Nəzər müəllim! — demişdi. Nəzər heç nə söyləmədən cibindəki bükülü kağızı ehtiyatla çıxarıb — sanki sadəcə, doğrudan da, nə isə partlayacaqdı,— qatını açmış və Şakirin qabağına qoymuşdu. Kağızı görən kimi Şakirin qəlbindən bir sevinc dalğası keçmişdi və elə o an - Hüsünün dünən dediyi sözləri xatırlamışdı: «Elə hesab elə ki, Nəzər müəllimin ərizəsi sabah stolunun üstündədi... «Pa atonnan, nə bilirmiş ey, -Hüsü» — deyə təəccüblənmişdisə də, özünü sakit və təmkikli aparmışdı. Ancaq Nəzər müəllimin üzündə səhərdən bəri hiss elədiyi gərginliyi, əsəbiliyi azaltmaq üçün guya zarafat eləmək istəmişdi:

— Bu nədi, Nəzər muəllim? Yenə kimdən yazmısan?

Nəzər atmacanın mənasını yaxşı başa düşmüşdü, lakin daha köhnə söz-söhbətin üstünə qayıdıb «köhnə palan içi tökməyin» yeri olmadığını fikirləşib quru bir tərzdə:

— Qorxma, Şakir, — demişdi,—heç kəsdən yazmamışam, bu dəfə özümdən yazmışam.

— Özündən? — Şakir son dərəcə heyrətləndiyini göstərən bir ədayla soruşmuşdu, amma səsi çox suni çıxmışdı. Və bunu hər ikisi aydın duymuşdu.

Nəzərin uzündə kinayəyə bürünmüş bir ifadə gəzmişdi; qəmgin-qəmgin söyləmişdi:

— Şakir, əgər hafizəm aldatmırsa, mən sənə o vaxt artistlik dərsi keçməmişəm. Zənnimcə, Bakıda da sən incəsənət institutunun

aktyorluq fakültəsində oxumamısan. Bəs bu artistliyi sən kimdən, hardan öyrənmisən, Şakir?

Söz ağır olmuşdu. Doğru deyiblər ki, əvvəl deyən bilsə sonrakı nə söyləyəcək, heç ağzını da açmaz. Söz Şakirin dilindən çıxmışdı, cavabını da eşitməli idi, udmalı idi. Sifəti qıpqırmızı qızarmışdı. Gözləri oynamışdı yerindəcə. Ancaq özünü birtəhər ələ almışdı, yenə məharətlə artistlik eləyib, bu sözün də altından çıxmışdı, zarafata salıb gülmüşdü:

— Ay səni, Nəzər müəllim! Xasiyyətindən əl çəkmədin ki, çəkmədin də. — Və başını qaldırıb onun üzünə baxmadan, gözucu oxuduğu ərizənin üstünə tələsik dərkənar qoymuşdu. Bu sadə və adi işi elə sürətlə görmüşdü ki, kənardan baxan olsaydı, onun qorxudan belə etdiyini o dəqiqə başa düşərdi; «Tez elə, birdən peşiman olar, geri götürər ərizəsini!»

Nəzər sərraf idi, tutmuşdu bu nöqtəni və mənalı-mənalı qımışmışdı. Ancaq onun fikri ayrı yerdə idi. O partlayış gözləyirdi. Nə partlayış! Bu axmaq şey Nəzərin ağlına hardan gəlmişdi? Heç nə olmamışdı. Şakir kağızı kişinin qabağına itələmişdi. Qırmızı mürəkkəblə yazılmış «Nəzər Nəzərli yoldaşın xahişi yerinə yetirilsin!» sözləri gözləri önündəcə əriyib bir-birinə qarışmışdı.

— Gedin dincəlin, Nəzər müəllim. Siz maarifimiz üçün çox iş görmüsüz, çox əziyyət çəkmisiz... Dövlətimiz də sizin böyük əməyinizi yüksək qiymətləndirib: «Maarif əlaçısı» nişanı, iki dəfə Lenin ordeni...

Şakir stolunun üstündəki qalın, göy şüşəni barmaqları ilə taqqıldada-taqqıldada danışmışdı, lakin Nəzər onun dediklərini eşitməmişdi, daha doğrusu, eşitmişdi, başa düşməmişdi. Fikri-xəyalı səkkiz il bundan qabaqkı unudulmaz bir gündə cövlan eləmişdi...

...Onda Nəzər özü bu məktəbdə direktor idi. Vaxtilə, otuzuncu illərdə ona dərs demiş, indi doğrudan da qocalmış, gözləri tor gətirmiş, əlləri əsən, məktəb yolunu çətinliklə gedib-gələn, otuz ildən çox direktorluq eləyən, ömrünü-gününü bu məktəbə qurban verən, onun adı, sanı, vicdanı sayılan Əli müəllim günlərin birində, bax beləcə, Nəzərin qabağına bir ərizə qoymuşdu. Nəzər onda sarsılmışdı. Çünki heç vaxt ağlına belə gətirməmişdi ki, o bu məktəbsiz bir gün nədi, bircə saat da yaşaya bilməz: o, elə burda, bax, bu işıqlı, yaraşıqlı siniflərin birində elə dərs deyə-deyə ölməlidi, ayaq üstə, danışa-danışa. Ancaq sən demə, həyat ayrı şeymiş, onun öz qanunları, öz hökmləri varmış! Sən demə, vaxtilə dağ cüssəli bir adam olan, indi

əriyib balacalaşmış Əli müəllim özü əsə-əsə gəlib deyə bilərmiş ki, mən daha qocalmışam, işləyə bilmirəm, təqaüdə çıxmaq istəyirəm. Ey gidi-dünya, bu kəndin, bu məktəbin, bəlkə bütün rayonun fəxri olan Əli müəllim belə deyə bilərmiş! O zaman hələ bax bu qırmızısifət Şakir müəllim Bakıda oxuyurdu, o zaman onun əmisi Murad maarif şöbəsinin müdiri deyildi, müəllim kollektivi çox gözəl idi, onda müəllimlər dərs saatı üstündə bir-birilə gizli-aşkar «vuruşmurdu». Bax, o zaman bütün məktəb, müəllimlər Əlinin o ərizəsini doğrudan da bir bomba partlayışı kimi qəbul etmişdi, hamının üstünə elə bil su çilənmişdi. hamı elə bil son dərəcə qiymətli bir şey itirəcəkdi indicə. Nəzər də, müəllimlər də onda çox xahiş eləmişdilər: «Getməyin, Əli müəllim, heç nə eləməyin, elə quruca gəlin, gedin, nəfəsiniz bu məktəbdə olsa, bəsimizdi!»—demişdilər. Lakin heç bir cəhd onu saxlamağa qadir olmamışdı, çünki bu hökmü həyat özü vermişdi. Həqiqətən, onu saxlamaq əzab vermək demək idi, incitmək demək idi.

İki gündən sonra bütün uşaqlar, müəllimlər, kəndin eşidibbilən valideynləri böyük zala yığışmışdı, Nəzər gözləri yaşara-yaşara Əli müəllimin maarif cəbhəsindəki xidmətlərindən, fədakarlığından, insanlığından danışmışdı. O biri müəllimlər də, uşaqlar da, valideynlər də Əli müəllimə minnətdarlıqlarını bildirmişdilər. O qədər gül gətirmişdilər ki, balaca vücudu gül içində itmişdi.

Rəyasət heyətində oturmuş Əli müəllim uşaq kimi göz yaşlarını saxlaya bilməmişdi. Bu böyük məhəbbət, qədrdanlıq onu yamanca mütəəssir eləmiş, bütün ömrü boyu çəkdiyi əziyyətlərin hamısını unutdurmuşdu.

Onu təntənəli gecədən sonra maşınla evlərinə aparmışdılar. Hələ bu, hamısı deyildi. Nəzər əvvəlcə birinci katibin yanına, sonra Bakıda nazirin yanına getmişdi. Moskvaya yazmışdı və nəhayət, rayonun axar-baxarlı, ən böyük kəndi olan Əskərabaddakı bu orta məktəbin Əli Nurlu adı ilə adlandırılmasına icazə ala bilmişdi. Və indi, hər gün yüzlərlə şagirdin, onlarla müəllimin, gələn qonaqların istər-istəməz oxumalı olduğu o qara lövhəni — «Əli Nurlu adına Əskərabad orta məktəbi» lövhəsini — Nəzər özü Əli Nurlunun sağlığında yazdırıb bura vurdurmuşdu. Və hamısından yaxşısı, təsirlisi o olmuşdu ki, bu lövhə vurulan gün keçirilən təntənəli mitinqdə Əli müəllim özü də iştirak etmişdi! Onda sevinc və göz yaşları birbirinə qarışmışdı.

O gündən sonra Əli müəllim dörd il də yaşamışdı. Onu bu

məhəbbət, bu qayğı və qədirbilənlik yaşatmışdı, həkimlər yox, dava-dərman yox!

Və gözəl bahar günlərinin birində, günəş qüruba enən çağı gözlərini əbədi olaraq yuman Əli müəllim ölümdən qorxmamışdı, çünki o, ölməzliyini görüb ölmüşdü!

— Nə fikrə getdin, Nəzər müəllim?—Bu, Şakirin səsiydi.

Nəzər xəyaldan ayılmışdı:

— Heç... elə-belə...

— Bəlkə... başqa bir sözün-zadın var, Nəzər müəllim?

— Var, Şakir!

— Eşidirəm, Nəzər müəllim....

Nəzər təzə siqaret yandırmışdı və havaya üfürdüyü tüstünün arxasından Şakirə baxıb soruşmuşdu:

— Neçə ildir burada işləyirsən, Şakir? Şakir seyrək qaşlarını çatıb ani düşünmüşdü:

— Yeddi ildir, Nazər müəllim. Necə bəyəm?

— Yaddaşın nə təhərdir? Şikayətin yoxdu ki?

— Yox.—Şakirin ürəyi əsmişdi, fikirləşmişdi: «Görəsən, bu qoca yenə nə deyəcək ki, məni yandıracaq?» — Ancaq ağlına heç nə gətirə bilməyib xırda gözlərinin seyrək kirpiklərini tez-tez döyə-döyə Nəzərə baxmışdı.

— Bu yeddi ildə mən sənə heç «Şakir müəllim» demişəm?

— Başa düşmədim...

— Deyirəm, yəni bu yeddi ildə mən sənə heç «Şakir müəllim» deyə müraciət etmişəm?

Şakirdən cavab gəlməmişdi. Nəzər özü davam etmişdi:

— Yox, deməmişəm. Mən sənə həmişə Şakir deyə müraciət etmişəm. Şakir müəllim deməmişəm, heç vaxt, Şakir. Çünki... mən hər ali məktəbi qurtarıb, adını müəllim qoyana... müəllim demirəm, Şakir!

Şakiri elə bil şok vurmuşdu. Nəsə demək üçün söz axtarmışdı, tapanda isə... artıq Nəzər müəllim kabinetdə yox idi.

...Xəbər ildırım sürətilə yayılmışdı. Məktəb bir-birinə dəymişdi. Pıçhapıç gəzirdi; təəssüf, pərişanlıq oxunurdu sifətlərdə. Böyük tənəffüsdə uşaqları zala yığmışdılar. Cərkələr, oturacaqlar doluydu. Səhnədəki uzun stolun üstünə qırmızı örtük salınmışdı; ortalığa qoyulmuş güldanda beş-altı gül vardı. Müəllimlərin hansı üçünsə gətirilmişdi bu güllər. Zakirə xanım xahiş eləyib qoymuşdu bura. Nəzər müəllimi yola salmaq üçün atüstü təşkil edilmiş bu məclisdə

heç olmasa bir dastə gül olmalı idi ya yox? Məhərin, Zakirənin üzünə baxmamışdı Şakir. Təntənəni gecikdirmək olmazdı onun fikrincə.

Qabaq cərgədə üç-dörd müəllim oturmuşdu. Çırtma vursan qanı daman Şakir, müəllimlərin arasında Nəzəri görməyib, qapı ağzında ayaq üstə dayanmış Zakirədən soruşmuşdu:

— Nəzər müəllim hanı?

Zakirə xanım fikirli-fikirli cavab vermişdi:

— Bilmirəm. Bayaq sizin yanınızdaydı.

— Tez onu tap gətir. Qəribə adamdı ha. Bu cür təntənəli gündə camaat onun başına yığışıb, o da özünü naza qoyur!

Zakirə getmişdi. Tədris hissə müdiri Məhər səhnəyə — Şakirin yanına qalxmış, qulağına nəsə pıçıldamışdı, ancaq Şakir əlini yelləyib eşitmək istəməmişdi. Stolun arxasına düzülmüş stulları göstərib:

— Sən də burda otur, Məhər, — demişdi.

— Yox, mən oturmayacağam, — Məhər tribunanın yanındakı pillələri enib aşağı düşmüşdü.

Hüsü müəllim əllərini ovxalaya-ovxalaya Şakirin yanına gəlib, salona göz gəzdirərək gülümsünmüşdü:

— Çox adam var...

— Nəzər yoxdu, — Şakir əsəbiliklə söyləmişdi. Elə bu ara Zakirə xanım irəli yerimişdi:

— Yoxdu Nəzər müəllim!

— Bəs hara gedib?!

Zakirə xanım çiyinlərini çəkmişdi:

— Bilmirəm.

— Sən də çıx yuxarı, gəl otur burda.

— Yox, Şakir müəllim, mən də bu məclisdə oturmayacağam.

— Niyə axı?

— Ona görə ki, ona görə ki, mən bu qədər adamın içində ağlamaq istəmirəm.—Doluxsunmuşdu Zakirə xanım.

— Ba. Daha ağlamaq nə üçün? Biz bura ağlaşmağa yığışmamışıq ki? Biz öz müəllim yoldaşımızı pensiyaya yola salırıq, gülə-gülə, sevinə-sevinə.

Zakirə xanımın səsi titrəmişdi:

— Siz gülün də, sevinin də. Mən buna nə gülə bilərəm, nə sevinə bilərəm, — deyərək dikdaban çəkmələrinin üstündə fırlanmışdı və müəllimlər otağına getmişdi.

Dalınca qabaq cərkədə əyləşmiş müəllimlərdən üç nəfəri də

salonu tərk eləmişdi.

Şakir çiyinlərini çəkib Hüsü müəllimə nə isə demək üçün yana çevriləndə onu da böyründə görməmişdi, dodaqaltı nə isə mızıldanmışdı.

...Həmin gün — yəni sentyabrın ikisində, Nəzər taxta körpünün üstündən qayıdan gün, həyət-bacaya sığışmadı. Yaman incimişdi, ürəyi göynəyirdi, yox, lap sız-sız sızıldayırdı. Bir yerdə qərar tutub dayana bilmirdi, gah taxtın üstündə oturub kitab oxuyurdu, gah beli götürüb bağçada yer şumlayırdı, gah radioya qulaq asırdı, gah da... heç özü də bilmirdi neyləyirdi. Amma hər nə eləyirdisə, məktəbin zəng səsləri elə hey qulaqlarında səslənirdi; Məktəb burdan uzaq idi, orda çalınan zəngin səsi heç vəchlə bu həyətə gəlib çatmazdı. Ancaq indi, qəribə idi, çatırdı, eşidilirdi, lap aydın eşidilirdi. Özü də hər qırx beş dəqiqədən bir, beş-on dəqiqə fasilə ilə. Və bu çingiltili səs onun qulaqlarında hər dəfə səslənəndə, elə bil ürəyinin telləri əsirdi içəridə. O səsləri çox eşitmişdi, uzun illər eşitmişdi, ancaq indiki kimi ona şirin, mənalı, həzin görünməmişdi o səslər. Musiqi kimi ecazkar idi indi o səslər.

Axşamçağı, ikinci növbə qurtarandan sonra Zakirə, Hüsü, Məhər və bir neçə başqa müəllim hay-küylə, deyə-gülə Nəzər müəllimin darvazasını açıb içəri girdi. Nəzər onları görüb kövrəldi, ancaq özünü ələ aldı. Dedilər, güldülər. İri bir gül dəstəsi, bir gözəl büllur vaza gətirmişdilər.

Hüsü müəllim, dəstənin başçısı, ağsaqqalı kimi, hədiyyəni Nəzərə təqdim eləyib, əlini sıxdı, üzündən öpdü, o birilər də onun kimi elədilər.

— Bağışla ki, belə oldu, Nəzər müəllim, — Hüsü dedi. — Biz səni, öz ağsaqqalımızı gərək bu cür yola salmayaydıq. Ancaq neynəyəsən... Şakirdi də...

— Sizdə günah azdı, bala. Ziyalının taleyini nadana tapşıranda həmişə belə olur. Mən Şakirdən o qədər də incimirəm. Mən sizdən, özümdən inciyirəm, düzü. Biz-biz olsaydıq, yəni kollektiv kollektiv olsaydı, Şakirlər meydan sulaya bilməzdi, ortalıqda at çapa bilməzdi, Bir müdrik yaxşı deyib ki, məzlum olmasa, zalım ola bilməz. Düz deyib, lap gözəl deyib: vallah, gözəl deyib, billah, gözəl deyib. Siz müəllimsiz, mən özümü də sizdən ayırmıram ha, siz öz haqqınızı, hüququnuzu başa düşməyəndə, belə olar. Sovet dövləti isə belə deməyib, bala. O müqəddəs bileti heç bilirsiz cibinizdə niyə gəzdirirsiniz? O bileti ona görə sizə veriblər ki, düzgün olasız, ədalətli olasız,

haqqı nahaqqın ayağına verməyəsiz, mübariz olasız, əyriyə əyri, düzə düz deyəsiz.—O, müştüyünə siqaret taxıb yandırmış və davam etmişdi; —Amma siz passivsiz, siz elə bilirsiz vəzifəniz beş-altı saat dərs deməkdən ibarətdi. Vəssalam: Yox, mən dəfələrlə sizə demişəm, ayrı-ayrılıqda hər birinizə demişəm, siz müəllim olmaqdan əvvəl vətandaş olmalısız, sizin ürəyinizdə bu torpağa, bu sadə, işləməkdən başqa bir şey haqda düşünməyə belə vaxtları olmayan bu zəhmət adamlarına məhəbbət olmalıdır. Olmasa, siz hədər yaşayırsız, şikəstsiz; sizin yetirdiyiniz, tərbiyə elədiyiniz uşaqlar da, bu torpağın kələmək vətəndaşları olacaq bu uşaqlar da, sizdən zəif, sizdən aciz olacaqlar, vallah, olacaqlar, billah, olacaqlar. Onda Şakirlər çoxalacaq, onda Şakirlər istədiyini eləyəcəklər, haqsızlıq ayaq tutub yeriyəcək, təmizlik, inam, gözəllik öləcək, həyat bu şirinliyini itirəcək. Demişəm. Ancaq nə olsun? Şakir birinizin dərsini iki saat artıran kimi, dostu olmusuz onun. Birinizə mükafat verən kimi, demisiz Şakir yaxşı adamdı. Ancaq siz fikirləşməmisiz ki, Şakir bununla sizin mənliyinizi, ləyaqətinizi, şərəfinizi satın alır, sizi öz quluna çevirir. Fikirləşməmisiz... Vallah, fikirləşməmisiz.

Zakirə öz evindəymiş kimi çay hazırladı. Hərənin qabağına bir stəkan xoruzquyruğu çay qoydu. Nəzər bunu görüb, sözünə ara verərək:

— Ay sağ ol, qızım. Ömrün uzun olsun, bala, — dedi. — Bikə evdə yoxdu, mənim də heç ağlıma gəlməyib. Bağışlayın, siz allah.

— Bura bizim öz evimizdi, Nəzər müəllim, — Zakirə əyləşdi.

Hüsü daz başını qaşıyıb:

— Düz deyirsən, Nəzər müəllim, — söylədi. — Biz zəiflik göstəririk. Şakir əmisinə arxayın olub nə istəyir, onu da eləyir. Biz isə, çox vaxt göz yumuruq. Belə olmamalıdı, amma.

— Əlbəttə, — Məhər dedi, — kollektivdən çox şey asılıdır.

Nəzər buğlanan çayı qabağına çəkib stəkanı iri ovcunun içinə aldı və çoxlu siqaret çəkməkdən acışan boğazını arıdıb davam etdi:

— Siz bilirsinizmi ki, hər adama vəzifə tapşırmaq olmaz? Bilirsiz, bilmirsiz? Deyəcəksiniz, bilirik. Amma işdə əməl eləmirsiz. Məsələn, Şakir kimi adamlara vəzifə vermək olmaz. Tutaq ki, səhv elədik verdik, beş-on gündən sonra aydın oldu ki, o, bu vəzifəya layiq adam deyil. Biz onda onu dərhal çıxarmalıyıq. Amma yox, deyirik hələ təzə qoymuşuq, çıxarmaq olmaz. Qoy işləsin. Elə bil bir adama vəzifə verəndə orada, yuxarıda, deyək, maarif şöbəsində, ya katiblikdə, lap nazirlikdə boş bir qovluq da qoyurlar. O qovluq şika-

yət ərizələri, həyəcan siqnalları ilə, anonim məktublarla dolmayınca, o adamı işdən çıxarmaq mümkün olmur. Ta o vaxta qədər ki, o qovluq ağızbağız dolur, ta güclə bağlamaq olur, onda deyirik hə, ta yetişib, indi çıxarmaq olar.

Amma axı, ay yoldaşlar, o qovluq dolanacan illər keçir, işlər əyilir, korlanır, haqq-ədalət itir, üfunət aləmi ağzına götürür, o qədər maddi-mənəvi ziyanlar vurulur ki, onları sonra düzəltmək çox çətin olur. Nəhayət, filankəsi, işindəki ciddi nöqsanlara görə vəzifədən götürürük. Axı, o nöqsanları bir il, dörd il, bəzən lap beş il bundan qabaq da görürdük. Biz niyə qoyuruq vəziyyət bu əndazəyə gəlib çıxsın? Axı, belə olmaz.

— Nəzər müəllim lap köhnə partiya işçisi kimi danışır,—deyə Zakirə xanım gülümsündü.

— Axı, sən özün yaxşı bilirsən, Nəzər müəllim, bir adamı vəzifəyə qoyanda, məsələn, Şakiri bizə direktor təyin edəndə bizdən soruşmadılar, Mikayılı bu kəndə sədr qoyanda bu camaatdan soruşmadılar. Üçüncü katib gəldi, dedi, belə məsləhət bilirik. Bu camaat yazıq neyləsin?

— Düzdü, soruşmurlar. Ancaq bu, düz deyil. Vallah, düz deyil, billah, düz deyil. Gərək kollektivdən soruşsunlar, gərək camaatdan xəbər alsınlar ki, ay yoldaşlar, siz bu adamla işləmək istəyirsiz, ya yox? Onda hər təsadüfi adam vəzifə başına gələ bilməz. Yaxud tutaq ki, bax, sən, Hüsü müəllim, bir partkom kimi, uzağa getməyək, elə burada oturan yoldaşlara xasiyətnamə yazırsan. Sənin yazdığın xasiyyətnamələr əkiz bacılar kimi bir-birinə oxşayır, standartdı, şablondu. Bu adamların hamısı sənin xasiyyətnaməndə yaxşı adamlardı, ictimaiyyətçidi, fəaldı və s. Amma bunlar heç bir-birinə oxşamır, hardasa fərqlənirlər axı? Mənə elə gəlir ki, sənin xasiyyətnamələrində bir maddə də olmalıdı.

— Nə maddə, Nəzər müəllim? — Hüsü soruşdu.

— O maddə ki, bax, sənin xasiyyətnamə yazdığın adam vicdanlıdırmı? Belə bir məsələ mütləq olmalıdı, bala. Onda sən bu suala cavab verəndə fikirləşərdin. Məsələn, fikirləşərdin ki, Şakir Şakirzadənin vicdanı varmı? Ya Mikayıla xasiyyətnamə yazan fikirləşərdi ki, onun vicdanı varmı, oğru deyil ki, tamahkar deyil ki, rüşvətxor deyil ki? Bax, o sual olsaydı, indi «Sülh» kolxozunun zəhmətkeşlərinin bir milyondan çox pulu yeyilməzdi, indi Mikayıl da ağzıbirdə yatmazdı! Yaxud, anketlər doldururuq. Hər şey soruşulur anketlərdə. Xaricdə adamımızın olub-olmamasına qədər. Mükafatı-

mız varmı? Nə olar, o anketdə soruşulsun, vicdanımız da varmı? Onda bu suala cavab verəndə, mən, sən, o, fərqi yoxdu kim, fikirləşərik ki, doğrudan da vicdanımız var, ya yox?

Məhər müəllim güldü:

— Nəzər müəllim elə şey deyir ki... Kim o anketdə öz əlilə yazar ki, mənim vicdanım yoxdur?

— Heç kəs yazmaz,—Hüsü qımışdı.—Heç kəs yazmaz, Nəzər müəllim.

— Yazmaz? Yazmazsa, sabah işi əyəndə, cinayət eləyəndə, oğurluq eləyəndə yaxasından yapışarsan ki, bəs, ay filan-filan şüdə, burada yazmısan ki, vicdanım var. Bəs hanı sənin vicdanın? Bəs sən camaatı, dövləti, partiyanı niyə aldatmısan, ay vicdansız? Bax, belə. Bunun heç olmasa, burada xeyri olar ki, — o, üzünü Hüsü müəllimə tutdu, — sən Şakir kimilərə xasiyyətnamə yazanda qorxudan yaza bilməzsən ki, o vicdanlıdır. Sən bilsən ki, bu xasiyyətnamə üçün sabah, o adam bir pis iş görəndə sənin də yaxandan yapışacaqlar, vallah, qorxudan qol çəkməzsən, billah, qol çəkməzsən. Bax, belə.

Söhbət şər qarışanacan davam etdi. Nəzər müəllim onlara öz minnətdarlığını bildirib, qapının ağzınacan ötürdü. Darvazanın önündə Zakirə ona dedi:

— Nəzər müəllim, ayağınızı məktəbdən birdəfəlik kəsməyin, siz allah. Gəlin, gedin. Öz məktəbinizdi. Darıxacağıq sizin üçün, Nəzər müəllim.

Nəzər ah çəkdi:

— Sağ ol, qızım. Amma yox, gəlməyəcəyəm. Nə qədər ki, Şakir orda direktordur, mənim ayağım ora çətin ki, dəysin. — Onun bu sözlərinin üstündən heç kəs heç nə demədi.

YEDDİNCİ FƏSİL

Bikə xanım günorta evə gəlmişdi.

— Nə olub, ay kişi? Görürəm, çox bikefsən, pərişansan neçə gündü. Dünyada pensiyaya çıxan elə bir sənsən? İtiyi itmiş adam kimi ora-bura çovuyursan. Şakir kimdi ki, sən onun sözüynən ərizə verirdin ki? Dəvədən böyük fil var. Mənə desəydin, qoymazdım səni ərizə yazasan, kişi.

— Eh, sən də. Arvad ki, arvad. Məgər sən bilmirsən, elə şeylər var ki, nəinki sənlə, heç atamla da dirilib gəlsə belə məsləhət-

ləşmərəm?

— Mən sənin pensiyaya çıxdığını eşidəndə, düzü, sevindim, kişi. Bəsdi ta. Bir az da dincələrsən. Evdə-eşikdə tapılarsan. Yoxsa istirahət günlərindən, tətillərdən başqa sənin üzünü gündüzlər bu evdə gördüyüm yadıma gəlmir. Kişi olan bəndə bir öz ev-eşiyinə, həyət-bacasına baxmaz bəgəm? Budu bax, maşallah, neçə gündü evdəsən, gör nə qədər iş görmüsən. Bağçanı şumlamısan, hasarın sarmaşığını qayçılayıb abıra mindirmisən...

— Həyəti süpürmüşəm hər gün...

— Hə, atan rəhmət, həyəti süpürmüsən. Bu gün bazara gedib kartof, göy-göyərti almısan.

— Sən işin gözünə görünən tərəfini deyirsən, Bikə. Amma məsələnin o biri tərəfini görmürsən.

— Hansı tərəfini?

— O tərəfini ki, sən bilmirsən, məsələn, bax, elə bu gün nə qədər əsəbiləşmişəm. Ömrüm ən azı üç il geri düşüb.

— Niyə ki?

— Evdə darıxdım. Kəndə çıxdım. Bir adam yoxdu, qoca da, cavan da çöldəydi, tarladaydı. Danışmağa, həmsöhbət olmağa bir başıpapaqlı tapmadım. Dedim gedim rayon mərkəzinə, bazara-dükana bir baş çəkim. Neyləyim, indi mən vaxt öldürürəm. Sən təsəvvür elə, dünyada qızıldan da qiymətli bir şey varsa, o da vaxtdır, Sədnikin qızı. Cavan olanda adam bunu o qədər də yaxşı başa düşmür. Amma ömrün qürubu yaxınlaşanda, doğrudan da görürsən vaxt qızıldan da qiymətlidi. Vallah, qiymətlidi, billah, qiymətlidi. İndi mən o qızıldan qiymətli vaxtı şüurlu surətdə öldürməyə çalışıram. Bax, mənim üçün bu dəhşətdi, Sədnikin qızı. Hə, girdim bazara. Pay atonnan, bazar od tutub yanır. Mən indiyəcən bilməmişəm. Adə, hökumətin mağazasında qənd bir manatdı, bazarda acı soğan iki manat, pendir səkkiz-on manat, kartof manat yarım. Allahın bu göy-göyərtisinin dəstəsi iyirmi qəpik. Vay, sizin atanıza lənət, faşist uşağı faşist. Belə şey olmaz axı. Buna pul çatar, maaş çatar? Nə isə, bundan bir əsəbiləşdim. Bir az o yana keçdim, gördüm Cura müəllim,— səkkiz qızı da var ha, bax, o, — kamali-səliqə ilə piştaxtanın qabağında dayanıb pendir satır. Əvvəl gözlərimə inanmadım, dedim yəqin oxşadıram. Xeyr a?! Yaxın gəldim, gördüm özüdü ki, var. Cin vurdu kəlləmə. Müəllim — alver?. Adə, bunların başı xarab olubdu, nədi, baş açammıram. Deyirəm, ay Cura, bu sənsən? Deyir, necə ki görürsən, Nəzər müəllim, mənəm. Deyirəm, ay müəllim, bü nə gündü, bu

nə rüzgardı? Axı, sən müəllimsən, ay kişi. Sən öz ləyaqətinə necə sığışdırırsan gəlib burada tərəzi dalında dayanırsan, alıcılarla çənə döyürsən. Deyir neyləyim, müəllim, məcburam, heyifim gəlir, qalıb çürüyür. Gətirdim ki, satım, uşaqlara bir az əyin-baş alım. Dedim, Cura, yığışdır bunu, sən canın, özünü də, müəllim adını da ləkələmə, qardaş. Dedi, bunları mən də başa düşürəm, Nəzər müəllim, yaraşmaz. Ancaq çarəm yoxdu, vallah. Təkcə ləyaqətnən arvad-uşağın qarnını doydurmaq olmur, Nəzər müəllim.

Bütün günü dəli kimi gəzmişəm, Sədnikin qızı. İnanırsan, Qəribə baş çəkəcəkdim, o da yadımdan çıxdı, bir də onda ayıldım ki, gəlib evə çatmışam, Məktəb, dərs mənim başımı qatmışmış, dunyadan xəbərim yoxmuş, Sədnikin qızı. Aləm imiş dunyanın işi.

— Bəs nə bilmişdin, kişi. Bu neçə ilin evi mən dolandırmışam, ağrımı-acımı da sənə açıb-ağartmamışam, elə bilmisən həyat elə sənin oxuduğun, dərs dediyin o kitablardakı kimidi. Yox, əzizim, həyatla kitablarda yazılanlar arasında yernən göy qədər fərq var. Bunu başa düşmək, alışmaq lazımdı.

— Sənin dediyndən belə çıxır ki, onda yazıçılar, alimlər də yalan danışırmış? Halbuki, qələm əhli gərək yalandan, riyadan uzaq olsun, ağa ağ, qaraya—qara desin. Bizə belə deyiblər, biz belə oxumuşuq, belə öyrənmişik? Sədnikin qızı. Bir də mən onların — yazanların demək olar ki, əksərini tanıyıram, aralarında həyatı yazanlar, düz yazanlar və buna görə də başı ağrıyanlar var, arvad.

— Nə bilim, ay kişi! — dedi Bikə xanım və dil-dodağının təpidiyini hiss eləyib çay tədarükü görmək üçün getdi.

...Nəzərin qabağındakı armudu stəkanda Bikə xanımın həmişə xüsusi bir məharətlə dəmlədiyi xoruzquyruğu çay buğlanırdı. Gödək, qara muştüyünə keçirdiyi «Avrora»nı arxayın-arxayın sümürür, gözlərini darvazadan çəkmirdi, elə bil kiminsə indicə qapını açıb içəri girəcəyini gözləyirdi. Üzə vurmurdu, neçə gün idi açıb-ağartmırdı, ancaq gözləməsi vardı; ürəyinin dərinliyində iynə ulduzu boyda bir ümid közərirdi ki, bəlkə Şakir, heç olmasa quru rəsmiyyət xatirinə, kinini, hikkəsini udub, unudub, öz qoca müəlliminin yanına gələr, hal-əhval tutar, o yandan-bu yandan danışıb könlünü alar. Umurdu, istəyirdi. Gəlsəydi, Nəzər bağışlardı, keçərdi. «Başa düşürsə, onun özü də böyük şeydi», — deyib təskinlik tapardı. Amma o, gəlmirdi. Və indicə, nə üçünsə məhz indicə o iynə ulduzu boyda işıq, ümid işığı söndü Nəzərin ürəyində və o, darvazadan gözlərini çəkib, qabağında lal-dinməz oturmuş arvadına da məhəl qoymadan, dam-

daşa baxmağa başladı, ürəyindən keçirdi ki, Bikə xanım bu illər ərzində düz deyirmiş: nahaq onun sözünə baxmayıb, bu kənddə hamı həyətinə daş hasar çəkib, ağ daşdan bir mərtəbali, eləsi var, iki mərtəbəli ev tikdirib. O isə rəhmətlik. Səlminaz arvadın müharibədən də neçə il qabaq bina etdirdiyi o köhnə dam-daşda yaşayıb, çox vaxt söküb yenisini tikməyə imkanı olmayıb; imkanı olanda da ürəyi gəlməyib ki, ana yadigarıdı, ana ocağıdı. Uzun illər Canəli bəyin kolxoz idarəsi edilmiş evindən başqa yeganə göz-könül oxşayan ev idi bu ev. İndi divarları dibdən nəm çəkib urlayıb, Nəzər fikrində neçə dəfə onu uçurmuşdu, yerində ikimərtəbəli, aynabəndli ev tikmişdi. Xəyaldan, ayılanda elə o köhnə ana ocağını görüb qüssələnmişdi.

İndi də, hələ ki Bikə xanım səsini çıxarmırdı, dinib-danışmırdı, Nəzər yenə fikrində söküb-tikirdi. Arvadı isə dirsəklərini stola dirəyib yumru, xallı - çənəsini ovucları içinə alıb, qonur, uzun kirpikli, yaşlansa da, hələ işığı, gözəlliyi azalmamış gözlərini ərinə zilləyib tamaşa -edirdi; elə baxırdı ki, guya onu çoxdan görməyib, darıxıb, indi doyunca -tamaşa eləmək üçün əlinə fursət düşüb, bu fürsəti buraxsa Nəzər çıxıb gedəcək və kim bilir, bir də haçan belə imkan olacaq.

Nəzər sövqi-təbii ilə hiss eləyirdi ki, Bikənin gözü ondadı və nə isə sözlü adama oxşayır. Kişi başa düşürdü ki, o, nigarandı, onu evdə tək qoymaq istəmir, nahara tez gəlir, gec gedir neçə gündü və bunu ürəyində çox qiymətləndirirdi.

O, müştüyünü külqabının qırağına qoyub stəkanı əlinə aldı və bir qurtum içib:

— Xeyir ola, ay arvad, mənə nə belə zənn ilə baxırsan? Buynuz-zad çıxartmamışam ki? — deyə bayaqdan bəri davam edən sükut buzunu parçaladı və sol əlini geniş alnına çəkib gülümsündü — guya buynuz çıxarıb-çıxarmadığını yoxlayırdı.

Bikə görünür, hələ öz aləmindəydi, ərinin nə dediyini başa düşmədiyi üçün fikirli-fikirli:

— Nə? — deyə xəbər aldıqda Nəzər qayğılı-qayğılı söylədi:

— Fikirlisən, nə olub?

— Heç. Sənin barəndə fikirləşirəm. Nəzər stəkanı yerə qoyub gülümsündü. Bikə astadan:

— Nəyə gülürsən? — dedi.

— Heç. Yadıma bir lətifə düşdü.

— Hə? — deyə Bikə xanım yerini rahatlayıb tələsik soruşdu.

Nəzər «Avrora»nın kötüyünü müştükdən çıxardıb külqabına basdı, tələsmədən başladı:

— Bir faşist oğlu faşist varmış, aləmi çapıb-çalarmış, hər gün iki əlində də dolu zənbil evə gələrmiş, ayağının ucu ilə qapını döyərmiş, bütün günü evdə yatıb yuxu bişirən arvadı elə yuxulu-yuxulu da gəlib qapını açarmış, ərinin üzünə baxmadan onun zənbillərini alarmış. Vaxt olur bu kişinin qaraçuxası yatır, bir şey qazana bilmir, o gün evə əliboş gəlməli olur. Arvadı adəti üzrə yenə yuxulu halda qapını açır, ərinin əlinə baxır, görür heç nə yoxdu. Yuxulu gözlərini qaldırıb təəccüblə ərinin üzünə nəzər salır və birdən:

— Vay, kişi, sənin burnun nə yekəymiş? — deyir. Kişi qanıqara halda: — «Evini Allah yıxmasın, arvad, iyirmi ildi mənimlə bir damın altında yaşayırsan, burnumun yekə olduğunu hələ indi görürsən? İndiyəcən sən mənim ancaq əlimə baxıbsan, arvad, burnum heç yadına düşməyib» — söyləyir. İndi o kişinin sözü olmasın, ay Bikə, az qala qırx ildi mənimlə ömür-gün sürüdürsən, nə əcəb səndən, gün hayandan doğub ki, birdən-birə mən barədə fikirləşmək yadına düşüb? Hə, xırdala görək nə fikirləşirdin mənim haqqımda?

Bikə böyründəki «papaqlı» çaynikə əl atıb, ərinin çayını təzələdi, bu dəfə özü üçün də çay süzdü və köks dolusu ah çəkib, Nəzərin sualına birbaşa cavab vermədi, nəsə götür-qoy edəndən sonra uzaqdan başlayıb üzü bəri gəldi:

— Əvvəla, qulluğuna ərz eləyim ki, sən o söydüyün faşist oğlu faşist kimi olmayıbsan, Nəzər. Bu otuz yeddi ildə əgər barmaqla saysan, cəmi-cümlətanı otuz yeddi dəfə bu evə əli-dolu gəlibsən, ya gəlməyibsən.

Nəzər yerində qurcuxdu, müştüyünü çıxarıb siqaret yandırdı; arvadının onu qazanc gətirmək məsələsində başqa kişilərlə müqayisə etməsi həmişə ürəyini cırmaqlamışdı, bu cür müqayisələrdən zəndeyi-zəhləsi gedərdi. Onda Nəzər açıb-ağartmasa da, ürəyində, beynində ağır, acı bir hiss kimi hey dolandırardı ki, arvadı onun təmizliyini, namusluluğunu və elmindən, mərifətindən əlavə, bir də, heç kəsin yanında gözükölgəli olmamasını qiymətləndirmir. Ya bunu başa düşmür, ya anlamaq istəmir, ya da, sadəcə olaraq, bu elə məsələdi ki, Bikə bunu deməkdən özünü saxlaya bilmir.

Nəzərin siqaret yandırıb tələsik sümürməsindən və qurcuxmasından Bikə xanım onun nə isə demək istədnyini göydə tutdu və sağ əlini qaldırıb:

— Hə, dayan, o saat cırnama, çətənəqursaq olma. Bəli,

gəlməmisən, Nəzər. Bu bir. İkincisi, insafın varsa, boynuna al ki, mən heç vaxt sənin əlinə baxmamışam. — söylədi.

— Düz deyirsən, arvad, əlimə baxmamısan, ancaq cibimə baxmısan.

— Hə, onu düz deyirsən. O şey ki, düzdü, düzdü. Cibin mənim olub həmişə. Ayda ikicə gün.

— Bəs fikrin nə idi? Yoxsa hər gün cibim dolu olmalı imiş, səncə?

Bikə xanım bilirdi ki, indi deyəcəyi sözdən Nəzər od düşmüş pambıq tayası kimi alışacaq, ürəyinin dərinliyində havaxtdan yığılıb qalmış və artıq dilinin ucuna qeyri-iradi gələn sözləri uda bilmədi:

— Amma evə hər gün əli də, cibi də dolu gələn kişilər də var, Nəzər.

Bikənin gözlədiyi kimi də oldu. Nəzər partladı:

— Onlar kişi niyə olur? Onlar faşistdi, lap düzünü bilmək istəsən, faşist oğlu faşistdi. — Görünür, Nəzərin ürəyi bununla da soyumadı. Səsini uzada-uzada: — Lap, lap düzünü bilmək istəsən, oğrudu, julikdi, çapğınçıdı, rüşvətxordu, alçaqdı, vicdansızdı, həyasızdı onlar. Bildin? — səylədi.

Bikə xanım söhbəti bu yerə gətirib çıxardığına yamanca peşiman oldu, sıxıla-sıxıla dedi:

— Hə, hə, bildim. Sən allah, hirslənmə. Söhbətdi də, eləyirik, ta niyə hirslənirsən, ay kişi. Son vaxtlar lap hövsələsiz olubsan ha! — sonra ərinin qırışığını açıb, güldürmək üçun eynən onun kimi:

— Lap, laap hövsələsiz olub gedibsən! — dedi. Ancaq Nəzərin üzünün ifadəsi bir zərrə də dəyişmədi.

— Olaram da! Buna hövsələ davam eləyər? Sən öləsən, bu gidi-dünyada mizan-tərəzi itib deyəsən. Ağnan qaranı, oğruynan doğrunu, təmiznən natəmizi, mərdnən namərdi, vicdansıznan vicdanlını bir-birindən ayırıb qiymətləndirən bir qüvvə qalmayıb yəni? Gör işin harasıdır ki, sən də, savadlı adam da belə düşünürsən, onda gör avam-uvam necə fikirləşir? Qəribədi, vallah, baş açammıram, bizə nə oldu, belə? Vaxt var idi, oğru-əyri bir idi, uzaqbaşı iki idi, onları da hamı barmaqla göstərirdi, bu oğru-əyri də başını gizləməyə yer axtarırdı. İndi bilmirəm necə olub ki, faşist uşağı faşist, yağışdan sonra çıxıb düzü-dünyanı tutan göbələk kimi çoxalıb. Bu bir ovuc qor-qoduğun əlindən gül kimi yaşayışımız, adımız-sanımız gedib badi-fənaya. Bir yaxşı adam görəndə az qala hamımız heyrətlə içimizi çəkib deyirik: ilahi, gör nə yaxşı adamdı. Axı, adamların hamısı elə yaxşı olmalıdı,

gözəl olmalıdı. Elə olmalıdı ki, pis adam görəndə heyrətlənməliyik, yaxşı adam gözə dəyəndə yox. Kişi deyirsən sən! Kişi sözünün mənası da dəyişib elə bil. Başıboşlar, ağlıdayazlar indi oğruya, ruşvətxora kişi deməyə başlayıb. Məni bu, hər şeydən çox yandırır, vallah, təpəmdən tüstü çıxır, inan. Sənin kimilər fikirləşmir ki, dövlət adama ayda iki dəfə zəhmət haqqı verirsə, bəs necə olur ki, bu faşist uşağı faşist, hər gün evə cibi, əli dolu gəlir? Deməli, gün kimi aydındı ki, o hardansa, kimdənsə oğurlayır. Siz də buna kişi deyirsiz!...

Bikə xanım əlinin arxasıyla gözlərinin nəmini sildi, ah çəkdi:

— Əsəbiləşmə, ay kişi sən allah. Bu dünya əzəldən bela gəlib, belə də gedəcək. Sən ha de, ha danış, dəridən-qabıqdan çıx, dəyirman bildiyini eləyəcək, çax-çax da baş ağrıdacaq.

— Səhvsən, Sədnikin qızı! Doğrudu, bu dünya belə gəlib, amma belə getməyəcək, Sədnikin qızı. Bir də görəcəksən ki,— bax, buna gün kimi, ay kimi inanıram, — bəli, bir də görəcəksən ki, bizim o gözəl nağıllarımızda söylənən sayaq, ağıllı-kamallı, ağ atlı bir oğlan gəldi və var səsiylə hamıya car çəkib dedi: ay vətəndaşlar, ay yoldaşlar, belə olmaz, belə yaşamaq olmaz. Onda bir tufan qopacaq, bir tələtüm yaranacaq, bir güclü, qəvidən qəvi dalğa gələcək ki, bütün zir-zibili, xıltı-mıltı, oğrunu-əyrini yuyub aparacaq, Sədnikin qızı. Onda baxarsan Şakirlərin, Ağayevlərin, Mikayılların, halına, bu faşist uşağı faşistin onda görərsən tifaqı necə dağılır. Tamaşa ondadı, Sədnikin qızı, əsl tamaşa ondadı.

Sədnikin qızı ah çəkib daha dinmədi, çünki danışmaqdan yorulmuşdu. Bütün günü uşaqlarla çənə-boğaz eləmişdi, üstəlik də ərininin bu gün «danışan günü» olduğundan elə bir ucdan üyüdüb tökmüşdü. Bikə mülayim, arada heç bir söz-söhbət olmayıbmış kimi, asta bir səslə:

— Çayını iç, soyutma! — dedi. — Cəhənnəm olsun zənbil də, burun da.

Nəzər pırpız qaşlarını çatıb qonur gözlərini arvadının üzünə zillədi və təəccüblə soruşdu:

— Nə zənbil, nə burun? Bikə də eyni təəccüblə:

— Necə yəni nə zənbil, nə burun?—deyə xəbər aldı.—Sənin lətifəndəki zənbili, burunu deyirəm də!.

— A… hə... —Və birdən Nəzər şaqqanaq çəkib ucadan güldü, elə güldü ki, gözləri yaşardı, əl atıb pencəyinin cibindən səliqə ilə ütülənib dörd bükülmüş dama-dama dəsmalını çıxarıb qatını açmadan gözlərini sildi və çiyinləri atıla-atıla:—Vay sənin evini Allah tiksin,

arvad. Gör nədən başladıq, harda qurtardıq. Xi, xi, xi. Zənbil, burun. Sən beləsən də, bir söz demək istəyəndə əlli dərənin selini-suyunu qatırsan bir-birinə, mətləbini qandırınca adamın ürəyini çəkib çıxardırsan. Bax, indi heçcə şeyin üstündə, bu mizin arxasında otura-otura dağı arana daşıdıq, aranı dağa köçürtdük, ancaq sən mənim haqqımda nə fikirləşdiyini yenə deyə bilmədin. Necə deyərlər, ayda, ildə bir namaz, onu da şeytan qoymaz,—söylədi,

— Sənsən də. Mən adam balası kimi sözümü deyəcəkdim, özün demiş, faşist oğlu faşistin burnunu soxdun ortalığa, aləmi qatdın-qarışdırdın.

— Hə, doğru deyirsən, arvad.

Araya sükut çökdü, Bikə xanım fikrə getdi, elə bil əri barədə söyləyəcəklərini unutmuşdu. Nəzər isə stulda yerini irahladı. Bu vaxt Bikə deyəsən yaddan çıxartdığını xatırladı və gülümsünə-gülümsünə;

— Ərz eləyim ki, məsələ sən deyən kimi döyül. Mən həmişə sənin barəndə fikirləşmişəm, kişi. Açığı ki, bütün bu illər ərzində mən sənindən fəxr eləmişəm, — dedi, — çünki sən bütün bu mahalda, lap cavan çağlarından sayılan, hörmət izzət sahibi bir adam olubsan. Səni bax, bu Əskərabad kəndində də, qonşu kəndlərdə də, bütün rayonda da həmişə ağsaqqal, sözükeçən, başbilən görmüşəm. Müəllim çoxdu, ancaq sən onlardan seçilibsən, sevilibsən. Camaat, el-oba bir «Nəzər müəllim» deyəndə, beşi də ağzından düşüb. Niyə? Çünki sən ağıllı olubsan, mehriban olubsan, təmiz olubsan, el qayğısına qalan olubsan. Bunların hamısını mən görmüşəm, hiss eləmişəm; niyə gizlədim, ürəyim fərəh hissilə dolub. Sevinmişəm ki, sənin kimi ərim var.

— Sağ ol, arvad! — Nəzərin gözləri parıldadı. — Sağ ol! Bəs indiyəcən bunları niyə bir dəfə də olsa mənə deməmisən?

— Hə, deməmişəm. Məhəbbəti, iftixarı dilə gətirməzlər mənim aləmimdə. Bunu ancaq duyarlar, hiss eləyərlər. Dilə gələndə məhəbbət ölür mənə elə gəlir! Gərək sən özün sözsüz-sovsuz da başa düşəydin ki, mən bunları çox uca tuturam və qiymətləndirirəm, Nəzər.

— Burada səhv eləyirsən, Bikə. Məhəbbəti, istəyi gərək deyəsən; bu, ancaq fərəh gətirərdi mənim üçün, məni belə tez qocalmağa qoymazdı, inan.

Bikə güldü:

— Qoczlığı indidən boynuna alma, sən allah.

— Necə almayım, ay Bikə? İki dənə ad veriblər ki, heç cür

altından çıxmaq olmaz. Balam, «Əmək veteranı» deyirsən — mən, pensioner deyirsən — o da mən.

—«Əmək veteranı» heç, indi onu hamıya verirlər. Ancaq bu tezliklə pensiyaya çıxmaqla səhv iş gördün, kişi. Səndən yaşdıları hələ də işləyirlər. Qulu müəllim işləyir? İşləyir. Səndən azı on yaş böyükdü? Böyükdü. Mustafa müəllim də, Cəlil müəllim də həmçinin. Sən indi elə bil taxtdan düşmüş padşahsan, kişi.

Bikə yenə də özü bilmədən ərinin yaralı yerinə toxundu. Nəzərin sifətinin dərisi dartıldı, gözlərinə kədər buludu çökdü elə bil. Baxışlarını başı üstə yüngül mehdən bir-birinə toxunub qəribə bir xışıltı ilə səslənən yaşıl yarpaqlarda dolandırıb ah çəkdi:

— Bilirsən, mənim aləmimdə müəllim həmişə müqəddəs varlıq olub. Yadıma gəlir, uşaq vaxtı elə düşünərdik ki, müəllim çörək yemir, müəllim yatmır. Nə isə ilahi bir varlıq idi müəllim bizim gözümüzdə. Elə bu sənəti seçməyimdə də o hiss çox böyük rol oynamışdı. İstəyirdim Əli kimi bir müəllim olum. Bu, həyatda mənim ən böyük arzum idi. Vaxt dolandı, həmin arzuma çatdım və ömrümü onun kimi müəllim olmağa sərf elədim. Peşiman da deyiləm. Əgər yenidən dünyaya gəlməli olsaydım, yenə müəllimlik sənətini seçərdim, Bikə. Çünki müəllim — işıq deməkdi, müəllim — elm, bilik, mərifət deməkdi. Bunu sən məndən pis bilmirsən, Sədnikin qızı.

Bikə başını tərpətdi ağır-ağır. Nəzər təzə siqaret yandırdı və asta-asta sözünə davam elədi:

— Ancaq mən neçə vaxt idi ki, bir müəllim kimi sınmışdım məktəbdə. — Bikənin nazik qaşlarının dartıldığını, üzünə bir təəccüb ifadəsi qonduğunu görüb tələsik söylədi: — Yox, yox, qorxma, şəxsən mənə heç nə olmamışdı, Bikə, inan. Sadəcə görürdüm ki, məktəb də, müəllim də, şagird də, valideyn də mənim on il, otuz il bundan qabaq gördüyüm, tanıdığım deyil; nə isə hiss olunmadan, elə bil gözəgörünməz bir əlin köməyi ilə onlar yavaş-yavaş dəyişməyə başlayır. Əvvəllər bunu ayrı-ayrı adamların ayağına yazıb pis şagird, pis müəllim, pis valideyn görəndə «meşə çaqqalsız olmaz» məsələsini yadıma salaraq özümə təskinlik verirdim. Bəli, əvvəllər bunlar təktük idi və mən bütün qüvvəmi, təcrübəmi işə salıb, hörmətimdən, ağsaqqallığımdan istifadə edərək bunları düzəltməyə, düz yola çağırmağa çalışırdım. Ancaq günlərin birində ayıldım və gördüm ki, uşaqların çoxu, mən deyərdim böyük əksəriyyəti oxumur, oxumaq istəmir, elə-belə, xala xətrin qalmasın deyə, bir attestat almaq üçün

məktəbə gəlib-gedir; gördüm, məsələn, otuz şagirddən biri, ikisi, lap uzaq başı üçü dərsə can yandırır. Halbuki qabaqlar otuz şagirddən biri, ikisi, lap uzaq başı üçü axsayardı, oxumazdı. Bu fikir məni götürdü. Səbəbini araşdırmağa çalışdım və başa düşdüm ki, bunun bir səbəbi — ilin əvvəlində, təzə fənnlərin öyrənilməyə başlanan çağı uşaqları ta pambıq planı dolanacan, üstəlik öhdəlik də yerinə yetirilənəcən çöllərdə saxlamağımızdı, dərsdən avara eləməyimizdi. Sentyabrın, oktyabrın dərslərini sonra çatdıraq deyə, ağına-bozuna baxmadan yükləməyimizdi. Beləliklə, pambıq elmi yeməyə başladı. Bunun ikinci səbəbi — müəllim özü imiş, sən demə. Müəllim — bizim vaxtımızdakı müəllim deyilmiş. Cavan müəllimlər qurtarıb gəliblər, dərs deyirlər. Bunların savadına baxırdım, heyrətə gəlirdim. Məlum olurdu ki, onların bəzisi savadsızdı, zamanın tələblərindən uzaqdı, mütəliədən qaçaqdı. Sən inanırsanmı ki, onların arasında «ensiklopediyaya» «enkislopediya», «məmnuniyyətlə» əvəzinə «məmuniyyətlə», «şərh» əvəzinə «şəhr», «saat» əvəzinə «sahat», «dəqiqə» əvəzinə «dəyqə» və s. və s. deyən müəllimlər vardı?

— Bəs bunların belə savadsız olmağının səbəbi nədi, kişi, görürəm, sən hər şeyin səbəbini axtarıb tapansan. Bunun səbəbi, kökü nədi?

— Kökü? İstər orta məktəbdə, istər ali məktəbdə hökmranlıq edən və iyirmi-otuzuncu illərdə — təhsilə böyük ehtiyac olan çağları — məktəb sisteminə daxil edilmiş faiz məsələsidir. Sən təsəvvür elə, uşaq oxumaq istəmir, huşu-başı yoxdu, həvəsi yoxdu, ancaq ona müəllimin aşağı qiymət vermək ixtiyarı yoxdur, çünki sinfin faizi aşağı düşər və deyərlər ki, filan sinif, ya ümumilikdə götürüləndə filan məktəb geri qalır. Demək, müəllim işləmir, təlim işi bərbaddı. Müəllimlərin avqust müşavirəsində maarif müdiri, ya Bakıdan maarif nazirliyindən gəlmiş nümayəndənin qılıncından qorunmaq üçün müəllim, ya bütöv bir məktəb saxtakarlığa yol verib, oxumaq istəməyən uşağa istər-istəməz yüksək qiymət vermək məcburiyyəti qarşısında qalır. Axı, hamı oxuyub alim, müəllim, mühəndis ola bilməz. Bu heç mümkün deyil. Bu, heç lazım da deyil, vallah, lazım deyil, billah, lazım deyil. Nə qədər demişəm, nə qədər yazmışam? Hələ bu yaxınlarda nazirliyin nümayəndəsi məni buna görə bərk tənqid də elədi, «sən siyasətimizi, görünür, başa düşmürsən, Nəzər müəllim», — dedi, «səni təkmilləşdirmə kurslarına göndərmək lazımdır. Deyəsən, həyatın sürətli axınından geri qalırsan, müəllim. Sən, təcrübəli

bir müəllim, belə düşünəndə, indi gör sıravi müəllimlər nə fikirləşir». Söz yox, mən də yerimdən qalxıb dedim ki, «mən həyatın özünü oxuyub deyirəm sizə bunu, yoldaş Şərifzadə! Sizin bərk-bərk yapışdığınız o tədris üsulu çöxdan köhnəlib, həyatın tələblərinə cavab vermir!» Amma nə olsun, kim idi mənim sözümə qulaq asan! Hamıya attestat vermişik, onların da çoxu bax, bu iki vərəqli sənədin ətəyindən yapışıb Bakıya, Gəncəyə, nə bilim daha hara, ali təhsil almağa gedib, bir qismi öz başının gücünə, kimisi qardaşının, dayısının, əmisinin hesabına, kimi də pul-maya gücünə girib oxuyub, bir az o attestatdan qalın, bir az da böyük bir diplomla geri qayıdıb. Geri qayıdıb dedim? Yox, yox, çoxu şəhərlə ilişib qalıb. Tək-tükü gəlib çıxıb öz doğma kəndinə, rayonuna. Elə bu tək-tükün özünü indi bu saat məktəblərdə yerləşdirmək, hamısına heç olmasa bir ştat dərs vermək və beləliklə, onun yaşayışını təmin etmək çox çətinləşib. Kəndlər isə boşalıb, ərsəyə gələn cavanları özümüz uçurmuşuq şəhərlərə. İşçi qüvvəsi yoxdu indi kəndlərdə, təsərrüfat, əkin-biçin qız-gəlinin, artıq yaşlaşıb-qocalmış arvadların, kişilərin umuduna qalıb! Bunun iqtisadi ağrısını biz hələ sonra çəkəcəyik, Bikə. Çünki indi sən artıq əlində diplom olan o cavanı gətirib kolxozda, sovxozda, əkində, biçində işləməz. Amma axı, bu sahələrdə də adamlar lazımdı bizə də, o özü şəninə sığışdırıb kənddə traktorçu, suçu, çoban işləməz. Amma axı, bu sahələrdə də adamlar lazımdı bizə. Yoxsa «sən ağa, mən ağa, bəs inəkləri kim sağa?!»

— Düz deyirsən, kişi — Nəzər dinmədi. Yenə sarmaşıqlı hesara göz gəzdirdi, baxışlarını bir az dincəldəndən sonra əlavə elədi:

— Maarifimizə başçılıq eləyən böyük yoldaşlar hardasa səhv elədiklərini başa düşdülər və bunu düzəltmək üçün orta məktəbdə «attestat balı» sistemini irəli sürdülər. Qocaman, təcrübəli bir müəllim kimi, mən bu siyasəti çox götür-qoy elədim, insafən, bunun yaxşı cəhətləri var idi, uşağın məsuliyyətini artırırdı. «Yüksək qiymət ala bilməsəm, ali məktəblərin qapıları üzümə bağlanacaq!» — deyə düşünürdü uşaqlar və dərsə can yandırırdı. Ancaq bunun başqa, ilk baxışda gözə görünməyən cəhəti də varmış ki, onu o yoldaşlar nəzərə almamışdılar.

— Nə cəhət idi ki o? — deyə çox nadir hallarda, beş ildə, on ildə, ürəyi lap dolub yağmaq istəyəndə belə müfəssəl danışmaq həvəsi olan ərinin filosof kimi ağır, təmkinli fikir karvanını axıra qədər izləmək arzusunu boğa bilməyən Bikə xanım xüsusi bir maraqla so-

ruşdu:

— Bu cəhət o idi ki, orta məktəbə də rüşvət ayaq açdı. Bir çox fənlərin müəllimləri bu və ya digər uşağa qanunla aşağı qiymət verməli idi, bunu isə nə uşaq, nə də onun ata-anası istəyirdi. Çünki attestat qiymətləri üç olan uşaq ali məktəbə gedə bilməzdi. Oxumaq isə dəb halını almışdı. Valideyn bu maneəni aradan qaldırmaq üçün müəllimin yanına gəlməli, onu «görməli»və ümumi dil tapmalı idi. Bax, bu zaman rüşvət dal qapıdan orta məktəbə girməyə başladı. Müəllim — rüşvət! Ən müqəddəs varlıq və ən iyrənc bir məfhum, hərəkət! Rüşvət ki, məktəbə girdi, o məktəb öldü. Müəllim ki, rüşvət aldı, o müəllim şərəfsiz oldu. O daha müqəddəslikdən danışa bilməz, o, dərs dediyi uşağın gözünün içinə şax baxa bilməz, onu doğruluğa, düzlüyə, vicdanlı olmağa, halal zəhmətə çağıra bilməz. Heç vaxt çağıra bilməz. Əgər artistlik eləyib belə sözlər desə də, o uşaq onun sözünə inanarmı? Yox! İnanmaz, Qurandan köynək geysə də, inanmaz, Bikə! Sən uşaqlarnan işləyirsən, sən uşaq psixologiyasını yaxşı bilirsən, uşaq beyni, uşaq ürəyi yazılmamış ağ vərəqdi, ora sən gül-çiçək ətirli, ağıllı, müdrik sözlər də yaza bilərsən, cəfəngiyyat da. Və sonra onu heç cür pozmaq mümkün deyil — o vərəqi yazarkən səhv etməyə heç kəsin — nə valideynin, nə məktəbin və müəllimin mənəvi ixtiyarı yoxdu, Bikə. Bir insanın, bütövlükdə götürsən isə, bir nəslin taleyi bundan çox asılıdı, Bikə! Bir az da dərinə getsən, bir xalqın taleyində bu çox mühüm və əhəmiyyətli nöqtədir, inan.

— Amma bir şey də var axı, Nəzər!

— Nə?

— Axı, bütün müəllimlər sən deyən kimi deyil.

— Mən demirəm ki, hamısı belədir. Yox, mən bu fikirdən çox uzağam. Bizim namuslu, savadlı, müəllim şərəfini qoruyan yaxşı kadrlarımız var, bunu inkar etmək olmaz; bu, ən azı vicdansızlıq olardı. Amma bunu da inkar edə bilməzsən ki, bələləri də var aramızda və təəssüf ki, azalmaq əvəzinə, çoxalır. Bunun hesabına təmiz müəllimlər də camaatın gözündən düşür, heç olur və adamlar elə bilir ki, hamı, məsələn, bizim Şakir kimi — o faşist oğlu faşist kimidir. Bizim məktəbdə o, Sarıcalı məktəbində attestat satan Mollazadə, Çiçəklidə öz müəllim yoldaşlarının hər ay maaşında iyirmi-iyirmi beş manat kəsən direktor Ürfanlı və s. və s. yenə sayım? Bəs bunlar azdı? Bəs el deməyib ki, bir dana bir paxırın adını batırar?

— Onda niyə əl-ələ verib belələrini rüsvayi-cahan eləmirdiniz?

Niyə susurdunuz, niyə ağzınıza su alırdız?

— Hə, bax, elə məsələ də budu, arvad. Bunun da səbəbi var. Yadında saxla; dünyada səbəbsiz baş verən heç nə yoxdu, Bikə. Yoxdu və ola da bilməz. Soruşacaqsan ki, bəs bunun səbəbi nə idi? Soruşma, özüm deyəcəyəm, bittə-bittə, deyəcəyəm. Əvvəla, bunu gizli eləyir, faşist uşağı faşist. Kim mənim, sənin yanında rüşvət alar? Heç kim! Qabaqlar rüşvət alanı tuturduq, o hər an ifşa olunmaq qorxusu altında, tülkü kimi səksəkə içində yaşayırdı, yuxusu gecələr ərşə çəkilirdi, yediyi-içdiyi harama dönürdü, bəlkə ona rüşvət verən namərddi, getdi satdı, gəlib əlini-qolunu bağlayıb apardılar. Sənə deyim ki, bu qorxu çox güclü idi və hardasa rüşvətin qabağına müəyyən sədd çəkirdi. Ancaq sonra özümüz dərindən düşünmədən nəticə etibarilə rüşvətxorun bu qorxusunu aradan götürən bir qərar çıxartdıq — rüşvət alanı da, rüşvət verəni də. Bax, burada bu faşist uşağı faşistin bəxti gətirdi, aşığı alçı durdu, əl-qolu açıldı. İndi rüşvət verənin də canına bir qorxu düşdü — və bu qorxu onu rüşvət alanın həmkarına, əlinə su tökəninə (su yox, pul) döndərdi. Rüşvət verən ələ keçmək qorxusundan, canının dərdindən balıq kimi susdu. Bax, ərz eləyim ki, burda müsibət başlandı. İndi bu qərarın sayeyi-mərhəmətindən ancaq o rüşvətxorlar ələ keçir ki, onlar daha sırtıqdılar, girinə keçirdiyi müştərisini zorla məcbur edir ki, filan qədər gətir, bu işini düzəldim; onun da imkanı olmadığına görə, ya haqlı olduğunu sübut etmək üçün, yaxud da qəzəbini, kinini soyudub ağrısını canından çıxartmaq məqsədilə orqana müraciət edir, nömrələnmiş pul alır və verən yerdə gəlib hərifi yaxalayırlar. Bu, nadir hallarda olur, Bikə. Əksər hallarda hər iki cinayətkar necə deyərlər, «sülh şəraitində», mehriban-mehriban kişilikdən, mərdlikdən danışa-danışa şirin alver eləyir. Bax, buna görə onları ifşa eləmək, sən deyən kimi, onlara qarşı mübarizə aparmaq məsələsi çətinləşib, çox çətinləşib! Əqidə, məslək pula satılanda ölür, arvad. Mən baxdım gördüm ki, mənim məktəbimin direktoru Şakirə — müəllim deməyə dilim gəlmir — biologiya, kimya, riyaziyyat müəllimləri — bu cavan adamlar səkkiz martda — qadınlar bayramında, iyirmi üç fevralda — Qızıl Ordu günündə uşaqlardan, onların valideynlərindən hədiyyələr alır, bəziləri isə hətta diliynən istəyir — bax, onda mənim ürəyim şüşə kimi çilik-çilik olub yerə töküldü və sındım. İnanırsan, az qala dəli olmaq dərəcəsinə gəlmişdim. Elə bilirdim özüm böyük cinayət eləmişdim, uşaqların üzünə baxa bilmirdim, utanırdım, istəyirdim yer aralansın, yerə girim. Ped-

sovetdə iki-üç dəfə bu məsələni qaldırdım, dişimin dibindən çıxanı dedim, əsib-coşdum. Şakir iri həvəng dişlərini ağardıb hırıldadı, o biri müəllimlər mənə altdan yuxarı baxıb: «Xahiş edirik, bizim təmiz adımızı ləkələməyəsən. Hədiyyə haçandan rüşvət olub?!» — dedilər. Axı, faşist uşağı faşist. Utanmazlar, vicdansızlar! Sən hədiyyəni ala bilərsən dostundan, qohumlarından, qardaşından, amma dərs dediyin şagirdindən hədiyyə almağa sənin haqqın yoxdu. Vallah, yoxdu, billah yoxdu. Bu, heç yerdə, heç bir qanun kitabında yazılmayıb. Tək bizim bu Əsgərabad kəndində belə olsaydı, dərd yarı idi. Öyrənmişəm, yoldaşlarnan söhbət eləmişəm, rayonun bir çox məktəblərində, hətta sənə deyim, başqa rayonların, lap o Bakının da bəzi məktəblərində elə şeylər eləyirlər. Xəstəlikdi bu, özü də yoluxucu xəstəlikdi, Bikə, zəhrimar çox tez yayılır. Bu isə gələcək cavanın, gələcək vətəndaşın əxlaqını yaman pozur. Mən əlimin içi kimi indidən bilirəm ki, bax, o cavan səhər bir sənət sahibi olub ortalığa çıxanda gözü onun-bunun əlində olacaq, nə isə qopartmağa çalışacaq. Çünki o, gözünü açıb belə görüb, belə də olacaq — istəməsə də belə olacaq!

— Elədi, elədi, kişi. Bizim bağçada da belə eləmək istəyən biri vardı, Səlmanı deyirəm ey, hesabdar Mustafanın arvadını. Baxırsan, dolanışıqları yaxşıdı, ailələri böyük deyil. Di gəl ki, yaman acgözdü gödəninə şiş girmiş. Göz qoydum, gördüm, o işə gələndə yemək gətirmir, nahar vaxtı özünü mətbəxə verib uşaqların xörəyinə girişir. Bəzən hətta səhərlər də belə eləyir: «Çay-çörək yeməyə vaxtım olmadı, tələsdim». Nə bilim, nə!.. Dedim bura bax, sən bu hoqqaları yığışdır, mən öz yeməyimi gətirirəm, o biri arvadlar da həmçinin. Zəhmət çək, sən də özünlə bura yemək gətir, ye! Sən ataları, anaları səhərdən axşamacan çöldə, tarlada qan-tər tökən bu uşaqların boğazortağı ola bilməzsən. Bu, vicdansızlıqdı, üstəlik günahdı da. Sən yeyirsən, deməli, hansı uşağınsa payını yeyirsən, o isə ac qalır. Bir müddət əl-ayağını yığışdırdı. Ancaq lap bu yaxınlarda gördüm ki, işin axırında zənbilində bir kiloya qədər ət aparır evinə!

— Ay faşist qızı, faşist! — deyə Nəzər fısıldadı.

— Hə, beləcə aparır. Dedim aaz, bu nədi belə? «Hə, artıq qalmışdı, qazana yerləşməmişdi, dedim heyifdi, qalıb xarab olacaq, aparım evə, Mustafa piti sevəndi, onunçün bir piti qoyum» Əlindən aldım, qoydum xolodilnikə, özünün də elə o dəqiqə əmrini verib işdən çıxartdım. «Hara istəyirsən get, — dedim, — kimə istəyirsən şikayət elə! Sənin ayağın bir də bura dəyməyəcək».

— Əcəb eləmisən, Bikə. Heç mən bilmirdim. Bə niyə mənə deməmisən?

— Səni heç evdə tapırdım ki, deyəm də. Səhər gedirdin, axşam gəlirdin. Yorğun-ərğın. Onda da qıymırdım başını ağrıdam.

— Hm… Deyirəm axı, Mustafa son vaxtlar salamımı da almaq istəmir. Məni görəndə yan keçməyə çalışır. Sən demə, torbada pişik varmış. Elə o özü də faşist oğlu faşistdi, sədr onu hesabdar götürəndən sonra yaman tüklənib.

— Kolxoz sədri Qurbana gedib deyib. Mən də əhvalatı açıb ona danışdım. Xoşuna gəldi, dedi: — «Yaxşı eləmisən, gərək qoymayaq bir el çöpünü də haramzadalar aparsın, öz malı eləsin».

— Hə, Qurban təmiz adamdı. Nəhayət, uzun-uzun illərdən sonra bizim bu kəndə abırlı, iş bilən, camaata ürək yandıran bir kolxoz sədri gəlib çıxdı. Onu düz deyir Qurban, camaat əl-ələ versə, dili, ürəyi bir olsa, beş-üç naxələf əl-qol açıb meydanda cövlan eləməz, mənim, sənin zəhmətinin hesabına qudurub əndazədən çıxmaz, sonra da bizə yuxarıdan aşağı baxa bilməz.

— Elədi, gərək şəri, əyriliyi beşiyinin içində boğasan, boğmasan o, günü-gündən xərçəng kimi hər yana rişə atıb səni boğacaq, məhv eləyəcək.

— Bax, sənin Səlmanı əliəyriliyi üstündə cəzalandırmağın o birilərinə də dərs olar, məncə. Heç kəs daha belə qələt eləməz.

— Getdi katibin yanına.

— Pay atonnan. Faşist qızı faşistdə üz var hələ katibin də yanına gedir. Hə, nə deyib Süleyman?

— Nə deyəcək, çağırıb Qurbandan soruşub; Qurban gözünə döndüyüm də məsələni olduğu kimi danışıb katibə. Kişi deyib ki, əla eləyib Bikə. Üstündən də Qurbana qayıdıb ki, o arvadı bas getsin pambığa, kimin qızından artıqdı? Sənin arvadın camaata qoşulub çöldə, tarlada işləyə bilir, o yox? İndi Səlma pambıq yığır. Düzdü, mənə, balalarıma qarğış eləyir, amma eybi yoxdu. Allah natəmiz adamın səsini eşitməsin gərək. O qarğışlar ağzından çıxsın, öz başına düşsün.

— İndi ağlı gələr başına.

— Tamahı az eləyəydi.

— İnsan acgözdü, Bikə. Sənin bu söhbətini eşidəndə yadıma bir hikmət düşdü. Deyirlər, Harunərrəşidin vaxtında kasıb bir kişi yerdən qəribə, parıltılı bir şey tapır, ancaq bilmir ki, bu nəmənədi.

Aparır Bəhlul Danəndənin yanına. Aləmin bilicisi olan Bəhlul baxıb deyir ki, bu, çox qiymətli bir mirvaridi, get padşahın hüzuruna, de ki, bunu məndən al, əvəzində onun özü ağırlığında mənə qızıl ver. Acgözdü, alacaq. Kişi o cür də eləyir. Şah mirvarini tərəzinin bir gözünə qoyur, o biri gözünə bir qızıl atır. Mirvari qalxmır. İki qızıl, üç qızıl. Mirvari yenə qalxmır. Nə başını ağrıdım, xəzinədəki bütün qızılları tərəzinin gözünə tökürlər, mirvari qalxmır ki, qalxmır. Heyrətlənən şah deyir gedin o Bəhlul Danəndəni gətirin bura, görək bu nə hikmətdi. Bəhlulu çağırırlar. İnsanın acgöz yarandığını çoxdan qardaşı olan şaha sübut eləmək istəyən Bəhlul gülüb deyir: «Şah sağ olsun, bu, mirvari deyil, insan gözüdü. Dünyanın bütün qızıllarını yığıb bura töksən də, o göz «yenə azdı» deyib duracaq. Onu ancaq torpaq doydura bilər, şahım». Belə deyir, əyilir, yerdən bir çimdik torpaq götürüb o gözün üstünə tökür. Tərəzinin gözü o dəqiqə qalxır.

— Sən hikmətə bax ha. Bunu heç eşitməmişdim. — Bikə dilləndi.

— Odur ki, deyirlər: insanın gözünü ancaq torpaq doydurar.

— Gərək sən də mənim kimi eləyəydin, Nəzər. O saat əmrini verəydin gərək.

— Mən direktor deyildim onda. Direktor olsaydım, əlbəttə, edərdim. Şakir özü idi direktor. Mən adicə müəllim idim. Bu məktəb qayğılarını, məktəb dərdlərini əvvəlcə pedsovetdə, sonra maarif şöbəsində, daha sonra avqust müşavirələrində, raykomda dedim. Amma səsimə səs verən az oldu, «yaxşı, məşğul olarıq» – dedilər. Dedilər, ancaq heç nə eləmədilər, bilirsən. Neçə dəfə Bakıya yazdım, komissiyalar gəldi.

— Bəs nəticəsi-zadı olmurdu o komissiyaların?

— Nəticəsi? Nəticəsi nə olacaqdı ki? Komissiya gedən kimi Şakir əvvəlcə ayağını rayona, Murad əmisinin yanına qoyurdu, sonra da «Jiquli»sinə minib Bakıya qanad açırdı, bəndi-bərəni bağlayırdı, qayıdıb gəlirdi.

— Bakıda ha?

— Bəli, Bakının özündəcə.

— Ta bu olmadı ki?

— Niyə olmur, arvad. Deyirsən Şakir… Sən elə bilirsən Bakıda, maarif nazirliyində oturanların hamısı təmizdi? Orda da var, Sədnikin qızı, orda da öz yerində oturmayanlar tək-tük olsa da var təəssüf ki. Biri bax, elə bu bizim Şakirin dost-doğmaca dayısı oğludu. O dayı-

sı oğlunun da ondan yuxarıda oturan bir xalası oğlu var, Şakiri orda saxlayan odu, dayısı oğludu. Bir-birini saxlayırlar, qoruyurlar, irəli çəkirlər, irəli çəkməyə də gücləri çatmasa, öz yerindən qopartmağa qoymurlar. Gör zəncir hardan başlayır, ucu gəlib harda qurtarır. Şakir ona görə gülləbatmazdı, bildin?

— Bildim kişi. Belə de da. Arxalı köpək qurd basar, bunu deyiblər ha!

— Bəs nə? Atalarımız, babalarımız havayı, boş söz deməyiblər heç vaxt. Yüz, lap min dəfə ölçüblər, sonra bir dəfə kəsiblər; ona görə müdrikdi bizim xalq.

Bikə xanım söhbətin mövzusunu dəyişmək üçün taxta mizin üstünə qoyulmuş tor zənbili qabağına çəkib vəzərini, şüyüdü, keşnişi, qırmızı turp dəstələrini çıxartdı. Göy-göyərtini görən kimi Bikə xanımın qaşları çatıldı:

— Ay kişi, bu nədi alıb gətirmisən? Belə də göy-göyərti olar? Ağac kimidi hamısı. Vay, bu turpların hamısının içi boşdu ki?

Birdən Nəzər saata baxdı, «vay!» deyib ayağa qalxdı, Bikə təəccüb içində:

— Nə oldu, kişi? — soruşduqda Nəzər elə ayaq üstə arvadına zənlə diqqət yetirib:

— Sən də zəng səsi eşitdin indi? — deyə suala cavab verdi. Bikə xanım gözlərini döydü:

— Nə zəng, ay kişi?

— Məktəbin zəngini deyirəm də. Eşitmədin ki?

— Yox, ordan bura zəng səsi gəlir heç? Qırx ildi burda yaşayırsan, qırx ildi də o məktəbdə zəng çalınır. Heç indiyəcən o səsi eşidibsən?

— Yox.

— Bə nə deyirsən, ay pir olmuşun oğlu?

— Mən həmişə məktəbdə olmuşam zəng çalınanda, burda olmamışam. Deyirəm bəlkə gəlir?

— Yox ey, yox!

— İndi nə isə zəng eşitdim. — O, yenə saata baxdı, — hə, indi zəng çalındı. İkinci növbənin birinci saatı başlayır indi. Vay, vay… İndi Şakir girəcək o sinfə.

— Hansı sinfə?

— Onuncuya. Zakirə xanıma vermişdi mənim dərslərimi, o

götürmüyüb. Şakir özü götürüb. Vay, vay, — o, içəridə sancan ürəyinin üstünə əlini qoydu, elə bil onun üçün çox əziz olan bir şeyi indicə itirmişdi, yanıb-yaxılırdı, — hayıf, hayıf

Bikə xanım altdan-yuxarı Nəzərə baxıb, nigaran-nigaran xəbər aldı:

— Nəyə hayıf deyirsən, kişi?

Nəzər çarəsiz adamlar kimi təzədən oturub, sinə dolusu bir ah çəkdi:

— Hayıf o uşaqlara, hayıf, gül kimi uşaqlar idi.

Bikə xanım indi ərinin nə demək istədiyini, nə üçün belə ah-uf eləyib hayıfsılandığını başa düşdü və:

— Heç narahat olma, kişi, əvvələn, ordan bura zəng səsi gəlmir. İkincisi də indi dərs yoxdu — məktəbi göndəriblər pambığa. Hamısı çöldədi…

— Hə?..

SƏKKİZİNCİ FƏSİL

Bikə xanım darvazanın qənşərinə çatanda Nəzərin kiminləsə ucadan danışdığını eşidib bir anlığa duruxmuşdu; ürəyi atlanmış arvad özünü yel kimi həyətə təpib ortalıqda, damağında siqaret, tək-tənha var-gəl eləyən ərindən hövlnak soruşmuşdu:

— Uşaqlar gəlib?

Nəzər döyükmüşdü:

— Yox.

— Bəs sən indi kimnən danışırdın?

— Kim? Mən?

— Hə, sən!

— Heç kimnən!

Arvad həyətə göz gəzdirmişdi, kimsəni görməyib, təzədən xəbər almışdı:

— Bəs kimnən domino oynayırdın indi?

Nəzər arvadın bu naqafil sorğu-sualının mənasını başa düşüb, qəmli bir təbəssümlə demişdi:

— A… heç… elə-belə… boş şeydi…

Bikə xanım köks ötürüb başını bulayaraq, evə keçmişdi: «Kişi

öz-özünə danışır… öz-özünə domino oynayır. Dilim-ağzım qurusun… Birdən pozular ha kişi!.. Şakirin igid arxası yerə gəlsin. Gül kimi işləyirdi də. Bunun indi pensiyaya çıxan vaxtıydı?»

Evdə paltarını dəyişəndə də, çay qoyanda da, gecə yerinə girib yatmaq istəyəndə də Nəzərin bu qeyri-adi hərəkəti ona rahatlıq verməmişdi. Çox götür-qoydan sonra bütün varlığı ilə sevdiyi, bağlandığı, həyatının mənası sandığı işindən, sənətindən birdən-birə ayrıldığına, uzaq düşdüyünə görə havalanacağından qorxuya düşərək, pərişanlığını dağıtmaq, başını qatmaq, o böyük itkini unutdurmaq üçün kişini ya kəndə — Güldanənin yanına, ya Bakıya — Güllügilə göndərməyi qərara almışdı. Başqa çarəsi yox idi. Odur ki, obaşdandan qalxıb hazırlıq gördü, qızına paltarlıq bir parça, nəvələrinə şirniyyat, Tapdığa bir cüt corab ayırıb, qara əl çamadanına yığdı. Nəzər səhər yeməyini yeyəndən sonra ehtiyatla fikrini bildirdi:

— Qulluğuna ərz eləyim ki, görürəm, yaman darıxırsan, Nəzər. Yernən-göynən əlləşirsən. Məsləhətim budu ki, yığış, get kəndə, Güldanəgilə, beş-on gün qal, havanı dəyiş, nəvələrini doyunca oynat. Sonra da Bakıya gedərsən. Hə, necədi, döşünə yatır, ay kişi?

Nəzər arvadının gözlərinin içinə baxdı, xeyli düşünüb:

— Hm… Düz deyirsən, Sədnikin qızı, — dedi, — haçandı uşaqlara baş çəkə bilməmişəm. Elə hey deyirəm gəlib çoxluca qalacam, amma gedib çıxammıram. Bəs sən tək nə təhər qalacaqsan?

— Eh, sağ olmuş, gör nəyin fikrini çəkirsən ey. Məni yeməyəcəklər ha. Lazım olsa, Qəribə ismarıc yollaram, ta orda qalmaz, sən qayıdanacan gəlib evdə yatar axşamlar…

Nəzər razı halda başını tərpətdi:

— Hm. Bu da pis fikir döyül, Sədnikin qızı.

Bikə xanım mizin altındakı çamadanın qulpundan yapışıb irəli çəkdi:

— Bunu da götür. Dəyişəcəyindi. Bir də uşaqlara tikə-para ayın-oyun qoymuşam.

Nəzərin çiçəyi lap çırtladı, fərəhini zarafatla izhar elədi:

— Əşi, arvad döyülsən, ağıl dəryasısan, vallah.

Bikə xanım nazlandı:

— Sən zarafat elə. Mənim qədrimi sən hələ sonra biləcəksən.

— Niyə, elə indi də pis bilmirəm sənin qədrini!

Nəzər əyilib çamadanı götürdü, Bikə xanıma yaxın gəldi, boyca ondan xeyli uca olduğuna görə, əyilib arvadının alnından öpdü.

Bu, onun adətiydi. Lap cavanlığından adətiydi, bir yerə gedəndə həmişə Bikənin alnından öpərdi. Və bu adət, Qəribdən başqa, qızlara da sirayət etmişdi. Təkcə oğlan bu işi bəyənmirdi və evdən gedəndə nə özü öpürdü bir kimsəni, nə də öpməyə bir kəsə imkan verirdi.

— Xudahafiz, Sədnikin qızı.

— Yaxşı yol. Uşaqları əvəzimdən öpərsən.

Və qıçını çəkə-çəkə yola düşdü Nəzər. Bikə dalınca baxıb, uşaq kimi doluxsundu.

… Onda da — qırx birinci ilin sentyabrın ikisində də, Nəzər cəbhəyə gedəndə də Bikə beləcə doluxsunmuşdu. O vaxt Bikə onuncu sinifdəydi. Oğlanların hamısı getmişdi, təkcə on iki nəfər qız qalmışdı. Bakıda ali məktəb bitirib, təzəcə kəndə gəlmiş, sətəlcəm olduğuna görə hələ əsgər getməmiş Nəzər, ayın birində Bikəgilin sinfinə girmiş və cəmi qırx beş dəqiqə onlara dərs demişdi.

Bikənin gözü Nəzəri çoxdan tutmuşdu; bu ucaboy, enlikürək, ağırsəngin oğlan qəfildən, qızın özündən də xəbərsiz qəlbinə girmişdi, hisslərindən hələ düz-əməlli baş açа bilmirdi, bircə onu duyurdu ki, Nəzər gözlərinin qabağından çəkilib getmir, xəyalından çıxmır. Gecələr yuxusuna girirdi. Xəstə yatdığını eşitmişdi, ancaq get-gəlləri olmadığından vaxtlı-vaxtında xəbər tuta bilmirdi. Hərdənbir gözü kor olduğundan əsgər aparılmayan atası Sədnik kişi axşam evdə ordan-burdan danışanda, Nəzərin də adını çəkirdi. Onda qızın qəlbi həyəcanla döyünürdü, qulaqları elə gurlayırdı ki, atasının nə söylədiyini ayırd eləməyi də bacarmırdı. Gecə-gündüz arzulayırdı ki, Səlminaz xalanın oğlu kaş tez sağalaydı; bilirdi ki, onlara dərs deyəcək, müəllimdi. Amma bu zaman başqa bir hiss onun bu arzusunun üstünə su çiləyirdi: «Sağalan kimi əsgər aparacaqlar!»

Rəfiqələrinin heç birinə sirr verməmişdi. Əzablarını tək özü çəkirdi. Və bu əzablar onun üçün yaman şirin gəlirdi. O qırx beş dəqiqəni Bikə ömrünün ən xoş, ən unudulmaz dəqiqələri sayırdı. Məhz o zaman o, Nəzərə doyunca baxmışdı. Elə-belə, baxmışdı. Nəzər nə demişdi, nə danışmışdı. Bikənin xəbəri olmamışdı. Nəzərin bircə qonur gözləri və bir də səsi yadında qalmışdı. Sən demə, Nəzər, zəng çölə vurulanda üzünü qızlara tutub kədərlə deyibmiş:

— Bu, mənim birinci dərsimdi, qızlar! Təəssüf, həm də axırıncı dərsimdi. Sabah gedirəm. Kim bilir, qayıdacağam, qayıtmayacağam. Müharibədi. Ancaq siz… oxuyun, camaatımıza kömək eləyin, indi cəbhələrdə düşmənlə vuruşan atalarınızın, qardaşlarınızın şərəfi-

ni, adını qoruyun, uca tutun… Səbirli, dözümlü olun!.. — Çox danışacaqmış, sinfə göz gəzdirəndə lap arxa partada oturan xurmayı saçlı, ala gözlü bir qızın — bu, Bikə idi — gözlərinin bulağında gilələnmiş yaşı görüb duruxmuşdu, sözünü kəsib qəhərlə:

— Salamat qalın, qızlar! — demişdi və sinfi tərk etmişdi.

Səhər Nəzəri yola salmağa çıxanların arasında Bikə də vardı. Çox istəyirdi ki, Nəzər onu da görsün. Amma Nəzər ona tərəf baxmırdı və hövlündən qızın az qalırdı bağrı çatlasın. Gözləri yenə dolmuşdu. Tək onun yox, hamının…

Səlminaz xala isə… ağlayırdı… Eləcə Nəzər Bikənin yaşarmış gözlərini görmədən «ton yarımlıq» maşına minib getmişdi. Və bir də üç il doqquz ay iyirmi bir gündən sonra qayıtmışdı. Yaralı… sinəsi-yaxası orden-medallı. Və Nəzərin xəbəri yox idi ki, anasından, özündən başqa, bir də Bikə adlı bir qız onun müharibədə olduğu günlərin sayını belə dəqiq hesablayıb. Nəzər bunu da bilməmişdi ki, Bikə onun yolunu necə gözləyib, evə — anasına göndərdiyi üçkünc məktubları poçtalyon işləyəndə necə böyük sevinclə, quş kimi qanad açıb uça-uca Səlminaz xalaya hamınınkından əvvəl çatdırıb, oğlunun kağızı gəldiyinə görə onu necə bağrına basıb üzündən öpüb, sonra arvadın xahişiylə necə həyəcanla o barıt qoxulu sətirləri anaya oxuyub. Özü də bir dəfə yox, iki dəfə. Öz adını axtarıb. Amma görməyib, içindən qovrula-qovrula qalıb və sonra bununla da təskinlik tapıb ki, axı, Nəzərin heç nədən xəbəri yoxdu, niyə də gərək onun adını yazsın məktubunda?..

Muştuluğunu da almayıb və üzünə deyə bilməsə də, ürəyində deyib: «Bəs mən muştuluğumu kimə verim, ay ana!... Nəzər sağ-salamatdı. Nəzər məktub yazıb, bəs bunun muştuluğu kimə düşür, ay ana?!»

Nəzər bunu da bilməmişdi ki, məktublarının arası kəsiləndə Səlminaz xaladan çox da olmasa, elə onun qədər Bikə də canını qoymağa yer tapmayıb, nigaran-nigaran kəndə dönüb, gecələr yerinin içində balışını göz yaşıyla isladıb!

Sən demə, Səlminaz xala qızın ürəyini oxuyubmuş, bu mehriban, istiqanlı qıza quşu qonubmuş, əhd eləyibmiş ki, Nəzər qayıdıb gəlsə, — o mütləq qayıdıb gəlməliydi ananın fikrincə — Bikəni alacaq oğluna. Şikəst də gəlsə, lap yarımadam gəlsə də alacaq, çünki ana, həssas ürəyinin gözüylə Bikənin məhəbbətini görürmüş, duyurmuş və inanırmış ki, oğlu necə gəlir-gəlsin, Bikə ondan üz döndər-

məz! Səlminaz xala özünə xas dözümlə, təmkinlə bu istəyini ürəyində yaşadıbmış, qıza bircə kəlmə də deməyibmiş, «dünyanın işini bilmək olmaz!» — fikriylə susub gözləyirmiş. Nəzər gələndə onun qıçını çəkməyi arvadın gözünə görünməmişdi. Çünki iki qıçını da qoyub gələnlər vardı, gözünü, qollarını da qoyub gələnlər vardı, ən dəhşətlisi buydu ki, heç gəlməyənlər daha çox idi.

Nəzər gələn gecə ananın sevincinin həddi-hüdudu yox idi. O gecə o kənddə Səlminaz xaladan savayı, bir də Bikə sevindiyindən ağlamışdı. Sədnik kişi keçən qış ölmüşdü — jmıx yemişdi, şişib ikicə günün içində canını tapşırmışdı. Bikə damın altında tək qalmışdı.

Kənd camaatı gözaydınlığına, itkin düşənini, ölənini soruşmağa Səlminazın həyətinə gələndə, Bikə də arvadlara qoşulub gəlmişdi və Nəzəri görüb toxtamışdı.

— Xoş gəlmisiz, müəllim!.. — demişdi Bikə qısıla-qısıla. Nəzər bu zaman «müəllim» sözünü eşidib, diqqətlə qızın üzünə baxmış, ancaq tanıya bilməmişdi.

— Mən sizə dərs demişəm? — Nəzər gülə-gülə soruşmuşdu.

— Hə, Nəzər müəllim. Qırx beş dəqiqə… Qırx birdə.

— Hə, hə, yadıma düşdü. Sən…

Səlminaz arvad araya girmişdi:

— İrəhmətlik Sədnik kişinin qızıdı da. Bikə balamdı mənim. — Qucaqlayıb üzündən öpmüşdü. — Sənin bütün məktublarını o gətirib mənə, o oxuyub, poştalyonumuz olub.

Nəzər Bikəyə diqqətlə baxmışdı, gözlərini qıyıb xatırlamağa çalışmışdı, qırx birdə, qırx beş dəqiqə dərs dediyi qızları fikrində canlandırıb o sinif otağında, arxa partada əyləşən xurmayı saçlı, ala gözlü qızı — doluxsunmuş qızı yadına salmışdı. Beynində, xatirələrində nə isə işarıb közərən bir qığılcım yanmışdı, ancaq oturanların söz-söhbəti, sorğu-sualı macal verməmişdi ki, fikri durulsun. Sadəcə bu məsələni sonraya qoyaraq hörmətlə:

— Hə, tanıdım, tanıdım, ana, — demişdi. — Sağ olsun. — Sonra üzünü ona tutmuşdu. — Sağ ol, Bikə. Böyük qız olmusan daha. Yəqin məktəbi də bitirmisən. Mən sənə ta dərs deyə bilmərəm.

Bikə qızarıb başını aşağı salmışdı. Araya sükut çökmüşdü. Nəzər yerdə, həsir üstündə oturub ona möcüzə kimi tamaşa eləyən qadınlara, uşaqlara, qocalara birdən diqqətlə baxmışdı: hamısı arıq, solğun bənizliydi. Elə bil xəstəlikdən təzə durmuşdular. Zamanın, müharibənin o öləzimiş gözlərə, üzlərə yazdığı hökmü Nəzər o dəqi-

qə oxumuşdu: aclıq idi o hökmün adı. Nəzər sarsılmışdı və heç özü də bilməmişdi ki, bu yersiz sualı niyə vermişdi:

— Güzəranınız nə təhərdi?

Səlminaz arvad oturanların əvəzinə cavab vermişdi:

— Acdı camaat, bala. Toxumluq buğda saxlamışdıq bir-iki pud. Onu da fronta göndərdik. İndi bu kənddə dərman üçün bir tikə çörək tapammazsan…

Bu sözləri eşidəndə Nəzər sanki yuxudan ayılmışdı, yerindən dik qalxaraq anasına üz tutmuş:

— Mənim o «veşmeşoxumu» hara qoymusan, ana? — demişdi. — onu bəri ver.

Səlminaz arvad belindəki şalı bərkidə-bərkidə küncdəki toqqalı-qayışlı xaki çantanı oğlunun qabağına gətirmişdi. Nəzər tələsə-tələsə «veşmeşokun» ağzını açaraq, içindən ağ bir torba çıxarmışdı. Adamlar udquna-udquna gözlərini onun əlinə zilləmişdi; torbanın unla dolu olduğunu görəndə kim idisə heyrətlə:

— Un! — deyə qışqırmışdı. Nəzər ovcunu unla doldurub ortalığa tutmuşdu və gözləri yaşara-yaşara:

— Elə hesab eləyin ki, sizin göndərdiyiniz buğdanın unudu, Almaniyadan qaytarıb gətirmişəm. — Əslində o un «trafey» idi. Nəzər yolu üçün götürmüşdü, aclıq üz verəndə, yeməyə bir şey tapmayanda kömbədən-kökədən bişirərək yeyə-yeyə gəlib çıxmışdı. Bunları o danışmadı. Fikir vermişdi: unu görən kimi hamının gözü işıqlanmışdı elə bil. Arvadlardan kiminsə qucağında oturmuş bir uşaq ağlamışdı.

— Yazıq acından ağlayır, — bunu Səlminaz arvad söyləmişdi.

— Burda yarım pud un olar, ana. O kasanı gətir bəri, — deyə Nəzər Səlminaz arvada sarı dönmüşdü. — Gətir o kasanı.

Səlminaz sevinə-sevinə əlini taxçaya aparmışdı və elə o an iyirmi beş il əvvəl, Canəli bəyin daxmanın ortasında dediyi «o kasanı gətir bəri, ay gəlin!» — sözləri qulaqlarında səslənmişdi. Kərimi görmüşdü, küpü görmüşdü, kasaya cingilti ilə tökülən qızılların səsini eşitmişdi, həyəcandan arvadın əlləri əsmiş və qab yerə düşmüşdü. Həsir üstə düşdüyündən kasa sınmamışdı.

Nəzər anasına baxmış, onun gözlərinin yaşardığını görüb, hər şeyi başa düşmüş, ancaq üstünü vurmamışdı. O, kasanı unla doldurub:

— Aç ətəyini, — deyə qabağında oturan ağzı yaşmaqlı Gülsü-

mə üz tutmuşdu.

Oturanlardan kiminin ətəyinə, kiminin örpəyinin ucuna kasa ilə dolu un tökmüşdü Nəzər. Bikə eynən qırx birinci ilin sentyabrın birində sinfin axırıncı partasında oturduğu kimi, burada da hamıdan arxada oturmuşdu.

— Aaz, Bikə, sən də irəli gəl, qızım. A Nəzər, Bikənin payını yaddan çıxartma, — Səlminaz dillənmişdi. — Hər kəsdən çox ona düşür. Əziyyətimi çox çəkib!..

Bikə qıpqırmızı qızarıb:

— Yox, yox, mənə lazım deyil, müəllim! — deyə tələsik cavab vermişdi.

Buna baxmayaraq, Nəzər kasanı unla doldurub zorla qızın cücəgözlü çitdən tikilmiş donunun ətəyinə boşaltmışdı.

— Sağ olun, müəllim. — Bikə elə astaca pıçıldamışdı ki, bunu ancaq Nəzər eşidə bilmişdi.

Və o unu həmin gecə adamlar arasında qardaş malı kimi bölmüşdü Nəzər. Orda olmayanların da payını Səlminaz özü göndərmişdi. Həmin gecə həyətlərdə ocaqlar çatılmış, saclar, qazanlar asılmış və bütün kənd ağappaq buğda unundan bişirilmiş fətir, kətə, umac, kömbə yemişdi. O gecə Əsgərabadda qəribə bir bayram olmuşdu və bu, ağızdan-ağıza, dil-dilə keçərək, maraqlı bir nağıla çevrilmişdi.

— Ürəyinə qurban olum, ay oğul, — deyərək Səlminaz əl-ayaq çəkiləndən sonra təzədən oğlunun boynunu qucaqlayaraq hön-kürtü ilə ağlamışdı. Səlminaz arvad ürəyini boşaldıb toxtayandan sonra, lap səhərə yaxın, artıq hər şeyin danışılıb qurtardığını zənn eləyərək (tək özü danışmışdı, heç oğluna macal verməmişdi) sözü hərləyib-fırlayıb, Sədnikin qızı barəsindəki mətləbini açmışdı, qızı o ki, var tərifləmişdi, arzusunu bildirmişdi. Nəzər qımışıb, nə «hə», nə də «yox» demiş, təkcə eşitdirmişdi:

— Hələ tələsmə, ay ana. Qoy bir özümüzə gələk!

… Bu, ömür-gün sevdasıydı, oyuncaq deyildi; evlənmək hissiyyatdan çox, ağılla olmalıdı. Nəzər belə düşünüb günlərin birində, hələ də poçtalyon işləyən və məktub-qəzet dalınca rayon mərkəzinə gedib-gələn Bikəyə yol yoldaşı oldu, məsələni açıb-ağartdı. Bikə uçunurdu, Bikənin ayaqları yerə dəymirdi. Elə bil yuxudaydı, yerlə-göy arasında qanad açıb uçurdu.

Nəzər qıçını çəkərək (əlbəttə, o şikəstliyindən utanırdı) qızın

yanınca addımlaya-addımlaya, qəribəydi ki, utanıb-çəkinmədən dedi:

— Bilirsən, Bikə xanım… — Ömründə birinci dəfəydi ona «xanım» deyə müraciət eləyirdilər və ən sevindiricisi bu idi ki, bu sözü Nəzər deyirdi, ayrı adam yox! Onun yanaqları köz kimi qızardı, xoş bir duyğunun qolları arasında məst olub dinləməyə başladı. Nəzər davam etdi: — Sən daha uşaq deyilsən. Dünyanı az-çox başa düşürsən. Bilirsən ki, bu lənətə gəlmiş müharibə çox xanimanları uçurtdu, yerlə-yeksan elədi. Şəhərlər dağıldı. Şəhərləri də, evləri də tikəcəyik, düzəldəcəyik. Ancaq iki şeyi eləmək mümkün olmayacaq — bir ölənləri — şəhidlərimizi geri qaytara bilməyəcəyik, bir də ürəklərə vurulan yaraları, sinələrə çəkilən çalın-çarpaz dağları sağalda bilməyəcəyik. İllər, uzun illər keçəcək, amma sinələrin göynərtisi keçməyəcək, oğlu ölmüş anaların, nişanlısı, əri qayıtmayan qızların, gəlinlərin göz yaşı qurumayacaq. Göz yaşları quruyub tükənsə də, o gözlər elə hey ağlayacaq. Mən bunları bilirsən sənə niyə deyirəm?

— …

— Ona görə deyirəm ki, sənin barəndə fikrim ciddidi. Mən istəyirəm ki, sənlə açıq danışam. Çünki indi zəmanə ayrı zəmanədi. İnsan öz taleyini özü həll eləməlidi. Düzü, anam səni çox istəyir. Səni öz gəlini görmək arzusundadı. Sən bunu bilirsən?

— …

— Yox, bu olmadı, Bikə xanım. Bayaqdan elə hey mən danışıram, sən susursan. Başa düşmək olmur ki, nə fikirdəsən. Mən məhz buna görə istədim sənlə üzbəüz söhbət eləyəm.

Bikə gözlərini yoldan çəkmədən:

— Sizə qulaq asıram, Nəzər müəllim, siz yaxşı danışırsız, — dedi.

— «Bu «müəllim» sözünü də daha mənə demə, yaxşı? Bir də «siz» yox, «sən» de.

— Müəllimim olmusuz, axı! — Bikə böyründə addımlayan Nəzərə yanakı baxıb gülümsündü.

— Qırx beş dəqiqə dərs demişəm sənə vur-tut.

Bikə o sehrli qırx beş dəqiqə haqqında, o zaman keçirdiyi hisslərdən saatlarla danışa bilərdi, ancaq utanırdı və düşünürdü ki, heç vaxt o duyğuları Nəzərə danışa bilməyəcək, çünki o duyğuları sözə çevirmək, dilə gətirmək onun üçün çox çətin idi, bəlkə də heç mümkün deyildi. Lakin buna baxmayaraq, Bikə ağlına gələn bu cümləni heç özü də bilmədi haçan ağzından çıxartdı:

— Amma o qırx beş dəqiqə mənim üçün ömrümün qırx beş ilinə dəyər.

Nəzərin gözləri sevincdən parladı:

— Nə yaxşı söz dedin, Bikə!.. Deyəsən, o qırx beş dəqiqəlik dərs bizim taleyimizi həll eləyib özümüzdən xəbərsiz.

— «Özümüzdən xəbərsiz demə», «özümdən xəbərsiz» de! Çünki mən onda taleyimi tapmışdım. Ancaq sən bilmirdin bunu və mən də sənə deyə bilməzdim.

— Mən başa düşməmişdim onda. Ancaq görmüşdüm o nəmli gözləri, yadımda qalmışdı. Və o baxışlar məni odun-alovun içindən salamat çıxartdı, Bikə. Qanlı-qadalı, ölümlü-itimli döyüşlərdə, ən ağır dəqiqələrimdə, saatlarımda bir cüt nəmli baxış xəyalımda canlanırdı. Sənin özün, sifətin, saçların yadımda yox idi. Qəribəydi ki, tüstünün, tozun-dumanın içindən, buludların arasından sahibini heç cür xatırlaya bilmədiyim iki nəmli göz sehr kimi, əfsun kimi qarşımla cilvələnirdi, baxırdı mənə, nəsə pıçıldayırdı, sonra yox olurdu. O baxışlar mənə qüvvət verirdi, təskinlik verirdi, qoruyurdu.

— Sən əsgər gedən gün mən də gəlmişdim səni yola salmağa, ancaq sən bircə dəfə də üzümə baxmadın…

— Mən hardan biləydim… Düzü, ancaq orda, odun-alovun içində gözlərin yadıma düşdü.

Bikə incik səslə:

— Onda da heç fikirləşmədin, özümü yada sala bilmədin, hə? — deyə astadan xəbər aldı.

— Mənim yalanla aram yoxdu. Doğrusu, yadıma sala bilmədim.

Susdular. Xeyli gedəndən sonra Bikə dedi:

— Hər halda şadam ki, gözlərim səni qoruyub heç olmasa! Xoşbəxtəm ki, sağ-salamat gəlmisən. Allah yalvarışlarımı eşitdi, sənə qıymadı, mənə yazığı gəldi.

Bikənin bu sözləri Nəzərin qəlbini titrətdi, istədi onu qucaqlayıb belə ağıllı sözlər deyən dodaqlarından öpsün, ancaq özünü saxladı. Yalnız:

— Sağ ol, Bikəm mənim, — deyə pıçıldaya bildi. Qurumuş dodaqlarını diliylə islatdı və ürəyindəki əsas mətləbi aydınlaşdırmağın məqamı çatdığını duyub davam etdi: — Mən bayaq dedim ki, açıq danışacayıq, Bikəm. Mənə düzünü de… — duruxdu.

— Nəyi? — Bikə təəccüblə çevrilib Nəzəri süzdü.

Nəzər susdu. Hiss olunurdu ki, çətinlik çəkir fikrini deməyə. Bikə köməyinə gəldi və bu, Nəzəri daha çox heyrətləndirdi:

— Bilirəm, soruşmaq istəyirsən ki, gözləməm-gözaltım var, olub, ya yox? Düzdü? Bunu soruşmaq istəyirsən?

— Hə, hardan bildin, ay mənim həssasım?

— Ağzında deyirsən «həssasım». Həssasamsa, sənin ürəyindən keçənləri, gözlərinə yazılanları bilməliyəm, oxumalıyam, Nəzər mü… e, çaşdım…

Nəzər bəxtiyarlıq içində güldü, gözləri işıqlandı, sifəti gül kimi açıldı:

— Eybi yoxdu, çaşıb-çaşıb axırda öyrəşəcəksən.

Bikə ciddiləşib söylədi:

— Mənim özümdən də xəbərsiz ürəyimi əlimdən alıb aparan bir oğlan vardı, — Bikə birdən-birə belə başlayanda Nəzərin ayaqları süründü, qəlbi çırpındı, nəsə xəbər almaq istədi, ancaq səsi çıxmadı. — Onu əsgər yola saldım, getdi, qayıdıb gəldi… O gedib-gələnəcən mən nələr çəkmişəm, bir allah bilir, bir də özüm.

Nəzər daha tablaya bilmədi:

— Kim idi o?

— Kim idi? Bilmirsən?

— …

— O oğlan indi mənimlə yanaşı addımlayır, o sənsən, Nəzər!

Nəzər dayandı, qəfildən əlini atıb qızın sağ qolundan yapışdı, özünə tərəf çəkib hərarətlə qucaqladı.

— Yavaş! Neyniyirsən?!

— …

Bir-birindən utandıqlarındanmı, danışmağa söz tapmadıqlarındanmı, on-on beş addım səssiz-səmirsiz getdilər. Handan-hana Nəzər özünə gəlib, fikrini izah elədi:

— Bilirsən bunu niyə soruşuram?

Yenə Bikənin cavabı onu təəccübləndirdi:

— Bilirəm, Nəzər! Sən yaxşı eləyirsən. Sən gərək mənim barəmdə hər şeyi biləsən.

— Sağ ol, sən lap peyğəmbər kimi danışırsan. Məni düzgün başa düş, qınama. Çünki mən, yaşım çox olmasa da, dünyanın isti-soyuğunu dadmışam. Müharibə görmüşəm mən. Müharibə insanı hardasa filosof eləyir, müdrikləşdirir, həyata, insanlara ayıq gözlə

baxmağı öyrədir.

— Elədir.

— Mən bayaq nahaq demirdim ki, müharibənin ürəklərə vurduğu yaralar, sinələrə çəkdiyi çalın-çarpaz dağlar sağalmayacaq. Bilirəm ki, hər kənddə, hər şəhərdə sənin kimi çoxlu cavan qızlar var ki, sevdikləri, könül verdikləri oğlanlar gediblər və qayıtmayıblar. Bu qızların ürəyi bombardmandan sonra dağılıb yerlə-yeksan olmuş şəhərə bənzər — sınıqdı, sızıltılıdı; o qızların ömrü boyu bir gözü gülsə də, bir gözü ağlayacaq, Bikə. Onların heç vaxt gözləri yollardan yığılmayacaq. Ola bilsin və bu yəqin belə də olacaq — onlar ərə getsin, ailə qursun, oğul-uşaq sahibi olsun. Ancaq o ağrı-acı unudulmayacaq. Onlar çətin ki, sözün tam mənasında xoşbəxt hiss eləsinlər özlərini. Və mən o cür qəlbiqırıq, ilk ovu, ilk məhəbbəti daha dəymiş qızlarla evlənən oğlanların halına indidən acıyıram. Öz səadətlərinin viran olmuş ürəklərdə axtarmaq istəyən oğlanların, kişilərin də xoşbəxtliyi yarımçıq olacaq, Bikəm. Mən səadəti bütöv istəyirəm, yarımçıq yox, şikəst yox!

— Düzdü. Nəzər, sən düz fikirləşirsən…

— Bax, belə bir şey təsəvvür elə, — deyə Bikənin onu başa düşməsindən vəcdə gələn Nəzər boğazını arıdıb sözünə davam elədi, — tutaq ki, sən… — məsəl üçün deyirəm, birini sevmiş olaydın, o da gedib qayıtmayaydı… Sən məni necə sevə bilərdin? Sən mənimlə necə xoşbəxt ola bilərdin? Ürək, məhəbbət parçalandımı, o ürək deyil, o məhəbbət deyil.

— Elədir. Əgər mən birini sevmiş olsaydım, itirmiş olsaydım, onda… ömrüm boyu onun yolunu gözlərdim. Yəqin bilsəydim də ki, heç vaxt gəlməyəcək, yenə gözlərdim onu. Onda sən yox, heç allahın özü də… mənə özünü sevdirə bilməzdi. Nəzər!.. Çünki gözün, könlün ilk ovu unudulmur, ölüncə unudulmur, deyirlər.

… Bir ay sonra… Nəzərə Səlminaz arvad səssiz-səmirsiz bir «toy» eləmişdi. Çalğısız-xanəndəsiz… Çünki kənddən əsgər gedib qayıtmayanlar, qara kağızı gələnlər çox idi və və qəlbi sınıq, gözü yaşlı, hələ yollara intizarla baxan ataların, anaların, nişanlı qızların, gəlinlərin, yetim uşaqların gözünün qabağında toy eləməyi Nəzər vicdanına sığışdırmamışdı. Səlminaz arvad da oğluyla razılaşmışdı.

Bikə, indicə Nəzərin əlində kiçik çamadan çıxdığı bu həyətə o vaxt, dava qurtaran ili beləcə gəlin gəlmişdi.

… Nəzər çınqıl tökülmüş, ancaq hələ qır basılmamış narahat

kənd yolunda xışıltı-tıqqıltı qopara-qopara ağır-ağır irəliləyən avtobusda, pəncərənin qabağında əyləşib, çöllərə baxa-baxa fikirləşirdi ki, yaxşı oldu, kənddən çıxanda onu heç kəs görmədi. Amma səhv eləyirdi. Bəndin böyründə, pambıq tarlasında bir dəstə məktəblini başına yığıb, nəsə danışan Hüsü müəllim qırğı gözlərilə onu uzaqdan görüb tanımışdı və Nəzər Cürəliyə — qızıgilə çatmamış bu xəbəri Şakirə çatdırmışdı:

— Nəzər getdi!

Şakir maşının açarını burub motoru söndürmüşdü:

— Hara?

— Hara olacaq? Bakıya! Əlində də bir yekə qara çamadan vardı.

— Yox əşi?

— Hm. Yəqin şikayətə gedir də.

Şakir dodaqlarını ayırıb çırt atmışdı:

— Pay atonnan! Bu kişinin saçı-saqqalı ağardı, ancaq ağlı ağarmadı da. Demaqoqluğundan əl çəkmədi ki, çəkmədi.

— Südnən gələn sümükdən çıxmaz, Şakir. Onun rəhmətlik Səlminaz anası da heyləydi. Haqq deyib dururdu arvad. Sənin yadına gəlməz…

— Necə gəlməz, ay kişi? Gəlir. Bu yaxınlarda ölmədimi? O iclas olmazdı ki, orda danışmasın, kolxoz quranlardanam deyirdi həmişə…

— Hə… Zirəng arvad idi.

Şakir yollara baxmışdı.

— Yəni deyirsən toçnu Bakıya getdi?

— Bu nədi?.. O ta rayon-zad saymır. Birbaş Bakıya yazır, Bakıya gedir!

Şakir əlini yellətmişdi:

— Əh, getsin də. Lap istəyir Moskvaya getsin. Zornan çıxartmamışam ha. Pensiya vaxtı çatıb. Özü də ərizə verib. Könüllü surətdə…

— Əlbəttə. Deyir, milçək bir şey döyül, amma ürək bulandırır da.

Şakir maşını işə salmışdı:

— Əsas plandı. Uşaqları gözdən qoyma. Qoy yığsınlar. Katib birinci plana baxır… Qalan şeylər düzələr.

— Arxayın ol, əşi.

Maşın toz qaldıra-qaldıra uzaqlaşmışdı.

DOQQUZUNCU FƏSİL

Güldanə evin qabağında çömbəltmə oturub tezdən Tapdığın kəsdiyi toyuqların tükünü teştin içində yolurdu. Uzunlu-qısalı yaş tükləri səliqə ilə teştin bir qırağına yığır, dodaqaltı çox sevdiyi «Sağ ol, əzizim» mahnısını zümzümə eləyirdi. Birdən böyründə kimsə öskürüb dilləndi:

— Ay ev yiyəsi, qonaq istəmirsən ki?

Güldanə səksəndi, toyuq əlindən düşdü, hövlnak qalxıb irəli cumdu:

— Bıy, ata? Xoş gəlmisən, ay ata! Sənə qurban olum, ay ata! — deyərək Nəzərin boynunu qucaqladı. Nəzər çamadanı əlindən yerə qoyaraq, başını aşağı əydi, qızının üzündən öpdü. — Səndən nə əcəb, ay ata, ilin-günün bu vədəsində bizi yad eləyibsən?!

— Darıxdım sizin üçün, qızım! Necəsən, mənim körpəm? Uşaqların nə təhərdi, Tapdıq nə təhərdi? — Nəzər, artıq üç uşaq anası olan Güldanəyə, körpəlik çağlarında olduğu kimi, həmişə belə müraciət etməyi tərgidə bilmirdi.

— Hamımız yaxşıyıq, ay ata! Ömrünüzə dua eləyirik. Anam, Qərib neyniyir?

— Babatdılar, qızım!

— Sən özün necəsən ey, ay ata? Neçə gündü gecələr yuxuma girirsən! Çox bikef görürəm səni yuxularımda. Naxoş-zad deyilsən ki?.. Yarı canım qalmışdı sənin yanında.

— Yox. Maşallah, top kimiyəm.

— Təki, heylə olsun, ay ata. — Güldanə kənara çəkilib, atasının boy-buxununa, üz-gözünə diqqətlə baxdı; elə bil onun dediklərinə inanmırdı, özü yoxlamaq istəyirdi. Nə gördüsə: — Bıy, səndən çıxmayan iş, ay ata. Üzünü niyə qırxmayıbsan bə? — deyə təəccüb içində soruşdu.

Nəzər sağ əlini üzünə sürtdü. Doğrudan da, o, bu gün saqqalını təraş eləməmişdi, unutmuşdu tamam. Nəzər üzünü qırxmamağından çox, bunu Bikə xanımın da görmədiyinə təəccübləndi, ürəyindən keçirtdi: «Hə, yavaş-yavaş formadan düşürsən, Nəzər. Sən olaydın, saqqalını qırxmamış evdən çıxaydın. Bu gün bunu unudarsan, sabah köynəyini ütüləməyi yadımdan çıxardarsan. Belə-belə, bir də görər-

sən ki, dönüb olubsan əprimiş bir qoca! Yəni Bikə də fikirli olub, baxmayıb?!»

Düşündüklərini dilinə gətirmədi, eləcə qayğılı-qayğılı qımışdı:

— Tələsmişəm yəqin…

— Yox ay ata, sənin gözlərində də bir qüssə var.

Nəzər əlini qızının saçlarına çəkdi, zarafata salmaq istədi:

— Ay falçı, hələ də köhnə xasiyyətindən əl çəkməyibsən? Yenə gözündən tük də yayınmır.

— Görürəm, ay ata, sənə nə isə olub!

— Yox, qızım, ürəyini buz kimi elə. Nə mənə, nə də evdəkilərə bir şey olub. Vallah, salamatlıqdı, billah, salamatlıqdı.

Güldanə indi inanıb toxtadı. Nəzər isə öz-özünə fikirləşdi: «Güldanə də, Güllü də həssaslıqda mənə, Bikəyə çəkiblər. Gözündən ürəyini oxuyurlar, hünərin var, bir şey gizlət bunlardan. Əsla mümkün deyil. Bir zamanlar bu fikirdəydim ki, belə olmaq çox yaxşıdı, hər şeyi görürsən, duyursan, səni aldatmaq olmur. Ancaq indi görürəm ki, bu cür adamların dərdi çox olur, onlar hər şeyi ürəklərinə salırlar, buna görə də tez qocalırlar. Mənim qız balalarım, siz niyə belə həssas yarandız? Siz tez qocalacaqsız, balalarım! Yox, yox, kötük, hissiz, duyğusuz olub, yüz il ömür sürməkdənsə, bax, beləcə həssas, əsl insan olub az yaşamaq, tez qocalmaq daha yaxşıdı. Vallah, yaxşıdı, billah yaxşıdı!» Güldanə sevindiyindən nə eləyəcəyini bilməyərək, tələsik həyətdəki stulun üstünü silib təmizlədi, atasını oturtdu.

Miz arxasında əyləşmiş Nəzər həyət-bacaya diqqət yetirirdi. Hər dəfə bura gələndə onun gözü-könlü açılırdı. Çünki təbiətən səliqə-sahman sevən adam olan o, sərraf gözüylə nə qədər baxırdısa, həyət-bacada bir kəm-kəsir tapa bilmirdi. Hər şeyin öz yeri vardı bu həyətdə. Tapdıq eləyirdi bunların hamısını. Nəzər həmişə buna heyrətlənirdi ki, səhərdən-axşamacan çöldə, tarlada, gah traktor, gah kombayn, gah pambıqyığan maşının sükanı arxasında olan, demək olar ki, ilin on iki ayının hamısını kolxozda əlləşib-çalışan Tapdıq bu işləri haçan görür! Çöldən nə vaxt gəlsə, necə yorğun olsa da, o öz doğma ocağının başına qayıdan kimi, elə bil bütün əzginliyi yadından da, canından da çıxırdı; quş kimi yüngülləşirdi, ürəyinə sonsuz həvəs axıb dolurdu…

İyirmi beş sot bağını özü şumlayardı, ağaclarının dibini özü boşaldardı, üzüm tənəklərini özü kəsərdi. Və Nəzər hər dəfə bura ayaq basanda, həyətdə Tapdığın tikdiyi, düzəltdiyi nə isə yeni bir şey

görüb sevinərdi. İyulda Nəzər burda olanda Tapdıq illərlə üstündə işlədiyi «əsərini» təzəcə bitirmişdi — Bu, boş şampan, limonad, badamlı butulkalarından qurduğu xudmani hovuz idi — elə yaraşıqlı və gözəl idi ki, adam baxmaqdan doya bilmirdi. Bir dənə də daş işlətməmişdi. İçində balaca, rəngbərəng balıqlar üzürdü. Bu balıqları Tapdıq gedib Bakıdan baha qiymətə almışdı. Vaxtlı-vaxtında suyunu dəyişirdi, xüsusi yemlərini verirdi. Hovuzun yanında basdırdığı dirəyin başında gecələr yanan uzun neon lampasının işığında hovuz nəhəng, zərif naxışlı bir cama oxşayırdı. Hovuzun dörd tərəfində qoyulmuş taxta oturacaqlarda axşamlar əyləşib, ora-bura şütüyən balıqlara tamaşa eləmək nəyə desən dəyərdi. Nabələd, Tapdığı yaxşı tanımayan adam, bu hovuzu görəndə, təəccübünü gizləyə bilməyib:

— Bu qədər butulka hardandı, ay Tapdıq? — deyəndə o gülə-gülə:

— Hamısını özüm içmişəm. Beş yüz şampan butulkası, iki yüz araq, min dənə də mineralnı şüşəsi var burda — hamısını təkcə içmişəm, — deyərdi.

— Ə, heylə şey olmaz!

Bu zaman Güldanə ərinin sözlərini gerçək kimi başa düşəcəklərindən ehtiyat eyləyərək tez düzəliş verərdi:

— Zarafat eləyir Tapdıq, heç içən deyil. Ordan-burdan yığıb alıb. Altı ilə tikib bunu!..

— Afərin, afərin. Mən ömrümdə belə şey görməmişdim, çox gözəldi!

Nəzər mizin arxasından qalxıb hovuza tamaşa eləyirdi ki, Güldanə qabaqdakı göy qapıdan çıxıb:

— Ay ata, yoldan gəlmisən, gəl çim, — dedi.

— Çimim? Harda?

— Bə görmürsən, Tapdıq təzə hamam tikib, ay ata!

Nəzər irəli gəldi, başını aşağı əyib içəri keçdi. Gözünə inanmadı. İki balaca otaqdı, biri soyunub-geyinmək üçündü, o birində isə qaz buxarısı, duş qoyulmuşdu, divara iri, bədənnüma ayna vurulmuşdu. Yeri kafel idi, divarı da naxışlı kafellərlə bəzənmişdi. Qaz sobası gurultuyla yanırdı.

— Bax, bu isti sudu, — qırmızı qrant. Bu göy də soyuq suyunkudu. — Nəzər o qədər sevindi ki, əvvəlcə heç nə deyə bilmədi, sonra özünə gəlib qızını qucaqladı, alnından öpdü:

— Mübarəkdi, ay mənim körpəm. Sağlığınıza qismət olsun. Sağ ol, mənim körpəm.

Güldanə saçlarına sığal çəkib fərəh içində:

— «Sağ ol»u mənə demə, ay ata, Tapdığa de. O tikib bunu, — dedi.

— Elə ikinizə də deyirəm, mənim körpəm, halal olsun!

— Sağ ol, ay ata. Rahatlığa çıxmışam. İstədiyim vaxt yandırıram, uşaqları çimizdirirəm, özümüz çimirik. Çox irahdır, ay ata. Allah Tapdığın köməyi olsun!

Nəzər bir ata kimi neçə illərdən bəri — qızını Tapdığa ərə verəndən bəri açıq-aşkar gördüyü, ürəyini dağa döndərən bir həqiqəti ilk dəfə indi, qızının yanında, elə hamamın ortasında dilinə gətirdi:

— Sən deməsən də, mən çox yaxşı bilirəm, sən xoşbəxtsən, ay mənim körpəm. Buna hədsiz dərəcədə sevinirəm, gözümün işığı!

Güldanə utanıb uzun, tutaş kirpiklərini endirdi:

— Sağ ol, ay ata!.. Tapdıq yaxşı insandı.

Nəzər nəyisə yadına saldı, azca tutuldu:

— Kaş Güllü də sənin kimi xoşbəxt olaydı!

Güldanə bu sözə təəccüb elədi:

— Niyə, ay ata? O, mənnən də xoşbəxtdi!

— Yox, ay bala. Mənim nə isə ondan yana ürəyim heç rahat deyil. Elə bilirəm o uşaq öz yerinə düşməyib, mənim körpəm!

— Bəlkə…

— Yox, yox, heç nə yoxdu. Baxırsan hər şeyi var, ancaq ürəyim nə üçünsə mənə deyir ki… Eh, nə isə… — Nəzər Güldanəni kədərləndirməmək üçün sözü dəyişdi. — Hə, deyirsən indi çimim?

— Hə, ay ata, çim. Elə rahatlanacaqsan! Bax, ora dəsmal, dəyişəcək qoymuşam. Çim, mən də öz işlərimi görüm.

Güldanə çıxdı.

Yarım saatdan sonra Nəzər, ağ tiftikli dəsmalla boyun-boğazını silə-silə gəlib, mizin dalında oturdu. Güldanə onun üçün təzədəm çay gətirdi.

— Həmişə təmizlikdə, ay ata!

— Sağ ol, mənim körpəm! Yaxşı hamamdı. Canım dincəldi.

— Gərək anamı da gətirəydin.

— İşdədi.

— Bə sən işdə döyülsən?

— …

— Hə, yəqin siz də pambıqdasız. Bizimkilər kimi…

— Elədi, — Nəzər bu sözü eşidib sevindi. Onlar — Nəzər və Bikə lap əvvəldən qəti qərara almışdılar ki, təqaüdə çıxdığını hələ uşaqlara deməsinlər. Necə olsa, fikir eləyəcəklər. «— Çaşıb birdən zəng eləyib xəbər verərsən ha Güldanəyə!...

— Yox. Eləmərəm. Demərəm, kişi.

— Dərd çəkərlər uşaqlar».

Güldanə «Yəqin siz də pambıqdasız!» — deyəndə, əlinə göydən düşən bu fikirdən yapışıb əlavə elədi: — Məktəbi bağladılar, uşaqları apardılar pambığa. Mən də dedim, ay yoldaşlar, qoca kişiyəm, bu il pambığı mənsiz yığarsız. Bəsdi ta. Gedirəm balalarıma baş çəkməyə.

— Yaxşı eləmisən, ay ata. Biz də səni doyunca görərik. Elə Gültəkin, Elman, Elcan hey deyir ki, gedək babagilə. Deyirəm vaxt yoxdu, deyirlər bəs haçan olacaq vaxt? Nə deyirik cavab verirsiz ki, vaxt yoxdu.

Nəzər siqaret yandırdı və fikirli-fikirli söylədi:

— Onu düz deyirlər. Vaxt yoxdu, mənim körpəm. — Və ürəyində düşündü ki, Güldanə nə qədər həssas, sözdən söz çəkən olsa da, onun son «Vaxt yoxdu!» sözlərindəki mənanı heç cür, heç vəchlə, Nəzərin nəzərdə tutduğu mənada başa düşə bilməz. «İnsan vaxtın içində doğulur, vaxtın içində yaşayır, vaxtın içində də ölür. İnsan dünyaya gələndə onun boynuna biçilmiş, taleyinə, alnına yazılmış vaxt da doğulur. Onun öz vaxtı. Əvvəl bu vaxt, zaman deyilən şey gözə görünmür, qədirsiz-qiymətsiz olur, çox olur, heç kəs onun hardan gəlib hara getdiyinə əhəmiyyət vermir. Ancaq ömrün elə çağı gəlir ki, o vaxt qədir-qiymətə minir, hiss edirsən ki, sənin ən dəyərli bir nemətin varsa, o da vaxtdı, deməli ki, ömürdü. Sonra, ömrün bir məqamında lap yəqin başa düşürsən ki, ay aman, vaxt azalır, yoxalır, vaxt qarşısıalınmaz bir sürətlə əriyir. Və günlərin birində də sən görürsən ki, üstündə əsdiyin o vaxt deyilən nemət qurtardı. Aman allah, qurtardı! Bu, dəhşətli andı, bu, hər şeyin sonudu sənin üçün!.. Sən öləndə sənin vaxtın da ölür!»

Güldanənin səsi Nəzəri düşüncələrdən ayırdı:

— Hələ bir şeyə də gərək «mübarək olsun!» deyəsən, ata!

— Hə? Nədi o elə?

— Bir dur bura gəl, — deyə Güldanə atasının qolundan tutub qaldırdı və hamamın böyründəki qarajın qabağına gətirdi. — Ancaq əvvəlcə gözlərini yum. Mən deyəndə açarsan, yaxşımı?

— Yaxşı!

— Hə, yum gözlərini!

— Yumdum!

Qarajın dəmir qapısı xırıltı-cırıltı ilə açıldı:

— Hə, indi aç gözlərini!

Nəzər baxanda içəridə ağappaq «QAZ-24»ün dayandığını görüb, heyrətlə içini çəkdi:

— A… Belə de! Maşın almısız!.. Mübarəkdi. Mübarəkdi. Sağlığınıza qismət, ay mənim körpəm. — Nəzər böyründə dayanan qızını sinəsinə sıxıb saçlarından öpdü.

— Sağ ol, ay ata! — Güldanə də eynən uşaqlığında olduğu kimi, şıltaq bir hərəkətlə atılıb atasının üzündən öpdü. Güldanə uşaq olanda atası təzə paltar, ayaqqabı, oyuncaq alıb gətirəndə belə eləyərdi. Nəzər uzaqda qalmış o illərin bu xoş xatirəsini yadına salıb gülümsündü:

— Bunu mən almamışam ha, ay mənim körpəm, Tapdıq alıb. Onu öpməlisən, məni yox. Haçan götürmüsüz?

— Tapdığı da öpmüşəm, — dedi və yersiz danışdığını başa düşüb qızardı, sözü dəyişdi: — İki həftədi. Tapdığa kolxoz mükafat kimi verib.

— Bə niyə nömrəsizdi, qız?

— Tapdığın vaxtı yoxdu gedib nömrə alsın. Bu həftə gedib alacaq.

— Maşallah. Gözəl maşındı, rəngi də gözəldi.

— Hə, ay ata, Tapdığın qara rəngdən xoşu gəlir; deyirdi qara rənglisindən götürəcəyəm. Dedim yox, ağ yaxşıdı. Ağ götür. O da gedib ağ rənglisini götürdü.

Nəzər qaraja girib maşının ətrafına hərləndi: «Yaxşıdı, çox yaxşıdı!» — deyib çölə çıxdı.

Kişinin kefi kökəldi. Qızını görməkdən yaranan sevinci hamam, maşın iki-üç qat da artırdı və o bir anlığa özünü ən xoşbəxt ata hesab elədi dünyada, elə o dəqiqə də ürəyindən keçirtdi ki, kaş, o biri uşaqlarının da — Güllünün də, Qəribin də taleyi belə olaydı, yaxşı adamlara rast gəlmiş olaydılar. Oğluna ağıllı, tərbiyəli qız tuş olaydı,

Güllünün də əri heç olmasa bir az Tapdığa oxşayaydı!

— Ta nəynən sevindirəcəksən məni, ay mənim körpəm?

Güldanə bəxtəvər-bəxtəvər gülümsündü, sağ yanağındakı xırdaca çökək təbəssümün içində itdi:

— Ta heç nəynən. Ta bəsdi. Bunlar azdı məgər, ay ata?

— Yox, az deyil, qızım. Bu gün ürəyim lap dağa döndü.

Gəzə-gəzə hovuzun qırağına gəldilər. Balıqlara xeyli tamaşa elədilər. Nəzər keçib hovuzun qırağındakı oturacaqda əyləşdi, bir siqaret yandırdı, sonra qızını yanına çağıraraq sol əlini yavaşca oturacağın taxtasına vurub:

— Gəl otur yanımda, mənim körpəm, — dedi, — dağdan-arandan danışırıq bayaqdan, indi de görüm sənin öz şəxsi işlərin necə gedir?

Güldanə atasına sığındı:

— Yaxşıdır, ay ata!

— Yenə kitabxanadasan da?

— Ancaq pambıq yığımı başlanandan açmıram kitabxananı!

— Niyə ki?

— Kolxoz sədri icazə vermir! Deyir: «Hər şey pambıq üçün!..» Müharibə vaxtı hər şey cəbhə üçün olduğu kimi!.. İndi ancaq axşamlar açıram. Gündüz kənddə adam olmur ha. Hamı işdə-gücdə.

— Yəni axşam kitabxanaya gələn olur ki?

— Oldu-olmadı, mən açıram, otururam. Birdən görürsən cavanlardan ikisi-üçü gəlir. Kitabdan-jurnaldan istəyir.

— Bəs gəlməsə?

— Gəlməsə də ki, heç! Oturub kitabdan-zaddan oxuyuram.

— Onu yaxşı eləyirsən, mənim körpəm. Şükür, indi yemək-içmək boldu, qarnı ac adam tapammazsan. Ancaq ürəyi ac adam çoxdu; indinin ən kasıb adamı — kitab oxumayandı, ən böyük kasıblıq — mənəvi kasıblıqdı, mənim körpəm.

Güldanə birdən vəcdlə qolunu atasının boynuna saldı və bir övlad məhəbbəti ilə onu özünə tərəf çəkib sıxdı:

— Qurban olum atama! Sən lap şairlər, yazıçılar kimi danışırsan!

Nəzər mehribanlıqla, eyni zamanda maraqla xəbər aldı:

— Hansı şairləri, yazıçıları deyirsən, qız?!

— Yadımdan çıxıb ey, sənə deməmişəm, — Güldanə həvəslə

söylədi: — Keçən həftə Yazıçılar İttifaqından bir şair, bir də yazıçı gəlmişdi.

Nəzər qızına sarı çöndü:

— Kim idi?

— Biri Sakit Aranlıydı, o biri də gənc şair Toğrul idi.

Nəzərin pırpız qaşları çatıldı:

— Demək Sakit Aranlı bizim rayona gəlib, məni görməmiş çıxıb gedib?

— Məgər tanıyırsan onu?

— Ba! Tanıyırsan nədi? Yazıçılar içində ən yaxın dostumdu. Bəs kitabxanamda avtoqraf yazıb göndərdiyi kitablarını görməyibsən?

— Yox.

— Hər dəfə təzə kitabı çıxanda birini məxsusi mənə göndərir.

— Belə de! Elə yaxşı kişidi, elə mehribandı, istəyirsən ürəyini yarıb içinə qoyasan; adamnan elə danışırdı ki, sanasan min ildi səni tanıyır. Elə xırmanda, qapanın yanında görüş təşkil elədik kolxozçularla. Mən bir az onun kitabları barədə danışdım. Gənc şair Toğrul öz şerlərini oxudu. Yaxşı şerlər idi, ay ata!.. Ürəkdən yazmışdı. Əzbərdən deyirdi. Üç-dörd şer oxudu. Hamısı yadımda qalıb, ay ata!

— Hə? Birini de görüm! Bilirsən ki, mən də yaxşı şeri çox sevirəm. De, mən də həzz alım, ay mənim körpəm!

Güldanə əlini saçlarına çəkdi, hovuzda üzən balıqlara baxdı, fikrində nəyisə götür-qoy elədi (görünür, seçirdi şerləri), sonra həlim, axar bir səslə söylədi:

— Adı gərək ki, «həsrət» idi.

— Hə, de. Ürəyim yaman şer istəyir.

Güldanə ahəstəcə başladı:

Həsrətdən ürəyim olubdu dağ-dağ,
Gözümün yaşı da quruyub, inan.
Mən səni həmişə görürəm, ancaq
Sənə əlim yetmir, necə uzaqsan?!

Səsini eşitsəm, qəlbim titrəyir,
Addım səslərindir qulaqlarımda.
Səni görməyəndə göy yerə dəyir,
Gül adın çırpınır dodaqlarımda.

Ömür həsrət ilə ötdü yarıdan,
Gözümə ağ düşdü, saçlarıma dən.
Qəlbimə eşqini yazan-yaradan,
Elə hey dedi ki, sən gələcəksən.

Gəlişin bayramdı, gedişin yasdı
Gəlirsən — diriyəm, gedirsən — ölü.
Sənsiz bu dünya da dünya olmazdı,
Sənsiz mən də yoxdum, ay ömrüm gülü.

— deyib atasının üzünə baxdı:

— Necədi, ay ata?

— Yaxşıdı, qızım. Nizamisi, Nəsimisi, Füzulisi, Sabiri, Səməd Vurğunu olan bir xalqın, adını şair qoyan oğlunun pis şer yazmağa haqqı yoxdu, qızım.

— Sakit Aranlı da heylə deyirdi — eynən sən deyən kimi deyirdi, ay ata! O, şer oxumadı, elə-belə danışdı. Çox gözəl sözlər dedi. Qəribə idi, mənə elə gəlirdi ki, o mənim, sənin, onun düşündüklərimizi, ancaq dilimizə gətirə bilmədiklərimizi söyləyirdi. Sanki ürəyimin içinə girmişdi. O qədər əl çaldıq ki, ovcumuz göynəyirdi, ay ata. Deyəsən heç gözləmirmiş ki, bizim kəndin camaatı onun kitablarının hamısını oxuyub, onu bu qədər sevə bilərik. Yaman həyəcanlanmışdı; dedi bu məhəbbət bəsimdi, qələm sahibi o zaman həvəsnən, məhəbbətnən yazıb-yaradır ki, qədri bilinsin, sevilsin, qiymətləndirilsin. Xalqımız, — dedi, — qədirbilən xalqdı, oxuyan xalqdı, sözə-sənətə qiymət verən xalqdı, ağı qaradan seçir oxucularımız. Ədəbiyyat, — söylədi, — xalqın vicdanıdı, vicdanının səsidi. Şair, yazıçı kimdi? Xalqın danışan dilidi və bu dilin qılıncı, kəsəri — həqiqətdi. Həqiqət yazmayan qələm isə — ovxardan düşmüş qılıncdı. Sənətin gücü — doğru sözdədi! Doğrusu söz isə o zaman beyinlərə, ürəklərə, vicdanlara təsir edə bilir ki, onu dinləyən, eşidən, oxuyan, həzm edən olsun. Bizim gücümüz sizsiz, oxucularımızdı. Oxucusuz yazıçı, şair — sudan çıxarılıb qumlar üstünə atılmış balığa bənzər — nə qədər böyük, qüdrətli, şan-şöhrətli olsa da, çırpınıb-çırpınıb öləcək, çox yaşamayacaq!!!

— Tamamilə düz deyir, qızım!

— Nə isə, o gecə doğrudan da bayram idi, elə bil adamlar

bütün günü işləməmişdilər. Hamının yorğunluğu-arğınlığı canından çıxmışdı. Məclis qurtarandan sonra adamlar dağılışıb evlərinə getmək istəmirdilər, cürbəcür suallar verirdilər. Saat on ikiyəcən onları buraxmadı camaat.

— Elə ac yola saldız qonaqları?

— Yox, ay ata… heylə şey olarmı?.. Elə kitabxanada yaxşı bir stol açmışdıq…

— Sonra da putyovkalarını qoydular ortalığa ki, bunlara qol çəkib möhür basın, hə?

— Onu əvvəlcədən eləmişdik. Toğrul gətirdi. Hərəsinə bir putyovka idi.

— Bax, bu olmadı da… Bilirsən, qızım, Yazıçılar İttifaqının «Ədəbiyyatı təbliğ bürosu» deyilən bir təşkilatı var. Yaxşı təşkilatdı — xeyirxah iş görürlər. Ədəbiyyatımızı elimizə-obamıza yayırlar, təbliğ eləyirlər. Camaatımız sənətkarlarımızı şəxsən görür, tanıyır, bu, çox yaxşıdır. Ancaq bir şeyi yaxşı fikirləşməyiblər.

— Nəyi, ay ata?

— Elə o putyovka məsələsini. Sən, necə deyərlər, mədəniyyət cəbhəmizin işçisisən, yaxşı bilirsən ki, hər müəssisənin, idarənin, kolxozun mədəni-kütləvi işlərə məsrəf eləmək üçün pulu-vəsaiti var, hesabı var. Elədimi?

— Elədi.

— Ay sağ ol. Şairin, yazıçının, artistin, mühazirəçinin yerlərə gedib çıxış eləməsinə, qanuna görə, bu puldan xərclənməlidi. O pulu ki, artistə-filana verirlər, nəqd vermirsiz ki?

— Yox.

— Onları göndərən idarənin hesabına köçürürsüz də?

— Bəli.

— Elə isə soruşuram: nə üçün şairə, artistə putyovka verirsən, o da sıxıla-sıxıla, utana-utana o putyovkanı sənə, yəni müdirə, direktora, sədrə verir, onlar da qol çəkib möhür basır, göndərir. Olmazmı ki, şair gəlib şerini oxuya, çıxışını eləyə, çıxıb gedə evinə, sən də o pulu dövlətin bu cibindən o cibinə köçürəsən və şair də sənin qabağında alçalıb utanmaya?

— Məgər o pulun hamısını onların özünə vermirlər?

— Yox, canım. Müəyyən faizini verirlər, vəssalam.

— A, belə de. Mən elə bilirdim hamısını özləri alır.

— Bəla burasındadı ki, tək sən elə bilmirsən, çoxları o cür düşünür.

Güldanə nazik, çatma qaşlarını çatıb:

— Soruşmaq ayıb olmasın, ay ata, bəs bunnarı sən hardan bilirsən? — deyə xəbər alanda Nəzər qəşəng, ağ bığına əl çəkib:

— Sakit Aranlı keçən il gələndə danışmışdı, — söylədi, — demişdi ki, biz özümüz də istəmirik belə olsun. Bu, çox pis səslənir, elə çıxır ki, mən pul üçün gəlib oxucularımın qabağında çıxış eləyirəm, sözümü satıram. Bu, camaatın gözündə sözümüzü ucuzlaşdırır, şəxsiyyətimizi alçaldır. Dedim, elədisə, ləğv eləyin bu putyovkaları, köçürmə üsuluna keçin. Gülüb söylədi ki, elə bilirsən ləğv eləmək asandı? Yuxarıda, kimisə belə düşünüb, qanuniləşdirib, qurtarıb gedib, gəl indi sən sübut elə ki, bu doğru yol deyil, dəyişmək lazımdı. Eləyə bilməzsən… Görünür, Sakit Aranlı düz deyirmiş, çünki o gedəndən sonra mən Yazıçılar İttifaqı sədrinin adına əsaslı, böyük bir məktub yazmışdım. Heç bir cavab gəlmədi. Əgər şairlər indi putovkaynan gəliblərsə, deməli ki, məktubumun təsiri-filanı olmayıb…

— Deyirəm axı, o cavan şair o putyovkaları niyə belə sıxılasıxıla çıxartdı cibindən, utana-utana mənə başa saldı ki, necə yazım. Putyovka ortalığa gələndə Sakit müəllim siqaret yandırıb bayıra çıxdı. Sən demə, ortada iş varmış!

Ata-bala xeyli dərdləşdilər. Necə oldusa, Nəzər əsnədi. Güldanə yerindən dik atıldı:

— Ay ata, yorğunsan, görürəm, gəl, yer açım, dincəl, — dedi. Kişi etiraz eləmədi. İkinci mərtəbəyə, qalxdılar. Güldanə kəllayı otağın mavi rəngli qapısını açıb, atasını içəri apardı; yanaşı qoyulmuş iki taxta çarpayının birində, ancaq qonaq-qara üçün saxlanmış yorğan-döşəkdə ona yer saldı. — Yat, rahatlan, — dedi.

Nəzər saata baxdı. Dördə işləyirdi. Günün bu vədəsində yatdığı heç yadına gəlmirdi. Amma soyunub uzandı.

ONUNCU FƏSİL

…Güldanə axşama yaxşı toyuqplov bişirmişdi. Bostandan payızlıq pomidor yığmışdı, ləkdən göy-göyərti biçmişdi, talvardan iri, dolu qara üzüm salxımları kəsmişdi. Ətri uzaqdan adamı vuran Qızıl Əhmədi almalarını yuyub vazaya yığmışdı.

Uşaqları ilə çöldən – kolxoz həyətindən bir yerdə gələn Tapdıq aynabənddə açılmış dəm-dəsgahlı stolu görəndə gülə-gülə soruşmuşdu:

— Xeyir ola, arvad, qonaq gözləyənə oxşayırsan?

Güldanə əlinin arxasıyla ora-bura qaçmaqdan tərləmiş alnını silib xoş əhvali-ruhiyyə ilə:

— Hə, qaynatan gəlib! – dedi.

— Gəlib? – Tapdıq da, uşaqlar da sevinmişdilər.

— Babam gəlib! – Gültəkin ucadan səslənmişdi.

— Gəlib, gəlib!

Elmanla Elcan atılıb-düşmüşdü:

— Urra! Baba gəlib!

— Bəs hanı kişi? – Tapdıq o yan-bu yana baxmışdı.

— Yatıb!.. Səs salmayın, qoyun dincəlsin.

Elcan anasının donunun ətəyindən tutub:

— Nənəm də gəlib? – soruşmuşdu.

— Yox.

— Eee.. Elə həmişə tək gəlir.

Tapdıq nigaran-nigaran:

— Salamatlıqdırmı barı? – demişdi.

— Eyzən salamatlıqdır.

Sonra Tapdıq hamamlanmışdı, iş paltarını dəyişib tər-təmiz ev paltarı geyinmişdi. Bir az bundan qabaq əli, üzü qapqara olan Tapdıq tamam başqa adam olmuşdu. Bu, onun çoxdankı adətiydi. Geyinib-keçinib toya-mağara, iclasa, kluba, rayona, şəhərə gedəndə heç kəs inanmazdı ki, bu ucaboy, enlikürək, şaqqallı adam adicə bir traktorçudur. Səliqəlilik öz canında vardı, buna baxmayaraq, Güldanə də onu bu barədə gözdən qoymazdı. Qalstuku, köynəyi, cib yaylığı Güldanənin həmişə nəzərindəydi. Kostyumlarını elə ütüləyirdi ki, elə bilərdin indicə mağazadan götürüb. Ayaqqabılarını da Güldanə öz səliqəsiylə mazlayıb çötkələməyi sevərdi və bu işləri zövq ala-ala eləyirdi. Arvadının bu həvəsini görən Tapdıq, bir kişi kimi çox fərəhlənirdi. Atalarının yuyunduğunu görən uşaqlar da bir-birinin həvəsinə çimib çıxmışdılar. Hamı stol başında oturmuşdu.

— Babanı çağır da, ay ana! — deyə balaca, sonbeşik Elcan hövsələsizlik göstərirdi.

— Acmışıq axı!..

Elə bil bu sözə bənd imiş, Nəzər qonaq otağının qapısı ağzında göründü, qollarını geniş açıb dedi:

— Balalarımın axşamı xeyir!

Uşaqlar səs eşitcək bir adam kimi ayağa qalxıb Nəzərə sarı cumdular. Qucaqlaşıb öpüşdülər, sonra Tapdıq irəli yeridi, adətləri üzrə ata-bala kimi görüşdülər. Bu görüş çox isti və mehriban görüş idi. Güldanə atasıyla ərinin belə görüşməyindən həmişə fərəhlənirdi.

Söhbət edə-edə, hal-əhval tuta-tuta şamlarını yedilər, dedilər, güldülər. Eyvanı səs-küy bürümüşdü. Kənardan baxan elə bilərdi ki, burada iyirmi-otuz adam var. Ağız deyəni qulaq eşitmirdi. Bu, Tapdığa ləzzət eləyirdisə, Güldanənin əsəblərini cırmaqlayırdı. Axırda dözməyib çımxırdı:

— Ədə, sakit olun, kənd səsinizdən köçdü ki?!

— Dəymə, sən allah, ay Güldanə. Qoy desinlər, gülsünlər, — deyə Tapdıq balalarının sevincindən həzz almaq istəyirdi. Çünki özü lap erkən, on dörd yaşından ata-anasız qalmışdı. Evdə, demək olar ki, tək yaşamışdı, qonşuların himayəsi, qayğısı gündüzlər təkliyini unutdurmuşdusa da, axşamlar dörd divar üstünə yerimişdi. Çox vaxt ürəyi hövl eləyəndə ağlaya-ağlaya yatmışdı. O, uzun-uzun illər — Nəzər müəllimin köməyi, qayğısı ilə orta məktəbi qurtarandan, əsgərliyə gedib-gələndən sonrayacan — bu həyətdə özgə bir səs-səmir eşitməmişdi. Dalbadal üz verən yaslardan sonra ilk dəfə burada toy olmuşdu. Aşıq Pənah oxuyub saz çalanda o dəhşətli sükut buzu qırılmışdı… və Tapdıq yalnız ondan bəri təkliyin, yetimliyin, sükutun daşını ata bilmişdi.

İndi qonaq-qara gələndə, belə gur söz-söhbət olanda Tapdıq çox sevinirdi, uçmağa qanadı olmurdu; durub özünü, oturub dizini gördüyü günlərin ağrısı-acısı canından çıxırdı elə bil.

Mehriban, xoşbəxt ailəsinə, bir-birindən qəşəng, ağıllı balalarına, cah-cəlalına baxanda, bu barədə fikirləşəndə, xəyalında birinci Nəzər müəllimin qabağında baş əyirdisə, ikinci öz qabarlı əllərini öpürdü. Çünki Nəzər Tapdığın dayağı olmuşdu. Bir qarın çörək verəndə, bir dünya da ümid vermişdi, əlindən tutub qaldırmışdı, çörək, ev-eşik sahibi eləmişdi. Ona görə də Tapdıq Nəzərə müəllim kimi yox, bir ata kimi baxırdı; qəribə idi ki, Nəzər də onu çox istəyirdi, hərdən öz-özünə düşünürdü ki, onu oğlu Qəribdən də artıq sevir. Ancaq Tapdıq öz əllərindən də ona görə öpürdü ki, o, bu əllərlə özünə xaniman düzəltmişdi. Bunu Tapdıq da, Nəzər də, Güldanə də yax-

şı başa düşürdü.

Söhbətləri elə şirin, xoş olmuşdu ki, bir də görmüşdülər saat ondu. Eyvanın o başında, bədənnüma güzgülü paltarasanın tuşunda qoyulmuş rəngli «Elektron» televizorda «Zaman» xəbərlər proqramı başlayırdı. Onun tanış, adət elədiyi musiqisini eşidən kimi Nəzər, stulunu rahatlayıb üzünü ekrana çevirdi. Bu, o demək idi ki, ta bəsdi, imkan verin, görək dünyada nə var, nə yox… Və onun bu şakərini burda da bilirdilər. Nəzər həmişə deyərdi:

— «Yaxşı verilişdi bu! Evində oturub dünyanın hər yerindən xəbər tutursan. Ac qalan kimdi, ölən kimdi, öldürən kimdi. Harda quraqlıqdı, haranı sel-su aparıb. Nə qədər pambıq, taxıl, üzüm yığılıb. Ölkəyə kim qonaq gəlib, kim hara qonaq gedəcək. Kosmonavtlarımız göydə neyniyir, nə başını ağrıdım, dünya sənin evindədi — otur, tamaşa elə!»

Sonra kino başlandı. Güldanə də, uşaqlar da televizorun qabağına yığışdılar. «Baharın on yeddi anı» filmini nümayiş etdirirdilər. Üçüncü dəfə.

Nəzərlə Tapdıq aşağı düşdülər. Həyət çıraqban idi. Gəlib hovuzun qırağında oturdular. Nəzər yenə siqaret yandırdı.

— Yaxşı, bayaq oxunu atıb, yayını gizlədin, — deyə Nəzər balıqlara tamaşa eləyən Tapdığa sarı döndü — Səfərlə niyə sözün çəp gəlib axı, bir əməlli-başlı danış görüm.

Tapdıq xeyli fikrə getdi, elə bil nəyisə götür-qoy eləyirdi, handan-hana dilləndi:

— Hardansa kişinin ağlına gəlib ki, bizim kolxozda bir qəhrəman düzəltsin.

— Necə yəni qəhrəman düzəltsin? Qəhrəmanı da düzəldirlər, məgər?

— Hə, indi çox şeyi düzəltmək olur, Nəzər müəllim. Sədrimiz də istəyir ki, mexanizatorlarımız içində möcüzələr yaratmağa qadir olan qəhrəman düzəltsin.

— Necə yəni?

— Bizim altı mexanizatorumuz var, Nəzər müəllim. Beşi kişidi, biri qızdı. Mirab Sultanın qızıdı. Mexanizatorluğu mən öyrətmişəm ona. Sədr istəyir ki, yığdığımız pambıqları onun ayağına yazmaqla qəhrəman eləsin qızı.

— Elə şey olmaz, canım?!

— Mən də bilirəm olmaz. Amma eləyir də. Qələm əlindədi,

yazır.

— Bə niyə etiraz eləmirsiz?

— Eləyirik. Baxmır. Deyir, mən belə məsləhət bilirəm. Kəndin böyüyü mənəm, ya yox? Bu cür məsləhətdi, belə tapşırıq var! Vəssalam!

— Kimin tapşırığıdı?

— Nə bilim. Yəqin yuxarıdan olar!.. Mən də briqada adından getdim yanına, dara-bara saldım, «haqqınız yoxdur!» dedim. Dedi, ə, yeri, yeri, demaqoqluq eləmə. Sənə də hörmət elədikcə başımıza çıxma. Sən istəmirsən ki, kolxozumuz barmaqla göstərilsin? Heç sənin qeyrətin yoxdu? Bunun üstündə mən də ağır söz çıxartdım ağzımdan…

— Bə qız nə deyir?

— Dərd budu ki, qız özü də istəmir! «Məni biabır ləməyin Səfər dayı!» — deyib dad eləyir. Kişi ona deyir ki, bala, belə məsləhətdi. Mirab Sultan da razı döyül. Axırda Səfurənin boynuna qoydu. İndi hər axşam raykoma gedən məlumatda Səfurənin adı birinci yazılır. Mən də qalmışam odla su arasında. Yuxarı baxıram bığdı, aşağı baxıram saqqaldı. Gedib yuxarıda açacağam sandığı, tökəcəyəm pambığı, olmayacaq, eldi-obadı, deyəcəklər Tapdıq qıznan ayaq uzadır, böyügün də sözünə baxmır. Səsimi çıxartsam, onda gərək köç-külfətimi götürüb kənddən gedəm, çünki Səfərin bir sözünü iki eləmək istəyənin gərək yeddi başı olsun, ya da bir maşın dolusu pulu…

Nəzər qalxıb gəzindi, belinin quluncunu qırdı, sonra yenə Tapdığa sarı gəlib dedi:

— Yox, belə şey olmaz, axı. Necə yəni sən işlə, ad mənim olsun? Yox! Bu, heç dəftər-kitabda yazılmayıb, oğul. — Çarə axtarırmış kimi, susub sonra soruşdu: — Yəni heç cür eşitmək istəmir?

Tapdıq rixşəndlə gülümsündü və sağ əlini eyvana sarı uzadaraq:

— Sən nə qoyub, nə axtarırsan, ay Nəzər müəllim? Səfərlər ta mənim kimilərin sözünü eşitmir. — söylədi.

Nəzər qəzəblə dedi:

— Faşist oğlu faşist.

ON BİRİNCİ FƏSİL

Balacalaşmış, əriyib yumağa dönmüş, başında qırağı ağ haşiyəli araqçın, kətildə oturub çubuq çəkən İmran həyətdə hənirti eşidib çevrildi, sol əlini gözünün üstünə qaldırıb, fəhmlə gələn adama baxdı, tanıya bilməyib soruşdu:

— Süleyman, sənsən?

Nəzərin bədənindən bir gizilti keçdi, axşam, yatmamışdan qabaq o, İmran kişinin — köhnə dostunun gününü-ruzgarını xəbər alanda Tapdığın dediyi sözlər yadına düşdü: «Pisdi kişinin halı, Nəzər müəllim. Gözlərinə qara su gəlib, demək olar ki, görmür. Səhərdən axşamacan evə girir, həyətə çıxır, bir yerə getmək istəyəndə qonşunun uşağı apardı gedir, aparmadı yox! Şıqqıltı, səs-səmir eşidən kimi, elə bilir oğludu gələn, hövlnak xəbər alır: «Süleyman? Ə, sənsən?..» O da qəribə adamdı — Süleyman müəllimi deyirəm ey. Beş-altı aydı burdadı, rayondadı, bircə dəfə ayaq basmayıb ki, görüm dədəm ölüb, qalıb?! Bəlkə acdı, susuzdu, xəstədi?..»

İndi İmran kişi «Süleyman, sənsən?» deyəndə Nəzərin tükləri ona görə biz-biz oldu ki, İmran onu da oğluna oxşatmışdı. Yazıq kişi gör necə intizarla Süleymanın yolunu gözləyir, aman allah! Bircə anın içindəcə aradakı yeddi-səkkiz addımlıq məsafəni gəlincə Nəzərin gözünün qabağına İmranın cavanlıq çağları gəldi — onda İmran sağlam, buz baltası kimi möhkəm, yanaqlarından qan daman bir kişi idi, savadı, sənəti-peşəsi olmadığından kolxozda suçu işləyirdi, gözünün ağı-qarası bircə oğlunu, bax, indicə adını çəkdiyi bu Süleymanı nəyin bahasına olursa-olsun oxutmaq istəyirdi, kənddə orta məktəb olmadığına görə, sarışın, sısqa, ancaq diribaş uşağını özü yanına salıb «Qırmızı məktəb»ə — Nəzərin hüzuruna gətirmişdi. O zamandan Nəzərlə İmran arasında bir ünsiyyət, mehribanlıq əmələ gəlmişdi və bu haqq-salam, aradan uzun illər keçməsinə baxmayaraq, indi də davam eləyirdi. İmran Nəzərin xoşuna onunçun gəlmişdi ki, məğrur adamıydı, kimsənin qabağında əyilməzdi, kimsənin pisliyini istəməzdi, əlindən gələn yaxşılığı da kimsədən əsirgəməzdi. Bircə qayğısı, dərdi vardısa, o da Süleymanı oxumuş görmək idi və bu istək onun ömrünün mənasına çevrilmişdi. Vaxt oldu, Süleyman kamal attestatını Nəzərin əlindən aldı, həmin gün İmran öz evində xudmani bir qonaqlıq da təşkil elədi. Nəzəri də çağırdı. Yedilər-içdilər, Süleymana ali məktəbə gedib, təhsilini davam etdirmək xeyir-duası verdilər. Getdi

Süleyman, amma qayıtmadı. Səsi on beş il Bakıdan gəldi, iki il Moskvadan, sonra yenə Bakıdan eşidildi sorağı. Bu illər ərzində İmran demək olar ki, ondan ancaq məktublar aldı, üzünü görə bilmədi. Qazandıqlarını sevinə-sevinə gah Bakıya, gah Moskvaya göndərdi ki, uşaq korluq çəkməsin, yoldaşlarının yanında sınmasın. Yolladığı pullar əvəzinə yaxşı, şirin-şirin sözlər yazılmış məktublar aldı İmran. Həqiqətən Süleymanın cürbəcür şəhərlərdən yazdığı o kağızlar gözəl idi, onlarda bir məhəbbət duyulurdu. Oxuyanda, daha doğrusu, qonşunun oğluna oxutduranda İmran elə bilirdi ki, Süleyman yanındadı, onunla üzbəüz əyləşib danışır. Belə məktubların birini də o vaxt, Süleyman Moskvada təhsil alanda, Nəzər almışdı və şagirdinin fərasətinə, işıqla-nurla dolu düşüncələrinə, gələcək haqqında xoş arzularına heyran olub sevinmişdi, «bu uşaq çox uzağa gedəcək, hamımızın başını uca eləyəcək!» — deyə düşünmüşdü. Müəllim üçün bu duyğudan fərəhli nə ola bilərdi?!

Ona görə, Nəzər, İmran kişiyə arabir rast gələndə, Süleymandan yana giley-güzarını eşidəndə, «İşin olmasın uşaqnan, qoy özü bildiyi kimi eləsin, gələcəyi parlaqdı, İmran!» — deyə təsəlli vermiş, hirsini-parsını yatırmağa çalışmışdı.

İllər keçdi. İmran yazda, yayda, payızın soyuq, sazaqlı havalarında dizə qədər soyuq suyun içində işləyə-işləyə qocaldı, əldən-dildən düşdü, ancaq Süleyman qayıtmadı. Süleyman evləndi — İmran sonra bildi, Süleymanın övladları dünyaya gəldi — İmran yenə sonra bildi.

İki-üç dəfə kişi qış aylarında Bakıya getdi, axtarıb oğlunu tapdı, görüşüb həsrətini öldürdü. Sünbülü də apardı özüylə. «İş çoxdu, başımı qaşımağa vaxtım yoxdu, sağlıq olsun, gələcəyəm!» Bunlar Süleymanın həmişə dediyi, yazdığı sözlər idi. Ancaq İmranın səbri tükənmişdi, oğlunun əlindən bərk qəzəblənmişdi, ürəyində küsmüşdü ondan yaman. Sünbül yorğan-döşəyə düşəndə, İmran hikkəsindən Süleymana xəbər verməmişdi. Ona görə, on il qabaq, Sünbülü torpağa tapşıranda da Süleymansız tapşırdı. Deyirdilər ki, Sünbül ölə bilmirmiş! Canı ağzından çıxmırmış. Yeddi gün, yeddi gecə can verib arvad. Kimsə, kəndin qoca arvadlarından biri, Sünbülün dərdini bildiyi üçün: «Aaz, o Süleymanın şəkli-zadı yoxdumu evdə? Arvad intizardı, onunçun canını tapşıra bilmir. Varsa, tapın gətirin!» — deyib və İmran Süleymanın tələbə vaxtı göndərdiyi, böyüdüb mizin üstünə qoyduğu şəklini gətirib arvadına ağlaya-ağlaya göstərib və yalnız

bundan sonra Sünbül keçinib! Deyirlər, oğlunun şəklini görməyinə baxmayaraq, Sünbülün gözləri yumulmayıb, sığayıblar, yenə açılıb, sığayıblar, yenə açılıb! Axırda elə gözləri açıq halda da əfin-dəfn eləyiblər!

Hanı o İmran? Doğrudanmı bu yumağa dönmüş, balaca, çəlimsiz kişi həmin İmrandı?..

— Axşamın xeyir, ay İmran! Mənəm ey, Nəzərdi, Nəzər müəllim, — deyə o, irəli yeridi, onu tanıyıb sevinclə ayağa qalxan İmranın iri, damarları gömgöy göyərən arıq əlini sıxdı. Kişinin gözləri yaşardı: — Nə təhərsən, ay kişi?

İmran təzədən kətilə çökdü:

— Eh, ay Nəzər, nə təhər olacam? Oturmuşam, ajalı gözdüyürəm.

— Ajal nədi, ay kişi? Sən hələ çox yaşayassan!..

— İstəmirəm, Nəzər. Ta bəsimdi. Səksən biri yola saldım… Dünyanı tutub durmayacağam ha! Bə ayaq üstə niyə dayanıbsan, ay Nəzər? Otursana, bax, burda yanını qoysana, — deyə böyründəki rəngi gedib bozarmış boş stulu göstərdi.

—Yox, gedirəm. Uşaqlara dəyməyə gəlmişdim, dedim, sənə də bir baş çəkim.

— Ömrün uzun olsun, ay Nəzər. Sən yaxşı adamsan.

Nəzər həyət-bacaya göz gəzdirdi. Baxımsız idi. İki gözlü ev lap köhnəlmişdi, qocalmışdı, İmranın özü kimi bu gün-sabahlıq idi. Hər şeydən bir hüzn, bir kədər axıb dolurdu Nəzərin ürəyinə. Kəndin o başında yaşayan qızının, kürəkəninin o cah-cəlallı ev-eşiyinin yanında bu həyət-baca çox miskin görünürdü. Elə bil Nəzər tamam başqa bir dünyaya gəlib çıxmışdı və bunun həqiqət olduğuna heç cür inanmaq istəmirdi.

Bu, nə sirr idi, nə müəmma idi? Çaşıb qalmışdı. Yəni Süleyman, ona vaxtilə o cür gözəl, hər sözünün arxasında böyük insanlıq, qədirbilənlik, məhəbbət oxunan məktubu yazan adam idi, ya o, tamam ayrı adam idi? Az qala yarım ildi ki, Süleyman burda katibdi, hər cür imkanları var, bəs niyə öz doğma atasına heç olmasa gəlib dəymir, ya aparıb yanında saxlamır? İmranın indi, demək olar ki, bir qarın çörəkdən başqa nəyə ehtiyacı var ki? Olsa-olsa, bir də ilıq bir nəfəsə, doğma bir səsə, qayğıya ehtiyacı ola bilər, vəssalam!..

— Dolanışığın-zadın nə təhərdi, ay İmran kişi?

— Babatdı. Hökumətimiz pensiya kəsib, hər ayın başında poş-

talyonumuz gətirib köz qoyur ovcuma. Allah bərəkət versin, çatır. Tək adamam da…

İki gün idi Nəzər «pensiya», «pensioner» sözlərini eşitməmişdi, dilinə gətirməmişdi. Demək olar ki, unutmuşdu. Yenə yadıma düşdü, qanı qaraldı. Lakin bu barədə danışmaq istəməyib, Süleymanı soruşdu:

— Süleymandan xəbərin-zadın var?

— Yox. Ondan-bundan hərdən söz-söhbətini eşidirəm. — dərindən ah çəkdi.

— Bəs heç yanına gəlmir?

— Bir dəfə, gecə, kənd camaatı yatandan sonra gəlib.

— Hə?.. Bə niyə gecə, camaat yatandan sonra, kişi?

— Nə bilim. Bəlkə ev-eşiyindən utanıb, bəlkə məni özünə yaraşdırmayıb, bilmədim.

— Bəs soruşmadın?

— Yox.

— Nə deyirdi ki?

— Deyirdi dur yığış, səni evimizə aparıram. Gedək qal bizdə, gəlinin sənə qulluq eləsin, nəvələrin qulluğunda dayansın.

— Bə sən nə dedin, kişi?..

— Nə deyəcəkdim ki? Dedim mənim evim buradı, bala. O gəlini də mən almamışam ha, sənə. Getmənəm, — dedim. Mən də anan kimi, bax, burda, bu dörd divar arasında, tək-tənha gözləri açıq öləcəyəm!

— Nahaq elə demisən, İmran kişi! O böyük adamdı, dövlət bu yekəlikdə, ucu-bucağı görünməyən bir rayonu ona tapşırıb.

— Düzünü bilmək istəsən, ay Nəzər müəllim, — dedi, sönmüş çubuğunu təzədən alışdırdı, sümürdü, ovurdları içəri batdı, sonra sözünün dalını söylədi: — Səhv eləyiblər bu rayonun taleyini ona tapşırmaqda.

— Niyə ki?.. — Nəzər ayaqlarının yorulduğunu və söhbətin maraqlı olduğunu duyub, stulda əyləşdi. — Niyə səhv eləyiblər?

— Ona görə ki, öz dədə-baba ocağının, doğma ata-anasının qədrini bilməyən adam, çətin elin-obanın qədrini bilsin. Sən savadlı adamsan, özün də o uşağa dərs demisən, dünyanın altını-üstünü də bilirsən. Sən gərək mənimlə razılaşasan, Nəzər, mənim ürəyim belə deyir!..

— İncimisən ondan, ona görə belə danışırsan, İmran kişi. Amma Süleymanı qınama, işi çoxdu, dərdi-səri çoxdu, katiblik sənə asan gəlməsin. Nə var burda? Təkcənə qalmısan, baxanın-zadın da yoxdu. Xanimanın da görürəm uçum-uçumdadı. İraq candan, burda ölübeləyəsən, daşın-kərpicin altında qalıb tələf olarsan. Süleymanı pis vəziyyətdə qoyarsan. Necə olsa, oğlundu, necə olsa, balaca adam deyil, yuxarılarda da tanıyırlar, hörməti-izzəti var… Daşı tök ətəyindən, lap elə bu günü sabah, yığış, mən özüm səni aparım oğluyun evinə!..

— Yox, Nəzər, getmənəm, — o, sağ ayağını hikkə ilə yerə döyəclədi, — mən burda doğulmuşam, burda yaşamışam bütün ömrümü, burda da öləcəm… Qorxma, narahat olma, camaatımız yaxşı camaatdı, yerdə qoymazlar, aparıb basdırarlar!..

Nəzər İmranın yaşarmış gözlərinə baxıb susdu, bura gəlib onun dərdini təzələdiyinə peşiman oldu. İstər-istəməz öz oğlu yadına düşdü və qəribə bir qorxu ilə düşündü ki, gec-tez deyəsən onun da başına belə bir qəza gələcək, çünki Qəribdə son vaxtlar qəribə, anlaşılmaz bir soyuqqanlılıq, laqeydlik, pula, geyimə, onun-bunun şöhrətinə hərislik meylləri duyurdu, qarşısını almağa, bu hissləri boğub öldürməyə çalışırdı, ancaq bacarmırdı.

Küçədə maşın səsi eşidildi, dinib-danışmayan İmran da, Nəzər də darvazaya tərəf baxdılar. Maşın evin böyründə dayandıqda İmran kişi qeyri-iradi ayağa qalxdı, bayaqdan oğlu haqqında gah incik-incik, gah da qəzəblə danışdığını, yel tutmuş ayaqlarının sızıltısınıgiziltisini unudaraq irəli yeriyə-yeriyə sevinc içində:

— Süleyman gəldi! — dedi.

Bu sözləri eşidəndə yanınca addımlayan Nəzəri qəhər boğdu, dişlərini bir-birinə sıxıb xırçıldatdı, çünki o, uçub-dağılmış hasarın üstündən aydın görürdü ki, gələn katibin maşını deyil, ağ mişar daşları yüklənmiş köhnə «samosvaldı» və İmrana: «Yox, ay kişi, Süleyman deyil!» — deməyə dili gəlmədi, onun cəmi iki-üç dəqiqə, bu həqiqəti bilənəcən davam edə biləcək fərəhinin üstünə su çiləmək istəmədi. Onlar küçə qapısına çatanacan maşının hələ üzü görünməyən sürücüsü daşları şaqqaşaraqla küllüyə boşaltdı. Gurultudan səksənən İmran:

— Bu nəmənədi, ə? — deyə Nəzərdən soruşdu.

— Daş boşaldırlar.

— Daş? Nə daş?

Nəzər cavab verməyə imkan tapmamış üstü brezentli «QAZ-69» torpaq yolda tozanaq qopara-qopara özünü yetirdi, xəndəyin qırağında dayandı.

İmran hələ özünə gəlməmişdi. Ehmalca sol qolundantutmuş Nəzər hiss eləyirdi ki, kişinin bədəni əsir. Oğlunu gözləyirmiş İmran, incisə də, küssə də, qulağı səsdəymiş. Oğlu gəlməmişdi, əvəzinə daş gətirmişdilər. İmran heç nə başa düşmədiyindən sol əlini gözlərinin üstünə tutub döyükə-döyükə qalxmışdı, «Qaz-69»-dan başına mavi rəngli həsir şlyapa qoymuş, iri qarnı qabağa çıxmış, top kimi yumru bir kişi düşdü və demək olar ki, çəllək təkin dığırlana-dığırlana qabağa gələndə Nəzər kolxoz sədri Səfəri tanıdı. Yaxınlıqları, oturub-durmaqları olmamışdı. Ancaq Nəzər orda-burda, iclaslarda, ən çoxu isə Tapdıqdan, Güldanədən Səfərin barəsində çox eşitmişdi. Yəqin o da Nəzəri tanımamış olmazdı.

Səfər onlara sarı elə gəlirdi ki, elə bil böyük bir qəhrəmanlıq göstərmişdi, indi məlumat vermək istəyirdi, kefi çox kök idi, dişləri ağarırdı.

— Salam. O, Nəzər müəllim, siz də burdasız? Yəqin dostunuzu yoxlamağa gəlmisiz?.. Əcəb eləmisiz, xoş gəlmisiz! — deyərək əvvəlcə Nəzərə əl verdi.

— Sağ ol, Səfər, — Nəzər dedi.

— Əşi, sən nə təhərsən? — deyərək İmrana yaxınlaşdı.

İndi-indi özünə gəlib fikri aydınlaşan İmran:

— Səfər, sənsən? — üzünü səs gələn səmtə tutdu.

— Hə, İmran kişi, mənəm. Kefin-zadın nə təhərdi, əşi?

İmran ağzını sürtdü:

— Niyə, siz yoxlayandan bəri yaxşıyam.

— Düz deyirsən, İmran kişi, bizim borcumuzdu, gərək hər gün yoxlayaq səni… Amma özün bilirsən də, iş-güc o qədər çoxdu ki… Gərək bağışlayasan…

İmran kişi çubuğuna bir qullab vurdu, üzünü daş tökülən səmtə çevirdi:

— O nə daşdı, ay Səfər?

Səfər tutduğu işdən məmnun olan adam kimi:

— Sənə ev tikirik, İmran kişi, — dedi. — O gün burdan keçirdim, gördüm evin lap tökülür. Dedim əşi, bizim üçün ayıbdı ki, İmran kişi kimi kəndin çox hörmətli, ağsaqqal adamı, müharibə və əmək veteranı belə bir evdə yaşayır! Görən, eşidən, bilən bizə nə deyər?!

Odur ki, heyətin qərarını çıxartdım, tapşırdım, elə günü sabahdan başlasınlar!..

Nəzər kənara çəkilib Səfərə tamaşa eləyirdi; nədənsə ona elə gəlirdi ki, bu boyda bədən ancaq ətdi, sümükdü, onda ürək, hiss deyilən şey — vücudu insana çevirən ən mühüm amillər yoxdu, heç yoxdu və İmran kişiyə indicə dediyi sözlərə qulaq asa-asa fikirləşdi ki, yox, səhv eləyirəm, onda ürək, hiss əvəzinə dil var, siyasət var, uzaqgörənlik eləyir Səfər, bir güllə ilə iki dovşan vurmaq istəyir.

Nəzər üçün çox maraqlıydı ki, dünyanın isti-soyuğunu dadmış, bərkdən-boşdan çıxmış, qocalıb kövrəlmiş, qəlbi sındırılmış İmran kişi sədrə — mizan-tərəzi ilə ölçüb-biçərək yaşamağa öyrəşmiş Səfərə nə cavab verəcək, onun ağzından çıxan sözlərin altındakı mənanı oxuya biləcəkmi? Bunun üçün işıqlı göz lazım deyil, bunun üçün ürək, vicdan, müdriklik lazımdı.

Nəhayət, İmran kişi ağır-ağır:

— Demək, mənə ev tikirsiz, hə? — deyə xəbər aldı.

— Hə də.

— Ə, a sədr, sən neçə ildi bu kənddə sədrsən?

— …

— Yadında döyülsə, deyim, düz on üç ildi sən burda sədrsən. Bu on üç ildə təkcə «o gün» mənim evimin yanından keçibsən? Ondan qabaq mənim evimi görməmişdin? Müharibə, əmək veteranı, pensioner olduğumu bilmirdin? Bilmirdin ki, mənim qıçlarımı kolxozun pambığının suyu aparıb, gözlərimə qara su gəlib? Bə indiyəcən mənə niyə ev tikmirdin, a sədr? İndi oğlum katib olub, ona görə yadına düşmüşəm?

— Ay İmran kişi…

— Ə, a sədr, indi ev mənim nəyimə lazımdı, hıy? Bir ayağım burdadı, bir ayağım gordadı, mən evi neynirəm, ə! Mənim evim ordadı, odey qəbiristanlıqda!.. Sənin evinə ehtiyacım yoxdu mənim…

Qırmızı dərili sifəti ağarmış Səfər çaşıb qalmışdı, görünür İmran kişinin bu tədbiri bir qəzəblə qarşılayacağını heç ağlına da gətirməmişdi. Odur ki, kəkələyə-kəkələyə dedi:

— Əli, sən allah, əsəbiləşmə… Bir qulaq as gör… — İmran kişi sözünü yarımçıq kəsdi Səfərin:

— Qurtardıq, Səfər! Bu daşları necə gətirmisən, eləcə də apar, get! Yoxsa, Sül… — O adəti üzrə Süleymanın canına and içmək istə-

di, ancaq uddu — yoxsa and olsun bu yeri-göyü yaradana, bax, o daşların birini buradaca sənin başına çırparam, birini də özümün, rüsvayçılıq olar!..

Səfər duruxdu, karıxmış kimi, bir yerə tökülmüş daşlara, bir də Nəzər müəllimə baxdı. Sanki Nəzər müəllimdən kömək istəyirdi: «Heç olmasa bu qocanı sən başa sal!» — deyirdi Səfərin baxışları. Nəzər o baxışların mənasını yaxşı oxuyurdu, ancaq dillənmirdi; İmranın söylədikləri onun ürəyindən tikan çıxartmışdı. Bunu da hiss eləyirdi ki, içində o çəlləyə oxşayan adama qarşı qəribə, anlaşılmaz bir qəzəb qaynayıb-daşır. Az qalırdı ədəb-ərkanı, yaşı-vəzifəni kənara qoyub, müharibədən «gətirdiyi» «faşist oğlu faşist!» sözünü Səfərin düz gözlərinin içinə desin, ancaq özünü güclə saxlayırdı… İndi, bu məqamda o sözləri bəlkə də dilə gətirmək heç lazım deyildi, çünki onlar onsuz da Nəzərin gözlərinə, üzünə yazılmışdı.

Səfər dığırlana-dığırlana «Qaz-69»a sarı getdi. Maşın tərpəndi. «Samosval» da onun dalınca.

İmran kişi durduğuca yerdə qurumuşdu. Elə bil ayaqları yox idi, elə bil ayaqları üstə deyil, iki taxta üstündə dayanmışdı. Nəzər, kişinin əhvalının dəyişdiyini hiss eləmişdi, ancaq nə etmək lazım olduğunu bilmirdi. Bu zaman İmranın titrək, qəhərli səsini eşitdi:

— Məni içəri apar, Nəzər. Məni tək qoyma…

ON İKİNCİ FƏSİL

… İmran çarpayıda uzanmışdı, Nəzər elə şalvarın üstündən onun ətsiz, arıq ayaqlarını dizdən aşağı, dizdən yuxarı ovxalayırdı. Bu, kişiyə ləzzət eləyirdi:

— Oxay… Bah, bah. Allah atana rəhmət eləsin, allah balalarını saxlasın. Uf, canımdan tikan çıxır sanasan…

Nəzər tövşüyə-tövşüyə:

— Bə həkimə-zada getməmisən? — soruşdu.

— Getmişəm… Doxtur Kamil özü gəlmişdi. Dava-dərman yazıb. Atıram, di gəl ki, heç bir xeyri yoxdur, Nəzər. Yeldi mənimki, qara yeldi. Onun dərmanı yoxdu, bilirəm. Suynan gələn mərəz qəbrəcən gedər. Ta bəsdi, yoruldun, əlin-qolun var olsun.

Nəzər dikəlib iki pəncərə arasına qoyulmuş stolun arxasındakı stullardan birini çəkib oturdu. Alnının tərini silib siqaret yandırdı.

Otaq demək olar ki, boş idi. Divar dibindəki güllü sandığın üstə yorğan-döşək yığılmışdı. Rəflərdə kasalar yan-yana sırayla düzülmüşdü. Döşəməyə həsir, həsirin də üstündən palaz salınmışdı. Otaqdan rütubət iyi gəlirdi. Qara telefon aparatı pəncərənin ağzına qoyulmuşdu.

— Telefon işləyir, kişi?

— Hə. Danışan olanda işləyir. — İmran zarıya-zarıya qalxıb yerindəcə oturdu, ağrılı ayaqlarını aşağı salladı. — O da bir dərd olub mənə.

— Niyə ki?..

— Eh, telefon danışmaq üçündü, Nəzər. Sən zəng eləyəsən, sənə zəng eləyələr. Amma bu, ağzına su alıb susur. Zəng eləyənimzadım yoxdu. Danışmalı yerim də yoxdu. Bircə bu qabaqdakı qonşuya hərdən-birdən zəng vururam, vəssalam.

— Bəs Süleyman zəng eləmir?

— Əvvəllər həftədə bir-iki dəfə danışırdı. Küsüb gedəndən sonra ta onun da səsini eşitmirəm.

— O eləmir, sən zəng elə!.. Nömrəsini verməyib sənə?

— Verib, işininkini də verib, evininkini də. Ancaq eləmirəm. Dözürəm, dözürəm, bir də görürəm lap ürəyim partlayır. Onda götürüb zəng eləyirəm, səsini eşidirəm, «Alo, mənəm» — deyir, mən isə cavab vermirəm, dəstəyi asıram. Ondan mənə nə lazımdı ki, heç nə! Səsini eşitdim, bəsimdi. Sağ-salamatdı — bəsimdi. — İmran kişi yenə kövrəldi.

Nəzər bu söhbəti saldığına peşiman oldu:

— Sən də qəribə adamsan. Lap uşağa dönmüsən.

Nəzər o biri otağa keçdi, qazançanın qapağını qaldırıb baxdı. Üzü qaysaq bağlamış şorba vardı içində. Çaydanı asta ayaqda yanan qazın üstünə qoydu. Nə fikirləşdisə, geri qayıdıb telefonun dəstəyini qaldırdı, harasa uzun-uzadı zəng çaldı. Nəhayət, düşdü:

— Aaz, a Güldanə, hardasan, a bala? Barmaqlarım qabar oldu sənə zəng eləməkdən.

Güldanənin səsi uzaqdan gəldi:

— Həyətdəyəm, ay ata. Bəs sən hardasan?

— İmran kişigildəyəm.

— Bə acından ölmədinmi? Yaxşı dolma bişirmişəm, ay ata, İmran kişini də götür, gəl evə, nahar eləyin.

Nəzər dönüb İmrana nəzər saldı:

— Güldanədi ey, deyir İmran kişini də götür gəl, nahar eliyək

— Yox, ay Nəzər, mən gedə bilmənəm. Sağ olsun denən.

Nəzər ağzını dəstəyə tutdu:

— Sən belə elə, qızım. Bizim yeməyimizi gətir bura. Mən istəyirəm İmran kişi ilə bir yerdə çörək yeyəm.

— Baş üstə, ay ata. Gətirrəm indicə.

— Uşaqlardan gələni yoxdumu?

— Yox, ay ata.

— Hə, onda özün gətir, mənim körpəm.

— Yaxşı…

Nəzər dəstəyi asdı, keçib yerində oturdu. O biri otaqdan çaydanın cızıltısı eşidilməyə başladı.

* * *

Axşam ailə bir yerə yığışıb şam eləyəndə, nə isə qanıqara görünən, o biri günlərə nisbətən az danışan, az dinən Nəzər fikirli-fikirli dilləndi:

— Mən sabah gedirəm Bakıya.

— A, nə tez, ay baba? — deyə xurmayı saçlarını sinəsinə atmış, eynən anası Güldanənin on üç-on dörd yaşındakı çağlarını xatırladan Gültəkin təəccüblə qaşlarını çatdı, — heç biz səni doyunca görə bilmədik, ay baba!

— Yox, getmə, ay baba. — Sarışın Elman dilləndi.

— Mən səni buraxmıram, ay baba! — deyə Elcan böyründə oturan Nəzərin pencəyinin ətəyindən yapışdı. Elə bil babası indicə durub gedəcəkdi. — Yox, buraxmıram.

Nəzər gülümsünüb nəvəsinin yumşaq saçlarını sığalladı:

— Ay bala, indi getmirəm ey, sabah gedəcəyəm. Ətəyimi burax.

— Buraxmayacağam. Heç sən bizim maşınımıza minmədin. Sonra da nağılın yarımçıq qaldı axı. Məlik Məmmədi quyuda qoyub gedirsən?

Nəzər gülümsündü, dünən axşam, babası ilə yer yerdə yatan Elcana nağıl danışdığını, yarıda uşağı yuxu tutduğunu xatırlayıb dedi:

— Ay səni. Yatdın da! Xəmirgöz imişsən sən!

— Yorulmuşdum da. On yeddi kilo pambıq yığmışdım dünən!

— Pa, nə böyük iş görübsən. Sənin taylarının hamısı iyirmi beş kilo yığmışdılar! — Gültəkin qardaşını cırnatmaq istədi. Ancaq Elcan ona baş qoşmayıb, babasının ətəyini silkələdi:

— Onda bu gecə danışarsan, yaxşı?

— Yaxşı, mənim balam!

— Bunlara danışmazsan ha. Tək mənə danışarsan. Yaxşı?

— Yaxşı.

— Yadındadı harda qalmışdıq? — deyə o, bacısına-qardaşına lovğa-lovğa baxdı. — Məlik Məmməd qaranlıq, lap qaranlıq quyuya girir qara qoçun belində!

— Hə, hə. Darıxma, bu axşam, bunlar yatandan sonra, — o stol arxasındakılara işarə elədi, — sənin Məlik Məmmədini quyudan çıxardarıq.

— Urra! Məlik Məmməd quyudan çıxacaq bu axşam! — deyə Elcan babasının ətəyini buraxıb əl çaldı. Tapdığı da, Güldanəni də gülmək tutdu. Tapdıq dodağını kağız dəsmalla silə-silə:

— Doğrudan, bə nə tez gedirsən, Nəzər müəllim? — deyə soruşduqda, o, boşqabı kənara itələyib:

— Nə isə, yaman darıxıram, — dedi. — Heç bir yerdə qərar tuta bilmirəm. Gedim Güllü balama da dəyim, sonra görək başımıza nə çarə qılırıq.

— İki-üç gün də qal, ay ata! — Güldanə yalvarıcı səslə dedi.

— Yox, mənim körpəm. Getməyim məsləhətdi.

— Deyəsən, İmran kişinin vəziyyəti səni darıxdırdı ey, ay ata.

Nəzər ah çəkdi:

— O da var. İmran dedin, yadıma düşdü. Sizin hamınızdan bir xahişim var, balalarım.

— Buyurun, Nəzər müəllim, — Tapdıq qulaq kəsildi.

— Tez-tez, hansınızın imkanı oldu, o kişiyə baş çəkin. Düşəndə isti xörəkdən-zaddan aparın. Vaxtınız olmasa, heç olmasa, quruca zəng çalın, halını-əhvalını soruşun. Tək adamdı, yazıqdı.

— Baş üstə, Nəzər müəllim. Bu nə sözdü? Eliyərik.

— Elə bilin, o mənəm.

Güldanə tələsik, qorxu içində:

— Allah eləməsin, ay ata! — dedi. — Kişiyə bax ey, gör nə danışır ey, sən allah!

— Heç kəs bilmir başına nə gələcək. Həyatın işdəklərini bilmək olmur, mənim körpəm. İmran kişi oğlundan yaman inciyib. İstəyirdim Tapdığa deyəm, nömrəsiz də olsa, maşını işə salsın, kişini aparım qoyum Süleymangilə. Amma daş atıb, başını tutdu — «Getmənəm» — deyib, iki ayağını bir başmağa dirədi. «Mən onun evində yaşaya bilmənəm, Nəzər, — dedi, — bir gün də yaşaya bilmənəm. Arvadı, uşağı dilimi bilmir: mənim dediyimi onlar başa düşmür, onların dediyini mən qanmıram» — ayağa qalxıb gəzindi, üzü bəri — stola tərəf dönəndə Gültəkinin sinəsindəki komsomol nişanı gözünə dəydi, bir az fikrə gedib dedi: — A qızım, siz, bax, elə sizin sinif niyə o İmran kişini hamiliyə götürməyəsiz, hə? Gündə biriniz baş çəksə nə olar?

Tapdıq Nəzər müəllimin bu təklifinə sevindi:

— Əla fikirdi, babası! Çox yaxşı olar, qızım.

— Müəllimimizə deyərəm! — Gültəkin də sevinclə dilləndi.

— Kimdi müəlliminiz?

— Fazilə müəllimə!

— Hə, lap yaxşı. Gərək bu, onun öz ağlına gələydi. O, yaxşı müəllimdi. Yadına sal səhər, lap elə mənim adımdan de, de ki, Nəzər müəllim də xahiş eləyir. Bu, birinci növbədə sizin borcunuzdu. Hamımızın, məktəbin də, elə lap bu kənd camaatının da. Nədən ki, İmran kişi bütün ömrünü bu kolxoza, bu camaata sədaqətlə qulluq eləməkdə keçirib. İndi qocalıb, əldən düşüb deyə yıxılıb ölməlidi? Axı, o, canlı insandı! Yaşamaq istəyir o da. Özü də mərd kişi olub İmran! Siz bu gün görəydiz Səfərə — sizin o kolxoz sədrinə nələr dedi o! Səfər indi ev tikmək istəyir onun üçün! Nə var, nə var, İmran kişinin oğlu Süleyman bu rayona katib gəlib! Faşist oğlu faşist, Süleymanın yanında yerini şirin eləmək istəyir! İki il, üç il qabaq tiksəydi, min dəfə bundan urvatdı, hörmətli-izzətli olardı! Onda camaatın içində Səfərin özünün də başı uca olardı, İmran da sevinərdi, bəlkə heç qıçları da tutulmazdı, gözlərinə də qara su gəlməzdi. Onda sən də, o da — o, kürəkəninə, qızına üz tutdu — səhərdən axşamacan o çöldə, bayırda başına gün döyə-döyə, yağış-qar altında işləyən adamlar da bunu görüb hiss eləyərdilər; inanardılar ki, zəhmət hədər getmir, sabah İmran kişi kimi qocalıq gəlib qapını kəsəndə, onların da qədir-qiymətini bilən olacaq, qayğısına qalan olacaq. Belə olanda insan güclü olur, həvəsli olur. Yoxsa…

ON ÜÇÜNCÜ FƏSİL

Nəzər Bakıya axşamçağı, saat altıya qalmış gəlib çatdı. Uzun, yaraşıqlı «İkarus»da yeri rahat idi, pəncərə qabağına düşmüşdü. Yol boyu dəzinin üstünə qoyduğu kitabı oxumuşdu, hərdənbir də, gözləri dincəlsin deyə, sağ əldəki çöllərə, yaşıl söyüdlərə, ağ-yaşıl tarlalara, biçilmiş kövşənlərə baxmışdı. Böyründə oturan yaşlı qadın, avtobusa minəndən, illərin yuxusuzuymuş kimi, başını söykənəcəyə dayanıb yatmışdı. Varlığı-yoxluğu bilinmirdi. Qabaq oturacaqda isə iki cavan — bir qız, bir oğlan yanaşıydı. Görünür tanış idilər, yaxın idilər, nə barədə isə xısın-xısın danışırdılar. Nəzər səslərini eşidirdi, amma sözlərini ayırd edə bilmirdi. Maşın, yol rahat olsa da, dörd saat bir yerdə oturmaq yorucu idi, qıçları uyuşmuşdu. Səhər evdən çıxanda Güldanə atasına demişdi:

— İstəyirsən Güllüyə zəng eləyim, Sadığın sürücüsünü göndərsin avtovağzala, gəlib səni evə aparsın.

— Yox, əşi, lazım deyil. O gədədən zəhləm gedir.

— Gədə kimdi, ay ata?

— Sadığın şoferi də. Heç xoşum gəlmir ondan. Göz-başı qaynayır, lap cığana oxşuyur.

— Eh, ay ata, sakit, quzu kimi adamdı yazıq.

— Yox, gözlərindən cin çıxır. Sadığa o dəfə dedim: — Ə, bir əməlli-başlı adam tapmırdın bu boyda şəhərdə? Çıxart getsin. Dedi niyə? Dedim, namərd adama oxşayır. Güldü. Heç nə demədi. Yox, lazım deyil, mənim körpəm. Ordan — avtovağzaldan minəcəm səkkiz nömrəli trolleybusa, düşəcəm düz Nərimanov prospektində, evlərinin qabağında.

Avtobusdan enəndə Nəzərin ayaqları keyimişdi, sözünə baxmırdı. Və qıçlarının gizildəməyi yenidən İmran kişini onun yadına saldı. Dünəndən iki-üç dəfə beynində doğub-batan fikir, bu dəfə içində qətiyyətlə səsləndi: «Yox, bunu belə qoymaq olmaz. Süleyman səhv eləyir, Süleyman uşaqlıq eləyir. İmran kimi ataya o cür zülm eləmək olmaz. Rayona gedən kimi, gərək Süleymanın yanına baş çəkəm, bəzi mətləbləri başa salam. Uşaq döyül, bir elin ağsaqqalıdı, ona belə şeylər qətiyyən yaraşmaz…»

Yenə əlində o qara çamadan idi. Ancaq içindəkilər dəyişmişdi. Bikə xanımın Güldanəyə, Tapdığa, nəvələrinə qoyduğu hədiyyələrin

əvəzinə, indi çamadanda Güldanənin bir bacı, baldız, xala kimi, Güllüyə, Sadığa, Seyranəyə göndərdiyi bir cüt çəkələk, ağ kişi köynəyi, mavi rəngli penuar və gülən kukla var idi. Bir də motal pendiri qoymuşdu Güldanə. Və Nəzərin hələ bunlardan xəbəri yox idi, çünki Güldanə nə qoyduğunu deməmişdi; Nəzər ancaq qızıgilə çatandan üç-dörd saat sonra biləcəkdi ki, nə hədiyyə gətirib.

Nəzər tut ağacının altında xeyli dayandı, o yan-bu yana xeyli baxdı, göylərə göz gəzdirdi. Hava isti idi, hiss olunurdu ki, günəş bütün günü Bakının damlarını, dənizini, küçələrini sacda qovrulan qovurğa kimi yandırıb, çünki ayağının altındakı asfaltdan elə bil buxar qalxırdı, adamın üzünü qarsırdı.

Dalbadal dayanmış avtobusların, düşüb-minən adamların səsküyü Nəzərin qulaqlarında qəribə bir güyültü əmələ gətirirdi. Akasiya ağacının altında kitab köşkü vardı, bığıburma, kök bir oğlan yanbayan kitablar düzülmüş piştaxtanın arxasında, əlləri cibində var-gəl eləyirdi. Nəzər piştaxtaya yanaşdı, kitablara gözucu baxdı, yeni bir şey yox idi. Sonra oğlana bir baxış fırlatdı, ürəyində söyləndi: «Zalım oğlu pəhləvana oxşayır, gedib bir sənətin qulpundan yapışmayıb. Bu da kişi işidi, sən allah? Mən bizim bu şəhər böyüklərinin yerinə olam ha, belələrinin bircəciyini bu yerlərdə qoymaram — hamısını basaram gedər zavoda, fabrikə, mədənə! Kişisiz, ə, gedin kişi işi görün!..» Nəzər ikrah hissilə üzünü yana çevirib ağacların altından keçərək «İnşaatçılar» prospektinə üz tutdu.

Doqquz nömrəli trolleybus dopdolu gəldi, keçdi getdi. Yarım saat sonra «səkkiz» gəldi. Nəzər, ağızbağız dolu olan trolleybusa güclə minə bildi. Ayaq üstə duran arvad-kişi, oğlan-qız bir-birinə söykənmişdi. Təkcə irəlicədən içəri təpilib yer tutaraq oturmuş adamların işi yaxşı idi. Əlində xırda pul tutmuşdu, o başdan «bilet, bilet, bilet berite» deyən və adamların arasından çətinliklə keçən oğlanın yaxınlaşmasını gözləyirdi. Oğlan Nəzərə çatanda əlindəki beş qəpikliyi onun ovcuna basdı, o da bir bilet cırıb Nəzərə verdi. Nəzər bekarçılıqdan başını qatmaq üçün biletə baxdı: dörd qəpik. «Mən başa düşmürəm. Bax, bunu niyə dörd qəpik eləyirlər, axı? Bunu təşkil eləyən, nırx qoyan adamlar axı yaxşı bilirlər ki, heç kəs dörd qəpik vermir, beş qəpik verir hamı. Xırdası olmayan çoxdu. Bəs bu bir qəpik hara gedir? Dövlətin cibinə? Yox! Bax, bu qəşəng, cavan oğlan axşamacan o bir qəpikləri yığır, qoyur cibişdanına. Axşam da evə əli və cibi dolu gedir; bizim arvadkimiləri də belələrini kişi hesab eləyirlər! Vallah, dərindən ölçüb-biçsən, görərsən ki, bax, bu oğlanla, ya

onun kimilərlə bu biletin nırxını-qiymətini təyin eləyən adamlar arasında gizli, gözəgörünməz bir əlaqə, bağlılıq var. Vallah, var, billah, var! Yoxsa bu niyə belə olmalıdı axı?.. Arada dövlətin cibindən gedir, camaatın cibindən gedir, beş-on nəfər lotu-potu qazanır!»

Nərimanov prospektindəki «Şüşə bazar»ın yanına nə vaxt çatdığını bilməyən Nəzər, basabasla, bir-birini itələyə-itələyə düşməyə çalışan adamların arasında səkiyə endi, elə dayanacağın qənşərindəki binanın qabağına keçib, birinci bloka girdi.

Güllü açdı qapını. Atasını görüb, boynuna sarıldı, üzündən öpdü. Bir hay-küy saldı ki, balaca saçlarına qırmızı bant bağlanmış, qəşəng kuklaya oxşayan Seyranə qapını açıb dəhlizə qaçdı və babasını görən kimi, cingiltili səslə qışqırdı:

— Oy! Deduşka prişyol! — Qollarını açaraq Nəzərin qucağına atıldı, kişi onun çiyələk kimi qırmızı yanaqlarından öpdü, saçlarını tumarladı.

— Nə təhərsən, a bala? Ay mənim madonnam, — deyə o Güllüyə sarı dönüb soruşdu, — özün necəsən? Sadıq nə təhərdi?

— Yaxşıyıq, ay ata! Siz necəsiz? Mamam, Qərib necədi?

— Eyzən yaxşılıqdı.

— Keç içəri, ay ata! — Nəzər əlindəki çamadanı və qucağındakı Seyranəni yerə qoyub ayaqqabılarını çıxartdı. Güllü onun ayaqları altına bir cüt təzə çəkələk atdı.

Seyranə qışqıra-qışqıra Sadığın kabinetinə tərəf cumdu:

— Pap, deduşka prişyol, deduşka prişyol.

Nəzər elə dəhlizdə Güllüdən xəbər aldı:

— Nə əcəb Sadıq evdədi?

— Bu gün vıxodnoyudu.

Nəzərin yadına düşdü ki, istirahət günüdü. «Günlərin haqq-hesabını itirirsən yavaş-yavaş, Nəzər!» — düşündü. Qonaq otağına girmək fikrindən daşındı, Sadığın otağına üz tutdu. Sadıq qapı ağzında qarşıladı onu.

— Xoş gəlmisən, ay Nəzər bəy! — dedi, əl verdi.

— Sağ ol, ay oğul!

— Gəl, gəl, gəl otur görək nə var, nə yox? — Sadıq geri çəkilib, Nəzərə yol verdi. O, keçib kitab şkafının qabağındakı yumşaq kresloda əyləşdi. Bura gözəl, səliqə ilə bəzənmiş bir otaq idi. İki kreslonun arasında bir jurnal stolu vardı — üstündə qəzetlər, jurnallar

səpələnmişdi. Qırmızı cildli ensiklopediya da Nəzərin keçən dəfə gördüyü yerdə idi. Bu, Nəzərin baxışlarından yayınmadı. Nəzər nə üçünsə qımışdı, ancaq bunu Sadıq görmədi.

Sadıq qəşəng, qızıl düyməli pijamadaydı. Üzünü də qırxmamışdı. Qələmi, adəti üzrə sağ qulağının dibinə keçirmişdi. Seyranə gəlib babasının qıçları arasına sığınmışdı. Sadıq ağzını açıb nəsə demək istəyirdi ki, telefon qəribə quş səsinə oxşar səslə «oxudu» və Sadıq ağ fil sümüyündən olan dəstəyi götürüb:

— Hə, mənəm, — dedi və bir az qulaq asandan sonra: «Yox, yox, onun haqqında nazirin fikri yaman pisdi. Hə, lap pisdi. Nə danışırsan, a Həsən! O kişinin fikri elə olandan sonra mən neyliyə bilərəm? Yox, canım üçün! Heç mümkün deyil, mən nəkarəyəm ki, Sərxan Sərxanoviçin bir sözünü iki eləyəm? Yox, yox, mən bunu bacarmaram. Təmiz adamdı? Nə olsun təmiz adamdı, sən gəl ona Sərxan Sərxanoviçin gözüylə bax!.. Ha! Onda gör nə görərsən! Yaxşı, sağ ol!» — deyə üzünü bozardıb cavab verdi, dəstəyi qəzəblə çırpandan sonra, qayınatasına baxıb gülümsünməyə çalışdı. — Həftədə bir dəfə istirahət günü olur, onu da qoymurlar ki, adam öz işiylə məşğul olsun!.. Biabırçılıqdı, vallah!

— İşin ağırdı, görürəm!.. «Kaş sənin bu söhbətini eşitməyəydim. Lap gözümdən düşür bu gədə getdikcə».

— Ağır dedin, qoydun? O boyda nazirliyin bütün dərdi-səri mənim boynumdadı. Gündə yüz yerdən arayış, məlumat istəyirlər. Gərək yazılı cavab verəsən. Sərxan Sərxanoviç də ayağını yan qoyub gəzir özüyçün. Yalnız hazır kağız-kuğuza qol çəkir, vəssalam! Faktiki olaraq elə hesab elə ki, nazir mənəm!..

— Hm. Doğrudan çətindi.

— Bu vəzifəyə-zada da o qədər etibar yoxdu. At kimi şeydi vəzifə. Bu gün mən minmişəm, sabah sən minəcəksən, birisi gün o! Mən də əlləşib-vuruşuram ki, nə qədər burdayam, müdafiə eləyim, bir alimlik diplomu alım. Səhər avara qalmayım. Vəzifəni istədikləri vaxt, böyüklərdən birinin xoşuna gəlmədin, ya salamını məqamında vermədin, sənin əlindən ala bilərlər. Amma diplomu sənin əlindən ala bilməzlər, ömürlük çörək ağacındı!..

— Hə, düz deyirsən, ay Sadıq. Amma çox uzun çəkdi ey, sənin bu müdafiə məsələn! Necə deyərlər, elə mən gözümü açandan sən bu əsər üzərində işləyirsən, amma ucu-bucağı görünmür.

— Çətindi, çox çətindi, Nəzər bəy. Alim olmaq sənə hasan

gəlməsin! Baxırsan? Kitabın içində itib-batmışam. — Sadıq əlini stolun üstündəki, şkafdardakı kitablara sarı uzatdı. — Hər yan kitabdı. Gecə yatanda da yuxuma girir zəhrimarlar! — Birdən yadına nə düşdüsə, qapıya boylandı: — Gülya! — deyə səsləndi. Güllü dəhlizdə göründükdə, soruşdu: — Hamamı yandırmısan?

— Hə, — Güllü bu sualı yersiz sanıb utandı, yanaqlarına bir qızartı çökdü.

— Bəs de də. — Sadıq ayağa qalxdı.

Güllü gözləyirdi ki, indi əri, atasına çimmək təklif eləyəcək. Yaxşı olardı, kişi yoldan gəlib, yuyunardı, təmizlənərdi. Həm də bu, kiçik şey olsa da, məhəbbət artırardı, çünki Güllü yaxşı bilirdi ki, atasının Sadıqdan o qədər də xoşu gəlmir. Ancaq Sadıq stolun arxasından çıxıb:

— Mən çimim! — dedi və qapıya tərəf addımlayanda Güllü çəkinə-çəkinə:

— Ay ata, bəlkə sən də çiməsən? — söylədi.

— Yox, madonna! — dilləndi Nəzər, — mən dünən Güldanəgildə yaxşı-yaxşı çimmişəm!.. Sağ ol.

Güllü:

— A, hamamları var? — deyə xəbər aldı.

— Hə, əntiqə bir hamam tikib Tapdıq. İki göz istəyir tamaşa eləsin.

Sadıq aralıqda dayandı, xalaxətrin qalmasın:

— Bacanaq müəllim nə təhərdi? — soruşdu.

— Yaxşıdı. Bir dənə də «Volqa» alıb!

— O, — deyə Sadıq səsini ucaltdı. — Sağ ol, bacanaq!

Sadıq Nəzərə çimmək təklif eləmədən, Güllünün yanından sivişib getdi, hamama girdi. İçəridə su şırıltısı eşidiləndə Güllü gəlib, atasının qabağında dayandı, ona diqqətlə baxa-baxa, sanki ərinin buraxdığı səhvi düzəltmək istəyirmiş kimi:

— Sağlıqlarına qismət olsun! — dedi.

— Çox sağ ol, ay mənim madonnam! Nə təhərsən, can bala?

— Belə də. Yaşayırıq, ay ata! — Sonra üzünü babasının dizi üstə oturan qızına tutdu, — düş aşağı, babanı incitmə, qız! Seyranə saymamazlıqla yırğalandıqda, Güllü:

— Ya tebe şto skazal? — deyə qızının üstünə çımxırdı. Qız babasının qucağından yerə düşüb yaşına uyğun olmayan bir ədayla ana-

sına irad tutdu:

— Ma, neçə dəfə mojna skazat ki, «skazal» yox, «skazala». Bolşoy arvadsan, amma pravilno qovorit eləyə bilmirsən.

— Kəs səsini, şeytan, — deyə anası gülə-gülə qızına acıqlandı, üstünə cumanda qız atlana-atlana o biri otağa qaçdı: — Sən guya çox düz danışırsan.

Nəzər yayda gələndə bu barədə ətraflı danışdığından daha sözünü təzələmədən, başını narazı halda tərpədə-tərpədə ancaq:

— Uşağı Əli aşından da eləyəcəksiz, Vəli aşından da. — deməklə kifayətləndi, üzünü yana çevirəndə gözü Sadığın stolu üstündəki kitablara sataşdı. Güllü:

— Nəyə gülürsən, ay ata? — Qızı nigaran-nigaran xəbər aldı.

— Mən deyəndə ki, sənin Sadığın bu kitabların heç birini oxumur, gözdən pərdə asmaq, özünü alimnüma göstərmək istəyir, inanmırsan. Bax, keçən dəfə gələndə, onun ad günündə, ananla burada olanda mən qırmızı «ensiklopediya»nın arasına bir dənə şax yüzlük qoydum, anana da dedim ki, gələn il gələndə bu pulu bu kitabın arasından tapmasam, adımı dəyişərəm. Bunların hamısını yalandan açıb qoyub bura. Dedi elə şey olmaz. Dedim baxarsan. İndi yaxın gəl, — deyib qalın kitabı qaldıraraq vərəqlədi.

— Ay ata, sən də ağ eləmə. Yazıq gecə-gündüz oxuyur — deyə Güllü ərinin yamını vermək istəmədi.

— Oxuyursa, onda o yüzlüyü hökmən görməlidi. Yoxlayaq, baxaq.

Güllü maraqla tamaşa eləyirdi. Nəzər kitabın vərəqlərini xışıltı ilə çevirib birdən sevincək:

— Aha, bax, budur! — dedi. Və şax yüzlüyü götürüb qızının burnunun qabağında yellətdi.

— A, a!..

— Nə a! Gördün, inandın indi?

Güllü şəhadət barmağını nazik dodaqlarının üstünə qoydu, ancaq təəccübdən heç nə deyə bilmədi. Nəzər gülə-gülə:

— Al, bunu sənə bağışlayıram! — dedi, — xərclərsən!

Güllü çaşqın halda pulu alıb, xalatının cibinə qoydu.

— Təəccüb eləmə, mənim madonnam! — dedi Nəzər, — var belə adamlar. Nəfəsləri yalandan gedir-gəlir belələrinin. Evdə arvadını, uşağını aldadan, çöldə, idarədə başqalarını göydə aldadır, qızım.

Mən bunu ona görə demirəm ki, sənin gözündən salım Sadığı. Özün sevib gedibsən, zahirən də pis oğlan deyil. Ona görə deyirəm ki, avam olmayasan, gözün açılsın, qızım!.. Mən bilirəm, sən: «özü yıxılan ağlamaz!» — deyib, çox şeyləri udursan, nə anana, nə mənə bir söz deyirsən. Amma axı, mən Nəzər müəlliməm, adamın üzünə baxanda, içini ayna kimi görürəm. Görürəm ki, sən nələr çəkirsən, necə ürəyini yeyə-yeyə yaşayırsan. Sən Güldanədən də üç yaş balacasan, amma baxıram onun saçında bir dənə də ağ tük yoxdu, sənin başının isə az qala yarısı ağarıb. Elə bilirsən, atan rəngnən, xınaynan boyadığın, qaraltdığın saçlarında o tükləri görmür? Mən hər şeyi yaxşı görürəm, qızım və həmişə sənin dərdini çəkirəm, heç anana da demirəm çox vaxt, ona dərd vermək istəmirəm. Sən gərək mən istəyən kimi xoşbəxt olaydın. Amma… neyniyəsən, taleyin qismətindən heç yana qaçmaq mümkün deyil!

Güllü heç vaxt nə anasına, nə atasına, nə də hətta uşaqlıqdan sirləri, gizlinləri bir olan bacısına da ərindən giley-güzar eləməmişdi. Sadıq bir kişi kimi çox qəşəng idi: uca boyu, enli kürəkləri vardı. İri, qapqara gözlərindən elə bil qığılcım səpələnirdi ətrafa. Güllü o zaman — texnikum uşaqlarını pambıq yığmağa gətirəndə Sadığın o qəşəng gözlərinə vurulmuşdu. Heç özünün də xəbəri olmadan, bir də onda ayılmışdı ki, Sadığın əlindədi, geriyə yol yoxdu. Qalmalıdı, Sadığa arvad olmalıdı. Olmuşdu da. Ancaq sonra o gözlərin işığı öz parıltısını itirməyə başlamışdı; sən demə, Sadıq təkcə ona yox, hamıya, hər şeyə o cür baxırmış. Sən demə, Sadıq bu böyük və nəhəng şəhərdə çox gəzib dolanıbmış, cürbəcür qadınları, qızları dişinə vurub, sınayıbmış, əsl ev qızı axtarırmış. Və bu «ev qızı» da Güllü olmalıymış. Sadıq Güllünü istəyirdi, qiymətləndirirdi. Qəsdən oxumağa qoymamışdı. Nəzərin, qızın özünün dəfələrlə təkidinə, işarəsinə baxmayaraq, Sadıq Güllünü oxutmaq fikrindən uzaq olmuşdu. Bu barədə, çoxlarına qəribə görünsə də, Sadığın öz mülahizələri vardı və bunları o heç kəsə açıb demirdi. Onun düşüncəsində arvad indiki zamanda yaxşı evdar qadın olsa, uşağını yaxşı tərbiyə eləsə, ərinin qulluğunda layiqincə dayana bilsə, bəsidir. Guya indi idarələrdə, müəssisələrdə, təşkilatlarda işləyən qadınlar, əslində, qazandıqlarından çox uduzurlar. Uşağının tərbiyəsi ilə məşğul ola bilmir — uduzur. Uşaq baxımsızlıq üzündən tərbiyəsiz olandan, ər istədiyi diqqət, qayğı və rahatlığı görmədiyinə görə bu şeyləri böyük həvəslə, məmnuniyyətlə yaratmağa qadir olan bir başqa qadının əlinə düşəndən

sonra sən o qazandığın yüz-yüz əlli manatla qaytar itirdiklərini, görüm necə qaytaracaqsan. Uşağının tərbiyəsini o pulla satın ala bilməzsən, başqa qadının ağuşuna gedən kişini o pulla geri döndərə bilməzsən.

Sadığın beynində, ürəyində bir fikir də yurd salmışdı. Və ən dəhşətlisi bu idi ki, gözəl qadını, gözəl qızı cəmiyyət içinə gərək qətiyyən buraxmayasan. Buraxdın — uduzdun. Buraxdın — ondan əlini üz, gözünü çək, daha o sənin deyil. Düşünürdü ki, guya indi əxlaq deyilən şey laxlayıb, çürüyüb. Adamlarda mərdlik, ləyaqət azalıb, müqəddəs heç nə qalmayıb!

İdarələrdə indi ac qurda bənzər «kişilər» əmələ gəlib. Onlar gözdə-qulaqdadı — bir qəşəng qadın gələn kimi, onu müxtəlif vasitələrlə ələ almaq, öz adamı eləmək istəyirlər. Xüsusilə vəzifəli olanlar! Bəzən qadın nə qədər ağıllı, təmkinli, dəyanətli olsa da, bir gün, beş gün, lap beş il müqavimət göstərsə də, bir də görürsən ki, axırı sırtığın, dələduzun, yaramazın birinə «ilişib», oturub tələnin ortasında. Ondan sonra gəl bunun altından çıx görüm, necə çıxırsan! Sadıq öz aləmində bir şeyə lap nifrət eləyirdi: «Bizdə qəribədi, vallah. Mən çox yerləri gəzmişəm, görmüşəm, amma belə hala rast gəlməmişəm. Peşimandı müəllim tələbəsi ilə, müdir öz gözəl işçisi ilə ikicə kəlmə mehriban-mehriban danışsın, o saat zurna pülüyürlər, bir şonquruq qoşurlar ki, səsi-sədası düzü-dünyanı götürür başına. O saat ləkələyirlər! Filan qız, filan gəlin filankəsin adamıdı, vəssalam!.. Daşı bu damğanı ömrünün axırınacan, görüm necə daşıyacaqsan! Odur ki, sənə əmanət — arvadın qəşəngdirsə, oturt evdə. Yeməyini ver, paltarını ver, uşağını saxlasın, bozbaşını bişirsin, vəssalam! Səhər bir köpəyoğlu da deməsin ki, mən filankəsin arvadına…» — deyə Sadıq, kənar adama məsləhət verirmiş kimi, çox vaxt özünə öyüd-nəsihət eləyirdi. Sadıq yaxşı bilirdi ki, səhv eləyir, bütün gözəl qızlar, qadınlar onun düşündüyü kimi deyil və ola da bilməz. Ancaq nə qədər çalışırdısa, bu xəstə fikri beynindən çıxara bilmirdi. «Qardaş, işini ehtiyatlı tut, qonşunu oğru bilmə!» — deyirdi axırda.

Sadıq hərdən bu mərəzinin köklərini də axtarırdı. Və bu qənaətə gəlirdi ki, o özü elə adamdı — gözüdağınıqdı, gözəl qadın görəndə əriyib suya dönür, nə vasitə ilə olursa-olsun ona qırmaq atır, cələ qurur, dəridən, qabıqdan çıxır, vaxtına-puluna hayıfsılanmır, nəhayət, beş-üç belə qadından biri yola gəlir! Sadıq məhz belə hallarda düşünürdü ki, indiki zamanda əxlaq laxlayıb! Kim inanar ki, bax, bu dünya gözəli,

bax, yeriyəndə yer titrəyən bu mələk ismətsizdi, yolunu azıb! Bax, belələrini görəndə, başqaları da Sadığın gözündə şübhə altına düşürdü, necə deyərlər, qurunun oduna yaş da yanırdı.

Sadığın xasiyyətində hamısından qəribəsi bu idi ki, bu fəlsəfəsini nəinki yoldaşlarına, dostlarına, oturub-durduğu adamlara, hətta öz arvadına da açıb demirdi, gizli saxlayırdı. «Dost-tanış bilsə gülər. Arvad isə belə şeyləri bilməsə yaxşıdı. Yoxsa tez ayılar…» Danışmırdı, ancaq düşündüyü kimi, öz dünyasında yaşayırdı Sadıq. Çöldə, idarədə heç kəs heç nə bilmirdi: evdə isə o, arvadı üçün qıfılbənd idi, bağlı sandıq idi. Neçə illər bir damın altında ömür sürmələrinə baxmayaraq, Güllü ondan baş açmırdı. Doğrudur, yemək-içmək, palpaltar sarıdan qətiyyən korluq çəkmirdilər, soyuducu həmişə dolu olurdu, mer-meyvə qalıb çürüyürdü. Güllü nə istəsəydi, gedib bazardan, mağazadan alıb gətirirdi, öz əliydi, öz başıydı. Həmişə də pulu vardı, çünki Sadıq aldığı maaşı bütünlüklə kamodun üstünə qoyurdu, sonra da heç vaxt ondan pul istəmirdi, haqq-hesab soruşmurdu. Düzü, bu, Güllünün ürəyincə idi, çünki o, atası evində də gözünü açıb belə görmüşdü. Ancaq ər-arvadlıq, Güllünün fikrincə, tək bundan ibarət deyildi. Sadıq qaradinməz idi, heç vaxt dərdini-qayğısını açıb arvadına deməzdi, danışıb-gülməzdi, ən zəruri söhbətlərdən başqa, bu evdə ayrı söz-sov olmurdu və təbiəti etibarilə deyib-gülən, şad-xürrəm böyümüş Güllünü bu, çox sıxırdı.

Texnikumda işlədiyi vaxtı, Sadıq işdə olanda, bir dəfə evdə yır-yığış eləyəndə Güllü kitab şkafının içindən üç-dörd əmanət kitabçası tapmışdı və marağını, təəccübünü saxlaya bilməyib onlardakı pulları üst-üstə gəlib cəmləmişdi və alınan rəqəmdən hədsiz dərəcədə heyrətlənmişdi. Güllü ömründə bu qədər pul görməmişdi, belə pulu olan adam da görməmişdi. Əvvəl ərinin və deməli ki, öz ailəsinin belə var-dövlətə malik olduğunu düşünüb sevinmişdi, «Sadıq ağıllıdı» — deyə fikirləşmişdi. Ancaq bu həyəcan keçəndən, başının dumanı ayazıyandan sonra ağlına gələn fikir əl-qolunu süstələtmişdi: «Bəs Sadıq niyə bu barədə mənə heç nə deməyib? Yəni mənə etibar eləmir? Ya məndən gizli saxlamaq niyyətindədi?» Və Güllünün gözündən düşmüşdü o pullar. İncimişdi. İstəmişdi axşam işdən qayıdan kimi, ərini divara dirəsin, sorğu-suala tutsun. Ancaq sonra heç nə soruşmamağı, üstünü də vurmamağı məsləhət bilib susmuşdu.

Keçən il Sadıq adəti xilafına, evə gələn kimi, üz-gözündən sevinc yağa-yağa Güllünün balaca, yaraşıqlı burnuna çırtma vuraraq:

— Məni təbrik eləyə bilərsən, arvad! — demişdi, — müəllim-

likdən çıxdım.

— Müəllimlikdən çıxdın? — Güllü özünü itirmişdi.

— Hə.

— Taonda nəyini təbrik eləyim, ay Sadıq? Yoxsa direktor qoyublar səni?

— Nə? Direktor? Hm. Direktor nədi, aaz! İndi sənin Sadığın nazir müavinidi ey, nazir müavini!..

— Nazir müavini? — Güllünün qulaqları guruldamışdı.

— Hə!..

Sevinc içində:

— Gün o gün olsun nazir olasan, ay Sadıq! — deyə özünə xas mehribanlıqla ərinin üzündən öpmüşdü.

Sadıq gülmüşdü:

— Daha mənimlə ehtiyatlı dolan ha! Daha sənin üçün kakoynibud nesçastnıy müəllim deyiləm ha…

Eşitdiklərinə hələ də inanmaq istəməyən Güllü, şübhəsini gizlədə bilməyərək:

— Nə əcəb ey, deyirəm, birdən-birə səni o cür irəli çəkdilər, ay Sadıq? — deyə soruşanda Sadıq o dəqiqə bozarıb dəyişmişdi:

— Bu olmadı da! Sənə bir dəfə demişdim ki, belə işlərə qarışma, arvadsan, otur arvad yerində, bildin?

— bildim. Elə-belə, maraq üçün soruşdum, Sadıq. Ta acığın niyə gəlir? Mən özgə deyiləm ki!..

Və az bir zaman içində Sadığın nazir müavini olması nəinki şəhərdə, dost-tanış arasında yayılmışdı, bu şad xəbər telefon telləri ilə axıb kəndə — Güllünün ata-anasına, bacısına da çatmışdı. Əlbəttə, hamısı buna sevinmişdi. Təbriklər, gəlib-gedənlər azalıb, ara səngiyəndən sonra günlərin birində, hardansa o gözqamaşdıran pul kitabçaları yadına düşən Güllü onları yerində görməmişdi, uzun müddət itiyi itmiş adam kimi, evdə vurnuxmuşdu; Sadığa zəng çalıb əhvalatı demək istəmişdi, ancaq yenə susmağı məsləhət bilmişdi: «Özü qoymuşdu, özü də götürüb! Ondan başqa bu evdə o otağa kim girib-çıxır ki?» — deyərək, təskinlik tapmışdı. Ancaq uzun müddət unuda bilməmişdi, elə hey götür-qoy eləmişdi və nəhayət, yenə adi günlərin birində ağlına gələn bir fikir onu lap sakitləşdirmişdi: «Məgər o boyda vəzifəni adama havayı verərlər? Yəqin…»

Və zaman keçdikcə belə-belə şeylər Güllü ilə Sadıq arasına

gözəgörünməz pərdə çəkirdi. Bu pərdə get-gedə qalınlaşır, möhkəmlənir və onları bir-birindən uzaqlaşdırırdı. Evdə hər şey var idi, ancaq sevinc yox idi, fərəh yox idi. Güllünün heç nəyə ehtiyacı yox idi, təkcə sevinc təşnəsi idi. Yaxşı ki, Seyranə varmış, başını qatırdı. Günün hardan gəlib, hara getdiyini bilmirdi. Seyranə dilli-dilavər uşaq idi. Nəzərin dediyinə görə, lap Güllünün öz körpəliyiydi. Saçları, gözləri, gülüşü də Güllününkünə oxşayırdı. Sadıq nazir müavini olandan sonra onun təkidi ilə gələn il məktəbə gedəcəyini nəzərə alaraq, qızı şəhərin nümunəvi uşaq bağçasına qoymuşdular. Hər gün səhər tezdən Sadıq işə gedəndə, dalınca gələn maşınında Seyranəni özüylə aparardı, bağçada qoyub gedərdi. Axşam isə onu Sadığın sürücüsü gətirib anasına təhvil verərdi, çünki Sadıq axşamlar evə gec gələrdi, iclasda, kollegiyada yubanardı. Bütün günü tək qalan Güllü son vaxtlar yaman darıxardı, ancaq Sadığa heç nə deməzdi, ev işlərini görər, kitab oxuyar, televizora baxar, yatardı və bu cür yaşamaq, əlbəttə, onu bezdirməyə bilməzdi.

Bunlar elə ağrılar idi ki, hər gün özünü hiss etdirirdi və Güllü də səsini çıxarmadan, dözə-dözə yaşayırdı. Kənardan baxanların, qohum-qonşunun gözündə o, bəlkə də bəxtəvər qadın idi. Ancaq içəridə... Və bunu ancaq o özü görürdü, hiss eləyirdi. Qəribə idi ki, indiyəcən — bir az əvvəl gələn atasından o sözləri eşidənəcən ona həmişə elə gəlmişdi ki, bundan, onun, türkün məsəli, aftavası da xurustaldandı, qızım. Bu, sədi başa düşdü ki, yanılırmış. Atası, bura az-az, ildə bir dəfə, iki dəfə gəlib-gedən Nəzər müəllim, sən demə, sevimli madonnasının ürəyini sıxıb əzən duyğulardan — yadlıqdan, təklikdən, o gözəgörünməz pərdədən, divardan xəbərdar imiş! Güllü buna ancaq təəccüb edirdi, heyrətlə ağzını açıb atasının dediklərini dinləyirdi.

— Görürəm, mənim madonnam, çaşıb qalıbsan ki, mən bunları hardan bilirəm?

— Hə, ay ata, doğrudan hardan bilirsən bunları?

— Mən atayam, qızım, mənim ürəyimin də gözü var, hisslərimin də gözü var. Sən axı mənim ürəyimin, ömrümün bir parçasısan, ayrılıbsan canımdan, gəlib düşübsən bu cah-cəlalın, naz-nemətin içinə; elə bir adamın əlinə düşübsən ki, onun, türkün məsəli, aftavası da xurustaldandı, qızım. Bu, sənin xoşbəxtliyindimi, bədbəxtliyindimi, bilmirəm, hələ bilmirəm. Bəlkə də sənin atan başqa adam olsaydı, buna yəqin ki, sevinərdi. Ancaq düzü, nədənsə, mən sevinə bilmi-

rəm! Qəribədi ki, mənim ocağımın başını icazəsiz-filansız tərk eləyib bu gədənin əlinə düşəndən həmişə elə bilmişəm ki, səni itirmişəm, səni çölə atmışam; odur ki, yarı canım həmişə sənin yanında olub, qulağımın dibində, beş addımlığımda yaşayan Güldanəyə bir dəfə baş çəkəndə, üç dəfə, beş dəfə sənə gəlib dəymişəm. Və hər dəfə bura gələndə qorxmuşam ki, indi gedib balamı ağlar görəcəyəm, qolları qoynunda, qan dənizində görəcəyəm. Bilmirəm, bu nə sirdi, anlamıram, bala!..

— Sən peyğəmbərsən, nəsən, ay ata? Sən… — Güllünün sözü yarımçıq qaldı, hamamdan şırıltı ilə axan suyun səsini batıran səs eşidildi:

— Güllüüü!.. — Və Güllü nə vaxtdan bəri ürəyində gəzdirdiyi dərdlərini demək məqamının çatdığını hiss elədiyindən getmək istəməsə də, tərəddüd içində daldalı çəkilib hamama girdi. Əlbəttə, o utanırdı, çox namünasib vaxtda Sadıq çimməyə başlamışdı, gərək indi, qayınatasının yanında belə ədəbsizlik eləməyəydi. Hamam qaçmırdı, başqa binalarda olduğu kimi, burda da su saat hesabıyla verilmirdi ki.

Su gecə-gündüz şarhaşarla axırdı. Üstəlik də istisi-soyuğu bir yerdə. Digər tərəfdən də o, bu iki daşın arasında hamama girib ərini kisələməliydi, sabunlamalıydı. Guya bir dəfə Güllüsüz çimsəydi, dünya dağılardı.

Güllü bunları düşünsə də, Sadığa heç nə demədi, ixtiyarı yox idi — əvvəldən belə öyrətmişdi Sadıq!.. Sadığın tüklü, sağlam bədəninə kisə çəkə-çəkə düşünürdü ki, atası necə gözəl sözlər deyirdi, onun ürəyindən lap tikan çıxarırdı. Elə bil beynini açıq kitab kimi onun üzünə oxuyurdu kişi. Heç vaxt aralarında belə söhbət olmamışdı. Və Güllü də deyəcəkdi ürəyindəkiləri. Amma hayıf! Bir də çətin bu barədə danışa bilsinlər. Doğrudan da, Nəzər qızıgildə qaldığı müddətdə daha o məsələnin üstünə qayıtmadı, Güllü isə cəsarət eləmədi.

Həmin gecə Güllü hamamdan tez çıxdı. Gördü ki, atası kabinetdən mətbəxə, Seyranənin yanına gedib. Güllü atasının üzünə baxa bilmirdi: «Ətin tökülsün, ay Sadıq, ətimizi tökdün».

Seyranə firnisini yeməmişdi. Qıçlarını stuldan aşağı sallayıb, ləbələb dolu nimçəyə tamaşa eləyirdi. Bunu görə ana, Sadığın əlindən yığdığını da qızının üstünə töküb cin atına mindi, çımxırdı:

— Ay qız, yeməmisən hələ?

Seyranə qırmızı bantlı başını yellədi:

— Ne xoçu.

— Poçemu, ağız?

— Ya sıt.

— Sənə deyirəm quşiy, ağız!

Seyranə əlindəki kiçik qaşığı yerə atdı, qıçlarını yırğalaya-yırğalaya, əsəbiliklə:

— Quşiy yox, mama, kuşay! — dedi. — Neçə dəfə mojna skazat?

Nəzər müəllim əlləri cibində geniş mətbəxtdə gəzinə-gəzinə ortalığa:

— Yox, mən görürəm, işiniz müşkül olacaq, sizə — ana-balaya bir dilmanc lazımdı. Yoxsa bir-birinizi çətin başa düşəcəksiniz. Gərək Sadığa deyəm sizin üçün bir dilmanc da tapsın… — dedi.

Nəzərin səsindəki kinayəni duymaya bilməzdi Güllü. Ona görə atasının üzünə günahkar-günahkar baxıb:

— Sadıq eləyir də. Deyir, gərək uşaq rus məktəbinə getsin, — dedi. — Onunçun qoyub bağçaya ki, dil öyrənsin indidən.

— Sadıq səhv eləyir. Rus dilini onsuz da öyrənəcək, madonna, sənin uşağın. Şəhərdə yaxşı keçirlər. Ancaq ana dilini hökmən bilməlidi. Sadıq və Sadıqkimilər işin bir tərəfini fikirləşir, o biri tərəfini yox! Yaxşı, yerindən duran azərbaycanlı uşağını rus məktəbinə qoysa, bəs Azərbaycan məktəblərində kim oxuyacaq? Mən? Sən? Belə getsə, bir azdan sonra şəhərdəki bütün Azərbaycan məktəbləri boş qalacaq, bağlayacaqlar, bala. Şəhər müəllimlərini də atacaqlar bayıra. Özü də fikir vermişəm, əksərən ziyalılardı belə eləyən. Vəhalonki, mətbuatda, radioda, televiziyada dilimizi qorumaqdan danışanda ağızlarına çullu dovşan sığışmır. Onu bil ki, öz dilini yaşatmağa qadir olmayan xalq gec-tez ölümə məhkumdu, bala! Bizim bir çox qeyrətsizlərimiz bunu hayıf, unudurlar ki, Lenin də belə deməyib! Vallah, belə deməyib, billah belə deməyib!

Nəzər bir az susub əlavə elədi: — Amma gərək sən dil öyrənəsən, qızım, başqa əlacın yoxdu. Boş-bekar oturubsan evdə, işinin-gücünün adı nədi, öyrən də! Gündə iki söz öyrənsən, bəsindi.

— Qoyur ki, öyrənəm? Nə deyirəm, əndamı yanmamış, ələ salıb gülür, lağ eləyir. Mən də hirslənirəm.

— Hirslənmə, bala, hirslənmə. Öyrən!.. Seyid Əzim rəhmətlik yaxşı deyib: «Bilməsək dil, əlacımız yoxdu».

Nəzər bunu deyib yemək otağına keçdi. Nəzər müəllim yalnız

böyük, işıqlı, kondisionerli, yapon televizorlu, maqnitofonlu bu otağa daxil olanda başa düşdü ki, Güllügildə də çox qala bilməyəcək, əslində lap nahaq gəlib. Güllünü, nəvəsini nə qədər çox istəsə də, onları görməyəndə darıxsa da, kişi Sadığın evində nədənsə həmişə sıxılırdı, ştahla yeyə bilmirdi, gecələr yatanda isti, rahat yorğan-döşək gicitkən kimi canını dalayıb yandırırdı. Elə bilirdi ki, yediyi çörəyi çeynəməmiş, diri-diri udduğuna görə, boğazında qalır; elə bilirdi ki, yorğan-döşək kiminsə özgənindi, buradakı hər şeyin, hər şeyin dalınca baxan gözlər görürdü sanki Nəzər. Ona öz varlığı kimi, gün kimi aydın idi ki, bunların heç birini kürəkəni Sadıq öz alın təriylə, əlinin qabarıyla qazanmayıb; kimlərsə verib, gətirib, ya pulunu cibinə basıb Sadığın. Bunları o özü demişkən, ürəyinin gözüylə aşkar-aydın görürdü, di gəl ki, açıb-ağarda bilmirdi. Qızı, yediyi bütün loxmalardan da iri bir loxmaya dönüb nəinki nəinki boğazını tıxayırdı, hətta dilini də bağlayırdı. Və dünya görmüş, isti-soyuq dadmış Nəzər, içini göynədən bu ağrı-acını açıb-ağartmasa da, eyhamla, işarə ilə qızını başa salmaq üçün, hərdən özünü saxlaya bilməyib deyirdi:

— Ağıllı ol, mənim madonnam. Həmişə sabahkı gününü də düşün. Bu dünya, — o, əlini cah-cəlallı evin içində dolandırırdı və Güllü başa düşürdü ki, atası dünya deyəndə bu gəlhagəli, bu var-dövləti nəzərdə tutur, — həmişə belə qalmayacaq. Həyatda hər gəlhagəlin bir gethagedi də olur, bunu yadında saxla, mənim madonnam!

Kişi daha sözlərini xırdalamırdı, qızının qəlbini parçalayıb dağıtmaq istəmirdi, çünki görürdü ki, o, atasının nəyə işarə elədiyini yaxşı başa düşür, başa düşməsəydi, elə qəmli-qəmli gülümsəməzdi Güllü!

Bayaq dediklərinə də peşiman idi. Nahaq o sözləri Güllüyə söylədi. Ürəyiynən bacara bilməmişdi, illərnən yığılıb dilə gətirilməmiş sözlər idi axmışdı dodaqlarından!

«Qızın qəlbini nahaq qanatdım, bica yerə dərdlərini üzünə oxudum. Mənim balam həssasdı. Onsuz da çəkdikləri özünə bəs idi. Deyir lap peyğəmbər imişsən, ay ata. Amma gör, qızım, sən peyğəmbər atının sümüyünü kimin sümüyünə caladın. Nə kəsmək olur, nə atmaq olur, nə də açıb-ağartmaq olur».

Sadıq hamamdan çıxandan sonra balkonda manqal çatmışdı. Cənubdan, dəniz tərəfdən əsən yüngül meh tüstünü qonşunun balkonuna aparırdı. Əlbəttə, tək tüstü getmirdi, şişlərə çəkilmiş ağ balıq tikələri kömür közü üstə cızhacızla yanıb xınalandıqca xoş iyi də ət-

rafa yayılırdı. Sadıq yaman kababbaz idi, özü yaxşı bişirdiyindən heç kəsi yaxın qoymurdu, başqalarının kababını da bəyənmirdi.

Nəzər otaqda, stol arxasında oturmuşdu. Güllü süfrə düzəldirdi. Seyranə televizorda mültfilmə tamaşa eləyirdi.

Nəzəri ağ balığın iyi vurdu. Haçandı yeməmişdi, az qala dadı da yadından çıxmışdı. Durub balkona açılan qapıya gəldi, cızıldaya-cızıldaya alovlanmış şişlərin üstünə bankadan duzlu su çiləyən Sadığa baxdı — üzü köz işığında mis rəngi çalırdı.

— Sən bu balıqçılarnan qurtarmayıbsan hələ? — deyə kürəkəninin vaxtilə Balıqçılıq texnikumunda işlədiyini, onda da tez-tez evə balıq, kürü gətirildiyini xatırlayan Nəzər maraq üçün soruşdu. Sadıq şişi çevirib güldü:

— Balıqçılarnan da qurtarsaq, balıqnan qurtarmamışıq, Nəzər kişi!..

— Hm.

— Əslində heç balıqçılarnan da qurtarmamışam. Yaxşı oğlanlardı hamısı. Unutmurlar müəllimlərini. Nədən ki, mən heç birinə pislik eləməmişəm o uşaqların. Həmişə hörmət eləmişəm. İmtahanda, zaçotda, qəbullarında…

Nəzər çiynini qapının çərçivəsinə söykəyib ah çəkdi: sanki o indi xatırladı ki, Sadıq da müəllim olub və buna heyrət elədi ki, niyə o indiyəcən Sadığı müəllim saymayıb, niyə ona elə gəlib ki, Sadıq müəllim deyil, hardasa dükanda, bazarda işləyən bir adamdı? Niyə? Amma bu, həqiqət idi, doğrudan da, Sadıq uzun illər texnikumda müəllimlik eləmişdi, elə Güllünü alanda da müəllim idi, sonra da neçə müddət, lap bu yaxınlaracan orada işləyib dərs demişdi.

«Hə, bəzən belə şeylər də olur, Nəzər müəllim!» — öz-özünə pıçıldamışdı.

— Amma burda nahaq bişirirsən, Sadıq.

— Nəyi? Kababı?

— Hə də.

— Niyə ki?

— Ona görə ki, qonum-qonşuya iyi dəyir. Zahı, hamilə, xəstə qadın ola bilər, şişərlər, günahdı.

— Yox, əşi, bura şəhərdi, Nəzər kişi. Sən kənd havasıynan deyirsən bunu. Şəhərdə adamlar elə şey bilmirlər. Bir də mən onların əl-ayağını tutmamışam ki, onlar da bişirsinlər, yesinlər.

— Hamının belə imkanı yoxdu, Sadıq. Hamının balıqçı dosttanışı yoxdu.

— İndi neyliyək deyirsən?

Nəzər bu sualın cavabını verə bilməyib susdu. Sadıq şişin birini götürüb təndir çörəyi ilə sivirərək tikələri qaba boşalda-boşalda:

— Bilirəm, deyəcəksən niyə mağazada yoxdu, niyə açıq satışda yoxdu və s., və s. Onun min bir səbəbi var, Nəzər kişi və bunu mən həll eliyəsi deyiləm, — söylədi.

Nəzər siqaret yandırdı, əsəbi bir gərginliklə tüstünü ciyərinə çəkib, yarıciddi-yarızarafat şəklində:

— Həzm eləyə bilirsiz, amma həll eləyə bilmirsiz? Hə? — dedi.

— Ay Nəzər kişi, dünyanın dərdi-səri bizə qalmayıb ki? Biz kimik? Balaca adamlar. Qoy böyüklər fikirləşsinlər niyə belədi? Niyə, məsələn, balıq yoxdu? Bizə nə! Bir də, Nəzər kişi, atalar deyib, başarana baş qurban! Dünya zirəklərindi, kişi! Kim necə bacarırsa, elə də yaşayır! — Sadıq axırıncı şişin də tikələrini çəkib; — Hə, keç içəri, kababımızı yeyək, kabab qanlı, iyid canlı deyiblər. Yoxsa bu dünyanın dərdlərini həll eləməyə başlasaq, kababımız soyuyar!.. — dedi.

Nəzər içəri döndü və ürəyində: «İlahi, bu cür düşünən adamı nə təhər olur gətirib nazir müavini qoyurlar? Axı, bu gədənin içi, ürəyi, əqidəsi çürükdü, boşdu. Nə təhər olub axı bu? Yəni sabah bunu nazir də qoya bilərlər? Vay dədə, vay!» — deyə pəjmürdə halda keçib stol arxasında əyləşdi. Qayınatasına Sadıq özü qulluq eləyirdi. Tikələrin ən yaxşısını, xınalısını onun qabağına qoyurdu, boşqabına narşərab tökürdü.

Seyranə hələ də televizor ekranından qopmamışdı.

— Ay qız, gəl çörəyini ye!

Seyranə qalxıb atasının yanında oturaraq süfrəyə göz gəzdirdi, dəhşətli bir şey görübmüş kimi:

— Opyat balıq? — deyə səsləndi. — Utrom balıq, veçerom balıq. Nadoel vse! Ya ne xoçu!

— Bə nə yeyirsən, qızım? — deyə Nəzər astadan xəbər aldı.

— Heç nə!

— Xalan deyəsən sənə pendir göndərib. Motal pendiri. Güllü, dur ondan gətir, qoy uşaq yesin!

Güllü mətbəxə keçib qayıtdı:

— Əla pendirdi. Elə mən də bundan yeyəcəyəm. Siz balıq yeyin, biz ana-bala pendir-çörək!..

Nəzər yeyirdi, ancaq nədənsə ona elə gəlirdi ki, balığın dadı-tamı dəyişib.

Söhbət əsnasında Güllü atasının gəlişilə maraqlandı:

— Gəzməyə gəlmisən, ay ata! Ya bir işin-zadın var?

Nəzər heç özü də bilmədən:

— Təqaüdə çıxmışam, ay qızım, — dedi. — Boş-bekar adamam.

— Təqaüdə çıxmısan? Nə yaxşı, ay ata?

— Nəyi yaxşıdı, ay qızım?

— Necə nəyi yaxşıdı, — Sadıq tikəsini udub dilləndi. — Sağ əlin başımıza!.. Üçdə alacağın yox, beşdə verəcəyin. Ye, iç, yaşa özünçün!

— Hə də. Adam ömrü boyu işləməz ki? — Güllü ərinin sözünə qüvvət verdi.

Və Nəzər buna qızının da, kürəkəninin də adicə bir şey kimi baxmasına çox təəccübləndi, boğazı kilidləndi elə bil, onsuz da həvəssiz yediyi balıq tikəsinin çəngəlindəki sonuncu qıçasını ağzına atıb zorla, demək olar ki, çeynəməmiş uddu, çəngəli yerə qoydu:

— Sağ olun, süfrəniz dolu olsun, — dedi.

— Kişi, sən heç nə yemədin ki? — deyə Sadıq Nəzərin boşqabına fikir verdi, — cəmi-cümlətanı üç tikə balıq yeyibsən.

— Yəni sayırdın, ay Sadıq? — Nəzər pərtliyini gizləməyə çalışaraq qımışdı.

— Yox, demək istəyirəm ki, az yedin. «Üçü» elə-belə, sözgəlişi dedim, Nəzər kişi. Sən özün bilirsən ki, — Sadıq qayınatasının kinayəsini başa düşüb cavabsız qoymaq istəmədi, — sən özün yaxşı bilirsən ki, mən elə oğlan deyiləm. Baxsan görərsən ki, düz-dünya elə mənim çörəyimi yeyir.

Güllü sözlərinin çəp gələcəyindən qorxaraq, xəlvətcə atasına göz vurdu: «İşin olmasın, ay ata. O, harsı-parsı qanan deyil. Bir də görərsən elə söz dedi ki, dəymişin qaldı… kalın töküldü».

Və Nəzər qızının işarəsində kağızsız-qələmsiz yazılmış bu sözləri oxuyub, daha üstünü vurmadı, ancaq qəlbindən «bir biləydim, ay Sadıq, sən kimin çörəyini yeyirsən, rahatlanardım. Darıxma, bunun da geci-tezi var, vaxt gələcək, hər şey bilinəcək, Sadıq» — deyə ürəyindən keçirtdi. Sonra o fikrin üstünə qayıtdı ki, sən demə təqaü-

də çıxmaq elə də dəhşətli şey deyilmiş! Boş yerə Nəzər bunu az qala faciəyə döndərib yerə-göyə sığışmır. «Görəsən, — Nəzər düşündü, — Güldanə də, Tapdıq da bu xəbəri belə qarşılardılar?» Onlardan gizlədiyinə peşiman oldu. «Gərək deyəydim. Yəqin indi bilirlər, yəqin Bikə zəng eləyib qızına xəbər verib! «Güldanəni, Tapdığı xatırlayanda qeyri-iradi olaraq İmran kişi də yadına düşdü».

Aralığa çökmüş sükutu Sadığın səsi pozdu:

— Demək pensiyadasan!

— Hə, qocaldıq daha! — Nəzər nisgilli-nisgilli söyləyəndə, Güllünün gözlərinin nəmləndiyini gördü və nə üçünsə kişi buna sevindi ürəyində. Bəlkə də ona görə ki, Güllü onu başa düşmüşdü?!

ON DÖRDÜNCÜ FƏSİL

Bakı gözəl sentyabr günlərini yaşayırdı. Hava isti olsa da, şəhərin göy gözlü balasının hənirtisi onun üstündə hiss edilirdi. Asta-asta meh əsirdi, küçələr boyunca nizamla, dördbucaq çalarlarda əkilmiş qələmlərin, akasiyaların yarpaqlarını, xırda budaqlarını yırğalayıb tərpədirdi. İş vaxtı olduğu üçün adam az idi; arabir qocalara, əlində çanta məktəbdən qayıdan, dərsə gedən uşaqlara rast gəlmək olurdu.

Nəzər şəhərin yar-yaraşığına, şütüyən maşınlara, ora-bura tələsən adamlara baxa-baxa, Kommunist küçəsinə nə zaman gəlib çıxdığını bilməmişdi. Güllü Bakıda məskən salandan sonra buraya tez-tez gəlib getsə də, şəhərin indi qızıgil yaşayan hissəsində gözəl prospekt, hündür, yaraşıqlı Akademiya binası, Televiziya idarəsi, xüsusi imtiyazları olan adamlar üçün tikilmiş xəstəxana, mağazalar, bazar, aptek görsə də, o vaxt tələbə ikən şahid olduğu mənzərə — qəbiristanlıq, boz, ağacsız çöllər gözünün qabağından çəkilib getmirdi, inana bilmirdi ki, bu həmin yerlərdi. O zaman buralara ayaq basmaq hər kəsin ağlına gəlməzdi. Amma indi…

Şəhərin indi addımladığı hissəsi ona doğma idi, tanış idi — bu küçələrdən çoxunun adı dəyişsə də, tələbə yoldaşları ilə çox keçmişdi, bəlkə də, hərəsində bir xatirəsi var idi. Təbii ki, gündə üstündən minlər, milyonlar keçən bu küçələr Nəzəri tanıya bilməzdi, ancaq Nəzər onları yaxşı xatırlayırdı. O çağlar qocaların, yaşlı adamların «İsmailiyyə» adlandırdıqları, sonralar Akademiya olan o cəlallı binanın qabağından tək indi yox, hər dəfə keçəndə xatırlayırdı ki, vaxtilə

onun yuxarı hissələri, dörd dövrələmə gözəl naxışlarla, qızıl suyu ilə yazılmış sözlərlə necə də göz qamaşdırırdı. Sonralar o naxışları, yazıları, kiminsə naqis ağlının hökmü ilə sildilər, pozdular, məhv elədilər. Nəzər o yazıların mənasını tələbə olanda da, ondan sonra da bilmədi. Ancaq bu yadında qalmışdı ki, nə yazılmağından asılı olmayaraq, o xətlər, o sözlərin düzülüşü, rəngi, ölçü-biçisi canlı bir muzey eksponatı olmağa layiq idi. O naxışlarda adı-sanı bilinməyən bir gözəl sənətkarın sənəti, bəlkə də ömrü yaşayırdı. Və heç olmasa, buna görə gərək ona qıymayaydılar!

Nəzər o binanın qabağında ayaq saxlayıb xeyli düşünəndən sonra, fikirli-fikirli üzüaşağı sallandı və hər dəfəki kimi indi də ürəyində bir hiss oyandı — nə olaydı, keçmiş tələbə yoldaşlarından biri, heç olmasa biri, gözlənilmədən, göydən düşmüş kimi, bu adamların arasından çıxıb onunla qabaq-qənşər gələydi və onlar, bir-birinə diqqətlə, təəccüblə baxaraq, «bu odur?» — deyə tərəddüd edə-edə yaxınlaşaydılar, qucaqlaşıb öpüşəydilər. Gözü axtarırdı, ancaq heç kəs yox idi, heç kəs qarşısına gəlib: «Sən Nəzər deyilsən?» — demirdi. Bir-iki tələbə yoldaşı vardı, şəhərdəydilər. Akademik idi biri. Ən çox sevdiyi Həmid idi, Məmmədağa idi. Onların ikisi də Nəzərin qrup yoldaşları olmuşdu. Can deyib, can eşitmişdilər, axırıncı manatlarını bir yerdə xərcləmişdilər. Ac da qalanda bir yerdə ac qalmışdılar. Başqaları da var idi. Hətta o vaxt acığı da gəlsə, indi onlardan biri ilə görüşmək Nəzər üçün toy-bayram olardı.

Birdən ağlına gəldi ki, maarif nazirliyinə getsin, onun xətrini çox istəyən, ağıllı, mehriban, balacaboy, qarayanız Sultan müəllimlə — nazirin özü ilə görüşsün, hal-əhval tutsun, dərdləşsin və yeri gələndə Şakir Şakirzadənin əməllərindən danışsın, tələbəsinin «xəcalətindən» necə çıxdığını söyləsin. Hətta xeyli getdi də. Lakin birdən daxili bir səsin hökmü ilə yolunu dəyişdi, dəniz qırağına üz tutdu. «Mənə yaraşmaz, lazım deyil. Sultan yəqin eşitmiş olar indiyə. Bu boyda məsələni nazirə deməmiş olmazlar. Gərək olsa, məsləhət bilsə, özü çağırtdırar! Yüngülsaqqallıq eləmə, Nəzər, ağır otur, batman gəl».

Dənizdə yüngül ləpə vardı. Elə bil hardansa cənubdan əsən külək gömgöy suların üzünə sığal çəkib, hamarlaya-hamarlaya sahilə doğru gəlirdi, kələ-kötür, ipə-sapa yatmayan, dənizin qoynunda qımıldanıb «mən varam ha!» demək istəyən xırda ləpələri qabağına qataraq, qova-qova gətirərək, sahilə çırpıb parçalayırdı və bununla da sanki demək istəyirdi: «Mənim qabağımda baş qaldıranın başı bax,

belə əziləcəkdir!»

Nəzər həyatda güclünün gücsüzü əzdiyini, məhv elədiyini söyləyən çoxlu hikmətli kəlamlar bilirdi, kitablar oxumuşdu; ona görə, təbiətin onun qarşısında indi dilsiz-ağızsız uzanıb, hər adamın görə və eşidə bilməyəcəyi qəribə bir hikmət dastanı danışan bu mənzərəsini asanlıqla başa düşdü və gülümsündü.

Məhəccərə söykənmişdi. Qağayılar ondan qorxub çəkinmədən yanında uçuşur, suya çırpırdılar özlərini, nəsə götürüb havalanırdılar; danışırdılarmı, oxuyurdularmı — bilmək olmurdu. Kənarda, məhəccərin o başındakı daş oturacaqda bir qızla bir oğlan oturmuşdu. Qəşəng, qara gözlü qızın qara saçlarını, bax, azca o yanda, dənizdə baş qaldırmaq istəyən kiçik ləpələri sahil daşlarına vurub zərrə-zərrə parçalayan külək, mehriban, qayğıkeş bir əl kimi sığallayırdı, oxşayırdı və Nəzər hiss eləyirdi ki, bu, qızın da, oğlanın da çox xoşuna gəlir. Qəribə deyildimi — orda, iki addım o yanda o cür qəddar olan külək, burda, bu gözəl qızın yanında belə mehriban idi? Yəni o da gözəlliyin qədrini bilirdi? O qırçın ləpələr də — insaf gözüylə baxsan — gözəl idi!

— Sən Nəzər deyilsən?

Nəzərin ürəyi titrədi. Bayaqdan, şəhərə çıxandan bu arzu ilə addımlayan, ancaq heç kəsə rast gəlməyən Nəzər üçün bu, ilk anlarda xəyala, ürəyinin səsinə bənzədi və onun üçün o qədər də həyəcanlanmadı. Hissiyyatının onu aldatdığını güman etdisə də, «yox, bu cür ola bilməz!» — deyərək, ağır-ağır qanrıldı, hələ də inanmaq istəmirdi ki, arxasında kimsə dayana bilər və bu sözləri deyə bilər!

Ancaq dayanmışdı. Orta boylu, buxara papaqlı, əlində çəlik, üçkünc vurulmuş bığları ağappaq ağarmış bir kişi, yaşıl şüşəli eynək arxasından ona baxırdı. Nəzər zənlə diqqət yetirdi, ancaq tanrıya bilmədi. Kişi eynəyini çıxartdı, seyrək kirpikli gözlərini geniş açaraq, yenə təkrar həmin səslə xəbər aldı:

— Sən Nəzər deyilsən? Səlminaz arvadın oğlu deyilsən?

— Hə, — dedi. — Nəzərəm. Ancaq bağışlayın, sizi tanıya bilmədim…

Kişi sağ əlini ona uzatdı:

— Salam, ay Nəzər, ay mənim komsomol balam. Xoş gördük, xoş gördük…

— Vay, Əfzəl kişi, mənim əziz naçalnikim! — Nəzər birdən az qala qışqırdı və qollarını geniş açaraq onu qucaqladı. — Bu, sənsən?

Əşi, bu sənsən?

— Hə, Nəzər, mənəm. Gör necə qocalmışam ki, sən məni tanıyammadın. Ay saqqalın ağarsın sənin!

Nəzər geri çəkilib, azca kənardan Əfzəl kişiyə bir də diqqətlə baxa-baxa:

— Elə ağarıb, Əfzəl dayı. Çoxdan ağarıb! — dedi.

— Ta dayı demə mənə, ay pir olmuş. Onda uşaq idin, elə deyirdin, indi, maşallah, ta yekə kişisən, — Əfzəl təpədən-dırnağa onu süzə-süzə dedi, — yəqin indi babasan?

— Əşi, çoxdan.

— Mənim nəticələrim var!..

— Maşallah, maşallah, gün o gün olsun ki, kötücə görəsən!..

— Yox, ay Nəzər, istəmirəm. Bəsdi. Dünyada görmədiyim, bilmədiyim şey qalmayıb ki, onun həvəsiynən yaşayım. Daha təəccüblənməli, heyrət eləməli heç nə qalmayıb mənim üçün, Nəzər! Sən də qocalıbsan, doğrudan. Elə bilirəm dünəndi — sən cavan, qayır-qayır qaynayan bir oğlan idin. Onda gərək, əgər hafizəm məni aldatmırsa, sən onuncuda oxuyurdun, hə?

— Elədi. Qaçaq Ağagülü tutmağa gedəndə onuncudaydım.

— Təzə keçmişdin komsomola. Atryada bələdçilik eləməyi, dağlara qalxmaqda bizə kömək eləməyi sənə tapşırmışdılar.

— Sonralar xəbərim olmadı, neynədiniz o Ağagülü?

— Güllələdik onu…

Nəzər xatirələrində o uzaq illərə boylanıb:

— Özü təslim olmuşdu, gərək güllələməyəydiniz, yoldaş Əliyev, — söylədi.

— Hə, düz deyirsən. Özü samanlıqdan çıxmışdı, silahını atmışdı, təslim olmuşdu, gərək güllələməyəydik. Ancaq o vaxtın qanunları çox sərt idi, Nəzər.

— Gör üstündən neçə illər keçib, amma Ağagülün zəhmli, zil qara gözləri, arıq, saqqallı sifəti, geyimi-keçimi, hətta, inanmırsız, səsi də yadımdan çıxmayıb. Sağ olsa, yüz adamın içində görsəm, yenə tanıyardım. Siz, — Nəzər gözlərini qıyıb xatırladı, — siz, o, samanlıqdan çıxıb silahını atandan sonra milisioner Seyfələ dediz ki, onun qollarını bağlasın. Seyfəl bir sizin, bir də Ağagülün üzünə baxdı, qorxa-qorxa irəli yeridi, qaçağın tuşuna çatanda o, sizə dedi:

— Nəçənnik, bu boyda atryadın içində bir kişi tapmadız mənim

qollarımı bağlatdırasız? — Sonra Seyfəlin üstünə çımxırdı. — Çəkil oğraş! Sən get gündə biriynən mazaqlaşan bacının qollarını bağla. — Seyfəl başını aşağı salıb qorxu içində kənara çəkildi, onda siz mənə dediz: «Nəzər, komsomol balam, sən get bağla onun əllərini!» Mənim macəra axtaran, qorxmaz, dəli-dolu vaxtım idi, sevindim ki, gör mənə yoldaş Əliyev nə boyda iş tapşırır! Mən ona yaxınlaşanda, o zənlə üzümə nəzər saldı və: «Ə, sən Səlminazın oğlu döyülsən?» Dedim: «Hə…!» «O, kişi arvaddı», — dedi və əllərini qoşalaşdırıb irəli uzatdı: «Sən bağlaya bilərsən!» Qandalı biləklərinə vurmaq istəyirdim ki, sizin səsinizi eşitdim:

— Nəzər, bağlama, lazım deyil. Onu elə-belə, əlləri açıq aparacayıq! Mən onun burnunun dibindəydim, gözlərini aydın görürdüm qaçaq Ağagülün. İşıqlandı dərində olan o gözlər elə bil. Tutulmağı, irəlidə onu nə kimi fəlakətlər gözlədiyi yadından çıxdı bu anda elə bil və vəcdlə dedi:

— Sağ ol, nəçənnik! Mən indiyəcən elə fikirləşirdim, qırmızıpapaqlıların içində kişi yoxdu. Varmış sən demə!

— Artıq-əskik çərənləmə, marş! — dediz siz…

— Onda başa düşdün o niyə mənə «sağ ol, nəçənnik!» — dedi?

— Yox!

— O cür atıb-vuran, mənəm-mənəm deyən adamların psixologiyasını yaxşı bilirdim mən. Camaatın, elin-obanın gözü qabağında əli-qolu qandallı getmək belə adamlar üçün ölümdən ağırdı, bax, məhz o anlarda, deyək, dağ kəndindən həbsxanayacan getdiyi yollarda o, bir insan kimi çilik-çilik olub sınır, dağılıb tökülür; bunu onlar heç cür sinirə bilmirlər. Mən qaçaqlar, banditlər görmüşəm ki, ələ keçən kimi, məhz bu rüsvayçılığı görməmək xatirinə özlərini məhv eləyirlər! Bəli, onların qəribə fəlsəfəsi, dünyası olur, Nəzər! Amma gör necə yadında qalıb ey! Mən unutmuşdum.

Nəzər onun qoluna girdi, söyüd ağacı altındakı boş oturacağa sarı apara-apara dedi:

— Siz o qədər elə şeylər görübsüz ki, hansını yadda saxlayasız…

— Sən onda cavan oğlan idin. Cavanın yaddaşı yaxşı olar.

Onlar oturacaqda əyləşdilər. İki saatdan çox söhbət elədilər. Hərəsi öz başına gələn qəzavü-qədəri qısaca danışdı, oğul-uşaqdan, nəvə-nəticədən söz düşdü; Nəzərə məlum oldu ki, Əfzəl Əliyev sonralar, ali hüquqi təhsil alıb, hakim olub. Bir çox rayonlarda məhkəmə sədri işləyib. Müharibə iştirakçısıdı. Taleyi elə gətirib ki, oğruları,

banditləri, əliəyriləri, xuliqanları qanun naminə göndərdiyi yerə — ağzıbirə günlərin birində özünü də göndəriblər. Günahsız imiş, iki il yatandan sonra buraxıblar, üzr istəyiblər, vəzifəsinə qaytarıblar. Təqaüdə çıxanacan respublika prokurorluğunda işləyib…

Nəzər elə o vaxt, Əfzəl Əliyev onların rayonunda işləyəndə, «Qaçaq Ağagül» əməliyyatından sonra, ikisinin arasında qısa müddət davam edən dostluq günlərində, onun arvadını görmüşdü. Bircə dəfə görmüşdü. Gözəl idi, çox gözəl idi. Gözəlliyi kimi, adı da yadında qalmışdı. Leyla idi. Əfzəl danışıb susandan sonra Nəzər Leyla xanımı soruşdu:

— Leyla xanım necədi?..

Əfzəl mənalı-mənalı gülümsündü:

— Leyla yoxdu daha!.. Çoxdan yoxdu.

Nəzər xəbər alıb, kişini kədərləndirdiyinə peşiman oldu.

— Allah rəhmət eləsin!..

Əfzəl gözləri yol çəkə-çəkə:

— Yox, ölməyib, Nəzər, — dedi.

— Bəs dediniz yoxdu daha! Ona görə…

— «Mənim üçün yoxdu daha» demək istəyirdim. Özü sağdı. Qocalıb o da. Hardasa buralarda yaşayır. Tez-tez dəniz qırağında görürəm.

Nəzər artıq söz soruşmaqdan ehtiyat elədiyi üçün susurdu, ancaq, görünür, Əfzəlin ürəyi doluymuş, Leylanı tanıyan və xatırlayan bir adamla danışmaq istəyirmiş.

— Günlərin birində, mənim də kündəmi qoydular oda, gəlib apardılar. Onda Bakıdaydım. Yaxşı evim-eşiyim vardı. Oğlum birinci sinifdəydi. Leyla evdə oturmuşdu. Heç yerdə işləmirdi. Əvvəllər beş-altı ay Bayılda saxladılar. Dost-tanış, eşidən-bilən qohum-əqraba gəldi yanıma. Leyla gəlib çıxmadı. Nə özü gəldi, nə də uşağı gətirdi görüm. Gözüm qaldı yollarda. Mənim bir katibəm vardı — Mariya. Yaxşı, ağıllı qız idi. Bir anasıydı, bir özü. Müharibə vaxtı gələnlərdən idilər. Ürəyimin az qala partladığı, Leyla üçün, oğlum üçün burnumun ucu göynədiyi vaxt, bir də gördüm Mariya gəldi həbsxanaya. İnanmadım gözlərimə. Amma o idi, gəlmişdi. Yemək-içmək, sabun, adyal, döşək üzü, dəsmal, nə başını ağrıdım, hər şey gətirmişdi. Bu, məni yaman mütəəssir elədi, Nəzər. Birdən ürəyinə gələr ki, aramızda bəlkə bir yaxınlıq-filan olduğu üçün gəlirmiş. Yox, heç nə olmamışdı, heç ağlıma da gəlməzdi.

— Əlbəttə, mən inanıram. Leyla kimi gözəl arvadı olanın gözü orda-burda ola bilməzdi.

— O, sadəcə insan kimi, insanlıq naminə gəlmişdi. Sən təsəvvür elə ki, mən o xarabadan çıxana qədər həmişə gəldi yanıma. Bəraət aldım, nəhayət. Haqq gəlib öz yerini tutdu, buraxdılar məni. Bax, o gün gəlib tək-tənha bu dənizin qırağında iki-üç saat oturdum. Çox götür-qoy elədim, evimizə — Leylanın yanına gedim, ya… Mariyanın! Axırda ürəyim mənə hökm elədi ki, Mariyanın qapısına get! Və elə də elədim. O, məni qəbul elədi — mən onunla ailə qurdum.

— Maraqlıdı.

— Bax, odur, özü də gəlir, — Əfzəl başı ilə onlara sarı addımlayan, ucaboylu, qaraşın arvadı göstərdi. — Uşaq kimi dalımca gəzir. İndi görəcəksən, mənə yemək, soyutmazda çay, meyvə gətirib. Həkim mənə dəniz qırağında mümkün qədər çox qalmağı məsləhət görüb, o da məni, demək olar ki, burda yedirir-içirir. Özünü unudub — ancaq mənim üçün yaşayır o!

— Halal olsun!.. Bəs oğlun da sonralar axtarıb tapmadı səni?

— Yox, buna uşağın imkanı olmadı. Öldü balam…

Mariyanın gəlib çıxmağı kişini kövrəlməyə qoymadı. Arvad gələn kimi, Əfzəlin əhval-ruhiyyəsi dəyişdi, elə bil, qəmli keçmişini unutdu. Şən-şən Nəzəri də Mariya Aleksandrovna ilə tanış elədi. Arvad təmiz Azərbaycan dilində:

— Çox şadam, — dedi, — Əfzəlin hər yerdə yaxşı dostları, tanışları var. İndiki zamana elədi ki, kimin çox dostu varsa, o ən dövlətli adamdır. Mən deyərdim, ən xoşbəxt adamdır…

— Elədir, Mariya Aleksandrovna — deyə Nəzər onun qılığına, mühakimələrinə heyranlığını gizləyə bilmədi, əlavə elədi:

— Sizin kimi bir xanımı olan Əfzəl kişinin xoşbəxt olduğuna heç şübhəm yoxdur!

Mariya Aleksandrovna məmnun-məmnun gülümsündü və ərini uşaq kimi yedizdirməyə başladı. Əfzəl arasında buğda bişmiş kotlet qoyulmuş buterbroddan bir dişdəm vurub arvadına dedi:

— Sənin hər xasiyyətin yaxşıdı, arvad! Bircə bunu sənə öyrədə bilmədim ki, belə hallarda adam qonağa da yemək təklif eləyər.

— Qonaq? Qonaq kimdi? Nəzər qardaşı deyirsən? O hələ qonaq deyil, haçan evimizə gələr, onda olar qonaq. Yoxsa bulvarda nə qonaq?

— Hər halda quruca təklif eləmək olar!

— Bilirsən ki, boğazdan yuxarı, xala xətrin qalmasın, söz deməkdən acığım gəlir. Mən yaxşı bilirəm ki, təklif eləsəm də Nəzər qardaş yeyən deyil. Çünki başa düşür ki, mən bunları ancaq sənin üçün gətirmişəm, ancaq bir adamlıqdı. Düz demirəm, Nəzər qardaş?

— Tamamilə düzdü.

— Həyatda rola girmək lazım deyil. Necə varsansa, elə də görünsən, deməli, sən təmiz adamsan. Pərdəyə bürünənlər, dili bir, ürəyi ayrı şey deyən adamlar çox təhlükəli olurlar, qorxaq, yaltaq, ikiüzlü olurlar olurlar. Mən, məsələn, həmişə nə düşünmüşəmsə, o da dilimdə olub; onu da eləmişəm. Sizin bir yaxşı məsələniz var — düzlükdən böyük biclik yoxdur.

— Mariya xanım, bizim bir sözümüz də var — düz adamın papağının ortası yırtıq olar, — Nəzər söylədi.

— Oo… bunu eşitməmişdim. Başa düşmədim, Nəzər qardaş.

— Bilirsiz, Mariya xanım, bu, o deməkdi ki, düz söz deyənin başına hərə bir qapaz çırpar. O qədər çırparlar ki, axırda yazığın papağının ortası yırtılar!.. Çünki düz söz çox adamın xoşuna gəlmir.

Mariya Aleksandrovna güldü, ağ, qayırma olduğu hiss edilən dişləri göründü.

— Mən düz söz tərəfdarı olmuşam həmişə.

— Mənim elə adamlardan xoşum gəlir. Belələri mərd olurlar.

— Elə mənim Əfzəlimin də xoşu gəlir. Xoşu gəlməsəydi, indiyə qədər məni saxlamazdı. Doğru deyirəm, kişi?

— Doğru deyirsən!

Mariya zənbilindən çıxartdığı piyaləyə soyutmazdan çay süzdü, ərinə tərəf uzatdı. Sağ əlilə piyaləni alan Əfzəl, sol dirsəyi ilə Nəzərin böyrünü basdı, azca yana meyllənib yavaşcadan:

— Ora bax, Leyladı, — dedi.

Tuşlarındaydı. Saçları ağarmış, kök, eynəkli bir qadın idi, onlara baxa-baxa keçirdi. O zaman zərif, ucaboy bir gəlin idi. Uzun, şəvə kimi qapqara saçları kürəklərini döyərdi. İri, ala gözləri vardı. İndi çeşmək taxmışdı. Düz, tökmə, mütənasib ayaqları şişib kötüyə dönmüşdü. Geyim-keçimi də elə fərli deyildi. Əfzəl nişan verməsəydi, yüz dəfə də üz-üzə, göz-gözə gəlsəydilər, Nəzər onun Leyla xanım olduğunu qətiyyən ağlına belə gətirməzdi. «İlahi, gör zaman insanları necə şəkildən-şəkilə salıb tanınmaz eləyir?»

— Tanımadı səni?

— Tanıyır. Elə şeymi olar ki, tanımasın?

— Danışmırsız?

— Yox. Sözsüz mahnılar olur ey. Musiqi sözsüz də hər şeyi deyir. Bizimki də elə oldu, Nəzər. Sözə ehtiyac qalmadı. Bircə onu öyrəndim ki, o vaxt qorxusundan yanıma gəlmirmiş…

Kişilərin o keçən kök qadına baxıb nəsə pıçıldaşdıqlarını hiss eləyən Mariya Aleksandrovna ürəyindəkiləri gizləyə bilməyərək ciddi sözünü zarafatla dedi:

— Ay kişilər, o gonbul kötükcəyə baxıb nə bic-bic xısınlaşırsız, hə? Qocalmısız, hay-hayınız gedib, vay-vayınız qalıb, amma yenə gözünüz doymur. Görünür, sizi ölənəcən nəzarət altında saxlamaq lazımdır.

Onun bu sözlərinə kişilər bərkdən güldü. Artıq xeyli aralanmış Leyla xanım səsə qanrılıb geri baxdı və təzədən yoluna davam elədi.

Nəzər gözucu Əfzələ fikir verdi. Kişinin ağ, qansız sifətinə qəribə bir kədər kölgəsi qonduğunu gördü indicə. Elə bil güldüyünə peşiman olmuşdu. O, arvadına sarı çönüb nəsə dedi, ancaq Nəzəri baxışları uzaqda tək-tənha, ağır-ağır addımlayan Leylanın dalınca sürünürdü. «Görəsən indi o nə düşünür, ay allah? Doğrudan da sözsüz mahnıya bənzəyir bunların ömür kitabı».

Mariya Aleksandrovnanın səsi onları fikirdən ayırdı, o, çox mühüm, məsul ürəyini, vicdanını sakitləşdirən, sevindirən bir iş görmüş adam kimi piyaləni, soyutmazı zənbilinə qoyub rahat nəfəs alaraq:

— Bu gün də yeməyini vaxtında yedin, kişi! — söylədi. — Vaxtında yemək isə ömrü uzadır, sağlamlıqdır. Deyirlər, bütün həyatını naz-nemət içində, ciddi rejimlə yaşayan lord Çörçildən soruşurlar ki, siz ömrünüzdə heç əzab-əziyyət çəkmisinizmi, cənab? Cavab verir ki, hə, bir dəfə dəhşətli əziyyət çəkmişəm — müharibə vaxtı almanlar Londonu bombardman eləyəndə yeməyimi on dəqiqə gec yemişəm. Siz təsəvvür edirsiz, cənab yeməyini on dəqiqə gec yeyib — bu, onun üçün dəhşətli əziyyət olub. Mən yazıq isə Əfzəli rejimə öyrədənəcən anadan əmdiyim süd burnumdan gəlib.

Əfzəl Nəzərə göz vurub arvadına sataşdı:

— Tay ağ eləmə, ay Mariya. Sən heç anadan süd əmibsən ki, burnundan da gəlsin? Rəhmətlik danışmırdımı ki, sən doğulanda onun südü çəkilibmiş?

Mariya gülüb, ərklə ərinin çiynini dürtmələdi:

— Gör onu necə yadında saxlayıbsan? Amma yeməyinin vaxtını hər gün unudursan? Mən yadına salmasam, ac qalarsan. Lap uşaq kimisən!

Nəzər özü də yeməyinə-içməyinə fikir vermədiyini xatırlayıb:

— Rejimi bizim üçün deməyiblər, Mariya Aleksandrovna, — dedi, — biz çox vaxt səhər yeməyini günorta, günorta yeməyini axşam yeyirik. Sağlamlığımıza da sən deyən fikir verən deyilik! Yemək üçün yaşamırıq, yaşamaq üçün yeyirik biz! Deyirlər, inqilabdan əvvəl Bakıda Vəlibəyov adlı bir doktor varmış. Yaxşı sənətkar imiş. Yaxşı da insan imiş! Kasıb-kusuba pulsuz baxarmış, hətta dərman almağa pulu-parası olmayanlara cibindən çıxarıb pul da verərmiş! Ona görə müştərisi çox imiş. Başını qaşımağa belə kişinin macalı olmurmuş! Görür ta çatdıra bilmir, bir gün qulluqçusuna deyir ki, qapının zəngi çalınanda gözlükdən bax, gör gələn rusdu, ermənidi, cuhuddu, ya bizimkilərdəndi! Elə ki, gördün bizimkilərdəndi, növbəsiz-filansız burax içəri. Qulluqçu xəbər alır ki, doktor, bə belə niyə? Deyir, mən öz millətimi yaxşı tanıyıram, əgər bu müsəlman oğlu müsəlman tənbəllik eləməyib durub mənim qapıma gəlibsə, deməli, iş-işdən keçib, deməli artıq ölür ki, gəlib! Başqalarının yanından yel keçən kimi, zökəm olanda, azca başı ağrıyanda, ya hərarəti çıqqacan qalxan kimi, qaçır həkimin yanına; amma müsəlman öləndə gəlir ki, doktor, ataman-anam sənə fəda olsun, amanın bir günüdür, ölürəm, məni xilas elə!

— O Vəlibəyov çox düz deyirmiş, Nəzər qardaş! Lap psixoloq imiş o! Bax, bu kişi — yenə ərinin çiyninə vurdu — mənə qulaq assaydı, dediklərimə əməl eləsəydi, nə belə tez qocalardı, nə də bu zəhrimar xəstəliyə tutulardı. Qulaq asmadı, mən dedim, mən eşitdim.

— Deyirsən, yəni onda dünyanı tutub duracaqdım?

Mariya Aleksandrovna hikkə ilə:

— Hə! — dedi.

Elə bu zaman belə boylu, üz-gözündən nur yağan bir qadın və yanında da uca qamətli, sağlam, yanaqlarından dağ havası gələn bir kişi oturacağın qabağında ayaq saxladı. Kişi irəli çıxıb Əfzəlin qənşərində hörmətlə baş əyərək:

— Salam, yoldaş Əliyev! — dedi. — Necəsiz?

Əfzəl altdan yuxarı baxaraq:

— A, Yusif, sənsən? Salam-salam, necəsən, oğlum? — deyərək, onun uzalı əlini sıxdı və bu an böyründəki qadını da görüb: — O,

Nəcibə xanım da burdadı ki? — deyə yerində çevrikdi. — Sən nə təhərsən, qızım?

— Yaxşıyıq, yoldaş Əliyev. Təki, siz yaxşı olun.

— Oğul-uşaq da salamatdımı?

Yusif razılıqla:

— Əlinizi öpürlər, yoldaş Əliyev! — söylədi.

Mariya Aleksandrovna tanımadığı bu adamların əri ilə çox isti-isti danışdığını görüb, hörmət əlaməti olaraq yanında onlara yer göstərdi. Əfzəl başı ilə işarə elədi:

— Oturun da!..

Yusif:

— Sağ olun, gedirik. Sizi gördük, dedik elə bir salam verək, kefinizi soruşaq, — dedi.

— Təşəkkür eləyirəm, balalarım.

Onlar xudahafizləşib aralanan kimi, Mariya Aleksandrovna tələm-tələsik soruşdu:

— Kimdi bunlar? Bəs biznən niyə tanış eləmədin, kişi? Yüz dəfə demişəm, belə eləmə. Bu, mədəniyyətsizlikdi, ən azı!

— Hə, yadımdan çıxdı, Mariya, bağışla.

— Kimlərdisə, yaxın adama oxşayırlar! — Nəzər qeyd elədi.

Əfzəl kişi buxara papağının arxasını qaldırıb boynunun ardını qaşıdı, gedənlərin dalınca baxa-baxa:

— Bu Yusif deyilən oğlana bir zamanlar səkkiz il iş vermişəm! — dedi.

Mariya Aleksandrovna seyrək qaşlarını çatdı:

— Səkkiz il iş vermisən? Ona görə sənin belə mehriban danışır? Yəni günahını başa düşənlərdəndi?

Nəzər də maraqlandı:

— Nə üstündə, Əfzəl kişi?

Əfzəl suallara birdən-birə cavab verməyə tələsmədi. Gözləri yol çəkdi xeyli müddət, sanki nəyisə xatırlamaq istəyirdi. Mühasiblərinin diqqətlə ona baxdıqlarını hiss eləyib, nəhayət, dilləndi:

— Mən otuz beş ildən çox hakim işləmişəm, on yeddi rayonda çalışmışam. Əcaib-qəraib cinayətlər törədən adamlara iş kəsmişəm, vaxt olub ölüm hökmü də oxumuşam. Bilmişəm ki, qatildi — nə dilim topuq çalıb, nə dizlərim əsib. Təkcə bax, o gedən oğlana iş kəsəndə heyrətlənmişəm.

— Neyləmişdi axı, o? — Mariya hövsələsizlik göstərdi.

— Sevirmiş və məhəbbəti yolunda da ağlasığmaz, hər oğulun ürək eləyə bilmədiyi bir iş tutmuşdu. Mən onda bu Yusifdə qəribə bir mərdlik, fədakarlıqla bərabər, bir divanəlik də gördüm. Sən demə, bu Yusif bax, yanındakı həmin qızı — Nəcibəni sevirmiş. Yusif şofer idi, Nəcibə şəfqət bacısı işləyirdi. Oğlan gecə-gündüz onu izləyirmiş, yalvarıb-yaxarırmış, «Sən mənim həyatımsan, mən sənsiz yaşaya bilmirəm» — deyirmiş, ancaq Nəcibə «yox!» deyib dururmuş.

— Yəqin sevmirmiş də! — Mariya ərinin sözünün arasına girdi. — Zorla da ailə qurmaq olar?

— Hə, sevmirmiş qız! Amma sonra sevib, özü də möhkəm sevib!

— Necə? Sevib?

— Hə. İş ölüb-öldürməyə çıxandan sonra sevib! O zaman Yusifin böyük qardaşı bizim milisionerimiz idi. Günlərin birində Yusif qardaşını yuxuya verib tapançasını çırpışdırır, gəlib qızın qabağını kəsir, ağlaya-ağlaya, ürəkdən sevən bir adam sevdiyinə necə yalvararsa, eləcə yalvara-yalvara deyir: «Daşı tök ətəyindən, Nəcibə. Mənə «hə»də. Mən səni gözüm üstə saxlayaram, xoşbəxt eləyərəm. Əgər yox desən, səni də öldürəcəyəm, özümü də. Qoymayacağam sən başqasının olasan, inan, qoymayacağam. Öləcəyəm, səni heç kəsə verməyəcəyəm». Qız yenə «yox» deyir. «Öldür, mən səni sevmirəm», — söyləyir. Bu zaman artıq cünunluq dərəcəsinə gələn oğlan tapança ilə qızı da vurur, onun gözünün qabağında özünü də.

— Dəhşət! — dedi Mariya.

— Ancaq xoşbəxtlikdən heç biri ölməmişdi. Xəstəxanaya vaxtında çatdırmışdılar, iki aydan sonra sağaldılar. Yusifi mühakimə elədik. Onda soruşdum oğlandan:

— Peşimansan əməlindən? Dedi: «Yox. Güllələnmə kəssəniz də xoşbəxt hesab eləyirəm özümü. Əgər ölməsəm, sağ qalsam, qayıdıb yenə onu alacağam».

— Başına hava gəlibmiş yəqin! — Mariya Aleksandrovna kədərlə ah çəkdi.

— Yox. Tam ağıllı idi. Mühakiməsini əsla itirməmişdi. Hakimlər də bunu dəsdiq eləyirdi. Qərəz, səkkiz il verdik, getdi. Məni başqa rayona dəyişdilər, ta sonrasından xəbərim olmadı. Əlli səkkizinci ildə… hə, gərək ki, əlli səkkiz idi, Yusif özü gəlib məni axtardı, tapdı. Tanımadım əvvəl, əhvalatı deyən kimi xatırladım. Kabine-

timdə oturduq, xeyli söhbət elədik. Dedi: «Mən sizə dediyimi elədim, yoldaş nəçənnik! Nəcibə indi mənim ömür-gün yoldaşımdı». Sən demə, Yusif işini çəkib gəlir, görür ki, Nəcibə heç kəsə ərə getməyib. İstəyənləri qapıdan qaytarıb. Anasına deyib ki, «mən Yusifin yolunu gözləyəcəyəm. Gəlsə, onunam, gəlməsə, heç kəsin. Məni onun qədər kimsə istəməyib, istəyə də bilməz. Mənim üçün həyatından keçən adamın yolunu ömrüm boyu gözlərəm».

Sonra evlənniblər. İndi xoşbəxtdirlər. Üçmü-dördmü uşaqları da var!..

Mariya Aleksandrovna nəyəsə həsəd çəkirmiş kimi köksünü ötürdü:

— Qəribə məhəbbətdi! — söylədi.

Nəzər isə:

— İndiki zamanda nadir hadisədi, — deyə fikrini bildirdi, siqaret çıxarıb müştüyünə keçirdi və vaxtilə, uzun-uzun illər bundan qabaq bir işıqlı sinif otağında doluxsunan, sonra, bütün müharibəni onun xəyalında canlanıb nəsə pıçıldayan bir cüt ala gözü — Bikə xanımın ala gözlərini xatırlayıb uşaq kimi bəxtəvər-bəxtəvər gülümsündü.

… Kommunist küçəsiylə üzü yuxarı qalxırdı. Müştüyü damağındaydı. Fikrində Əfzəl idi, Mariya Aleksandrovna idi, Leyla xanım idi, Yusiflə Nəcibə idi. Əfzəli, Leylanı çoxdan tanıyırdı, amma o biriləri bir az bundan qabaq görmüşdü, tanımışdı. Nədənsə ona elə gəlirdi ki, onlarla bir yerdə çox olub, oturub-durub, dərdləşib. Bu adamların hərəsinin bir maraqlı həyat romanı var və kimsə, haçansa mütləq o romanı qələmə alacaq. Qayğılı-qayğılı addımlayırdı, elə bilirdi ki, onlar da — dəniz qırağında gördüyü, söhbət elədiyi o adamlar da yanındadı, bir-birinə qoşulub dəstə ilə harasa gedirlər.

Daş binanın qabağından keçəndə, əli, çiyni çantalı uşaqları gördü, yadına məktəb düşdü, xəyalındakı — «yanındakı» adamları unutdu. Heç özü də bilmədi ki, haçan o uşaq dəstəsinə qoşulub alçaq, daş pillələri qalxaraq içəri girib. O, geniş, işıqlı, cürbəcür stendlərlə bəzənmiş dəhlizə ayaq basanda zəng çalındı. Zəngin səsi təkcə havanı titrətmədi, onun qəlbinin tellərini də titrətdi, darıxıbmış bu səs üçün, sən demə. Elə bil dünya gözlərində dəyişdi, təzələndi. Sevindiyindən bir yerdə dayanıb cəmi bir neçə saniyə cingildəyən o qəribə, şirin səsi dinlədi, dinlədi. Gözlərini açanda uşaqları görmədi — siniflərə doluşmuşdular yəqin. Nəzər dəhlizdə tək dayanmışdı, naməlum bir dünyaya düşmüş adam kimi harada olduğunu ayırd eləməyə çalışırdı ki, balaca-

boy, arıq qapıçı arvad altdan yuxarı ona baxıb:

— Yoldaş, sizə kim lazımdı? — deyə soruşdu. Nəzər onu diqqətlə süzdü, tanıya bilmədi. Və bu, ona hər şeyi anlatdı: ürəyindən əzablı bir gizilti axıb keçdi — «Bu, bizim məktəb deyil. Yox, mənim məktəbim deyil bu!..»

Ağır, asta bir səslə:

— Heç, elə-belə… — deyə Nəzər güclə dilləndi və qıçlarını sürüyə-sürüyə qapıya doğru addımladı. Gözləri yaşarmışdı.

ON BEŞİNCİ FƏSİL

Bakıdan — Güllügildən rayona dönərkən Nəzər avtobusda, saçları dümağ ağarmış bir qarı görüb qeyri-ixtiyari anasını xatırladı.

… Həyatın açılmamış sirlərindən biri də budu ki, insan bəzən öz ölümünü irəlicədən — bir saatmı, bir günmü qabaq — hiss eləyir, işlərini sahmana salır, sözünü deyir, yaxın, əziz adamları ilə vidalaşır və sonra arın-arxayın… dünyadan köçür. Belə ölüm ancaq əməli-saleh, qəlbi düz, xeyirxah və mələk-xislət adamlara nəsib olub deyirlər.

Kim gəlib söyləsəydi: «Mən ölürəm və ya öləcəyəm» — əlbəttə, Səlminaz arvad buna qətiyyən inanmazdı və düşünərdi ki, yazığın başına hava gəlib, ya da zarafat eləyir. Amma dünən axşamdan arvadın ürəyinə dammışdı ki, öləcək. Gecə səhərəcən çimir belə eləməyən Səlminaz bütün həyatını gözünün qabağına gətirib demək olar ki, o illəri təzədən bir gecənin içində yaşamışdı, bu qorxulu və müdhiş fikri özündən ha uzaqlaşdırmağa çalışmırdısa da, bacarmamışdı. Səhərə yaxın o ölüm qorxusu kütəlib yox olmuşdu: «Bir gün yaranan, bir gün də dünyadan getməlidi», — hökmüylə barışan Səlminaz indi ölümə adi bir şey kimi baxırdı.

Bu vaxta qədər xəstəlik nə olduğunu bilməmişdi. Bütün ömrü boyu — bir qarış uşaq vaxtından əvvəlcə öz həyət-bacarlarında, sonra Kərimə ərə gedəndən Canəli bəyin qapısında, daha sonra isə öz eveşiyində, kolxozda can-başla işləmiş, bir kərə də yorğunluqdan, canbaş ağrısından, bədbəxtliyindən şikayət eləməmişdi. Müharibənin ağır illərində evinin həm kişisi, həm də arvadı olmuş, taleyinin ağır zərbələrini uda-uda, ərinin Canəli bəyə qoşulub xaricə qaçmasından yana üstünə hər addımbaşı yağan tənələrə dözə-dözə, qapısının az qala dabanını çıxarıb qabağını kəsən elçiləri qaytara-qaytara madar

balasını — Nəzərini — ata üzü görməyən «bu tifili» böyüdüb oxutmuş, evləndirmiş, oğul-uşaq sahibi eləmişdi. Bir üzü qız, bir üzü gəlin olan (Kərimlə doqquz ay beşcə gün yaşamışdı yazıq) Səlminaz, el-oba içində kişi kimi təmiz adla, insan kimi, qadın kimi könül dolusu sevinc görmədən ömür sürüb saçlarını ağartmışdı.

Xoşbəxtliyindən oğlu da, gəlini Bikə də qədirbilən çıxmışdı. Səlminaz bu evin, ailənin allahı, böyüyü idi onlar üçün. Heç kəs bircə dəfə də olsa, onun xətrinə dəyməmiş, «Burdan dur, orda otur» — deməmişdi. Və bu xanimanda ağbirçəyə olan bu məhəbbəti, ehtiramı görən nəvələr də Səlminaza o cür baxmışdılar, sevmişdilər, qulluğunda dayanmışdılar.

Ürəyində iki istəyi qalmışdı: Kərimdən bir xəbər eşidəydi və bir də nəvələrinin toyunu görəydi, vəssalam. Kərimin öldüsündənqaldısından söz-soraq yox idi, nəvələr də ki, hələ uşaq idilər, orta məktəbdə oxuyurdular. Dünən axşamacan, o müdhiş duyğu axıb qəlbinə dolanacan bu arzularına qovuşmayacağına inanmışdı: «Özü bilən məsləhətdi» — deyib taleyi ilə barışmışdı.

Həmişə hamıdan tez qalxan, toyuq-cücəyə dən-su verən, nəvələrini, oğlunu məktəbə, gəlinini işə yola salan Səlminaz bu gün yatağından qalxmadı: bir əzginlik hiss eləyirdi. Bu Nəzərin də, Bikənin də gözündən yayınmadı. Mehribanlığını, məhəbbətini lap ilk gündən, bu evə gəlin kimi qədəm basandan hiss eləmiş Bikə onu «Ana» — deyə çağırmışdı, indi də arvadın qalxmadığını görüb yastığının yanını oğlundan qabaq kəsdirib:

— Nə olub, ay ana? Səndən çıxmayan iş?

— Heç, ay qızım. Nəsə gecə pis yatmışam — deyə Səlminaz gülümsünməyə çalışıb cavab verdi. — Narahat olma, bir azdan duracağam.

Bikə qapıdan çıxanda Nəzərin anasının otağına təpilmək istədiyini görüb geri qaytardı:

— Qoy yatsın.

Onlar işə gedəndən sonra Səlminaz arvad qalxdı, əl-üzünə su çırpıb yemək süfrəsi arxasına oturdusa da, iştahı olmadığını görüb durdu. Həyət-bacanı silib-süpürdü, vedrələri su ilə doldurub dəhlizin küncünə qoydu, sonra kəllayı otağa keçərək bəzəkli sandığı açdı, palpaltarın altında gizlətdiyi balaca düyünçədə, güllü dəsmalın arasında beş dənə qızıl onluğa baxıb fikrə getdi. Uzun-uzun illər bundan qabaq, Canəli bəyin kasaya doldurub ətəyinə tökdüyü o qızıllardan elə

bu beş qızıl qalmışdı — yaman günlük saxlamışdı Səlminaz. Çox çətinliklərə düşsə də, onlara əl vurmağa ürəyi gəlməmişdi. Qəribə idi ki, o beş qızıl o vaxt olduğu kimi, indi də arvadın gözlərini qamaşdırdı, yadına uzaq illərin arxasında qalmış o günləri saldı, Kərimə vurulduğu çağlar, toyları, Canəli bəyin mehribanlığı, Xanımcahan xanımın ona bir qulluqçu kimi yox, kiçik bacı kimi baxması, hər şey gəlib xəyalında canlandı və onu kövrəltdi. Kirpikləri tökülüb seyrəlmiş qəşəng gözlərinin yaşını əlinin dalı ilə silib sandığı bağladı, yorğan-döşəyi üstünə yığıb dəsmaldakı qızılları ovcunun içində bərk-bərk sıxaraq həyətə çıxdı, dörd tərəfə göz gəzdirdi. Hər şey ona nə isə çox hüznlü göründü: elə bil, o tut ağacı da, sarmaşıqlı hasar da, cırıltı ilə açılıb-örtülən o taxta darvaza da, hin də, yayın istisindən qorunmaq üçün taxta çarpayının altına çəkilib ləhləyən it də ona yazıq və kədərli təsir bağışladı və Səlminaz taqətsiz halda içəri dönərək köhnə xalçanı çıxarıb səkiyə sərdi, öz yorğan-döşəyini gətirib döşədi. Soyunub uzandı və tut ağacının yaşıl yarpaqlarına xeyli sakit-sakit tamaşa elədi. Yüngül meh əsirdi və beşbarmaq yaşıl ələ oxşayan o yarpaqlar asta-asta tərpənirdi. Fikir-xəyal arvadı uzaqlara çəkib aparmışdı — çayın qırağında bir kəhər at fınxırırdı, qabaq ayaqlarını şappıltı ilə suya vururdu, atın böyründə, suyun içində, şalvarının balaqlarını dizəcən çırmalamış Kərim dayanmışdı və gözucu Səlminaza həsrətlə baxırdı… Amma başı üstdə eşitdiyi səs düşüncələrini-xatirələrini yarımçıq qoydu: Bikə idi, bağçada rahat otura bilməmişdi, arvaddan nigaran olduğunu söyləyib evə qaçmışdı:

— Nə təhərsən, ay ana?

— Sənsən? Yaxşı oldu gəldin, ay bala

— Olmuya bir yerin-zadın ağrıyır?

— Yox… heç yanım ağrımır, qızım. Sadəcə… — o susdu, ani fikirdən sonra davam elədi: — Sadəcə… ölürəm, bala. Ajalım çatıb. Dünyadan köç eləmək vaxtımdı ta.

Bikə qulaqlarına inanmaq istəmədi, yanını səkinin qırağına qoyub oturdu, hərarəti olub-olmadığını yoxlamaq istədi və təəccüb içində:

— Nə danışdığındı, ay ana? Ölmək nədi? — söylədi.

— Yox, ay bala. Mənə qulas as. Özüvüzü itirməyin, çaşıb-qalmayın. Kəfənim-zadım hazırdı. Hər şeyi alıb qoymuşam, çarpayının altındakı çamadanımdadı.

— Arvada bax ey, sən allah — Bikə doluxsundu.

— Əgər bir damın altında yaşadığımız bu illərdə xətrinə-zada dəymişəmsə, məni bağışla, qızım.

— Yuxarıda, adamın başının üstdə allah var, sən heç vaxt xətrimə dəyməmisən, güldən ağır bir söz eşitməmişəm sənin dilindən. Mən səni öz doğmaca anam bilmişəm həmişə.

— Allah səndən razı olsun, qızım. Allah atanı-ananı rəhmət eləsin. Mən səndən də, oğlumdan da yerdən-göyəcən razıyam. Ba, sən ağlayırsan? Yox, bu olmadı, bala. Sən belə eləsən, mənim balam, nəvələrim özlərini öldürərlər. Yadında saxla: ölənlə ölmək olmaz, qalanla yaşamaq lazımdı. Sil gözünün yaşını qızım.

Bikə burnunu çəkib yaylığının ucuyla gözlərini sildi.

— Hə, indi Nəzəri, mənim nəvələrimi çağır, görüm onları. Ancaq heç nə demə ha. Qorxallar uşaqlar. Zəng elə, qoy Nəzər uşaqları da götürüb gəlsin. Sonra da usta Ələsgərə xəbər elə, qoy o da gəlsin. — Bikənin donub qaldığını görüncə Səlminaz diliylə qurumuş dodaqlarını isladıb ərklə söylədi: — Di yubanma, qızım. Vaxt azdı…

Bikə bunların həqiqət ola biləcəyinə inanmaq istəmirdi, ona hardasa elə gəlirdi ki, qayınanası zarafat eləyir. Ancaq indiyə qədər ondan bir dənə şit, yersiz hərəkət görməmişdi deyə, bu da ağlına batmırdı. Səlminaz ikinci kərə təkid eləyəndə qalxıb getdi, məktəbə zəng çalıb Şakir müəllimdən xahiş elədi ki, Nəzəri tez evə yollasın. Uşaqları deməyi yadından çıxartdı. Nəzər məktəblə ev arasındakı yolu necə gəlmişdisə, nəfəsi çiyinlərindən çıxırdı, bərk tövşüyürdü.

Bikə xanım ərini darvaza ağzında qarşılayıb əhvalatı başa saldıqda Nəzər nəfəsini dərib:

— Necə yəni ölürəm? Məgər adam nə vaxt istədi, onda da ölə bilər? — deyərək tez Səlminazın başının üstünü kəsdirdi. — Ay ana, qurban olum, sənə nə olub? Niyə bizi qorxuzursan? — Səlminaz arvad gözlərini açıb oğlunun avazımış sifətinə baxaraq ətrafa göz dolandırdı və nəvələrini axtardı. Onları görməyib yenə dili ilə dodaqlarını isladıb gəlinə sarı baxdı və sanki soruşdu: «Bə uşaqlar hanı?»

— Niyaran olma, indicə gələrlər.

— Sən get, Ələsgəri çağır! — deyə bayaqkı iltimasını bir də elədi və Bikə ərinə nəzər salıb heç nə demədən yola düzəldi.

— Sən otur yanımda, oğul. — Nəzər səkinin qırağında əyləşdi. — Əlini ver mənə, can bala. — Nəzər əlini anasına tərəf uzatdı, onun iri, ətli əlini ovcuna alıb əyilərək dodaqlarına yaxınlaşdırdı. Titrək

səslə:

— Ay ana, qurban olum, bizi qorxuzma. Sənə nə olub axı? Bu saat həkim çağırım. Sapsağlam adam idin axı, birdən-birə nə oldu sənə?

— Heç nə lazım deyil, oğul. Ürəyimə damıb. Öləcəyəm. Yox, öləcəyəm uzaqdı, artıq ölürəm. Hiss eləyirəm, ayaqlarım soyuyur yavaş-yavaş. Ancaq sən qorxma, ağlama da. Gəlinə hər şeyi demişəm, halallıq da almışam. Sənə də deyiləsi sözüm var. Qulaq as. Balışımın altında beş dənə qızıl onluq var. Sən bilirsən o qızıllar hardandı, kimindi. Saxlamışdım. Onları götürərsən. Sonra… sonra işdi, birdən dədən qayıtdı, gəldi. Sən onun oğlusan, yaxşı qarşılarsan, hörmət eləyərsən. Amma mənim də sözümü deyərsən ona. Deyərsən ki… Deyərsən ki, bizə çox zülm elədi o! Deyərsən ki, anam dünyadan köçəndə bağışlamadı səni. Bax, beləcə deyərsən ha! Yadından çıxmaz ki?

— Yooxx. — Nəzərin göz yaşları yanaqlarına axırdı və Səlminaz ona deyil, tutun yaşıl yarpaqlarına baxıb danışdığından oğlunun ağladığını görmürdü.

— Yox. Əvvəl soruşarsan, görərsən niyə gedib, necə olub gedib? Əgər hələ dünyaya gəlməmiş səni, cəmi doqquz ayın gəlini olan məni üzürsüz səbəb üzündən qoyub gedibsə, mən dediyim kimi deyərsən: halal eləmirəm. Yox, əgər gördün məcbur olub, zornan aparıblar, onda keçərsən günahından. Elə olsa, deyərsən anam da bağışlayır səni. Dünyadı da, oğul, bilmək olmaz, bir də gördün gəldi. Uf, hava çatmır. Bə bu uşaqlar harda qaldı?

Usta Ələsgər həyətə girəndə Nəzər ayağa qalxdı, qabağına yeridi. Dalıycan gələn Bikəyə işarə elədi ki, tez uşaqları çağırtdırsın. Bikə dabanbasma geri qayıtdı. Nəzərlə Ələsgər səkiyə doğru addımladı. Usta Ələsgərin dümağ başında ağ fəs vardı. Yaşı yetmişi haqlamış Ələsgər yaxşı dərzi idi, bu kəndin adamlarının pal-paltarının çoxunu o tikirdi. Hətta qonşu kəndlərdən də, rayon mərkəzindən də ona sifariş verənlər vardı. Ancaq neçə ildi daha paltar tikən maşınından ayrılmışdı, çünki gözləri daha o gözlər deyildi, nurdan düşmüşdü, sapı iynənin gözündən keçirə bilmirdi. Cavanlıqda molla yanında oxuduğundan Quranı əzbərdən bilirdi, camaatın ölüsünü yerdən götürürdü və neçə ildən bəri mollalıq elədiyinə baxmayaraq, heç kəs ona «Molla Ələsgər» demirdi, elə usta Ələsgər kimi çağrılırdı.

Səlminazın baxışları artıq dumanlanmışdı, bəbəklərinin qa-

bağını tutan tor içində Ələsgəri güclə görüb tanıdı, astaca, zorla eşidilə biləcək bir səslə:

— Gəlmisən, usta? — deyə bildi. Səlminaz usta Ələsgərdən yeddi yaş böyük idi və demək olar ki, o, Səlminazın gözü qabağında böyüyüb qocalmışdı. Elə lap yeniyetməlik çağlarından Ələsgər ona «Səlminaz bacı» demişdi və yaşlanıb qocalsalar da, usta yenə onu belə çağırırdı.

— Gəlmişəm, ay Səlminaz bacı. Bu nə pəstəhadı çıxardıb uşaqların ürəyini qana döndərirsən, hıy? — deyə usta Ələsgər zarafat eləmək istədi, ancaq arvadın əzvayişinə baxıb peşiman oldu, çünki gördü ki, Səlminazın gözləri öləziyib sönmək üzrədi, nəfəsi ağırlaşıb, rəngi avazıyıb.

Araya uzun, gərgin bir sükut çökdü. Nəzər anasının ayaq tərəfində əyləşdi, onun sifətinə baxmağa başladı. Gözlərini yaş tutmuşdu deyə Səlminazın avazımış üzü daha solğun göründü ona. Nəzər ustaya sarı çevrilib nəsə demək istədi, ancaq heç nə demədi. Bu ara Səlminaz göz qapaqlarını ağır-ağır qaldırıb baxışları ilə oğlunu, ustanı axtardı, Ələsgəri görüb yenə astaca:

— Bir yasin başla, usta — dedi. — Vaxtdı…

Usta Ələsgər necə deyərlər, bu dünyadan çox adamlar yola salmışdı, ancaq beləsini görməmişdi. Təəccüb içində çaşıb qaldı bir anlığa, sonra səkinin qırağında oturdu, dinmədi. Lal baxışlarla gah Nəzərə, gah Səlminaza fikir verdi. Sükutu Səlminazın özü pozdu:

— Başla usta….

Çarəsiz qalan usta Nəzərdən baxışları ilə icazə istədi, o da başını tərpətməklə razılıq verdikdə Ələsgərin həmişə gur və təsirli çıxan səsi indi zəif və süst eşidildi: ömründə birinci dəfəydi ki, diri adamın üstündə yasin oxumalı olurdu.

— Bismillahürrəhmanürrəhmm….

Usta oxuyurdu, sözləri aydın və ifadəliydi, Səlminaz gözlərini açıb başı üstdəki yaşıl yarpaqlara baxırdı və yasinin anlamadığı sözlərini dinləyirdi. Yeddi-səkkiz dəqiqə beləcə dinlədi, sonra kirpikləri asta-asta endi. Gözləri yumulmuşdu, qulaqları isə ustanın səsini eşidirdi. Eşitdi, eşitdi, sonra səslər, sözlər qarışdı bir-birinə, xışıltıya çevrildi. Səlminaz daha ayırd eləyə bilmirdi ki, xışıldayan tutun yarpaqlarıdı, ya ustanın sözlərinin pıçıltısıdı. Yasini qurtarıb çərəkəsini cibinə qoyan usta, Səlminaza sarı əyilib gözlərini sığadı, çənəsini çəkdi. Nəzər hönkürdü və:

— Ay ana — deyib inlədi uşaq kimi. Usta ayağa qalxıb:

— Allah irəhmət eləsin — dedi. — Yaxşı insan idi. Yer üzündə bəlkə birinci bəndədi ki, öz yasinini eşidə-eşidə canını tapşırdı. Ancaq təmiz, günahsız adamlar belə rahat və əzab çəkmədən ölə bilər dünyada.

… Şər qarışanda, rayon mərkəzinin enli, yaraşıqlı küçələrində, evlərində, idarələrində işıqların yanan vaxtı, geniş meydançada, iki mərtəbəli univermağın qabağında Bakıdan gələn axırıncı avtobus nərildəyib dayandı; qapıları fısıltı ilə açıldı, əli zənbilli, çamadanlı, box-çalı adamlar düşməyə başladı.

Nəzər müəllim lap arxa oturacaqda əyləşmişdi, adamlar bir-birini itələyə-itələyə çölə can atsalar da, o, tərpənmirdi, yerindəcə oturub tələsənlərə tamaşa eləyir və ürəyində narazılıqla söylənirdi: «Oyundu ey bizim camaatın işi, vallah. Bax, avtobus dayanıb, qapıları da açıqdı. Burda qalmayacaqsız ki, sizi tutub saxlayan yoxdu ki?.. Bəs bu basabas nədi? Hara tələsirsiz? Evinizi allah tiksin, öyrənmədiz, öyrənə bilmədiz qayda-qanuna, növbəyə dayanmağa, növbəylə avto-busa, trolleybusa minməyə, düşməyə. Öyrənmədiz. Bu da mədə-niyyətdi!

Oturacaqlar boşalan kimi, Nəzər ayağının yanına qoyduğu ba-laca, qara çamadanını götürüb arxa qapıdan arın-arxayın düşəndə, Tapdığı qənşərində görüb təəccübləndi.

— Xoş gəlmisiz, Nəzər müəllim!.. — Tapdıq çamadanı onun əlindən ala-ala söylədi.

— A, Tapdıq? Sənsən, a bala? — Nəzər sevincək soruşdu.

— Hə. Necəsən?

— Yaxşıyam, ay oğul. Bə sən burda nə gəzirsən?

Tapdıq gülümsündü:

— Baldızağa zəng eləyib xəbər vermişdi ki, gəlirsiz. Ona görə qabağınıza çıxdım.

— Nə əziyyət çəkirdin, ay oğul?

— Heç bir əziyyəti yoxdu. Onsuz da maşına nömrə almaq üçün gəlməliydim. Güllü də xəbər verəndə dedim daha yaxşı. Həm ticarət, həm ziyarət!

Onlar danışa-danışa meydançanın qırağına gəldilər. «Volqa»nı Tapdıq şam ağacının altında saxlamışdı. Nəzər nömrəsinə baxıb:

— Mübarəkdi. Nə yaxşı qoşa nömrədi, a Tapdıq? — dedi. — Maya qoyub almısan bu nömrəni, ya…?

Tapdıq güldü:

— Yox, əşi… Baxtıma çıxıb!..

— Sağlığına qismət. Çünki eşitmişəm ki, belə qoşa nömrənin xərci var.

— Elədi, ancaq bu, mənim öz baxtıma çıxıb… — deyərək Tapdıq sağ tərəfin qapısını açdı:

— Əyləşin, Nəzər müəllim.

Nəzər əlini açıq qapının üstünə qoyub dayandı:

— Qoy bir özümə gəlim! — dedi. — Avtobus əhədimi kəsib. Bütün bədənim keyiyib. Bir cığara yandırım, bala-bala çəkim, sən də danış görək evdə-eşikdə nə var, nə yox. Uşaqlar nə təhərdi?.. Bizimkilərdən xəbərin-ətərin varmı?

Tapdığın ayaqüstü söhbətindən öyrəndi ki, hər şey necə qoyub gedibsə eləcədi. Güldanə, balaları sağ-salamatdı. Bir gün də Tapdıq çöldən gələndən sonra, arvad-uşağını yığıb nömrəsiz maşınına, gedib Əsgərabada, qayınanasına dəyiblər. Bikə xanımın da kefi durulub, sevincək olub, maşının aynasına bir xələt də bağlayıb. Gecə saat üçəcən oturublar, deyiblər, gülüblər, sonra da çıxıb gediblər öz evlərinə.

— Hə, Qərib bu müddət ərzində kəndə bircə dəfə baş çəkib. Bizə də ayaq basmayıb.

— Ay qırışmal, axı, mən demişdim anasını tək qoymasın!..

— Vaxtı yoxdu. Elə bu gün də burda çox axtardım, istəyirdim bir az xərclik verəm. Dedilər, gediblər «Lenin» kolxozuna konsert verməyə, — deyə Tapdıq, Nəzərin Qəribin əlindən hirslənəcəyini duyan kimi, izahat verdi və doğrudan da onun könlünü bir az almış oldu bu sözlərlə. Amma buna baxmayaraq, Nəzər yenə bir ah çəkib:

— Gedə əməlli-başlı artist olub getdi də, — söylədi, — mən ondan nə gözlüyürdüm, bu nə oldu, qırışmal!

Tapdıq söhbəti dəyişmək üçün soruşdu:

— Bacanaq nə təhərdi?

Nəzər siqaretinə qullab vurub:

— Bacanaqdı da. İşləyir, — dedi. — Belə ki, gedir, bir də görəcəksən nazirdi sənin bacanağın.

Tapdıq yenə qımışdı:

— Olsun da. Kim istəməz ki, bacanağı nazir olsun. Bizim də üstümüzə bir kölgəsi düşər.

— Çıraq öz dibinə işıq salmaz, oğul. Ondan kölgə-filan umma.

O, bir Qəribi orda — gözünün qabağında oxudammadı. Buraxdı başdı-başına, maraqlanmadı, uşaq da üzüqara qız kimi qayıdıb gəldi üstümə. İndi gözdağı olub, hər dəqiqə gözümə batır. Ummuram ey, amma başısoyuqluq elədi sənin bacanağın. Mən olsaydım, ya sən olsaydın, qoymazdın belə olsun!

— Günah Qəribin özündə oldu, Nəzər müəllim! Oxumadı. O yazıq ta gedib onun əvəzinə oxumayacaqdı ki.

Bu vaxt dal şüşəsinin qabağından ağ pərdə asılmış, işıq altında par-par parıldayan bir qara «Volqa» asta-asta yanlarından keçib, rayon partiya komitəsinin binasına sarı getdikdə, Nəzərin gözü maşını aldı və Tapdığa cavab verməyi unudaraq:

— Deyəsən, Süleymanın maşınıydı? — xəbər aldı.

— Hə, o idi.

Nəzər müştüyünü təmizləyib cibinə qoya-qoya:

— Yaxşı oldu, — dedi. — Sən tələsirsən?

— Necə məgər?

— Əgər tələsirsənsə get, oğul. Mən Süleymana dəyim. Ona bir-iki kəlmə söz deyəcəyəm.

Tapdıq kədərli səslə:

— Nə barədə, Nəzər müəllim? — deyə maraqlandı.

— İmran kişi barədə. Deyəcəyəm ki, belə olmaz, yoldaş…

Tapdıq onun İmranla son görüşünü xatırladı, o vaxt Nəzərin Süleymandan bərk narazılıq elədiyini yadına saldı və bir həftə bundan qabaq olmuş qəmli əhvalatı gözünün qabağına gətirib:

— Gedirsən, get, amma İmran kişi barədə heç nə demə ona, — söylədi.

Nəzər kürəkəninin fikrini başa düşmədi:

— Nə dedin?

— Deyirəm İmran kişi haqqında heç nə demə daha.

— Niyə, ə? — Nəzərin pırpız qaşları yenə az qala alnının ortasına qalxdı.

— Ona görə ki… ona görə ki… — o, sözünə ara verib, — daha İmran kişi yoxdu, Nəzər müəllim! — dedi udquna-udquna.

— Nə danışdığındı, a Tapdıq? — Nəzər ucadan soruşdu və səsi özünə də yad, qəribə göründü.

— Hə, Nəzər müəllim. İmran kişi ömrünü bağışladı sənə.

— Haçan, ə? Bə o gün onu sağ-salamat qoyub getmədimmi?

— Hə… Qoyub getdin, amma… Yeddisi dünən idi…

Nəzərin səsi xırp kəsildi. Donuq gözlərini Tapdığın üzünə dikib mat-mat baxdı, baxdı… Sonra elə bil yer ayağının altından qaçdı; ətrafdakı adamlar, ağaclar fırlandı, qabağındakı maşın tərpəndi elə bil. Və Nəzər sanki maşının harasa çıxıb gedəcəyindən, bir daha qayıtmayacağından qorxaraq, açıq qapıdan ikiəlli yapışdı. Sonra burulub, taqəti yox imiş kimi, ağ parusin çəkilmiş oturacağa yanını qoydu; yox, maşın heç yerə getmirdi, dayanmışdı. Kişinin halı xarablaşdı.

Tapdıq tez əl-ayağa düşdü:

— Sənə nə oldu, Nəzər müəllim?

— …

Dəsmalını çıxarıb qayınatasının üzünü yelpiklədi:

— Uşaq deyilsən ki, Nəzər müəllim. Qoca kişiydi rəhmətlik. Təki elə biz də o qədər yaşayaq!

— …

— Belə bilsəydim, heç deməzdim. Ondan yana dedim ki, gedib Süleymanın üstünə düşüb artıq-əskik deməyəsiz.

Handan-hana özünə gəldi, əlləri əsə-əsə siqaret yandırdı. Dalbadal bir neçə qullab vurub toxtadı. Altdan yuxarı, qapının yanında ayaq üstə dayanmış Tapdığa baxa-baxa başını buladı:

— Pah atonnan! — dedi, — nə axmaq dünyadı ə, bu? — Sonra öz-özünə danışırmış kimi, — mən dedim də, çox yaşamaz İmran. Amma bu qədər də tez gedəcəyini ağlıma gətirəmməzdim, — söylədi, təzədən Tapdığa üz tutub soruşdu:

— Nə təhər oldu, a Tapdıq, bu? Bir danışsana!

Tapdıq maşının qabağından fırlanıb sükan arxasına keçərək oturdu:

— Heç nə təhər, — dedi, — o gün işdən gələndə Güldanə dedi, a Tapdıq, ayaq üstə ikən get İmran kişiyə baş çək, xörək bişirmişəm, onu da ver, gəl. Dedim, yaxşı. Getdim, kefini-əhvalını soruşdum. Zarıya-zarıya söylədi ki, heç yaxşı döyüləm, oğul. Dedim, dur bir tikə çörək-xörək ye, özünə gələrsən. Güldanə sənə yemək göndərib. Yox, — dedi, — yeyəsi halım yoxdu. Sağ olsun, boğazımdan heç nə keçmir. Çay qoydum ki, bir stəkan çay içə, bəlkə… O biri otaqdan yanına qayıdanda gördüm xırıldayır, çətinliklə nəfəs alır. Çaşdım, özümü itirdim, dedim: «— Əşi, Süleymanı çağırtdırım!..» Başını buladı ki, «yox, Sünbülü çağır». Deyirəm, ay allah, Sünbül kimdi?! Son-

ra yadıma salmışam ki, axı, arvadının adı Sünbül idi. Onu istəyirmiş!.. İnanırsan, Nəzər müəllim, bunu başa düşəndə tüklərim biz-biz oldu! Gör, doğma oğlundan nə qədər inciyib ki, son nəfəsində də onu çağırtdırmaq istəmir, on il qabaq dünyadan köçmüş, bəlkə indi sümükləri də çürümüş arvadını haylayır!.. Dəhşətə gəldim.

— Rəhmətlik Sünbül yaxşı arvad idi, İmranı da çox istəyirdi. — Nəzər tüstünü açıq qapıdan çölə üfürüb söylədi.

— Yaxşı, İmran kişi, indi zəng eləyərəm, gələr Sünbül xala. — Heç özüm də bilmədim niyə heylə dedim.

Tez telefona sarı qaçdım, dəstəyi qaldırdım, amma hara zəng çalacaqdım? Birdən gözümə kağıza yazılmış iki telefon nömrəsi sataşdı. Bu, Süleymanın işinin və evinin nömrəsi idi. Tez işinə zəng çaldım, heç kəs götürmədi, gecə saat on ikinin yarısıydı, o vaxt işdə adammı olardı? Evinin nömrəsini yığdım. Bir arvad götürdü, «Da» — dedi. Mən də soruşdum: «— Süleyman müəllim doma?» Dedi: «Net! On v Baku!..»

— Hə, arvadı rus qızıdı. Moskvada oxuyanda evlənıblər. Bizim dili bilmir.

— Elə onu bildim ki, dedim: «Otsu ploxo!..» Kişi bərkdən inildədi, dəstəyi atıb qaçdım yanına, gördüm bədəni süstəldi, nəfəsi getdi, qayıtmadı… Gözlərini sığadım, çənəsini çəkdim… Sonra qonum-qonşuya hay basdım, Səfərə zəng elədim… Camaat axışıb gəldi. Səhər saat dördə-beşəcən gözlədik, Süleyman gəlib çıxmadı. Qaldıq çaşbaş. Neyləyək? Basdıraq, necə basdıraq? Yoldaş Əmiraslanov, ikinci katibi deyirəm ey, — dedi, — yox, gözləməliyik. İynə vurdular, buz gətirdilər. Sən demə, Əmiraslanov Bakıya zəng eləyibmiş, kişini plenumdan çağırıblar, başa salıblar. Gecəykən özünü yetirdi. O gələnəcən Səfər elə həyətdə çadır qurdurmuşdu, klubun stol-stulunu gətirtmişdi. Çayçı Bilal adamlara çay paylayırdı. Süleyman yasxanada oturmuşdu. Dinib-danışmırdı.

Tapdığın söhbətinə diqqətlə qulaq asan Nəzər, kim bilir, hansı hissin təsirilə:

— Heç evə girdimi, a Tapdıq? — deyə xəbər aldı. — Doğulduğu, iməklədiyi, böyüdüyü evə baş saldımı?

— Yox!

— Ağlamadı da?

— Yox!

— Əyilib atasının üzündəndən də öpmədi?

— Yox, əşi! O gələnəcən kəfənə tutmuşdular kişini. Nə başını ağrıdım, səhər aparıb dəfn elədik. Sünbül arvadın yanında basdırdıq…

— Bə Süleyman neynədi basdıranda?..

— Heç nə! Neyləyəcəkdi ki? Qəbrin yanında dayanıb baxırdı, lal-dinməz…

— Hə, — Nəzər kök ötürdü, — yadlaşmışdılar. Ayrılıq, atabalanı da yadlaşdırır, oğul. Yaxınlaşan doğmalaşır, uzaq düşən isə… Yox, sür gedək evə, bala. Sonra gəlib başsağlığı verərəm. İndi onunla danışası hal yoxdu məndə. Sür gedək, görək qayınanan neyləyir?

Tapdıq açarı burdu, motor saat kimi səssiz-səmirsiz işləməyə başladı. An sonra maşın, suyu çoxdan quruyub, ancaq quruca adı qalmış Balhar çayın üstündəki taxta məhəccərli körpüdən keçib Əsgərabadın torpaq yoluna düşdü.

Heç biri dinib-danışmırdı. Bəndin üstünə çatıb kəndin işıqlarını görəndə Nəzər, İmran haqqında fikirlərindən ayrılıb, sevinən kimi oldu, burdan nəzərə çarpan öz həyətinin sanki hənirtisini üzündə duydu və:

— Qayınananın işığı yanır! — dedi. Və yenə, Tapdığın gözləmədiyi halda İmranın, Süleymanın məsələsinə qayıtdı: — Yaxşı oldu, sənə rast gəldim. Yoxsa xəbərsiz-ətərsiz gedib Süleymana atasından yana ağır sözlər deyəcəkdim. Biabır olacaqdım.

— Mən ona görə dedim də sənə. Sən də bir hala düşdün ki… lap qorxuzdun məni!..

— Hm… Düzü sarsıldım yaman, oğul. Mən çox ölülər və ölümlər görmüşəm ömrümdə. Ancaq, nədənsə İmranın ölümü hamısından ağır gəlir mənə. O boyda adı-sanı olan oğlun ola, özün də təktənha, başqasının qucağında öləsən — ağır dərddi, Tapdıq. Allah göstərməsin! İmran yaxşı kişiydi, halal adamıydı, gərək o cür urvatsız ölməyəydi. Mənə elə gəlir ki, o kişinin qəbri də od tutub yanacaq. O, rahat yata bilməz qəbir evində də. Oğlu ona zülm elədi, yaman zülm elədi. Heç düşmən düşmənə belə zülm eləməzdi. Ürəyim mənə deyir ki, Süleyman katib yox ey, lap padşah da olsa, yenə xoşbəxt ola bilməyəcək. Mən qoca kişiyəm, bəlkə onun zəlil gününü görməyəcəm. Amma sən görərsən, sən cavansan, Tapdıq.

— …

Hökmlərinin çox sərt olduğunu anladı, susdu. Xeyli sonra, as-

taca, öz-özünə danışırmış kimi:

— Axı, onun ürəyi belə olmamalıydı. Mən Süleymanı belə tərbiyə eləməmişdim, belə oxutmamışdım. Moskvadan mənə məktub yazanda da belə deyildi Süleyman! Bu soyuqqanlılıq hardandı onda? — deyə sual verdi. — Yox, o belə deyil, belə ola bilməz! Mən heç cür inanmaq istəmirəm ki, Süleyman belədi! Hayıf, İmran kişi pis vaxtda dünyadan köçünü sürüb getdi. Özü çəkdiyi bir yana, Süleymanın da belini qırdı. El-oba içində onun hörmətinə-izzətinə ağır zərbə oldu bu! Ya gərək o, bura katib gəlməmiş öləydi, ya da… burdan çıxıb gedəndən sonra öləydi. Süleyman mənim gözümdən düşən kimi, yəqin hamının gözündən düşəcək. Bu barədə Süleymanla danışmağıma dəyməz. Gecdi daha, keçdi daha!..

Nəzər «eh» eləyib susdu. Maşın asta-asta irəliləyir, Tapdıq torpaq yola baxır, heç nə demirdi.

ON ALTINCI FƏSİL

Nəzərin əhvali-ruhiyyəsi o qədər də yaxşı deyildi. İki gün idi Bakıdan qayıtmışdı, neçə vaxt görmədiyi Bikəsini, ev-eşiyini görüb, xeyli toxtamış, rahatlanmışdısa da, bu, uzun çəkməmişdi. Tapdıq ayaqüstü bir stəkan çay içib: «Uşaqlar, Güldanə nigaran qalarlar!» — deyərək, gedəndən sonra, ər-arvad üzbəüz oturub gecə yarıdan keçənəcən söhbət eləmişdilər; Bikə kənddəki əhvalatlardan, Nəzər isə gördüklərindən söz açmışdı.

Gələndən eyni açılmırdı. Bir yandan İmran kişinin ölümü heç cür yadından çıxmırdısa, Süleymanın düşdüyü ağır vəziyyət gözünün qabağından getmirdisə, o biri yandan Qəribin hərəkəti onu rahat buraxmırdı. Qərib onun tapşırığına, anasının xahişinə məhəl qoymayaraq, evdə duruş gətirməmişdi, arvadı dörd divar arasında tək qoyub getmişdi. «Səni yeməyəcəklər ha. Nədən qorxursan? Həmişə biz sənin ətəyinin dibini kəsdirib oturmayacağıq ha! Adamın ürəyi sıxılır burda! Kəsafət basır adamı burda!» «Nə olub, ay oğul, doğulduğun, böyüdüyün ev-eşik döyülmü? Nə olub indi gözünə xox görünür?»

Kəndə gəldiyi və qaldığı o bircə gecədə ana-bala arasında belə bir söhbət olmuşdu, Bikə xanım həmin söhbəti eynən ərinin ovcuna yazmışdı və arvadının dediklərinə qulaq asa-asa Nəzər aşkarca görmüşdü ki, Bikə xanım bu sözləri necə göynəyə-göynəyə söyləyir.

Nəzər övürüb-çevirməmişdi, qəzəbini, ağrısını arvadına bildirməmişdi, ana nigarançılığını artırmaq istəməmişdi. Ancaq içəridə çox götür-qoy eləyib, çox çəkmişdi. Saymazlıq idimi, biganəlik idimi bu? — kişi dəqiq aydınlaşdıra bilmirdi. Yerinə girəndə də, həyət-bacada gəzib-qurdalananda da, elə hey bu barədə düşünmüşdü — tut ağacına baxmışdı, oğlu haqda fikirləşmişdi:

«Nə sirdisə, uyuşmur evə bu qırışmal. Ocağa bağlılıq yoxdu onda. Əsmir ocaq üstə, qədrini-qiymətini bilmir. Günü harda xoş keçsə, oranı özünə vətən sayanlardan olmasınmı? Əgər belə olsa, onda heç nə! Tulla getsin, bir qəpiyə də dəyməz. Bəlkə getdi, şəhəri iki-üç il gəzdi, çox şey gördü, fikri çaşdı gədənin?! Nə orda yaşayıb oxuya bildi, nə buralara sığışır! Axtarır. Nə axtarır, axı? Bəlkə özünü axtarır? Tapa biləcəkmi?..» «Burda kəsafət basır adamı!» «Bəlkə eveşiyimizdən utanır? Bəlkə məni kasıb müəllim baba sayıb özünə yaraşdırmır? Yeyib-içən, gəzən vaxtıdı, cavan oğlandı — bəlkə pulu çatmır, bəlkə pulunu mən də çatdıra bilmirəm? Yüz on manat maaş alır. Anasının da bir əli üstündədi! Daha nə istəyir? Tək adamdı. Bəlkə paltarı? Hə. Deyəsən, məsələ bundadı — paltardadı. Nə alıram, bəyənmir, «mestnidi» deyib kənara atır. «Bunnarı indi kəndçi-küççü də geymir, kişi!..» Gəl, indi bunnan danış görüm, necə danışırsan! Tutasan qulağından, deyəsən, adə, ay qırışmal, sən özün axı neynəmisən ki, belə-belə şeylər tələb eləyirsən? Yox, bu xəstəlikdi, özü də yaman xəstəlikdi. Xərçəng kimi sirayətedicidi bu! Yayılır, getdikcə ildırım sürətilə yayılır. Tək qəribi məngirləməyib, çox-çox cavanların qanına, iliyinə işləyib. Ac qalmağa, susuz qalmağa razıdılar, təki yaxşı geyimləri olsun. «İmportnı» deyilən o zir-zibil üçün bunlar hər şeylərindən, hətta məsləklərindən də keçməyə, əl çəkməyə hazırdılar, aman allah! Rusiyətdə-filanda belə şeylər yoxdu. Heç xaricdə də yoxdu. Baxırsan, uşaq da, böyük də, lap alimlər də, yazıçılar da, hətta vəzifəli adamlar da elə sadə geyinirlər ki, həsəd aparırsan! Ucuz, yaraşıqlı, qəşəng! Amma bizdə… allah göstərməsin… Bir də görürsən, elələri var ki, özünün vücudu beş qəpiyə dəyməz, amma əyni-başında beş min manatlıq pal-paltar var! Dərindən yoxlasan, yüz manat, yüz əlli manat pul alır. Bə, bu hardandı? Oğurlayırlar? Atasının-anasının hesabına alıb? Ha sındır başını, ay tapdın, ha!»

Qəribin dərdini unutmağa çalışanda Şakir Şakirzadə gəlib durmuşdu gözünün qabağında. Sən demə, Nəzərin kənddən çıxıb getməsi Şakirin qarnına yaman girgirə salıbmış. Elə bilirmiş ki, Nəzər Ba-

kıya şikayətə-zada gedib. Rahatlığını itiribmiş, məktəbdə də, evində də qulağı səsdə, gözü telefonda imiş: indicə Bakıdan, nazirlikdən zəng çalacaqmışlar, lap ola bilsin, nazirin özü zəng eləyəcəkmiş, «Bu nə biabırçılıqdı, Şakir? Nəzəri qaytar yerinə, onunla işin olmasın. Heç utanmırsan?!» — deyəcəkmiş!..

Şakir neçə vaxt kürkünə birə daraşmış adam kimi çırpına-çırpına yaşamışdı. Bütün bunları Zakirə xanım dünən danışmışdı ona. Nəzər siqaretini sümürə-sümürə qulaq asıb, qəmli-qəmli gülümsünmüşdü:

— Doğrudan da… O məni heç tanımırmış? — demişdi. — Nabalığ imiş, nadan imiş!

— İki-üç dəfə elə burdan, məktəbdən Bakını sifariş verdi, nazirlikdə kiminləsə danışdı Şakir. Soruşdu ki, Nəzəri oralarda, nazirlikdə görməyibsən ki?.. O da nə isə dedi, ta eşidə bilmədim.

— Xain xoflu olar, qızım!.. Deyirəm axı, səndən qabaq Hüsünü görəndə, məndən niyə soruşurdu ki, nazirlikdə nə var, nə yox, ay Nəzər müəllim? Mən də başa düşmədim, dedim hansı nazirlikdə, ay Hüsü? Gülüb deyir: — öz nazirliyimizdə də. Bəs nazirliyə getməmişdin? Deyirəm yox, orda mənim nə işim var? Gülür… Sən deyirsən, indi başa düşürəm ki, bu sorğu-sual nə üçün imiş!.. Ay dədə, necə cılız adamlar varmış bizim aramızda?!

Sonra Zakirə xanım rayon ictimai-təminat idarəsinə getdiyini, Nəzər müəllimin təqaüd məsələləri ilə məşğul olduğunu nağıl eləmişdi və axırda demişdi:

— Yüz otuz iki manat təqaüd alacaqsız, Nəzər müəllim.

Nəzər müəllim əlini bığına çəkib gülmüşdü:

— Xərcləməsək, bəsimizdi, qızım!

Zakirə sözü dəyişib, məktəbin, uşaqların üstünə gətirmişdi:

— Amma sizsiz məktəbin ləzzəti yoxdu elə bil, müəllim. Bunu müəllimlər də, uşaqlar da hiss eləyirlər.

— Hə, ilk vaxtlar adama elə gəlir, Zakirə xanım. Yadımdadı, o vaxt Əli müəllim məktəbdən gedəndə mənə elə gəlirdi ki, məktəbin yarısı uçub dağılacaq. Amma sonralar gördüm ki, heç nə uçub eləmədi. Həyat öz təbii axarıyla axıb getdi. Adət elədik Əli müəllimsiz məktəbə. Siz də adət eləyəcəksiz, qızım. Dünya belə qurulub, Zakirə!.. İnsan ən əziz adamının belə yoxluğuna adət eləyir — belə olmasaydı, yaşamaq mümkün olmazdı!..

Zakirə xanım kolxoz idarəsinin tuşunda Nəzərdən ayrılıb tar-

laya — pambıq yığan uşaqların yanına gedəndə, Nəzər adını eşidib geri qanrılmışdı. Və laybalay açılmış pəncərədən sədr Qurbanın əl eləyib onu çağırdığını görmüşdü…

İdarə çayın qırağındaydı, dörd yanı ağac idi, yaşıllıq içindəydi. Birmərtəbəli, yeddi-səkkiz gözlü bina əhənglə ağardılmışdı. Həyətin yaraşığı bir də ondaydı ki, uzun, dəmir çubuqlardan düzəldilmiş talvarı ağlı-qaralı salxımları göz oxşayan tənəklər əməlli-başlı örtmüşdü. İdarənin pillələrinə qədər uzanıb gələn asfalt döşəmənin sağındasolunda xüsusi səliqə ilə qızılgül kolları əkilmişdi. Üstünə «Sülh kolxozu» yazılmış daş tağlı darvazadan keçib, pillələrə çatanacan həyətdəki təmizlik, yaşıllıq adamın gözünü-könlünü oxşayırdı…

Nəzər bura çoxdan ayaq basmamışdı. İki-üç il bundan qabaq, hələ Mikayıl sədr olanda çıxan idi burdan. Elə onda, Mikayılın aşığının alçı duran, adı qəzetlərin səhifələrindən düşməyən vaxtı Nəzər müəllim uzaqdan-yaxından Mikayılın hərəkətlərinə, əməllərinə neçə illər göz qoyub, iki-üç dəfə də ağzını arayıb danışdırandan sonra yəqin eləmişdi ki, o, yerində oturmayıb. Bu vəzifəyə, bu stola layiq adam deyil. Mikayılın Nəzərə məlum olan ən böyük qəbahəti — ağzının yava olmasıydı, söyüşcül olmasıydı. Nəzərin fikrincə isə bu, ən böyük mədəniyyətsizlik idi. Onun hərzə-hərzə danışıqlarını eşitməmək üçün üç-dörd dəfə işarə ilə yox, açıqca özünə qandırandan sonra demək olar ki, əlaqəni kəsmişdi, ayağını idarədən çəkmişdi, «salam əleykəssalamla» kifayətlənmişdi. Və həmişə də buna təəccüb eləmişdi ki, axı, Mikayılı hansı ləyaqətinə, keyfiyyətinə görə gətirib rayonun ən böyük kolxozuna sədr qoyublar və niyə qoyublar? Mikayıl əslən buralı deyildi, hansı rayondansa neçə il qabaq gəlmişdi, istehsalat birliyində işləmişdi və günlərin birində, on iki il əvvəl, əsgərabadlılar gözlərini açıb görmüşdülər ki, bu arıq, çopur, gözübaşı qaynayan adam onların sədri təyin olunub. Onu üçüncü katib yanına salıb gətirmişdi, kolxozçulara təqdim eləmişdi və «Rayon partiya komitəsinin fikri belədi» — deyib, əsgərabadlıların və «Sülh» kolxozunun taleyini ona tapşırıb getmişdi.

On iki il qabaq «QAZ-24»də gətirmişdilər, üç ay əvvəl milis maşınında apardılar Mikayılı. Və Nəzər onda bir daha öz «diaqnozunun» səhv olmadığını görüb, ürəyində kədər qarışıq bir sevinc duymuşdu. Ona görə kədər qarışıq ki, o «diaqnozun» təsdiqi üçün çox uzun bir vaxt lazım olmuşdu. Həm də iş-işdən keçəndən sonra. Nəzərin on il, on bir il əvvəl gördüyünü, təyin etdiyini kimlərsə, yəqin ki,

məsul şəxslər indi görüb başa düşmüşdülər. Aman allah, necə də gec idi! Bax, axşamacan çöldə-bayırda, istirahət bilmədən, özləri üçün, ümumi üçün işlədiklərini düşünən, hərdən də Mikayılın qurdları tərpənəndə, başı ağrıyıb çalmağa, sancmağa, zəhərini tökməyə bəhanə axtaranda söyülüb təhqir olunan bu Əsgərabad camaatının və dövlətin nə az, nə çox — düz bir milyon pulu yeyilib, üstündən də su içiləndən sonra başa düşmüşdülər!

Bu, dəhşət deyildimi? Camaatın üstünə elə bil su çilənmişdi, hamı donub mat qalmışdı. Fikirli-fikirli gəzib dolanan, məhkəmə prosesinin nəticələri ilə tanış olub, ayaqları yerə yapışan kənd adamlarına baxarkən, Nəzər, heç kəsin yanında açıq etiraf etməsə də, özlüyündə boynuna alırdı ki, hardasa o günahkardı bir az. Başa düşə-düşə, hiss eləyə-eləyə susmuşdu, lazımi yerlərə, rayon partiya komitəsinə məlumat verməmişdi, deməmişdi. Sonra da özünə bəraət qazandırmışdı ki, axı, onun əlində heç bir faktı, dəlili yox idi, onlar — yanına gedib söz deməli olduğu adamlar ondan fakt istəyəcəkdilər! «Hiss eləyirəm, duyuram!» — bu, söz deyil, bu dəlil deyil və buna heç kəs də inanmaz!

Hər halda o özünü günahkar hesab eləyirdi və talvarın altı ilə, ağır-ağır, hər şeyə fikir verə-verə idarəyə gələndə ürəyini çulğamış bu sıxıntılı hissləri, qapıya çıxıb, pillələrin üstündə dayanaraq mehriban-mehriban qımışan Qurbanın gülər üzü birdə anda unutdurdu Nəzərə.

— Xoş gəlmisiz, ay Nəzər müəllim! — deyərək o, əlini irəli uzatdı, Nəzərlə görüşdü.

— Xoş günün olsun, ay oğul! — dedi Nəzər.

Qurban orta boylu, idmançıya oxşayan, sağlam bədənli, iti, qaynar baxışlı bir adam idi. Yaşı əllini təzəcə haqlamışdı, ancaq sıx, cod saçlarına hələ də dən düşməmişdi. Qurban, kəndin o adamlarından idi ki, Nəzərin gözünün qabağında böyümüşdü. Haçansa ona dərs də demişdi Nəzər. Traktorçu Şəmsəddinin oğluydu və orta məktəbi bitirəndən sonra, atası vəfat elədiyinə görə, oxumağa gedə bilməmişdi, kolxozidarəsində hesabdar Cəlilin köməkçisi işləmişdi, yazı-pozusuna kömək eləmişdi. Sonra Nəzərin məsləhətiylə, Gəncəyə gedib, kənd təsərrüfatı institutunun qiyabi şöbəsinə girərək aqronomluq oxumuşdu. Və elə burada, öz kəndlərində də uzun illər aqronom işləmişdi. Həmişə çöldə-bayırda, gün altında olan Qurbanın sifəti mis rəngindəydi və ona baxan hər kəs qeyri-iradi olaraq, sağlamlığın in-

sanı necə də gözəlləşdirdiyi barədə düşünməli olurdu. Xüsusilə, Nəzər kimi yaşlı adamlar onu görəndə ötən cavanlıq çağlarının dalınca həsrətlə boylanırdılar və yüngülcə köks ötürürdülər.

Qurbanın mehribanlığı Nəzərin ürəyini dağa döndərdi; kişi qayğılarını, dərdlərini yadından çıxartdı. Onlar Qurbanın otağında oturmuşdular. Qurban öz yerində yox, gəlib Nəzərlə üzbəüz əyləşmişdi. Nəzər onunla danışa-danışa fikirləşirdi ki, yenə səhv eləyib. Gərək o, sədr seçiləndə yanına gələydi, təbrik eləyəydi. Bu da katib deyildi ki, «yaxşı düşməz, fikirləşərlər ki, görəsən nə umacağı var, ya kənardan baxanlar nə düşünə bilər?» — deyib getməyəydi… Gün-də ən azı iki dəfə bu idarənin yanından keçmişdi, ayağını bir addım kənara qoysaydı, Qurbanın yanındaydı!

— Belə olmaz, müəllim! — deyirdi Qurban. Elə səmimi və sərbəst danışırdı ki, Nəzər cavab verməkdən çox, dinləmək istəyirdi onu. — Gəlmirsiz, getmirsiz. Məgər bura özgə yerdi? Məgər bizim sizin kimi ağsaqqallarımızın sözünə-məsləhətinə ehtiyacımız yoxdu?

— Düz deyirsən, Qurban. Ancaq…

— Ancaq nə?

— Ancağı odu ki, səndən qabaq burda elə adam (adam deməyə adamın dili gəlmir) oturmuşdu ki, tək mənim yox, çoxlarının ayağı kəsilib bu idarədən. Və hələ də inanmaq istəmir ki, o, daha burda yoxdu.

— Mikayılı deyirsiz? Ay onun boyunu yerə soxum. Bütün kəndi, kolxozu başıaşağı elədi rayonda. Əsgərabadı elə hala salıb ki, düzəlməsi üçün ən azı üç-dörd il lazımdı.

— Əsgərabadı üç-dörd ilə düzəltmək olar, təsərrüfatı-filanı qaldırmaq olar. Axı, o, adamların inamını öldürüb — bu inamı sən üç-dörd ilə qaytara bilərsən, dirildə bilərsən?..

— Hə, inamı öldürüb. Bunu yaxşı dediz, müəllim. Mən hərdən yığıncaqlarımızda, iclaslarımızda işimizin, kəndimizin gələcəyindən ürəklə danışıram və camaatın gözünün içinə baxıram; görürəm, hiss eləyirəm ki, inanmırlar. İnanmırlar mənə, Nəzər müəllim! Bu, məni yaman ağrıdır. Hətta bir dəfə, lap təzə vaxtlarımda Mehran kişi — kəndin ağsaqqalı sözümü kəsib, yerindən dedi ki, avazın yaxşı gəlir, bala, oxuduğun quran olsa Mikayıl da siftə-siftə elə-beləcə, sənin kimi danışırdı. Əmbə hindi məlim oldu ki, oğruymuş, culikmiş!

— Bəli! İnanmıram ki, o kişinin sözünün qabağında söz tapıb

deyə biləsən.

— Elədi. Deyə bilmədim. Gördüm inanmırlar. İnamsız isə nə işləmək olur, nə də yaşamaq olur, müəllim.

— Bilirsən, mənim əqidəm belədi ki, vəzifə başına gərək kristal adamlar qoyulsun. Çünki vəzifə sahibinin dediyini, elədiyini camaat dövlətin sözü kimi, dövlətin əməli kimi başa düşür, qəbul eləyir. Çünki bizim adamlarımız əzəldən belə tərbiyə olunub, bala. Əgər sən vəzifə başında yaxşısansa, təmizsənsə, namuslusansa, bu, bizim dövlətin, siyasətin yaxşılığıdı, təmizləyirdi. Vay o gündən ki, sən oğru olasan, yalançı olasan…

— Yalan! Aman allah, yalan bizi dirigözlü yeyib, heç xəbərimiz olmayıb. Bir var, arvadına, dostuna yalan danışasan, bir də var camaata — sənə inanan, etibar eləyən adamlara və dövlətə yalan danışasan. Mən heç də arvada, dosta yalan deməyi təqdir eləmirəm, Nəzər müəllim, siz məni düzgün başa düşün. Ancaq camaata, dövlətə yalan danışmaq — bax, bu lap dəhşətdi. Gərək qurd ürəyi yemiş olasan ki, belə bir yola düşəsən. Bax, Mikayıl bu cür qurd ürəyi yemiş adam idi, Nəzər müəllim. Əlbəttə, siz təsərrüfatla az bağlı olan adamsız, bu işin mexanizmini siztam təsəvvür eləməyə bilərsiz. Amma mən… mən bu işin içindəyəm və onun bir çox incə mətləblərini yaxşı qanıram. Mikayıl da gözbağlayıcı idi. O, çox asanlıqla yüz kiloqram pambığı yüz ton eləyə bilirdi. Bir sentner buğdanı qırx sentner eləyirdi. Yaxud, tərsinə, beş yüz hektar torpağı iki yüz əlli hektara döndərirdi asanlıqla.

— Özü də hamınızın gözünün qabağında, hə? Hətta sənin də gözünün qabağında, hə?

— Bəli, hətta mənim də gözümün qabağında!

— Və sən də görmürdün, hə?

Qurban güldü:

— Necə görmürdüm, Nəzər müəllim? Görürdüm, lap yaxşı görürdüm.

— Susurdun, hə?

— Yox, Nəzər müəllim. Bu, elə şey idi ki, susa bilməzdim. Mikayıl mənim özümə yalan danışsaydı, bəlkə də susardım. Lakin o, partiyaya, dövlətə yalan danışdığı üçün mənim susmağa haqqım yox idi, Nəzər müəllim!

Nəzər, idarəyə, Qurbanın yanına gəldiyinə çox şad idi, söhbətləri elə maraqlıydı ki, siqaret çəkməyi də yadından çıxartmışdı. Elə

bil, qorxulu və eyni zamanda maraqlı bir nağıla qulaq asırdı. Bunlar o nöqtələr idi ki, vaxtilə Nəzər hiss eləmişdi, duymuşdu, ancaq elə hiss olaraq ürəyində saxlamışdı, sözə, fakta, dəlilə çevrilməmişdi. İndi onları Qurbanın dilindən eşidirdi, Qurban, Nəzərin diqqətlə dinlədiyini görüb, illərlə qəlbində qubar bağlamış dərdini dilinə gətirirmiş kimi, şövqlə, hardasa yana-yana danışırdı:

— Hə, susmağa haqqım yox idi. Əvvəllər özünə çox dedim, az eşitdi. «Belə olmaz, Mikayıl, — deyirdim. — Bu, vicdansızlıqdı, kommunistə yaraşmaz. Biletimizi alarlar əlimizdən…!» O isə cavabında bircə söz bilirdi: «Plan, Qurban plan! Yadında qalsın, plan! Gecə yatanda da plan! Qurban, planı doldurmasaq, bax, onda alallar biletimizi!» Görəndə ki, bu yalan maşınının qabağını ala bilməyəcəyəm, onda yazmağa başladım. Əvvəl rayon partiya komitəsinə, katib Cəfərzadəyə yazdım, üstünü vurmadılar. Sonra Bakıya yazdım — cavab gəlmədi. Belə olanda… neynəsəm yaxşıdı, Nəzər müəllim? — Qurban nəfəsini dərib gülə-gülə soruşdu.

— Neylədin, Qurban?

— Başladım pambığın da, taxılın da, üzümün də, pambıq qurdunun da dəqiq hesabını aparmağa. Bu il neçə hektar taxıl, pambıq əkmişik; hər hektardan dəqiq neçə sentner məhsul götürmüşük. Nə qədər torpaq əkib, nə qədərinin svodkasını vermişik. Qazancımız nədi, çıxarımız nədi — hamısını, hətta benzininəcən, salyarkasınacan yazırdım. İlbəil yazırdım Elə hesab elə ki, mən evdə ayrıca bir mühasibat açmışdım. Hesabdar Cəlil idarədə Mikayılın dediklərini yazırdı, mən isə… öz gördüklərimi artırıb-əskiltmədən… Necə var, eləcə…

— Sən qəribə oğlansanmış, Qurban…

— Mən bilirdim, duyurdum ki, bu yolla Mikayıl uzağa gedə bilməyəcək, günlərin birində başının üstünü kəsdirib deyəcəklər ki, oğlan, bu nə təhər olan şeydi? Göstər o fokusunu gözümüzün qabağında görək, necə olan işdi bu? O gün, nəhayət, gəldi. Böyük bir komissiya işə başladı, bunu siz yaxşı bilirsiz!..

— Hə, tufan kimi gəldilər. Gərək ki, Moskvadan da adam var idi.

— Bəli. Məni də kolxozun aqronomu kimi çağırdılar, dindirdilər. Çox haqlı olaraq soruşdular ki, bəs sən, mütəxəssis, kommunist, bütün bu illər ərzində hara baxmısan, yoldaş?! Bax, onda mən yazdığım həyəcan məktublarını, evdəki buxqalteriyamı gətirib tökdüm onların qənşərinə, dedim, bax, mən bura baxmışam, yoldaş nəzarət! Siz, dedim, bu kolxozun dəqiq haqq-hesabını burda taparsız, Cəlilin kağız-kuğuzunun

içində yox! Hamısı burdadı, dedim. Gözləri çıxdı kəllələrinə. Moskvadan gələn nümayəndə İvan Yefremoviç qalxıb əlimi sıxdı: «Vot eto zdorovo!» — söylədi. Mikayılın, Cəlilin zibilləri, yeyintilər onda pırtlayıb üzə çıxdı, Nəzər müəllim! Süleyman müəllimə də əhvalatı danışdılar onlar. Kişi şəxsən məni yanına çağırdı və çox razı qaldığını bildirdi, sonra da, sədrliyi boynuma qoydu…

Süleymanın adını eşidəndə Nəzər o dəqiqə İmranı xatırladı:

— İmran kişi öldü də, bilməmiş olmazsan.

— Hə… Getmişdim, başsağlığı verdim. Səfər istəyirdi el adətincə ehsan versin, yas saxlasın. Amma Süleyman müəllim qoymadı, «lazım deyil, — dedi. — Bunlar boş şeylərdi, mənə yaraşmaz…» Qurban burda bir az susdu, sınayıcı nəzərlə müsahibinə baxıb əlavə elədi: — Düzü, burda ondan xoşum gəlmədi, Nəzər müəllim. Tək mənim yox ey, bütün kənd camaatının. Xalqımızın adəti var, ənənəsi var. Məncə, bunu ona heç kəs qadağan eləmir, eləməz də. Vəzifə adamı olanda nə olar? Bilmirəm, bəlkə mən səhv düşünürəm, hə?

— Yox, sən düz deyirsən, Qurban. Süleyman burda bir balaca əyib işi. Bir balaca yox ey, lap çox əyib. Sən kim olursan-ol, əvvəlcə insan olmalısan, Qurban. O, bununla öz nüfuzuna ağır zərbə vurdu, məncə. Və bunu çətin düzəltmək mümkün olsun.

— Fikirləşirəm, deyirəm, bəlkə kənddən-kəsəkdən çoxdan çıxdığına görə çox şeyləri unudub, yadırğayıb?

— Yox, — Nəzər İmran kişi ilə görüşünü, söhbətini yada saldı, ancaq Qurbana təfsilat danışmayıb, qısaca çıxardığı nəticəni söylədi, — soyuqqanlı adamdı. Ata-bala bir az da yadlaşmışdılar, Qurban.

— Hm… O da sizin şagirdiniz olub da?

— Hə…

— Şagird dedim, yadıma düşdü… Yadıma düşdü deyəndə, yəni sizi elə bununçun çağırdım… Eşitdim pensiyaya çıxmısız…

— Hə, — Nəzər ah çəkdi və bir siqaret yandırdı… — Hə… Qurban… çıxmışam…

— Eşitdiyimə görə, Şakir bir az nanəciblik eləyib sizin barənizdə…

— …

— Fikir verməyin, Nəzər müəllim. Məncə, o, müəllim olsa da, ziyalı deyil.

— …

— Hiss eləyirəm onun haqqında heç danışmaq da istəmirsiz… Yaxşı, onu qoyaq kənara. Uzun illər işləmiş adam birdən-birə bekar qalanda çox pis olur. Mən bunu başa düşürəm, Nəzər müəllim.

— Çox sağ ol, Qurban. Mən bunu çox yüksək qiymətləndirirəm.

— Odur ki, belə qərara gəlmişəm ki, siz bizə müəyyən işlərdə kömək eləyəsiz, həm sizin başınız qarışsın, həm də bizim işimiz yaxşı olsun.

Nəzər sual dolu baxışlarını Qurbanın gözlərinə zillədi:

— Məsələn, nə kömək, Qurban?

— Ürəyin nə istəyirsə… Mən özüm demirəm ki, qorxuram xətrinizə dəyə bilər!..

— Yox, dəyməz, Qurban, söylə!

— Məsələn, bizim klubun müdiri olasız. Canlandırasınız klubu. Cəlb eləyəsiz adamları, cavanları… Axı insan təkcə işləmək üçün yaranmayıb! O, əylənməlidi də, istirahət etməlidi də!

Nəzər müəllimin üzü güldü. Sevindiyindən ürəyi atlandı. Ona görə yox ki, Qurban ona doğrudan da, bekarçılıqdan canını qoymağa yer tapmayan, darıxan, yerə-göyə sığışmayan Nəzərə, necə deyərlər, muştuluq üçün iş təklif eləyirdi, ona görə ki, Qurban belə — Nəzərin ürəyincə fikirləşirdi. Özü də bilmədən Qurban, Nəzərin yaralı yerinə toxunmuşdu.

— Sağ ol, ürəyimi dağa döndərdin, oğul. Ancaq məni çıx. Mən… Yox… Fikrin yaxşıdı — bacarırsan, bu işə cavanları cəlb elə. Məsələn, elə mənim oğlumu — Qəribi. Gedib rayon mədəniyyət evində işləyir. Çək gətir kəndə, qoy işləsin. Orda gördüyü işi burda görsün. Yığsın cavanları başına, dərnəklər təşkil eləsin, çalsınlar, çağırsınlar, müsamirələr versinlər. Konsertlər, gecələr təşkil eləsinlər. Uşaq bizim gözümüzün qabağında olsun, sizin də işiniz getsin.

— Hə, mümkündü. Mən elə bilirəm Qərib mənim sözümü eşidər…

— Amma bir ayrı məsələ də var, Qurban…

— Nədi o elə?

— Deyirəm cavanlar… hanı, kənddə heç cavan qalıb ki? Üzü ağ olsun Mikayılın. Uçurtdu cavanları bir-bir kənddən. Pərən-pərən oldular. Kimi oxumaq adıynan getdi, kimi işləmək adıynan. O gün saymışam, təkcə keçən il on yeddi cavan gedib. Onlardan beşi instituta girib, qalanı zavodda, fabrikdə, tikintidə ilişib qalıb. Onlardan on

nəfəri BAM-dadı, Tümendədi… Bir də çətin qayıdarlar onlar bura, Qurban… Bəlkə qocalanda, başları daşdan-daşa dəyəndə qayıdalar, onu deyə bilmərəm.

— Elədi. Bu, məni çox düşündürür, Nəzər müəllim. Mən də o irəli atıb-tutmuşam ki, haçandı kəndimizdə toy-nişan yoxdu. Olmur, Nəzər müəllim. Dərindən götür-qoy eləyəndə bu, böyük dərddi, çox böyük dərddi.

— Qızlarımız qalıb qarıyırlar, Qurban. Bəli, qarıyırlar. Neçə qız var ki, ərə getmək vaxtı çoxdan keçib. Gəncliklə vidalaşmaq üzrədirlər. Neyləsinlər bu yazıqlar? Kimə ərə getsinlər? Kimnən ailə qursunlar axı?! On beş-iyirmi il bundan sonranı gətir gözünün qabağına, gör nə görərsən, Qurban? Qocalar ölüb gedəcək, indiki cavanlar qocalacaq, təzə nəsil isə… olmayacaq. Sadəcə olmayacaq. Və sənin bu kəndin əlli il sonra… xarabazara dönə bilər belə olanda! Xəritələrdə ancaq adı qalar, bala!

Qurban ayağa qalxdı, mavi rəngli seyfi açdı, ordan bir qovluq götürüb geri döndü, açıb içindən neçə qat bükülmüş, nəqşəli bir kağız çıxarıb, stolun üstünə sərdi:

— Nəzər müəllim, — dedi, — bura diqqətlə baxın. Bu, Əsgərabadın baş planıdı. Şəhərdən gətirdiyim arxitektor Elçin Əliyev verib bu proyekti. Akademiyada, incəsənət və memarlıq institutunda işləyir. Çox istedadlı bir cavandı. Burda görmədiz ki, onu?

— Yox.

— Hə. Onun proyektidi. Canım sağ olsa, allah da sizə uzun ömür versə, beş ildən sonra bizim bu Əsgərabadı bax belə görəcəksiz, Nəzər müəllim. Bir baxın, siz allah. Görün necə qəşəngdi, küçələrdi bunlar — bu uzanan ağ xətlər, bu, parkımızdı — içindəki bu abidə müharibədə həlak olanlarımızın şərəfinə ucaldılacaq. Bax, o cəlallı bina isə bizim mədəniyyət sarayımız olacaq…

Qurban barmağını nəqşənin üzərində gəzdirdikcə, Nəzərin gözləri, baxışları ora-bura qaçırdı. Kağız üzərindəki Əsgərabad doğrudan da gözəl idi. Ürəyi fərəhdən dağa dönən Nəzər kişi də ayağa qalxdı, Qurbanla üz-üzə dayandı və sevinc içində:

— Çox sağ ol, ay oğul, — dedi, — halal olsun bu torpağın suyu, çörəyi sənə. Çox gözəldi, Qurban. Yarada bilsən, tikib qura bilsən — bu özü elə sənə qəşəng, əbədi bir abidədi… Mən sənin qüdrətinə, ürəyinə inandım indicə. Amma qoysalar… Bilirsən, niyə deyirəm qoysalar?

— Yox!

— Çox təəssüf ki, bizdə bəzən cani-dildən işləyən adamı qoymurlar işləsin. Ya o saat onu başqa bir vəzifəyə irəli çəkirlər, ya da… çıxardırlar. Bilmirəm, sənin yadındadı ya yox, mənim yadımdadı, elə bizim Bakı Sovetinin sədri var idi bir zamanlar, Ləkəranski. Ay kişi, o necə çalışırdı, necə işləyirdi, Bakını necə tikib gözəlləşdirirdi! Sən təsəvvür elə, bu adamın gecəsi-gündüzü yox idi, idarəsində tapa bilməzdin, harda axtarsaydın, tikintidə, fəhlələrin yanında tapardın. O cür ki, ələşib-vuruşurdu, yaradırdı, indiyə Bakı dünyanın ən gözəl şəhərinə dönməliydi, Neapol nəydi onun yanında! Amma çıxardıb ayrı vəzifəyə qoydular, oldu kabinet adamı. Onun yerinə gələn isə… İndi Bakıya getsən, qazıq-qazıq olmayan küçəsini çətin taparsan. Bir idarə sökür — kanalizasiyasını düzəldir, tikir. Üç gün sonra, hələ heç asfaltın istisi soyumamış, o biri idarə gəlib təzədən söküb kabel çəkir, nə bilim nə çəkir!

— Bə niyə belə eləyirlər axı? Bu ki, ziyankarlıqdır açıq-aşkar!

— Hə, ziyankarlıqdı. Mənə elə gəlir ki, o idarələrdə bəzi işbaz adamlar əmələ gəlib — qorxusuz, vicdansız… xalqın, dövlətin pulunu yemək eşqilə yaşayanlar, tamahkarlıqlarından ağızlarının suyu axanlar əmələ gəlib, Qurban. Adam lap hərdən imanını yandırıb fikirləşmək istəyir ki, onlar bir-birilə əlbir olublar, sözləşiblər. Yoxsa başqa nə ad vermək olar buna? — Nəzər müəllim fırlanıb təzədən nəqşənin üstünə qayıtdı — Gözəldi, Qurban, sağ ol.

— Gərək əl-ələ verək, eliyək. Camaatı səfərbər eliyək. Pulumuz var, suda buraxacağam camaata, yer verəcəyəm. Tikəcəyik. Elə bilirəm ki, adamlarımız bu işə həvəslə girişəcəklər. Özüm də qoymayacağam bu camaatın, bu kolxozun bir çöpü, bir qəpiyi itib-batsın, oğru-əyri aparsın. Qoymayacağam.

— Ayıq olsan, qoymazsan.

Bu ara qonşu otaqdan sayğacın şaqqıltısı eşidildi. Nəzər susub dinşədi:

— Nə səsdi o elə, Qurban?

— Hesabdar Mustafadı. İşləyir…

— Mən bilirəm odu, Qurban. Özüm qəsdən soruşdum.

— Hə?

— Məqsədim var, Qurban. Deyirsən, qoymayacağam… Amma mənə elə gəlir ki, oğrunun biri lap gözünün qabağında oturub. Sən isə

onu görmürsən deyəsən?

Qurban duruxdu:

— Nə danışırsız, Nəzər müəllim?

— Bəli. Sən necə olur, fikir verib görmürsən ki, Mustafa əvvəlki Mustafa deyil? Əyin-başı da o deyil. Hətta siqareti də əvvəlki deyil. İndi «Malbora» çəkir sənin Mustafan! Hardandı? Bəs əvvəl niyə belə deyildi?

Qurban fikrə getdi. Nəzər dedi:

— Mən bunu elə-belə, səni ayıq salmaq üçün deyirəm. Mən onun oğurluğunu da, saxtakarlığını da görməmişəm. Sadəcə müşahidələrimdi. Düşündürür məni istər-istəməz…

— Sağ olun, Nəzər müəllim… Bunu yaxşı dediz… Mən ayıq olmalıyam. Yoxsa… bir də görərsən…

Nəzər, Qurbanın əvvəlki sözünün üstünə qayıtdı:

— Əlbəttə, Qurban! Mən çoxdan bu fikrə gəlmişəm və neçə dəfə də iclasda-filanda demişəm ki, işləyəni yaşatmaq lazımdı. Yaşatmasan, həvəsləndirməsən — işləyən olmaz. Zornan qulu da işlətmək olmur, bala. Və dəfən-dəfən bunu da demişəm ki, kəndlərimizə sədr qoyanda camaatın öz içindən seçib qoymaq lazımdı, kənardan gətirmək lazım deyil. O qərib hiss eləyir özünü, köçəri, gedəri hiss eləyir özünü, üç il, beş il işləyir, sonra papağını götürüb gedir. Lap katib qoyanda da yerli adamlardan qoysan, böyük xeyri ola bilər. Gərək kəndin, rayonun böyüyü bu torpağı sevsin, adamlarını tanısın, xasiyyətini bilsin camaatın. Təzə gələn bilmir, öyrənməsinə isə azı bir il vaxt gedir. Elə hesab elə ki, o bir il sənin cibindən düşüb itdi — fərli-başlı bir iş görmək olmur belədə!..

— Düz deyirsiz, Nəzər müəllim. Sevməsən, ürəyin yanmasa, gördüyün işin faydası olmaz.

— Bir də qeyrət lazımdı, oğul, vicdan lazımdı. Sən Nikitinin kolxozunda olmusan?

— Hə, olmuşam, Nəzər müəllim. Elə onu gedib görəndən sonra ayıldım mən də.

— Əşi, o kolxoz deyil, şəhərdi. Ritmik, nizamla yaşayıb işləyən canlı bir orqanizmdi. Keçən il getmişdim, baxmışdım, ağzım açıla qalmışdı. Bir tərəfdən ürəyim dağa dönmüşdü — o kişinin işi, səliqəsi, zabitəsi, ağsaqqallığı, müdrikliyi, adamların gün-güzəranı məni valeh eləmişdi; kommunizm deyirik — o kişi bunu qurub da, yaradıb

da. İnanmayan, kommunizmin nə olduğunu gözlərilə görmək istəyən zəhmət çəkib gedib o kolxozda bir həftə, on gün qalsın. Hər kəs öz işinin, öz taleyinin ağasıdı. Cavanları da heç yerə getmir. Qızları da var, oğlanları da. Evlənirsən — buyur, bu sənin hazır evin-eşiyin. Sən istirahət günləri də işlədirsən camaatı, elə deyil, a Qurban?

— Hə.

— Amma o yox. Sovet hökumətinin qanunu var. İşləyən istirahət eləməsə, nə yaxşı işləyə bilər, nə də yaxşı yaşaya bilər, bala. İstirahət günü — istirahət günüdür. Hər kəs öz işində, evində, qonaqlığında, kefində-damağında. Bu, göydən düşməyib, bala. Bunu o kişi özü yaradıb. Nədən ki, təşkilatçıdı, böyük mədəniyyət sahibidi, adamlarla işləməyi, rəftar eləməyi bacarır.

O biri tərəfdən də ürəyim ağrıdı — niyə o biri kolxozlarımız belə deyil, niyə o biri sədrlərimiz elə deyil?.. Bu da məni yandırır ki, deyək biz ordan bir az uzağıq, görmürük, götürmürük, bəs elə o rayonun başqa, lap böyründə, qulağının dibində olan sədrləri də elə deyil axı?!

Bu zaman stolun üstündəki ağ telefon səsləndi, Nəzər susdu, Qurban dəstəyi götürüb:

— Alo, bəli, eşidirəm!.. — dedi və nə dedilərsə, tələsik əlavə elədi — Baş üstə, hökmən gələrəm! — dəstəyi asandan sonra üzünü Nəzər müəllimə tutaraq:

— Axşam büro var! — dedi, — yəqin yığımın vəziyyəti müzakirə olunacaq!

Nəzər müəllim dillənmədi.

ON YEDDİNCİ FƏSİL

Şam eləmişdilər, indi də çay içirdilər. Hava sərin idi, yüngül meh əsirdi, tut ağacının yaşıl yarpaqları gecə mahnısı oxuyurdu. Başının üstdəki yaşıl budaqdan yarısı saralmış bir yarpaq saplağından üzülərək ləngərli uçuşla düz Nəzərin qabağına düşdü. Nəzər əlini uzadıb yarpağı götürdü, baxdı:

— Şeh var ha… — Xırda, zərif, civə zərrələrinə oxşayan şeh damcılarını Bikə xanıma göstərdi. — Payız gəlir yavaş-yavaş!..

— Hə, — dedi Bikə xanım, — gəlir! Bir azdan yağışlar başlayacaq. Kəllə otaq da damır, bu il də düzəldə bilmədik.

— Darıxma, arvad. Düzəldəcəyəm. Bekar adamam. Düzəldəcəyəm. Bu illik birtəhər keçinərik. Gələn il, ağzı yaza dönəndə həyətdə sənin üçün bir imarət qaldıracağam ki, padşah imarətinə oxşayacaq.

Bikə xanım bic-bic güldü:

— Deyəsən hələ də Qurbanın sözlərinin qanadında göylərdə uçursan, kişi. Uşaq kimisən ey, vallah. Hər deyilən sözə inanırsan.

— Yox, Qurban dediyini eləyəndi, arvad. İki gündü onunla söhbət eləmişəm, doğrudan da, göylərdəyəm. Çox yaxşı, işıqlı fikirlərlə yaşayır. Kaş, bütün adamlarımız Qurban kimi olaydı, Sədnikin qızı. Onda işlərimiz yaxşı gedərdi, çox yaxşı gedərdi…

— Cücəni payızda sayarlar, kişi!

Nəzərin sözü ağzında qaldı — telefon haray-həşir qopardı. O, dəstəyi qaldırdı:

— Eşidirəm.

Danışan bir qız idi:

— Bura Nəzər müəllimin evidi?

— Bəli.

— Sizi raykomdan narahat eləyirəm.

«Raykom» sözünü eşidən kimi, Nəzər qaşlarını qaldırıb, Bikə xanıma baxaraq:

— Buyur, qızım, — söylədi.

— Yoldaş Həmidov deyir ki, sabah saat altıda onun yanında olasız. Gözləyəcək sizi.

— Baş üstə, qızım.

Qız salam vermədiyi kimi, «xudahafiz» ya da «sağ olun» da deməmiş dəstəyi yerinə qoydu. Və bu incə nöqtə — qızın nəzakətsizliyi Nəzərin diqqətindən yayınmadı. Dəstək xeyli əlində qaldı. Ancaq arvadının nigaran-nigaran gözünü onun ağzına dikdiyini görüb dəstəyi asdı və:

— Süleyman çağırtdırır! — dedi.

Bikə xanım dikəldi:

— Hə? Xeyir ola? Gün hayandan çıxıb ki, Süleymanın yadına düşübsən, kişi?

Nəzər fikirli-fikirli başını qaşıdı:

— Nə bilim, arvad… — Bir az susub dedi: — Yəqin pensiyaya çıxdığımı eşidib! Olsun ki, onunçun çağırır.

— Yəni deyirsən, qaytararlar səni öz yerinə?..

— …

— Doğrudan, qaytarsa, gedərsən, Nəzər?

— Yox, Sədnikin qızı!.. Getmərəm… Şakirin yanına qayıtmaram bir də. Qəlbim yaman sınıb ondan. Bilirsən ki, mənim də qəlbim bir adamdan sınmasın. Sonra heç cür barışa bilmirəm…

— Hə, yaman kinlisən… Bunu bilirəm…

Nəzər tərs-tərs arvadını süzdü, ancaq acılamadı. Ayrı söz dedi:

— Nəhayət, yadına düşdüm Süleymanın! — Ani sükutdan sonra asta-asta əlavə elədi: — Görünür, doğrudan qocalmışam, arvad. Qəribə olmuşam. Hardansa beynimə yerləşib ki, Süleyman bura katib gələn kimi, gərək məni axtarıb tapaydı, kefimi-əhvalımı soruşaydı. Niyə? Ona görə ki, mən haçansa onun müəllimi olmuşam? Heç dəxli var? Mənim minlərlə şagirdim olub, biri də o!.. Yalan olmasın, otuz ildi görmür məni. Bəlkə də yadından çıxmışam. Bəlkə də küçədə görüşsək, bir-birimizi tanımarıq da. Bəlkə heç öldüyümü-qaldığımı da bilmir.

— Ta ağ eləmə, qaldığını bilməmiş olsaydı, səni yanına çağırtdırmazdı…

— Hə, yəqin yanında sözüm-söhbətim olub, ona görə yadına düşmüşəm.

— Heylə olar.

… Nəzər düz deyilən vaxtda katibin kabinetinin qapısındaydı. Həyəcanlıydı. Gecəni səhərəcən yatmamışdı. Gözləri qızarmışdı, sir-sifətindən yorğunluq tökülürdü. «… Görəsən məni neyniyir?» fikrindən çox, Süleymanla görüşü həyəcanlandırırdı onu. Öz şagirdi ilə uzun-uzun illərdən sonra görüşü necə olacaqdı? Həm maraqlıydı, həm də düşündürücüydü. Süleyman rayona gələndən bircə dəfə də, heç olmasa uzaqdan da olsa, onu görə bilməmişdi. Rast gəlməmişdilər. O, Nəzərin xatirində arıq, çəlimsiz, sarışın bir oğlan kimi qalmışdı. İmranın yanında utancaq və ürkək baxışlı, ayağı çarıqlı bir oğlan idi o vaxt Nəzərin məktəbinə gələndə. Ali məktəbi qurtaranda deyəsən bir dəfə ötəri görmüşdü. Sonra o, Moskvada oxuyanda bircə kərə də məktub yazmışdı. Onda Nəzər, Süleymanı o böyük şəhərdə, küçədə, dərs otağında təsəvvüründə canlandırmaq istəmişdi, ancaq heç nə alınmamışdı. İndi… Qapısının qabağında, sağ tərəfdəki mizin arxasında oturan qızı görən kimi, axşamkı telefon söhbətini xatırladı:

«Mənimlə danışan qız budu!»

— Salam qızım!

Qız başını yuxarı qaldırdı:

— Salam!..

— Axşam mənə siz zəng eləmişdiz?

Qız ötkəm cavab verdi:

— Axşam mən çox adama zəng eləmişəm.

— Mən Nəzər müəlliməm.

Pırpız saçlı, üz-gözü rənglənmiş qızın sifətində heç bir dəyişiklik əmələ gəlmədi:

— Hə. Mən zəng eləmişdim.

— Katibə deyin ki, Nəzər müəllim gəlib!

Qız kəskin bir hərəkətlə döndü:

— Katib burda yoxdu. Bakıya gedib!..

Nəzər təəccübləndi:

— Necə yəni Bakıya gedib?

— Oçen prosta! Mərkəzi Komitəyə çağırdılar, təcili getdi.

— Bəs məni…

— Sizi ikinci katib qəbul edəcək. Özü tapşırıb ki, siz yoldaş Əmiraslanovun yanına gedəsiz…

Nəzər bu gözlənilməz dönüşdən çaşırdı, nə edəcəyini bilmədi, mat-mat qızın üzünə baxıb durdu. Handan-hana fikrini cəmləyib:

— Təkdi? — deyə müqabil tərəfdəki qapıya işarə ilə qıza məcburən müraciət etdi.

— Hə. Keçin yanına!..

… Əmiraslanov Nəzəri tanıyırdı. Onu mehriban qarşıladı, yer göstərdi. Nəzər oturandan sonra katib, yerini rahatlayıb dedi:

— Pensiyaya çıxırsız, Nəzər müəllim, heç bizim xəbərimiz olmur. Biz dünən bilmişik…

— Yaxşı ki, heç olmasa dünən bilmisiz. Buna da sevinmək lazımdır. Heç bilməyə də bilərdiz. — Cavab verdi Nəzər və sərt dediyini o dəqiqə başa düşdü. Ancaq peşimanlıq hissi duymadı ürəyində.

Əmiraslanov Nəzərin səsindəki əsəbi tonu duyub, yumşaq danışdı:

— Bu Muradzadə özbaşına işlər tutmaqdan əl çəkmir ki, çəkmir. Neçə dəfə demişik, gərək onunla ciddi danışaq.

— …

— Bizə dünən Baba deyib?

— Baba kimdi?

— Baba da! Ordenli Baba. İstehsalat idarəsinin rəisi. Sizin keçmiş şagirdiniz…

— Hə… hə… Yaxşı oğuldu o!

— Süleyman müəllim eşidəndə bərk əsəbiləşdi.

— Eh, əsəbiləşməli bir şey yoxdu burda əslində. Sadəcə pensiyaya çıxmışam, vəssalam…

Kimsə zəng elədi. Nəsə dedi Əmiraslanova. «Yaxşı!» — söylədi, — indi gəlirəm…» Sonra üzünü Nəzər müəllimə tutdu, hiss olunurdu ki, harasa tələsir, odur ki, birbaşa mətləb üstünə gəldi:

— Bilirsiz, sizi bura niyə çağırmışıq, Nəzər müəllim?

— Deyərsiz, bilərəm.

— Bu, Süleyman müəllimin tapşırığı və xahişidi.

— Nədi o elə?

— Bizim Xalq nəzarəti komitəsinin sədri etimadımızı doğrultmadı, Nəzər müəllim. İşləyə bilmədi. Bilirsiz, bu, çox mühüm, məsuliyyətli sahədi. Burda gərək ciddi, prinsipial adam olsun. Arif isə… tamahkar və məsuliyyətsiz adam imiş… Bir sözlə, o getdi bu vəzifədən. İndi rayon partiya komitəsinin, şəxsən yoldaş Həmidovun, elə mənim özümün də fikrimiz belədi ki, əgər etiraz eləmirsinizsə, — güman eləyirik ki, eləməzsiz — bu işi boynunuza götürəsiz və bizə kömək edəsiz… Biz dünən çox götür-qoy elədik, sizdən yaxşı bir namizəd ağlımıza gəlmədi. Necə baxırsız bu məsələyə, Nəzər müəllim?

— …

— Siz təcrübəlisiz, çoxlu müəllimlik stajınız var, rayonda hörmətiniz çoxdu, hamı da sizi yaxşı, ciddi bir adam kimi tanıyır. Elə bilirəm, siz… razı olarsız, elə deyilmi?

Nəzərin qulaqları guruldayırdı. Əmiraslanovun üzünə baxırdı, ürəyində isə… götür-qoyda idi. Gözlənilməz təklif idi.

— Nə fikrə getdiz, ay Nəzər müəllim?

Nəzər yerində qurcalandı:

— Nə deyim… Mənim üçün çətin olmazmı? Qoca kişiyəm…

— Elə bu vəzifəyə bir az «salidni» adam lazımdı, Nəzər müəllim. Sizin kimi adam lazımdı… Süleyman müəllim gedəndə xahiş elədi ki, şəxsən onun adından xahiş eləyim sizdən… Bakıda Respub-

lika Xalq Nəzarəti komitəsi ilə danışacaq şəxsən Süleyman müəllim…

Anlar keçdikcə Nəzərin fikri durulurdu. Və bunun çox böyük etimad olduğunu, ağır, məsuliyyətli bir iş tapşırıldığını başa düşür və qəlbində özünün də hələ tam dərk edə bilmədiyi qəribə bir qürur hissinin baş qaldırdığını duyurdu. «Deməli, hələ hər şey qurtarmayıb! Deməli, mən hələ lazımam. Mən hələ qoca deyiləm…»

— Fikirləşməyə vaxt vermirsiz?

Əmiraslanovun qətiyyətli, bir az da ərkyana səsini eşitdi:

— Yox, Nəzər müəllim!.. Gələn həftədən biz sizi işdə hesab eləyirik!.. — deyib ayağa qalxdı. — Aydındır?

Nəzər də durdu; gözləri də, sifəti də işıqlanmışdı.

İKİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Hava qaralmışdı, dörd bir yanına ağ daşdan hasar çəkilmiş, sırayla, səliqə ilə şam ağacları, çinarlar, akasiyalar, gül kolları əkilmiş yamyaşıl parkın o qədər də enli olmayan yeganə xiyabanının sağ-solunda basdırılmış beton dirəklərin kəlləsindəki çıraqlar işıq saçırdı. Yüngül meh əsirdi, sentyabr günəşinin ağacların kölgəliyində sığınıb qalmış istisini-hərarətini qovub bağdan çıxarır, harasa uzaqlara aparırdı. İns-cins yox idi parkda. Sağ əlini irəli uzadaraq sanki ardı-arası kəsilmədən «El bilir ki, sən mənimsən» söyləyən və elə bil bundan əsla yorulub usanmayan, üz-gözündən, qırımından, duruşundan gələcək nəsillərə, qərinələrə o sadə, məhəbbətdən yoğrulmuş sözləri deyəcəyindən yorulmayacağı oxunan şairin əzəmətli heykəlinin yaxınlığındakı oturacaqda əyləşmiş Nəzər müəllimdən başqa kimsə gözə dəymirdi. Nəzərin çox yaxşı tanıdığı və illər uzunu bu parka dədəsinin bağı kimi baxan, yay-qış, səhərin gözü açılandan şər qarışana qədər, bəzən də çatdıra bilməyəndə lap axşamlar, lampa işığı altında, əlində gah bel, gah qayçı buralarda hərlənən Şirəli kişi də, onun ürəyinin atlanmış bu vaxtında tərs kimi yox idi. O, şairin heykəlinə baxa-baxa nədənsə bir az əvvəl Əmiraslanovla elədiyi söhbəti yox, bu parkı saldıqları vaxtı xatırlayırdı. Bu, uzun illər bundan qabaq olmuşdu, rayona Ənvər adlı (heyf familini unutmuşdu) bir katib gəlmişdi və o Ənvər bu parkı salmaq təşəbbüsünü qaldırmışdı. Rayonun cavanlarını, müəllimlərini, hətta kənd yeniyetmələrini və ziyalılarını bir payız günü yığıb bura tökmüşdü, işlətmişdi. İnsafən özü də əlini belinə vurub ağa kimi kənarda dayanaraq göstəriş verməmişdi, bel götürüb camaatla deyə-gülə, zarafat eləyə-eləyə işləmişdi, ağac əkmişdi, yer şumlamışdı və ən azı bir aya görüləcək işi bir günün içində başa vurdurmuşdu. Nəzər müəllim də onda məktəbin komsomolçularından bir dəstəsi ilə burda çalışmışdı. Onda müharibə təzə qurtarmışdı. Ənvər müəllimin təklifi ilə o parka «Qələbə» adı vermişdilər. Ancaq bu ad rəsmi kağız-kuğuz üstə, qəzet səhifələrində belə qalmışdı; hamı nədənsə onu «Ənvər bağı» adlandırırdı. Ənvər çoxdan çıxıb getmişdi, bəlkə hardasa uzaq bir yerdə, ya Bakıda işləyirdi, bəlkə də, kim bilir, dünyadan köçmüşdü. Çox güman ki, belə idi, çünki elə o zaman Ənvərin əllidən yuxarıydı yaşı. O, indi burda, bəlkə

dünyada da yox idi, amma «Ənvər bağı» yaşayırdı. Nəzərin yaxşı yadındaydı, o vaxt əkdikləri çinarların, şam ağaclarının çoxu indi qolbudaq atıb göylərə baş çəkirdi, ancaq bir çoxu da qocalmışdı, qurumuşdu, parkın qocaman bağbanı Şirəli kişinin iti mişarı, tiyəsi par-par parıldayan baltası onları kəsib yerə yıxmışdı. Qəribədi, ağaclar da adamlar kimi yaşayır, qocalır, ölürlər, fərq yalnız bundadı ki, onlar ölən kimi yaddan çıxır, ancaq insan unudulmur. Yaşayır, yaşayır və ölməzliyə qovuşur. Bax, o Ənvər kimi, bax, bu şair kimi. Nəzər müştüyünə siqaret keçirə-keçirə fikirləşirdi ki, gör o vaxtdan — Ənvər gedəndən sonra bu uzun müddətdə rayona neçə katib gəlib, saymaq istədi, hesabı itirdi; hə, ən azı on katib gəlib-gedib. Hərəsi, həmişə qalan bir iş görsəydi, nə yaxşı olardı?! Onda yəqin bu rayon cənnətə dönərdi, torpağımızın ən gözəl guşələrindən birinə çevrilərdi! Əlbəttə, çevrilərdi və baş ucalığı olardı, onların da, o adamların da adını yaşadardı!.. İlahi bu adi hikməti görəsən adamların bir çoxu niyə başa düşmür. Niyə başa düşmür, ilahi?! Hansına gedib anladasan, hansının qulağına pıçıldayasan, hansına hikmət dərsi keçəsən bu zavallıların?

Sualı cavabsız idi, əlbəttə. Fikirli-fikirli siqaretini yandırdı, sümürdü. Bədəninin hərarəti soyumuşdu; özündə qəribə, haçandı hiss eləmədiyi bir yüngüllük duyub sinə dolusu rahat nəfəs aldı. Bu, havadandımı, mehdəndimi? Əvvəlcə ayırd eləyə bilmədi. Birdən hər şeyi başa düşdü — bu, bir saat, saat yarım qabaqkı söhbətin — katiblə söhbətin yaratdığı xoş ovqat imiş, sən demə. Və buna təəccüb elədi ki, necə olub o, bu boyda məsələni unudub, Ənvər, Şirəli kişi, ağaclar, şair haqqında düşünüb? Bəlkə bu ona görə belə olmuşdu ki, gözləmirdi, yatsaydı, heç yuxusuna da girməzdi ki, Şakir Şakirzadənin rəhmsizcəsinə, ürəyini, çəkəcəyi əzabları bir insan kimi duymadan, çox asanlıqla adının üstündən qələm çəkdiyi, «min ilin ölüsünə qatdığı» bir vaxtda onu, Nəzər müəllimi yad edəcəklər, təzədən həyata (bəli, məhz həyata) qaytaracaqlar? Bu yuxuydumu, xəyalıydımı, ya həqiqət idi?.. Key kimi olmuşdu. İnanmaq istəməmişdi. Ancaq indi bədəni soyuyub ürəyi rahatlanandan, beyni neçə vaxtdan bəri getdikcə qalınlaşıb tutqunlaşan dumanlar içindən sıyrılıb çıxandan sonra bunun yuxu, xəyal yox, həqiqət olduğuna əmin olmuşdu. Və bu həqiqəti dərk edən andan yenə qəlbi həyəcanla çırpınmağa başladı. Sinəsi genişləndi elə bil, parkın təmiz havası sehrli bir yüngüllüklə ciyərlərinə doldu. Sanki o, indi çəkisizlik şəraitində, bu böyük, yaşıl və sakit parkın içində havada üzürdü. Heç bir sıxıntısı yox idi qəlbin-

də, saçları da sanki ağarmamışdı, qıçını da çəkdiyi bilinmirdi, dizinin altında illərlə yatıb qalmış qəlpə qırığı da yox idi elə bil, əriyib qana, iliyə qarışmışdı. Yox, bu boyda zarafat olmazdı, bu söhbət olan o binada belə zarafatlar ola bilməz, ola bilməz! Çünki ağlı kəsəndən, gözünü açandan bəri o binada deyilən sözlərin həqiqət olduğuna, həqiqət olacağına qəlbən, sidqi-dildən inanmağa adət eləmişdi. Ordan çıxan, qanun libası geyən və idarələrə, kəndlərə, ayrı-ayrı evlərə, adamların beyninə, ürəyinə yol alan o qəbil sözlərin bəzən düz çıxmadığını belə görəndə də, hiss eləyəndə də Nəzər o binaya inamını itirməmişdi, günahı o binada yox, o sözü deyəndə görmüşdü, heyifsilənmişdi. Fikri bu məqama, bu nöqtəyə çatanda qeyri-ixtiyari dönüb yaşıl xiyabanın o başında, parkın çox vaxt açıq olan dəmir darvazasının üstündə — neçə addım aralıda, ikimərtəbəli binanın ikinci mərtəbəsində yanan o gur işıqlara baxdı və özünün bir az qabaq o kabinetdə, o çilçıraq altında oturduğu dəqəqələri saniyələrinəcən xəyalında canlandırdı, düşündü ki, yəqin yoldaş Əmiraslanov indi də Nəzər kimi qəlbi sındırılmış, əqidəsinə, məsləkinə rəhmsizcəsinə zərbə vurulmuş kimisə qarşısında əyləşdirib, yarızarafat, yarıciddi könlünü alır, kiminsə, hansı nadanınsa buraxdığı səhvi düzəldir, ürəyinə işıq səpir, məsləkinə dayaq olur… Görəsən kim idi o adam, hansı qəlbiqırıq idi? Bir anlığa Nəzərin ürəyində ayağa qalxıb, gedib o adamın — xəyalında uydurduğu o adamın gözlərinə baxmaq arzusu oyandı, qayibanə hissin təsirilə durmaq istəyəndə birdən yadına düşdü ki, Əmiraslanov harasa tələsirdi, kimsə onu gözləyirdi, yəqin indi getmiş olar! Əgər gedibsə, gərək işığı söndürəydi Əmiraslanov. Boş-boşuna niyə yansın axı o işıq? Bu sual qəlbindən qopdu Nəzərin, ancaq elə o an da o sualın qayibanə gələn cavabını eşitdi: «Yox, qoy yansın o işıq. Harda sönsə də, orda sönməməlidi. Yolunu azan, ümidini itirən, oğurluğa, əyriliyə, cinayətə əl atmağa məcbur olmamış, o işığa gələ bilər, o işıqdan nicat, kömək istəyə bilər. Yox, harda qənaət eləyirsiz eləyin, burda o qənaəti eləməyin, siz allah. Qoyun işıq yansın!..»

Nəzər ürəyindən gələn bu səssiz-səmirsiz sözləri eşidib gözlərini yana döndərdi, şairin heykəlinin ayağı altındakı güllərə baxdı, sonra baxışlarını qaldırıb onun heykəltəraş tərəfindən çox məharətlə yonulmuş işıq, məhəbbət, hardasa da bir az nigaranlıq və intizar oxunan gözlərinə tamaşa elədi. Nəzər şəxsən gördüyü o şairin sənət aləmində bir möcüzə olduğuna çoxdan, lap öz sağlığında inanmışdı, ömründə ilk dəfə olaraq onda — o unudulmaz görüş axşamında sənə-

tin, sözün, şerin doğrudan da izahedilməz bir sehr olduğunu anlamışdı və birinci dəfəydi ki, ürəyində soruşmuşdu: «Bu qarayanız, ucaboy, dalğalı saçları Qoşqar qarı, Savalan qarı kimi ağarmış, gər səsli, dalğın, o xınayı tribunaya qartal kimi sinə gərib sakitcə haysız-küysüz danışan o kişini mən, bax, bu salon dolu gəncliyimiz niyə belə sevirik, hə? Niyə sevirik?» O vaxt, vaxtsız doğulan, vədəsiz verilən bir çox suallar kimi, Nəzərin bu sualı da cavabsız qalmışdı. İllər keçmişdi, o şair dünyadan köçmüşdü, neçə vaxtdan sonra heykələ dönüb bura gəlmişdi, ancaq Nəzər o sualın cavabını indicə tapmışdı: Sən demə, o kişinin böyüklüyü, sehri, əfsunu, bax indi də o daşa dönmüş dodaqlarından axıb süzülən «El bilir ki, sən mənimsən!» sözlərində imiş, ilahi! Bu, əslində, adi sözlər idi, hər kəs deyə bilərdi. Ancaq o, bu sadə sözləri elə ürəklə, elə qeyrətlə demişdi ki, hamının ürəyini ifadə eləmişdi, hamının sözünü söyləmişdi və bu sözləri dostuna, yoldaşına, dörd divar arasında deməmişdi, kağıza demişdi və deməli, bütün dünyaya demişdi. Və indicə kəşf elədiyi bu həqiqəti dərk eləyəndən sonra Nəzər uşaq kimi gülümsünə-gülümsünə, yenə ürəyində öz-özünə söyləmişdi: «Sən belə deyəndən sonra bu torpağa kim göz dikə bilər, ay el oğlu, ay vüqarına qurban olum! Heç kəs göz dikə bilməz. Çünki bu sözləri sən, hamımızın dilindən, bütün xalqımızın dilindən demisən, dilinə qurban olum!»

Sonra Nəzərin fikri o heykəli yaradanın üstünə gəldi; unutmuşdu kimdi o, adını da özülə yazmamışdılar. Buna təəssüf edə-edə ürəyindən keçirtdi ki, hər kimdisə, o da elə bu şair kimi böyük oğludu bu torpağın; ona görə böyük sənətkardı ki, şair gözlərini o bir parça daşda görən eləmişdi, danışan eləmişdi. İlahi, bu möcüzə deyilmi ki, daş baxır, daş görür, daş sevir, daş həsrət və nigarançılıq mahnısı oxuyur? «Vallah, möcüzədi, billah, möcüzədi!»

Torpaq hər yerdə torpaqdı. Amma torpaq ona görə müqəddəs olur ki, orada, onun qoynunda belə böyük və qeyrətli oğullarımız dəfn olunub. Ona görə müqəddəsdi ki, onların gül vücudları çürüyüb (yox, çürüyüb pis sözdü, onlara yaraşmır, vallah, yaraşmır, billah, yaraşmır), yox əriyib təzədən torpaq olub, gül olub, ağac olub, yenidən bizim yanımıza qayıdıb, gözümüzü, könlümüzü oxşayır! Bu da möcüzədi, vallah, möcüzədi, möcüzə!

O şairlə, torpaq sözüylə bağlı iki xatirə qalıb yadında Nəzərin. İkisini də öz qulaqları ilə eşidib, heç vaxt unuda bilmirdi. Bilirdi ki, şair xəstədi, sağalmayacaq. Dəhşətli xəbəri eşitmək qorxusu ilə yaşayırdı. Ad günündən (bu özü bir müsibət idi — bütün xalqın, qonaq-

ların yığışdığı böyük məclisdə o özü yox idi, danışanları, ünvanına xoş söz deyənləri evində, radio ilə eşidirdi — hamı yas içindəydi, camaatın bir gözü ağlayırdı, bir gözü gülürdü. Bu, bəysiz toya bənzəyirdi və belə müsibət, bəlkə də heç kəsin başına gəlməmişdi) az sonra, Nəzər, hamı kimi qorxu içində gözlədiyi o məşum xəbəri eşitdi. Necə sarsıldığını özü də ağıllı-başlı deyə bilməzdi, çünki elə müsibətlər var ki, insan dilinə tərcümə oluna bilmir. Təkcə o yadındaydı ki, o vaxt «Qırmızı məktəb»in direktoru olan Əli müəllimin yanına gəlmişdi. Onu da pərişan görüb əhvalatı bildiyini yəqin edərək, məlul-məlul üzünə baxıb:

— Mən getməliyəm Bakıya, Əli müəllim! — demişdi, — elə hesab elə ki, atam ölüb, onun dəfnində hökmən iştirak etməliyəm. Eləməsəm, bunu özümə bağışlaya bilmərəm.

— Hə, hə, get, Nəzər, — demişdi Əli müəllim və göz yaşlarını gizləmək üçün bağçaya açılan pəncərənin qabağına gəlmişdi.

Dəfn adi dəfn deyildi. Qoca da, uşaq da, cavan da filarmoniyanın geniş zalından gözü yaşlı keçirdi, gözünün ucuyla onun ağ saçlarına, yumulu gözlərinə, sağlığında, tərpənəndə dürr tökülən, ancaq indi əbədilik susmuş o qansız dodaqlarına baxmaq və ömürlük yadında saxlamaq istəyirdi. Fəxri qarovulda duranlar içində uca boylu, enli kürəkli, bığlı, ağ saçlı bir kişi də var idi ki, hönkür-hönkür ağlayırdı, heç cür özünü saxlaya bilmirdi. O, şairin qələm yoldaşı idi. Eyzən tabutda yatana oxşayan kişi — şairin qardaşı ayaq üstə ölmüşdü. Düzdü, o çox sonra, adi bir təsadüf ucundan dünyadan köçmüşdü, özü də qardaşı haqqında yaxşı bir yadigar — kitab qoyub köçmüşdü, ancaq, hər dəfə o dəhşətli mənzərəni gözünün qabağında canlandıranda Nəzər fikirləşmişdi ki, yox, o qardaş — şairin böyük qardaşı elə o günlər ölüb getmişdi, sonra ölən kölgəsiydi, quru canıydı.

Nəzər Bakıda tələbə olan vaxt eşitmişdi ki, indiyə qədər camaat təkcə Cəfəri, qarlı bir qış günü, maşına-filana qoymadan, teatrın binasından düz dağlı məhəlləsinə qədər — təzə qəbiristanlığa qədər çiynində aparmışdı. Şairi dəfn etdikləri may günündə isə kimdənsə eşitdi ki, Üzeyir bəyi də belə aparıblar son mənzilə. Və həmin şəxs bunu da demişdi ki, o böyük bəstəkarın tabutunun altına girənlərdən biri də elə indi — o anlarda çiyinlərdə qəbr evinə aparılan şairin özü olmuşdu. Və məzarının üstündə haçansa, bax, elə bu günlərdə və sonralar da özünə də aid ola biləcək bir yanıqlı ağı demişdi, hamını ağlatmışdı.

Matəm marşı altında, fəxri xiyabana doğru ağlaya-ağlaya, söh-

bət edə-edə gedən izdihamın içində — qarşısında addımlayan iki şlyapalı kişinin dilindən eşitdiyi sözlər, hər dəfə bu barədə düşünəndə indi olmuş kimi Nəzərin yadına düşürdü və təpəsindən tüstü çıxırdı. Eynəkli, əlində qara təsbeh çevirən, azca donqar belli kişi demişdi:

— Bəxtəvər, yaman şan-şöhrətlə götürüldü!..

Yanında addımlayan, balacaboy, qıyıqgöz adam cavabında:

— Eh, nəyinə bəxtəvər deyirsən! Öləndən sonra nə bəxtəvərlik, nə şan-şöhrət, ay qardaş! — söyləmişdi.

— Yox, sən nə danışırsan? Bax, o qıraqda gedənə fikir ver.

— O?

— Hə! O! İnandırıram səni, o, indi arzu eləyir ki, kaş o tabutun içində şairin əvəzinə mən olaydım!

— Əşi, elə şey olmaz! Sən nə danışırsan?

— Oğlumun ölmüşünə!

— Daha mənim sözüm yoxdu!.. Belə adamlar bu torpaq üstə niyə gəzir axı!

Bu söhbət hər dəfə yadına düşəndə əti çimçəşirdi Nəzərin və fikirləşirdi ki, nə yaxşı belə adamlar tək-tükdü aramızda!

İkinci sözü şairin ölümündən sonra eşitmişdi. Rayonda. Onda rayona bir yazıçı gəlmişdi. Adı gərək ki, Markar idi. Elə də gözəl azərbaycanca danışırdı ki, deyərdin bəs bu erməni deyil. Rayon partiya komitəsinin akt salonunda ziyalılarla görüşü idi. O yandan-bu yandan danışandan sonra, söz şairdən düşmüşdü və o, kövrələ-kövrələ:

— Mən onu çox istəyirdim! — demişdi, — heyf, tez getdi aramızdan. Amma bir torpağın, bir xalqın şöhrətiydi. Mən keçən il elə bu vədə Yerevana getmişdim. Yazıçılar İttifaqının binasında bizim böyük varpetimizin — ustadımızın — Avetik İsaakyanın kabinetinə girdim ki, əhvalını soruşum, salam verim. Qocalmışdı, iri alnının altındakı gözlərinin şoxu sınmışdı. Çəliyini dizinin üstünə qoymuşdu. Salamımı aldı, üzümə diqqətlə baxıb tanıdı. Kefimi xəbər almamış soruşdu:

— Sən keçən il… şair öləndə Bakıda idin Markar?

— Bəli, varpet! — dedim.

Yenə üzümə fəhmlə baxdı:

— Yox ey, deyirəm yəni sən onun dəfnində şəxsən iştirak elədin?

— Əlbəttə, varpet! — dedim və düzü, başa düşmədim ki, bu nə deməkdi.

— Yox ey, Markar, nə isə mən inanmıram ey. Sən lap öz gözlərinlə onun torpağa tapşırıldığını gördün də?

— Bəli, varpet. Gördüm…

Varpet susdu, çəliyini dizinin üstdə tərpətdi, göy damarları görünən sağ əliylə dəstəyini bərk-bərk sıxdı, sonra doluxsunmuş gözlərini mənə zilləyib bir az kövrəklik, bir az da qəzəb duyulan səslə:

— Bəs sənin o gözlərin niyə kor olmadı, ay Markar, onun torpağa qoyulduğunu görən yerdə, niyə kor olmadı sənin o gözlərin, ay Markar? — dedi.

Markar o görüş gecəsi çox söz demişdi. Ancaq Nəzərin yadında bircə bu nöqtə qalmışdı və özü də ömürlük qalmışdı. Şair böyüklüyü ilə, varpet ona məhəbbətiylə, Markar gözləriylə!..

Qəribəydi ki, Nəzər özü də görmüşdü bu qara torpaq altına ürəyində, beynində neçə-neçə yazılmamış əsər, oxunmamış nəğmə aparan o vücudun tapşırılmağını. Ancaq, varpet yaman demişdi, dost kimi, şair kimi yana-yana demişdi və o dəhşətli mərasimi görmüş Markarın gözlərini çəliyinin ucuyla ovmaq istəyə-istəyə, lakin özünü saxlayaraq demişdi.

Nəzər siqaretinin kötüyünü atıb xatirələr çəngindən qoparaq təzədən o heykələ baxanda ağlına gəlmişdi ki, Bakıda, Fəxri xiyabanda qara torpağa tapşırılan o doğma insan, o qara torpağa əriyib qarışandan sonra çox yerdə, çox kənddə, şəhərdə heykələ dönüb təzədən torpağın üstünə qalxıb — bir idi, on olub, yüz olub; onlardan biri də bura, rəsmi adı «Qələbə», el ağzında «Ənvər bağı» olan bu parka gəlib və əlini uzadaraq bu müqəddəs, əbədi, təkrarsız nəğməsini oxuyur!..

Qəribə idi, Nəzər öz-özünə heyrət elədi birdən-birə. Axı o haçandı belə kövrək, mənalı və şairanə duyğularla yaşamamışdı! Haçandı onun elə bil ürəyini sındırmışdılar, göylərə, ulduzlara, ənginliklərə doğru uçan xəyallarının qanadlarını qırmışdılar — o, yerdə, ətrafında, gözünün qabağında yaşayan, ancaq adi şeylər barədə düşünməyə adət eləmiş və həyatın elə belə də olduğuna birdəfəlik inanmış adamlardan birinə dönmüşdü haçandı! İndi, inanmaq istəmədiyi söhbətdən sonra gör nələr haqqında fikirləşməyə başlamışdı, nələri xatırlamışdı? Möcüzə kimi gəlirdi ona. Oturacaqdan nə zaman qalxdığını, «Ənvər» bağından necə çıxdığını bilməmişdi, onda

gözünü açmışdı ki, birmərtəbəli, üstü şiferli binanın qabağındadı. Hə, bu idi «Xalq nəzarəti komitəsi»nin binası. Qapının sol cəhənginə, qara lövhənin üzərinə qızılı xətlərlə idarənin adı yazılmışdı. Qapısı bağlıydı, həyətindəki yeganə dirəyin başındakı lampa da yanmırdı. İspalkomun həyətindən bura zəif işıq düşürdü. Həyat yox idi sanki idarədə. Ölü bir sükut hökm sürürdü. Halbuki belə olmamalıydı — bura qaynar, çağlayan, döyüşən bir qərargah olmalıydı, gecə-gündüz iş getməliydi. Kəndlərdən, qəsəbələrdən gələn nəzarət qruplarının nümayəndələrinin biri girib, biri çıxmalıydı.

«Arif etimadımızı doğrultmadı…» Katibin bu sözlərini o indi sanki təzədən eşidirdi.

«Niyə?» — Bunu Nəzər orda yox, burda soruşurdu və təbii ki, cavabını verən yox idi. «Bizə sizin kimi prinsipial adam lazımdı…» — Bu da katibin sözləri idi. «Süleyman müəllimin tapşırığıdı…» «Mənim prinsipiallığımı gec gördüz, yoldaş Əmiraslanov. Bəs indiyəcən hardaydız! Niyə görmürdüz? Məni demaqoq, başını hər yerə soxan, geri qalmış adlandıranda, məni bu yaşımda təkmilləşdirməyə göndərəndə bəs niyə susurduz, yoldaş Əmiraslanov? İndi Şakir Şakirzadə kimi nadanlar mənim belimi, ürəyimi qırıb həvəsimi söndürəndən sonra yadınıza düşmüşəm? Gec deyilmi? Gec deyilmi, ay yoldaş katib?» — Nəzər ürəyində dalbadal suallar verirdi, Əmiraslanovun xəyalı isə susurdu.

Həyətdə sükut içində xeyli dayandı və birdən fikrini bir qorxu sardı: «Doğrudan çətin və məsuliyyətli işdi, Nəzər. Sən bu boyda cavabdehliyi boynuna götürürsən, axırda bədnam olmazsanmı? Günlərin birində bax elə bu Əmiraslanov yoldaş, ya elə Süleymanın özü sənə, sənin gözünün içinə desələr ki, bizim etimadımızı, etibarımızı doğrultmadın, Nəzər müəllim! — Bu, sənin üçün ölümdən betər olmazmı? Sən onda gərək papağını götürüb bu rayondan çıxıb gedəsən. Vallah, gərək gedəsən, billah, gərək gedəsən?..»

Sonra elə bil qəfildən qəlbinə sonsuz bir inam axıb doldu: «Yox, işləyəcəksən, Nəzər. Lap yaxşı, Süleymanın istədiyi kimi işləyəcəksən, ürəyin, vicdanın istəyən kimi işləyəcəksən!.. Sən gərək elə çalışasan, elə oturub-durasan, əgər bir gün bu idarənin də tarixini yazmalı olsalar, səhifələrinin birində qeyd eləsinlər ki, bu idarəyə Nəzər kimi təmiz, Nəzər kimi işgüzar, fədakar, vicdanlı sədr gəlməyib. Necə ki, «Qırmızı məktəb»də üzü ağ, alnı açıq işləmisən, burda da gərək elə işləyəsən. Sən ondan qorxma ki, xalq nəzarəti komitəsi-

nin ustavını, təlimatını oxumamısan; onun ustavı, qanunları, vəzifələri adında çox aşkar yazılıb: Nəzarət! Nəzər yetirmək, baxmaq, görmək, yaxşını pisdən seçmək! Budu vəzifəsi o idarənin! Sənin hər idarənin, hər kolxozun, sovxozun, hətta ayrı-ayrı adamların da qapısını açıb içəri girməyə, «bu nədi, bu hardandı, bu niyə belədi?» — deməyə ixtiyarın var və sənin gücün də, qüdrətin də elə bundadı!.. Demək sən, görən göz olmalısan, Nəzər! Sənin gözündən heç nə, heç kəs — katibdən tutmuş adi kolxozçuya qədər — heç nə, heç kəs yayınmamalıdır. Yayınsa, sən görməsən, görə bilməsən, bax, onda qocalmış hesab eləyə bilərsən özünü, Nəzər!.. Hər şeyi, hər kəsi görmək üçün isə, çox-çox ucalarda dayanmalısan, Nəzər! Dayanmasan, görə bilməzsən, kişi!..»

İKİNCİ FƏSİL

Nəzər beşmərtəbəli binanın birinci mərtəbəsinin üçüncü girəcəyinin sağ qapısı qənşərində ayaq saxladı. Sarı taxtadan düzəldilmiş qapının üstünə yarım səhifəlik kağız yapışdırılmışdı və üzərinə «Qərib Nəzərli» sözləri yazılmışdı. Kişi bığaltı gülümsündü və şəhadət barmağının ucu ilə düyməni basdı. İçəridən addım səsi eşidildi və cəftə şaqqıldadı. Ucaboylu, qara bığlı Qərib astanada atasını görəndə döyükdü, ağzındakı tikəni alatələsik uddu:

— Sənsən? — dedi.

— Hə, mənəm, bala.

— Keç içəri də. Çöldə niyə dayanmısan?

Nəzər otağa girdi. Ev elə yayda gördüyü kimiydi. Pəncərə qabağında bir stol, divarın dibində də bir çarpayı. İki də kətil vardı. Mizin üstündə yarım dənə çörək, boşqabda doğranmış xiyar, pomidor, nəlbəkidə isə pendir, bir də üç-dörd fal kolbasa dəydi Nəzərin gözünə və acdığını indi xatırladı. Araq iyi gəlirdi, ancaq araq şüşəsi-filan yox idi. Çappa stəkanın yarısınacan suydumu, arağıydımı — ağarırdı. Nəzər təklif gözləmədən kətilin birini çəkib oturdu. Sonra baxışlarını qaldırıb oğluna ötəri nəzər saldı və qızarmış gözlərindən başa düşdü ki, içib.

— Otursana! — quru səslə ata dilləndi.

Qərib əyləşdi.

— Şam eləyirsən? — Nəzər soruşdu.

— Hə.

— Mən də yaman acmışam.

— Ye də… — Qəribin qara bığı altındakı dodaqları qaçdı. — Kasıbın olanından…

— Yox, yaxşısan, maşallah. Canına-başına fikir verirsən. Yaxşı eləyirsən bunu. — Əlini pendirə, çörəyə uzatdı. — Sən də ye…

— Yox, mən doymuşam. Sənin qismətindi.

Nəzər stəkana işarə ilə dedi:

— Arağ da?

Qərib bir anlığa çaşırdı və sonra göz qırpımında stəkanı başına çəkib ağzına heç nə qoymadan, üz-gözünü də qırışdırmadan:

— Bu arağ deyil, dədə, sudu, — dedi. Nəzərin uşaqlarının içində təkcə Qərib ona «dədə» deyirdi. Lap uşaq vaxtı dilinə hardansa düşmüşdü və Bikə xanım bir-iki dəfə o sözü tərgitmək də istəmişdi. Ancaq Nəzər özü qoymamışdı. Nə isə o sözdə qəribə bir şirinlik, istilik və qədimlik görürdü Nəzər. Elə o çağdan qərib atasını «dədə» deyə çağırmışdı və o da buna adət eləmişdi. Neçə vaxt idi ki, oğlunu görə bilmirdi, təbii ki, o sözü də eşitmirdi və deyəsən hardasa tək oğlu üçün yox, elə «dədə» sözüyçün də qəribsəmişdi. İndi Qəribin dilindən «dədə»ni qulağı alanda xoşhal oldusa da, onun gözgörəsi Nəzəri aldatmaq istəməsi, arağı su yerinə içməsi qəlbini cırmaqladı. İstədi üstünü vurmasın, açıb-ağartmasın. Ancaq özüylə bacara bilmədi.

— Doğrudan su idi?

— Hə də. İnanmırsan?

— Sən indi mənə yalan danışmaq istəyirsən? Gözüm görə-görə?

— Yalan niyə danışıram, ay dədə, su idi.

— Sən içməmisən?

— İçmişəm. Ancaq səndən qabaq içmişəm.

Nəzər fikrə getdi. «Bəlkə həqiqətən su imiş!..» Nəzər susub bir-iki tikə əl-qap elədi, xiyardan-pomidordan yedi. Aclığını dəf eləyib, siqaretini yandırdı:

— Yəqin eşidibsən ki, incəsənət adamları içən olur, ona görə içirsən, hə?

— Yox, ona görə içmirəm.

— Bə nəyə görə içirsən? Fərri bir şey olsaydı, dədən də içərdi də.

— Elə bilirsən bəxtəvərliyimdən içirəm? Dərdimdən içirəm, dədə…

Nəzər stulda qurcuxdu:

— Nə dərdin var, ə, sənin? Gəmilərin dəryada batıb, yeməyə çörəyin yoxdu, geyməyə paltarın yoxdu?

— Sənin dərdin hamısından betərdi, dədə!

Nəzərin gözləri böyüdü:

— Nə olub, a bala, mənə?

— …

— Niyə dillənmirsən? Bəlkə bir şey olub, mənim xəbərim yoxdu?

— Ta nə olsun deyirsən? Ömür qoy, can çürüt, axırda da qolundan tutsunlar, atsınlar çölə, desinlər get, yüz iyirmi manatla dolan!.. Üç yüz manat alırdın, dolana bilmirdin, indi yüz iyirmi manatnan necə dolanassan?!

— Ax, belə de! Demək, sən bunların dərdin çəkirsənmiş! Bəyənirəm, oğul, çox bəyənirəm.

— lağ eləyirsən mənə?

— Yox, düz sözümdü, bala. Xoşuma gəldin. Bu, yaxşıdı, çox yaxşıdı, oğul. Ancaq… səhv eləyirsən, cavansan. Əvvələn, mən pis dolanmamışam, həmişə yeməyiniz, içməyiniz, əyin-başınız olub. Sənin bu barədə giley-güzar eləməyə haqqın olmasın gərək. O ki, qaldı təqaüdə, o da heç… Bu, zamanın hökmüdü, oğul!.. Bunun geci-tezi vardı, olmalıydı. Dolanmaq məsələsi isə… İndi heç kəs acından ölmür, oğul, hərənin bir tikə pendir-çörəyi var.

— Elə mənim də davam budu ki, niyə sənin pendir-çörəyin olsun, məsələn, mənim toyuq-plovum? Niyə?

Nəzər pendir-çörəyə işarə elədi:

— Bunu toyuq-plov hesab eləyirsən?

— Mən məsəlçün deyirəm, dədə. Demək istəyirəm ki, məsələn, şəxsən sən qabiliyyətinə, savadına görə yaşamamısan! Sən, götürsən, bu rayonda ən mükəmməl bilikli adamsan. Qırx ildi də külüng çalırsan. Canını oda-közə vurmusan, yandırmısan ürəyini, gözlərinin işığını əritmisən. Amma nəyin var? Yaxşı imarətinmi var, kassada küt-küt pulunmu var? Heç nəyin yoxdu. Heç nəyin yoxdu, dədə! Bax, mən bunu deyirəm. Bir ay maaşını verməsələr, acından ölənin birisən! Amma oğullar var ki…

Nəzər hiss elədi ki, Qəribin başı dumanlıdı, hətərən-pətərən danışır və indi də nə desə, oğlu həzm eləyə bilməyəcək, çünki mərhum Əli müəllimin söylədiyi kimi «araq başını aparıb». Ona görə söhbətin səmtini dəyişərək:

— Ə, a bala, sən adamlıq əlifbasını bilmirsən, hələ — söylədi. — Danışanda ağzına çullu dovşan sığışmır.

— Niyə bilmirəm, dədə?

— Bilsəydin, bir saatdı gəlmişəm, soruşardın, ay dədə, kefin nə təhərdi, anam necədi, bacılarım necədi. Neçə vaxtdı görüşmürük.

— Guya mən soruşan kimi hər şey yaxşı olacaq! Kim necədi, elədi də. Bunlar boş, mənasız ədəb-ərkan qaydalarıdı, Nuh əyyamından qalıblar, özləri də kif iyi verirlər, ay dədə.

— Hə? Belə de…

— Dedim, demədim. Heylədi. Siz, məsəlçün, elə sən özün, fanatik olubsan ey, ay dədə. Kitablar sənin gözünü yumub, həyatdan ayırıb. Dərs demisən, elə bilmisən böyük qəhrəmanlıq eləmisən. Axı dərs demək, nə bilim, incinarlıq eləmək adi şeylərdi. Bunnarnan indi heç kəsi təəccübləndirə bilməzsən.

— Bə nəynən təəccübləndirmək istəyirsən görəsən sən bizi?

— Kim? Mən?

— Hə də, məsəlçün, sən!..

— İş ondadı ki, heç nəynən təəccübləndirə bilmirəm, ona görə də partlayıram.

Nəzər köksünü ötürdü:

— Təəccübləndirə bilməyəcəksən də heç vaxt. Çünki sənin savadın kamil deyil, oğul.

Qərib ayağa durdu:

— Elə bilirdim, sözü hərrəyib-fırrayıb savadın, oxumağın üstünə gətirəssən. Bu, sənin köhnə xasiyyətindi. Sən bu qədər yaşadıqdan sonra da başa düşmək istəmirsən ki, savada bir şey vermirlər, kişi! İndi zamanə zirəklərindi, gözdən tük qapanlarındı.

— Oğrularındı, juliklərindi, hə?

— Düzünə qalsa, hə, dədə.

Nəzər dişlərini bir-birinə elə sıxdı ki, çənə sümüyü ağrıdı.

— Bilmirəm bu axmaq fikirləri kim doldurub sənin başına, Qərib?

— Heç kəs doldurmayıb. Bax, bu gözlərim doldurub, dədə.

Gözlərim görür axı. Mən kor deyiləm axı, dədə. Çöldə, meşədə, dağlarda da yaşamıram. Mən cəmiyyət içində, adamlar arasında yaşayıram. Eh, nə isə... — deyə birdən Qərib əlini havada yellədi. — Bunlar köhnə söhbətlərdi, ta bezdirib. Sən hər dəfə məni görəndə əxlaq dərsi verməyə çalışırsan — sən kitablardan, yüksək ideallardan danışırsan, mən həyatdan, gördüklərimdən. Sən «necə olmalıdır»dan söz açırsan, mən «necədir»dən söyləyirəm. Ona görə bir-birimizi başa düşmürük. Yaxşı, gəlməyin xeyirdi?

Nəzər kinayə ilə:

— Gəlmişdim sənə bir az əxlaq dərsi verəm, — dedi.

— Acığına gəlməsin, ay dədə. Məncə, sən istəməzsən ki, sənin oğlun qoyun olsun, başıboş olsun, dünyaya avam gəlib, avam da getsin. İstəməzsən… Sevinməlisən ki, mənim də başım bir şey üyüdür.

— Təəssüf ki, buğda üyütmür, vələmir üyüdür, bala!

— …

Qərib incidi, üzünü yana çevirdi. Nəzər buna dözmədi.

— Yaxşı, yaxşı, mısmırığını sallama. — qalxıb irəli yeridi, boyu bərabəri olan Qəribin çiyinlərini qucaqladı, sinəsinə sıxdı. — Hazırlaş, gedək evə. Ananın ürəyi bir tikə olub sənin üçün.

— Məni aparmağa gəlmisən? — Qərib dönüb atasıyla üz-üzə dayandı. — Bununçun gəlmişdin?

— Yox. Katib çağırmışdı…

Qəribin sifətini maraq bürüdü:

— Katib çağırmışdı? Həmidov ha?

— Hə.

— Xeyir ola? — Səsindəki inciklik yox olub getdi. — Nə deyirdi?

Nəzər elə ayaq üstə məsələni Qəribə nağıl elədi.

Qəribin gözləri güldü və Nəzərin heç gözləmədiyi halda iri, uzun qollarıyla atasını sıxdı:

— Nə yaxşı, ay dədə, nə yaxşı! Səni təbrik eləyirəm.

— Sağ ol, ay bala. Bu nə böyük işdi ki, sən buna belə sevinirsən, ay oğul?

— Nə danışırsan, kişi! Elə hesab elə ki, katibsən, milis rəisisən, prokurorsan, dədə. — O, əlini-əlinə sürtüb: — Nəhayət, nəhayət, bizim də üstümüzə gün doğdu, biz də bir kişinin oğlu olduq, nə-

hayət!.. Vəzifə…

Qəribin sözü ağzında qaldı, qapının zəngi uzun-uzadı zingildəyəndə oğlan demək olar ki, qaça-qaça gedib qapını açdı. Bikə xanım və Tapdıq hay-küylə içəri girdi. Qərib də, Nəzər də çaşıb birbirinin üzünə baxdı. Bikə qollarını oğlunun boynuna dolayıb:

— Ay gözümün işığı, belə şeymi olar, burdan-bura üzünə həsrət qalmışam, saqqalın ağarsın sənin! — dedi və özündən asılı olmayaraq ağladıqda Qərib zarafata salıb gülə-gülə əliylə atasını gös-tərdi:

— Ey, ey, Xalq nəzarət komitəsinin sədrinin yanında sənin nə ixtiyarın var ki, ağlayırsan, hə?

— Kimin? — Bikə örpəyinin ucuyla gözünü silə-silə oğlundan qopub ərinə sarı gəldi. — Nəzarət komitəsinin sədri? Kişi, olmaya Süleyman səni bunun üçün çağırtdırmışdı, hay?

Nəzər bığını tumarlaya-tumarlaya başını tərpətdikdə Tapdıq qabağa keçib qayınatasını təbrik elədi.

— Sağ ol, oğlum!..

— Ay kişi, bəs adam zəng vurub xəbər eləməz? Mən də oturmuşam, ürəyimi yeyirəm ki, görəsən katib neynəyir bunu. Yaxşı oldu, Tapdıq da gəldi, dedim, ay oğul, sən canın, bir irəyona dəyək, kişidən bərk niyaranam, həm də uşağı görərik. Sağ olmuş gətirdi…

Qərib anasına dedi:

— Səndən bir qonaqlıq düşür ha! Gərək ərinin təzə vəzifəsini yuyasan…

— Bax, mənim bu gözlərim üstə.

Tapdıq araya söz atdı:

— Hələ görün Xalq nəzarəti komitəsinin sədri icazə verir ya yox? Elə deyil, Nəzər müəllim?

Nəzər güldü:

— Hələ yox. Hələ icazə vermirəm! Arxı atdanmamış bərəkallah deməyi xoşlamıram.

Qərib dilləndi:

— Mən bilmirəm, bax, bir qonaqlıq sən, ay ana, bir qonaqlıq sən, a Tapdıq, bir qonaqlıq da elə nəzarət komitəsinin sədri verməsə, mən oynamıram.

— Bə sən? Sən neyniyəcəksən bə? — Tapdıq Qəribin çiyninə vurdu.

— Mən? Mən tamada olacağam, yaxşı-yaxşı sağlıqlar deyə-

cəyəm, yaxşı-yaxşı da yeyib-içəcəyəm.

Nəzər oğluna sataşdı:

— Paho, sənin vəzifən hamımızınkından çox oldu ki?

Qəribin dişləri ağardı:

— Ölmürəm vəzifə üçün?..

Hamısı güldü.

ÜÇÜNCÜ FƏSİL

Gün çoxdan əyilmişdi hava sərnimişdi. Süleyman raykomun qonaq otağının qabağındakı bağçada çox yaraşıqlı, səliqə ilə düzəldilmiş səkkiz guşəli köşkdə tək-tənha oturmuşdu. Yoğun, girdə palıd gövdəsindən kəsilmiş kötük «stolun» üstündə bir çaynik, üç-dörd armudu stəkan vardı. Stəkanların birinə çay tökülmüşdü, o birilər boş idi. Köşkün qıraqlarında şaquli istiqamətdə bağlanmış nazik iplərə dolanan sarmaşıqlar qəribə idi ki, ilin bu vədəsində ağ xallı kəpənəklərə bənzər güllər açmışdı. Sarmaşıqlar seyrək idi, elə bil mahir bir dərzi-rəssamın əli ilə ölçülüb-biçilmiş, kəsilmişdi; bir-birindən eyni məsafədə aralıydılar və kənardan baxana elə gələrdi ki, bu səkkiz bucaqlı köşk qəfəsdi və Süleyman da bu gözəl qəfəsin içində, palıd «stol»un arxasında, «palıd stulu»nun üstündə əyləşib qəzet oxuyurdu. Başı mütaliəyə elə qarışmışdı ki, köşkə doğru uzanan daş döşənmiş cığırla ürəksiz-ürəksiz, «gedim-getməyim» arasında çırpına-çırpına gəlib üç addımlığında dayanmış Nəzəri görməmişdi. Kişi sakitcə katibə tamaşa eləyirdi. O, orta boylu, başının ortasının tükləri seyrəlmiş, bədəncə arıq, iri alnına qırışlar şırımlanmış, sifətindən təmkin oxunan bir adam idi. Nəzər ha fikir verirdi, o vaxtkı — şagird çağlarındakı Süleymanla indi qarşısında oturub qəzet oxuyan katib Süleyman arasında bir oxşarlıq tapa bilmirdi. Bəlkə səsi o səsdi, amma səsini düzəməlli xatırlamırdı. Bəlkə gözləri dəyişməyib? Hə, bax, gözləri yadındaydı. Ancaq indi o baxışlarını aşağı dikmişdi, qaldırıb ona — müəllimə bircə kərə baxsaydı, Nəzər onda bəlkə o Süleymanla bu Süleymanı birləşdirən bir nöqtə tapmış olardı. Nəzər niyə sehrlənmişdi, niyə danışa bilmirdi? Zəhmimi basırdı katibin onu? Ya arada uzun fasiləmi olmuşdu? Baş açammırdı. Birdən sinəsi acışdı, öskürmək istədi, ancaq nədənsə özünü qısıb boğazını yüngülcə təmizlədi. Səsə Süleyman başını qaldırdı, gözucu o tərəfə baxıb kiminsə mil

dayandığını görərək üzünü qırışdırdı və çox quru, Nəzərin tanıya bilmədiyi bir səslə:

— Burda qəbul eləmirəm! — dedi və yenə qəzeti oxumaqda davam etdi. Nəzəri ürəyi çırpındı, bir anlığa gözləri qaranlıq gətirdi; köşk, Süleyman da içində fırlanğıc kimi sürətlə fırlandı, baş-ayaq oldu, ancaq qəribə idi ki, nə Süleyman yıxıldı, nə də stəkandakı çay dağıldı. Yuxuya bənzər o an keçəndən sonra Nəzər Süleymanın ona baxışını gözünün önünə gətirdi, «Yox, baxmadı o mənə. Elə-belə, kölgəmi gördü, üzümə-gözümə fikir vermədi. Yoxsa tanıyardı!» Ancaq bu təsəlli onun yerindən oynamış qəlbini toxtada bilmədi, bütün varlığına hakim kəsilmiş məyusluğunu silib apara bilmədi. Və yenə qoca müəllim bu laqeydliyə bəraət qazandıracaq bir ilişəcək axtardı iki daşın arasında. «Bəs səsi?..» Yox, səs heç nə demirdi müəllimə. «Bəs gözləri?» «Gözlərini də görə bilmədim!.. Adə, ey dili-qafil, bəlkə heç bu o Süleyman deyil, tamam ayrı adamdı!» «Yox, ay Nəzər, sən də ağ eləmə. Bu boyda zarafat olmaz. Bu Süleyman o Süleymandı: sənin şagirdin, İmran kişinin oğlu!..» Cəmi bir neçə saniyə içində ildırım sürətilə beynində dolaşan bu çalpaşıq, biri digərini inkar edən daxili, səssiz-səmirsiz həsbi-hal qurtaran kimi, Nəzər köhnə əsgər sayağı dabanı üstə fırlandı, gəldiyi daş cığırla geri qayıtdı. Ayaqlarını güclə çəkirdi. Dörd-beş addım atmışdı ki, arxadan həyəcanlı səs eşitdi:

— Nəzər müəllim! Nəzər müəllim!

Nəzər eşitdiyinə inanmadı, ona elə gəldi ki, qulağı səsə düşüb. Orada — köşkün içində Süleyman tək idi, o da tanımadı onu. Elə isə onu kim çağıra bilərdi? «Nahaq gəldim bura, nahaq gəldim bura, nahaq gəldim bura!» — deyə içərisində fəryad qoparan səs, arxadan çağıran adamın səsindən güclüydü.

Kim idisə, bu dəfə elə çağırdı ki, Nəzərin içindəki səsi batırdı:

— Nəzər müəl…liim!

Nəzəri ayaqları yerə mıxlandı və o, çiyni üstdən geri qanrıldı. Və köşkdən çıxıb dalınca iti addımlarla gələn Süleymanı görüb tamam çevrildi. Süleyman ona çatdı:

— Siz Nəzər müəllim deyilsiz? — deyə həyəcan içində soruşdu. — Siz Nəzər müəllim deyilsiz?

Nəzər qabağında dayanan adamın gözlərini indi aydın gördü, gördü və tanıdı.

— Hə, Süleyman, mənəm! — Səsi titrəyirdi, gözləri alacalan-

mışdı.

— Xoş gördük, Nəzər müəllim! — deyə Süleyman əlini irəli uzatdı, öz müəlliminin iri, sümüklü əlini hərarətlə sıxdı, bu hərarət Nəzərə də sirayət elədi və o, uzun qollarını geniş açaraq Süleymanı sinəsinə çəkdi, Süleyman da başını onun sinəsinə qoydu.

— Xoş gördük, Süleyman.

Süleyman onun qoluna girdi, köşkə tərəf çəkdi.

— Bay səni! — Bunu Süleyman dedi və nə üçün dediyini özü də başa düşmədi. Nəzər də o iki sözdən heç nə anlaya bilmədi. Görünür, hər ikisi həyəcanlıydı. İki dəqiqə qabaq Nəzərin baxışlarında fırlanan köşkdə indi qabaq-qənşər oturmuşdular. Hələ ancaq bir-birinə tamaşa edir, kövrək-kövrək gülümsünürdülər. Nəzər özünə gələ bilməmişdi. İki-üç dəqiqə içində onun iki üzünü görmüşdü və ikisi də sarsıdıcı olmuşdu. Birinin ağır təəssüratından, qasırğasından çıxmamış, o birinin güllü-çiçəkli, sevincdən göz yaşardan qucağına düşmüşdü. Belə məqamlarda özünü ələ almaq, təmkin saxlamaq çətin idi, çox çətin idi. Süleyman da təxminən bu vəziyyətdəydi. Bir az qabaqkı laqeydliyi nə idi, bu nə idi və o, müəllimə baxa-baxa fikrində buraxdığı səhvin böyüklüyünü anlayıb peşimançılıq çəkirdi. Demək istəyirdi bunu, amma deyə də bilmirdi. Ancaq gördü ki, deməsə, çox əzab çəkəcək.

— Əvvəl tanımadım sizi… — üzr istəyirmiş kimi astadan dilləndi. — Gündə yanıma o qədər adam gəlib-gedir ki… Sonra elə bil birdən ayıldım. Yerişinizdən tanıdım sizi.

Nəzər bu incə nöqtəni tutdu. «Məni axsadığıma görə tanıyıb!» Qəlbində həmişə gəzdirdiyi, ancaq kimsəyə açıb-ağartmadığı gizli nisgilini — şikəstliyini kim bilir neçə milyonçu dəfə xatırladı, lakin nədənsə bu dəfə gözlərinə kədər kölgəsi qonmadı, çünki baxışlarında o qədər sevinc, fərəh vardı ki, yaxın düşə bilməzdi o kölgə. Hətta — qəribə idi — indi zarafat da elədi; gülə-gülə dedi:

— Axır ki, məni vuran o faşist oğlu faşistin ömrümdə bir dəfə də xeyrini gördüm.

Süleyman seyrək qaşlarını çatdı:

— Nə faşist, nə xeyir, Nəzər müəllim?

— Yəni deyirəm o faşist oğlu faşist mənim qıçımı vurub qırmasaydı, yerişimdən məni tanımayacaqdın və mən, burdan çox pis gedəcəkdim, Süleyman. İnan ki, elə gedəcəkdim, bəlkə heç bir də buralara yolum düşməyəcəkdi.

— Vay, vay… — deyə Süleyman peşiman-peşiman söylədi. — Heç belə eləmərəm ha!..

Nəzər hələ bayaq — Süleymanın onu tanıya bilmədiyi vaxt çəkdiyi peşimançılığın təsiri altında həyatında bir çox idarələrdə, böyük adamların qəbulunda bu cür qarşılanmağı görüb hiss elədiyi və bunun ürəkləri necə ağrıtdığını duyduğu üçün, elə belə, məqamı gəlmişkən Süleymana da çatdırmağı lazım bilib ağsaqqal kimi ərkyana dedi:

— Eləmə, Süleymaq, amanın günüdü, eləmə belə! Çox pisdi bu! Hər kəsdisə gəlib, deməli, bir dərdi-azarı, sözü-sovu var ki, gəlib. Bəlkə yanır, bəlkə elə şey deyəcək ki, iki saatdan sonra onu sənin bilməyinin bir quruş xeyri olmayacaq! Mənim yanıma gəlməyib, sənin — katibin, bir elin böyüyünün, başbiləninin, müqtədirinin yanına gəlib! Sən onu elə qarşılamalısan, elə dinləməlisən ki… Kimliyindən asılı olmayaraq… — Nəzər birdən susdu, ona elə gəldi ki, həm uzun danışdı, həm də, bəlkə də, yersizdi bunlar. «Süleyman ta uşaq deyil ki, mən yenə ona dərs deyirəm!»

Görünür, Süleyman da söhbətin axarını dəyişmək üçün gülümsünə-gülümsünə-gülümsünə söylədi:

— Gör sizi neçə ildi görmürəm.

— Hə, gərək ki, axırıncı dəfə sizdə — qonaqlıqda görüşənəm.

— Əllinci ildə…

— Otuz il keçir. Pah atonnan. Elə bil dünən idi, Süleyman… İmran kişi… — Nəzər səsini xırp kəsdi. Və pərt halda Süleymanın üzünə baxdı. Ürəyində özünü danlaya-danlaya, hüznlü bir səslə:

— Allah rəhmət eləsin, Süleyman. Son qəmin olsun, — dedi.

Süleyman köksünü ötürdü:

— Sağ ol, Nəzər müəllim.

— Mən bura gəlmişdim ki, sənə başsağlığı verəm. Səni gördüm, fikrim çaşbaş oldu.

— Həyatdı da, Nəzər müəllim.

Bu zaman ağ xalatlı bir kişi — raykomun aşxanasının işçisi əlindəki güllü sinidə çay gətirdi, salam verdi, hərəsinə bir stəkan çay süzüb əvvəlki, soyumuş çayniki də götürərək getdi. Kəkotunun ətri Nəzəri vurdu.

Nəzər çaydan bir qurtum alıb boğazını yaşlayaraq, İmran kişidən, onunla sən görüşündən, dəfnində nəyə görə iştirak edə bilmə-

diyindən danışmaq istəyirdi ki, Süleyman onu qabaqladı:

— Maşallah, yaxşı qalmısız, Nəzər müəllim. Saçlarınızın, qaşınızın ağarmağını nəzərə almasaq, elə həmin Nəzər müəllimsiz ki, durmusunuz qabağımda.

Nəzəri fikri İmrandan danışmaqda qalmışdı və təəccüb eləyirdi ki, niyə Süleyman sözü dəyişdi?.. «Hə, bəlkə də ağırdı onun üçün!.. Bəlkə də unutmaq istəyir dərdini?.. Niyə olub-keçənləri yadına salıb qəlbini qanadım?.. Yox, lazım deyil, Nəzər!»

Özünü ələ alıb qəmli-qəmli onun sözünə cavab verdi:

— Yox, ay Süleyman. Qocalmışam. Bilirəm, təsəlli üçün deyirsən. Sağ ol. Amma qocalmışam.

— Bizim o «Qırmızı məktəb» yenə dururmu?

— Durur. Ancaq Nəzər müəllimin kimi o da qocalıb, Süleyman!.. «Altı aydan çoxdu burdasan, hələ ayağın da dəyməyib. Amma Qasım — Moskva Şərqşünaslıq İnstitutunun direktoru — o da elə o gedən getmişdi, keçən il gələndə birinci oxuduğu «Qırmızı məktəb»ə baş çəkdi, gəldi biznən görüşdü, onuncuda oxuduğu sinfə girdi, o vaxt oturduğu partanı axtarıb tapdı, təzədən şagird olub oturdu, özü də kövrəldi, bizi də kövrəltdi… Amma sən… bir şagird kimi gəlmədin… heç olmasa bir katib kimi gələydin, Süleyman!»

— Uçulur?

— Uçulmur. Ancaq köhnəlib ta. Əl vermir. Kənd böyüyüb, uşaq çoxalıb. Darlıq edir. Neçə ildi yazırıq, deyirik, hələ ki, söz verirlər, iş görən isə yoxdu.

— Mən tapşıraram. Çayınızı soyutmayın, Nəzər müəllim.

— Hm. — O stəkanı götürdü, qurtum-qurtum içməyə başladı. Süleyman da içə-içə:

— Eşitdim sizi də Şakir Şakirzadədi, nədi, təqaüdə çıxarıb, hə? — söylədi və ağzını marçıldatdı.

Nəzər başını tərpətməklə təsdiq elədi.

— Necə adamdı o?

— Kim? Şakir?

— Hə.

— Adamdı da…

— Adam olmağını bilirəm. Bir az ətraflı danışın… çünki mənim qulağım ondan bəzi para şeylər çalıb. Bir var ara sözü, bir də var…

Nəzər xeyli fikrə getdi. Əlini cibinə atdı, siqaret axtardı, yadına düşdü ki, siqareti qurtarıb. «Çəkməyəcəyəm, görüm dözə bilirəm. Eh, qırx ildi deyirəm çəkməyəcəyəm. Yenə çəkirəm. Deyəsən Süleyman də çəkmir».

— Nə yaman dərin düşüncələrə daldınız, Nəzər müəllim?

— Hə? — o xəyaldan ayrıldı. — Yox, Süleyman. Mən nə deyim. Pis deyəcəyəm, deyəcəksiz, bunu təqaüdə çıxartdığı üçün belə deyir. Onu bil ki, bu, mənim təbiətimə ziddi. Mən qərəzdən uzaq olmuşam həmişə.

— Bilirəm, Nəzər müəllim. Yenə olsun…

— Sənə nə deyiblər, bilmirəm. Məncə, düz olar sənə deyilənlər. Mənim isə fikrim belədi ki, Şakir ziyalı deyil, Süleyman. Mən o məktəbdən getmişəm, iki dünya bir ola, bir də geri qayıdan deyiləm. Ancaq mənim o məktəbə, o uşaqlara, lap bir az da dərinə getsək, o müəllimlərə yazığım gəlir. Heyifdi o məktəb, heyifdi o uşaqlar, Süleyman!

— Ziyalı deyilsə, heç… hm… Yaxşı bəs «Qırmızı məktəb»də varmı elə bir kadr ki, onun yerinə qoya bilək?

— Var. Əlbəttə, var. Özü də bir deyil, ikisi-üçü var!

— Kimdi?

— Öz məzunumuzdu, öz uşağımızdı Zakirə. Qabiliyyətli, mehriban, savadlı… Bilirsən, Süleyman, direktor məktəbi gərək öz evi, şagirdləri gərək öz uşaqları hesab eləsin. Şakirdə bu yoxdu. Amma Zakirə məhz belə adamdı…

— Mən Muradzadə ilə danışaram… — Süleyman Nəzər müəllim üçün də, özü üçün də çay süzdü.

Nəzər istədi desin ki, bu işlərin əsas mayası elə Muradzadədi, Şakir də onun dost-doğma qardaşı oğludu. «Pis çıxar!» — deyə şəxsiyyətinə sığışdırmadı.

— Sağ ol, — dedi Nəzər və söhbəti dəyişdi: — Düzü sənin bura katib gəldiyini eşidəndə bəlkə də hamıdan çox mən sevindim, Süleyman. İlk vaxtlar istədim gələm yanına, səni təbrik eləyəm. Sonra nə isə fikrimi dəyişdim. Rayon yeridi, dedim, hərə bir cür baxar buna. Sonra da düzü, umdum ki, heç Süleymanın yadına düşmür ki, onun müəllimi var burda. Bir baş çəkim, görüm ölüb, qalıb. Heç olmasa çağırtdıraydın... Nə isə, bunları sənə deməyə də bilərəm. Ancaq...

— Yox, yox, mən başa düşürəm, Nəzər müəllim. Di gəl ki,

hələ təzəyəm, hələ aparatı öyrənirəm; planımda var, çıxam kəndlərə, obalara, camaatın içinə.

— Yaxşı eləyərsən, Süleyman. Gəz, tanış ol, sev camaatımızı. El hiss eləsə ki, sənin ürəyində ona məhəbbət var, yaxşılığını istəyirsən, xoş gününü görmək üçün çalışırsan, səmimisən, qayğıkeşsən, haqqı nahaqqa vermirsən, onda ürəyini çıxardıb verər sənə. Sabah sən çıxıb getsən də, unutmaz səni. Necə ki, Ənvəri unutmur.

— Ənvər kimdi?

— Sənin yadına gəlmir? Hardan gələr, onda sən balaca olardın. Katib idi Ənvər. Canlara dəyən adam idi. Bax, o parkımız var ha, onu o saldırıb. Camaat indi də o parka «Ənvər bağı» deyir. O gün oturmuşam orda və çox düşünmüşəm. Yadigardı. Yaxşı yadigardı. Hər katib bir elə yadigar qoyub getsəydi…

— O park «Qələbə» parkı deyil bəs?

— Hə, rəsmi adı elədi. Ancaq el arasında «Ənvər bağı» kimi tanınır.

— Hm… — Süleyman fikrə getdi… Nəzər müəllimin sözlərinin altındakı mənaları başa düşürdü və ürəyində götür-qoy eləyirdi. «Əsl müəllimdi. Gör necə deyir sözünü mənə! Yox, yaxşı düşünmüşəm Nəzər müəllimin nəzarətə gəlməsi məsələsini. Böyük kömək olacaq işimizə».

Düşüncələrinin mabədini dilinə gətirdi Süleyman:

— Gərək əl-ələ verək, işləyək, Nəzər müəllim. Gərək siz də, necə deyərlər, qolunuzu çırmayıb bizə köməklik göstərəsiniz. Düzdü bir az cəbhəniz dəyişir. Nəzarət bir qədər ayrı xarakter daşıyır. Amma hardasa, mənə elə gəlir ki, bu özü də bir növ müəllimlikdi. Orda, kənddə bir məktəbə dərs deyirdiz, burda bir rayona dərs deyəcəksiz, Nəzər müəllim.

Nəzər güldü:

— Sən lap nəqd eləmisən, ay Süleyman!

— Əlbəttə, Nəzər müəllim. Bu, nağd söhbətdi. Respublika Xalq Nəzarəti komitəsində yoldaşlarla məsələni dağ eləyib gəlmişəm. Siz, mənim əziz müəllimim, bu gün burada təsdiq olunacaqsınız. Həm büro üzvü seçəcəyik sizi, həm də Nəzarət komitəsinin sədri…

— Bəlkə heç yoldaşlar razı olmayacaqlar ay Süleyman?

Süleyman seyrək qaşlarını çatdı:

— Yoldaşlar kimdi?

— Yoldaşlar da… Büro üzvləri…

Süleyman belini düzəldib:

— Mən deyəndən sonra yoldaşların ağzı nədi razı olmasın, ay Nəzər müəllim? — dedi.

Nəzər gözlərini qıyıb Süleymanın sifətindəki məmnun ifadəni oxumağa çalışdı və oxuyub güldü:

— Nəyə gülürsüz, Nəzər müəllim?

— Heç… Bir ərəb kəlamı yadıma düşdü.

— Nə kəlam?

— Ərəb müdriki haçansa yaxşı deyib: «Padşahların sözü, sözlərin padşahıdı…»

— …

Süleyman birdən-birə Nəzərin çəkdiyi məsəlin məğzini tuta bilmədi. Sual dolu baxışlarını üzünə zilləyib ani fikirləşəndən sonra müəlliminin nə demək istədiyini başa düşdü, tutuldu. Ayağa qalxıb köşkün içində — o kiçik meydançada, əllərini cibinə qoyub bir o başa getdi, bir bu başa gəldi. Nəzərin qarşısında dayanıb:

— Düz deyib ərəb müdriki, Nəzər müəllim! — söylədi və müsahibinin təəccübləndiyini və nə isə etiraz eləmək istədiyini duyaraq sözlərini tələsik əsaslandırmağa çalışdı: — bəli, düz deyib, özü də yaxşı deyib! «Padşahların sözü, sözlərin padşahıdı!» Mən başa düşürəm siz bu məsəli niyə görə çəkdiniz, Nəzər müəllim. Elə də olmalıdı. Düzdü, mən padşah deyiləm. Mən katibəm. Mənim sözüm əsas olmalıdı, mənim sözüm keçməlidi, mənim sözüm bıçaq pendiri kəsən kimi kəsərli və iti olmalıdı, Nəzər müəllim. Yoxsa hərcmərclik olar, anarxiya olar, belədə isə iş getməz.

Nəzər müəllim də, qalxdı, kötük stolun o tərəfində, katiblə üzbəüz dayanaraq:

— Sənin sözün pendiri bıçaq kəsən kimi kəsməlidi, Süleyman! Ancaq burda bir incə mətləb də var, bala! — dedi.

— Nədi o mətləb?

— O mətləb budur ki, sənin sözün tək pendiri kəsmir, elə olanda, sənin sözün fikirləri, dilləri, düşüncələri də kəsir, oğul. Əgər tək sənin sözünlə iş həll olunmalıdırsa, onda o büro üzvlərin var ha, ondu-on birdi, dəqiq bilmirəm, bax onda bəs onlar nə üçündü, niyə seçib yığıbsız ora? Hə? Formaldı? Gözdən pərdə asmaq üçündü? Elə olanda sənin o büro üzvlərin get-gedə kütləşirlər, müstəqil düşün-

mək, fikir söyləmək qabiliyyətlərini itirirlər. «Bizə nə? Katib deyir, deməli, düzdü». Amma axı sən də insansan, sən də bizim hər birimiz kimi səhv eləyə bilərsən, yanlış hökm çıxara bilərsən, Necə ki, səndən əvvəlki katib səhv elədi, məsələn, Mikayılı — oğrunun, julikin birini, deyilənlərə qulaq asmadan, az qala geroy eləmişdi. «Şərəf nişanı» verdirmişdi, prezidiumlarda yanında oturdurdu, hamıya nümunə göstərirdi, televizor ekranlarından Mikayıl az qala kənd zəhmətkeşlərinə əxlaq dərsi deməyə başlamışdı. Elə sən də, təzə gəldiyin ilk vaxtlarda, Mikayılın ətrafında yaranmış mifə inanıb onu yanında gəzdirirdin. Nə oldu axırı?! Bizə, şəxsən mənə gün kimi aydın idi ki, o nə yuvanın quşudu. Yaxşı oldu, tezliklə sən də başa düşdün ki, bu torpağı sevməyən, bu əli qabarlı camaatın haqqını yeyib quduran şərəfsizin birinə «Şərəf nişanı» vermişik. Bax, bu sənin dediyin həmin «pendir-bıçaq» fəlsəfəsinin fəna nəticələrindən biridir, Süleyman. Bir baş ağıllıdı, iki, üç, beş, on baş daha çox ağıllıdı, bunu sən özün bilirsən. Odur ki, demə: «kimin ağzı nədi mən deyəndən sonra etiraz eləsin». Qoy eləsinlər, qoy danışsınlar, onlar məni, məsələçün deyirəm, səndən yaxşı tanıyırlar. Sənin müəllimin olsam da, onlar — bu rayonun ziyalı, vəzifəli adamları məni sənə nisbətən daha yaxşı tanıyırlar. Bəlkə mən doğrudan da o vəzifəyə layiq deyiləm, bacarmaram. Olmazmı? Olar! Tamamilə mümkün olan şeydi, Süleyman. Məni bağışla ha, bəlkə sən heç belə eləmirsən, mənim xəbərim yoxdu. Mən bunu elə-belə, öz müşahidələrim, öz fikirlərim kimi sənə deyirəm.

— Prinsip etibarilə haqlısan, Nəzər müəllim. Qanunlarımız da belə deyir. Mən də belə eləmək tərəfdarıyam. Mənə isə… iş lazımdı, Nəzər müəllim! Ayrı cür… iş getməz!

— Sənə işdən də əfzəl bilirsən nə lazımdı?

— Nə?

— Sənə işdən də əfzəl insan gərəkdi, Süleyman! Təmiz, vicdanlı insanlar gərəkdi. Onda işlərin də yaxşı gedəcək, bala!

Süleyman dayandı, müəlliminin dilindən çıxan «bala» sözündə qəribə, isti bir məhəbbət duydu, bütün vücudundakı gərginlik əriyib yox oldu, hardansa mərhum atasının səsi gəldi qulaqlarına — rəhmətlik bu sözü deməyi çox xoşlardı, ya «Süleyman bala» deyərdi, ya da eləcə, adını çəkmədən «bala» deyə müraciət eləyərdi. Elə bil Nəzərin dilindən eşitdiyi o bircə kəlmə ilıq söz onu uşağa döndərdi, hökmünü, vəzifəsindən doğan zabitəni silib harasa apardı; Süleyman

Nəzər müəllimə eynən məktəb çağlarında olan kimi, altdan yuxarı, hörmət və ehtiramla baxıb qeyri-iradi gülümsündü:

— Elə ona görə sizi yanıma gətirirəm, Nəzər müəllim. Bayaqdan sizi dinləyirəm, heyran qalıram. Sərrast düşünürsüz, çox sərrast düşünürsüz. Düzünü etiraf edim ki, siz məndən də yaxşı katib olardız bu rayonda. Amma… hayıf, hayıf!..

Nəzərin gözləri parladı, Süleymanın nəyə hayıfsılandığını yaxşı başa düşə bilmədi, qocaldığınamı hayıfsılanırdı, ya nəyə?

Soruşmadı, Süleyman da xırdalamadı.

DÖRDÜNCÜ FƏSİL

İclasda çox adam vardı: büro üzvləri, kolxoz sədrləri, idarə, müəssisə rəhbərləri, təsərrüfat qabaqcılları iştirak edirdi. Öz kabinetinin balaca olacağını irəlicədən fikirləşən Süleyman, iclası birinci mərtəbədəki akt salonunda keçirməyi qərara almışdı və bu barədə üçüncü katibə — Hilal Hüseynova tapşırıq vermişdi. Ona görə gələnlərin hamısı işıqlı, səliqəli, mebel dəstgahı təzə olan zala yığışmışdı.

Nəzər lap qapının ağzında, sol tərəfdəki oturacaqda tək əyləşmişdi. Necə olsa da özünü qərib hiss eləyirdi, halbuki, büroya gələnlərin, yalan olmasın, hamısını tanıyırdı; eləsi var idi ki, lap yaxın idi. Bax, o qıraqda, pəncərə qabağında oturan Baba şagirdi olmuşdu, indi istehsalat idarəsinin rəisi idi, kolxoz sədri Qurban da burdaydı. İkisi də doğmaydı ona. Səfər də burdaydı. O kök, dazbaş kişi milis idarəsinin rəisidi — Ağayev. Onun yanındakı şüyərək, eynəkli kişi rayon prokuroru İsrafil Quliyevdir. Rayponun sədri Mustafa Səlimzadə, pambıq qəbulu məntəqəsinin müdiri Müseyib, çörək zavodunun direktoru Şamil… Daha bir neçə adam… Onları üzdən-sifətdən lap yaxşı tanıyırdı Nəzər.

Nədənsə ona elə gəlirdi ki, oturanların hamısı maraqlı bir tamaşanın iştirakçılarıdı, hərəsi, səhnəyə çıxmazdan qabaq əzbərlədiyi sözləri yenidən təkrar eləyir ürəyində və nə üçünsə orda, yuxarıda, tribunada çaşacaqlarından qorxur.

Nəzər özünü yeganə tamaşaçı sayırdı və bunu da düşünürdü ki, o da bircə bu günlükdür, əgər Süleymanın niyyəti baş tutsa, sabahdan, birisi gündən o da bu tamaşanın bir iştirakçısına dönəcək.

Bu rabitəsiz, qatmaqarışıq sualları beynində dolandıra-dolan-

dıra o, gözlərini Süleymandan çəkmirdi. Süleyman qırmızı örtüklü mizin arxasında ayaq üstə dayanmışdı, adamların yerbəyer olub rahatlanmağını gözləyirdi, baxışlarını salonda dolandırırdı, elə bil, kimisə axtarırdı. Nəzər üçün çox maraqlı idi; onu indi nə burada müzakirə olunacaq məsələlər, nə özünün necə təqdim olunacağı, nə də büro üzvlərinin bu işə necə baxacağı düşündürürdü. Cismən burdaydı, amma fikrən iki saat əvvəl köşkdə üzbəüz oturduğu, söhbət elədiyi Süleymanın yanında idi. Qırmızı örtüklü mizin arxasında ayaq üstə dayanmış Süleymanın özünü görürdü, səsini eşidirdi, ancaq dediklərindən heç nə başa düşmürdü, hələ də bayaqkı söhbəti-görüşü götürqoy eləyirdi. Süleymanla olan danışığı, maqnitofon lentinə yazılmış kimi, geri hərləyib təzədən qulaq asırdı.

Nəzərin aləmində vacib bir cəhət var idi — o, insanlıq idi. Kişi heç cür başa düşə bilmirdi ki, bayaq, ikisi qabaq-qənşər oturanda, Nəzər İmranın vəfatından yana-yana danışmaq istəyəndə o, niyə soyuqluq göstərmişdi, heç kövrəlməmişdi də. Kənar — yad bir adamdan danışırlarmış kimi, tezcənə sözü dəyişməyi nə demək idi? Halbuki, Nəzər gözləmişdi ki, dəfn mərasimində, camaatın yanında bəlkə də özünü ağlamaqdan zorla saxlayan, bunu şəninə, vəzifəsinə sığışdırmayan oğul, başqa kimsənin olmadığı o köşkdə, İmranı çox yaxşı tanıyan Nəzərin yanında açılmalıydı, kövrəlməliydi, lap ağlamalıydı da. Ancaq Süleyman belə eləməmişdi. O, üstəlik, məktəb illərinin xoş, unudulmaz çağlarını da yada salmamışdı. Yox, bunu Nəzər heç cür anlaya, sinirə bilmirdi. Nəzər bunu da heç yerə yoza bilmirdi ki, Süleyman, öz müəlliminin ailəsi, uşaqları barədə heç nə xəbər almamışdı. Axı o, yaxşı bilməliydi ki, Nəzər ona dərs deyəndə evliydi, uşaqları var idi. Bəs niyə ağzına su alıb susmuşdu Süleyman?

Sonra… Süleymanın büro üzvləri barədə dediyi, «mən deyəndən sonra ağızları nədi, etiraz eləsinlər?» sözləri Nəzərin qulaqlarında səslənirdi. Bunu deyən həqiqətən Süleyman idi? Bu sözlərdə böyük bir hökmranlıq, mənəmlik, xudpəsəndlik gizlənmirdimi? Nəzər bayaqdan buna cavab axtarırdı və indi büronun lap başlanğıcında gözü Süleymana sataşanda başa düşdü ki, bu sualın cavabı burdadı, bu iclasdadı. «Yaxşı-yaxşı bax, qulaq as, gör kim nə deyir, kim necədi?»

Nəzər diqqətini cəmləyib yenicə qulaq asmağa başlamışdı ki, salonun qapısı açıldı, ucaboylu, mütənasib bədənli, cücə-gözü parçadan tikilmiş don geymiş, otuz beş-otuz altı yaşlı qəşəng bir qadın yel kimi içəri təpildi və ucadan:

— Hanı yoldaş Həmidov? Hanı? — deyə-deyə oturacaqların arasıyla irəli, rəyasət heyətinə sarı addımladı və stol arxasındakı adamlara göz gəzdirib: — Hansınızdı yoldaş Həmidov? — deyə xəbər aldı. Qadın çox həyəcanlıydı, oturanların çoxusu üzünü, gözlərini görməsə də, səsindən bilinirdi ki, ağlayır. Süleyman da salondakılar kimi, bu gözlənilməz gəlişdən çaşmışdı, heyrətlənmişdi. Katib, qarşısında dayanan qadının iri, qara gözlərindən axan yaşı gördükdə nəsə bədbəxt bir hadisənin baş verdiyini yəqin edib təşvişlə:

— Sən kimsən, qız? — dedi. — Nə olub?

Qadın axtardığını tapmış adam kimi toxtadı, özünü ələ almağa çalışdı və geri dönüb əyləşmiş adamların içində kimisə baxışlarıyla aradı. Bu zaman Süleymanın böyründə oturmuş Hilal Hüseynov katibə o qadın haqda nəsə pıçıldadı, ancaq Süleyman eşidə bilmədi, təkrar soruşmağa isə qadın imkan vermədi: o, ağlar səslə söylədi:

— Məni bax o canavarın əlindən alın, yoldaş Həmidov, — deyə barmağı ilə milis idarəsinin rəisi Ağayevi göstərdi, — alın onun əlindən məni. Yoxsa, bax, bu irəykomun binasının içində üstümə benzin töküb özümü yandıracağam, qanımı tökəcəyəm üstünüzə!

Ağayevin rəngi ağappaq ağarmışdı — o boyda azman bədən büzüşüb sudan çıxarılmış cücəyə dönmüşdü. Qadının işarəsindən sonra hamının nəzəri ona dikilmişdi, baxışlar onu daha çox sıxıb əzirdi. Süleyman Ağayevi təəccübdən böyümüş gözlərilə ötəri süzüb qadına sarı döndü:

— Sakit ol, qız. De görək nə olub?

Qadın duruxdu:

— Elə burda?

— Hə, elə burda. Bax, bu adamların arasında. Danış görək nə olubdur?

Qadın yenə tərəddüdlə:

— İki dəfə yanınıza gəlmişəm, yoldaş Həmidov. Ancaq sizi tapa bilməmişəm, — dedi. — İndi məcbur oldum, bura — sizin iclasa gəldim. Üzr istəyirəm…

— Eybi yoxdu. Mən əvvəldən demişəm. Kim məni harda tutdu, orda da dərdini, şikayətini deyə bilər!

Süleyman bunları deyəndə Nəzər müəllimə baxdı. Yaxşı ki, o, Ağayevə zilləmişdi baxışlarını. Ancaq əslində Nəzər Süleymanın indi dediklərini eşidən kimi, bayaq köşkdəki söhbəti xatırlamışdı: «Mən

burda heç kəsi qəbul eləmirəm!» Amma indi ayrı şey deyirdi Süleyman. «Demək, söz hədəfə dəyib, demək, Süleyman nəticə çıxardıb; yaxşıdı, çox yaxşıdı. Bəs şikayətini deyə bilər» sözləri? Burda oturanlar düşünməzdilərmi ki, haçan, kimin yanında demisən bu sözləri, ay yoldaş Həmidov? Yox, heç kəs deməz, deyə bilməz. Süleyman da içində, ürəyində elə buna arxayın idi.

— Mənim adım Gülbadamdı, yoldaş Həmidov, deyə, nəhayət, əlindəki balaca yaylıqla gözlərinin yaşını silən qadın danışdı. — Tək, ərsiz bir qadınam, bir körpə qızım var. Ərim vəfat eləyib. Özüm də körpünün qırağındakı balaca mağazada işləyirəm. — Dayandı, fikirləşdi.

— Hə, sonra? — Süleyman onu cürətləndirmək üçün söylədi. — Sonra?

— Sonra da ki… Sonra da ki, bu Ağayev mənə göz verir, işıq vermir, yoldaş Həmidov. Mənə… üzr istəyirəm… pis-pis şeylər təklif eləyir… «Haçan gəlim, haçan gəlirsən?» Belə-belə sözlər. Axırı o gün oboxeses göndərib. Bir uşağa guya on qəpik «sdaç» əskik vermişəm. Onu da, inandığımız haqqı, xırdam olmuyub, oğlanın özünə də demişəm ki, on qəpik mənə sənə borclu, oğlum, gələn dəfə verərəm. Deyib, xala, eybi yoxdu. İnanmırsız, çağırın uşağı, soruşun. Əgər yalan deyirəmsə, qoy məni damlasınlar elə buradaca. İnanmırsız, bax, bu camaatdan bir-bir soruşun, görün mən indiyəcən kimin bir qara qəpiyini kəsmişəm, kimə beş-on qəpik əskik vermişəm. Bir kişi barmağını qaldırıb «mənə!» deyə bilməz. İndi, yoldaş Həmidov, bax bu Ağayev akt yazdırıb məndən, prokurora, nə bilim məhkəməyə verməklə hədələyir, on qəpiyin üstündə!.. Nədi, nədi, mən onun istəyinə əməl eləmirəm. Nə maaş alıram ki. Özümü, uşağımı güclə dolandırıram, mən indiyəcən oğurluq-əyrilik eləməmişəm. Amma pul aparsam gərək oğurluq eləyəm. Eləmək istəmirəm. Axır sözü bu olub ki, ya… yanıma gəlməlisən, ya da beş yüz gətirməlisən. Məni tək görüb, başsız görüb. — Bu son sözləri deyəndə Gülbadam təzədən kövrəldi, özünü saxlaya bilməyib hönkürdü. Süleyman tez qabağındakı qrafindən stəkana su tökdü, kimsə birinci cərgədən qalxıb ona suyu verdi və katibin işarəsiylə qolundan tutub çölə çıxardı. Araya dərin bir sükut çökdü. Adamlar az sonra bir-biriylə pıçıldaşmağa başladıqda, Süleyman hökmlü və qəzəb dolu səslə Ağayevə üzünü tutub:

— Dur ayağa görüm! — dedi. Ağayev, adəti üzrə, pencəyinin aşağıdan yuxarı par-par parıldayan ikinci düyməsini koppuş barmaqları ilə sığallayırdı, duranda da əlini düymədən çəkmədi. İri qarnı

qənşərində oturan prokurorun az qala peysərinə toxunacaqdı. İttihamını gözləyən cinayətkar kimi lal-dinməz katibin üzünə baxırdı. Əslində, dilli-dilavər adam olan Ağayev indi matı-qutu qurumuş kimi susurdu. Gülbadamın qəfildən içəri girib burda vay-şivən qoparacağını heç ağlına da gətirmədiyindən özünü yamanca itirmişdi, dinib-danışmağa söz də tapmırdı. Digər tərəfdən də indiyədək iki-üç katiblə işləsə də, hələ heç kəsin zəhmi onu belə basmamışdı; nədəndisə, elə ilk çağlardan Süleymandan çəkinmişdi, ehtiyat eləmişdi. Hətta bir dəfə bu barədə düşünəndə də ürəyindən keçirmişdi: «Allah özü məni bu Süleymanın qılıncından saxlasın!..» Və qəribə idi ki, iki ay bundan irəli o, katibi yuxusunda görmüşdü. Əli qılınclıydı yuxuda Süleyman. Özü də düz üstünə gəlirdi. «Vicdansız! Sənin paqonlarını açacağam, sənin piyli peysərini bax bu qılıncla vuracağam!» — deyirdi. Ağayev, tösmərək, ağır bədənli olmasına baxmayaraq elə sürətlə qaçırdı ki, elə bil yüz on kilo deyil – ürəyindən keçirmişdi: «Allah özü məni bu Süleymanın qılıncından saxlasın!..» Bütün bədəni tər içindəydi. Qışqırtısına ayılmışdı, handan-hana yuxu gördüyünü başa düşüb sevinmişdi. Və sonra heç kəsə, hətta qonşu çarpayıda yatan arvadına da bu yuxunu danışmamışdı. İndi katib «Dur ayağa görüm!» — deyəndə, taqətsiz halda qalxanda, ilk növbədə qorxu içində onun əlinə baxdı. Yox, katibin əlində qılınc yox idi.

— Ə, sənin vicdanın var? Heç boyundan-buxunundan utanırsan? Bu rayonda oğru, rüşvətxor yoxdu bəyəm? Hansını tutub gətiribsən indiyəcən, hə?

— Yoldaş katib, böhtandı… — Ağayev qurumuş dodaqlarını yalayıb nəhayət güclə dilləndi, — şər atır. Doğrudur, biz akt yazmışıq, amma mən ona heylə şeylər deməmişəm.

— Lap tutaq ki, deməmisən. Amma on qəpik üstündə akt yazmısan da!

— Bəli, yazmışam.

— Bəs sənin heç insafın-zadın yoxdu? Onun körpəsinə heç yazığın gəlmir? Mən sənə xeyli var göz qoyuram. Sənin haqqında camaat pis danışır, Ağayev. Qanun adından istifadə edib sənin kimi qarnını şişirənlər, peysərin yoğunladanlar var bizim rayonda. Bəs sənin gözlərin onları görmür? Min-min udanları görmür sənin gözlərin, amma on qəpik yeyəni görür, hə? — Sonra katib üzünü salona çevirdi — sizlərdən kim tanıyır o qadını? Kimin işçisidi o?

— Mənim, yoldaş Həmidov! — deyə rayponun sədri ayağa

qalxdı.

— Necə adamdı o, Mustafa? Həqiqətən oğrudu, əyridi, yalançıdı?

— Yox, yoldaş katib, — dedi Səlimzadə. — Gülbadam çox təmiz, namuslu, vicdanlı bir işçidi. Mən bunu tam ciddiyyətlə deyirəm. Siz təsəvvür edin ki, o, öz işlədiyi dükandan evinə bir dənə çörək aparanda onun pulunu qoyur, sonra götürür çörəyi. Elə təmizdi o! Yeddi ildi orda işləyir, bir nəfər narazı olan tapa bilməzsən ondan. Planı vaxtlı-vaxtında yerinə yetirdiyinə görə, sanitariya qaydalarına düzgün əməl etdiyinə və qüsursuz işlədiyinə görə hər il ona pul mükafatı, təşəkkür veririk biz.

— Bəs bu akt məsələsindən sənin xəbərin var, bir müdir kimi?

— Bəli, var, yoldaş Həmidov. Mən Gülbadamın özüylə də, o uşaqla da söhbət eləmişəm. Onun sizə söylədikləri həqiqətdi, yoldaş Həmidov. Acığına gəlməsin, mən bu barədə Ağayev yoldaşa da müraciət eləmişəm. Amma o, nə üçünsə daş atıb başını tutub ki, gərək onu basdıram getsin, deyir, xalqın malını dağıdır, gərək tutulsun.

— Xalqın on qəpiyinin qeydinə qalan oğlan, bəs xalqın namusunun qeydinə niyə qalmırsan? Hə? Cavab ver, Ağayev! Bəs bu camaatın namusu sənin namusun deyil? Niyə gözlərini döyürsən?

— …

Süleyman yenə salonda oturanlara baxdı:

— Yoldaşlar. Biz bu gün burda tamam ayrı məsələləri müzakirə etməliydik, ancaq, madam ki, belə söhbət ortalığa düşdü, yeri gəlmişkən, sizin nəzərinizə bir şeyi çatdırmağı vacib bilirəm. Siz oturun, — deyə o, Səlimzadə və Ağayevə əyləşmək icazəsi verdi və sözünə davam etdi: — Aldığım məlumatlardan və öz müşahidələrimdən belə hiss eləyirəm ki, bəzi vəzifəli yoldaşlar öz vəzifələrinin imkanlarından sui-istifadə edərək cavan qızları, gəlinləri, qəşəng qadınları ələ gətirmək, pis yola salmaq məsələsində «ciddi» fəaliyyət göstərirlər. Bu, çox qorxulu və eyni zamanda vicdansız bir işdi, yoldaşlar! Buna qətiyyən sizin haqqınız və ixtiyarınız yoxdu. Başa düşürsünüz, yoxdur! Təsəvvür etmək heç də çətin deyil ki, hər vəzifə sahibi iki-üç qızı-qadını pis yola salsa, görün nə böyük fəlakət olar! Ondan sonra siz nə haqla namusdan, qeyrətdən danışa bilərsiz? Mən açıq şəkildə sizə deyirəm: bu barədə ciddi düşünün, yoldaşlar! Burda olanlar, bu gün burda olmayanlara da çatdırsınlar, xahiş edirəm. Təmiz əxlaq, saf mənəviyyat olmayan bir cəmiyyətdə heç bir yaxşı şey ola bilməz. Və

kim əxlaq məsələsində büdrəsə, məndən aman istəməsin. Bunu yadınızda yaxşı saxlayın!

Süleyman qabağındakı kağıza baxıb sonra yenə üzünü Ağayevə tutdu:

— O ki, qaldı Gülbadamın məsələsinə, o aktı burdan çıxan kimi gedib cırıb atarsan, başa düşdün?

— Bəli, yoldaş katib!

— Səni bu vəzifəyə camaatın canının-namusunun, malının keşiyini çəkməyə qoymuşuq. Get bir az da qeyrət dərsi oxu. Xalq namusunu çölə atmayıb.

— Baş üstə, yoldaş katib!

O boyda bədənin robot kimi «bəli», «baş üstə» deməsinə yerdə pıqqıldayıb gülənlər oldu, ancaq Ağayev Süleymana diqqət kəsildiyindən bunu eşitmədi. Yerinə oturandan sonra cibindən çıxartdığı dəsmalla sir-sifətinin tərini sildi, bütün iclas boyu baxışlarını qaldırıb bircə dəfə də olsa katibin üzünə baxmağa cəsarət eləmədi.

Nəzərin ürəyi dağa dönmüşdü. Süleymanın Ağayevə belə sərt təpinməsi kişiyə ləzzət eləmişdi. Ağayevin bu hərəkəti onda nə qədər ikrah, nifrət oyatmışdısa, Süleymanın tənbehi, acı sözləri bir o qədər qəlbindən tikan çıxartmışdı. Gülbadam adlanan o qadının nəmli gözləri, ağlar səsi gözünün qabağından, qulağından çəkilib getmirdi. «Adamlarda vicdan, qorxu, insaf qalmayıb! Bu da mənim keşikçim!.. Faşist oğlu faşist! İxtiyarım olsaydı, bax elə burda, bu camaatın gözünün qabağında sənin paqonlarını açardım, partbiletini alardım! Gözünə dönüm, Süleyman! Yaxşı dedin. Belələrinin ipini çəkməsən, başının üstündə zəhmnən, hökmnən dayanmasan, çox pəstəhadan çıxarlar!»

Nəzər öz aləmindəydi, fikrində, xəyalında ucalan Süleymana razılıq eləyirdi; birdən gördü ki, katib salona göz gəzdirib kimisə axtarır. Maraqlandı. Süleyman deyirdi:

— Hanı o mağazanın müdiri? Böyük ərzaq mağazasının müdirini deyirəm. Hanı o?

Rayponun sədri Səlimzadənin rəngi ağardı. «Vay dədə. Yenə görəsən nə olub, neynəyib Oruc? Axı Oruc…» Nigarançılıqla ətrafa baxındı. Oruc — mağazanın müdiri, qıraqda, orta cərgədə oturmuşdu. Onun da sifəti avazımışdı. Baxışları rastlaşdıqda Səlimzadə ona işarə elədi ki, qalxsın ayağa. Ucaboylu, qara saçlarını arxaya daramış, xoş sifətli Oruc ehtiyatla ayağa qalxdı və fikrində nə günahın sahibi ola

biləcəyini götür-qoy eləyə-eləyə qətiyyətsiz bir səslə:

— Mən burdayam, yoldaş Həmidov! — söylədi.

Süleyman səs gələn səmtə çevrilib:

— Hə, hə. Səni axtarıram. Sənin adın nə oldu? — soruşdu.

— Oruc Yusif oğlu.

Katib üzünü oturanlara tutdu:

— Yoldaşlar! Baxın ona. Yaxşı baxın!..

Səlimzadə, Oruc özü də sarısını uddu. Oturanlar əmr imiş kimi çönüb Oruca nəzər saldı. Səlimzadə başını qabağındakı adamın kürəkləri arxasında gizləməyə çalışdı. Oruc baxışlar altında əzilirdi, qıçlarının əsdiyini hiss eləyirdi. Katib həlim, mehriban bir tərzdə hamının intizarına son qoydu:

— Bizə belə adamlar lazımdı, yoldaşlar! Çox təəssüf ki, sizdə, bizdə elə yanlış bir təsəvvür yaranıb ki, filankəs əgər ticarətdə işləyirsə, demək oğrudu, əliəyridi. Söz yox, elələri də var. Ancaq axı Oruc kimiləri də var, yoldaşlar! Mən bura təzə gələndə elə birinci gün çıxmışdım rayon mərkəzinə. Görürəm, səliqəli geyinmiş, şlyapalı, qalstuklu bir adam, əlində süpürgə mağazanın qabağını süpürür. Baxıram, bu viddə-fasonda süpürgəçi olmaz. Bəs bu kim ola? Yaxınlaşıb deyirəm, ay yoldaş, siz kimsiz, nəçisiz? Nə desə yaxşıdı? «Mən buranın həm müdiriyəm, həm nökəri!» Çox xoşuma gəldi cavabı. Sən demə, süpürgəçi xəstələnibmiş. Sizin hansınız belə eləyər? Mən cəsarətlə deyə bilərəm: heç biriniz!.. «Mən müdirəm!.. Süpürgəçi deyiləm!» — deyərsiz. Zibil içində oturarsız, amma idarənizi, kabinetinizi süpürməzsiniz. O adam ki, özünü sənətinin, peşəsinin həm ağası, həm də nökəri hiss eləyir, onun hər işi yaxşı gedər. Mən buna əminəm. Gec də olsa, sənə, Oruc, təşəkkür eləyirəm. Sağ ol. Otur.

Oruc əyləşdi. Səlimzadə rahat nəfəs aldı. Oruca baxıb sağ əlinin baş barmağını yuxarı qaldırdı, yəni «əla!» Oruc uşaq kimi mehriban-mehriban gülümsündü.

«Yaxşıya yaxşı, pisə pis deməsən, haqsızlıq olar, mizan-tərəzi itər, oğul!» — deyə Nəzər ürəyində Süleymana müraciət elədi. Süleyman isə, çoxdan başqa, əsas məsələyə keçmişdi:

— Mən sizi bura Ağayevi tənqid, Oruc Yusifoğlunu tərif eləmək üçün yığmamışam, yoldaşlar. Açığı deyim ki, sizdən, sizin işinizdən narazıyam, çox narazıyam. Siz heç qəzet oxuyursuz, televizora baxırsız? Ya baxmırsız, vaxtınız yoxdur?! Mən görürəm, baxmırsız, oxumursuz, eşitmirsiz. Belə olmasaydı, utanardız, qızarardız! Xəcalət

çəkərdiz. Xəcalət çəkərdiz ki, bizim rayonun adı siyahıda aşağıdan birinci yerdə gedir. Bütün respublikada biabır olmuşuq. Bakıya gedəndə, Mərkəzi Komitədə heç kəsin üzünə şax baxa bilmirəm. Başa düşürsüz, baxa bilmirəm. Bu sizin heysiyyətinizə təsir eləmir? Pambıq torpağa tökülüb, yığan yoxdur. Baxın, heç uzağa getməyək, elə sənin kolxozunu götürək, yoldaş Abbasov. Bu nə yığımdır? — O, qabağındakı kağızı götürüb baxdı — bugünkü məlumatdı. Bu nə pambıqdı vermisən bu gün? Nədi, adamın yoxdur, texnikan yoxdur, hə?

Birinci sırada əyləşmiş dazbaş, eynəkli kişi qalxdı:

— Adamım da var, texnikam da var, yoldaş Həmidov. Pambığım yoxdu.

— Necə yəni pambığım yoxdu?

— Sadəcə yoxdu.

— Bəs plan, öhdəlik götürəndə, bu tribunadan danışanda, necə deyərlər, ağzına çullu dovşan sığışmırdı, onda döşünə döyürdün, bağ belə, bostan elə. Bəs hanı?

— Deyirdim, düzdü! Axı bu torpaq da yazıqdı, Süleyman müəllim. Nə olar ki, dili yoxdu, dərdini deyə bilmir. Biz ki, insanıq, biz ki, başa düşürük, daha doğrusu, başa düşməliyik ki, o biri kolxozları bilmirəm, bizim kolxozun torpağı daha yorulub, əldən düşüb. Nədən ki, mən gözümü açandan, ağlım söz kəsəndən üzü bəri — ən azı qırx ildi, bu torpaq dinclik bilmir, sağmal inək kimi elə hey sağırıq. Biz oxumuşuq, ata-babalarımızdan eşitmişik, torpağı dincə qoyarlar, yonca əkərlər. Biz isə bunu eləmirik, əvəzində dərman-zəhər veririk. Xəstəyə çox dərman verə-verə də öldürmək olar, yoldaş Həmidov.

— Bu nağılları çox eşitmişik, Abbasov. Sən mənə de görüm, nə təhər olur, bax, elə sənin qonşun Səfər Səfərov — torpağınız bərabər, adamınız, texnikanız bərabər, — nə təhər olur o, gündəlik planı artıqlamasıyla doludur, mükafat da alır, sən isə… quyruqda sürünürsən, hə?

Abbasov daz başında dəsmalı gəzdirdi, nə isə demək istədi, ancaq, aydınca hiss olundu ki, sözünü uddu. Onun susduğunu görən Süleyman elə o cərgədə əyləşən Səfərə üzünü tutdu:

— Bəlkə sən deyəsən bunun illətini?

Səfər himə bənd imiş kimi yerindən dik atıldı və:

— Məncə, təşkil eləməkdən asılıdı, yoldaş Həmidov, — dedi.

— Tamamilə düzdü. Təşkil eləmək. Bəli, kim ki, işini yaxşı təşkil eləyir, onun planları axsamır. Görünür, sən, yoldaş Abbasov, yaxşı təşkilatçı deyilsən, ona görə, iş görmək əvəzinə, adamları səfərbər etmək əvəzinə, başlayıb bizə nağıl danışırsan.

Abbasov udqundu:

— Mən həqiqəti danışıram, yoldaş Həmidov.

Səfər katibin xoşuna gəlmək üçün Abbas Abbasovu əyri-əyri süzüb,

— Sənin dediyindən elə çıxır ki, biz yalan danışırıq hörmətli Süleyman müəllimin hüzurunda? — dedikdə Abbas özünü saxlaya bilmədi:

— Mən elə demirəm, Səfər. Mən demək istəyirəm ki, Həmidov yoldaşın dediyi kimi, bizim torpağımız bərabər deyil.

— Necə bərabər deyil? Eyni qədər əkin sahəniz var, Abbas. — Süleyman qarşısındakı ayrı bir vərəqə baxıb dedi:

Abbas cavab verdi:

— O kağıza nahaq baxırsız, yoldaş Həmidov. O kağızda bizim əkin yerlərimiz bərabərdi, düzdü. Həqiqətdə isə, Səfər min hektar da artıq yer əkib. Səfər onun hesabına gur-gur guruldayır. Mən isə… olanımı əkmişəm, olanımı da verirəm.

— Siz nə danışırsız, Abbasov?

— Mən olanı deyirəm, yoldaş Həmidov.

— Bu düzdü, Səfər? — katib soruşdu.

— Abbasdı da, yoldaş katib, sözdü də deyir, — deyə Səfər alt dodağını çeynədi, ancaq katibə baxıb qımışdı. — Onun köhnə adətidi, əli ətə çatmayanda, deyir çiydi. Biz on ildi, on beş ildi elə o qədər əkirik, yoldaş Həmidov. İnanmırsız, yoldaşlardan soruşun…

Süleyman baxındı, kimisə axtardı.

— A Qurban, sən bir ağıllı adamsan, bunların dediklərini mən başa düşə bilmirəm, — dedi. — Sən nə deyə bilərsən bu barədə?

Qurban orta cərgədə oturmuşdu. Əlindəki qəzeti dörd büküb üzünü yelpikləyirdi. Katibin onun adını çəkdiyini görüncə qalxıb qəzeti oturacağa qoyaraq:

— Süleyman müəllim, mənə elə gəlir ki, bu, çox ciddi məsələdir, onu burada, elə-belə, hazırlıqsız müzakirə eləməyinə dəyməz, — dedi. — Mən təklif eləyirəm ki, əgər razısınızsa, bunu yığım qurtarana saxlayaraq, bir neçə yoldaşdan ibarət mötəbər bir komissiya

ayıraq, torpaqlarımızın dəqiq uçotunu aparsın, büroda sözünü desin. Yoldaşlar da çıxış eləsinlər. Əgər biz bunu vaxtında eləməsək, çoxumuz Mikayılın vəziyyətinə düşə bilərik, biabırçılıq olar. Əgər yadınızdadırsa, mən sizə demişəm ki, bizdə torpaq fondundan istifadə bərbad vəziyyətdədi və bunu vaxtında nizama-sahmana salmasaq, gələcək yaxın illərdə işimiz fəna olacaq, yoldaş Həmidov.

Qurbanın sözləri Süleymanın ağlına batdı və o, razılıq hissilə başını tərpədib:

— Yaxşı təklifdi, məncə, — dedi və başını döndərib yanında oturmuş katiblərə işarə ilə, — onacan bizim yoldaşlar da qış yuxusundan ayılar, — deyə əlavə elədi.

Bu zaman kimsə salonda bərkdən asqırdı, elə bərk asqırdı ki, bəziləri səksəndi, bəziləri çönüb ona baxdı. Süleyman da asqıranın kim olduğunu görmək üçün boylandı:

— Hə, Murad müəllim? Sənsən?

Ortaboylu, saçları seyrək bir kişi ayağa qalxıb:

— Üzr istəyirəm, yoldaş Həmidov — dedi. — Bir balaca… zökəm olmuşam.

— Demək, bu gün pambığa çıxmamısan, ha?

Murad çaşdı:

— Yox, hə…

— Bu nə cavabdı, Muradzadə? Çıxmısan, çıxmamısan?

— …

Süleyman qabağındakı ayrı bir kağıza baxıb:

— Çıxmısan, — dedi. — Deyə bilərsənmi, bu gün nə qədər pambıq yığmısan?

— Bir xeyli… yığmışam…

— Dəqiq bilmirsən nə qədər pambıq yığmısan?

— …

— Bu siyahıda adına əlli kilo pambıq yazılıb.

— Hə.

— Amma axı sən bu gün də, dünən də, srağagün də çölə — tarlaya ayaq basmamısan? Yəni sənin əllərin o qədər uzundu ki, evində, eyvanında əyləşib tarladan pambıq yığa bilirsən?

Murad udqundu, uzun boğazının hülqumu qalxıb-endi:

— Mən…

— Hə, sən… maarifi səfərbər eləyib bir nəfər kimi tarlaya çı-

xarmaq, yığımda bizə kömək eləmək əvəzinə, özünü xəstəliyə vurursan, hələ üstəlik yerinə işləməyə adam da tutursan. Elə bilirsən, biz bilmirik?..

— …

— Sənin əvəzinə pambıq yığan adama nə qədər vermisən?

— …

— Üç günə yetmiş beş manat. Düzdü?

— Mən pul verməmişəm, yoldaş Həmidov. Xahiş eləmişəm.

— Hə!.. Yaxşı, sənin əvəzinə işləyən Əhmədin əvəzinə görəsən kim işləyib bu üç günü, hə? Yoxsa o da səndən aldığı puldan on beş-iyirmi manat verib bir ayrı adam tutub işlədir, hə?.. Sən müəllimsən axı, sən bilirsən ki, bizdə insanın insanı istismar etməsi qadağandır! Belə sovet qanunu yoxdur!

Murad yaman yerdə axşamlamışdı. Son vaxtlar, xüsusən Nəzər təqaüdə çıxandan sonra katibin ona münasibətinin dəyişdiyini hiss eləmişdi və bundan hardasa bərk nigaran idi. Təcrübəsindən bilirdi ki, katibin gözündən düşən adam gərək üzüsulu ərizəsini verib getsin. İllər boyu Murad belə görmüşdü. Ancaq onu toxtadan bu idi ki, Muradın yuxarıda, nazirlikdə möhkəm dayağı, qahmarı vardı, o qoymazdı Muradı Süleyman beləcə asanlıqla gözümçıxdıya salsın, çığnayıb üstündən keçsin. Qoymazdı. O biri tərəfdən də prokuror İsrafil qudasıydı. Görünür, Süleyman bunu bilmirdi.Əhməd yaxşı içən idi, günün, gecənin çox vaxtı kefli olurdu. Üç gün araq puluna Muradın əvəzinə pambıq yığmışdı həqiqətən. Katib deyən qədər də pul almışdı Muraddan. Ancaq bunu katib hardan bilirdi? Ya kefli olub Əhməd, ağzından qaçırıb, ya da… «Yox, Süleyman məni izlətdirir. Qəzəbinə gəlmişəm» — deyə düşünən Murad «nə olar» fikriylə, çoxdan etiraz eləmək istədiyi, yığılıb-yığılıb ürəyini deşən sözləri dilinə gətirdi:

— Belə sovet qanunu da yoxdur ki, müəllim, maarif şöbəsinin müdiri, həkim gedib pambıq yığsın, yoldaş Həmidov. Belə sovet qanunu yoxdur! — Bu sözləri elə qətiyyətlə söylədi ki, kəskinliyindən özü də qorxdu. Ancaq daha demişdi.

Süleyman belə cavab gözləmirdi Muraddan. Bir anlığına qulaqlarına inanmaq istəmədi. Döyükdü. Sonra qəribə bir təbəssümlə — qəzəb qarışıq bir təbəssümlə qımışdı:

— Düz deyirsən, Murad. Belə sovet qanunu yoxdur. Ancaq sən

bilməlisən ki, bu, ümumxalq işidir. Pambıq — bizim çörəyimizdi, paltarımızdı, qızılımızdı. Onu min bir əziyyətlə yetişdirmişik, indi də yığmalıyıq, qoymamalıyıq ki, ayaqlar altında qalıb çürüsün. Buna görək hamımız əl yetirək, el sərvətini qoruyaq. Bu, sənin vətəndaşlıq borcundur.

— Mən bunu yaxşı başa düşürəm, yoldaş katib. Ancaq bunu zorla eləmək lazım deyil, qanun səviyyəsinə qaldırmaq düz deyil. Mən yığım başlanandan çöldəyəm, döşümdə önlük, belim əyri. Üç gün özümü nasaz hiss eləmişəm, çölə çıxmamışam. Amma siz elə vəziyyət yaratmısız ki, biz qorxumuzdan bilmirik neyləyək. Bir gün yığıma çıxmayanda az qala bizə xalq düşməni kimi baxırsız, az qala siyasi rəng vermək istəyirsiz… Ona görə biz məcbur oluruq ki… belə-belə yollara əl ataq. Həkimlərə tapşırmısız ki, heç kəsə bülleten verməyin, versəniz, atanızı yandıracağam. Bax, bu, düz deyil, yoldaş Həmidov. Mən açıq deyirəm… Bu, qanunsuzluqdur.

Süleyman pərt olmuşdu. Yaxşı başa düşürdü ki, Muradzadənin sözlərində həqiqət çoxdu. Belə eləməyə haqqı olmadığını özü də anlayırdı. Ancaq neyləməliydi? Bütün rayonlarda bu təcrübədən istifadə etmirdilərmi? Tək o idimi belə göstəriş verən? Yox. Plan dolmalıdı, vəssalam. Öhdəlik yerinə yetirilməlidi, vəssalam, — bu idi onu düşündürən. Hansı yolla? Bunun fərqi yoxdu. Süleymanı pərt eləyən o idi ki, Murad Muradzadə bu qədər adamın içində onun sözünün qabağına söz çıxardırdı. Onu oturtmaq, yerini tanıtmaq lazım idi. Süleyman doğrudan da bilmirdi ki, Muradın beli prokurora bağlıdı — təzə qohum olublar. Kişi Bakıda, İnturisdə hələ tələbə olan oğluna cəlallı toy eləyib, Muradın qızını alıb.

— Sən çox qanun-qanun deyirsən son vaxtlar, Murad. Amma yaxşı olardı ki, bu qanunu öz məktəblərində qoruyaydın, yerinə yetirəydin.

— Mən hansı qanunsuzluq eləmişəm məktəblərdə? — Murad daha geri çəkilməyin, həsləməyin mənasız olduğunu başa düşüb sinəsini qabağa verərək qabardı. — Hansı qanunsuzluqdan danışırsız siz, yoldaş Həmidov?

Katib kəsərsiz başladı:

— Məktəblərdə nizam-intizam yoxdur, kadrları düzgün yerləşdirmirsiz.

— Məsələn?

— Məsələn? — o, duruxdu, — məsələn, elə Əsgərabad kən-

dindəki məktəbi götürək. Siz hansı keyfiyyətlərinə, ləyaqətinə görə Şakir Şakirzadəni Nəzər müəllim kimi bütün respublikada tanınan bir direktorun yerinə qoymusuz?

— Cavanlara qayğı borcumuzdu. Mən onu yaxşı mütəxəssis olduğu üçün direktor qoymuşam.

— Yəni Şakir Nəzər müəllimdən yaxşı mütəxəssisdi?

— …

— Soruşuram, yaxşı mütəxəssisdi? Yox! O, sənin qardaşın oğludu. Sən burda şəxsi hisslərlə yaşamısan, münasibətlə yaşamısan, Murad. Bu, kommunistə yaraşan sifət deyil.

Murad bir anlığa nə isə fikirləşdi, sözlü-sözlü katibin üzünə baxdı və sonra dedi:

— Mən görürəm siz də münasibətlə iş görməyi üstün tutursuz, yoldaş Həmidov.

— Bu nə sözdü? — Süleyman qızarıb səsini ucaltdı.

— Bu o sözdür ki, Nəzər müəllimin pensiyaya çıxması sizə deyəsən çox pis təsir eləyib, ona görə də, mənimlə haqq-hesab çürütməyə çox can atırsız.

Süleyman təmkinini itirməməyə çalışaraq mümkün qədər aramla Murada cavab verdi:

— Bəli, Nəzər müəllimin belə haydı-hoyduyla, Şakirin diqtəsiynən pensiyaya çıxarılması tək mənə yox, bütün ziyalılara pis təsir eləyib, Murad. Sən özün müəllimsən və bizim hamımızdan yaxşı bilirsən ki, yaxşı müəllim nə deməkdi, bunu da yaxşı bilirsən ki, Nəzər necə müəllimdi.

— Bilirəm.

— Nəzər müəllimlər müəllimidi, Murad. Nəzər kimi müəllimin yəni belə çoxdu məgər ki, onun qədrini bu cür ucuz tutursan?

— Mənim o kişiyə böyük hörmətim olub həmişə, elə indi də var. Amma yəqin sizə düzgün məlumat verməyiblər, yoldaş Həmidov. Mən günahkar deyiləm, ya Şakir günahkar deyil ki, Nəzər müəllim özü ərizə verib, xahiş eləyib ki, təqaüdə çıxmaq istəyirəm. Mən şəxsən onun ərizəsini oxumuşam, qol çəkmişəm. Yalan deyirəmsə, özü burdadı, qalxsın desin.

Nəzər şəhadət barmağını burnunun üstünə qoymuş, başını da azca yana əymişdi, Süleymanla Muradın danışığına qulaq asırdı. O, Muradı çoxdan tanıyırdı və indiyəcən onu heç bir katibin qabağında

belə şax söz deyən görməmişdi. «Arxalı köpək qurd basar!» — düşünürdü. Buna təəssüf eləyirdi ki, onun özü burada, bu qədər adamın içində müzakirə mənbəyi olub. Digər tərəfdən də ürəyi dağa dönmüşdü kişinin. Süleyman onun haqqında gör nələr deyirdi. Bu, onun üçün hər şeydən qiymətliydi. Ancaq Muradla Süleymanın deyişməsinin zilə çıxmasını istəmirdi, çünki qanıqaraçılıq olacaqdı və bu söz-söhbətin fısqırığı uzaqdan, lap Bakıdan gələcəkdi. Süleyman bilmirdi, Nəzər isə yaxşı bilirdi ki, sabah, biri gün Bakıya imzasız məktublar axacaq və Süleymanın ünvanına ağlı-qaralı çox şey yazılacaq. Orada da, beşi inanmasa, ikisi, üçü inanacaqdı. Bu gərgin söhbətə son qoymaq üçün Nəzər gözlənilmədən ayağa durdu və:

— Mən özüm ərizə yazmışam, yoldaş Həmidov! — söylədi, — Özüm çıxmaq istəmişəm müəllimlikdən!..

Elə buna bənd imiş kimi, Murad tapança kimi açıldı:

— Gördüz? Daha buna sözünüz yoxdu ki?

— Yaxşı, Muradzadə, sən əyləş. — Süleyman onun üzünə baxmamış əlini yellədi. — Sənlə söhbətimizi hələ qurtarmış hesab eləmirəm. Məktəb-müəllim məsələsinə gələn ay bir də qayıdacağıq. Onda hər şeyi ətraflı danışarıq. Hilal, sən yaddaş dəftərinə bunu qeyd elə.

— Baş üstə, — deyərək üçüncü katib, göy bloknotuna tələsik nə isə yazdı. Süleyman sözünə davam etdi:

— Arif Qulamovu görmürəm burda! Hanı o? Bəs deməmisiz?

— Demişəm, yoldaş Həmidov, — Hilal cavab verdi. — Ancaq gəlməyib. Xəstədi. Bülletendədi.

— Mən qəribə bir şey müşahidə eləyirəm sizin bəzilərinizdə, yoldaşlar. Elə ki, bir balaca çətinə düşürsüz, haqq-hesab məqamı gəlir, o saat xəstələnirsiz. Bu nə deməkdi? Bu mərəzdən əl çəkin birdəfəlik; necə olur, Arif bilən kimi bu gün onun məsələsi qoyulacaq, iki gün qabaqdan sifarişnən xəstələnir? Bu, meydandan qaçmaq, məsuliyyətdən qaçmaq deyilmi? Ona deyin ki, məsələsi Bakıda da, burda da həll olunubdur, — sözünə azca ara verib bir qurtum su içərək dedi: — Yoldaşlar. Bizim rayon partiya komitəsinin fikri belədir və ümid edirəm, büro üzvləri də bununla şərik olar ki, Xalq nəzarəti komitəsinin sədri vəzifəsində bizim hamımızın ağsaqqalı, başbiləni, hörmətli Nəzər müəllimi təyin edək. Mən elə bilirəm ki, o, bu məsuliyyətli vəzifənin öhdəsindən ləyaqətlə gələcək və bizim etimadımızı doğruldacaq. Necə bilirsiz? Ya başqa fikirdə olan var?

İstehsalat idarəsinin rəisi Baba əlini qaldırıb söz istəyərək dedi:

— Çox yaxşı namizəddir. Mən Nəzər müəllimi çoxdan, lap uşaq vaxtından tanıyıram. Buradakıların çoxu, elə siz özünüz də onu yaxşı tanıyırsız. O, kristal adamdı, yoldaş Həmidov. Məncə, lap yerinə düşər.

— Doğrudur.

— Layiqdir, — yerdən adamlar Babanın sözünü təsdiq elədi. Ancaq səs kəsilən kimi Murad ayağa qalxdı və:

— Olar, yoldaş katib? — deyə xəbər aldı.

— Buyur, Muradzadə.

Süleyman maraqla ona sarı döndü:

— Mən elə bilirəm ki, o vəzifə üçün Nəzərin yaşı keçib. O yerə cavan, enerjili bir adam qoymaq lazımdı.

— Arif məgər cavan deyildi? — Süleyman soruşdu.

— Arif? Cavan idi…

— Demək, məsələ heç də yaşda deyil, Muradzadə, başda və ürəkdədir, vicdandadır.

Bu xəbər burda oturanların çoxu kimi, Muradzadə üçün də təzə idi. Eşidən kimi, ürəyi sıxılmışdı və bir neçə an qabaq da o sıxıntının təsirilə qalxıb o sözləri demişdi. Ani olaraq başında dolandırmışdı: «Bu kişi dəvəyə niyə qanad verir görəsən? Uçurtmamış dam-daş qoymayacaq».

— Nəzər özü razıdı məgər? — Murad soruşdu.

Katib rişxəndlə güldü:

— Əlbəttə. Yoxsa sən elə bilirsən biz ona zorla bu işi tapşırırıq?

Muradzadə sözlərinin yersiz, kəsərsiz və mənasız olduğunu duysa da, yenə dilini saxlaya bilmədi:

— Yəqin Nəzər bu işin nə qədər çətin, məsuliyyətli olduğunu təsəvvür eləmir, yoldaş Həmidov. Yoxsa, qol qoymazdı. Mən, məsələn, o yaşda elə çətin işə getməzdim.

Nəzər Muradzadənin niyyətini başa düşürdü, səbrini basırdı; «İstəmir bu kişi məni, heç istəmir. Neyləmişəm, bilmirəm. Həmişə məni ayaqda, sürünən, zəlil görmək istəyib Muradzadələr tayfası. Niyə, axı niyə?» — deyə, ürəyində dolandırırdı bayaqdan. Doğrudur, bu təkidli sualın cavabı onun özünə gün kimi aydın idi, ancaq kimsəyə açıb deməyi sığışdırmırdı şəninə. Murad da, Şakir kimi, həmişə Nəzərin hörmətinə, savadına, şöhrətinə küsənmişdi. Murad illər boyu qorxmuşdu ki, onun oturduğu stulu — Maarif şöbəsinin müdiri

vəzifəsini günlərin birində əlindən alıb Nəzərə verəcəklər. İnsafən, o özü də — Murad özü də bu yerə ürəyində onu layiq bilirdi. Lakin bunu deyən yox idi, eləyən yox idi. Murad Süleyman bura gələn zaman o günün yaxınlaşdığını hiss eləmişdi, daha çox qorxmuşdu və Şakirlə xəlvətə çəkilib Nəzəri ümumiyyətlə maarif sistemindən uzaqlaşdırmaq tədbirini tökmüşdü. «Süleyman, pensiyaya çıxmış adamı, gözünün işığı da olsa, gətirib maarifə müdir qoymayacaq ki?» Bu niyyətlərinə çatmışdılar. Amma indi vəziyyət ayrı şəkil alırdı. Nəzər nəzarət komitəsinin sədri seçilirdi və bu, Muradın fikrincə, daha təhlükəli idi: indi Nəzərin qabağında heç cür durmaq olmayacaqdı.

Əsəbləri gərilmiş Nəzər, təvazökarlığı-filanı kənara qoyaraq, elə yerindən, uca səslə söylədi:

— Sən sənsən, Murad, mən də Nəzərəm. Yəni deyirsən sənin-lə mənim heç fərqim yoxdu?

— Mən səni istədiyimdən deyirəm, Nəzər.

Nəzər kinayə ilə:

— Bilirəm sizlər məni necə istəyirsiz, Murad, — dedikdə Murad ona quş baxışı yetirdi, əllərini yana açaraq:

— Özün bilərsən, — söyləyib oturdu. Salonda pıçhapıç gəzdi. Bu ara Əmiraslanov Süleymanın qulağına nə isə pıçıldadı, o, diqqətlə dinlədi, başını asta-asta tərpətdi. Süleyman dikəlib:

— Daha kim Nəzər müəllimi Muradzadə kimi çox istəyir? — deyə soruşduqda heç kəs dillənmədi. Katibin səsindəki rişxəndi duymaq çətin deyildi. Danışmaq istəyən olsaydı da, sözünü uddu.

Katib boğazını arıdıb gər səslə:

— Bu məsələ ilə qurtardıq, yoldaşlar. Nəzər müəllimi rayon xalq nəzarəti komitəsinin sədri təsdiq edirik. Nəzər müəllim, sabahdan öz işinizə başlaya bilərsiz. Ümid edirik ki, siz öz dəyərli məsləhətlərinizlə, fəaliyyətinizlə bizə, rayon partiya komitəsinə layiqincə kömək göstərəcəksiniz, — dedi və sonra Muradzadəyə müraciətlə: — o ki, qaldı sənə, yoldaş Muradzadə, mən bir şeyə çox təəccüb eləyirəm: bu ürəklə sən necə bizim bu maarif cəbhəsinə başçılıq eləyirsən? Və ümumiyyətlə, bu ürəklə sən necə müəllim olmusan, — söylədi.

Muradzadə cınqırını da çıxartmadı.

BEŞİNCİ FƏSİL

Nəzər müəllim o oktyabr gecəsi, taxta çarpayısının üstündə, ağ miçətkənin içində səhərəcən çimir belə eləməmişdi. Gec yatmışdılar; ər-arvad üzbəüz oturub xeyli dərdləşmişdilər, götür-qoy eləmişdilər, saat bir tamamda Bikə əsnəməkdən açılan ağzını əlilə örtüb:

— Dur ta yat, ay kişi. Səhər tezdən qalxassan, — deyəndə, çəkilib hərəsi öz yerinə girmişdi. Nəzər tək qalandan sonra ilk dəqiqələrdə lap xoflanmışdı, ürəyinə yeni vəzifənin naməlum, dumanlı qorxusu axıb dolmuşdu. Muradın sözlərini xatırlamışdı. Ancaq, Muradın qəlbinə bələd olduğundan, bu qorxu tez keçib getmişdi, yerini bir qətiyyət, bir həvəs tutmuşdu. Nəzər fikrində, müəllimlik illərində vərdiş elədiyi kimi, planlar qurmuşdu, nədən, necə başlayacağını ölçübbiçmişdi. Rayonu, onun adamlarını, təxminən beş barmağı kimi tanıyırdı. Kəndlərin, kolxozların, idarələrin vəziyyətini bilirdi. Kimin nə yuvanın quşu olduğundan da xəbərdar idi — özü şəxsən tanımadığı adamlar barədə də orda-burda, məclislərdə, toylarda, yaslarda danışılanları eşitmişdi. Bunlar ona kömək edəcəkdi, şübhəsiz. Fikir-xəyal qoynunda çırpındı, çırpındı, çimir elədimi, eləmədimi — düz-ağıllı bilmədi, ancaq səhər tezdən qızarmış gözlərini açıb sol qolundakı saata baxaraq düz səkkizin yarısı olduğunu görəndə uşaq kimi sevindi. Sevindi ki, beynindəmi, ürəyindəmi qurulmuş, az qala ömür boyu bir dəqiqə o yan-bu yan eləmədən ona sədaqətlə qulluq göstərmiş, ancaq son vaxtlar kökdən düşməyə başlamış o qəribə, gözəgörünməz elektron cihaz yenidən köklənib, yenidən öz işinə başlayıb. Yenə onu hər səhər düz səkkizin yarısında yuxudan oyadacaq, o, yenə qalxıb azacıq idman edəcək, yuyunub üzünü təraş edəcək, geyinib-keçinib evdən çıxacaq... Onda məktəbə gedirdi, indi rayon mərkəzinə gedəcək...

Quş kimi yerindən qalxdı. Bikə xanım adəti üzrə yenə ondan qabaq oyanmışdı, stolun üstə yemək-içmək gətirmişdi, ancaq özü işə getməmişdi. Yığım səngimişdi deyə daha adamlar lap gecə yarısı çölə çıxmırdılar, uşaqları bağçaya gətirənlərin də sayı azalmışdı. Ona görə Bikə də gec gedirdi işə. Həm də bu gün Bikə istəyirdi ki, ərini özü yola salsın. Nə isə bir fərəh doldurmuşdu içini. Çay-çörəklərini

təzəcə yeyib qurtarmışdılar ki, darvazanın ağzında bir QAZ-69 dayandı. Səsə ikisi də boylandı. Bikə xanım ərinə üz tutub:

— Xeyir ola? Maşının səsindən bilirəm ki, Tapdıq döyül, — dedi və qalxıb boylananda Nəzər sakitcə:

— Mənim dalımca gəlib, — söylədi. — İdarənin maşınıdı.

— Hə? — Bikə xanım sevindi. — Arifin maşınını sənə veriblər?

— Hə.

— Bə niyə səsini çıxartmırsan, ay kişi? Yoxsa… — o, zarafat eləmək istədi. — Yoxsa fors eləyirsən, hə?

— Eh. Maşındı da. Dünən Arif minirdi, bu gün mən.

— Yəqin sabah da başqası minəcək, eləmi?

— Əlbəttə. Maşındı, vəzifədi — bunlar belə yaranıb, arvad.

Nəzər daha nə isə demək istəyirdi ki, darvaza cırıltı ilə açıldı və əsgər paltarı geymiş, arıq, şüvərək bir oğlan, çəkinə-çəkinə ayağının birini həyətə qoyub yoğun səslə dilləndi:

— Salam. Nəzər müəllimin evi buradı? — Oğlanın səsi o qədər qalın idi ki, ikisi də təəccüb elədi: elə bil boğazı kafayınla deşilmişdi.

Nəzər qalxdı:

— Hə, buradı. Düz gəlmisən, gəl.

Oğlan irəli gələ-gələ:

— Soraqlaşa-soraqlaşa tapmışam, — dedi. Yaxınlaşandan sonra Nəzər də, Bikə xanım da oğlanın qarayanız sifətinə, nazik bığına, qonur gözlərinə diqqətlə baxdı, amma heç biri tanıya bilmədi. Bikənin yadına o uzaq axşam — Nəzərin əsgər paltarında qayıtdığı o axşam düşdü. Nəzərin də yaxasında neçə dənə hələ o vaxt Bikənin adını bilmədiyi orden-medal var idi, bu oğlanın da. Nəzər, ayağa qalxanda axsadığını hiss eləmişdi Bikə o vaxt. Bu oğlan isə şax, şəstlə yeriyirdi. Oğlanın sol yanağında çapıq var idi. Çapıq uzun idi — almacıq sümüyündən çənəsinə qədər şırım idi: yara yeri bitişmişdi, tikiş yerləri isə aydın görünürdü. Oğlan üzünü təmiz qırxmışdı, ancaq tük bitmədiyindən çapıq yeri qızarırdı.

— Nəzər müəllim, gəlin tanış olaq. Mənim adım Teyyubdur. Sizin sürücünüzəm, — deyə oğlan çatan kimi, nədənsə çaşıb qalmış ər-arvada baxıb gülümsünə-gülümsünə əl verdi. Teyyubun bu sərbəstliyi, ərkyanalığı, əzilib-büzülməməsi Nəzərin də, Bikə xanımın da çox xoşuna gəldi. Qırışları açıldı.

— Xoş gəlmisən, oğul, — dedi Nəzər. — Tanış ol, bu, bizim

uşaqların anasıdı.

— Mənim üçün isə müdir arvadı, — dedi Teyyub və güldü.

«Müdir arvadı» sözünü Bikə eşidən kimi dodaqları qaçdı və yadına düşdü ki, o vaxt da, Nəzər məktəb direktoru olanda da aradabərədə ona, kimi zarafatla, kimi kin-küdurətlə «direktor arvadı» deyərdi. Sonralar, Nəzər çıxarılandan, bu sözü ona deyən olmamışdı.

— Maşallah, ay oğul, nə dilli-dilavər oğlansan! — dedi.

— Kişi gərək elə belə də olsun, arvad. Qız təki utancaq oğlanlardan mənim zəhləm gedir, — Nəzər söylədi.

— …

— Kimlərdənsən, ay oğul? Hansı kənddənsən? — Bikə xəbər aldı.

Oğlan əlində maşının açarını fırlaya-fırlaya:

— Elə rayonun özündənəm, xala, — dedi. — Hamamçı İbişin oğluyam.

— Hamamçı İbiş? — Bikə gözlərini dolandırıb ərinə sual dolu bir baxış saldı, Nəzər də çiyinlərini çəkdi.

— Tanımazsız, — dedi Teyyub. — Atam balaca adamdı.

Bikə xanım geri çəkilib Teyyub üçün bir stəkan çay süzdü.

— Eşitmişəm, — Nəzər müəllim dilləndi. — Ancaq onun hamamında hələ çimməmişəm.

— Çimərsiz inşallah, — Teyyub qımışdı. — Bir dəfə tapşıraram, yaxşı bir nömrə ayırar. Gedib çimərsiz.

— Gəl, bir stəkan çay iç, ay oğul. — Bikə xanım stəkanı ona sarı sürüşürdü.

O:

— Yox, sağ olun, mən çayımı bu vaxta qoymuram, — dedi.

— Əşi, bir stəkan iç də. — Nəzər təkid etdi.

— Yox, yox, içmişəm.

Nəzər onun geyim-keçiminə diqqətlə fikir verib:

— Əzvayışından belə görürəm ki, əsgərlikdən lap təzə gəlibsən, Teyyub bala, hə? — xəbər aldı.

— Elədi. On gündü gəlmişəm.

— Belə de.

— Siz hazırsız?

— Çoxdan.

Teyyub dabanı üstə fırlanıb Bikə xanıma baş əydi və gülə-

gülə:

— Kişinizdən nigaran olmayın, — söylədi. — Etibarlı əllərdədi.

— Sağ ol, ay oğul. Allah ömrünü uzun eləsin.

Onlar qapıdan çıxanda Bikə xanım stəkana dağ su töküb dallarınca çilədi və ürəyində: «Allah, sən özün peşimançılıq vermə, pis-pis gözlərdən uzaq elə bizi» — deyə pıçıldadı. Maşın darvaza qabağında toz qaldırıb uzaqlaşınca o, arxalarınca baxdı, baxdı…

Bikə geri dönəndə, elə darvazanın ağzında, çəpər dibində dayanmış qonşu arvadların xısın-xısın danışdığını qulağı aldı:

— Bıy, kişini milis maşınında apardılar, ağız.

— Milis maşını döyül, ay Xoşdan nənə.

— Bə o uzun oğlanın paltarı niyə heylədi?

— Əsgərdi o. Milis paltarı ayrı cür olur, ay arvad.

— Nə bilim. Gözüm yaxşı seçmir ta. Bə hara apardılar Nəzəri?

— Heç yerə. İşə gedir. Bə xəbərin yoxdu? Nəzəri nəzarətə sədr qoyuflar.

— Hə? Belə de dayna. Olsun, olsun. Yaxçı adamdı Nəzər.

Bikə xanım kənddə kimsəyə bu barədə bir söz deməmişdi. Amma Süsənin dediyindən anladı ki, xəbər kəndə gəlib çatıb. «Xoş xəbər də, bəd xəbər də iti ayaqlı olur, xüsusən bu rayonda. Ən ucqar bir kənddə baş verən hadisə simsiz, teleqrafsız bir də görürsən hər yana yayılır» — deyə düşünən Bikə əri barədə Xoşdan nənədən şirin sözlər eşitdiyinə görə xoşhal oldu, içəri keçib işə getməyə hazırlaşdı. Bikə xanım bilmədi və bilə də bilməzdi ki, bu xəbəri elə gecə ikən kəndə Murad çatdırıb — bürodan sonra qanıqara halda evə dönən Murad, içəri girən kimi, arvad-uşağı dindirməmişdən qabaq Şakirə zəng çalıb, əhvalatı qardaşı oğluna söyləyib; Şakirin də qanı qaralıb. «Hə, indi Nəzər bizə göz verəcək, işıq verməyəcək. Nahaq onu yerindən tərpətdik, düşmən elədik, nahaq münasibətləri pozduq» — deyərək Şakir də öz növbəsində, elə həmən gecə Əsgərabad camaatının çoxu Nəzərin təzə vəzifəyə qoyulduğundan xəbərdar olub. Bikə bunları hardan biləydi. Təbii ki, Nəzər də xəbərsizdi və maşın taxta körpüyə çatanda Şakirin qırmızı «Jiquli»si ilə üz-üzə gələnəcən də xəbərsiz idi. Şakir maşını düz körpünün üstündə əylədi, qapını açıb irəli gəldi. Teyyub da keçə bilməyəcəyini başa düşüb əyləci basdı:

— Bu kimdi, nə axmaq yerdə saxladı maşını? — deyə bu tanımadığı adama, bir də Nəzər müəllimə sarı döndü.

— Məktəbin direktorudu, — Nəzər quruca söylədi və Şakirə diqqətlə baxdı. O, körpünün sağ tərəfiylə dişlərini ağarda-ağarda ona sarı gəlirdi. Nəzər hiss elədi ki, Şakirin nə isə deməli vacib bir sözü var ki, belə eləyir.

— Sabahın xeyir, ay Nəzər müəllim, — deyə Şakir gümrah bir səslə lap maşının sağ qapısının yanına gəldi.

— Salam… — Nəzərin səsində zərrəcə həlimlik, məhəbbət yox idi, söz taxta kimi, dəmir kimi quruydu, cansız idi, hissiz idi. Bunu Şakir də duydu, ancaq ötürdü.

— Sizi təbrik eləyirəm, ay Nəzər müəllim. Eşitdim yeni vəzifəyə qoyublar sizi. O qədər sevinmişəm ki, fərəhimdən səhərəcən yata bilməmişəm, inanın. Dedim elə səhər-səhər sizi tutub təbrik…

— Göz-başından görünür, yatmayıbsan səhərəcən, — Nəzər kinayə ilə cavab verdi. Şakir yenə özünü o yerə qoymadı:

— Çox yaxşı vəzifədi, Nəzər müəllim.

— Mən ömrüm boyu yaxşı vəzifədə olmuşam, Şakir.

Şakir döyükdü, nəsə xəbər almaq istədi, ancaq Nəzər macal vermədi:

— Bilirəm, soruşmaq istəyirdin ki, hansı vəzifədə, hə?

Şakir yaltaqcasına irişdi:

— Siz lap adamın ürəyini oxuyursuz ey, Nəzər müəllim… Hə, uşaqlarımın canına, elə onu demək istəyirdim.

— Məni az qala qırx ildi tanıyırsan, Şakir. Amma hayıf ki, ürək oxumağımı indi başa düşübsən. Mən elə o vaxt, sən… — Nəzər istədi desin ki, «sən pambıq kisəsinə qarpız dolduranda…», — ürəkləri oxumağı bacarırdım, Şakir. O ki, qaldı vəzifə… hə, mən həmişə, şüurlu ömrüm boyu yaxşı vəzifədə olmuşam və o vəzifənin adı — müəllimlikdir, Şakir.

— Hə, o mənada…

— Hə, o mənada, Şakir. Gecə səhərəcən yatmadığına, — o, sözünə ara verib tələsik bir «Prima» yandırdı, — məni təbrik eləmək üçün əziyyət çəkib bura gəldiyinə görə sağ ol — dedi və bayaqdan bu söhbəti maraqla dinləyən Teyyuba sarı döndü:

— Sür gedək, bala.

ALTINCI FƏSİL

— Mən bura sizi rəsmi iclasa yox, elə-belə, tanış olmaq, söhbət eləmək üçün çağırmışam, — deyə Nəzər müəllim oturduğu yerdə sözə başladıqda sədrin otağında əyləşmiş qadınlı-kişili iyirmiyəcən adam qulaq kəsildi. — Xahiş eləyirəm, özünüzü sərbəst hiss edin. Heç nədən, heç kəsdən çəkinməyin, dərdimizi-sərimizi açıq danışaq, görək neyləməliyik, necə eləməliyik ki, işimiz istənilən nəticələri verə bilsin. Bəri başdan deyim ki, biz böyük bir kollektivik, üzərimizə çox mühüm məsuliyyət qoyulub — biz gərək bir nəfər kimi, əl-ələ verək və işləyək. Özümü öymək üçün demirəm, çünki buradakıların çoxu məni yaxşı tanıyır, şəxsən tanımayanlar da yəqin qiyabi surətdə tanıyırlar. Sözümün canı odur ki, mən rəsmi sədr olsam da, yoldaşınızam.

Nəzər bu sözləri deyib susdu, nəzarət komitəsi işçilərinə, kəndlərdən, məktəblərdən, idarələrdən çağırılmış nəzarət qrupları nümayəndələrinə yoxlayıcı bir baxış fırlatdı, qısa giriş sözünün necə təsir buraxdığını öyrənmək istədi, lakin oturanlar qımıldanmadılar, eləcə susub baxdılar. Nəzər davam etdi:

— Mən də on gündü sizin heç birinizi, hətta müavini də narahat etmədən, səhərdən axşamacan idarənin vəziyyəti ilə, sənədlərlə, iş planları ilə tanış olmuşam, öyrənmişəm. Açığını deyim ki, xalq nəzarət komitəsinin fəaliyyəti indiyəcən yarıtmaz olub. Bu idarənin əslində adı olub, özü yox. Formal yaşayıb bu idarə, son üç ildə bir dənə mühüm məsələ qaldırmayıb, bu və ya digər bir işdə öz həlledici sözünü deməyib. Rayon fəallarının son iclasında birinci katibimiz komitənin keçmiş sədri Arif Qulamovu ciddi tənqid etdi. Və bu tənqid tək ona aid deyildi, elə sizin hamınızın ünvanına deyilirdi. Biz bu tənqiddən nəticələr çıxartmalıyıq — başqa heç cür irəliləmək mümkün deyil.

Yenə sükut idi. Hər kəs sakitcə Nəzəri dinləyirdi, ürəyində danışırdı. Elə bil, nə isə onların dilini bağlamışdı. Bunu Nəzər duyurdu, lakin səbəbini anlamaqda çətinlik çəkirdi. «Bu nədi görəsən? Yoxsa sözü bir yerə qoyub məni qəbul eləmək istəmirlər? Olmazmı? Bəlkə bunların hamısı Arifin adamıdı, yaxınlarıdı, hə? Ya bu adamların gözünün odunu alıb Arif? Bəlkə bunlar…» Bir-birinin dalınca doğan sualları beynində dolandıra-dolandıra müəllimlik təcrübəsin-

dən istifadə edib onları dindirməyin yollarını axtarırdı.

— Görürəm, siz ağzınıza su alıb balıq kimi susursuz. Mənə elə gəlir ki, siz bu idarəni özünüzə doğma hesab eləmirsiz, onun adı-sanı, hörməti sizin üçün əhəmiyyətsiz bir şeydi. Siz yanmırsız bu idarə üçün. Yoxsa səhv edirəm? — sualı verdi və otağa göz gəzdirdi. Küçəyə baxan pəncərənin qabağında əyləşmiş uzun sifətli, iri ala gözlü, kənd qızlarına nisbətən çox arıq görünən, uzun əllərini dizləri üstünə qoymuş qız ayağa qalxıb ürəkdən gələn bir səslə:

— Əlbəttə, səhv eləyirsiz, Nəzər müəllim, — dedi.

Hamı qanrılıb ona diqqət yetirdi. Nəzər istəyinə nail olmuş müəllim kimi gülümsündü və hamının gözlədiyinin əksinə olaraq — çünki qız o sözləri çox sərt bir ədayla demişdi — mehribanlıqla üzünü ona tutaraq:

— Qızım, oturub danışa bilərsən, — dedi.

Qız eyni tərzdə:

— Mən oturanda danışa bilmirəm, Nəzər müəllim, — deyib cavab verdi. — Bunu bizə uşaqlıqdan, lap birinci sinifdən adət elətdiriblər. Siz müəllimlər…

Nəzər qımışdı:

— Yaxşı. Ayaq üstə danış. Ancaq səndən də, səndən sonra danışacaq yoldaşlardan da xahiş edirəm, söz deyəndə özünüzü təqdim edin. Necə olsa, mən sizin aranızda təzə adamam, adınızı, hansı təşkilatdan olduğunuzu öyrənməliyəm ya yox? — Güldü, — Hə, buyur, qızım.

Qız elə bil, Nəzərdən «qızım» sözünü eşidəndə sifətindəki, gözlərindəki gərginlik çəkilib getdi, o, bayaqkına nisbətən həlim və arxayın səslə davam etdi:

— Mənim adım Xuramandı, Nəzər müəllim, «Şəfəq» kolxozundanam, nəzarət qrupunun sədriyəm. — Nəzər stolun altına uzatdığı qatlanmayan ayağının yerini dəyişdi və gümrahlıqla:

— Hə, Səfərin kolxozundansan, eləmi?.. — dedi. — O kəndə az-çox bələdəm, qızım, nəvələrim orda yaşayır.

— Bəli. Bilirəm. Tanıyıram, Nəzər müəllim. Yaxşı ailədi.

— Hm. Maraqlıdı. Danış.

Xuraman Nəzərin düz gözlərinin içinə baxa-baxa söylədi:

— Siz deyirsiz yanmırsız bu idarə üçün. Yox, Nəzər müəllim, siz hələ, özünüz deyən kimi, təzə adamsız, çox şeyi bilmirsiz, tə-

səvvür eləmirsiz. Məni bağışlayın belə dediyim üçün.

— Buyur, buyur, qızım. Xoşdu. Mən belə açıq söhbət tərəfdarıyam.

— Hə, siz səhv eləyirsiz. Biz — hər halda bizim çoxumuz — bu idarə üçün, onun adı-sanı üçün az yanmırıq. Amma nə olsun? Kimdi bizim sözümüzə baxan, yanan ürəyimizi görən? Heç kəs, Nəzər müəllim. Dəyirman bildiyini eləyir, çax-çax baş ağrıdır.

Nəzər maraq içində yerində qurcalandı. Xuraman bir an duruxdu, Nəzər köməyinə gəldi:

— Heç nədən çəkinmə, qızım. Sözünü de.

— Çəkinmirəm. Mən yaxşı başa düşürəm, bizim bu idarəni dövlət, partiya nə üçün yaradıb. Camaata, xalqa kömək üçün. Lakin… açığını deyim — siz də bayaq bunu söylədiz — indi bu idarə ölü bir idarədi. Bir tutarlı iş görmədiyinə görə rayonda, camaat arasında heç bir nüfuzu yoxdu. Halbuki, bu idarənin adı gələndə camaat zağ-zağ əsməlidi.

— Camaat yox, qızım. Oğru-əyri, rüşvətxor, yalançı.

— Bəli. Mən fikrimi düzgün deyə bilmədim. Oğru-əyri, rüşvətxor, yalançı, bürokrat zağ-zağ əsməlidi.

— Bə bu niyə belə olub, qızım? — Nəzər ehtiyatla Xuramanın sözünü kəsib fikrini bilmək üçün xəbər alanda qız, cavabı çoxdan hazır imiş kimi söylədi:

— Siz məndən yaxşı bilərsiz, Nəzər müəllim, belə bir el sözü var, deyir; «Balıq başdan iylənər». Vəzifəsi də, məramı da müqəddəs olan bu idarə də başdan iylənmişdir. Keçmiş sədrimiz Arif Qulamov — adamın heç yoldaş deməyə də dili gəlmir — bəli, o, bu komitənin axırına çıxdı. Siz yəqin elə bilirsiz ki, mən yıxılana balta çalıram, dalıyca danışıram. Yox, mən, buradakı yoldaşların çoxu şahiddi, bu sözləri onun üzünə də demişəm. Təkbaşına işləyib Arif. Özü istəyən kimi eləyib. Yoxlamalara tək özü gedirdi. Özü anonim yazdırırdı, «… filan yerdə yeyinti-dağıntı var, ay narodnı kontrol, amandı, özünü yetir, filankəs basıb yedi…» Arif Qulamov həmin anonimi götürüb gedirdi, yoxlayırdı, akt yazırdı. Sonra o adamlar, bilmirəm neyləyirdilər, neyləmirdilər, o akt cırılırdı, təzəsi yazılırdı və… İnanmırsız, baxın, yəqin idarənin arxivində o aktlar qalmış olar. Yalan deyirəmsə, bax, müavini oturub burda, — o, Nəzərin böyründə əyləşib nəsə qeyd eləyən pırpızbaş, bığlı kişiyə üz tutdu — Cəfərquliyev yoldaş

qoy özü desin. İşlərin bu kökə gəlib düşməsində, açığı, elə onun da az günahı olmayıb.

Cəfərqulu qələmi saxlayıb çənəsini irəli uzadaraq Xuramana təəccüblə gözlərini bərəltdi.

— Nədi, yalan deyirəm?.. Arif Qulamov nə deyib, «ləbbeyk» demisiz. «Öl» deyib ölmüsüz, «qal» deyib, qalmısız…

— Ə, bu nə danışır? — deyə Cəfərqulu qeyri-iradi səsləndi. — Sənin qızdırman-zadın yoxdu ki, aaz? — Elə bil iri gözlərinə qan sağıldı Cəfərqulunun, damarlarının, ürəyinin bütün qanı-qırmızısı üzünə çıxdı. Əvvəl oturanlara, sonra sədrə, daha sonra isə Xuramana qəribə bir tərzdə baxdı, nəsə demək istədi, ancaq hirsindən-hikkəsindən sanki söz tapa bilmədi. Xuraman isə sərrast söylədi:

— Mən sizin üçün «aaz» deyiləm. «Aaz» sizin evinizdəki xanımınızdı. Elementar etikadan da xəbəriniz yoxdur. Bura bazar deyil, bura iclasdı. Arifdən öyrəndiklərinizdən biri də elə bu mədəniyyətsizlikdi.

— Görürəm, sən çox mədənisən.

— Cəfərqulu yoldaş, sən mane olursan. — Nəzər müştüyünü stola çırpdı. — Danışanın sözünü kəsmək doğrudan da mədəniyyətsizlikdi. Qoy sözünü desin. Sən də istəsən, söz alıb danışarsan!..

Cəfərqulu fısıldayıb stulunu cırıldatdı, susdu. Qızın danışığından, məntiqindən Nəzərin ürəyi gül kimi açılmışdı. Elə bil özünə arxa-dayaq tapmışdı bu çətin işdə. «Cəsarətlidi, qorxmazdı. Mənə bax, belə adamlar lazımdı!»

— Sən yaxşı danışırsan, qızım. Xoşum gəlir. Ancaq sən yəqin gözəl bilirsən ki, bizim işimizdə əsas söykənəcək nöqtə faktdır. Yaxşı olar ki, faktlarla danışasan. O ki, qaldı Cəfərquliyevin məsələsinə, ona sonra baxacağıq, Xuraman qızım.

Otaqda pıçhapıç gəzdi, adamlar bir-birinə mənalı-mənalı baxıb qımışdı. Oturanlardan heç kəs, hətta onu «yıxıb sürüyən» Xuraman özü də Cəfərquliyevin hansı məsələsindən söhbət getdiyini bilmirdi. Bunu bircə Cəfərqulu özü dumanlı şəkildə təsəvvür eləyirdi və neçə gün bundan qabaq, hələ Nəzərin Xalq nəzarət komitəsinə gəlməsi söhbəti olmayan zaman (onda Nəzər müəllim katib Əmiraslanovla təzəcə danışmışdı) onunla elədiyi o sadəlövh söhbətə görə özünü dönə-dönə söyürdü. Cəfərqulu Nəzərin xətrini istəyən adam idi, aralarında mehribanlıq vardı. Az-az görüşsələr də, ayaq saxlayıb hal-əhval tutardılar bir-birindən, vaxtları olanda burulub söyüd ağacının

altındakı çayxanada çay içər, ordan-burdan söhbət eləyərdilər. Onda da elə olmuşdu. Elə Maşallanın verdiyi kəkotulu çaydan qurtum-qurtum içə-içə Nəzər sözarası, Cəfərqulunun dolanışığını, gün-güzəranını soruşmuşdu.

— Niyə, birtəhər dolanıram, ay Nəzər müəllim, — demişdi Cəfərqulu. — Allah bu Arifin canını sağ eləsin, bir də bizim Nəzarət komitəsini bizə çox görməsin. Yoxsa… mən batmışdım.

— Nə təhər yəni batmışdım, ay Cəfərqulu?

— Elə heyləcə. Arif hərdən əllidən-yüzdən atır qabağıma. Bu Nəzarətin də adı ağırdı — hansı mağaza-dükana girirəm, uşaqlar, sağ olsunlar, hörmət eləyirlər.

Nəzər artıq Nəzarət komitəsinin gələcək işçisi kimi, bu söhbətə xüsusi maraq göstərmiş, ancaq üstünü vurmadan, Cəfərqulunu ürkütmədən soruşmuşdu:

— Pul verirlər?

— Yox, əşi… məsələn, ət alıram, pul götürmürlər, yağ alıram, pul götürmürlər… «Ayıb döyülmü, Cəfərqulu müəllim?» — deyirlər. Çox mərifətli uşaqlardılar, Nəzər müəllim. Ümumiyyətlə bizim bu rayonun adamları hörmətcildilər.

— Hm…

— Yoxsa… Maaşnan o boyda külfəti mən saxlayammazdım. Nə alıram ki…

Sonra… söz yayıldı ki, Nəzər müəllimi Nəzarət komitəsinə sədr qoymaq istəyirlər… Cəfərqulu ürəyində allaha yalvarırdı ki, bu xəbər yalan olsun… Sonra… büroda təsdiq elədilər və onda Cəfərqulu bərk sarsıldı. Neçə gün idarəyə gəlmədi. Ancaq beş gün qabaq həyətdə, dirəyin dibində görüşdülər, Cəfərqulu onu təbrik elədi. Nəzər ondan bəri neçə dəfə görüşsə də, o barədə dilinə heç nə gətirmədi. «Əşi, Nəzər müəllim heylə mərdimazar adam deyil. Söz idi, oldu, getdi…» — deyə özünə toxtaxtlıq verirdi Cəfərqulu. Ancaq… indi məlum oldu ki, o söhbət hələ davam eləyəcək…

— Fakt? Fakt nə qədər istəyirsən, Nəzər müəllim.

— Məsələn?

— Məsələn, heç uzağa getməyək. Elə sizin kolxozu kötürək. Mikayılın məsələsini. Siz də bunu yaxşı bilirsiz. İndi hamı bilir. Ancaq o vaxt o kəndin aqronomu Qurban Qurbanov yazılı surətdə Xalq nəzarəti komitəsinə müraciət etmişdi ki, Mikayıl daha ipə-sapa yat-

mır, kolxoz dağılır, belə getsə kənddə işləyən qalmayacaq… Yadımdadı, Qurban özü gəlmişdi bura. Kişi yandığından az qalırdı ağlasın, elə bilirdin atasının var-yoxunu, mal-mülkünü dağıdıb talan edirdi Mikayıl. Arif neylədi? Məktubu cibinə qoydu, mindi maşına, getdi Mikayılın yanına. İki-üç gün qalıb yeyib-içəndən sonra qayıdıb gəldi və təmizlik aktına Cəfərquliyevə də qol çəkdirib qoydu seyfə. «Kişi işləyən adamdı, qoymurlar işləsin, böhtan atırlar», — deyirdi Arif. Amma gördüz sonra nələr oldu — Mikayılın aqibəti sizə bəllidi.

— Yəni deyirsiz pul alırdı Arif Mikayıl kimilərdən?

— Mən onun pul aldığını görməmişəm. Ancaq bu, uşağa da aydındı ki, əgər bir nəfər qaraya ağ deyirsə, yalana doğru deyirsə, nəyinsə xatirinə eləyir bunu. Arif elə də avam adam deyil ki, heç nəyin üstə başını bıçaq altına qoysun. Mən buna inanmaram.

— Daha?

— Daha nə? İşi elə qurmuşdu ki, bütün rayonda «narodnı kontrol» kimi ancaq onu tanıyırdılar. Yadımdadı, öz kəndimizdə kiçik bir məsələni yoxlamaq üçün kolxoz sədri Səfərin yanına getmişdim. Məni açıqca ələ salıb güldü Səfər. Dedi: «Bizim rayonda bir «narodnı kontrol» var, o da Arif Qulamovdu. Ondan başqa bir adamı mən yoxlamağa–filana buraxmaram. Arif özü isə… dünən burdaydı. Çox razı getdi, qız. Tak çto, sən get işinlə məşğul ol, bədənin girməyən yerə başını soxma…» — Xuraman duruxdu, nəfəsini dərdi, görünür Səfərin haçansa dediyi bu sözlər onun ürəyinə dağ çəkibmiş, yandırıbmış, elə yandırıbmış ki, ağrısı-acısı hələ də canından çıxmayıbmış, odur ki, qız həyəcanını gizləyə bilməyərək:

— Bax, bizi belə ələ salıblar, bizə bu cür gülüblər, Nəzər müəllim, — dedi və sağ əlini örpəyinin ucundan çəkib oturanları göstərdi: — Bu yoldaşları bilmirəm, mən öz adımdan deyirəm: əgər yenə bu idarə elə olacaqsa, yenə biz oyundan çıxarılmış şahmat fiqurları kimi, gərəksiz, xeyirsiz, fəaliyyətsiz qalacağıqsa və siz də, Arif kimi, hər şeyi özünüz həll eləyəcəksizsə, onda xahiş edirəm, məni bu işdən bəri başdan azad edəsiniz. Belə işləmək olmaz. Mən şəxsən kəm-kəsirlərlə, nöqsanlarla, müzür adamlarla vuruşmaq əvəzinə, bu müqəddəs işin məsuliyyətini boynuna götürən adamla vuruşmaqdan bezmişəm və ümidsizləşmişəm. Kim buna dözə bilirsə, qoy qalsın, işləsin, mən daha dözə bilmirəm.

Xuraman çox həyəcanlanmışdı, əlləri əsirdi, bir az da danışsaydı, ağlayacağı aşkar idi. Bunu hiss elədiyi üçün idi ki, əyləşdi, beş

barmağını çətir kimi açıb üzünü yelpiklədi. Nəzər qabağındakı qrafindən stəkana su süzüb:

— Ə, Cəfərqulu, bunu ver qıza, — dedi: Cəfərqulu qəzəbdənmi, qorxudanmı qıpqırmızı qızarmış baxışlarını qaldırıb əvvəl Nəzərə, sonra stəkana zillədi, ani tərəddüddən sonra tənbəl-tənbəl qalxaraq stəkanı aparıb Xuramana verdi. Xuraman bir qurtum içim:

— Sağ ol, — deyib stəkanı Cəfərquluya qaytaranda o, heç kəsin gözləmədiyi halda:

— Boğazını yaşladın, dur yarım saat da danış, — deyə onu sancdı. Xuraman özündə olmadığına görə onun nə söylədiyini başa düşmədi. Oturanlar Cəfərqulu Cəfərquliyevin sözünə gülüşdü. Nəzər qanrılıb çəpəki ona zəhmli bir nəzər saldı; otağı yenə sükut bürüdü…

… Bu tanışlıq iclası uzun çəkdi. Təzə sədr öz «əsgərləri»nin hər biriylə yaxından tanış oldu, sinifdəymiş kimi, uzun illərin adətinə uyğun, qoltuq cibindən çıxardığı balaca, qara cildli cib dəftərçəsinə onların adlarını, hansı təşkilatı təmsil etdiklərini, bu idarədə haçandan işlədiklərini xırdaca hərflərlə yazdı və tələsmədən yenə qatlayıb cibinə qoydu. Söhbətləri tutmuşdu. Rəsmiyyət-filan yox idi arada. Dost kimi, yoldaş kimi danışırdılar. Çətinliklərindən, arzularından söz açırdılar və Nəzər, az bir zaman içində onların qəlbinə yol tapa bildiyinə görə uşaq kimi sevinirdi. Elə bilirdi təzədən məktəbə qayıdıb, yenidən dərs deyir; qabağında oturanlar isə şagirdləridi. Bu hissin təsirindən yamanca kövrəldi, məktəbdə, sinif otaqlarında keçən ömrün xoş dəqiqələrini, saatlarını gözünün qabağından, xəyalından keçirdi və Şakirin ətli, qırmızı sifətini fikrinə gətirən kimi bircə anda hər şey dəyişib özgələşdi. Nəzər oturmaqdan yorulduğuna və siqaretinin dəmi gəldiyinə görə ayağa qalxıb gülümsünə-gülümsünə:

— Deyirəm, bugünlük bəsdi. Sizi çox yordum, — dedi. — Sonra elə bilərsiz mən iclasbazam və hər gün sizi bura yığıb vəzzariyyət oxuyacağam. Yox. Ayda bir dəfə iclasımız olacaq… Bizi bura iclas eləmək üçün yox, iş görmək üçün seçiblər… Mənim bu fikrimlə razısız?

Yerdən səslər eşidildi:

— Əlbəttə.

— Bəli…

Xuramanın səsi hamınınkından seçildi:

— Elə bizim evimizi yıxan iclaslar deyil?

Nəzər bu sözü göydə tutdu:

— Düz deyirsən, qızım. Ancaq sənin dediyinə bir düzəliş et-

mək istərəm.

Xuraman gözlərini geniş açdı:

— Nədi o, müəllim?

— Budu ki, bizim evimizi yıxan təkcə iclas deyil, qızım, bunun çoxlu səbəblərindən ancaq biridi. İclasbazlıq indi bir bəlaya çevrilib — hansı idarənin qapısını açırsan, şirin-şirin iclas gedir. Nə qədər adam mürgü vura-vura oturub, biri də ağzı köpüklənə-köpüklənə danışır. O şeyləri deyir ki, hamıya məlumdu. Yığ bu iclasları bir yerə — əvvəl rayon miqyasında, sonra şəhər, sonra respublika, sonra ölkə miqyasında... Gör neçə milyon adam neçə saatlarla boş-bekar dayanır, cəfəngiyyata qulaq asır və bunu da vur o qədər adamın o qədər saat ərzində görə biləcəyi işə — onu da çevir taxıla, paltara, maşına, — kəsəsi, sadəcə pula… Gör neçə milyardları biz havayıca yerə itirmiş oluruq.

— Düzdü, müəllim. Lap adamın ürəyindən xəbər verirsiz… — Xuramanın sifəti açıldı. — Elə bizim kənddə bir dəfə saymışam, bir ayda on idarə heyəti iclası, iki komsomol, iki partiya, bir həmkarlar, bir ümumi kolxoz iclası keçirilib… Cəmi on altı iclas…

Nəzər güldü:

— Sən lap əməlli-başlı hesab aparıbsan ki. İnanıram, qızım, inanıram… Bir oğul istəyirəm ki, böyük bir iclas çağırsın və o iclasda bu zəhlətökən iclasları ləğv eləyən bir qərar çıxartsın…

— Nə yaxşı olardı, müəllim!

YEDDİNCİ FƏSİL

Son günlərin dalbadal baş verən hadisələri o qədər maraqlı, çalın-çalpaşıq, gözlənilməz olmuşdu ki, Nəzərin ürəyi, beyni qəribə bir çaxnaşmaya, tələtümə düşmüşdü. Öz şagirdi Süleymanla, nəhayət, otuz ildən sonra görüşə bilməsi, Rayon partiya komitəsinin geniş yığıncağında eşitdikləri, gördükləri, təzə işçiləri ilə keçirdiyi iclas və Xuramanın çıxışı… — bütün bunlar ildırım sürətiylə bir-birini əvəz edən, biri digərini unutdurub kölgədə qoyan və dərindən-dərinə düşünməyə belə imkan verməyən hadisələr idi və kişi, ötən günlər ərzində elə arxayın bir məqam tapa bilməmişdi ki, onları saf-çürük eləsin. İmkan düşəndə də Bikə xanım sualları, sorğuları ilə istər-istəməz buna mane olmuşdu və axırda iş o yerə çatmışdı ki, Nəzər

bozarmışdı: «Sən atovun goru, bəsdi ta, qoy görək bu işlərin axırı nə olur. Hələ özüm heç düz-əməlli baş açammıram, sən də başlayıbsan filan-bəsməkan…» — deyə, adəti xilafına çımxırmışdı. Doğrusu, bu, arvadın xətrinə yamanca dəymişdi, mat-mat ərinin üzünə baxmışdı.

Kişi Bikənin ürəyinə toxunduğunu hiss eləyib, onunla dərdidil edirmiş kimi astadan, mehriban və qayğılı bir səslə:

— Yox, rayonda vəziyyət yaman ağırdı, — demişdi, — gör iş nə yerə çatıb ki, allahın suyunu, dondurmasını, siqaretini, kibritini öz qiymətinə almaq olmur. — Bikə xanım bu sözləri eşitmişdi, əməllibaşlı incidiyini bildirmək üçün, heç nə söyləmədən çıxıb bağçaya getmişdi.

Nəzərin yeni vəzifəyə qoyulmasını bir ucu Bakıda, o biri ucu Cürəlidə olan bu ailənin üzvləri iki cür qarşılamışdı. Bir dəstə — Tapdıq, Güldanə, Güllü, Bikə sevinmişdi ki, «Yaxşı oldu, kişinin başı qarışacaq, darıxmayacaq. Yoxsa tez tələf olardı. İşə öyrənmiş adam birdən-birə bekar qalanda… Allah göstərməsin, ölümdü…»

İkinci dəstə — Sadıq və Qərib idi. Onlar buna, hərəsi özünə görə, ayrı cür baxırdı. Sadıq qayınatasının vəziyyətinin çətin olacağını irəlicədən təsəvvür eləyirdi. «Yox, o iş Nəzərin axırına çıxmasa, yaxşıdı. Onun kimi qanunpərəst adamın yeri deyil ora. Bədnam eləyəcək özünü». Ancaq, Sadıq bir çox başqa düşüncələri kimi, bu fikrini də açıb Güllüyə söyləmirdi.

Qərib isə…

Oğlanın çiçəyi çırtlamışdı. Xəyalpərvər olmuşdu, ürəyində bəslədiyi arzularının yerinə yetəcəyi çağların nəhayət, yaxınlaşdığına böyük inam bəsləyib sevinirdi. Bu axar-baxarlı, gen-bol həyətdə təzə, ağ daşdan ev tikiləcəyi, qaraj qoyulacağı, maşın alınacağı istəyini çox gəzdirmişdi ürəyində, uzun illər gəzdirmişdi. Ancaq kişi təqaüdə çıxanda o, bunların heç vaxt yerinə yetməyəcəyinə tam inanıb naümid olmuşdu. Və bir müddət bu ümidsizlik içində məyus-məyus yaşamışdı. İndi isə… oğlanın danışığı, ədası, yerişi də dəyişmişdi elə bil. Bu vaxta qədər kənddə, rayonda tay-tuşları arasında qəribə bir sıxıntı içində gəzən Qərib daha şax yeriyirdi, qaşqabağı açılmışdı, deyirdi-gülürdü. Rayonda onun kimin oğlu olduğunu bilənlərin, maraqlı idi ki, çoxunun münasibəti dəyişmişdi Qəribə. Kolxozlara konsertə çıxışa gedəndə də, sədrlər, briqadirlər Qəribə hörmət eləməyə çalışırdılar və bəziləri hətta onun vasitəsilə Nəzərə salam da göndərirdi.

Bunlar, əlbəttə, Qəribə ləzzət eləyirdi. Ancaq… günlərin bi-

rində…

— İşlərin nə təhər gedir, a bala? — deyə Nəzər soruşdu.

Qərib, mizin üstdəki dəsmalla ağzını silib:

— İşdi də. İşləri elə qurublar ki, elə öz-özünə gedir. — dedi Qərib.

— O nə təhər şeydi, a bala. Necə yəni öz-özünə gedir?

— Gedir də. Proqram var, hər kəs vəzifəsini bilir. Vaxt məlum, iş məlum, rəqs məlum, mahnı məlum. Ta nə olacaqdı ki. Ona görə, gedir.

Nəzər güldü. Tut ağacına vurulmuş əlüzyuyanın altında yuyundu, gəlib oturdu Qəribin qabağında. Elə əlini çörəyə yenicə uzatmışdı ki, birdən gözü divarın dibində iki kağız kisəyə sataşdı.

— O kisələr nəmənədi, a bala?

— Kisədi də. — Qərib Nəzərin başı ilə işarə elədiyi səmtə heç baxmadı da.

— Kim gətirib onları?

— Mən.

— Nədi, sementdi?

— Hə.

— Hardan gətirmisən?

Qərib atasının xasiyyətini yaxşı bildiyindən bu sorğu-sualın başlanmasından dilxor olub üz-gözünü turşutdu, ağzını sürütdədi. Qərib axır vaxtlar bu qərara gəlmişdi ki, evi birdən-birə tikmək mümkün deyil, yavaş-yavaş, ordan-burdan material almaq, yığmaq, sonra başlamaq gərəkdi.

— Deyirəm hardan gətirmisən?

— Mağazadan almışam…

Nəzər əlindəki tikəni yerə qoydu, tərs-tərs oğluna baxdı:

— Yalan danışmağı da öyrənmisən?

— Yalan niyə olur ey?.. — Qızarsa da, boz-boz cavab verdi. — Mağazadan almışam deyirəm.

— Ə, hansı mağazadan? Tahirin mağazasından?

Qərib astaca başını tərpətdi.

— Ə, heç Tahirin mağazasında sement var? Dünən özüm girmişdim o mağazaya, Tahir dedi bəlkə ayın axırına aldıq. İndi sən deyirsən…

— …

— Düzünü de, hansı tikintidən almısan?

— …

— Ə, sənnənəm. Hansı tikintidən götürmüsən onu? — Qərib ilişmişdi.

— Təzə məktəbin tikintisindən. Xuduş verdi.

— Neçəyə almısan?

Daha yalan danışmaqdan keçmişdi.

— Heç neçəyə. Pulsuz. Bağışlayıb…

Nəzər fikrə getdi, dönüb o kisələrə baxdı, sonra qayıdıb:

— Necə gətirmisən, eləcə də apar qaytar, eşidirsən? Bax, indicə apar qaytar. Faşist uşağı faşist, — dedi.

Qərib başa düşmədi ki, atası onu söyür, yoxsa Xuduşu. Sonra anladı ki, hər ikisini tutur bu söyüş. Cınqırını çıxartmadı. Çünki bilirdi ki, söz güləşdirməyin faydası yoxdu. Cavab qaytarsaydı, kişi bir az da qızışacaq, aləmi bir-birinə qatacaqdı. Hələ bəlkə Xuduşun da üstünə gedəcəkdi, məsələ yoğunuyacaqdı.

— Yaxşı, yaxşı, aparıb qaytararam.

— Ə, niyə başa düşmürsən ki, onun dövlətin malını satıb-sovmağa, dağıtmağa ixtiyarı yoxdu? Bu, axı cinayətdi! İndi mən onun atasını yandırım, sən də tamaşa elə. O cür elədilər ki, məktəb tikintisi bu il də qurtarmışdı. Biri daşını satır, o biri taxtasını, şiferini satır, biri də sementini bağışlayır.

— Satarlar da. Görürlər camaatın ehtiyacı var, satırlar. Elə bilirsən onlar özləri yalvarıb bu şeyləri satırlar camaata? Yox, camaat özü yalvarır onlara, artıq pul verir, alır. Bax, məsələn, biri ev tikmək istəyir; daşı, taxtanı, sementi hardan alsın? Bu böyük rayon mərkəzidi, bir dənə də iri mağaza açıbsız, adını da qoymusuz «Tikinti materialları». Girirsən içinə, bomboşdur. Cəftə, nə bilim, rəng, mıx… xırda-xuruş şeylər… List dəmirlər vardı, bir kişi almaq istəyirdi, Tahir dedi, elə-belə sata bilmərəm, gərək rayispolkomdan arayışın olsun. Dedi onda şifer ver. Dedi ona da rayispolkomdan arayış lazımdı. Kişi lap əsəbiləşdi. Getdi unitasdı, nədi, ondan yapışdı, dedi, ə, bajı oğlu, bunun üçün də rayispolkomdan arayış lazımdı? Tahir gülüb söylədi ki, yox. Kişi onda qəzəbnən dedi: «Pa, nə əcəb. Bu yəqin səhv düşüb — mütləq bunu da almaq istəyənin cibində rayispolkomdan arayışı olmalıdı…» Bax, belə eləyirsiz. Axı fikirləşmək lazımdı — mən öz pulumu verib, evimin, xarabamın üstünə şifer alıram, dəmir alıram,

bu arayış nədi axı soxursuz ortalığa. Lazımdı ki, alıram da, lazım olmasa dəliyəm gedəm pulumu verəm zir-zibilə? Heç kəs pulunun, malının dəlisi döyül ki, aparıb atsın çölə. Bax, bu «Tikinti materialları» mağazasında hər şey olsa, mən niyə gedib Xuduşun qabağında boynumu bükməliyəm? Niyə? Hə, dillənmirsən? Elə bilirsən, Sovet hökumətinin taxtası, şiferi, sementi yoxdu ki, qoyub azad satsın? Kim də bilməsə, sən yaxşı bilirsən ki, var, hər şey var. Ancaq… bunu bəzi lotu-potu fikirləşib, qıtdığ yaradıb, ayın-oyunu baha-baha satıb varlanmaq üçün düşünüb. Tikinti idarəsinin, prorabın cibini doldurmaq üçün kiməsə belə lazımdı. Bunlar bir tərəfdən yeyir; səhər gəlib sənin milisin dirənir adamın boğazına ki, bu taxtanı hardan alıbsan, kağızın hanı? Kağız yoxdu. Oğurluğa nə kağız? Dünyanın heç yerində hələ bir oğrunun əlinə kağız verməyiblər ki, get, sənə zaval yoxdu. Bəli, milis də bu yandan haqqını alır. Narodnı kontrol… — Qərib qızışmışdı, az qalmışdı öz atasını da qatsın o cərgəyə, dayandı, ancaq fikrini ayrı cür izah elədi — Narodnı kontrol deyəndə mən səni nəzərdə tutmuram. Tək sən döyülsən ki. Səndən başqa da o idarədə adamlar işləyir və onların da ağzı var, yemək istəyirlər. Sən özünün də ağzını, boğazını bağlayıbsan, bizim də. Mən səndən danışmıram.

Nəzərin gözləri geniş açılmışdı, səhər yeməyinə əl vurmamış, adicə bir sözdən belə kükrəyib coşan (sən demə, uşağın ürəyi doluymuş) Qəribə qulaq asırdı. Yalan deyir məgər? Yox, onun sözlərində müəyyən həqiqətlər var; bu həqiqətlər hardasa Nəzərin özünün dünən gördüyü, bəlkə sabah da görəcəyi həqiqətlərə çox oxşayırdı və kişi buna sevinirdi ki, bunları hələ uşaq hesab elədiyi oğlu da başa düşür, deyir. Nəzər daha bir yanğının üstünə bir az da yağ töküb alışdırmaq istəmədi, sadəcə, nəsihət verirmiş kimi:

— Düz deyirsən, oğul, — söylədi. — Ancaq bil və inan ki, bunlar belə olmamalıdı, şura hökuməti belə deməyib, vallah, belə deməyib, billah, belə deməyib, oğul. Bir dana, bir də görürsən, bir naxırın adını batırır, bunlar da heylə, bala. Onlara baxıb adam gərək öz vicdanının əleyhinə hərəkət eləməsin, öz təmiz adını, mənliyini qorusun. Yoxsa sən də qoşuldun onlara, oldun onların tayı. Amanın bir günüdü, belə eləmə. Mən görürəm, başın yaxşı işdiyir. Amma hayıf, oxumadın, bu başnan sən çox uzağa gedərdin, qırışmal.

— Sən oxuyubsan da, axırını gördük. Qədirağacı basdırdılar adına məktəbin qabağında, səhər də heykəl qoyacaqlar.

— Mənim heykəlim camaatımızın ürəyindədi, bala. Tuncdan,

qranitdən qoyulmuş heykəllər görmüşəm ki, sahibi ölən kimi, başına ip salıblar, çəkib yerə yıxıblar, traktorun quyruğuna bağlayıb harasa aparıblar. Ən yaxşı, ən davamlı heykəl ürəklərdə qoyulanıdı, oğul. Onu heç kəs uçura bilmir. Mənim o dediyim heykəlimi hətta şakirlərin də uçurmağa gücü çatmaz, oğul. Bircə təmənnam var səndən: çalış, sən uçurma o heykəli. Sən uçurmaq qəsdinə dursan, mən tez uçularam, çünki sən mənim övladımsan, övlad və arvad uçuranı fələk də dikəldə bilməz.

Nəzər susub oğluna baxdı: Qərib öz sözünü söyləyib ürəyini boşaltmışdı deyə, atasının nə dediyini yaxşı-yaxşı başa düşərək gülümsündü. Bu, Nəzərin də sifətini durultdu, siqaretini yandırıb dərin bir qullab vurandan sonra:

— Hər halda, sən bu sözümü yaxşı yadında saxla, oğul: əlində bir haram çöp, ürəyində, dilində bir yalan olsa, bu evə, bu həyətə gəlmə, bala. Heç vaxt unutma ki, bu ev Nəzər müəllimin evidi və sən də Nəzər müəllimin oğlusan. Sənin adının, başının üstündə, dünyanın harasına çıxıb getsən də, mənim adım var, bala.

Qərib qulaq asırdı, daha kişinin sözünü övürüb-çevirmək istəmirdi, ürəyində yalnız buna təəssüf eləyirdi ki, adı-sanı bütün rayonu tutan, hamının doğrudan da dərindən hörmət edib peyğəmbər sandığı bu kişi, bu qədər elmi, biliyi olmağına baxmayaraq, niyə belə avamdı. İşi düz gətirəndə, bir kimsə ona, Nəzərin oğlu olduğuna görə hörmət göstərəndə, gizlincə, ürəyindəcə atasıyla fəxr eləyirdi, ürəyi dağa dönüb atlanırdı və dünyada təmiz adlı, mərd, hamının sevdiyi bir adamın oğlu, övladı olmaqdan böyük səadət təsəvvür eləmirdi. Ancaq bu hiss ötəri olurdu, tez keçib gedirdi, mənəviyyat aləmində — o gözəl, o işıqlı aləmdən qopub ayrılınca, həyatın özünə, gəlib bu günün içinə düşüncə, qonşularına, dostlarına baxıb onları özü ilə, ailəsi ilə, atasıyla müqayisə edincə, Qəribin ovqatı pozulurdu, məyuslaşırdı, qəlbi sıxılırdı. Onda Qərib ad-sana da, şöhrətə də nifrət edirdi, çünki Nəzərin adı-sanı onu qutuya salmışdı elə bil, tərpənməyə qoymurdu. Onu eləmə — olmaz, çünki sən Nəzər müəllimin oğlusan. Bunu belə eləmə — olmaz, çünki sən Nəzər müəllimin oğlusan… Və bu, onu daha da inada salırdı, elə işlər eləmək istəyirdi ki, adi bir fəhlənin, kəndlinin övladı olsaydı, bunları qətiyyən ağlına gətirməzdi. İnada düşüb eləyirdi və onda da Qərib pis uşaq olurdu, pis oğlan olurdu. «İçmə» — demişdilər, içmişdi, «oxu» demişdilər, oxumamışdı, «siqaret çəkmə» — demişdilər, çəkmişdi və qəribəydi, özü də başa

düşmüşdü ki, düz eləmir. Ancaq bacara bilməmişdi, eləmişdi. Cavan olsaydı da, dərrakəliydi. Özünün, anasının güzəranına baxmışdı, kolxoz sədri Mikayılın, arvadının, uşaqlarının geyiminə-keçiminə fikir vermişdi və oğlanı fikir götürmüşdü; hələ bir dəfə tənbəllik eləməyib, Mikayılın da, Nəzərin də aylıq gəlirini hesablamışdı, məlum olmuşdu ki, Nəzərin, Bikənin ikisinin maaşı, tək canına işləyən Mikayılın maaşından üç-dörd dəfə çoxdu. Amma di gəl ki, onun evinə-eşiyinə, ailəsinin, uşaqlarının geyiminə-keçiminə tamaşa elə, Nəzərin ailəsinin evinə-eşiyinə, geyiminə-keçiminə bax. Yernən göy qədər fərq var arada. Bu niyə belədi? Niyə onun anasının Mikayılın arvadınınkı kimi qızıl-gümüşü, bahalı üzükləri, sırğaları, dəst-dəst paltarları yoxdu, niyə Mikayıl yaxşı ev tikdirə bilib, amma Nəzər yox. Niyə Mikayılın oğlu hələ institutda oxuyanda atası ona «Jiquli» maşını almışdı. Nəzər isə Qəribə ayda əlli manat pul güclə göndərirdi? Niyə on beş il oxuyan Nəzər beləydi, cəmisi səkkizillik təhsili olan Mikayıl elə? Qərib təkcə bunun cavabını o vaxt tapa bilməmişdi. Amma o zamandan gör nə qədər keçib — Mikayıl tutulub aparılanda Qərib bu sualın cavabını tapmışdı. Mikayıl indi allah bilir hardadı. Arvadı, uşaqları quru yurdda qalmışdı o gedəndə; dörd divar və bir də üst-başlarındakı pal-paltar. Demək, Mikayıl oğru imiş, demək o, bu «Sülh» kolxozunun zəhmət adamlarının alın təriylə qazandıqlarını çalıb-çapıb aparırmış. Bir əliylə dövlətə verirmiş, o biri əliylə dövlətin cibindən çıxarırmış. Və ona görə də elə harın-harın gəzib-dolanırmış və Nəzər müəllim kimilərə də yuxarıdan aşağı baxırmış. Qərib onda yenə bir şeyi də başa düşə bilməmişdi: necə olmuşdu ki, bu oğruya, bu şərəfsizə «Şərəf nişanı» ordeni vermişdilər — bax, bircə bunu heç cür ağlına sığışdıra bilmirdi. Kim bilir, bəlkə vaxt gələcək, o, bu sualın da cavabını tapacaqdı.

Kisələrə gözü sataşanda fikirləşmişdi ki, onları indi təzədən tikintiyə necə aparacaqdı — bu şübhəsiz idi ki, aparmalıdı — bir gətirməkdə səhv eləmişdi, bir də gətirib gizləməməkdə səhvə yol vermişdi — Xuduşa nə deyəcəkdi? Kişinin oğlu hörmət eləyib sement vermişdi, pulsuz-parasız, indi apar at üstünə, denən dədəm qoymur.

Bu, ona çox zülmlü bir iş kimi görünürdü. Qəlbindən keçirirdi: «bu kişi bizi qoymur da ürəyimiz istəyən kimi yaşayaq. Belə müsibət olmaz ki, o, bizə çəkdirir». Yox, Qərib qəlbində heç cür barışa bilmirdi atasıyla — kişi danışanda onu inandırırdı, oğlan atasının düz dediyini, doğru yol tutduğunu qəbul eləyirdi, ancaq susan kimi, durub

gedən kimi, Qərib öz düşüncələri ilə tək-tənha qalan kimi, unudulurdu o sözlər, o yol, o hikmətlər. Bir zamanlar, iyirmi il, otuz il, bir az da qabaqkı çağlarda bəlkə də dünya, insanlar Nəzər deyən kimi olub; ancaq yavaş-yavaş hər şey dəyişdiyi kimi, dünya da, insanlar da, onların əqidəyə, məsləkə, bir-birinə münasibəti də, «el malı», «xalq malı» deyilən, adı hamının, əslində, özü heç kəsin olmayan, daha doğrusu, beş-üç nəfər vicdansızın, əliəyrinin, oğrunun əlinə tapşırılan bu var-dövlətə münasibət də dəyişib. Qabaq qorxu vardı, qabaq inam vardı; qabaq həbsxanalardan, partiya biletinin əlindən alınacağından, ləkələnəcəyindən qorxurdu adamlar; qabaq inanırdılar məfkurəyə, birliyə, təmizliyə, amma indi qorxmurlar və inanmırlar. Əlbəttə, Qərib yaxşı başa düşürdü ki, hamı belə deyil, hamı o cür düşünmür və o cür yaşamır. Amma axı bu həqiqət idi ki, belə düşünənlər, belə hərəkət eləyənlər, belə yaşayanlar var və gərək kor olasan, ağılsız olasan, bunları görməyəsən, bunları düşünməyəsən.

Nəzər doğrudanmı bunları görmürdü, başa düşmürdü, ya…?

SƏKKİZİNCİ FƏSİL

Neçə gündü, Nəzər key təkiydi. Eynən təqaüdə çıxdığı ilk çağlarda olduğu kimi. Yuxusu qaçmışdı, iştahı pozulmuşdu. Deməyi-gülməyi yox idi. Qaşları həmişə düyünlüydü, elə bil nə isə çətin bir məsələnin həllini tapşırmışdılar, aciz qalmışdı, cavabını tapa bilmirdi. Sən demə, uzaqda yox, gözünün qabağında, bir zamanlar — komsomol vaxtlarında, cavan dəli-dolu çağlarında dostlarının, özünün gecə-gündüz bilmədən, yorulmadan qurub-yaratdığı, az sonra isə, döşünü irəli verərək yağıların tapdağı olmaqdan qorumaq üçün qızıl qanını axıtdığı bu əziz, doğma torpaqda, şirin, yaşadıqca yaşamaq istədiyin, heç cürə doymaq mümkün olmayan bu dünyada tamam ayrı cür, anlaşılmaz, nə istədikləri bilinməyən, acgöz, yedikcə «doydum» deməyən, verdikcə «yenə ver» deyən qəribə adamcıqlar və aləmlər yaranıbmış.

Müharibədən sonra, uzun-uzun illər boy onun səhərlər gedib, axşamlar qayıtdığı, təmiz, müqəddəs sandığı o məktəb çox balaca bir dünyaymış və o dünyadan kənarda böyük, mürəkkəb, ucu-bucağı görünməyən başqa bir dünya da varmış. Nəzər bu dünyanı görürdü, sadəcə inanmaq istəmirdi, təsadüfi, ötəri hal hesab eləyirdi. «Keçib gedəcək, meşə çaqqalsız olmaz» — fəlsəfəsi neçə müddət onun

düşüncələri ilə gördükləri arasına qalın bir pərdə çəkmişdi.

Ancaq sonra, yavaş-yavaş görmüşdü ki, adamlar nə isə cırlaşmağa başlayıblar, əvvəlki canıyananlıq, qayğıkeşlik, mehribanlıq azalıb.

Əli müəllimlər getmişdi, onları, lap elə Nəzərin özünü əvəz eləyən Şakir müəllimlər, Hüsü müəllimlər əmələ gəlmişdi. Heç dili də var gəlmirdi ki, Əliyə də müəllim desin, Şakirə də.

Bu, Nəzəri — öz duru və təmiz dünyasında yaşayan Nəzəri bir balaca silkələmişdi, ancaq ayıltmamışdı. Sonra… gəlib «Sülh» kolxozunun sədri Mikayılı aparmışdılar; on üç il sədr olmuşdu Mikayıl. Hər il planı yerinə yetirmişdi kolxoz, neçə qırmızı bayraq almışdı. Bakıdan, Daşkənddən qonaqlar gələndə katibin məsləhətilə birinci bura baş çəkərdilər; qabaqcıl kolxozdan təcrübə öyrənərdilər guya. Uzun müddət qüsursuz işlədiyinə görə ona «Şərəf nişanı» ordeni də vermişdilər. Mikayıl bu nişanı böyük iftixar hissilə sol döşünün üstündə gəzdirirdi, evdəki bütün kostyumlarının yaxası deşik-deşik olmuşdu deyirdilər. Hətta evdə olanda da o nişanı miləmil pijamasının yaxasına taxarmış. Tutulub milis maşınına mindiriləndə çıxarmışdı. Onu da özü yox, yadına salmışdılar. Məhkəmədə məlum olmuşdu ki, Mikayıl, məharətlə maskalanmış oğru imiş, əvvəl partiya bileti kölgəsində gizlənibmiş, sonra da «Şərəf nişanı» arxasında, hakim onu eləcə də adlandırmışdı: «Şərəfsiz…», «Şərəf nişanlı» şərəfsiz. Bu sözü eşidəndə, salonda, orta cərgələrin birində əyləşmiş Nəzər müəllim qulaqlarına inanmaq istəməmişdi. «Şərəf nişanlı» şərəfsiz. Demək, Mikayıl gözbağlayıcı imiş, kolxozçuları aldadırmış, rayon partiya komitəsini aldadırmış.

Nəzər üçün bunlardan da dəhşətlisi o idi ki, Mikayıl onun dərs dediyi uşaqları da aldadırmış — uşaqlar pambıq qurdu yığırmış, pambıq yığırmış, onlara qəpik-quruş verib başını qatandan sonra, siyahını təzələtdirirmiş, beş qəpik beş manat olurmuş, beş manat əlli manat olurmuş o siyahıda. Beləliklə, vücudu heç bir qəpiyə dəyməyən o pambıq qurdları üst-üstə yığılıb yüz minlərlə pul eləyirmiş və bu, uzun illər beləcə davam edibmiş… Mikayıl bu illər ərzində bir çox başqa şeylərdən özgə, doyunca pambıq qurdu da yeyibmiş. Doyunca yox. Doymaq bilmirmiş Mikayıl. İşin üstü açılmasaydı, yəqin Mikayıl hələ də pambıq qurdu yeyirdi.

Bu əhvalat Nəzəri tamam-kamal ayıltmışdı. Və neçə gün özünə gələ bilməmişdi — sayılan, hörmət edilən, rayon yığıncaqlarında

rəyasət heyətində əyləşdirilən, Bakıda televizor ekranlarında tez-tez görünüb ağzı köpüklənə-köpüklənə danışan Mikayıl yalançı, oğru, vicdansız imiş və indi hardasa həbsxana küncündə oturub cəzasını çəkir…

Amma uzun müddət elə hey bu sual onu düşündürmüşdü: — Axı, Mikayıllar niyə camaatın etibarından belə sui-istifadə edirlər? Nə düşünürlər onlar görəsən?.. Axı belə vicdansızlıq olmaz. Axı onlar cəzasını çəkib gələndən sonra bu camaatın gözünə necə görünəcəklər, bu adamlar arasında necə yaşayacaqlar? Yox, Mikayıl gərək daha bu kəndə üz tutmasın. O yanlarda ölsün, qalsın, amma bu tərəflərə gəlməsin. Əlbəttə, utanan üzü varsa. Sonra öz-özünə etiraz edib deyirdi: «Sən də qəribə adamsan ha, Nəzər. Onun vicdanı olsaydı, belə eləməzdi. Yoxsa, sən elə bilirsən ki, orada Mikayıla vicdan verəcəklər, utanan üz verəcəklər? Ay verdilər ha!»

Nəzər itiyi itmiş adam kimi, bütün günü rayon mərkəzində gəzib-dolanır, gah aşxanaya girir, gah çayxanaya gedir, gahda mağazalara baş çəkir, univermağın mərtəbələri arasında vurnuxurdu. Alacağı bir şey yox idi. Neçə gün idi ki, fikirləşirdi ki, Süleymanın yanına getsin.

… İkinci mərtəbəyə qalxdı, pilləkənin qabağındakı qapıdan içəri girdi. Üstündə yazı makinası, telefon aparatı, güllü piyalə olan mizin arxasında xurmayı saçlarını topalayıb başının ortasında sancaqlamış, qırmızı don geymiş bir qız siyirməni dizlərinə doğru çəkib oradakı güzgüyə baxıb dodaqlarını dili ilə yalayırdı və başı özünə elə qarışmışdı ki, Nəzərin gəlməyindən xəbəri olmamışdı. Yanakı oturmuşdu, sifətinin yarısını görürdü və bu yarımsifət ona nəsə tanış gəlirdi. Amma kimiydi — ayırd edə bilmirdi. «Hə, keçən dəfə gələndə bu qız yox idi burada, ayrı qız oturmuşdu. Onu acılamışdım da. Bu, təzə gəlib görünür».

Nəzər öskürdü və qız səsi eşidib siyirməni yerinə itələyərək səksənmiş halda qapıya sarı baxdı:

— A, Nəzər müəllim, sizsiz? Xoş gəlmisiz, — dedi və ayağa qalxdı.

Nəzər qoltuğundakı bükülünü böyrünə bərk-bərk sıxıb zənnlə fikir verdi, ancaq yenə tanıya bilmədi.

— Salam, qızım, — söylədi və səsindəki qətiyyətsizlikdən qız başa düşdü ki, Nəzər onu tanıya bilmir.

— Deyəsən, məni tanımadız, Nəzər müəllim?

— Düzü ki, qarışdırıram, qızım. Qocalıq deyəsən öz hökmünü göstərir. Oxşadıram, amma dəqiq xatırlaya bilmirəm.

Qız pərtliyini büruzə verməməyə çalışaraq, gülə-gülə:

— Mən Cura müəllimin qızıyam, — dedi.

— Ay səni. Görürsən? Deyirəm axı.

— Siz bizə iki-üç dəfə gəlmisiz, Nəzər müəllim.

— Hə, hə, qızım. Sən gərək ki, Cura müəllimin üçüncü qızısan, adın da, səhv eləmirəmsə… — Nəzər müəllim yenə duruxdu, nəyisə qarışdırdığını başa düşüb günahkar imiş kimi gözlərini döydü.

Qız güldü:

— Yox, Nəzər müəllim, mən dördüncü uşağam, adım da Sünbüldü.

— Hə, hə, Sünbül… Yadıma düşdün. Mən görəndə sən balaca qız idin, bala. Maşallah, böyümüsən.

Sünbül başını aşağı saldı.

— Atan necədi? O gün bazarda görüşdük… — Bunu deyib Nəzər Sünbülün gözlərinin içinə fikir verdi və onlarda bir dəyişiklik görməyib ürəyində sevindi: «Cura mənimlə söhbətini evdə danışmayıb». — Yaxşı bəs sən burda neynəyirsən?Sünbül qırmızı lak çəkilmiş dırnaqlarını qurdalaya-qurdalaya:

— İşləyirəm, Nəzər müəllim, — dedi. — Katibəyəm.

— Katibə? — Nəzərin bu sualında bir heyrət vardı və onu heç cür başa düşməmək, hiss eləməmək mümkün deyildi. — Bəs instituta getmədin?

— Yox, Nəzər müəllim. Üçü oxuyur Bakıda. Mən özüm getmədim, qoy böyük bacım qurtarıb gəlsin, sonra… mən gedərəm.

— Hə, çətindi. — Nəzər o gün bazarda Curanın dediyi sözləri yadına saldı: «Ancaq ləyaqətnən arvad-uşaq qarnı doydurmaq olmur, Nəzər müəllim». Nəzər o yan-bu yana baxındı, divarın dibində stul görüb özünü ona yetirdi və gözlərini yumdu. Sünbül onun halının dəyişdiyini görüb əl-ayağa düşdü, irəli gəlib:

— Nəzər müəllim, sizə nə oldu? Həkim çağırım? — dedi.

Nəzər gözlərini açıb qəmli-qəmli gülümsündü:

— Yox, qızım. Heç nə lazım deyil. Sadəcə yorğunam yaman…

— Qorxdum, Nəzər müəllim. Qoy sizə bir stəkan çay…

— Yox, yox, lazım deyil… Keçdi getdi… Sən mənə fikir ver-

mə, qızım.

Sünbül keçib yerində əyləşdi. Nəzər isə ona baxıb mehriban-mehriban gülümsüyürdü və gülümsünə-gülümsünə fikirləşirdi: «Ölmüş, çox gözəlsən. Amma hayıf səndən, qızım, Sən niyə gəlib burada işləyirsən, axı? Sənə bu boyda rayonda iş qəhətdi yəni? Bu müdirlər də, rəislər də, katiblər də, nazirlər də qəribə adamdılar, vallah. Bu yaşa gəlmişəm, hələ bir vəzifə sahibinin qapısında oturan bir kifir qız görməmişəm. Hamısı gözəl olub. Gərək hamısı mütləq gözəl olsun? Bu harada yazılıb axı? Gətir bir şikəsti, bir fiziki iş görə bilməyəni oturt qapında da. Olmaz? Çörək verirsən — bir əlsiz-ayaqsıza ver da, dünya dağılmaz ki…»

— Təzə işləyirsən, bala, burda?

— Hə, üçüncü gündü, Nəzər müəllim. — Sünbül sakitcə cavab verdi.

— Bə o pırpızbaş katibə necə oldu?

— Pırpız baş?

— Hə də, səndən qabaqkı katibə. Əti, dili acının, mədəniyyətsizin biriydi…

Sünbül qımışdı:

— Getdi… Deyirlər, köhnə katib öz yanına aparıb…

— Hm. Belə deee. — Nəzərin gər səsi uzandı və: — Kişiyə denən Nəzər müəllim gəlib, — söylədi Sünbülə. — Gör vaxtı, imkanı varmı məni qəbul eləməyə?

Sünbül uşaq kimi dik qalxdı, böyründəki pardaxlanmış qapını açıb içəri keçdi və heç bir dəqiqə keçməmiş qayıdıb:

— Buyurun, Nəzər müəllim, — dedi və geri çəkilib ona yol verdi. Nəzər qoltuğundakı bükülünü böyrünə sıxıb otağa keçdi.

… Süleyman öz stolunun arxasından qalxıb Nəzər müəllimlə üzbəüz oturmuşdu. Katib ancaq hörmətini saxladığı adamları qəbul eləyəndə belə oturardı və bu o demək idi ki, söhbət dostanə, qeyri-rəsmidi. Bunu Nəzər də bilirdi və Süleymanın öz müəllimini bu cür qarşılamağından çox razı idi.

Süleyman onu görən kimi sevinclə yerindən qalxıb irəli gəlmiş, əllərini sıxıb ağ saçlarına, pırpız qaşlarına məhəbbətlə baxmış, çəkib əyləşdirmişdi. İşini, gücünü, ailəsini soruşmuş, səmimiyyət göstərmişdi. Elə bil əhvali-ruhiyyə yaranmışdı ki, Nəzər düşündüklərini açıq deyə biləcəyini yəqinləşdirib bir az sevinmişdi, bir az rahatlanmışdı. Bayaq dəhlizə girərkən keçirdiyi həyəcan, tələş, nigarançılıq

da əriyib yox olmuşdu.

Nəzər qoltuğundakı bükülünü böyründəki boş stula qoyub ərkyana Süleymana dedi:

— Süleyman, o katibənə denən, bizə bir stəkan çay təşkil elə-sin. Boğazım lap quruyub.

— Bu dəqiqə, — deyərək Süleyman öz stolunun arxasına keç-di, Nəzərin görə bilmədiyi, harasa mizin aşağısına bərkidilmiş düyməni basdı və gəlib yerində oturmamış Sünbül qapının ağzında göründü:

— Bizə çay, — dedi.

— Baş üstə, bu dəqiqə — deyə Sünbül dabanı üstə geri döndü.

— Hə, sənin işlərin necə gedir, ay Süleyman? — deyə cibindən müştüyünü çıxarıb «Avropa»sından birini ucuna taxanda, katib «Mal-bora»nı və büllur külqabını onun qabağına qoydu:

— Bundan çək, Nəzər müəllim.

— Yox, sağ ol. Adət eləmişəm buna. Sonra pis öyrəşərəm, ona mənim pulum çatmaz.

Süleyman güldü:

— Ta ağ eləmə də, Nəzər müəllim. Bunun qutusu — o, bəzək-li qutudan bir gilə götürüb damağına aldı və əvvəl Nəzərin, sonra özünün siqaretini kiçik, bəzəkli alışqanla alışdırdı — bunun qutusu bir manatdı. Yəni sənin gündə bir manat verib siqaret almağa pulun yox-du?

— Bir manat? Nə danışırsan, canım? Onun qutusu beş manatdı. Moskovski, Kişinyovski olanda beş manat, amerikanski olanda yeddi manatdı. Sizin «spesmaqazin»ininiz var, siz ordan bir manata alırsız. Amma biz…

— Hardadı bu belə?

— Əldə. Alverçidə.

— Hə. Mən elə bildim mağazada deyirsən.

— Eh, ay sağ olmuş, mağazada «Malbora» nə gəzir. Ümu-miyyətlə, sən gərək bunu yaxşı biləsən ki, təkcə o yox, bütün yaxşı mallar mağazalardan qaçaq düşüb, hamısı alverçinin əlində cəmləşib, Süleyman.

— Bəs milis hara baxır?

— Elə mən də, düzü, Süleyman, sənlə bu və bunun kimi bəzi məsələlər barəsində açıq danışmağa gəlmişəm. Xeyli fikirləşdim,

gedim-getməyim deyə çox çapaladım, axırı vicdanımın səsinə qulaq asıb sənin yanına gəlmişəm. Mən bunları sənə deməyə bilmərəm. Ola bilər fikir verməyəsən… sonra əngəl açar.

— Hə, buyur, Nəzər müəllim, səni eşidirəm.

Bu zaman Sünbül iki armudu stəkanda çay, qənddanda konfet gətirib onların qabağına qoyaraq çıxdı.

— Sağ ol, qızım. — Bunu Nəzər söylədi və onun arxasınca baxa-baxa fikirləşdi ki, elə bu qızdan başlayacaq, çünki məqamdı. Və başı ilə qapıya tərəf işarə eləyib:

— Bu qızın kim olduğunu bilirsən, Süleyman? — deyə soruşdu.

— Hə, Cura müəllimin qızıdı, deyirlər.

— Deyirlər yox, elə həqiqətən Cura müəllimin qızıdı, Süleyman. Onu sən götürmüsən bura, katibəliyə?

— Hə. Üçüncü katib gətirmişdi. Xahiş elədi. Deyəsən Cura müəllimin külfəti böyükdü, dolanışıqları o qədər də yaxşı deyil.

— Bəli, düz deyib. Sən bilməmiş deyilsən ki, Cura bizim yaxşı müəllimlərimizdəndi, Süleyman. Səkkiz qızı var — üçü Bakıda oxuyur. Özün bilirsən də, uşaq oxutmaq indi müşkül işdi. Bolluqdu şükür, hər şey var. Yemək, içmək, pal-paltar. Ancaq indi dünya sənin, mənim o vaxt gördüyümüz dünya deyil — uşaqlar tamam ayrı cür böyüyüb, tərbiyə alıb — hamısı gözəl geyinmək istəyir, buna isə Cura müəllim — maaşa baxan adam necə pul çatdırsın? Bu uşaq da oxumalıydı. Amma getməyib — qoy bacım qurtarıb gəlsin, deyib. O gün Cura bazarda pomidor satırdı. Ürəyimin başı söküldü, bu, axı, müəllimdi, Süleyman. Müəllimi Şura hökuməti həmişə uca tutub. Qız da ağır qızdı.

— Hə, ağıllı qıza oxşayır. İki-üç gündü gəlib.

— İndi mən səndən qəribə bir xahiş eləyəcəyəm, Süleyman.

— Buyur, buyur, Nəzər müəllim.

— O qızı burdan uzaqlaşdır. Yazıqdı o qız. Bura rayon yeridi, hamı bir-birini tanıyır, o qızın adına pis söz çıxar. Mən istəmirəm, əvvələn, o gül kimi uşağın adı ləkələnsin, ikincisi də, sənin özünün də dalınca artıq-əskik danışsınlar. Bunu mən istəmirəm.

— Maddi vəziyyətləri…

Nəzər onun sözünü kəsdi:

— Maddi vəziyyətlərini nəzərə alırsansa, onu başqa bir işə düzəlt, Süleyman. Nə çoxdu bu boyda rayonda iş. Cavandı, sağlamdı,

kor deyil, şil deyil. Mən bilən, Cura naəlac qalıb razı olub, yoxsa o kişi təmiz adamdı.

Süleyman durub gəzindi:

— Bəs… mənim adımın bura nə dəxli var, Nəzər müəllim? Bunu başa düşmədim.

— Burda başa düşməli heç nə yoxdu, Süleyman. Sən məndən də çox yerlərdə olubsan, vəzifələrdə çalışıbsan, bu katibələrin işi müsibətdi. Katibəni bizim camaat həmişə müdirə yaxıb. Lap təmizi də olsa, ha. Bu oda yanıb — heç özünün də xəbəri olmadan yanıb. Onu da sənin adına yaxacaqlar, deyəcəklər Sünbül Süleymanın adamıdı. Gəl indi adamları inandır ki, bu, belə deyil. Qoy sənin katibən qız olmasın, oğlan olsun — nə olar, hə?.. Qoy bir fiziki iş görmək qabiliyyəti olmayan bir qız olsun, nə olar, hə?

— Ümumiyyətlə, düz deyirsən, Nəzər müəllim. Məndən xahiş elədilər. Mən də…

— Yox, Süleyman, mən bilirəm nə deyirəm! Bu, həm də o qız üçün yaxşı olar, həm də sənin üçün.

— Baş üstə, Nəzər müəllim. Bəs onda o uşağı hara düzəldək?

— Sən ona nə qədər maaş verirsən?

— Dəqiq bilmirəm, deyəsən, doxsandı, ya yüz manatdı.

— Azdı, Süleyman. Mən onu Nəzarət komitəsində işə götürərəm, ayda da yüz qırx manat maaş verərəm. Oturar, yazı-pozu işiynən məşğul olar. Belə yaxşıdı, Süleyman.

Süleyman gülüb razılıqla başını tərpətdi, stəkanını götürüb çaydan bir qurtum içib:

— Soyutma, Nəzər müəllim, — dedi. — Nəzər siqaretini külqabına basıb söndürdü, çayını içə-içə:

— Bağışla ha, — söylədi, — birdən ürəyinə gələr ki, Nəzər müəllim…

— Yox, yox, xoşdu, Nəzər müəllim. Mənim işim o qədər çox və ağırdır ki, inan, çatdıra bilmirəm. Kənardan baxan elə bilir ki, nə var ey, katibdi də, daş daşımır, odun doğramır. Amma yox. Adicə fikirləşməyə belə bəzən vaxt tapa bilmirəm. Səhər yeddidən axşam saat birəcən, ikiyəcən ora-bura qaçıram. Çöl tarla, əkin, biçin, iclas daha nə bilim nələr. Başımı qaşımağa imkan olmur bəzi vaxt.

— Çətindi, başa düşürəm. Böyük rayondu, qayğısı, dərdi-səri çoxdu.

— Düzü, Süleyman, mən də elə düşünüb gəlmişəm yanına. Bir çox mətləblər var ki, sən qarışmasan, həll olunan deyil.

Nəzər yenə siqaret yandırdı, tüstünü ciyərlərinə çəkib buraxandan sonra, arxayın-arxayın danışmağa başladı:

— Xahiş eləyirəm, qulağın məndə olsun, Süleyman. Bir anlığına elə hesab elə ki, mən yenə sənin müəlliminəm, sən şagirdsən, oturub dediklərimi dinləyirsən. Yaxşımı?

— Yaxşı, Nəzər müəllim. Sən bizim həmişə müəllimimiz olubsan. Harda oxusaq da, harda işləsək də, səni bir müəllim hesab eləmişik özümüzə və bununla fəxr eləmişik…

— Çox sağ ol, Süleyman, — Nəzər ayağa qalxdı, uzun, çəhrayı pərdələri çəkilib qıraqlarda bağlanmış iri laylı pəncərənin önünə gəldi, aşağı boylandı. Süleyman elə bildi ki, kimisə gözləyir, kiminsə nigarançılığını çəkir, soruşdu:

— Kimi gözləyirsən, Nəzər müəllim?

— Heç kəsi, — o geri döndü və qəribəydi ki, sifəti bayaqkından ciddi olmuşdu, sanki nə isə onu qəzəbləndirmişdi. Əslində elə bir şey yox idi — sadəcə deyəcəklərinin ciddiliyi özündən asılı olmayaraq onu belə gərginləşdirmişdi: — heç kəsi. Eləcə baxmaq istəyirdim görüm bura çox ucadı, təpədə, dağın başında tikilməyib ki. Gördüm yox, ikinci mərtəbədi, vəssalam. Amma hər halda ikinci mərtəbədi, Süleyman. Mənə elə gəlir ki, sən birinci mərtəbədə otursaydın, daha çox şey görə bilərdin. Bəzən hündürdən baxanda, aşağıdakı böyük şeylər çox kiçik görünür, kiçik şeylər isə heç görünmür, ya nöqtə boyda nəzərə çarpır.

— Çox qəliz oldu bu, Nəzər müəllim. Mən başa düşdüm səni, ancaq xahiş eləyirəm, xırdala.

— Xırdalamalı bir məsələ yoxdu, Süleyman, hamısı iri-iri məsələlərdi. Heç bilmirəm hansından başlayım.

— Ürəyin hansından istəyir! — deyərək Süleyman keçib öz yerində oturdu və əlini üzünə dayayıb qulaq asmağa başladı.

Nəzər də pəncərə ağzından qopub bükülüsünün yanında əyləşdi:

— Ayağın çörəkliymiş deyəsən. Yəqin taleyin istəmir ki, səni bura göndərən yoldaşların yanında başı aşağı, gözü kölgəli olasan.

— Nə bilim. Dünyada ən çox elə bundan qorxuram.

— Qorxma, Süleyman, camaatımız səni xəcil eləməz, çünki sən bu torpağın oğlusan, burdan pərvazlanıb gedibsən. Səndən qa-

baqkı katiblər gəlmə olublar, buralara bağlı adamlara olmayıblar, qonaq hesab eləyiblər özlərini. «Dörd-beş il, lap on il işləyib axırı gedəcəyik» — deyə çamadan üstə oturublar həmişə. Uzun-uzun illər həsrət çəkmişik ki, görəsən haçan özümüzünkülərdən biri bu rayona katib gələcək. Yəni doğrudan bu torpağın elə bir yetirməsi olmayacaq? Şükür, nəhayət, sən gəlibsən. Ancaq… gərək sən… özündən əvvəlki katib kimi olmayasan. Əgər istəyirsən həm işin getsin, həm də el-oba içində hörmətini-izzətin olsun, gərək onun kimi olmayasan…

— O nə təhər idi ki, Nəzər müəllim?..

— O… katib deyildi, Süleyman, o, faşist idi. Hə… görürəm, qaşların qalxdı alnının ortasına. Təəccüb eləyirsən görürəm. Amma eləmə, bala. Mən həqiqəti deyirəm. Ha fikirləşirəm ki, axı necə olur bizim aramızda belə adamlar yaranır, partiyaya girir, kommunist adı daşıyır; necə olur? Ən təəccüblüsü isə budu ki, necə olur elələrinə bizimkilər vəzifə də tapşırırlar axı?! Heç cür başa düşə bilmirəm.

— Axı o necəydi ki?

— O bir despot idi, Süleyman. Sən təsəvvür elə ki, bu boyda rayonda kimin nə cürəti var idi ki, cınqırını çıxartsın, ona kəc baxsın, haqqında bircə kəlmə tənqid desin?! Heç kəsin! Hamını əzmişdi, ləyaqətsiz, şəxsiyyətsiz eləmişdi. Bu rayonda indi axtarsan fərli-başlı bir kişi çətin taparsan. Hələ uzun müddət də olmayacaq. Çünki o, kişilik, ləyaqət hissini öldürüb adamların ürəyində. Onu diriltmək, təzədən cücərtmək isə… beş-on günün işi deyil, onunçün illər, bəlkə də on illər lazımdı. Amma kişi əvəzinə nə qədər yaltaq, baş əyən, müti adam desən taparsan… Sən de, əl çalsınlar. Dediyini başa düşməsələr də, nəticəsini anlamasalar da, əl çalsınlar… O, on beş il belə öyrədib camaatı… Adamların çoxu indi də elə o havaynan yaşayır, Süleyman. Bu ötən on beş ildə camaatımızın beli çöldə, tarlada yağır oldu, əyri bitdi, ziyalılarımızın əli çəpik çalmaqdan qabar oldu, Süleyman. Zalım oğlunu ancaq bir şey düşündürürdü: plan! Plan, vəssalam. Ölsən də, qalsan da plan. Bir dəfə dedim ona…

— Hə? Bəs deyirsən heç kəs cürət etmirdi… — Süleyman qımışıb soruşdu.

— Hə. Elədi. Ancaq mən… daha dözmədim, dedim…

— Maraqlıdı. Nə dedin, Nəzər müəllim?

— Dedim ki, bu camaat yazıqdı, yoldaş katib, qul deyil bu camaat. İndi doqquz-on ayını gecəni-gündüzə qatıb işləyən bu adamlara

yazığın gəlsin. Sovet hökuməti həftədə bir gün istirahət eləmək ixtiyarı verib. Qoy heç olmasa bir həftə işləyəndə bir gün də dincəlsinlər. Allahdan qorxmursan, bilirəm, heç olmasa o partiya biletindən qorx, kişi. Alallar, əlindən, qalarsan başına-dizinə döyə-döyə. Güldü, dedi: Plan, Nəzər müəllim, plan. Əgər planı doldurmasam, bax, onda alallar əlimdən biletimi.

— Yazıq düz deyirmiş, Süleyman. Sən demə, bizimkilər üçün plan hər şeydən üstünmüş. Neçə il dalbadal planları doldurduğuna görə, axırda ona, bilirsən, Sosialist Əməyi Qəhrəmanı adı verdilər. Halbuki, o, xeyirdən çox ziyan vermişdi dövlətə, partiyaya, bu camaata.

— Nə ziyan?

— Mənəvi ziyan, Süleyman. Adamları əzdi o, mənəvi şikəst elədi, üzünə düz söz deyəni məhv elədi, inamı öldürdü — ədalətə, Şura hökumətinə, partiyaya olan inamı öldürdü. Halbuki, bu inam — bizim ən böyük sərvətimiz idi. Öz ordusuna zülm eləyən, onu təhqir edən, gecə-gündüz qabağına qatıb aman verməyən sərkərdə döyüş meydanlarında həmişə məğlub olub, Süleyman. Keçmişdə bəylərin, ağaların nökərləri olardı — onlar öz nökərlərini ac-yalavac saxlamamağa çalışardı. Kim ki, ac, çılpaq saxlardı, o nökər oğurluq eləyərdi, canı-dildən işləməzdi, imkan düşən kimi də, vəzncə yüngül, qiymətcə ağır şeylərdən götürüb aradan çıxardı.

— Yəni deyirsən o, camaatı ac-yalavac saxlayırdı?

— Demək olar ki, hə.

— Nə təhər yəni?

— Çox sadə. Adamlar işləyir, əməkgünü alırdı. Əməkgününə isə… çox az şey verilirdi. Kağız üzərində mənim beş yüz əməkgünüm olsun — onun ki, bahasına heç nə verməyəcəksən, deməli, mən acam, çılpağam.

Sənin bəlkə də yadına gəlməz… uşaq olardın onda… Xadimələr, kiçik qulluqçular… müharibədən sonra 350-400 manat pul alardılar. Bir gün Stalinə söyləyirlər ki, axı bu maaşla adam dolana bilməz, yoldaş Stalin. Əlini bığına çəkib qımışaraq cavab verir ki, mən də bilirəm dolana bilməz. Amma heç şikayət eləyən yoxdu. Düz deyirdi Stalin. Şikayət eləyən yox idi. Ancaq onda onun qorxusundan ac qalsa da, oğurluq eləyən də yox idi. Amma sonra… o öləndən, o qorxu, o zəhm bütü aradan gedəndən sonra, qorxu da aradan getdi… Bax, buna görə yavaş-yavaş əyri əllər yarandı, özü də bir yox, beş yox,

yüz-yüz və uzandı və xalqın, dövlətin cibinə, halal zəhmətinə… Və əxlaq fənaya uğramağa başladı, Süleyman… Yalançılar, oğrular, vicdansızlar əmələ gəldi ki, indi qabağını ala bilmirik…

Süleyman köksünü ötürdü:

— Hə. Düz deyirsən, Nəzər müəllim. Sən lap sosioloq kimi təhlil edirsən. Bunlar çox incə iqtisadi-sosioloji məsələlərdi.

— Mən gördüyümü deyirəm, Süleyman. Stalin deyirdi şikayət eləyən yoxdu. Kimə şikayət eləməliydi?.. Kimin yaxasından yapışsan, deyəcək mən neyləyim, qanun belədi. Axı bu qanunu kim yaradır? İnsan özü yaratmırmı? Yaradır və özü də onun əlində əsir-yesir olur.

— Hər qanunun iqtisadi-əxlaqi-mənəvi əsası olmalıdır.

— Bəli, olmalıdır. Ancaq təəssüf ki, bəzən bunlar tam və hərtərəfli nəzərə alınmır. Qanun kitabına «güllələnsin» hökmünü yazan adam ancaq özü güllələnməyə məhkum ediləndə onun əsl mahiyyətini başa düşür və fikirləşir ki, məsələn, bu günaha görə güllələmək də olarmış. Qırx altıncı ildə — çörəyin lap şirin vaxtında — bizim kənddə xırmanın keşikçisi Qardaşxan kişi ciblərinə buğda töküb gətirəndə tutmuşdular. Kiloyarım, iki kilo olardı, ya olmazdı. Beş il verdilər, elə həbsxanada da öldü. Mən onun mühakiməsində iştirak eləyirdim. O qoca, şikəst kişi ağlaya-ağlaya deyirdi ki, vallah, mən oğru deyiləm. Evdə uşaqlar acından ağlayırdılar. Gətirdim ki, qovursunlar, heç olmasa qovurğa yesinlər. Hakim deyirdi: «Gözləyəydin, kolxoz əməkgününə taxıl böləndə alardın haqqını». «Mən gözlədim, ey, ay möhtərəm hakim, ancaq uşaq gözləyə bilməzdi», — deyirdi Qardaşxan — əməkgününə taxılı payızda verəcəklər…» Qardaşxan oğru idi? Yox. Amma «oğru» damğasıyla basdılar getdi. Axı deyirik kolxozun malı kolxozçunundu. Demirik?

— Deyirik, — Süleyman fikirli-fikirli cavab verdi.

— Demək onda… nə təhər olur bə bu? — Nəzər müştüyünə siqaret qoyub yandırdı, acgözlüklə tüstünü ciyərlərinə çəkib üfürdü — heç bizim balıqçıların yanına — vətəgəyə getmisən? — Süleymandan soruşdu.

— Hə, bir dəfə atüstü getmişəm. Necə məgər?

— Sənə şikayət-zad eləyən olmayıb ki?

— Yox, məgər şikayət eləməliydilər?

— Əslində eləməliydilər. Ancaq görünür qorxublar, çəkiniblər. Çünki səndən qabaqkı katibin qorxusu hələ canlarından çıxmayıbdır.

— Nə şikayət eləməliydilər ki, Nəzər müəllim? Mən hətta soruşdum da… Dillənən olmadı…

— Sən yəqin vətəgənin direktorunun üzünə baxmamısan o anda. Baxsaydın, görərdin ki, o, başı ilə onlara necə «susun» işarəsi verir.

— Hə?

— Bəli, qoymurlar camaat dərdini-sərini öz rəhbərinə — katibinə deyə bilsin. Guya bu onların şəninə kəsir gətirər. Dərdi deməmək — bu da bir cür yalandı. Bütün yalanların anası isə zülmdü, Süleyman.

Süleyman, görünür, heç yerə tələsmirdi. Arxayın-arxayın oturmuşdu. Bu söhbətlər, əslində onun üçün çox maraqlı idi; hiss eləyirdi ki, Nəzər rayonun problemlərini, qayğılarını çox dərindən bilir. Özü bir il də idarələri, müəssisələri, kəndləri gəzib-dolaşsaydı, o qədər şey öyrənə bilməzdi bəlkə də... Bunu da hiss eləyirdi ki, Nəzər müəllim balıqçılardan nahaq söz salmayıb — nəsə mühüm bir mətləb açmaq istəyir. Odur ki, soruşdu:

— Axı, balıqçıların nə şikayəti ola bilərdi, Nəzər müəllim?

— Balıq şikayəti, Süleyman.

Süleyman gözlərini döydü:

— Necə yəni balıq şikayəti?

Nəzər yerini rahatladı:

— Bu balıqçılar yay-qış bilmədən… gecə-gündüz sulardadı, Süleyman. Hər gün tonlarla balıq tuturlar. Elədimi?

— Elədi.

— Dövlətin balığını, kürüsünü verirlər. Elədimi?

— Hə.

— Bəs bu balıqçının özünün, uşaqlarının ağzı yoxdumu? Sənin kimi, mənim kimi demirəm ha, — çünki mən yeyə bilmirəm — onlar da balıq, kürü yemək istəmirmi? Amma yeyə bilirmi? Yox, Süleyman. Əlbəttə, üst-başından balıq iyi gələn bu adamların balıq həsrəti böyükdü. Onun ixtiyarı yoxdu bir çəki, şahmayı demirəm, kilkə də gətirsin evinə, balalarına. Gətirsə, tuturuq. Gətirməsə, həsrətdi — özü də, uşaqları da. Deyəcəksən, getsin bazardan, mağazadan alsın? Hanı? Varmı? Yox. Bəs… nə olsun? Bax, onda sənin balıqçı qardaşın başlayır oğurluq eləməyə. Olmazmı ki, o balıqçılar elə orda, mən havayı demirəm, dövlət qiymətinə özünün tutduğu, kağız üzərində

özünün olan o balıqdan heç olmasa bircəciyini öz pulu ilə alıb gətirsin, balalarını yığsın başına, bişirib yesin? Olmaz?.. Belə eləsən, o fəhlə can yandırar işə, həvəs göstərər, sənin də üzünü ağ eləyər, ailəsinin yanında özünün də üzü ağ olar… Onda o yazıq vallah, oğurluq eləməz, billah, oğurluq eləməz. Elə olsaydı, keçən il beş balıqçı həbsxanaya düşməzdi, Süleyman.

Süleyman qurcalandı kreslosunda.

— Düz deyirsən, Nəzər müəllim. Bu, yaxşı təklifdi. Doğrusu, mənim ağlıma gəlməyib… Mən tapşıraram, bu barədə düşünsünlər…

— Bunu eləsən, ayda orta hesabla yüz kilo balıq gedər vətəgədən. Eləməsən, ton, iki ton aparacaqlar. Hansı yaxşıdı?

Süleyman başını tərpətdi, mehriban-mehriban gülümsündü.

— Demək, mənnən razısan ki, ehtiyac olmasa, oğurluq olmaz. Hə?

— Əlbəttə. — Süleyman qeyri-ixtiyari belə dedi və tez də duruxdu. O, sualı həzm-həll eləmək istəyirdi ki, Nəzər pencəyinin döş cibindən iki vərəq kağız çıxartdı.

— Bir bunlara bax. — Onun qənşərinə qoydu.

— Nədi bu?

Nəzər qalxıb Süleymanın yanına gəldi, vərəqlərin üstdəkini irəli itələyib ani sükutdan sonra — nigaran idi ki, katib bu məsələni necə qarşılayacaq — söylədi:

— Bax, bu siyahidə adını yazdığım adamlar bizim rayonun, loru dilnən desəm, kiçik oğrularıdı, Süleyman.

Süleyman çevrilib altdan yuxarı Nəzərə baxıb təəccüblə:

— Kiçik oğruları? — deyə onun sözünü təkrar elədi.

— Hə, Süleyman.

— Özü də nə az, nə azacıq. Doxsan bir nəfər?

— Bəli. Dəqiq saymışam. Bütün idarələri, müəssisələri, kolxozları, mağazaları, restoranı, yeməkxananı… hamısını nəzərdə tutmuşam.

Gözlərini siyahıdan çəkməyən Süleyman:

— Bu birinci xanadakı rəqəmlərindən belə, ay Nəzər müəllim? — dedikdə, o dərhal izahat verdi:

— Bunlar — barmağını səliqə ilə yazılmış rəqəmlərin üzərində gəzdirdi — bunlar o adamların maaşlarıdı. Görürsən, doxsandan, yüzdən yuxarı çıxmır heç biri. İndi səndən soruşuram — mağazada,

bufetdə, aşxanada, dəlləkxanada, nə bilim, nədə, nədə işləyən bu adamlar bu az maaşla dolana bilərmi, ev-ailə, arvad-uşaq saxlaya bilərmi?

— …

— Niyə susursan, Süleyman?

Süleyman sol əlinin barmaqlarını daraqlayıb gicgahının çallaşmağa başlayan tüklərini qarışdırdı. Qətiyyətsiz bir səslə:

— Yox, — dedi və elə o dəqiqə ürəyindən keçirtdi ki, Nəzər onu deyəsən yaman yerdə divara qısnayıb. Nəzər onun o bir kəlmə sözünü eşidəndən sonra rahat nəfəs aldı:

— Ay sağ ol. Dolanmadığına görə ya zəlil olmalıdı, xəcil olmalıdı, ya da oğurluq eləməlidi bu adamlar. Kimin əlinə harda nə keçdi, nəyə imkanı oldu.

Qulaqları guruldayan katib əlini cəmlənib toplanmış böyük məbləğin üstünə qoyduqda Nəzər söylədi:

— O, bu doxsan bir adamın bir ayda aldığı puldu.

— Hə, başa düşdüm. Bəs bu ikinci xana nədi, Nəzər müəllim?

— Bax, elə bircəciyini götürək, başa düşmək üçün asan olsun. Bu dükandar Sübhanın qabağına iki rəqəm yazmışam. Birincisi doxsan beşdi — indi aldığıdı; ikincisi, iki yüz əllidi. Bu, alacağıdı. Sübhan doxsan beş alanda mütləq oğurlayacaq. Özü də sənə deyim aza kifayətlənməyəcək, çox oğurlayacaq, çünki canavarın dişi qana batdımı, qabağına nə çıxsa, didib-parçaladığı kimi, o da, əlinə nə düşdü, çırpışdıracaq; «oğurluq elə oğurluqdu, onun nə böyüyü, nə kiçiyi?» deyəcək, özünü oda-gözə vuracaq. Amma iki yüz əlli alsa…

— Deyirsən, iki yüz əlli alsa, oğurluq eləməyəcək?

— Yox, eləməyəcək.

— Deyirsən, indi… biz bu siyahidəki adamların maaşını artıraq, Nəzər müəllim?

— Bəli. Əgər artırsaq, hesab eləmişəm, ildə əlli minəcən artıq pul xərcləyəcəyik. Artırmasaq, onlar dövlətin, xalqın ən azı iki milyon pulunu müxtəlif yollarla yeyəcək, Süleyman. Əlli min ziyana düşmək yaxşıdı, ya iki milyon? Artırsaq, qanuni yolla çoxaltsaq bu adamların maaşını, onlar da oğru olmazlar, biz də başıuca olarıq, Süleyman.

— Hm… — Süleyman fikrə getdi. Hannan-hana: — Axı sən bilməlisən ki, maaşı biz təyin eləmirik, Nəzər müəllim, — dedi.

— Bilirəm. Çox gözəl bilirəm. Demək lazımdı, yazmaq lazımdı, Süleyman. Səni, məni bura elə pambıq əkib-yığmağa, plan doldurmağa qoymayıblar axı.

— Bu, mümkün olan iş deyil, Nəzər müəllim.

— Onda… heç olmasa… öz rayonumuzun büdcəsindən verək bu pulu. Təcrübə üçün. Bir il. Sonra gəlirimizi, çıxarımızı hesab eləyək, görək bu yolla dövlətin, camaatın neçə milyonunu qoruyub qənaət eləyə bilirik. Sonra yazarıq yuxarı. Bəlkə ağıllarına batdı, qəbul elədilər, Süleyman!

— Yox, Nəzər müəllim. Mən bunun altına girə bilmərəm. Bu, çox məsuliyyətlidi və həm də qorxuludu. Bunun üstündə adamın atasını yandırarlar…

— Bəs… bəs… axı bu qədər pulu yeyirlər, dağıdırlar, Süleyman.

— Dağıdarlar, yeyərlər, gedib həbsxanada oturarlar, cəzalarını çəkərlər.

— Tutmaq asan məsələdi, — deyə Nəzər müəllim süst, məyus halda geri çəkilib yerində oturdu, siqaret yandırdı. — Hm. Belə… Onda… bizim oğurluğa, əyriliyə qarşı apardığımız mübarizə kəsərsiz olacaq. Xəstəliyin kökünü görə-görə gizləyib yalandan xəstə sağaltmağa bənzər bu, Süleyman.

— Bəlkə də… sən haqlısan. Ancaq… mən belə eləyə bilmərəm. İxtiyarım yoxdu.

— Amma şəxsən… sənin öz pulunu belə hərrac eləyib dağıtsaydılar, mütləq… mən dediyimə razı olardın. Təəssüf ki, o iki-üç milyon sənin deyil, hamımızındı.

Süleyman:

— Bəs bu ikinci siyahı nədi, ay Nəzər müəllim? — deyə müəlliminin inciyə biləcəyini ağlına gətirib gülümsünə-gülümsünə xəbər aldı.

— …

Nəzərin dinmədiyini görüb:

— Yoxsa… bu da bizim rayonun böyük oğrularının siyahisidi, hə? — dedikdə Nəzər soyuq bir tərzdə:

— Hə, düz tapmısan, Süleyman. Həqiqətən onlar bizim rayonun böyük oğrularıdı… Bunu gətirmişəm ki, biləsən, tanıyasan… Səhər deməyəsən ki, Nəzər müəllim, bə bu nə təhər oldu? — dedi.

Süleyman azca irəli əyilib vərəqə baxdı və ucadan oxudu:

«Rayonumuzun böyük talançıları!» — Süleymanın qaşları çatılıb alnı düyünləndi: — Pambıq qəbulu məntəqəsinin müdiri Müseyib Hüseynov; Raykoopittifaqın sədri Mustafa Səlimzadə; rayon milis idarəsinin rəisi Bəhmən Ağayev; prokuror İsrafil Quliyev.

Süleymanın səsi getdikcə öləziyib yavaşıdı, sonra eşidilməz oldu; qalan iki adamın adını o, gözləri ilə oxudu və başını qaldırıb Nəzərə mat-mat xeyli tamaşa elədi. Və qəfildən şaqqanaq çəkib gülməyə başladı. Çiyinləri qalxıb-enirdi, gözləri yaşarmışdı.

— Xi, xi. Ay sənin oyunun olsun, Nəzər müəllim… Xi, xi, öldürdün sən məni!.. Amma… — o, dəsmalla gözlərini sildi — amma biri yadından çıxıb!

Nəzər bu gülüşdən azca pərt olsa da, sındırmadı özünü:

— Kim?

— Gərək elə mənim də adımı yazaydın bura! Tək mən qalacağın nə olacaqdı!

— Allah eləməsin sən onların tayı olasan. Onda mənim son inamım da ölər, bağrım çatlar. Sən zarafat eləyirsən, ancaq mən sənninlə ciddi danışıram, Süleyman!

— Sənin dediyindən elə çıxır ki, bura talançılar yuvası imiş, Nəzər müəllim. Mən də gəlib düz onların arasına düşmüşəm.

— Necə deyirsən, elə də var. Mən bilən elə səni Mərkəzi Komitədən bura ona görə göndəriblər ki, onların kökünü kəsəsən!.. Ağıllı padşah heç vaxt köhnə vəzir-vəkilnən işləməz.

— Süleyman qalxıb gəzişdi.

— Yaxşı, bu doxsan bir adam, deyək, ehtiyac üzündən oğurluq eləyir. Bəs sənin ikinci siyahındakı adamlar — özün də deyirsən cahcəlalları göz qamaşdırır, — bəs onlar niyə talançılıq eləyirlər, Nəzər müəllim? Axı onların ehtiyacı yoxdur?!

— Elədi. İndi yoxdu. Amma vaxtilə olub, Süleyman. Vaxtilə onlar da birinci siyahıdakı adamlar kimi, ehtiyac içində, yarıac-yarıtox yaşayıblar. Xırda-xırda oğurluq eləyiblər, dolanıblar; ilişən ilişib, ilişməyəni yeyib yağlanıb. Oğurluğa, çırpışdırmağa adət eləyiblər. İndi onlar ayrı cür yaşaya bilməzlər!..

— Nə bilim. Müəmmadı.

— Həyat özü müəmmalarla doludu, Süleyman. Ancaq daha belə yox!.. Biz lap ağ eləmişik! Deyirsən mən maaş təyin eləmirəm. Düzdü, eləmirsən. Amma axı bu maaşı kimsə insan təyin eləyir də,

maşın, mexanizm, robot yox ki!.. Bəs o yoldaş da, yoldaşlar da fikirləşmirlərmi ki, doxsan manatla adam yaşaya bilməz?.. Onlar özləri bu maaşla yaşaya, dolana bilərlər? Yox. Deməli, özümüz bilə-bilə, görə-görə adamlara deyirik: gedin oğru olun, gedin rüşvət alın! Maddiyyat — hər şeyin əsasıdı. Marks da, Lenin də belə deyib! Bəs… biz niyə unuduruq bu müdrik kəlamı? Biz deyirik: «paraya dəymə, bütövü kəsmə, özün də doğra, doyunca ye!»

Buna görə sənin, mənim vaxtilə gördüyüm o təmizlik, o paklıq, o sədaqət qalmayıb adamlarda. Sən bir raykom katibi kimi, görməlisən və bilməlisən ki, kimi hara, hansı vəzifəyə qoyursansa, birinci növbədə, özünü, qohumunu düşünür, gözü öz qabağına eşir və elə ilk gündən baş sındırır ki, aya, mən buradan nə apara bilərəm, nə çırpışdıra bilərəm?! Bəlkə sənin xəbərin yoxdu — məncə, olmalıdı — mənim isə xəbərim var. Bax, sayım sənin üçün. Meşəyə meşəbəyi qoyursan, meşəni qırıb satır; qoruğa müdir qoyursan, brakonyerləri tutur, soyur, alıb buraxır; sonra özü də o qırmızı kitaba düşməli olan quşları, heyvanları dost-aşnası ilə yeyir, üstündən də su içir. Allahın briqadiri də pambığı, sovkanı yeyir, ay kişi. Bunlar hələ xırda şeylərdi, Süleyman. Uzağa niyə gedək, götür kolxoz sədrlərimizi. Əlbəttə, bunların içində təmizləri də var, buna mənim sözüm yoxdur. Onların bir çoxu kolxozun, camaatın malını hamının gözünün qabağında elə yeyir ki, heç kəs görmür, amma hamı bilir. Bax, «Sülh» kolxozunun sədri Mikayılı götür. Gördünmü camaatın nə qədər pulunu yemişdi o şərəfsiz! O, fələyin qəminə gedib qabağa düşdü, çünki kolxozun adamları daha dözmədi, yazdılar — katibə yazdılar, heç nə eləmədi, yuxarı yazdılar — Bakıdan komissiya gəldi, üç ay yoxladı, sonra bir dənə də əskik çöp tapmayıb təmizlik aktı yazdı, çıxıb getdi — niyə? Ona görə ki, Mikayılın pulu çoxuydu, ciblərini, ətəklərini doldurdu gələnlərin, ağızlarını yumdu, gözlərini də bağladı. Sonra Moskvaya yazdılar — ordan gələn komissiya hər şeyi açıb tökdü ortalığa, onda onu pulları da saxlaya bilmədi — kökü kəsilmiş ağac kimi gurlu-guruppaz kəlləsi üstə gəldi yerə. Sən elə bilirsən bu rayonda Mikayıl təkdi, ta eləsi yoxdu? Diqqətnən yoxlasan görərsən, on beş kolxoz sədrindən ən azı — mən ən azı deyirəm ha, — dördü-beşi heylədi, bəlkə ondan da dəhşətlidi, faşist oğlu faşistdi.

Üzü bozarmış Süleymanın dodaqları qaçdı.

— Nəyə gülürsən, Süleyman?

— Heç. O «faşist oğlu faşist» sözünə gülürəm. Hələ də tərgit-

məyibsən. Gör neçə illər keçir, Nəzər müəllim…

— Belə getsə, deyəsən, heç tərgidə bilməyəcəyəm. O söyüşü mən müharibədən gətirmişəm, Süleyman. O söyüşü və bir də bax bu dizimin altındakı qəlpəni. Hə. — Nəzər sanki qorxdu ki, araya başqa söz-söhbət, xatirə-filan gəlib düşə bilər və sözü yarımçıq qalar, odur ki, buna imkan verməyib davam etdi. — Belə. Camaatı aldadırlar? Aldadırlar! Səni aldadırlar? Aldadırlar!..

— Necə yəni məni aldadırlar, Nəzər müəllim?

— Çox sadə. Səfər aldadan kimi. Səfər min hektar əvəzinə iki min hektar pambıq əkir — hər hektardan iyirmi beş sentner güc-bəla ilə məhsul götürür, yazıb məlumat verir ki, hər hektardan əlli sentner pambıq götürmüşəm. Sovkada aldadır, pambıqda aldadır, maşın-traktor üçün yanacaqda aldadır. Ta nə istəyirsən? Ta aldatmağın buynuzu-zadı olmur ki?! O biri sədrlərin bir çoxu da heylə.

Süleymanın qaşları çatıldı.

— Niyə, keçən dəfə, büroda bu məsələ qalxmadı? — deyə Nəzər davam elədi — kolxoz sədri Abbas Abbasovu sən divara dirəyəndə o kişi nə söylədi? Yadından çıxıb? Hələ bizim kolxozun sədrini — Qurbanı da qaldırdın, soruşdun… Yadında döyül?

— Yadımdadı.

— Keçmiş, səndən əvvəlki katib bunu bilirdi, çox gözəl bilirdi. Amma üstünü heç vurmurdu. Niyə vurmurdu, sən bilən? Ona görə ki, Cəfərzadəyə Sosialist Əməyi Qəhrəmanı olmaq lazım idi. Aldı da. Bəlkə sən də onun yoluynan getmək istəyirsən? «Geroy» olmaq istəyirsən, hə?

— Yox, yox. — Elə bil bu dəqiqə Süleymana o yüksək adı verəcəkdilər, tələsik etiraz elədi. — Mən o fikirlərdən uzağam.

— Sözdə hə, ancaq əməldə, bu, görünmür. Sən o sahələri ölçdürübsən? Yox. Sən kolxozların pambıq məntəqəsinə göndərdikləri məhsulun başının üstünü kəsdirib çəkdirib yoxlatdırmısan? Yox. Sən ancaq o «svodka» deyilən şeyə baxırsan — rəqəmlər öz yerində, gözünü-könlünü oxşayır, fərəhlənirsən, elə həmin axşam da sevinə-sevinə götürüb Bakıya zəng eləyirsən ki, bəs biz bu gün dövlətə filan min ton pambıq, filan min ton üzüm təhvil vermişik. Bir yalan milyon yalan doğurur, Süleyman. Sənin xəbərin varmı ki, kənddə ət, süd, yağ, pendir yoxdur, kimyaya dönüb? Niyə? Bilirsən niyə? Camaatın az qala həyətinə də pambıq əkiblər. İnək, qoyun, keçi, camış saxla-

mağa heç kəsin imkanı yoxdu, kişi!.. Mal-heyvanın gərək otlağı olsun, otu olsun — bunlar yoxdu — pambıq hamısını yeyib, Süleyman. Mən pambığın çox qiymətli xammal olduğunu yaxşı başa düşürəm, mən onun əleyhinə deyiləm. Ancaq, sən rayonun rəhbəri kimi bilməlisən ki, təkcə pambıqla qarın doymaz. Kolxozçunun, kəndlinin özünün malı-heyvanı, toyuğu-cücəsi olmalıdı. Yaşamaq və işləmək üçün bunlar olmalıdı. Amma sən yəqin bilirsən ki, ət də, süd də, yumurta da indi kağızdı? Bilirsən bunu?

— Necə yəni yağızdı?

— Bəli, kağızdı. Kolxoz yumurta əvəzinə, ət əvəzinə, yağ əvəzinə hazırlıq məntəqəsinə pul gətirir, pulu alıb kağız verir sənin məntəqən ki, bəli, bu qədər məhsul aldıq. Bu da kağızı! Sonra mağazalara gedir guya bu məhsullar, guya camaat alıb yeyir, mağazadan təzədən pul qayıdır, gedir girir dövlətin bankının cibinə. Beləcənə biz kağız yeyirik, Süleyman. Dayan, sözümü kəsmə, qoy deyim, mən hər dəqiqə danışan adam deyiləm, hər dəfə də gəlib sənin başını ağrıtmayacağam. Bəli. Belədi, Süleyman. Bax, götürək elə sənin gözünün qabağında dik-dik gəzib dolaşan pambıq məntəqəsinin müdiri Müseyibi, raykoopittifaqın sədri caydaq Mustafanı, ya da elə… çörək zavodunun müdiri Şamili… Sənin məsul işçilərindi, sən onların dolanışığına fikir vermisən heç? Yox! Gərək baxasan, göz qoyasan, Süleyman, təmiz adam o saat bilinir. Onlar oğrudu, Süleyman, onlar julikdi, Süleyman. Quruca maaşnan o cah-cəlalı yaratmaq olmaz. Vallah, yaratmaq olmaz, billah, yaratmaq olmaz. Mən baxan kimi bilirəm, bu adam oğrudu ya yox? Sizə deyirəm, siz bir ölçü götürməsəniz, mən Nəzarət komitəsinin sədri kimi, bu adamlarla məşğul olacağam, görüm bunlar nə tilsim eləyirlər ki, yüz əlli manatnan, iki yüz manatnan özlərinə belə xaniman, belə şərait yaradıblar. Yoxsa bu xalq, bu dövlət yazıqdı, Süleyman. Vallah, yazıqdı, billah, yazıqdı. Bayaq, siqaretdən danışanda dedim, bəs milis hara baxır? Əşi, milis neynəsin? Hansını tutsun? Hansını bassın!.. Bir də milisdə də az yoxdu, Süleyman.

«Nəzər müəllim bu illər ərzində qətiyyən dəyişməyib — o vaxt, bizə dərs deyəndə necə çılğın idisə, necə təmiz və namuslu idisə, eləcə də qalıb». Bu, Süleymanı sevindirirdi və eyni zamanda düşünürdü ki, indi dediyi, qəlbini deşən bu sözləri deməyə bilməzdi Nəzər müəllim. Deməsəydi, görməsəydi, onda o, Nəzər müəllim olmazdı, tamam başqa bir adam olardı!

Nəzər hövsələsizlik eləyib onun fikirlərinin zəncirini qırdı:

— Hə, nə fikrə getdin, ay Süleyman?

Süleyman gəlib yenə əyləşdi:

— Çox dərin söhbət oldu bu, Nəzər müəllim. Doğrudan da, mən sənin qabağında özümü otuz il qabaqkı şagird kimi hiss eləyib diqqətlə qulaq asdım. Sən ağsaqqal kimi, ziyalı kimi məsələlərə çox doğru toxundun. Kənardan baxırsan bu işlərə, ürəyi yana-yana danışırsan. İndi gör mən nələr çəkirəm, axı, gecə-gündüz bu işlərin içindəyəm. Bunları görmək, demək asandı, ancaq eləmək çox çətindi, müəllim. Deyirsən, səlahiyyətin var, katibsən, sənin sözün qanundu. Düzdü, çox düzdü, müəllim. Amma gəl bir az ətraflı götür-qoy eləyək, bir az dərindən baxaq sən dediyin şeylərə. Mən bura, bu rayona katib gələn kimi, səhəri gün çıxdım şəhəri gəzməyə, tanış olmağa, gəzə-gəzə gəlib bazara çatdım. Bazar elə o vaxtın köhnə bazarıdı, pərakəndə, pinti, səliqəsizdi. Bir dükan burda, biri orda, biri küçədə, biri yol üstə… Rayispolkoma göstəriş verdim ki, bu kustar dükanları yığışdırın burdan, bu nədi, elə bil on doqquzuncu əsrin şərq bazarıdı. O da dedi baş üstə… Axşam, saat on ikidə evdə oturmuşdum, Bakıdan bir məsul yoldaş zəng çaldı, məni təbrik elədi və sonra da dedi ki, o bazarın girəcəyində çəkməçi dükanı var ha, onunla işin olmasın, bizim adamdı. Mən də nə deyəcəkdim: «Baş üstə» — deyib dəstəyi asdım və fikirləşdim ki, bu rayonda işləmək mənim üçün çox çətin olacaq! Gör indi adicə çəkməçinin Bakıda çox məsul bir idarədə adamı varsa, o biri vəzifəlilərin yəqin Moskvada, əgər bir az axtarsan — o, burada kiridi — lap BMT-də adamları olmamış olmaz!.. Məni düzgün başa düş, Nəzər müəllim, bununla onu demək istəyirəm ki, indi münasibətlər çox mürəkkəbdi, bilmirsən kimin dalında kim dayanıb.

Süleymana kimsə zəng elədi, dəstəyi götürüb qulaq asdı, «hə, hə» dedi və dəstəyi yerə qoyub üzünü Nəzərə tutdu:

— Ancaq, Nəzər müəllim, sən hər şeyi qara görürsən, sənə nədənsə elə gəlir ki, bizim rayonun adamlarının az qala hamısı əliəyridi, oğrudu.

— Xeyr, xeyr, mən qətiyyən o fikirdə deyiləm, Süleyman. Bizim camaatımız zəhmətkeşdi, təmizdi, işgüzardı, bunu görmək ən azı vicdansızlıqdı. Məni bura, sənin yanına gətirən elə budu ki, onlara yazığınız gəlsin, qoymayın onların əlinin zəhməti, alnının təriylə qazandıqları var-dövlət beş-altı oğrunun, julikin cibinə axıb dolsun, dövlətimizə ziyan dəysin. Yəni biz bu qədər acizik ki, o beş-altı adamın öhdə-

sindən gələ bilmirik? Burda məncə, çətin bir iş yoxdu, Süleyman. Dəmir qayda-qanun yaratmaq lazımdı, vəssalam. Oğrunu-əyrini qamarlayıb dama bassaq, o birilərə dərs olar!.. Camaatın da ürəyi soyuyar, rahatlanar. Sovet hökuməti o boyda faşistin qabağında aciz olmadı, indi beş-üç gədə-güdənin, gözükölgəlinin qabağında aciz olacaq?! Sən görmürsən ki, Müseyib pambıq məntəqəsində milyoner olub daha dərisinə-qabığına sığışmır? Sən görmürsən ki, raykoopittifaq Mustafa o arıq canıyla nə qədər yesə doydum demir? Gərək hökmən əlində, cibində bir şey tutasan, sonra cinayət məsuliyyətinə cəlb eləyəsən? Mən nəyə desən and içərəm, yerə-göyə and içərəm ki, onlar oğrudu, rüşvətxordu, şərəfsizdi, partiya biletinin arxasında gizlənib dövlətin, xalqın ətək-ətək pulunu yeyən boynu qalstuklu mədəni quldurdu. And içirəm, Süleyman. Bax, mənim burda oturmağım xəyal, nağıl, yalan deyil ki? Yox, həqiqətdi? Hə. Bax, Müseyibin də, Mustafanın da oğru olması elə bir həqiqətdi, Süeyman!..

Nəzər danışdıqca boğazının yan damarları şişirdi, elə ürəklə deyirdi bu sözləri ki, inanmamaq mümkün deyildi, elə bil kişi, gözləri ilə görmüşdü, inanmışdı. Süleymanın öz kabinetində çox yaxın dostu — o biriləri də yaxın idi, ancaq birinci kimi yox — Müseyibin ünvanına başqa bir adam o sözləri desəydi, şübhəsiz, onu otaqdan qovardı, böhtançı kimi lap tutdurardı da. Ancaq neyləmək olardı, belə danışan özgəsi yox, Nəzər müəllim idi.

Süleyman fikrə getdi, barmaqlarını şaqqıldadıb tutqun baxışlarını Nəzərə tərəf çevirdi:

— Bəs indi neyləyək deyirsən, müəllim? Deyirsən bütün vəzifəli adamlarımızı tutub basdıraq dama?

Nəzər müəllim narazılığını gizləməyərək dedi:

— Ta bu olmadı, Süleyman! Mən məgər deyirəm bütün vəzifəli adamlarımızı tutaq? Yox! Mən burda konkret ad çəkirəm — Müseyibin, Ağayevin, Mustafanın adını çəkirəm. Deyirsən, neyləyək? Komissiya təşkil elə! Yoxlatdır işlərini, gəlirlərini, çıxarlarını. Qoy ələk-vələk eləsinlər. Əgər üstünə əliboş gəlsələr, əgər bir şey tapmasalar, onda mən adımı dəyişərəm, onda bu sən, bu da mən. Al canımı, al partbiletimi, tutdur məni!

— Komissiya yaratmaq üçün əldə gərək əsas olsun, müəllim.

— Əsas var, Süleyman!

— Nədi, müəllim?

— Əsasın mini içəridədi — idarələrindədir, kandarlarından ay-

ağını qoyan kimi özün görəcəksən, bircəciyi isə çöldədi — hamının gözünün qabağındadı, Süleyman — o da onların cah-calalıdı. Bəs mənim niyə elə cah-cəlalım yoxdur? Hə? Soruşuram da. Mən də, sənin dədən İmran kişi də — onlarnan, yüzlərnən bizim kimisinin də adını çəkərəm — bütün ömrümüz boyu işləmişik, buralarda Şura hökumətinin birinci kolxozlarını biz yaratmışıq, banditlərlə biz mübarizə aparmışıq. Bəs niyə bizim yoxdur, hə? Elə bilirsən mən bilmirəm sən öz kəndimizə — atanın evinə niyə getmirdin? Çünki sən indi katibsən, utanırdın o alçaq, yoxsul evə getməkdən. Bəlkə deyəcəksən Müseyibin pinəçi dədəsindən qalıb o var-dövlət ona? Bəlkə deyəcəksən caydaq Mustafanın ömrü boyu idarələrdə süpürgəçi işləyən anasından yadigar qalıb o imarət, sərvət? Ya bəlkə yetim Bəhmən Lənkərandakı detdomdan gələndə özüynən xəzinə gətirmişdi? Ya deyəcəksən bu adamlar çox nadir başa, biliyə, istedada, qabiliyyətə malik adamlardı? Bilmirsənsə, bil Süleyman, onların üçü də kəmsavaddılar, sənin büronda, aktivində, iclaslarında hərdən çıxış eləyirlər, elə bilirsən o çıxışları onlar özləri yazırlar? Yox, yazdırırlar. Vallah, yazdırırlar, billah, yazdırırlar.

Mənim yadımdadı, o vaxt, otuzuncu illərdə, kolxoz təzə qurulan çağları biz, komsomollar qapısında beş-altı camışı, iki-üç inəyi, iyirmi-otuz qoyunu, keçisi, bir at arabası olanı qulaqlayıb «kulak» kimi sürürdük, gedirdik. İndi səndən soruşuram — bizim bu vəzifəli adamların var-dövləti çoxdu, o sürdüyümüz adamların? Əlbəttə, bunların! Sən heç bilirsənmi ki, məsələn, Müseyibin neçə maşını var? Yox, bilmirsən. Müseyibin üç maşını var, Süleyman. «Slujebni»sindən başqa. Özünün bir «QAZ-24»ü var, iki oğlunun hərəsinin də bir «Jiquli»si. Deyəcəksən onlar — «Jiquli»lər uşaqların öz adınadı. Bəli, elədi. Yoxsa, Müseyib deyəcək ki, uşaqların institutda yaxşı oxuduqlarına görə hərəsinə bir maşın da bağışlayıblar? Mən bilən, hələ Şura hökumətinin belə qanunu yoxdu, Süleyman! Bəs, onda, soruşuram, hardandı? Sənə elə gəlmirmi ki, bu, yeni formalı, yeni məzmunlu kulakdı? Lap bir az da aydın desək, mülkədar deyil bu? Axı mən köhnə bir müəllim, məfkurə cəbhəsinin bir əsgəri kimi düz qırx il məktəbdə boğaz yırtmışam ki, biz hamımız bərabərik! İndi vicdanla de, Süleyman, sənin dədən İmran, ya mən Müseyiblə bərabərik? Yox, deyə bilməzsən. Bəs yernən-göy qədər olan bu fərqi görən uşaq, böyük mənim sözümə, lap elə sənin sözünə inanarmı? Yox, inanmaz. Vallah, inanmaz, billah, inanmaz, Süleyman!

Süleymanın gözləri böyümüşdü: «Qırmızı məktəb»də oxuyarkən Nəzər müəllimi sevmişdi, onun həqiqətpərəstliyi, mehribanlığı və dərindən düşünəndə sənin xeyrinə olan qəribə sərtliyi Süleymanın xoşuna gəlmişdi; onu özünə ideal seçmişdi.

Nəzərin ürəyi və vicdanı Süleymana tanış idi. Başa düşürdü ki, Nəzəri adi, quru vəzifə hissi yox, qeyrət danışdırır, müəllim ürəyi, müəllim vicdanı, ziyalı heysiyyəti dilləndirir. Dediklərində həqiqət çox idi — Süleyman belə düşünürdü — şişirtmələr də var idi, sözsüz. Ancaq həqiqəti, şişirtməsindən çox idi, bunu katib özü də bilirdi. Və fikirləşə-fikirləşə Nəzərə baxır, ürəyindən keçirirdi ki, kaş hamı sənin kimi olaydı, Nəzər müəllim. Onda işləmək və yaamaq necə də asan olardı!

Əgər vəziyyət Nəzər müəllim deyən kimidirsə, onda nə etmək lazımdır? Bax, bu sual katibi çaşdırmışdı, çünki belə şeylə birinci dəfəydi ki, rastlaşırdı. Susub yollar, çarələr axtarırdı.

— Üzdə olan, ortalığa çıxartmalı üç-dörd adamımız var, onları da ləkələyib tutdursaq, bütün respublikada biabır olarıq, Nəzər müəllim.

Süleymanın məqsədini Nəzər o dəqiqə başa düşdü və tərəddüd elədiyini görüb bu inamsızlığı onun ürəyindən çıxarmaq üçün qətiyyətlə söylədi:

— Ondan qorxmaq lazım deyil. Əksinə, bu, həm rayon camaatının ürəyincə olacaq, həm də respublika partiya təşkilatının. Baxarsan, onlar «çox sağ ol» deyəcəklər sənə. Bu, çoxdan, səndən çox-çox qabaq, illərlə davam eləyib gələn, artıq şişib yetişmiş bir prosesdir — çiban yetişib, deşib irini çıxartmaq gərəkdi, Süleyman. Sonra gec olar! Bu, gec-tez açılacaq, onlar ilişəcək, onlar qan qusacaqlar, səndən sonra açılsa bu yara, bax, onda verməyə cavab tapmayacaqsan.

— Düz deyirsən, Nəzər müəllim.

— Mən görürəm, sən ya mənə inanmırsan, ya da tərəddüd eləyirsən, Süleyman.

— Elə deyil, Nəzər müəllim. Mən sənə inanıram. Ancaq, düzü, çaşıb qalmışam, heç bilmirəm…

— Açığını deyim, sənin bu vəziyyətin məni çox nigaran eləyir. Sənə partiya bu boyda etimad göstərib. Gərək prinsipial olasan, gərək qətiyyətli olasan, gərək qoymayasan ki, camaatın sənə olan inamı itə. Səni bura təkcə ona görə qoymayıblar ki, doldurasan, bayraq alasan. Bunlar çox lazımdı, bunu heç kəs inkar eləyə bilməz. Ancaq bizim həyatımız təkcə işləməkdən, plan doldurmaqdan ibarət olmamalıdır

— bizim ondan da qiymətli sərvətimiz var — o, bizim əqidəmizdi, məfkurəmizdi, biz onu göz bəbəyi kimi qorumalıyıq, yoxsa heç kəs bizə inanmaz, dalımızca getməz, Süleyman. Partiya işçisinin zəif olmağa, mütərəddid olmağa haqqı yoxdur. Partiya işçisi gərək hardasa bir az filosof olsun, hardasa bir az sosioloq olsun, bir az iqtisadçı olsun, bir az romantik olsun, bir az hakim olsun, bir az da həkim olsun, Süleyman. Mənim təcrübəm, mənim yaşım belə deyir.

Süleyman pərt olmuşdu, qanı qaralmışdı — müəllimin sözləri ağır idi, çox ağır idi. Özünün ürəyində haçandan bəri tutqun şəkildə gəzib-dolaşan və əzab verən bu duyğuları, düşüncələri Nəzər bir sehrkar kimi oxuyub onun gözünün içinə söyləyirdi.

Telefonlardan hansısa cingilti ilə səsləndi, Nəzər sözünü kəsdi, Süleyman qırmızı dəstəyi götürüb:

— Bəli, mənəm, — dedi və ciddiləşdi — salam, salam. Necəsiz, yoldaş Qədirov? Yaxşıyıq. Siz yaxşı olun. Nə? Haçan? Bu gün çıxırsız Bakıdan? Xoş gəlirsiz, səfa gətirirsiz. Müseyib? Hə, burdadı, yəni demək istəyirəm ki, rayondadı. Hə, onun balığı həmişə var. Baş üstə. Mütləq. Zəng eləyib deyəcəyəm. Bəli, bəli… Sağ olun, sağ olun, Ələmdar müəllim.

Süleyman dəstəyi yerinə qoydu, əlilə alnını ovuşdurdu, qaşlarını qaldırıb Nəzər müəllimə fikir verdi və astadan:

— Nazirdi. Gəlir! — dedi və ayağa qalxdı.

— Hə, deyilənə görə Ələmdar Müseyiblə bir evli kimidi. Birbirinin qapısını təpiklə açırlar.

— Hm. Sən də deyirsən Müseyib oğrudu. Sən bu adamları tək görürsən, müəllim! Unudursan ki, onların hərəsinin dalında bir əjdaha dayanıb!

Nəzər köks ötürdü:

— Bilirəm, Süleyman. Təəssüf ki, elədi!

Hiss elədi ki, katibin nə isə vacib işləri meydana çıxdı və daha söhbəti davam elətdirməyə imkan olmayacaq. Odur ki, Nəzər də ayağa durdu.

Süleyman xala-xətrin qalmasın deyə soruşdu:

— Başqa bir sözün yoxdu ki, Nəzər müəllim?

— Yox.

Nəzər stolun arxasından çıxdı və qəribə bir təbəssümlə:

— Bağışla, Süleyman. Vaxtını çox alıb, başını da ağrıtdım, — deyə əlini ona sarı uzatdı.

— Xoşdu, xoşdu, Nəzər müəllim. Bu gün çox feyziyab oldum, elə bildim bir universitet bitirdim.

— Lağ eləyirsən?

— Sən nə danışırsan, müəllim. Həqiqi sözümdü. Sən bu gün mənim gözümü açdın. Bu söhbətə biz arxayın vaxtda bir də qayıdarıq…

Ancaq onun bu sözləri Nəzəri inandıra bilmədi, çünki Süleymanın baxışlarında qəribə bir rişxənd gizlənmişdi. Bəlkə də bu, heç elə deyildi, ancaq Nəzər bu hissi özündən heç cür uzaqlaşdıra bilmədi.

Katib onun əlini sıxıb:

— Sağ ol, Nəzər müəllim. Xudahafiz! — söylədi və sonra birdən çönüb: — Bükülünüz qaldı, Nəzər müəllim, — dedi və cəld addımlarla gedib bağlamanı gətirdi.

— Bilirsən bu nədi, Süleyman? — Nəzər məyus-məyus soruşdu.

— Yox. Nədi ki?

— Ayaqqabı idi, sənin üçün almışdım.

Süleyman təəccüblə qaşlarını çatdı:

— Mənim üçün?

— Hə.

Süleyman marağını saxlaya bilməyib bükülünü açа-açа:

— İmportnıdı? — deyə xəbər aldı.

— Yox. — Nəzər qımışdı. — Bakinskidi, Süleyman.

— Bakinski?

— Hə, Süleyman, bakinskidi. O gün iclasda fikir verdim, gördüm maşallah, kostyumun finskidi, köynəyin anqliyskidi, ayaqqabın yuqoslavskidi… İkinci katibin də, üçüncü katibin də importnı geyinib, demək olar, çoxunuz, rayonun məsul işçilərinin çoxu importnı geyinib.

Süleyman bir şey başa düşməyib:

— Sən də gedib mənim üçün bakinski ayaqqabı aldın, hə? — deyə soruşduqda Nəzər köks ötürdü:

— Hə, — dedi. — Pulum olsaydı, bir dənə bakinski kostyum da alacaqdım, Süleyman. Yoxiydi pulum, yoxsa alacaqdım.

— Bu fikir hardan ağlına gəldi, ay Nəzər müəllim?

— Bilirsən, Süleyman, Bakıda da, rayonda da diqqət yetirmişəm, hamı importnı mal axtarır. Baha-baha, əldən, alverçidən alıb geyməyə çalışır. Amma bizim öz mallarımız tökülüb qalıb mağazalarda — bir köpəyoğlu onları alıb geymək istəmir. Axı bunların isteh-

salına dövlətin milyardları xərclənir, qardaş. Sən geymə, mən geyməyim, o geyməsin — bəs, bu tökülüb qalır axı.

— Ona görə dedin Süleyman geysin, hə?

— Süleyman niyə geyməsin? Mənə elə gəlir ki, sən, katib geysən, camaatın da sənə baxar, alar, geyinər, Süleyman.

Süleymanı gülmək tutdu:

— Ay sənin oyunun olsun, Nəzər müəllim! Qəribə şeylər fikirləşib tapırsan ha. Ay kişi, sən bilmirsən ki, bax, bu ayaqqabılara verilən pul çölə atılmış kimidi? Beş gün geyirsən, altıncı gün altı qopur mal dili kimi? Kostyumun tikilişinə fikir vermisən heç? Əyrim-üyrüm, qolunun biri uzun, biri gödək? Heç fikir vermisən ya yox?

— Vermişəm. Bəs nə olsun? Onlar hey bir ucdan tikib doldurur mağazaları, mağazalarda da qalıb çürüyür, güvə yeyir. Baxırsan, gül kimi parçalardı — zay eləyib atıblar ora.

— Bilirsən niyə belədi, Nəzər müəllim?

— Bilirəm, bala. Onlar da, bizim kimi, plan dalıycan qaçırlar. Planı doldurdun — cicişsən. Amma soruşan yoxdu ki, bu planı necə doldurmusan — gördüyün işin dəyəri, keyfiyyəti nədi. Bunu soruşan yoxdu, qardaş! Nə qədər də ki, soruşan olmayacaq, elə elə də olacaq. Elə bil, heç kəsin bu dövlətə, bu xalqa yazığı gəlmir.

Süleyman bir söz deməyib ayaqqabının o üz-bu üzünə baxaraq qaytarıb qutusunun içinə qoydu:

— Sağ ol, Nəzər müəllim. Apar, ya özün geyərsən, ya oğlun geyər!

— Oğlum da geymir.

— Oğlun geymir, sən istəyirsən mən, bu boyda rayonun katibi geyim?

— Sən geysən, inandırıram, o da geyər, başqaları da geyər, Süleyman.

— Yox, Nəzər müəllim, mən yüksək səviyyədə priyomlara gedirəm, olmaz.

— Onlar da importnı geyir? Hə, ta sözüm yoxdu! Amma o yüksək səviyyəli priyomdakılara da əlim çatsaydı, deyərdim — siz də geyinin. Bəlkə sizin qorxunuzdan bu fabriklər, kombinatlar xalqın malını bu cür zay edib badi-fənaya vermədilər. Siz geyin, qorxmayın, utanmayın — deyərdim.

Süleyman güldü:

— Bu mümkün deyil, Nəzər müəllim.

— Heyif!

Nəzər qutunu qoltuğuna vurub pərişan halda otaqdan çıxdı. Süleyman onun ardınca baxıb başını buladı: «Kişi deyəsən doğrudan da qocalıb!» — deyə ürəyindən keçirtdi.

DOQQUZUNCU FƏSİL

Müseyib öz nazirinin — Ələmdar Qədirovun rayona gəlmək istədiyini və onu Süleymandan soruşduğunu, üstəlik «Ağ balığı var?» — deyə maraqlandığını eşidən kimi evə zəng eləmişdi. Dəstəyi Simuzər götürmüşdü.

— Sənsən, qız?! Bə anan hanı?

— Həyətdədi.

— Sən belə elə. Qonağımız gələcək. Ələmdar əmi.

— Kim? — Simuzərin qulaqları guruldamışdı, əgər telefon videotelefon olsaydı, orada, kabinetində oturmuş Müseyib aşkar görərdi ki, Simuzər Ələmdarın adını eşidəndə necə həyəcanlandı, necə rəngi qızarıb allaşdı. Amma ata səsdən heç nə duya bilməzdi təbii ki!.. Ona görə bu dəfə ucadan söylədi:

— Deyirəm Ələmdar əmin gəlir!.. Hə. Anana de, özün də kömək elə, bir yaxşı süfrə açsın. O gədəni də başa sal ki, hovuzdan iki iri balıq tutsun. Birini bişirsin — kabab eləsin, o birinin ancaq qarnını yarsın, xolodilnikə qoysun. Bütöv ha. Doğramasın. Aşağıdakı iri xolodilnikə qoysun.

— Yaxşı…

Simuzər dəstəyi yerinə qoyaraq divardakı iri bədənnüma güzgünün qabağına gəlmişdi, aynadan ona baxan ucaboylu, xurmayı saçlı, gözəl üzü, cazibəli gözləri olan, sinəsi qabarıq, mütənasib bədənli qıza — özünə neçə an səssiz-səmirsiz tamaşa eləmişdi. İçəridə qeyriadi çırpınan ürəyinin guppultusu qulaqlarında səslənmişdi. Güzgünün önündən necə qopduğunu, atasının tapşırığını anasına elə eyvanın pəncərəsindən necə dediyini yadına sala bilməzdi — bu gözlənilməz xəbərdən özünü elə itirmişdi.

Keçib yataq otağına girmişdi, elə pallı-paltarlı çarpayıya uzanmışdı. Bəzən bir söz insan ürəyinin xatirə kitabını — ağıllı-acılı, şi-

rin-unudulmaz olsa da — bir anda vərəqləməyə, alt-üst eləməyə, təzədən lap uzaq illərə də, dünənə də qaytarmağa qadir olur. Ələmdarın adını eşidən kimi, Simuzərin haçansa çox gözəl sandığı, sonralar isə onun ürək ağrılarında yaşayan tələbəlik illəri — Bakıda sovuşan o gözəl yeddi il beyninin, gözlərinin ağappaq xatirə ekranında vərəqlənməyə başlamışdı.

Səkkiz il qabağın əhvalatıydı.

Onda Müseyib pambıqtəmizləmə zavodunda hələ əmtəəşünas işləyirdi. Gəncədəki Xalq Təsərrüfat İnstitutunu bitirəndən elə bura düşmüşdü — dolanacaqları babat idi. Simuzər Müseyibin böyük uşağı idi və o il onuncu sinfi qurtarırdı; qarşıda ali məktəbə girmək məsələsi dağ kimi dayanmışdı. Müseyibi də, Səltənəti də çaşdırmışdı. Simuzər isə… həkim olmaq arzusu ilə yaşayırdı — bu sənət demək olar ki, gənc, xəyalpərvər qızın ən böyük istəyi idi. Xəstələnəndə, poliklinikaya gedəndə, ya məktəbə doktor gələndə Simuzər hər şeydən çox gələn həkimin qar kimi ağ xalatına və papağına sonsuz bir həsəd hissiylə baxar, gizlincə köks ötürərdi. Xüsusilə, həkim qadın olanda Simuzər lap varından yox olurdu. Qızının bu diləyini bilən Səltənət də ona şərik çıxmışdı və Müseyibi bu ağır, çətin iş üçün hələ iki-üç il qabaq hazırlamışdı. Kişi tədbirli adam idi və arvadının nəyə işarə elədiyini göydə oxumuşdu, ehtiyatını tutmuşdu.

«Ehtiyatlı igidin anası ağlamaz!» — Müseyibin ağlı kəsəndən əməl elədiyi hikmət idi.

Odur ki, hələ Simuzər buraxılış imtahanı verərkən, günlərin birində tənbəllik eləməyib ayağını Bakıya qoymuş, şəxsən tanıdığı (iki-üç dəfə məntəqəyə gəlmişdi, keçmiş direktorla bir məclisdə oturmuş, yeyib-içmişdilər) nazir Ələmdar Qədirovun yanına getmişdi və dərdini açıb demişdi.

— Qız yaxşı qızdı, əmisi. Ancaq, Ələmdar Haşımıç, özünüz bilirsiz də, təkcə başnan iş aşmır, gərək arada daş-qaş da olsun.

Onun açıq söhbəti Ələmdarın xoşuna gəlmişdi, xeyli gülmüşdü:

— Ay sənin, Müseyib!.. Lap qafiyəynən danışırsan. Xi, xi, «Baş, daş-qaş…»

— Hə də, Ələmdar Haşımıç. Belədi də. Könlü balıq istəyənin gərək quyruğu islansın. Düzü, çox baş sındırdım, sizdən mötəbər və etibarlı bir adam ağlıma gəlmədi. İndi gəlmişəm, əl mənim, ətək sizin. İstəyirsiz əlimi kəsin, istəyirsiz ətəyinizi. Amma, Ələmdar Ha-

şımıç, indi, kəsməli olsaz, yenə də əlimi kəsin, ətəyinizi yox. Çünki sizin ətəyiniz mənim əlimdən qiymətlidi.

Onun bu sözünə də Ələmdar gülmüşdü:

— Sən deyəsən ağıllı oğlana oxşayırsan, Müseyib!.. Mənim elə o vaxtdan — birinci dəfə sizin rayona gələndən səndən xoşum gəlmişdi. Görünür, zənnimdə aldanmamışam.

— Ələmdar Haşımıç, xətiri xətir, minnəti də minnət. Uşaq bu il girməsə, gərək mən öyə getməyəm. Arvad mənim dərdimə soğan təpər!..

Ələmdar iri, koppuş barmaqlarını stolun qırağına döyəcləyə-döyəcləyə bir az tavana baxmış, nəsə fikirləşmiş, sonra:

— Yaxşı, uşaq hara girmək istəyir? — deyə soruşmuşdu.

— AMİ-yə. Tibb institutuna…

— Oho. Nə böyük yerdən yapışıb sənin bu qızın?

— Hə, əmisi. Mən də bilirəm böyük yerdi. Di gəl ki, neyniyim. Deyir qırxdı, biri əskik döyül!

Ələmdar yenə qımışmışdı:

— Oho, lap qiymətini də bilir ki!.. Bay sənin!..

Müseyib Ələmdarın fikrini dərhal oxumuşdu və ürəyində sevinmişdi. «Yaxşıdı. Cəhənnəm. Ta neyləyim!» Ancaq bu gizli şadlığı çox çəkməmişdi. Ələmdar daz başını bulayıb gülümsünə-gülümsünə:

— Amma qızına de, o köhnə qiymətdi, — söyləmişdi. — İndi oranın müəllimləri açıq deyir ki, «əllidi, biri də əskik döyül!»

— Hə?

— Bəli… Bazar bahalaşdıqca hər şeyin qiyməti bahalaşır. İndi bizim bu kişi — o, əlini yuxarı qaldırdı, — gələndən adamlar deyir, getmək — getməkdi, tutulmaq — tutulmaqdı, bir fərli şeyin üstündə gedim də. On manat rüşvətə də səkkiz il verirlər, otuz minə də, əlli minə də!..

— Hə də!..

Ələmdar yenə xeyli susub o yan-bu yana göz gəzdirmiş və nəhayət demişdi:

— Yaxşı, Müseyib! Ta sənsən də. Ağız açaram da!

— Allah köməyin olsun, Ələmdar Haşımıç… Ölüncən qulunuzam.

— Ancaq… gərək… bu işdə mənim adım olmasın ha. Birdən rayonda, orda-burda deyərsiz, ağzınızdan qaçırarsız.

— Nə danışırsız, Ələmdar Haşımıç. Mən uşaq döyüləm ki! Mən quyu kimi bir şeyəm, yanımda baş kəs, get başına qızıl al gəz. İsgəndərin çobanı quyuya demişdi, mən heç quyuya da demərəm, Ələmdar Haşımıç.

— Oldu. Get, hazırla kağız-kuğuzunu, qızın da «başını» və «daş qaşını» hazırla. Sənədləri verəndən sonra qızı da, kağızını da gətir yanıma.

— Baş üstə.

Və Müseyib nazirinin kabinetindən baş vura-vura çıxmışdı.

… İyulun axırında Müseyib Simuzəri də götürüb Bakıya gəlmişdi, sənədləri verəndən sonra Ələmdara zəng eləmişdi, gəldiyini bildirmişdi. Bu dəfə nazir ata-balanı kabinetində yox, dəniz qırağındakı evində qarşılamışdı.

Ömründə birinci kərə Bakı kimi böyük şəhərə gələn Simuzər nazirin mənzilinə girəndə elə bir nağıl aləminə düşmüşdü. Beş otaqlı ev üçüncü mərtəbədəydi, yerə Simuzərin indiyənəcən görmədiyi xalçalar salınmışdı. Biri yataq otağıydı, biri Ələmdarın iş otağıydı, ən iri otaq yeməkxanaydı. O biri otaqların nə üçün olduğunu onda Simuzər heç başa düşməmişdi.

Dənizə baxan pəncərələr açıq idi — burdan Xəzər apaydın görünürdü və hətta dənizin hənirtisini də duymaq mümkün idi.

Evdə kişi tək idi.

«Bəs bu kişinin arvad-uşağı yoxdu görəsən?»

Elə bil Ələmdar Simuzərin bircə an qabaq ürəyindən keçirdiyi bu fikri gözlərindən oxumuş kimi:

— Yoldaşım Yesuntikidədi — istirahətə göndərmişəm, — söyləmişdi.

Ələmdar onları iri miz arxasında oturtmuşdu. Simuzər əllərini dizlərinin üstünə qoyub hər şeyə diqqətlə, maraqla tamaşa eləmişdi, gördüklərinin nağıl ya həqiqət olduğuna inana bilməmişdi. O zaman hələ Müseyibin indiki cah-calalı yox idi. Ona görə qıza bu mənzil yuxu aləmi kimi görüşmüşdü.

— Sizin üçün bir çay təşkil eləyim, hə? — Ələmdar seyrək qaşları altında civə kimi aramsız dəbərişən gözlərini gah Müseyibin, gah da Simuzərin üzündə gəzdirmişdi.

— Yox, yox, nə danışırsız, Ələmdar Haşımıç? Siz — bizə çay? Qətiyyən qoymaram.

— Mən özüm də içmək istəyirəm. — Ələmdar Simuzərə bax-

mışdı. — Yəqin qız da. — Adın nə oldu, qızım?

— Simuzər! — Qız astaca cavab vermişdi.

— Hə, yəqin Simuzər xanım da susayıb. Bakıda adam yaman çox çay içir. Bu çay olmasa biz qırılarıq. — Ələmdar ayağa duranda Müseyib ondan qabaq qalxdı:

— Yox, siz… oturun… Simuzər bir yaxşı çay dəmləyər, içərik.

Simuzər döyükmüş halda atasına baxdıqda Ələmdar başa düşdü ki, qız evə nabələddi, ona görə karıxıb.

— Ay Müseyib, mətbəxi qıza göstər. Hər şey ordadı.

Ata-bala ikisi də bəzəkli-naxışlı hündür qapıdan keçib dəhlizə, ordan da mətbəxə adlamış və danışıq səsi gəlmişdi Ələmdarın qulağına.

Az sonra Simuzər, evə çoxdan bələd imiş kimi, çay dəstgahını kamali-səliqə ilə hazırlayıb stol üstünə düzmüşdü, üçü də əyləşib söhbət eləmişdi. Çay Ələmdara, deyəsən, ləzzət eləmişdi.

— Sağ ol, Simuzər xanım. Əla çaydı. Arvad gedəndən belə tamlı-dadlı çay içməmişdim. Səhər tezdən gedirəm, bir də gecə saat on birdə, on ikidə, kişi çıxıb evinə gedəndən sonra gəlirəm. Orda — nazirlikdə əyər katibəm insafa gəlib bir stəkan çay verdi, verdi, vermədi də ki, heç… Allah köməyi olmuş, birincini deyirəm ey, gələndən amanımızı qırıb. Bir də görürsən, gecə saat onda, on birdə… zəng çalır kabinetə, filan iş necə oldu, filankəs hanı?.. Hünərin var, yerində olma. Qanın getdi. Neçə ildi günümüz-rüzgarımız yoxdu… Əlac bir ona qalıb ki, elə orada, divanda yataq qalaq.

Müseyib yaxşı bilsə də ki, o, kimin haqqında danışır, ağzını açıb bircə kəlmə də deməmişdi. «Tülkünün meydanda nə işi var ki, dərisinə də qiymət qoyalar. Özləri bilər. Mənciyəz balaca adamam».

Sonra Ələmdar qızın imtahan vərəqəsini alıb oxumuş, fakültəsinin, özünün adını, qrup nömrəsini və s. yazıb götürmüş, nazik parçadan tikdirdiyi yay pencəyinin cibinə qoymuşdu və qalxıb kabinetinə keçmişdi. Müseyib açıq qapıdan onun kiminsə nömrəsini yığdığını telefon aparatının diskinin fırlanmağından başa düşmüşdü.

Ələmdar o biri otaqda ikən Müseyib tezcənə qızına yavaşcadan pıçıldamışdı:

— Aaz, işin düzəldi, köpək qızı. Elə bil institutdasan.

— Yəni? — Qız nə isə inamsız xəbər almışdı.

— Hə. Dədə canı. — Sonra tələsik əlavə eləmişdi — Sən belə elə, indi o bura qayıdanda, çayları təzələmək üçün keç quxnuya.

Özün də bir az yuban. Başa düşürsən, aaz?

Simuzər çaşqın halda başını tərpətmişdi.

Ələmdar gəlmişdi:

— Yoxdu, tuta bilmədim. Axşam harda olsa tapacağam. Sən elə bil ki, — o üzünü Simuzərə tutub qəribə bir tərzdə göz vurdu — elə bil ki, sentyabrın birindən tələbəsən, Simuzər bala!.. Ancaq bu şərtnən ki, imtahanlara vaxtlı-vaxtında gedəsən… Eşidirsən?

— Bəli, müəllim!

— Sağ ol, əmisi.

— Hə, o yaxşı çaydan bir stəkan da versən, pis olmaz. Yaxşı səliqən var. İnşallah, qəbul imtahanını alan günü, bax, elə bizdə, burda bir yaxşı stol açarsan, atannan mən adama yüz-yüz konyak içərik, sənin tələbə adını almağını qeyd eləyərik. Yaxşımı?

Simuzər şadlıq içində gülümsünmüşdü və yalnız bu zaman Ələmdar onun nazik, zərif dodaqlarını, qəşəng, ala gözlərini, ağ-əsmər üzünü sanki ilk dəfə görmüşdü. Hörükləri qalın idi, hörüb çiyinlərindən arxasına atmışdı. Durub mətbəxə keçəndə fikir verdiyi düz, mütənasib ayaqları Ələmdarın ürəyində nə isə özünə də qəribə gələn bir gizilti oyatmışdı.

Müseyib divarın dibinə qoyduğu diplomatı tələsik gətirib Ələmdarın böyrünə qoymuşdu və əlindəki balaca açarı da onun koppuş ovcuna basmışdı:

— Əmanətdi. — Sonra şit-şit gülmüşdü — «Əllidi, biri də əskik deyil».

O dəfəki görüşdən yadında qalmış o cümləni eşidəndə Ələmdar da gülmüşdü:

— Yaxşı yaddaşın var ha, deyəsən!

— Şikayətim yoxdu, Ələmdar Haşımıç!

— Hər şeydə belə dəqiqsənsə… demək, mənim adamımsan. Mən dəqiq və sözü bütöv adamları xoşlayıram, Müseyib. Görək, sağlıq olsun, sənin haqqında mənim başqa fikrim var. Gələcəkdə… səni… görüm bir yaxşı yerə itələyə biləcəyəmmi? Mən istəyirəm, hər yerdə özümünkü olsun. Bilirsən, adam başqasına arxa çevirə bilmir. İndi dünya namərdlərin dünyasıdı, Müseyib. Üzünü yana çevirirsən, ya cibinə girirlər, ya kürəyinə bıçaq saplayırlar.

— Heylədi, Ələmdar Haşımıç.

— Sənin direktorun Zeynal pis adam deyil, amma qurudu, bilirsən? Mənə çevik, həyat adamı lazımdı.

Müseyibin çiçəyi çırtlamışdı. Ələmdarın nəyə işarə elədiyini başa düşürdü və az qalırdı durub onun əllərindən öpsün. Ancaq təmkinlə oturmuşdu və ağır oturub batman gəlmək istəyirdi.

Ələmdar əlindəki açarı oynada-oynada:

— Direktor olarsanmı, ay Müseyib? — deyə soruşanda, özü də qəfildən, birbaşa soruşanda, Müseyibin ürəyi quş kimi çırpınmışdı, sevincdən az qala huşunu itirmişdi. Lakin yenə özünü zorla ələ alaraq:

— Kimdi məni ora qoyan, Ələmdar Haşımıç? — demişdi və belə deməyinə dərhal peşman olmuşdu. Çünki çox yaxşı bilirdi ki, bu, onun öz əlindədi. İstəsə, lap günü sabah qoya bilər. «Bu nə axmaq söz idi ağzımdan çıxdı, ay allah, öldür məni». Və səhvini düzəltməyə çalışmışdı: — Yəni demək istəyirəm… sizdən asılıdı… Necə istəsəz…

— Amma çox ağırdı ha!.. — o, əlindəki açarı atıb-tutmuşdu. — Bilmirəm, bacararsan, ya yox?..

— Bacararam, Ələmdar Haşımıç. Siz deyəndən sonra… nə var ki…

Bu zaman Simuzər çayları gətirmişdi, birinci Ələmdarın qənşərinə qoymuşdu armudu stəkanı. Atası üçün də, özü üçün də gətirmişdi…

— Bəh-bəh. Aləm çaydı. Əşi, bizim arvadağa çay dəmləyə bilmir ki. Bəxtəvərsən, ay Müseyib. Hər gün belə çay içirsən.

— Yox, əmisi. Evdə bunun kitab əlindən düşür ki, bir çay dəmləməyə vaxtı da olsun. Səltənət — üzv istəyirəm, bunun anası — verir mənim çayımı-çörəyimi. Allah qoysa, bu dəfə gələndə, bizim də bir qapımızı açın, görün Səltənət də necə çay dəmləyir. Simuzər ondan öyrənib!

Xeyli söhbət eləmişdilər o gün. Qara diplomatı öz kabinetinə aparıb yerbəyer eləyəndən sonra Ələmdar saata baxıb:

— Mənim tənəffüsüm qurtardı, yoldaşlar — demişdi. — Mən getməliyəm, Müseyib! — Onların da durduğunu görüb Müseyibin çiynindən basmışdı: — Yox, yox, siz oturun, dincəlin. Öz evinizdi. Utanmadan, çəkinmədən, qalın, istirahət edin.

— Sağ olun, Ələmdar Haşımıç. Biz bu gün getməliyik.

— Nə danışırsan, ay kişi? Üç gündən sonra imtahan başlayır, siz hara gedirsiz?

— Mən işdəyəm axı…

— Ha?

— Yoxsa Zeynal gedən kimi qoparağımı götürər.

— Zeynal qələt eləyər. O kimdi?.. — Nə fikirləşdisə, durub sözü çevirdi: — Ələmdar, hə, onu düz eləyirsən. Qoy heç sənin mənim yanıma gəldiyini bilməsin. Ağıllısan. Afərin.

— Hə, heylə yaxşıdı.

— Onda… Uşağı niyə aparırsan? Qoy qalsın bizdə. Heç kəs yoxdu. Mane olan-zad. Otursun dərslərini hazırlasın. Al, bu da açar. Çıxanda bağla qoy sumkana. Gələndə aç, gir içəri. Mən onsuz da evdə olmuram. İşdən sonra Mərdəkana — bağa gedirəm. Yayda şəhərdə qalmaq mümkün deyil.

Ata-bala bir-birinin üzünə baxmış, qəti bir qərara gəlməmiş, Ələmdar açar bağlamasından açdığı sarı, ingilis açarını qızın ovcuna basmışdı. Daha etiraza yer qalmamışdı. Buna baxmayaraq Müseyib Simuzərə sarı dönmüşdü:

— Hə? Ceyranbala? Nə deyirsən?

Simuzər bir əlindəki açara, bir başı üstə dayanmış Ələmdara baxmışdı — bircə onu hiss eləmişdi ki, ev sahibi başını tərpətməklə «hə söylə!» demişdi ona. Qız astadan:

— Nə deyirəm ki!..

Müseyib qəribə bir sevinc içində:

— Ay mənim ağıllı balam! Əmin düz deyir, üç gündən sarı bir də niyə gedəsən o boyda yolu. Qal əmingildə. Oxu dərslərini, — dedi.

Ələmdar yaşına yaraşmayan — əlli ikinin içindəydi — bir çevikliklə Müseyibə tərəf yeriyib:

— Sən qal hələlik. Uşaq üçün yeməkdən, mer-meyvədən al qoy, mənim vaxtım yoxdu, yoxsa özüm eləyərdim, şoferə də demək istəmirəm. Başa sal, yaxındakı — binanın altındakı mağazanı göstər, qoy tanısın. Sonra gedərsən — demişdi və qapıdan çıxanda Simuzərə dönmüşdü: Hə, az qala yadımdan çıxmışdı. Qapını heç kəsə açma ha!.. Telefon zəng çalanda da götürmə. Ancaq on zəng çalınanda — sayarsan — on zəng çalınanda götürərsən. Bu, mən olacam. Aydındı?

— Hə! — Simuzər də ayağa qalxmışdı.

Ələmdar «xudahafiz» deyərək getdikdən sonra ortalıqda dayanmış ata-bala çaşqın-çaşqın bir-birinə baxıb gülümsünmüşdü. Müseyib yaxın gəlib Simuzərin alnından öpmüşdü:

— Səni təbrik eləyirəm, qızım. İşlərin düzəlir.

— Çox sağ ol, ay dədə! — deyərək Simuzər başını atasının sinəsinə qoymuşdu. — Sənə qurban olum, ay dədə.

— Elə demə, qız. Görürsən nə qəribə kişidi bizim nazir?!

Simuzər gülümsünmüşdü.

— Neçə uşağı var, ay dədə? — Simuzər soruşmuşdu.

— Heç neçə! Uşağı yoxdu. Bir arvadıdı, bir də özü.

— Deyirəm axı niyə belə mehribandı?

— …

… Axşam üstü Müseyib gedəndən sonra Simuzər o boyda mənzildə tək-tənha qaldığını görüb əvvəlcə xoflanmışdı. Otaqları bir-bir gəzərək səliqə-sahmandan, ondan da daha çox zənginlikdən heyrətə gəlmişdi. Evdə nə qədər büllur vaz, stəkan-nəlbəki, qızıl qaşıq-çəngəl, qədəh olarmış, ay allah! Yorğan-döşəklərin üzləri Çin ipəyindəndi. Amma Simuzərin xoşuna gələn hər şeydən artıq iri, lay pəncərələrin qabağına içəridən düzülmüş gül dibçəkləri idi. Gömgöy, qəribə bir sarmaşıq böyük otağın divarına vurulmuş xalçanın üstü ilə bu başdan o başa qədər uzanmışdı. Və onun yaşıl yarpaqları, dibçəkdəki güllər burada əsəbləri oxşayan gözəl, yüngül bir meşə — təbiət parçası ovqatı yaradırdı.

Ay aman, iki televizor varmış! «Neynillər iki televizoru görəsən? Hə, biri Ələmdar əminin öz otağındadı. Arvadı bir proqrama baxanda yəqin kişi ayrı proqrama baxır…»

Sonra, yorğun olduğunu hiss eləyib elə yumşaq divanda uzanmışdı. Nə qədər yatdığını bilməmişdi, yuxudan telefon zənginin səsinə ayılmışdı. Kim idisə beş-altı cingiltidən sonra dəstəyi qoymuşdu. «Deməli, o deyil».

Telefon bir də axşam saat doqquzda haray qoparmışdı. On birincidə Simuzər əlləri əsə-əsə dəstəyi qaldırmışdı:

— Bəli!..

Dəstəkdən Ələmdarın aydın, gümrah səsini eşidib toxtamışdı qız.

— Sənsən, Simuzər?

— Bəli, Ələmdar əmi, sizsiz?

— Hə. Necəsən? Atan getdin?

—Yaxşıyam. Hə getdi.

— Qorxub eləmirsən ki?

— Yox, nədən qorxacağam?

— Ay bərəkallah. Çörək-zad yemisən? Soyuducuda yağ, yumurta, ikra… var. Ac qalma, bişir, ye.

— Dədəm alıb hər şey.

Ələmdar onun diliylə:

— Dədən ağıllı kişidi, alar! — demişdi! Və nə üçünsə gülmüşdü. — Darıxmırsan ki, qız?

— Yox.

— Darıxırsansa, gəlim, hə? Heç bağa getməyim. Gəlim, qalım yanında…

— Yox, yox — Simuzər özü də bilmədən bu iki kəlməni elə tələş, elə həyəcan və sürətlə demişdi ki, buna o andaca təəccüb eləmişdi.

— Ya istəyirsən gəlim səni də aparım bağa, hə?

— Yox, yox. — Yenə cavabında bir qeyri-iradi tələsiklik duyub pərt olmuşdu. — Bura yaxşıdı, Ələmdar əmi.

— Onda televizoru yandır, bax. Böyük otaqdakı televizoru ha. Mənim kabinetimdəkinin dilini bilməzsən. Hə, yandır, tamaşa elə. Gecə yatanda da yataq otağındakı çarpayıların sağ tərəfindəkində, pəncərə qabağındakında yatarsan. Yaxşı? O mənim çarpayımdı. Onda yatarsan. Həm irahdı, həm də…

— Yaxşı, Ələmdar əmi.

— Kondisioneri də söndürmə.

— Nəyi?

— Kondisioneri.

— Kondisioner nədi?

Ələmdar məftilin o başında şən-şən gülmüşdü:

— Heç. Gələndə başa salaram. Yaxşı, gecən xeyrə qalsın, yuxun şirin olsun.

— Çox sağ olun, Ələmdar əmi. — Qız dəstəyi asmaq istəmişdi ki, ev sahibinin səsi qulaqlarında çınlamışdı: — Dayan, dayan, qız. Az qala yadımdan çıxmışdı. Mən üç gün şəhərdə olmayacağam. Narahat olma ha. Daşkəndə getməliyəm. Ayın birində tezdən taksiyə minərsən, gedərsən instituta. İmtahanına girərsən. Biologiyadandı da. Saat ikidədi ha. Birdən yadından çıxar.

— Yox…

— Çıxan kimi də yenə maşına minib gələrsən öyümüzə. Bura bax, orda, servantın aşağıdan birinci gözündə pul var, nə qədər istəy-

irsən, götürərsən. Özünə korluq vermə…

— Sağ olun, Ələmdar əmi. Dədəm pul qoyub.

— Dədənin puluna dəymə. Onu qoy bir tərəfə. Mən deyən puldan götür. Eşidirsən, qız?

— Hə.

— Onun verdiyi pulları gələndə özünə qaytararıq, sürpriz olar onunçün… Başa düşdün?

— Hə, Ələmdar əmi…

— Mən nə deyirəm, ona qulaq as. Ziyan çəkməzsən… Başa düşdün?

— Hə.

— Bir də… heç kəsin yanında — yoldaşlarının, müəllimlərinin yanında — mənim adımı çəkmə ha.

— Yaxşı.

— Elə lazımdı. Yaxşı. Mənə bir sözün-tapşırığın, Simi? — «Simi?» — Bu söz beynini, ürəyini yandıra-yandıra içinə axıb dolmuşdu, bütün vücudunu anlaşılmaz duyğu bürümüşdü. Bircə anın içində dodaqları qurumuşdu Simuzərin və heç özü də hiss eləməmişdi ki, necə:

— Yox, yox! — demişdi.

— Di onda bir də gecən xeyrə qalsın, yuxun şirin olsun, Simi! — Və Ələmdarın bu son sözlərindəki hədsiz səmimiyyəti, şirinliyi duymaya bilməzdi Simuzər. Nazir dəstəyi çoxdan asmışdı, ancaq Simuzər hələ də dəstək əlində, divara söykənib qalmışdı. Qırmızı telefon aparatından aramsız gələn «dud, dud, dud»ları da eşitməmişdi.

… Avqustun birində Simuzər yerə-göyə sığışmayan bir sevinc içində taksidən düşüb bloka girəndə də, neçə dəfə baxsa da, gözlərinə inanmırmış kimi, təzədən imtahan vərəqəsini çıxarıb baxmışdı və «əla» qiymət aldığına, nəhayət əmin olmuşdu. Quşa dönmüşdü, uçmuşdu pillələri, yeriməmişdi. Qapını da nə zaman, necə açıb içəri girdiyindən xəbəri olmamışdı. Yalnız içəri qədəm basıb böyük otaqdakı uzun stolun üstündə yemək-içmək düzüldüyünü görəndə heyrətdən, təəccübdən ayılmışdı. O, gündüz saat on ikidə evdən çıxmışdı. Ələmdar Daşkənddəydi. «Bəs bunları kim eləyib, ay allah! Möcüzədi, nədi bu, ilahi?» — Bu sözləri o, ucadan söyləmişdi. Və elə bu zaman Ələmdar Səmərqənd qanovuzundan tikilmiş zol-zol xalatda, başında özbək araxçını yan otaqdan gülə-gülə çıxmışdı:

— Möcüzə-zad deyil, Simi! — söyləmişdi.

İlk anlardaca onu tanımayan Simuzər içini çəkib:

— Oyy, — demişdi, diqqətlə baxıb Ələmdarı tanıyandan sonra — Bu, sizsiz?.. Vay, ürəyim düşmüşdü, — demişdi.

Ələmdar qızın qorxudan halbahal olub titrədiyinə əhəmiyyət verməyərək:

— Səni «əla» almağın münasibətilə təbrik eləyirəm, Simi, — deyəndə qızın qəşəng, nazik qaşları çatılmışdı:

— Oy, siz hardan bilirsiz?.. Doğrudan… mən möcüzələr aləminə düşmüşəm, deyəsən…

Ələmdar irəli yeriyib əlini Simuzərə tərəf uzadaraq qızın kiçik, isti, ağappaq əlini ovcunun arasına alaraq bərk-bərk sıxmış:

— Səni ürəkdən təbrik eləyirəm, Simi! — deyərək onu özünə tərəf çəkib sinəsinə basmış, ipək kimi yumşaq saçlarından öpmüş və o ipək saçların qəribə, bihuşedici ətrini gül kimi qoxulayaraq xırda gözlərini yummuşdu. Simuzər də Ələmdara sığınmış, başını onun geniş köksünə söykəyib saçlarının içində gəzən o gonbul barmaqların hərarətini duya-duya elə bil yatmışdı. Bu, yuxu idimi, xəyal idimi?..

Ələmdarın pıçıltı ilə:

— Sağ ol, Simi, sağ ol, əzizim! Mənim… başımı uca etdin, Simi! Mən haçandı belə sevinməmişdim, — dediyi sözləri eşitmişdi və elə ayaq üstündə yatmışdı sanki.

Ələmdar birdən onu iki əli üstə götürərək yataq otağına aparmış, orada öz çarpayısının yanında yerə qoyaraq dikinə dayanmış qara çamadanı açmış, içində ipəkdən tikilmiş bir dəst paltar, bir xalat çıxararaq ona vermişdi:

— Sənindi. Daşkənddən məxsusi sənə hədiyyə almışam, Simi. Dəyiş, bunnarı geyin.

— Oy, nə qəşəngdi! — Donu boyuna ölçmüşdü. — Elə bil «zakaz» tikilib! Xalat da gözəldi… Mənim indiyəcən heç belə donum, belə xalatım olmuyub…

— Olacaq, bundan sonra hər şeyin olacaq, Simi!

Ələmdar paltarları əlindən alıb qızın qolundan tutaraq çarpayının ayaq tərəfinə çəkmişdi, güzgünün qənşərinə.

— Hə, bax, burda soyun, dəyiş paltarını.

— Yox, yox. — Simuzər əsə-əsə dillənmişdi.

— Məndən utanırsan?

— …

— Yaxşı. Mən çıxıram. Sən geyin. Sonra gəl, acıq — yəqin sən də acsan… Gözləyirəm, gəl. Hələ bir sürpriz də gözləyir səni, Simi… — deyərək kabinetinin qapısını çəkib örtmüşdü.

Simuzər xeyli müddət güzgü qabağında heykəl kimi donub qalmışdı. Aynada özünün alışıb-yanan üzünə, par-par qığılcım saçan gözlərinə baxmış, əllərini hərarət içində allanan yanaqlarına sürtmüşdü. Sonra dona, xalata nəzər salmışdı. Elə bil o ipək zərif paltarların dili vardı; sanki «bizi geyin, Simuzər!» — deyə yalvarırdılar. «— Bizi geyinən xoşbəxt olur, Simuzər!» Digər tərəfdən — qəribə idi, qız bilmirdi o səs hardan gəlir — içindənmi, ürəyindənmi, ya göylərdənmi — deyirdi: «Əl vurma onlara, geyinmə, Simuzər! Tüpür o paltarlara da, o cücəgöz, yekəqarın, dazbaş kişinin üzünə də, baş götür qaç, qaç bu ilan yuvasından, uzaqlaş. Nə qədər gec deyil, uzaqlaş, Simuzər. Sonra gec olacaq, sonra başına, dizinə döyəcəksən, ancaq əlin heç yerə, heç kəsə çatmayacaq, Simuzər. Ömrün boyu od içində yanacaqsan, həyat sənə haram olacaq, Simuzər!»

Paltarlar parıltısı ilə yalvarırdı, o qayibanə səs də yalvarırdı… Paltarlar gözlərinin qabağındaydı, ancaq o qayibanə səsin sahibini görə bilmirdi.

«Geyin!»

«Geyinmə!»

«Geyin!»

«Geyinmə!»

Geyinməmişdi, pudluq daş asılmış kimi ağır ayaqlarını güclə sürüyə-sürüyə kabinetin qapısını açaraq böyük otağa keçəndə stol arxasında dayanıb canfəşanlıqla boşqaba qarpız dilimləyən Ələmdarın əlindən bıçaq tappıltı ilə parlaq döşəməyə düşüb cingildəmişdi:

— Bəs… niyə geyinmədin?

— İstəmirəm… — Simuzər günahkar imiş kimi böyründəki kresloya çökmüşdü. Və başını aşağı salıb, quyruğu dizinin üstündə ilan kimi qıvrılıb yatmış xurmayı hörüyünün ucunu qurdalamışdı. Ələmdardan səs çıxmamışdı. Dəqiqələr beləcə sükut içində ərimişdi və bu qulaqbatıran səssizlik Simuzəri darıxdıranda gözlərini qaldırıb Ələmdara baxmışdı. O, elə bil ölmüşdü, ayaq üstə ölmüşdü. Sanki heç nəfəs də almırdı. Heç kirpik də çalmırdı kişi.

Simuzərə nədənsə elə gəlmişdi ki, onun dili də tutulub Yazığı

gəlmişdi:

— Küsdüz məndən? — Və bu sözləri deyən anda onu da duymuşdu ki, daha «əmi» demir ona, deyə bilmir.

Ələmdar yenə dillənməmişdi.

— Xətrinizə dəydim, hə?

— …

Sonra… Simuzərin gözlərinin önündə yenə o ipək paltarlar cilvələnmişdi, lap multiplikasiya filmələrində olduğu kimi, içində adam bədəni olmayan o libaslar ayağa qalxıb düz onun qənşərinə gəlmiş, yenə «Bizi gey, bizi geyən xoşbəxt olur, əziz olur, sevimli olur!» — demişdilər. Və qəribə idi ki, indi o biri səs yox idi, eşidilmirdi.

Simuzər təzədən Ələmdara baxaraq eynən bayaqkı kimi dayandığını görüb çaşqın-çaşqın gülümsəyərək:

— Yaxşı, siz deyən olsun! — demiş və kabinetə keçmişdi. Yalnız bundan sonra heykələ dönmüş Ələmdar qımışıb, öz-özünə göz vurmuş, əyilib bıçağı götürmüş, qan kimi qırmızı qarpızı doğramağa başlamışdı.

Beş dəqiqə keçmiş isə, Simuzər utana-utana, qəribə bir sıxıntı içində qayıdanda Ələmdar uşaq kimi sevinə-sevinə:

— Bax, bu başqa məsələ, Simi! — demişdi. — Nə gözəl yaraşır sənə, Simi?.. Onsuz da gözəl idin, indi lap madonna olmusan!

— …

— Güzgüdə baxdın özünə?

— …

— Çox gözəlsən, Simi!

— …

— Gəl, gəl, otur. Yəqin lap acından birtəhər olmusan. Bura keç, bax, bura!..

Simuzər tərpənməmişdi, bu zaman Ələmdar yenə qabağa gəlib onun ayaqlarını yerdən üzərək, gətirib stulda oturtmuşdu. Qabağına qab, çəngəl, bıçaq qoymuşdu. Cavan oğlan kimi, mətbəxə keçib soyuducudan bir şampan, bir konyak şüşəsi gətirmişdi, əl uzadıb böyründəki servantdan irili-xırdalı bakallar, qədəhlər götürüb ortaya düzmüşdü:

— Bu gün sənə özüm qulluq eliyəcəm. Bu gün sən hər cür ehtirama, hörmətə və diqqətə layiqsən, böyük qəhrəmanlıq eləmisən, Simi. İndi o müəllimlərdən «əla» almaq, kosmosa gedib-gəlmək kimi

böyük bir qəhrəmanlığa bərabərdi.

Simuzər bayaqdan bəri ona öz minnətdarlığını bildirmədiyini xatırlayıb:

— O sizin sayənizdədi… — söyləmişdi. — Yoxsa… mənə «əla» verən kim idi ki?

— Əsas başdı, Simi! — O, şəhadət barmağını Simuzərin saçlarına toxundurmuşdu. — Yaxşı, imtahandan-zaddan danışmayaq, mən bəri başdan sənə söz verirəm ki, o qalan üç imtahandan da beləcə «beş» alacaqsan, Simi. Ürəyini buz kimi elə.

— Doğrudan? Hamısından «əla»? Lap hamısından?

— Laap hamısından. Əgər ondan yüksək qiymətləri olsaydı, onu da alardım sənin üçün, Simi…

— Çox sağ olun!

— Sənə Simi deyirəm, birdən acığın gələr ha…

— Nə isə… qulağım öyrəşməyib. Adım Simuzərdi mənim.

— İcazə ver mən sənə Simi deyim… Olar?

— Ya da eləcə Sim… Nağıllarda olan kimi… Gəlim qapıda dayanım, yavaşcadan deyim: «Sim, Sim, qapını aç, mən gəlim». Hə?

Simuzər gülmüşdü.

— Demək danışdıq. Sən mənim «Sim-simimsən».

O, üyüdüb tökə-tökə şampanın ağzının məftilini, sarı jıq-jıq kağızını açmışdı. Part. Simuzər səksənmişdi. Şampan köpüyü şüşədən fontan vuranda tez bakallara tökmüşdü, birini onun qabağına, birini də öz qabağına qoymuşdu.

— Mən içmirəm.

— İçəcəksən, Sim. Bu gün elə gündü ki, gərək qeyd eliyək, əzizim. Onda mənim xətrimə dəymiş olarsan. Mən də ki, küsdüm, qurtardı. Hələm-hələm barışa bilmirəm. Ürəyim şüşə kimidi mənim, Sim. Çalış, heç vaxt onu sındırmayasan.

— Çalışaram. Amma içmiyəcəm mən. İndiyəcən heç dilimə də vurmamışam.

— Yox, əşi? Yəni indiyəcən üzüm yeməmisən?

— Yemişəm.

— Hə, onda deməli «şampan» da içmisən.

— Üzüm hara, bu hara?

— Ba. Şampan üzüm suyudu da! Xalis üzüm şirəsi. Hələ içinə də «qazirovannı» su vurublar. Yoxsa deyəcəksən «qazirovannı» su da

içməmisən?

— İçmişəm.

— Hə, indi üzüm şirəsi ilə qarışdırılmış qazdı su içəcəyik, Sim. — O, Simuzərin qabağındakı bakalı götürərək ona tərəf uzatmışdı, qız nazirin əlini geri qaytarmağa ürək eləməmiş, tərəddüdlə almışdı. — Bu bakalları sənin bugünkü uğurunun şərəfinə içirəm, Sim, əzizim. Xoşbəxt ol, Sim!

— Çox sağ olun.

— Hə, iç. Səni gözləyirəm. Sən içməsən, mən də içməyəcəyəm, Sim. Bu gün nə isə yaman içmək istəyirəm. İç, iç… Ay sağ ol! Yox, axıra qədər. Saxlama. O, yaxşı əlamət deyil. Rus yoldaşlarnan oturanda əgər qədəhdə içki saxlasan, sağlığına tost deyilən adam inciyib deyir: «Çto, zlo ostavlyayeş?» Ay bərəkallah… Hə, indi ye!..

Qızın dalınca özü də sərin, hələ pıqqır-pıqqır qaynayan qızılı şampan bakalını birnəfəsə başına çəkmişdi.

Doğrudan da ac imişlər. İkisi də şirin-şirin yemişdi. İkinci bakalı da içmişdilər. Onu Müseyibin şərəfinə. Sən demə, Ələmdar Müseyibi — onun atasını çox istəyirmiş, lap çox. O qədər tərifləmişdi ki, Simuzərin fərəhdən ürəyi dağa dönmüşdü. Dediyi çoxlu tərifların, yağlı sözlərin içində biri beynində əməlli-başlı həkk olunub qalmışdı:

— Müseyib mənim nazirliyimin qızıl sütunudu, Sim. Yaxşı kişidi!..

Və Ələmdar qəfil:

— Pay səni! Yadımdan lap çıxmışdı az qala! — demişdi. — Əvvəl kefimə elə soğan doğradın ki, dilxor oldum. Gör sənə nə gətirmişəm?.. — O, xalatının cibindən dördkünc, mavi rəngli, lentli bir qutu çıxartmış, tələsə-tələsə açmışdı. — Əgər bildin nədi bu?

Qız flakonu əlinə alıb burnuna tutmuşdu:

— Ətirdi.

— Ətirdi, hə. Özü də fransuzskidi, Sim!

— Hə? — iynədi. — Ah, nə xoş qoxusu var? Eşitmişdim, amma görməmişdim. — Qapağını burmaq istəyəndə Ələmdar:

— Dayan, mən özüm. — Əlindən alıb açmış, bihuşedici, yüngül ətir otağa dolmuşdu, tələsə-tələsə ovcuna töküb Simuzərin saçlarına səpmiş, üzünə, buxağına sürtmüşdü:

— Elə yox, elə yox. Ətri elə vurmazlar. — Simuzər ondan şüşə qabı almışdı. — Ətri elə vurmazlar, heyifdi bu!

— Bə nə təhər vurarlar? — Gülmüşdü Ələmdar.

Simuzər barmağının ucunu ətir şüşəsinin ağzına tutub isladaraq Ələmdarın yanağına, qulağının dibinə, bığ yerinə çəkmişdi:

— Belə vurarlar ətri!..

— Hə!.. Kişilər belə şeyi hardan bilərlər.

Simuzərə ətir ləzzət eləmişdi. Qutusunu götürüb üstünü oxumağa çalışmışdı, ancaq bacarmamışdı.

— Adı nədi görəsən?

— «Klima»dı, Sim. Fransızların ən əla ətridi. Bir dostum Parijin özündən mənə pay gətirmişdir.

«Şampan» yavaş-yavaş təsirini göstərməyə başlamışdı. Simuzərin üzünün cavan, sağlam dərisi qızarmışdı, iri, ala gözləri həm elə bir az işıqlanmışdı, həm də xumarlanmışdı.

— Şampan sənə düşür, Sim!

— Necə düşür yəni?

— Rəngin açılıb, allaşıb. Daha da gözəlləşibsən, Sim. Onsuz da gözəl idin, ancaq indi lap gözəl olubsan.

— Doğrudan? Siz allah düz deyirsiz?

— Vallah, hə. İnanmırsan, dur güzgüdə bax özünə.

— …

— Dur, dur. Kömək eləyim? Yaxşı. — Qızın gözlərinin süzüldüyünü görüb Ələmdar onun qolundan tutaraq ayağa qaldırmışdı.

— Vay, yeriyə bilmirəm. Ayaqlarım tutulub, başım gicəllənir.

— Yaxşı, qucağımda apararam səni, — deyərək qızı bircə anda quş kimi qolları üstünə alıb yataq otağına — öz çarpayısının yanına, güzgünün qabağına gətirmişdi. Onu ayaq üstə yerə qoyaraq: — Hə, bax. Gör mən deyəndi, ya yox! — demişdi, böyründə dayanmışdı, qolunu da boynuna salıb sol çiynindən tutmuşdu.

Simuzər güzgüdə əksinə baxmış, başını silkələyib əlilə üzünə düşən üç-dörd tükü geri itələmişdi…

— Vay,dədəm içdiyimi bilsə, məni tikə-tikə doğrayar!

— Yox a?

— Vallah.

— Dədən hardan biləcək, Sim?

— Birdən sən dedin? — Simuzər nə zaman ona «sən» dediyinin fərqinə varmamışdı, bunu Ələmdar tutmuşdu, sevinmişdi, ancaq

üstünü vurub ürkütməmişdi.

— Demərəm, dədə canı, demərəm. Birdən sən özün ağzından qaçırdarsan…

— Yox, yox… Sən nə danışırsan. Heç anama da deyə bilmərəm. Anama bir söz deyən kimi, o saat qoyur kişinin ovcuna.

— Mənim sirr saxlamayan adamlardan zəhləm gedir.

— Məni demirsən heç?

— Dədən ağzı bütöv adamdı. Quyu kimidi. Yanında baş kəs, üstünə diri ilan salsan da… bir kəlmə deməz.

— Dədəmdən olmaz…

Ələmdar danışa-danışa qızın çiynindən sıxıb özünə tərəf çəkmişdi, o başını onun sinəsinə söykəmişdi. O qədər ustalıqla, tələsmədən təmkinlə hərəkət eləmişdi ki, Simuzər bunlara adi bir şey kimi baxmışdı, şübhələnməmişdi, fikrinə ayrı heç nə gətirməmişdi. Bütün bunları bugünkü böyük sevincin davamı hesab eləmişdi. Beyni o qədər dumanlanmışdı ki, içməyin də onun üçün qəbahət olduğunun fərqinə varmamışdı. Ələmdar yaşca atasından da böyük idi, dostu idi, bir «əla» almasına necə də sevinmişdi, aman allah! Hələ o boyda kişi, yoldan yorğun-arğın gəlməsinə baxmayaraq, zəhmət çəkib belə süfrə açmışdı, qızın imtahandan qayıdıb gəlməsini gözləmişdi, ac olsa da, ağzına bir loxma da almamışdı. Bunları Simuzər indi, güzgü qabağında, ayaq üstə güclə dayandığı halda, ürəyindən keçirmişdi: on səkkiz illik — yuxu kimi gəlib keçən və demək olar ki, yaddaşına, xatirəsinə elə də mühüm və yadda qalan bir şey yazmamış o on səkkizillik həyatının bu gün, bəlkə də, ən xoş, ən unudulmaz günüydü, kim bilir, bir də belə gün yaşamaq ona qismət olacaqdımı?

— Yoruldun deyəsən hə?

— Hə. Oturmaq istəyirəm.

Ələmdar yenə bir göz qırpımında onu qaldırıb çarpayının üstünə qoymuşdu.

— Bura irahdı. Söykən balışa. Bax, belə. Üzünü də bu yana çevir. Burdan televizora baxacağıq.

— Tele…viz…ora?

— Hə. Bəs mən sənə deməmişdimmi ki, bu televizora əl vurma, sən onun dilini bilməzsən?

— …

Ələmdar cəld otağın küncündə qoyulmuş televizora yaxın gəl-

miş, düyməsini burub yandırmışdı, qara, uzun şokolada bənzəyən bir qutunu — pultu gətirib ona verərək:

— Amerikanski kino göstərəcəklər indi, — demişdi, — baxarsan, hansı momentindən xoşun gəlsə, bax, bu qutunun bu düyməsini basarsan, dayanacaq o kadr. Elə ki, doyunca baxdın, o biri düyməni bas, filmin mabədinə tamaşa elə…

— A… heç mən belə televizor görməmişəm.

— Yaponskidi. Videodu. Bir də sən hələ çox şey görməmisən, Sim. Sənə mən bütün dünyanı göstərəcəyəm. Daha uşaq deyilsən, özün də bu gün-sabah həkimsən, ali savadlı…

— Ha, ha… hələ qoy bir girim, sonra…

Vidiomaqnitofon cızıldayıb ekrandan qara fondakı ağ nöqtələr yox olanda Ələmdar:

— Sən bax, mən indi gəlirəm, — deyərək o biri otağa keçmişdi. Bilirdi nə filmdi. Özü çox baxmışdı, kaseti seyfində gizləmişdi. Bayaq gələndə ilk işi o kaseti maqnitofona qoymaq olmuşdu. «Qoy baxsın, öyrənsin. Burda da baxmasa, hardasa, haçansa, kimsə göstərəcək ona. Onda gözlərini döyməsin…»

Stolun üstündəki bakala şampan tökmüş, üstünə də konyak əlavə eləyib qarışdırmışdı, barmaqlarının ucunda qapıya yaxınlaşıb qızın başını balışa söykəyərək çox diqqətlə, heyrətdən gözləri açılmış halda ekrana tamaşa elədiyini görüb sevinmişdi. «Baxır. Ay can, baxır. Bu elə tilsimdi ki, baxmamaq mümkün deyil. Utansaydı, acığı gəlsəydi, üzünü divara çevirərdi, başını balışın altında gizlərdi. Yox, xoşuna gəlib deyəsən».

Simuzər ekranda nə görürdüsə gah gözlərini bərəldir, gah əlini dodaqlarına aparıb nəsə pıçıldayırdı.

Ələmdar qəsdən içəri keçmirdi. Qız da, qəribəydi ki, ürəyində deyirdi: «Kaş gəlməyəydi, kaş bir az gec gələydi. Onun yanında…»

Bu zaman Ələmdar daha dözməyib əllərində bakal otağa girdi. Onu görən kimi Simuzər özünü itirərək əlindəki düyməni basdı.

Ələmdar onun yanına gəldi:

— Yox, bu mümkün deyil, Sim. Yaponlar bunu elə düzəldiblər ki, qurdun, gərək axıracan baxasan. Yarımçıq saxlasan, lent pozulur, avtomatik pozulur.

— …

— Hə. Yaman bic millətdi bu yaponlar. Bizim müsəlman kimi gic deyil.

— Mən baxmıram.

— Baxmırsan, baxma… Amma qoy fırlansın öz-özünə… hə, fırlansın da. Bax, bu kişi var ha, axırda o qızılı saçlı qızı öldürəcək.

Simuzər içini çəkdi:

— Hə? Niyə?

— O zənci var ha. O qara, zırpı kişi. Bax, o qızı onunla bir yerdə tutacaq… sonra… öldürəcək.

— Vay!.. Amma ona o da azdı…

Simuzər qutunu, əlində tutmuşdu. Bir gözü Ələmdarda idisə, o biri gözü ekrandaydı. Bunu Ələmdar hiss eləmişdi.

— Yaxşı, bu kişini çox burda saxlayacaqsan? Burax getsin də.

— Nə təhər? Axı bu qutunu bu televizora heç nə birləşdirmir? Bunnan onun heç bir əlaqəsi yoxdu axı.

— Yanındakı o biri düyməni bas, çıxıb getsin. Əlaqəsi var, Sim, ancaq biz görmürük. Buna da yapon müəllim deyərlər!

Doğrudan da düyməyə barmağını toxunduran kimi, uzun saçları çiyninə tökülmüş, üz-gözündən sırtıqlıq yağan kişi ekrandan yox olmuşdu, başqa adam — zənci və onun qara iti görünmüşdü.

Ələmdar Simuzərin böyrünə gəlmişdi. Bakalı ona verib:

— Bir söz de, bunu da içək, Sim! — söyləmişdi.

— Nə söz?

— Bir sağlıq de…

— Mən sağlıq deyə bilmirəm… Sağlığı ancaq kişilər deməz?

Ələmdar gülmüşdü:

— Kənddə də. Ancaq bura şəhərdi. Şəhərdə sən sağlıqlar deyən qadınlar görəcəksən ki, ağzın açıla qalacaq. Bax, sənin sağlığına içmişik, dədənin sağlığına içmişik. Əgəm bildin kimin sağlığı qalır?

— Kimin? — Simuzər ekrana baxa-baxa soruşdu və təkrar elədi: — Kimin?

— Fikirləş də.

— A, tapdım. Sənin…

— Ay bərəkallah. Hə, indi mənim sağlığıma bir söz de, içək, Sim!

Simuzər ondan bakalı aldı, dikəldi:

— Sən… Sən yaxşı kişisən! Sən çox, çox yaxşı kişisən. — Və toqquşdurdu bakalını Ələmdarın bakalına…

İçdilər…

Və o gecə…

… Simuzər o yay Tibb institutuna daxil oldu, altı il oxuyub, bir il də internada qaldı, həkimlik diplomu aldı, əvəzində isə elə qiymətli bir şey itirdi ki, onu heç nəylə heç kəs geri qaytara bilməzdi. Ustalıqla, ehtiyatla o böyük şəhərdə yaşadılar Ələmdarla Simuzər. Nə Müseyib şübhələndi, nə Səltənət xanımın ürəyinə bir xal düşdü. Nazirin ömründə bircə dəfə də doğmayan arvadı Sulduz xanım da Simuzərin evinə gəlib-getməsinə adicə baxdı, çünki iki ailə — Müseyibin və Ələmdarın ailəsi qız tələbə olandan sonra o qədər qaynayıb-qarışdı ki, aralarından su da keçmədi. Bu yaxınlığı bir də o artırdı ki, beş-altı aydan sonra Ələmdar Müseyibi, vəd verdiyi kimi, Pambıq qəbulu məntəqəsinin müdiri qoydu, ağzını əməlli-başlı çörəyə çatdırdı. Əgər bir gün Ələmdar dara düşüb onun özünün, ya uşaqlarının başını istəsəydi, Müseyib çətin ki, yox deyə bilərdi. Ələmdar və xanımı Müseyibin evinin ən əziz adamları idi. İnsafən, onlar da rayondan Bakıya — mikrorayonda təkotaqlı mənzildə kirayənişin yaşayan qızlarına dəyməyə gələndə mütləq əvvəl Ələmdargilə düşər, Sulduz xanımın qonağı olar, kişi işdən dönənəcən gözləyib onu da görəndən sonra Simuzərin yanına gedərdilər…

Simuzər o yeddiili qayğısız yaşadı. Geymək, içmək, imtahan dərdi-sıxıntısı çəkmədi. Hər şeyini — paltarından tutmuş ev kirayəsinəcən Ələmdar verirdi. Atasının göndərdiyi pulu isə qız, Ələmdarın məsləhəti ilə, əmanət kassasına qoyurdu.

— Yığ, qoy qalsın, qız!.. Pul həmişə gərəkdi. Pulsuz adam gözüqıpıq, ürəksiz olur. Amma əmanət kitabçasını evdə elə saxla ki, dədən-anan yanına gələndə görməsin ha. Görsələr, başa düşərlər. «Xərcləməmisən, bəs nəynən dolanmısan!»

Simuzər institutu bitirəndə kitabçasında iyirmi beş mindən çox pul vardı. Və hərdən o kitabçaya baxıb özünü doğrudan da güclü, ürəkli hesab eləyirdi. Lakin bu, məsələnin zahiriydi. Əslində isə, Simuzər bütün o illər ərzində itiyi itmiş adam kimi yaşamışdı. Qız yoldaşları vardı. Şən idilər, deyib-gülürdülər, tələbəliyin ləzzətini, qayğısını, əziyyətini duya-duya oxuyurdular. Sevirdilər, sevilirdilər. Az qala hər qızın oğlanlar arasında bir gözaltısı vardı. Eləsi də vardı ki, açıq-saçıq, heç kəsdən çəkinmədən gəzib-dolanırdı sevdiyi oğlanla, kinoya, teatra gedirdi — bir də görürdün nişanlanıblar. Bir başqası elə tələbə ikən ərə getmişdi.

Simuzər qrup yoldaşlarının arasında ən gözəgəlimlisi, gözəli,

ən yaxşı geyinib-keçinəni idi. Subay, qəşəng oğlanlardan bir çoxu ona vurulmuşdu, arxasınca kölgə kimi gəzirdi. Yalvaranı, ağlayanı vardı hətta. Ancaq Simuzər heç birini yaxın buraxmır, sözlərini belə eşitmək istəmir, bəzən söyüb acılayırdı da.

— Mənim nişanlım var, — deyirdi və hətta barmağına yalandan nişan üzüyü də taxmışdı. Təkcə oğlanlara yox, özünü sındırmamaq üçün qız yoldaşlarına da elə demişdi.

Qrupda ona çox yaxın olan, sirdaşlıq-yoldaşlıq eləyən Rahidəyə də elə demişdi. Hətta bir dəfə Rahidə zarafata salıb ondan soruşmuşdu:

— Ay Simuzər, bə bu nə təhər nişanlıdı ki, bircə dəfə də sənin dalınca şəhərə gəlməyib?

— Özüm icazə vermirəm.

— Niyə? Çirkindi?

— Yox. Çox gözəldi, Rahidə. — Qəmli-qəmli gülümsünmüşdü. — Qorxuram qızlar əlimdən alalar.

— Yaxşı, sən allah. Səlim də, mənim nişanlım da, yaraşıqlıdı. Və heç əlimdən almırlar!..

— Səninki yanındadı, gözünün qabağındadı. — Sonra Rahidənin gözləmədiyi sualı vermişdi: — Çox istəyir səni Səlim?

— Boy, bu nə sözdü? Kölgəmdi ki, yazıq.

— İkiniz bir yerdə, tək olanda Səlim sənin heç ayağından öpür? Rahidə təəccüblənmişdi:

— Ayağımdan? Ta ayağımdan niyə, ay Simuzər?

— Heç… Elə-belə… Xəbər aldım…

Simuzər bunu sadəcə maraq üzündən soruşmurdu. Çünki onun otağına gələndə, ya ikisi birlikdə Mərdəkandakı bağa gedəndə, Ələmdar — o boyda kişi elə qapının ağzında dizlərini yerə qoyub əvvəlcə qəşəng ayaqlarının altından öpürdü, ayaqqabı da olsa, corab da olsa, öpürdü. Və bu, Simuzərə hədsiz bir nəşə verirdi, bu anlarda Ələmdarın onu sonsuz məhəbbətlə sevdiyinə inanırdı. İnanırdı və özünü xoşbəxt sayırdı — aradakı yaş fərqi də yalnız bu zaman silinib gedirdi. Ələmdarın onun yanında olduğu saatlar ərzində bu fərqi əsla görmür, hiss eləmirdi. Ancaq o gedəndən, Simuzər tək qalandan sonra, hər şey sönür, öləziyib yox olur, o sevincin, o nəşənin yerini dərin bir qüssə tuturdu və uzun müddət o, süst, yorğun halda dolaşıq fikirlər məngənəsində çırpına-çırpına qalırdı. Qəribə idi ki, öz rəfiqələri-

ni sevdikləri ilə əl-ələ tutub kinoya, teatra gedən görəndə Simuzərin ürəyində Ələmdara qarşı sonsuz bir nifrət oyanırdı, kədər onu boğurdu, evinə çəkilib ürəyi, gözləri boşalınca ağlayırdı. Və bu nifrət, Ələmdar yenidən onun yanına gəlincə, onlar görüşənə qədər davam eləyirdi. Görüşdülərmi — hər şey dəyişirdi, Simuzər təzədən bəxtəvərə dönürdü.

O şirin, təkrarolunmaz, geriqayıtmaz illər beləcə gəlib sona çatmışdı. İnstitutu bitirəndə, təyinat məsələsi ortalığa gələndə Ələmdar onu şəhərdə, gözünün qabağında saxlamaq istəmişdi, buna onun hər cür imkanı vardı. Ancaq bu zaman anlaşılmaz bir vəziyyət yaranmışdı: Simuzər daş atıb başını tutmuşdu ki, qalmır şəhərdə, rayona gedir, vəssalam. Ələmdar çox yalvarmışdı, qız da eşitməmişdi. Görünür, Simuzər bu gizli oyuna son qoymaq istəyirdi. Qız deyən kimi də olmuşdu. Simuzər təyinatını rayona almışdı və Ələmdarın bir zəngi ilə yeganə xəstəxananın baş həkimi təyin edilmişdi. O vaxtdan bir il keçmişdi. Bu aylar ərzində Simuzərin işi nə qədər çox olsa da, Ələmdarı tez-tez xatırlamışdı, hər gün zəngini gözləmişdi, ancaq o, susmuşdu. «Unutdu» — düşünmüşdü Simuzər və sinəsini soyuq ahlar yandırmışdı. Lap bərk darıxanda, neçə dəfə, ata-anasına demədən Bakıya getmək arzusu oyanmışdı qəlbində, ancaq böyük iradə gücünə, o istəyini boğub bu fikrindən daşınmışdı. Günləri mənasız, yeknəsəq keçmişdi bu il. Deməmişdi, gülməmişdi. Səltənət xanım isə, qızının bu dərdini başa düşməyib gözlərini döyə-döyə qalmışdı.

* * *

O dumanlı gün Səltənət xanım həyətdə tək idi. O başda, qarajın yanında manqal tüstülənirdi, balıq kababının iyi adamı uzaqdan vururdu. Kimsə üzü o yana tərəf dayanaraq manqalı yelpikləyirdi. Boy-buxunundan Müseyibə oxşamırdı. Qapı-bacada yalnız Səltənəti görən Ələmdar bir az tutuldu: «Müseyib yəqin hələ işdədi. Sim də evdə yoxdu ki, qabağıma çıxmayıb!»

— Xoş gəlibsiz, Ələmdar qardaş! Səfa gətiribsiz. — Səltənət qabağına gəldi.

— Sağ olun.

— Bə tək niyə, Ələmdar qardaş. Sulduz bacını da gətirəydiz də!

— İşdədi o! Necəsiz, Müseyib kişi, Simuzər bala necədi?

— Şükür, eyzən salamatlıqdı, Ələmdar qardaş. Kişi idarədədi, qız da yuxarıdadı.

Ələmdar pəncərələri pərdəli uzun eyvana göz gəzdirdi. Simuzəri görmədi.

— Naxoş-zad deyil ki, qız, allah eləməmiş?

— Yox, ay əmisi, naxoş deyil. Ancaq gələndən heç qaşı-qabağı açılmayıb. Mat-məəttəl qalmışıq… Bir yeri-zadı ağrımır ki, deyəsən xəstədi.

Ələmdar çox yaxın ev adamı kimi ərklə:

— Bəs niyə ərə vermirsiz? Ta vaxtıdı. Qız ki, yetişdi, gərək verəsən gedə. Qalsa çox əngəli var, — söylədi.

— Mən də heylə deyirəm, Ələmdar qardaş. Deyir istəmirəm…

— Qızı öz xoşuna qoysan, ya halvaçıya gedər, ya zurnaçıya. Verin getsin…

— Nə bilim…

— Bəs oğlanlar necədi? — Müseyibin iki oğlu Bakıda oxuyurdu.

— Heç xəbərimiz var? Mən istəyirdim sizdən soruşum.

— Gəlmirlər, qırışmallar!

— Utanıllar da yəqin. O qədər əziyyət veriblər ki, sizə.

— Eybi yoxdu. İmtahanlar yaxınlaşanda özləri gələcəklər, Səltənət xanım.

— Min dəfə demişəm, tapşırmışam ha, vaxt-bivaxt gedin əminizə, xalanıza baş çəkin, hal-əhval tutun. Mən deyirəm, mən eşidirəm.

— Cavandılar. İndiki cavanlar belədi də. Neyliyəsən.

Ələmdar danışa-danışa pilləkənlərə doğru addımladı, bunu görən Səltənət:

— Siz çıxın, əl-üzünüzü yuyun, — dedi və qızı hayladı: — Simuzər, Simuzər! Bir gör kim gəlib!

Yuxarıdan səs-səmir eşidilmədi.

Onlar geniş aynabənddə üz-üzə gəldi. Simuzər qonaq otağının qapısı ağzında əlləri qoynunda donub qalmışdı. Ələmdar onu görən kimi bir anlığa özünü itirdi, nə edəcəyini bilmədi, dönüb geri baxdı: Səltənət yox idi, aşağıda qalmışdı. Birdən iti addımlarla irəli cumdu; yerində cansız kimi dayanmış Simuzəri bağrına basıb üzündən, gözlərindən, saçlarından öpməyə başladı:

— Sim, Sim!.. Mənim əzizim! Sən niyə belə elədin, sən məni bu yaşımda niyə tək qoyub gəldin, Sim! — deyirdi. Ələmdar tez-tez və elə hey öpürdü. Simuzər tərpənmirdi — elə bil öpülən, oxşanan o deyildi, başqa bir adamdı; elə bil o, kənarda dayanmışdı və bir-birinə uzun müddət həsrət qalmış iki insanın bu qəribə görüşünü tam soyuqqanlıqla uzaqdan seyr eləyirdi. Ələmdar onun əlini busələrə qərq edirdi, o isə qapıya baxırdı.

— Niyə bir söz demirsən, Sim? Axı… mən gəlmişəm!

— …

— Sən sevinmirsən, Sim?

— …

Ələmdarın əlləri boşaldı, qızdan qopub geri çəkildi və ona diqqətlə tamaşa eləməyə başladı. Sükut uzun çəkdi. Simuzərdəki o təravət qalmamışdı. Arıqlamışdı. Qəşəng ala gözlərinin altı kölgələnmişdi. Baxışları mənasızdı, nə sevinc, nə nifrət ifadə eləyirdi. Susmağı yersiz sayan Ələmdar, bir az toxtayıb:

— Sənə nə olub, Sim, əzizim? — dedi.

Bayaqdan ilk dəfə qəşəng, amma solğun dodaqları tərpəndi:

— Heç nə…

— Bə niyə belə eləyirsən, Sim?

— Nə təhər eləyirəm?

— Mən gəlmişəm ey, Sim?

— Görürəm…

Ələmdar susdu, daha doğrusu, sarsıldı, deməyə sanki söz tapmadı. Qəzəbqarışıq bir incikliklə, hardan ağlına gəldisə, birdən dedi:

— A… bildim… Adamın var, hə? Düzünü de, kimi tapmısan?

— …

Bu sözləri eşitməyəydi kaş! Elə bil başına bir qazan qaynar su tökdülər. Ələmdarı tanıdığı və gəncliyini bağışladığı bu illər ərzində heç nə — hətta o birinci gecənin itkisi də Simuzəri belə yandırmamışdı. Qızın gözləri əvvəlcə böyüdü, sonra qıyıldı və bəbəklərindən kin qığılcımları parladı. Qabağa yeriyib onun ətli, qırmızı sifətinə yağlı bir şillə çəkmək arzusunu boğdu içində və var qüvvəsini cəmləşdirib soyuqqanlıqla (buna özü də heyrət elədi) bircə kəlmə çıxartdı ağzından:

— Hə, tapmışam!

Dedi və onu görmürmüş kimi, yanından ötüb o biri otağa keçdi,

qapını da arxasınca bağladı. Ələmdarın tərpənməyə də taqəti olmadı, dalıyca getmək, onun könlünü almaq, ya da əsəbi bir gərginliklə basıb şilləmək istədi, lakin bu zaman Səltənətlə Müseyib gəlib çıxdı. Səltənət Ələmdarı qapı ağzında, tək-tənha dayanan görüb:

— Bəs Simuzər hanı? — dedi. — Ağız, əmin gəlib ey, eşitmirsən? — deyə ağzını böyük otağa sarı tutub ucadan səsləndi. — Bu vaxt, ruzi paylanan vaxt, adam yatar? — o, danışa-danışa yan otağa keçəndə… Müseyib mehribancasına qonağın — nazirinin əlini sıxırdı, Sulduz xanımın kefini soruşurdu. Və Ələmdar məhz bu anda onun gəlib çıxmağına sevinə-sevinə cavab verir, heç bilmirdi nə deyirdi. O qədər çaşqın idi ki, bu, Müseyibin gözündən yayınmadı.

— Sizə nə olub, Ələmdar Haşımoviç? Gözümə birtəhər dəyirsiz?

— Hə… — O, ağlına gələni dedi. — Bir az nasazam. Gərək yataydım, müalicə olunaydım, amma iş qoyur ki… Kişi hamımızı qovub rayonlara. «Pambıq» — deyib dad çəkir.

— Özünüzə fikir verin, Ələmdar Haşımoviç. İş qurtaran döyül. Pambıq da qaçmır. Bizə qalan canımız olacaq. Eybi yoxdu, indicə keçib gedər. Dincələrsiz… hər şey yaxşı olar… Soyunun, rahatlanın.

… Böyük otaqda, qırx çıraqlı çilçırağın altındakı stolun arxasında oturmuşdular. Səltənət, yaxşı, səliqəli bir süfrə açmışdı. Simuzərin gəlib süfrə başında oturmaması Ələmdarı yamanca pərt eləmişdi. Hələ bilmirdi ki, Səltənət bunun üçün içəridə qızına çox yalvarıb: «Yaxşı deyil, ayıbdı, qız! Dur kişiyə heç olmasa xoş gəldin elə, canım-ciyərim!» — deyib. «Yox! Pis hiss eləyirəm özümü. Başım gicəllənir!» «Qorxma, ölməzsən!» «Ölərəm, ana!» «Bıy, başıma xeyir. Yox, sən ölməyəssən, ancaq sənin dərdin məni öldürəcək, qız!»

Onun süfrə başına gəlməməsinə Müseyib də bərk təəccüblənmişdi. Arvadına gözaltı baxıb qızı işarə ilə soruşanda o, him-cimlə başa salmışdı ki, üstünü vurmasın, ancaq Ələmdar qardaşı da eşitsin deyə, ortalığa, əslində, qonaqdan üz üzr istəyirmiş kimi:

— Qız yatıb, silkələdim də, oyanmadı, — dedi. — Eybi yoxdu, səhər görüşər əmisiynən.

— Hə. Narahat eləmə qızı. Qoy yatsın, — dedi Ələmdar və ac olduğuna görə, əlini çörəyə uzatdı, fətirin üstünə ikra, yağ çəkib dürməklədi, yeməyə başladı. Müseyib Ələmdarın şakərini bilirdi: konyak qoymuşdu ortalığa. «Napaleon» konyakı. Uzun boylu, qara bığlı, üzü tük basmış bir oğlan əlində tutduğu şişlərdə balıq kababı

gətirəndə Ələmdar birinci dəfə gördüyü Bəhramı təpədən-dırnağa süzdü. Oğlan salamsız-kalamsız, qonağa «xoş gəldin» də eləmədən şişlərin tikələrini dərin boşqaba fətirlə sivirib tökdü. Ələmdar Simuzərin əlindən qəzəbliydi deyə, acığını töküb ürəyini boşaltmağa adam axtarırmış kimi, oğlanın ədəbsizliyini üzünə vurmaq üçün:

— Salammələyküm. Xoş gəlmisən! — dedi və oğlanın dinmədiyini görüb: — Ə, a bala, salamın-kalamın hanı? Görürəm, kababı əla bişirmisən, xına təkin qızartmısan, amma… — dedi.

Oğlan yenə Ələmdarın üzünə baxmırdı — elə bil qonağın səsini, sözünü eşitmirdi. Müseyib də çaşıb qalmışdı ki, Ələmdar kimnəndi. Birdən hər şeyi başa düşüb:

— Ələmdar Haşımıç, siz onunnasız? — soruşdu.

— Hə.

— Əşi, ona fikir verməyin. O laldı, Ələmdar Haşımıç.

— A?.. — Ələmdar yumşaldı, yazığı gəlirmiş kimi, başını buladı. — Belə de. Deyirəm axı… Rayon yerində…

— Bizim xala nəvəsidi, Ələmdar Haşımıç. Uşaq vaxtı qorxudan dili tutulub. Gətirmişəm, həyət-bacada dümələnir, arvad-uşağın köməyinə çatır, belə-belə işlərdə — o, çəngəliylə isti kababdan qonağının boşqabına üç iri, seçmə tikə qoydu — kara gəlir. Yazıq, görürsən də, şəkil kimi oğlandı, di gəl ki…

Bəhram şişləri götürüb getmişdi, ancaq Ələmdarın onun dalınca baxan gözləri hələ də yol çəkirdi. Və beynində bəd fikirlər — ilan-qurbağa qaynaşırdı elə bil. «Hm. Aydındı. İndi bildim Sim niyə belə eləyir! Qəşəng oğlan, dərə xəlvət — tülkü bəy. Səltənət Bakıya — uşaqların yanına gedəndə… Dili yox, ağzı yox, kimə deyəcək. Ay sənin, Sim! Demək belə! Mus-mus deyincə, Mustafa de da!»

Yeyirdi, ancaq oğlan fikrindən çıxmırdı. Qəribə bir hiss baş qaldırmışdı ürəyində; bu nə idi, qısqanclıq idi? Onun Simini o ağzıdili yox gədə əlindən alır? «Dayan, mən sizə göstərərəm!» Və bu da qəribə idi ki, birdən ağlına nə gəldisə, sevindi. «Yaxşıdı, qoy belə olsun. Yoxsa bu qız əvvəl-axır məni zibilə sala bilər. Qoy getsin. Bədəbəddə elə onun boynuna da yıxmaq olar. Kimə nə sübut eləyə biləcək oğlan?»

— Süz, ay Müseyib. Bu «Napaleon»u yaraşıq üçün qoymusan göz qabağına?

— Bu dəqiqə, Ələmdar Haşımıç! Dedim, bir az yeyin, sonra.

Süzdü. Ələmdar götürdü qədəhi. Müseyib onu qabaqladı:

— Xoş gəlmisiz, Ələmdar Haşımıç. Həmişə siz gələsiz. Siz gələndə mənim evimdə toy-bayram olur, vallah.

— Sağ olun. Mən heç bir dostumun evində özümü burdakı kimi rahat hiss eləyə bilmirəm. Elə bilirəm öz evimizdi.

— Həqiqətən, öz evinizdi, Ələmdar Haşımıç!

İçdilər. Səltənət onlara qulluq eləyirdi. Tez-tez Sulduz xanımı xatırlayır, ondan danışırdı.

Bəhram təzə şişlər gətirirdi, çəkilib gedirdi. Ələmdar gözlərini ondan üzə bilmirdi gələndə. Sanki sifətindən nə isə gizli bir sirr oxumaq istəyirdi, ancaq bacarmırdı. «Gözlərinə baxsaydım, bilərdim. Qoduq isə mənə baxmır. Yəqin, qorxusundan baxmır».

— Bu oğlan elə həmişə burda qalır?

— Hə. — dedi Səltənət xanım.

— Aşağıda bir otağımız var. Vermişəm ona. Yaşayır. — Müseyib izah elədi. — Başıaşağı, işdi-gücdü uşaqdı.

— Hm. — O qədəhi götürdü. — Sizin sağlığınıza içirəm.

Müseyib əzildi:

— Böyük şərəfdi, Ələmdar Haşımıç! Sağ olun, mən də, ailəm də, uşaqlarım da sizə, sizin ömrünüzə duaçıyıq həmişə.

— Necə deyir, elə heylədi, Ələmdar qardaş.

— Gün o gün olsun, Simuzər xanımın toyuna gələk.

— Allah ağzından eşitsin, Ələmdar qardaş.

— Köpək qızı heç tərpənti eləmir.

— Vaxtı keçir, Müseyib. Mən — o, qədəhi bir qurtuma başına çəkib yerə qoydu və heç nə yeməmiş davam elədi — mən sizin yerinizdə olsam, verərəm bax bu qəşəng oğlana Simuzəri. Sağlamdı, bacarıqlıdı. Tem bole, deyirsiz də qohumdu. İndiki zamanada ya arvadın, ya kişinin — ikisindən birinin lal-kar olmağı yaxşıdı əslində. O evdə dedi-qodu, qalmaqal olmaz. Yoxsa, allah göstərməsin, ər deyir, arvad deyir, bunun sözü onun boğazından keçmir, onun sözü bunun. Dalıycan da gəlir nə? Razvod! Bəli.

Ər-arvad bir-birinin üzünə baxıb susdu. İlk anlarda heç nə başa düşmədilər. Ancaq az sonra Səltənət xanımın dili açıldı:

— Elə mənim də ürəyimdən keçir, ay Ələmdar qardaş. Ancaq qorxumdan nə buna, — ərini göstərdi — nə də qıza bir söz deyə bilirəm.

— Yox, Simuzər ömründə qol qoymaz belə izdivaca. Qətiyyən

qol qoymaz. — Müseyib dilxor-dilxor qədəhindəkini içdi. — İnanmıram. Bir də… mənə yaraşmaz, Ələmdar Haşımıç, qızı ona verəm.

— O vaxt səhv elədi. Dedim, a bala, saxlatdırım səni şəhərdə. Lyuboy xəstəxanaya, lap elə «Leçkomissiya»ya düzəltdirərdim. Baxma, şəhər böyükdü, birini sevib-seçəcəkdi, gedəcəkdi. Qulaq asmadı sözümə. Amma yenə gec deyil. Getsə, günü səhər, elə özümnən apararam. İşləyər…

— Çətin gedər, Ələmdar qardaş.

Gecə yarıdan keçmişdi. Səltənət əsnəyəndə qonaq:

— Sən get yat, Səltənət xanım, — dedi. — Biz hələ çox söhbət eləyəcəyik.

— Yox, yox.

— Hə, dur get, yat, arvad. Bunları səhər yığışdırarsan, — Müseyib söylədi və Səltənət onların söhbətinə mane olmamaq xatirinə «gecəniz xeyrə qalsın» deyib məclisi tərk elədi.

Müseyib qədəhləri yenə doldurdu. Ələmdar yalnız indi işdəngücdən danışmağa zərurət duyub boğazını arıtladı.

— Yaxşı, məni başa sal görüm təzə katibiniz necədi ey. Mən demişdim axı o da olsun burda. Bə niyə gəlməyib? Sığışdırmır özünə mənimlə oturmağı?

— Yox, Ələmdar Haşımıç. Mən gələndə ona dəydim. Ürəyi çox istəyirdi gəlsin. Amma mümkün eliyə bilmədi. Elə qapıdan çıxmağa hazırlaşırdıq ki, Bakıdan, Mərkəzi Komitədən qonaq gəldi.

— Kim idi?

— Vallah, tanıyammadım. İnstruktordan-zaddan olar da. Dedi ki, sizə salam deyim və əvəzindən üzr istəyim.

— Yenəqabiliyyəti varmış heç olmasa.

— Yox, Ələmdar Haşımıç, qabiliyyətinə söz yoxdu Süleymanın. Amma… — Müseyib duruxdu.

— Nə amma? Yoxsa sənə sataşıb eləyir, hə?

— Yox, Ələmdar Haşımıç. Haqq üçün, mənnən işi yoxdu.

— Bə əmması nədi?

— Əmması budu ki, təcrübəsizdi, Ələmdar Haşımıç. Öz aramızda qalsın, katib kimi hələ yetişməyib.

— Xamdı deyirsən?

— Hə, çox. Təsərrüfatı yaxşı bilmir. Sonra… ən böyük nöqsanı odu ki, mənə görə, kitab adamıdı. Elə bil zalım oğlu, kitabların için-

dən çıxıb gəlib. Həyat ayrı şeydi axı, Ələmdar Haşımıç! Siz məndən gözəl bilirsiz bunu!

— Hm… Başlayıb yığmağa?

Müseyib güldü:

— Süleyman bura lap təzə gələndə… bir gülməli əhvalat oldu, Ələmdar Haşımıç.

— Hə?

— Bizdə bir Cəlal deyilən pullu, məzəli bir kişi var. Girir Süleymanın kabinetinə, özünü təqdim eləyir, deyir, mən filankəsəm. Həmişə yaxşı vəzifələrdə işləmişəm. Keçmiş katibin qəzəbinə düçar olmuşam. İndi sizin yanınıza gəlmişəm — kökəltmə məntəqəsinin müdiri yeri boşdu, məni ora göndərin. Və əlini cibinə atıb konvertin arasındakı pulu onun qabağına qoyur. «Bu da sizin haqqınız!». Süleyman bunu görən kimi Cəlalın üstünə qışqırır: «Sən məni dilənçi hesab eliyirsən? Rədd ol burdan!» Cəlal lal-dinməz pulunu da götürüb gedir. Üç gündən sonra qayıdıb gəlir. Konvert iki qat şişmişdi. Sən demə, Cəlal ələbaşa düşübmüş ki, Süleyman, az olduğuna görə belə deyibmiş. Bir o qədər də artırıbmış. Qoyur qabağına. Süleyman deyir: «Bu nədi?» Cəlal cavab verir:

«Özünüz demədiz azdı, yoldaş Həmidov?»

Ələmdar şaqqanaq çəkib güldü:

— Nə olur, götürür?

— Ta orasını bilmirəm.

— Səhv eliyib — gərək yenə qaytaraydı — gələn dəfə bir o qədər də qoyacaqdı üstünə sənin o Cəlalın. Ay səni, Süleyman Mən onu instruktor işləyəndən tanıyıram. İndi nə təhərdi? Ələ ala bilibsiz? Sənə deyim, onu ələ almasanız, sizin işiniz çətin olar gələcəkdə.

— Mən də yoldaşlara elə onu deyirəm. Süleymanı özümüzə qoşmasaq yaşamağa qoymaz bizi.

— Heç təşəbbüs eləməyibsiz?

Müseyib o yan-bu yana baxaraq, yavaşcadan:

— Öz aramızda qalsın, Ələmdar Haşımıç, rayponun sədri siftəsini verib. Otuz qoyub ovcuna. Bir az çəm-xəm eliyib. O Mustafa da dilli-dilavərdi yamanca. Deyib, əşi, indi siz köhnə bazara təzə nırx qoyacaqsız? Bu yazılmamış qanundu. O birilərə — gəlmə katiblərə hörmət eləmişik həmişə. İndi siz özümüzküsüz. Gərək sizi əl üstə saxlayaq biz — bu, bizim vətəndaşlıq borcumuzdu, eloğulluq borcu-

muzdu. Belə!

Ələmdar qımışdı:

— Ne ploxo!

— İndinövbə düzəltmişik. Birinci prokurordu, ikinci məhkəmənin sədridi, sonra da mənəm. Yavaş-yavaş da, Ələmdar Haşımıç!

— Çətini dadını bilənəcəndi, Müseyib! Zəhrimar yaman şirin olur — bir dəfə dadan əl çəkə bilmir. Elə gözü gələnin əlinə baxır. Bir də… verməsən… yaşaya bilməzsən, Müseyib. O almasa, verə də bilməz. Verməsə, burda qala da bilməz.

— Heylədi, Ələmdar Haşımıç. Ancaq bir pis iş eləyib süleyman!

— Nədi o?

— Özünün bir müəllimi var burda. Orta məktəbdə ona dərs deyib. Köhnənin müəllimidi. Demaqoqun, ətiacının biridi. Pensiyaya çıxartmışdılar. Bu yaxınlarda onu gətirib Nəzarət komitəsinin sədri qoyub. Ta bu camaata göz verir, işıq vermir. Bir də görürsən bir kilo yağın üstə, bir maşın daşın, taxtanın üstə… adamları çəkdi məhşər ayağına. Keçmişdə «sışik»lər olardı ha, bax, bu Nəzər müəllim onlardan da betərdi. Başını hər yerə soxur. Ta onun yanında milis-filan yalan olub!.. Biri bir qəpik qazananda zalım oğlunun başı ağrıyır.

— Hm… Pisdi! Baş ağrısıdı bu!

… Saat ikiyəcən danışdılar. Müseyib kəllayı otaqda — qonaq-qara otağında Ələmdar Haşımoviçin yerini göstərdi və:

— Səhər tezdən gedirsiz, inşallah? — deyə yavaşca qulağına pıçıldadı:

— Hə. Yüngülvari bir «zavtrak»dan sonra gedəcəyəm.

— Ağ balığı hazırlamışam. İçindədi əmanət. Yüz dənə Niqolay başıdı…

— Hə?

— Hə.

— Payın çox olsun, Müseyib. Onun yarısı Bakıdakınındı, yarısı da Moskvadakınındı.

— Bilirəm, Ələmdar Haşımıç. Demisiz mənə.

— Neyniyək daha. Qoymurlar əlimizdə yaman günlük bir şey qalsın. Elə deyirlər «davay», — Müseyib ah çəkdi, ürəyində: «Siz bizdə qoymursuz, onlar da sizdə. Zəncirdi də. Bağlanıb bir-birinə!» — dedi.

— Gecəniz xeyrə qalsın, Ələmdar Haşımıç! — söyləyib ota-

qdan çıxdı.

Ələmdar yumşaq, qar kimi ağ, pərqu yorğan-döşəkdə səhərəcən çimir eləyə bilmədi o gecə. Qızıl onluqlar və Simuzər elə hey beynində fır-fır fırlanırdı.

Lap sübh tezdən eyvanda ayaq səsləri eşidib tezcənə qalxaraq geyindi. Həyətə açılan pəncərənin pərdəsinin arasından gördü ki, Simuzərdi, ayağında çəkələk, əynində ev paltarı, başıaçıq halda hovuzun yanına doğru addımlayır. Ustufca, demək olar ki, barmaqlarının ucunda aşağı düşdü. Hava təzəcə işıqlanırdı. Tardakı xoruz üçüncü dəfəydi ki, banlayırdı. Ələmdar ilk növbədə qaraja sarı boylandı. Lal oğlan görünmürdü. Simuzər əlini hovuzun içinə uzadıb, sifətinə su çırpdı, ovcunun içiylə qaşlarına sığal çəkdi, geri dönəndə Ələmdarı birinci mərtəbədəki pilləkənin sütununa söykənərək siqaret çəkən gördükdə, özünü itirən kimi oldu, dala qayıtmaq istədi, ancaq nə fikirləşdisə, düz üstünə yeridi. Gözləri qızarmışdı Simuzərin. Səhərəcən xısın-xısın ağladığı, kirpik belə çalmadığı gün kimi aydın idi. Qəribə idi ki, Ələmdar nə qədər düşündüsə, ona deməyə bir söz tapa bilmədi, elə mat-mat baxdı. Qız isə düz üstünə addımlayırdı. Birdən Ələmdara elə gəldi ki, bax, indicə, yetişən kimi, Simuzər onu ya şillələyəcək, ya da üzünə tüpürəcək. Qeyri-iradi əllərini yanaqlarına yapışdırdı. Lakin Simuzər ona çatanda heç nə eləmədi, böyründə ayaq saxlayıb bir neçə an o qızarmış, seli-suyu ilə ağ balışı islatdığı o qəmli gözlərilə Ələmdarı uzun-uzadı süzdü və taqətsiz, quyunun dibindən çıxan öləzimiş fəryada oxşar bir səslə:

— Məndən daha doymusan, hə? İndi məni lala verirsən, hə? Namərd! — söylədi və pilləkənlərə sarı addımladı. İkinci pilləkəndə dayanıb geri qanrıldı: — Axşam sənin dediklərini özüm eşitdim!

Ələmdarın əlləri yanaqlarından qopub yanına düşdü.

ONUNCU FƏSİL

Cura müəllim göy rəngli taxta qapısının üzərinə «Rayon Xalq Nəzarət komitəsinin sədri» yazılan lövhə vurulmuş otağın qabağındakı dörd adamlıq sarı oturacaqda əyləşib köhnə şlyapasını dizinin üstünə qoymuşdu. Dəhliz alaqaranlıq idi. Yarım saatdan çox idi ki, gözləyirdi, ancaq Nəzər gəlib çıxmaq bilmirdi.

O, kənddən bura gələnəcən və bayaqdan da elə burda baş sın-

dırırdı ki, Nəzər onu niyə çağırtdırmış olar? «Yəqin bazar əhvalatıdı. Xoşuna gəlməmişdi alver eləməyim. Guya mənim xoşuma gəlir. Bəlkə yazıblar? İndi gizli-aşkar, imzalı-imzasız yuxarı yazanların sayı çoxalıb! Yalan-doğru, kimin kimdən acığı gəlir, salamını vaxtında almır, ya bir gəlmə düz söz deyirsən, o saat tənbəllik eləmədən başını açıb yazır. Yoxlama da yoxlama dalınca gəlir, vaxtın gedir, əsəblərin korlanır, haqq olduğunu sübut eləyənəcən o qədər haqsızlıqlar görürsən, o qədər nahaq sözlər eşidirsən, dəli olmaq dərəcəsinə gəlirsən. O da — yazan da kənardan baxıb əllərini bir-birinə sürtərək «Hə, adamın anasını belə ağladarlar» — deyib için-için sənə gülür». Amma o, — Cura, adi kənd müəllimidi, ondan nə yaza bilərlər. Gedib dərsini deyir, uşaqları lazım olanda pambığa, üzümə aparır, bir kimsəynən işi yox, gücü yox. Nə yaza bilərlər ondan?

Bu düşüncələr içində bayaqdan çırpınırdı, Cura müəllim.

Uzun, işıq yanmadığından alaqaranlıq olan dəhlizdə taxta döşəmənin cırıltısını eşidib geri qanrılanda Nəzər müəllimin gəldiyini görüb tələsik ayağa durdu. Nəzər yaxınlaşanacan, gözü gözü qaranlığa hələ alışmadığından Curanı o dəqiqə tanıya bilmədi, elə qarasına salam verdi:

— Salam.

— Əleyküməssalam, — dedi Cura və Nəzər onu səsindən tanıdı.

— Hə, sənsən? Xoş gördük, ay Cura. Nə təhər varsan, ay müəllim?

— Xoş gördük, Nəzər müəllim. Yaxşıyam, siz necəsiz?

— Belə də. Şair demişkən: «Necə görmüşdüsə Nuh, öyləcəyəm!» — deyərək cibini qurdaladı, kabinetin qapısını açıb içəri girəgirə:

— Gəl, — dedi, — çoxdan gözləyirsən?

— Bir az var.

Nəzər qıraqları tərdən qaralıb rəngini dəyişmiş şlyapasını çıxarıb küncdəki üçayaq, ağ nikel asılqanın bir qanadına keçirərək stolunun arxasında əyləşdi.

— Otur görək, nə var, nə yox? Uşaqlar nə təhərdi?

— Duaçıdılar, Nəzər müəllim.

— Kənddə, məktəbdə nə var təzə?

Cura da onun sözlərilə gülə-gülə dedi:

— Eh, nə olacaq? «Necə görmüşdüsə Nuh, öyləcədi».

Nəzər qımışdı, stolunun üstdəki kağız-kuğuzu, qəzetləri kənara itələdi, siqaret yandırıb tüstülətdi və divar dibində əyləşmiş Curaya diqqətlə baxdı, üst-başını nəzərdən keçirdi. Curanın qəhvəyi rəngli ayaqqabısı eynən Süleymana aldığından idi, köhnəydi, burnunu kolkos cızıb bozartmışdı. Qara pencəyinin boynu yağlanmışdı. «Kişi qətiyyən özünə fikir verə bilmir. Ger-geyimindən heç deməzsən ki, bu, müəllimdi» — düşündü Nəzər. Və istədi Curanı məzəmmət eləsin: «Bu nə üst-başdı, ə? — desin. — Sən axı müəllimsən, sən gərək yüz adamın içində öz səliqənlə, təmizliyinlə seçiləsən. Bu nə saç-saqqaldı, yəni bu da bir çətin şeydi?» Ancaq onun güzəranını, ailəsinin böyüklüyünü yadına salıb bu fikrindən daşındı. «Xətər dəyər!» — söylədi ürəyində.

Cura Nəzərin xasiyyətini yaxşı bildiyindən və bu davamlı baxışların nə demək olduğunu anladığından sıxılırdı, ayaqqabılarının bozarmış burnunu stulun altına çəkib gizləməyə çalışırdı. Və bu anlar çox gərgin anlar idi, Cura istəyirdi ki, ürəyini üzən nigarançılıq barədə tez söz açmasın və bu geyim-keçim məsələsi yaddan çıxsın. Odur ki, irəli əyilib dirsəyini dizinə söykəyərək:

— Xeyir ola, Nəzər müəllim, məni çağırtdırmaqda? — soruşdu.

Nəzər siqaretinə qullab vurub:

— Xeyirdi, Cura, — dedi. — Səni iki iş üçün çağırmışam bura.

— Eşidirəm. — Cura onun «xeyirdi» sözündən bir az sakitləşdi.

— Bilirsən də, bizim bu Nəzarət komitəmiz çox maraqlı, səlahiyyətli bir təşkilatdı. Hələ camaatımızın bir qismi bu təşkilatın nə demək olduğunu o qədər də yaxşı başa düşmür. Nəzarət — göz deməkdi, Cura, baxmaq, görmək deməkdi, hər şeyi görməlidi bu təşkilat; onun gözündən, nəzərindən bir tük də yayınmamalıdır.

— Elədi, Nəzər müəllim. Qabaqlar deyəsən belə təşkilat yox idi, olsa da adı vardı ancaq.

— Bəli. Həm də böyük səlahiyyət veriblər buna. Hayıf, indiyəcən bu gözəl təşkilata biz formal, əhəmiyyətsiz bir şey kimi baxmışıq. Halbuki, dövlət, partiya indi buna çox yüksək qiymət verir və çox da böyük vəzifələr qoyur qarşısında. Sən müəllim babasan, bunların hamısını məndən də yaxşı bilirsən, Cura. Biz hər idarədə, hər təşkilatda, hər kolxozda nəzarət qrupları yaratmışıq. Sizin kənddə də var belə bir qrup. Amma onun başçısı — kolxoz partiya təşkilatının büro üzvü, briqadir Rauf yarıtmaz işləyir, tənbəlin, laqeydin, biganənin biridi. Həm də cürətsiz adamdı, Cura. Xoşum gəlmir ondan. Ona görə

yox ki, şəxsən xoşum gəlmir deyə belə deyirəm. Yox! Mənim yaltaq, ikiüzlü adamlardan zəndeyi-zəhləm gedir. Dəfələrlə görmüşəm ki, o sizin sədrə necə yaltaqlanır. Kişi də yaltaq olar? Ə, sən cibində part-bilet gəzdirirsən və vəzifəcə özündən böyüyə yaltaqlıq eləyirsən? Bu, olmadı. Bu iki şey — yəni kommunistlik və yaltaqlıq bir-birinə daban-dabana ziddi. Mən inanırdım ki, o, kolxoz sədrinin hər işinə, hər hərəkətinə göz yuman bir adam olar. Ardıcıl məlumatlar, gələn siqnallar bunu təsdiq elədi, Cura. O sədr bic adamdı və Nəzarət komitəsinin vəzifələrini, məqsədlərini səndən, məndən heç də pis bilmir. Onun təklifi ilə Raufu bizim keçmiş sədr ora qoyub. «Ev bizim, sirr bizim» olsun deyə. Ona görə, mən bura gələndən sonra sizin kəndin nəzarət qrupunun kağız-kuğuzları ilə tanış olub gördüm ki, bu illər ərzində o, bir dəfə ağıllı-başlı tədbir, yoxlama-filan keçirməyib. Hə, bircə dəfə də. Yəni sizin kolxozda, kənddə heç bir əyinti filan olmuyub, yoxdu? Var axı, Cura. Bunu sən də bilirsən, sizin kəndin adamları da bilir. Hə, indi, ay Cura, o Raufun yerinə istəyirəm səni qoyam. Sən ziyalısan, kənddə hörmətin-izzətin var. Bilirsən, sizin kənd rayonun ən ucqar kəndidi, hər dəqiqə gedib-gəlmək olmur. Mən istəyirəm o kənddə mənim tanıdığım, etibarlı bir adam olsun nəzarətin başında. Eşitdiyimə görə, orada, o gözəl camaatın içində tikə-para qurdlar da var — üzünü o yana çevirməyinin məəttəlidirlər ki, cibini kəsib aparsınlar. Onların əl-qolunu bağlamaq, divara dirəyib işlətmək, tərbiyə eləmək lazımdı, Cura. Bu işi sənə həvalə eləmək istəyirik! — Cura bir az fikrə getdi. Nəyisə götür-qoy eləyirdi sanki.

— Hə, nə oldu? Səsin çıxmadı? — Nəzər müştüyünü götürüb üfürdü.

Cura seyrək qaşlarını qaldırıb astadan söylədi:

— Nə deyə bilərəm, Nəzər müəllim, madam ki, belə məsləhət bilirsiz, işlərəm.

— Bilirsən, Cura, mən səni çoxdan tanıyıram. Vaxtilə bir məktəbdə də işləmişik, xasiyyətinə, ürəyinə, təmizliyinə bələdəm. Ona görə ağlıma elə birinci sən gəldin. Bu, bizim hamımızın işidi, qardaş.

— Çox sağ ol, Nəzər müəllim. Təşəkkürlər.

— Bu bir, Cura. İkinci və bundan da az mühüm olmayan bir məsələ də var ki, gərək onu da sənlə həll eləyək. Bu, şəxsi məsələdi. Mən sadəcə, köhnə yoldaşın, bir ağsaqqal kimi, istəyirəm bir şey də deyim sənə.

Cura şübhə və nigarançılıq içində Nəzərin üzünə diqqət yetir-

di, ürəyində yenə uşaqları ilə bağlı nə isə eşidəcəyini hiss edib:

— Eşidirəm, ay Nəzər, — söylədi. — Yoxsa… uşaqların başında bir iş var?..

Nəzər Curanın hədsiz təşviş keçirdiyini duyub:

— Yox əşi, — dedi, — uşaqların başında nə ola bilər? Yox, heç nə yoxdu. Məsələ belədi ki, mən o gün katibin yanına gedəndə sənin qızını onun kabinetinin qabağında gördüm.

— Hə… — Cura alındı, gözlərində qəribə bir sıxıntı, kölgə gəzib-dolaşdı və hələ dəqiq heç bir şey söyləməmiş Nəzərin təxminən nə deyə biləcəyini ağlına gətirib uçuna-uçuna gözlədi. Nəzər isə elə bil ölçüb-biçirdi, sözü necə deyəcəyini götür-qoy eləyirdi. Dözməyib Cura özü sözə başladı:

— Düzü, ay Nəzər, mən heç razı deyildim o uşağın orda işə girməyinə. Ümumiyyətlə, mən istəyirdim ki, o da gedib oxusun. Orta məktəbi yaxşı qurtarıb. Öz qızım olduğuna görə demirəm, ondan yaxşı müəllim olardı. Coğrafiyanı, tarixi su kimi içir. Amma özü getmədi, dedi, ay dədə, məktəb qaçmır, qoy bacım gəlsin, sənin də işin bir az yüngülləşsin. Sonra gedərəm. Anası da razı deyildi, düzü, getməyinə. Fermaya düzəltmək istəyirdim. Ancaq bu iş ondan qabağa düşdü. Qız burda, xalasıgildə olanda, üçüncü katib Hilal bacanağıgilə gəlmişmiş, görüb orda, soruşub. Bacanaq da deyib belə. Deyib mən düzəldərəm. Beləcə o işə düzəldi. Mənə dedilər, dedim yox. Amma Hilal bərk yapışdı. Nə isə, gördüm qız özü də razıdı. Naəlac qalıb mən də razılıq verdim…

— Hm… — Nəzər müəllim mızıldandı və daha aydın məsələlərə toxunmadan, birbaşa mətləb üstünə gəldi:

— Nahaq razılıq vermisən, Cura. Qız hələ uşaqdı, çox şeyləri başa düşmür. Mən, şəxsən, razı deyiləm o Sünbül orda işləsin. Niyəsini bilirəm deməsəm də sənə məlumdu. Mən Süleymanla danışmışam, onun da razılığını almışam. Qız orda doxsan ya yüz manat alır. Mən onu istəyirəm öz yanıma gətirim, ayda da yüz qırx manat maaşıdı, iş də ordakından azdı, bilirsən?..

Curanın gözləri parıldadı, sevindi kişi; elə bil üstündən bir dağ götürüldü:

— Nə yaxşı, ay Nəzər. Allah köməyin olsun, elə neçə gündü ürəyimdə dolanırdı, gecə-gündüz rahatlığım yoxiydi, inan. Bilirəm, indi qız uşağının işi çox çətindi, qız atası olmaq müsibətdi, Nəzər. Xoşbəxtlikdən sənin qızın ikidi, ikisini də maşallah, yerbəyer eləmi-

sən, köçürüb ev-eşik sahibi eləmisən. Mənim isə üstümdə nə az-nə çox, düz səkkiz qız yükü var. Qız yükü də, bilirsən, duz yükündən də ağırdı.

— Doğrudu, qardaş. Amma elə bilirsən, köçürüb qurtarandan sonra yükün, məsuliyyətin azalır? Yox. Bu yük ölənəcən bizim ürəyimizdədi, Cura. Valideynin ən böyük xoşbəxtliyi ondadı ki, övladları ağıllı olsun, ağıllı oldumu, qız ya oğlan, fərqi yoxdu — yenə adam bir az rahat hiss eləyir özünü. İndi həyat, sənin, mənim cavanlıq çağlarımızdakı vaxtdan çox mürəkkəbdi, çox qəlizdi, kişi. İndi adamların mənəviyyatı ayrı cürdü, yeni qayda-qanunlar yaranır, yeni axınlar var həyatda, başqa şəkildə düşünənlər var aramızda. Dünyanın, ömrün özünə belə ayrı gözlə baxanlar əmələ gəlib, Cura. Oğul-uşaq indi sənin, mənim kimi düşünmür, düşünmək istəmir. Çaşıb qalırsan bəzən: bilmirsən sən düz deyirsən, ya uşağın düz deyir?

— Heylədi, Nəzər. Bu məsələlər məni də düşündürür, çox düşündürür. İkinci qızın dərdi məni lap götürüb. Dördüncü kursdadı, deyir, mən kəndə qayıtmayacam, dədə. Deyirəm, niyə, gəl kəndimizə, qonşu Sonanın da oğlu səni gözləyir, evlənmir. Nə desə yaxşıdı? Deyir, çox nahaq gözləyir, mən şoferə-zada ərə gedən döyüləm, ni za çto. Anqırıb öz tayını tapsın. Voobşe, deyir, məni gözləməyin. Mən şəhərdə qalacam, vəssalam. Deyirəm, a bala, şəhərdə nə var, axı, evin yox, eşiyin yox, iş tapmaq mümkün deyil. Deyir, tapacam, saa nə. Qalmışam belə. Yadıma düşəndə tüklərim biz-biz olur, inan, Nəzər. Qız uşağı qalıb neyləyəcək, kimin əlinə düşəcək. Müsibətdi, vallah, müsibət.

Nəzər durdu:

— Darıxma, görək taleyi nə deyəcək, — dedi. — Sən nə fikirləşirsən, fikirləş, hökmü zaman özü verir, səndən, məndən soruşmür. — Curaya sarı dönüb: — Demək, sən razısan ki, Sünbül gəlib burda, əmisinin yanında işləsin, hə? — soruşdu.

— Əlbəttə, bu nə sözdü, Nəzər müəllim… Lap ürəyimdən xəbər verirsən. Maaşı da yaxşıdı — heç olmasa özünə çatar. Xalasıgildə qalsa da, baxma, yenə pul lazımdı.

— Özü etiraz eləməz ki? — Cura bir az duruxdu — Qoy bir çağıraq, gəlsin, görək nə deyir? — deyə o da ayağa qalxdı.

Nəzər dəstəyi götürüb raykomun qəbul otağına zəng çaldı və Sünbülə dedi ki, atan da burdadı, katib də yoxdu orda, beş-on dəqiqəyə dur bura gəl. Qız atasının adını eşidib «yaxşı» — dedi. Nəzər

elə ayaq üstə izahat verdi:

— O gün katiblə danışıb bu məsələni həll eləyəndən sonra, kabinetdən elə fikirli çıxmışam ki, qıza deməyi tamam unutmuşam. Bir də onda ayıldım ki, öz kabinetimdəyəm. Fikirləşdim ki, əvvəlcə sənlə danışım, sonra, uşaq nə deyəcək ki.

— Əlbəttə.

Qapı açıldı. Sünbül içəri girdi. Curanı görən kimi, irəli atılıb atasının boynuna sarıldı , o üzündən-bu üzündən öpdü:

— Necəsən, ay dədə, — dedi. — Anam necədi, uşaqlar necədi? — Sonra lap balaca uşaq kimi, ərköyünlüklə ayağının birini yerə yavaşca vurub — lap darıxmışam sizin üçün, ay dədə, — söylədi.

— Elə biz də darıxmışıq, qızım. — O, sol əlilə onun saçlarını sığalladı. — Nə təhərsən, aaz? Xalan-zad nə təhərdi?

— Yaxşıdılar, ay də.

— Bəs Nəzər əmiyə salam vermədin, ay şeytan?

— A. Bağışlayın, Nəzər əmi, dədəmi gördüm, özümü itirdim. Salam, Nəzər əmi, necəsiz?

— Yaxşıyam, qızım. Sən yaxşı ol.

Sonra Cura əhvalatı açıb Sünbülə danışdı. Sünbül dinləyib dodaqlarını büzdü:

— Yox, ay dədə. Ora yaxşıdı. Siz nə danışırsız? Bir var raykomda işləmək, bir də var…

Nəzər narazı halda onun sözünü kəsib fikrini tamamladı:

— Bir də var Nəzarət komitəsində, hə?

— Hə də. — Sünbül atasına sığındı. — Elə bil bu dəqiqə Nəzər onu atasının əlindən alacaqdı. — Gör nə qədər fərqi var, ay dədə.

— Buranın həm işi azdı, qızım, həm də maaşı çoxdu, — deyə Cura pərt olmuş halda yalvarırmış kimi dilləndi. — Doxsan manat hara, yüz qırx manat hara?

— Eh, yenə pul. Elə həmişə pul. Gözümü açandan, ağlım kəsəndən elə həmişə pul söhbəti eşitmişəm, ay dədə. Puldan da başqa şeylər var axı?

— Nədi o puldan da başqa olan şeylər, ay qız?

— Çox şey, dədə. Bir var, məndən soruşanda ki, harda işləyirsən, deyəm raykomda, bir də var deyəm ki, nəzarətdə… hansı yaxşı səslənir, dədə?

Cura fısıldadı, susub ağır söz deməkdən özünü güclə saxladı və

hannan-hana yazıq-yazıq:

— Sən nə tez şöhrət azarına tutuldun, ay bala? — deyib dərindən köks ötürdü. — Allah axırını xeyir eləsin. Get, get… qız…

Sünbül «sağ olun» deməmiş çıxıb getdi. Qapının səsinə Nəzər geri döndü və:

— Sən uşaqlarla çox yumşaq rəftar eləyirsən, Cura. Belə olmaz, — dedi.

— Neyniyim, ay Nəzər. Mənim ürəyim də bir ürək deyil. Mən bu uşaqları o qədər, o qədər istəyirəm, birinə indiyəcən bir ağır söz deməyə dilim gəlməyib, birinə indiyəcən bir şillə belə vurmamışam, Nəzər.

— Nahaq. «Qızını döyməyən, dizini döyər» — deyiblər atalarımız.

Cura başını aşağı salıb əllərini yana açdı.

ON BİRİNCİ FƏSİL

Günortadan sonraydı. Nahar fasiləsi yenicə qurtarmışdı. Nəzər səhər evdən gətirdiyi pendir-çörəyini yeyib üstündən də soyutmazından bir stəkan çay içib yanğısını yatırmışdı. Siyirməsini çəkib yarımçıq qoyduğu qalın kitabı açaraq oxumaq istəyirdi — kitab çox maraqlıydı. Xərçəng xəstəliyinə tutulmuş və bunu da çox yaxşı bilən bir insanın iztirablarından, ağrılarından, düşüncələrindən danışılırdı o kitabda. Rəssam idi o insan. Elə rəssamidi ki, hələ bu cür təbiət vurğunu, insan vurğunu olan bir sənətkar tanımırdı Nəzər. Kitabın o yerində qalmışdı ki, rəssam, doğma torpağın ətrini kətana köçürmək istəyirdi — elə eləməliydi ki, o tabloya baxan, gül ətri yox, çiçək ətri yox, məhz torpaq ətri duysun — doğma torpağın ətrini. Bunu necə eləmək olardı? Heç cür ağlına sığışdıra bilmirdi Nəzər. Ancaq o boyda sənətkar nə isə düşünmüşdü, rəngləri necə qarışdıracağını tapmışdı və ölüm qabağı, qalan bütün günlərini, saatlarını o əsrarəngiz ətri yaratmağa həsr eləməyi qərara almışdı və belə fikirləşmişdi ki, bu, onun şah əsəri olacaq. Ağrılara dözürdü, iynələrin əzabına dözürdü, bəzən huşunu itirirdi, ancaq özünə gəlib azca yaxşılaşan kimi, kətanın qabağına keçirdi…

Kitabın bu yerindəydi və o, rəssamın iradəsinə heyrət eləyə-eləyə neçə gün idi ki, narahat-narahat gəzib-dolaşırdı, o ağrıları öz

canında hiss eləyə-eləyə yaşayırdı; insanın adicə qara torpağa yox, vətən adlanan torpağa bəslədiyi o sonsuz sevgiyə, məftunluğa möcüzə kimi baxırdı. Yazıçının təsvirinə görə, o əsər, bir kətana sığışa biləcək torpaq idi, üstündə gülü də vardı, ağacı da vardı, o ağacın budağına bir sarıköynək qonmuşdu və baxan tamaşaçının qulağına o cansız kətanın üstündən bir bülbül fəryadı gəlirdi — o səs o qədər yanıqlı və cazibəliydi ki, kar insan belə eşitməyə qadir idi — qulağıyla yox, ürəyi ilə, gözləri ilə eşidirdi insan o səsi, bütün vücuduyla eşidirdi. Bunlar adi şeylər idi, rəssamın fikrincə, o kətanın üstündəki əlçim torpaqda başqa bir möcüzə vardı, o möcüzə səni heyrətə gətirirdi və bu heyrət ondan ibarət idi ki, o torpaqdan, o qara, güllü, ağaclı, bülbüllü torpaqdan sənə kədər dolu, məzhun, gah gülənə, gah ağlayana oxşayan iki göz baxırdı. Torpağın içində iki göz. Adamın tükləri qabarırdı, adamın içəridə ürəyi əsirdi və düşünürdün ki, o iki göz bu həyatın, bu gözəlliyin, bu torpağın hərarətindən yoğrulub və insan torpaq olandan sonra da bu dünyanın şirinliyinin dalınca bax o gözlər kimi həsrətlə, intizarla, sevinə-sevinə, ağlaya-ağlaya baxır. Ona görə sevinə-sevinə ki, o, bir zaman bu torpaq üstə yaşayıb,gəzib, sevib, sevilib; ona görə ağlaya-ağlaya ki, indi daha yoxdu o, bu dünya var, o gözəllik var, o təbiət var — ancaq o yoxdu… Və sən o tabloya baxanda ürəyini ilıq bir hiss, doğma bir duyğu isindirir ki, sən ölməzsən, sən bu torpağın üstündə də dirisən, çürüyüb o torpağa qarışandan sonra da dirisən — sən ölməzsən, ey insan…

Nəzər bu aləmdən ayrıla bilmirdi, Cura da, Sünbül də onu yaşadığı hisslərin qucağından ayırmağa qadir deyildi. Nəzər o kitabı çoxdan oxuyub qurtarardı, ancaq, açığı qorxurdu. Qorxurdu ki, o böyük rəssam, birdən öz son əsərini yaratmamış ölər. Yox, o, ölməzdi, belə adamlar ölmür, sadəcə yerlərini dəyişir. Tapdı bu qorxunun mənbəyini — sən demə, o, romanın qurtaracağından qorxurmuş — sondan qorxurmuş. Son… Ömrün sonu, ayrılığın sonu, kitabın sonu. Bu imiş onu — Nəzəri o kitabdan qorxudan.

Telefon səsinə xəyaldan ayıldı. Ancaq əlini atıb dəstəyi götürüncə telefon susdu, kim idisə, fikrini dəyişdi, daha zəng çalmadı. Və bu an onun yadına düşdü ki, məktəb tikintisinə getməlidi. Kitabı qatlayıb yenə siyirməyə qoydu, qalxıb şlyapasını götürərək kabinetdən çıxdı. Köhnə «QAZ-69» idarənin həyətindəydi. Teyyub qabaq şüşənin tozunu silirdi. Deyəsən, kefi kök idi oğlanın, çünki fit çalırdı. Nəzərin gəldiyini görən kimi özünü yığışdırdı, əsgiylə əlini

silə-silə onun üzünə baxıb sol tərəfdən sükan arxasına keçdi. Nəzər yerini rahatlayan kimi:

— Çörəyini yeyibsən, a bala? — dedi və «hə» cavabını alan kimi çönüb soruşdu: — Əgər bildin indi hara getməliyik?

— Məktəb tikintisinə, Nəzər əmi.

— Ay sağ ol. Sür ora, görək bu Xurşudun ticarəti necə gedir?

Sürücü təəccüblə Nəzərin üzünə baxıb:

— Nə ticarət, Nəzər əmi? Orda məgər maqazin-zad var? — dedi.

— Hə, oğul, orda gözəgörünməz bir maqazin açıb Xuduş faşist oğlu faşist.

— Mənim xəbərim yoxdu, — dedi Teyyub. Əsgərlikdən təzə gəlmişdi. Hələ rayona isinişə bilmirdi. Çox şeyə o qərib kimi baxırdı, adamları, idarələri yaxşı tanımırdı.

— Sənin çox şeydən xəbərin yoxdu, bala.

Maşın asfalt yola çıxanda Nəzər dedi:

— O irəli görürəm, bizim oğlan iki meşox sement gətirib. Deyirəm hardandı? Məlum olur ki, Xuduş verib. Elə bil dədəsi Alxasın malıdı. — Teyyub «maqazin» məsələsini indi başa düşdü, gülümsünüb bir söz demədi. Heç on-on beş addım getməmişdilər ki, qabaqdan, çəpinə torpaq yoldan bir yük maşını asfaltı keçib evlərin arxası ilə uzanan yola düzəldi. Dal bort açıq idi və maşına yığılmış ağappaq, yonulmuş, taxtaların enib-qalxan ucları görünürdü. Teyyub heç əhəmiyyət vermədi, amma Nəzər gördü bunu və dalağı o saat sancdı. Oturacağın üstündə qurcuxub:

— Ə, sürəti artır, o maşının dalınca sür, — dedi.

Teyyub qabaqdan gələn göy «Jiquli»ni buraxıb sola buruldu, torpaq yola çıxıb sürəti çoxaltdı. Toz aləmi götürmüşdü. Teyyub maşının yanından keçəndə Nəzər kabinəyə boylanıb gözləri buz üstə çıxmış dana gözü kimi böyük, lopabığ sürücüyə işarə elədi:

— Ə, İbiş, saxla.

İbiş adlanan sürücü əhəmiyyət vermədi. Onda Nəzər Teyyuba dedi:

— Bir az qabağa keç, o dar yerdə, köndələninə saxla maşını, yolu kəs.

Teyyub həmin ensiz yolda, iki binanın arasında maşınını çəpinə saxladı. Nəzər cəld qapını açıb aşağı düşdü və əlini qaldırdı. İbişin

saxlamaqdan özgə çarəsi yox idi. Əylədi. Toz axını maşının yelinə gəlib üstlərindən keçib gedəndən sonra, Nəzər irəli yeridi. İbiş kabinetdə donub qalmışdı, elə bil əlləri sükana yapışmışdı. Amma yanında oturan lopabığ kişi tez-tez İbişə nə isə deyə-deyə kabinənin qapısını açıb yerə atlandı və ağır addımlarla Nəzərə sarı gəldi. Nəzər ha baxdısa, kişini tanıya bilmədi. Ancaq kişi deyəsən onu tanımışdı:

— Salammələyküm, Nəzər müəllim — dedi.

— Əleykəssalam.

— Deyəsən, məni tanımadız, Nəzər müəllim.

— Yox, tanıya bilmədim. Nə olar, indi sən özünü tanıtdırarsan, mən də tanıyaram, — deyib ucaboy adama diqqətlə tamaşa elədi.

— Əşi, mənəm də, Xəliləm. Bu rayonda yaşayıram. Mən sizi yaxşı tanıyıram.

— Harda işləyirsən ki?

— Profilaktoriyada. Maşın-zad düzəldilən yer var ey, orda…

— Hə, maşınım olmadığına görə sənin yanına gəlib-getməmişəm. Adın nə oldu?

— Xəlil.

— Hə, Xəlil. Bu taxtanı hardan gətirirsən, ay Xəlil?

Xəlil qayıdıb maşına, kabinədə oturmuş İbişə baxa-baxa:

— Əşi, yoldan bir maşın keçirdi, saxlatdırdım, beş-on taxta götürdüm. Bir balaca kümə qaraltmışam, poluna, üstünə vurduracam, — dedi.

— Kağızı-zadı var?

— Nə kağız, əşi?

— Kağız da.

— Deyirəm yol maşınından almışam, deyir kağızı var? İnanmırsan odey, İbişdən çağır soruş. Ə, İbiş, nə gözlərini döyürsən orda? Gəl, bir-iki kəlmə də sən de da. Bu kişi mənə inanmır.

İbiş yerə düşüb ağır addımlarla onlara sarı gəldi. Hiss olunurdu ki, çəkinir, qorxur. Salam verdi, Nəzər ağızucu onun salamını alıb soruşdu:

— Hansı maşından aldız, ə, bu taxtaları?

— Bir yol maşınından.

— Nömrəsi neçəydi?

— Baxmadım.

— Sən də baxmadın, Xəlil?

— Yox. Mənə taxta lazım idi, nömrəsiynən nə işim vardı?

Nəzər amiranə bir səslə:

— Dalımca sür milis idarəsinə, — dedi. — Haydı. — Yola düzəldi.

Xəlil yazıqlaşıb balacalaşdı:

— Nəzər müəllim.

— Gəl, gəl. Orda danışarıq…

— Əşi, orda nə danışacayıq? Yaxşı olar, elə burda danışaq.

Nəzər çönüb tərs-tərs Xəlili təpədən-dırnağa süzdü:

— Nə danışacaqsan, ay bala? Mənə pul təklif eləyəcəksən?

— Şirinlikdən-zaddan…

— Sən öl, basdıraram, qulaqların cingildəyə-cingildəyə gedərsən. Yaramaz! Sən məni tanımırsan? Öyrəşibsiz alıb-verməyə! Uzun danışma, gəlin dalımca. Ə, İbiş, düz milisin qabağına. Eşidirsən? Sizin o babanız öldü, bala.

Nəzər maşına minəndə İbişin Xəlilə dediyi bu sözləri eşitdi:

— Allah öyünü yıxsın, öz öyünü də yıxdın, mənim öyümü də. Hələ bir neçə ayda Nəzərin qırmağına keçən canını salamat qurtara bilməyib.

«QAZ-69» fırlanıb maşının tuşuna çatanda dayandı. Nəzər yenə işarə elədi.

Milis idarəsinin həyətində polkovnik Ağayev çardağın altında oturub kötükdən kəsilmiş «stol»un üstündəki çaydandan özüyçün çay süzürdü. Nəzər Xəlillə ona yaxınlaşanda Bəhmən güldü. Nəzər o dəfə büro iclasından — o qadının ağlaya-ağlaya danışdığı «on qəpik» əhvalatından sonra Ağayevin əlindən yaman yığmışdı, qəzəbliydi, bir bəhanə axtarırdı ki, milis rəisini acılasın. İndi onun bu yersiz gülüşü onu təbdən çıxartdı:

— Nə var, nəyə gülürsən, Ağayev? Yoxsa işini çətinləşdirmişəm?

Polkovnik Nəzərin səsindəki qəzəbi hiss eləyib yumşaq-yumşaq dedi:

— Yox, ay Nəzər müəllim!

— Mən sizə kömək eləyirəm. Əslində gərək siz mənə «çox sağ ol» deyəsiz, polkovnik. Budu, deyir bu qədər taxtanı yoldan keçən bir maşından almışam. Amma yalan deyir, gözünün içinəcən ya-

lan deyir, mən bilirəm hardan alıb. Hələ ona bax, o zırrama da — İbişi göstərdi — buna şahidlik eləyir. Elə bilirlər uşaq aldadırlar.

Polkovnik piyalədəki çaydan bir qurtum içib:

— Sən narahat olma, Nəzər müəllim, bizə düzünü danışacaqlar. Darıxma heç… Keçin içəri, ə! Balamirzə, ay Balamirzə! — deyə üzünü bina tərəfə tutub çağırdı. Balamirzə — kapitan formasında olan orta boylu, qaraşın kişi — ağzında nəsə çeynəyə-çeynəyə özünü çölə atdı, udqunub:

— Bəli, yoldaş rəis! — dedi.

— Bu vətəndaşları apar içəri, mən də indi gəlirəm, çayımı içim…

Nəzər bu dəfə razılıqla gülümsəyib öz maşınına sarı getdi, iki addım atmamış qayıtdı:

— Yoldaş Ağayev, bilirsən bu taxtanı kimdən alıblar?

— Yox. Kimdən alıblar?

— Mənə elə gəlir ki, o Xuduş faşist oğlu faşist satıb.

— Prorab?

— Hə, o.

— O da lap ağ eləyib ha. Yaxşı. Məşğul olarıq!..

Nəzər arxayın maşına mindi.

— Getdik, ay oğul, — dedi Teyyuba. — Görək bu beş dəqiqəlik yolu qoyacaqlar gedək çıxaq mənzil başına?

Bu dəfə rahat gəlib çıxdılar.

Nəzər bu məktəb tikintisinin tarixini yaxşı bilirdi. Rayon mərkəzində cəmi bircə orta məktəb var idi. Qabaqlar, on-on beş il bundan irəli kifayət eləyirdi, ancaq son illər rayon mərkəzində əhalinin sayı artmışdı, uşaqlar çoxalmışdı. Siniflər ağızbaağız dolu olurdu — iyirmi-iyirmi beş uşaq əvəzinə, hər sinifdə otuz beş-qırx uşaq oxumalı olurdu. Buna həm sinif otaqları darlıq edirdi, həm dərsin keyfiyyəti aşağı düşürdü. Elə olurdu ki, bir uşaq rüb boyunca bir dəfə dərs danışdımı, papağını gözünün üstünə endirib rahat gedib-gəlirdi, hazırlaşmırdı, bilirdi ki, hələ onun «növbə»sinə çox var. Bu məsələ rayon maarif şöbəsində, rayon partiya komitəsində ətraflı müzakirə olunduqdan sonra, Bakıya, Maarif nazirliyinə yazılmışdı və oradan icazə gəlmiş, pul, vəsait buraxılmışdı. Tikintiyə başlayanda hamı sevinmişdi, xüsusilə müəllimlər, uşaqlar, valideynlər hamıdan çox sevinmişdi. Bir ilə başa gələr ən uzaqbaşı — demişdilər. Tikinti işçiləri sosialist

öhdəçiliyi götürmüşdülər. İş başlanmışdı, özül qazılmış, divarlar ucaldılmışdı, ancaq hardasa iş düyünə düşüb qalmışdı, il sovuşmuş, məktəb isə düz rayonun içində, rayon partiya komitəsinin, rayon icraiyyə komitəsinin, maarif şöbəsinin, bu qədər camaatın gözünün qabağında yarımçıq qalmışdı. İş çox ləng gedirdi. İki dəfə rayon partiya komitəsinin bürosunda məsələ müzakirə edilmişdi, ancaq hər dəfə söz vermişdilər, nəticəsi olmamışdı. Əsas səbəb bunu gətirmişdilər ki, material çatmır, əlaqədar təşkilatlar yaxşı və ardıcıl surətdə tikintini lazımi şeylərlə təmin eləmirlər. Sement olanda daş olmur, daş olanda taxta olmur, taxta olanda rəng, nə bilim nə olmur.

İki il az qalırdı başa yetsin… Ancaq məktəbin ikinci mərtəbəsinin səqfi vurulmamışdı, pərdiləri, şalbanları qoyulmamışdı. Bu yarımçıq məktəb Nəzərin hər dəfə buradan keçəndə gözlərinə iti bıçaq kimi batırdı, gözündən çox ürəyini ağrıdırdı. Qərib o dəfə evə buradan sement alıb gətirəndə Nəzər bu ilişiyin, kələfin ucunu tapmışdı. Qəzəb boğmuşdu kişini. Ancaq hələ ki, vaxt tapıb bura ayaq qoya bilməmişdi. Xuduşla əməlli-başlı danışacağını o gündən qərara almışdı. Tərs kimi, bu taxta məsələsi də bu yandan pırtlayıb çıxdı. Kaş o Xəlilin, İbişin dedikləri düz olsun — taxtanı yol maşınından almış olsunlar. Əgər burdan alıblarsa, əgər onun güman elədiyi kimi, həqiqətən Xuduş satıbsa o taxtaları, onda o gədəyə aman yoxdu. İki kisə sementi keçmək olar yenə birtəhər, amma bir maşın taxtanı yox. Yox, heç sementi də bağışlamaq olmaz, hər gələnə iki-üç, beş kisə sement versə, satsa, bu məktəb heç on ilə də tikilib başa gələ bilməz.

Nəzər beləcə düşünə-düşünə maşından enib tikintiyə gəldi. Bir tərəfdə ağ mişar daşlar tökülmüşdü, o yanda, üstünə-qırağına tol çəkilib taxta vurulmuş damda sement vardı. Palçıq-sement qarışdıran maşın sakitcə dayanmışdı. Xorlu qaldırıcı krana altdan yuxarı ha boylandısa, kabinədə kimsəni görmədi. Tikilinin böyrünə ağ, sarı, qara taxta-şalban yığılmışdı. Nəzər taxtalara nəzər saldı. Eynən bayaq İbişin maşınında aparılan taxtalara oxşayırdı. Yox, bunun o yan-bu yanı yox idi, hamısı bir maşının ağzından çıxmışdı elə bil.

Nəzər ətrafa göz gəzdirib qulaq verdi. İçəridə səs gəlirdi. Kimsə ucadan danışırdı, ancaq Nəzər sözləri ayırd eləyə bilmirdi.

Səsləndi Nəzər:

— Ə, orda kim var, kim yox?

Danışıq kəsildi. İkinci mərtəbənin açıq pəncərəsindən Xuduşun başı göründü:

— Kimdi, ə, o? — Və Nəzər müəllimi aşağıda, taxtaların yanında görən kimi, səsini xırp kəsib sarısını uddu. Başını içəri çəkib, aralıq pilləkənə doğru gələ-gələ fikirləşdi ki, pah atonnan, o boyda kişi iki meşox sementin davasına gəlib. Ərinməyib də ey. Amma canında qorxu vardı, çünki Qərib o gün kisələri bir «Jiquli»nin baqajında gətirib bura atanda əhvalatı yerli-yataqlı ona danışmışdı, o gündən Xuduş elə səksəkəliydi, bir gözü yoldaydı, bir adama bir şey verəndə də, oğru kimi, o yan-bu yana baxırdı. İndi həmin Nəzər — hamının Nəzarət adlandırdığı Nəzər, nəhayət, gəlmişdi. Allah bu gəlişin axırını xeyir eləsin. İki kisə sementi öz doğmaca oğlunun, necə deyərlər, dalına şəllədib geri qaytaran Nəzər, indi gör Xuduşun atasını necə dalına sarıyacaqdı?! Xuduş qıçları əsə-əsə ikinci mərtəbədən birinci mərtəbəyə necə düşdü, necə çölə çıxıb büzüşə-büzüşə Nəzərin qabağına gəldi, allah bilir!

Xuduş gödəkboylu, tabağsifət, eni-uzunu az qala eyni olan, kürən bir adam idi. Kənardan baxanda, yerişinə-duruşuna fikir verəndə adamı gülmək tuturdu — naşı bir rəssamın çəkdiyi karikaturaya oxşayırdı. Nəzər onu uzaqdan-uzağa tanıyırdı, yaxın, şəxsi münasibətləri olmamışdı. Özünü tez-tez görməkdən çox, orda-burda, kənddə-kəsəkdə adını eşitmişdi, üç-dörd dəfə də, hələ müəllim olan vaxtı, rastlaşmışdı. Ancaq o gündən — Qərib evə o iki kisə sementi gətirib Xuduşdan aldığını boynuna alandan sonra, Nəzərin ürəyində ona qarşı qəribə bir qəzəb, kin yaranmışdı və təbii ki, kişinin zehnində «faşist oğlu faşistlərin» siyahısına yazılmışdı. Nəzərin əslində belə bir rəsmi siyahısı yox idi — bu siyahı onun ürəyindəydi, hafizəsindəydi və nə zaman, lap gecənin bir aləmində, insafı kənara qoyub gəlib Nəzəri şirin yuxudan oyatsaydın və bu «faşist uşağı faşistlərin» adını, əməlini soruşsaydın, o, şübhəsiz, əzbərdən söyləyərdi, çaşmazdı, kəkələməzdi.

İndi çəlləyə oxşayan Xuduş yeriyə-yeriyə yox, bir növ dığırlana-dığırlana Nəzərə sarı gələndə, kişi onun kürən sifətinə diqqətlə baxır, elə bil üz-gözündən ürəyini, içini öyrənmək istəyirdi. Çəllək dığırlanıb, nəhayət, kişinin qabağında bənd aldı, sırtıq-sırtıq irişərək koppuş əlini irəli uzadaraq:

— Ay xoş gəlibsiz, Nəzər müəllim! — dedi. Nəzər onun beşbarmaq kötüyə oxşayan nahamvar əlinə əlinə fikir verdi, ancaq öz əlini pencəyinin cibindən çıxartmadı. Xuduşun əli bir an havada qaldı, sonra aşağı endi; o, pərt olmadı, yenə şit-şit irişdi, qonur, xırda

gözləri ani olaraq yumulub təzədən açıldı. Nəzər hələ heç nə demirdi, eləcə, sınayıcı, əzici baxışlarla ona tamaşa eləyirdi, dişlərini birbirinə bərk sıxdığından üzünün əzələləri qalxıb-enidi. Bu sükut öldürücüydü. Xuduş hələ ömründə belə bir əzaba düçar olmamışdı — o boyda bədən gizlənməyə yer axtarırdı; kişinin baxışlarında nə təsir vardısa, o, hiss olunmadan elə bil əriməyə başlamışdı. Axırda dözə bilmədi, əks-hücuma keçməyi qərara aldı:

— Nə olub, əşi? Nə qan olub, nə qada düşüb? Allahın salamını verirəm, onu da almırsan! — dedi və cavab gözləməmiş bir az da üstünə gəldi: — Hələ ağsaqqalsan, neçə ilin müəllimisən, nə olub, neynəmişəm axı? — Dedi və gözlərini tez-tez açıb-yumaraq sözlərinin ona necə təsir elədiyini öyrənmək istədi.

Nəzər bir addım irəli yeridi, Xuduş qorxub bir addım geri çəkildi.

— Nədi, vurassan məni?

Nəzər, nəhayət, dişlərini qıcıdaraq, təmkinini pozmadan:

— Yox, Xuduş, mən adam vuran deyiləm, — söylədi. — Səni onsuz da allah vurub!

Xuduş bayaqdan, üz-üzə dayandıqları müddətdə ilk dəfə Nəzərin səsini eşitdiyinə və bir elə də qəzəbli olmadığını başa düşdüyünə görə sevinən kimi olub yersiz olsa da hırıldadı:

— Niyə heylə deyirsən, Nəzər əmi. Allah məni niyə vurub axı?

— Allah səni onda vurub ki, ağlını başından alıb, vicdanının gözünü kor eləyib və ürəyinin içinə «tamah» adlı bir əjdaha qoyub, Xuduş. O tamah sənin başına ip salıb bu boyda vücudunu hərriyir, salıb dalına hara istəyir, ora da aparır.

Xuduş yenə də hırıldadı:

— Əşi, sən də lap milçəyi şişirdib fil eləyən imişsən ha. Deyirdilər, inanmırdım. Düzü, mən Qəribin — sənin oğlunun və sənin özünün xətrini dünyalarca istəyirəm. Necə ki, bir ağsaqqal. Uşaq gəldi yanıma, xahiş elədi, mən də iki meşox sement nədi ki, verdim, apardı, hörmət elədim. Ta burda qan olmuyub, ölüm-itil olmuyub.

— Hörmət eləmisən Qəribə, mənə?

— Hə də. Hörmət elədim. Pis iş görmüşəm? Hörmət eləmişəm də.

— İndicə Xəlilə də hörmət elədin, bir maşın taxta verdin?

— Xəlilə? — Xuduş udqundu, çaşıb gözlərini döydü.

— Hə, Xəlilə. İbişin maşınında apardı.

Xuduşun rəngi ağappaq ağardı. Heç özünə gəlməmiş, Nəzər soruşdu: — Heç bilirsən Xəlil o taxtaları hara apardı?

— Yo…x…ox.

— Milis idarəsinə apardı, Xuduş.

— Milis idarəsinə?

— Hə. — Nəzər belə deyə-deyə onun gözlərinin içinə nəzər saldı; o qonur, xırda gözlər içəridə dəbərişib öləzidi və Nəzər elə-belə, gözüyumulu, gümana atdığı güllənin sərrast, düz hədəfə dəydiyini anlayıb, başını mənalı-mənalı tərpətdi. — Düz milis idarəsinə.

— Vay köpəyoğlu, nanəcib. — Güclə dedi Xuduş. — Gəl, bundan sonra adamlara yaxşılıq elə, görüm necə eləyirsən. Vermirdim ha, yalvardı, yaxardı, ilan dili çıxartdı. Dedim yaxşı döyül, həftə səkkiz, mən doqquz, üz-üzə gəlirik, maşını aparıram yanına, növbəsiz-filansız baxır. Sən demə, orqanın adamıymış. Satqın köpəkoğlu. Agent köpəkoğlu.

— Sən deyirsən, yaxşılıq eləyirdin, hə?

— Hə də. Bu yaxşılıq döyül, bəs nədi? O boyda risk elə ki, nə var, nə var, onun damı yarımçıq qalıb. Cəhənnəmə qalıb, gora qalıb. Denən, sənə nə düşüb axı.

Nəzər müştüyünə siqaret taxıb yandırdı:

— Səncə, bu yaxşılıqdı? Yaxşılıqdı ki, bu dövlətin, bu camaatın halal malını öz dədəyin malı kimi gəlib-gedənə satırsan? Sənin dədən haçannan Şura hökumətiynən şərik olub? Yox, soruşuram, bəlkə dədən şura hökuməti ilə doqovor-zad bağlayıb şəriklik haqda, bizim də xəbərimiz yoxdu? Niyə dillənmirsən? Bu mal, material sənin özünün olsaydı, bu cür sağa-sola paylayardın?

— …

— Yox, paylamazdın. Deyərdin dədəm dədənə borcludu? O taxtanın kubmetrini neçədən vermisən Xəlilə?

— …

— Dinmirsən. Eybi yoxdu. Orda danışarsan. Yaxşılıq. Yaxşılıq. Hamam suyuynan özünə dost tutur. Julik.

— …

Xuduşun iri, palaz qulaqları guruldayırdı. Nəzərin dediklərindən çox az şey başa düşürdü. Fikri sabahkı çək-çevirin yanındaydı. Qanun əlinə keçəndən sonrakı vəziyyətini götür-qoy eləyirdi və eyni

zamanda, Xəlilin özünün milis idarəsinə getdiyini güman eləyib ürəyində onu yağlayır, xoruz səsi eşitməmiş söyüşlərlə abırdan salırdı. Çaşqın halda, yazıq-yazıq Nəzərin üzünə baxıb astadan:

— Evim yıxıldı, — dedi və təkrar elədi. — Evim yıxıldı.

— Sənin evin yıxılmasaydı, bu məktəb tikilə bilməzdi. — dedi Nəzər. — Burda ol, heç yerə getmə. İndi komissiya gələcək. — Xuduş gözlərini döydü. Nəzərin mindiyi maşın meydançada hərlənib geri dönəndə, Xuduş hərəkətsiz, içi boş çəllək kimi yerindəcə donub qalmışdı.

ON İKİNCİ FƏSİL

Günəş batmağa gedirdi, tut ağacının nəhəng kölgəsi meyillənib sol tərəfə sürünmüş və sarmaşıqlı hasarın o üzündən keçən torpaq yolun az qala yarısını tutmuşdu. Nəzər iki saatdan çox taxtının üstündə yatıb yenicə oyanmışdı, mizin arxasında oturub qəzetlərə baxırdı. Bikə xanım da qənşərində əyləşib asta-asta çay içirdi. Bu zaman telefon haray-həşir qopardı və demək olar ki, ikisi də səksənib eyni vaxtda dəstəyə əl uzatdı. Neçə vaxt idi, arvad da, kişi də qızlardan nigarandı. Zəng eləməmişdilər, halbuki bu hövsələnin yiyəsi deyildilər. Bir-birinə açıb deməsələr də, Nəzər də, Bikə də balalarının zəngini gözləyirdilər.

Bikə dəstəyi qaldırdı da, qoydu da.

— Kim idi? — Nəzər intizarla xəbər aldı.

— Əşi heç. Kim idisə səsini çıxartmadı.

— Hə? — Nəzər qəzeti kənara qoydu. — Faşist uşağı faşist. Kimdisə, məni yoxlayır. Görəsən yenə kimin nə kələyi var. Qabağı axşama gedir axı. «Gecə qara, cücə qara» eləmək istəyir kimdisə. Ay özün öləsən. Nəzərin evində oturmağına baxma, yüz yerdə, min yerdə gözü var Nəzərin.

Bikə xanım Nəzərin sözünün ucundan tutmadı, qəsdən tutmadı, çünki oğrudan, əyridən söz düşən kimi elə bil kişinin canına od vurardular. Danışırdı, söyürdü, danışdıqca, söydükcə də əsəbiləşirdi. Bikə xanım bunu da yəqin bilirdi ki, əgər ərinin əlində külli-ixtiyar olsaydı, «faşist uşağı faşist» adlandırdığı o beş-on adamın hamısını vəzifəsindən, yaşından asılı olmayaraq, bir-bir divara söykəyib güllələrdi, heç uf da deməzdi. Bu sözləri yaxşı yadındaydı Bikənin: —

kolxoz sədri Mikayıl tutulanda yana-yana demişdi:

«Mənə icazə versələr, Sədnikin qızı, üçcə günün içində bu rayondan oğurluğun, rüşvətin, yalanın kökünü kəsərəm. Soruşursan nə təhər? Çox asan, çox sadə. Bax, bir nəfər oğrunu, məsələn, bu Mikayılı, bir nəfər rüşvətxoru, məsələn o Şakiri, bir nəfər də talançını, məsələn, Müseyibi gətirərəm rayon mərkəzində o Lenin meydanı var ha, ora, elan verdirərəm, car çəkdirərəm, bütün camaatımızı yığaram o meydana, dar ağacı qurduraram, günahlarını — nameyiəməllərini oxuyaram düz gözlərinin içinə, sonra çəkərəm dara. Hər birinin də boynundan belə bir lövhə yazıb asaram: «Oğrunun, rüşvətxorun, talançının aqibəti bax budur». Üç gün qoyaram qalar o meydanda. Ondan sonra görüm hansı faşist oğurluq eləyər, rüşvət alar, yalan danışar, yazar. Bax belə eləyərəm, Sədnikin qızı. Ancaq hayıf, qanunlarımız buna yol vermir, humanistliyimiz buna yol vermir, hayıf, min hayıf».

O zaman Sədnikin qızı ərinin ürəyindəki o böyük kini, qəzəbi apaydın görüb heyrətlə içini çəkmişdi: «Allah, allah, sən özün saxla. Yaxşı ki, belə bir ixtiyar yoxdu sənin əlində, yoxsa gör nə qədər adamın boğazını keçirərsən kəndirə». «Bəli, keçirərəm, Sədnikin qızı. Pisləri o cür cəzalandıraram, yaxşılara da, təmizlərə də olmazın yaxşılığını eləyərəm, qədrini bilirəm, onda rayonumuz əsl cənnətə dönər, Sədnikin qızı!» — söyləmişdi Nəzər.

— Sən yaxşı olardı ki, Qəribin dərdini çəkəydin, kişi. Mən baxıram, sən bütün rayonun, az qala bütün Azərbaycanın dərd-sərini çəkirsən, amma burda, gözünün qabağında fikri məni çürüdən doğmaca oğlunun dərdini çəkmək istəmirsən.

— Nə olub Qəribə ki? Nə dərdi var onun?!

— Ta nə olacaq. İyirmi doqquz yaşı da tamam oldu, hələ də evlənməyib. Onun taylarının uşağı məktəbə gedir. Bəs bu dərd döyül?

Nəzərin sifəti boğuldu, gözləri yol çəkdi. Xeyli susub heç nə demədi. Handan-hana:

— Hə, — dedi, — Sədnikin qızı, düz deyirsən. Qərib mənim yaralı yerimdi. Məndən oldu, mənə oxşamadı. Oxumadı. O boyda universitetə girdi, yarımçıq qoyub qaçdı üstümə. Yaxşı fakültə idi, universitetin gözü idi. Ərəb dilini öyrənəcəkdi, gedəcəkdi xaricə, geyimi-keçimi də olacaqdı, maşını da. Handa bir qız da alacaqdı. Amma hünəri çatmadı. Hələ cavandı, qanmır. Bir azdan sonra başa

düşəcək, onda da gec olacaq, əli heç yana çatmayacaq. Onda tüstüsü təpəsindən çıxacaq. Onda deyəcəm ona!.. Başqa təbiətlidi o, nə isə!.. Pulgirdi. Gecə-gündüz fikri var-dövlət yığmaq, şıq geyinmək, maşınlı olmaqla məşğuldu. Axı bunlara nail olmaq üçün bir sənət sahibi olmaq gərəkdi, bir iş görmək gərəkdi. Elə-belə, göydən adamın başına var-dövlət yağmaz, Sədnikin qızı. Oğlun bunu başa düşmür, düşmək istəmir. Gəlib gör nəylə məşğuldu? Mən utanıram onun yerinə, o isə utanmır.

— Aldığı da heç nə, heç siqaret pulu döyül.

— Bə nə bilmişdin? Yoxsa elə bilirdin mədəniyyət nazirinin pulunu verəcəklər ona?

— İndi ta neynəyək? Evləndirmək lazımdı, vaxtı keçir. Bir şey də almamışıq uşağın adına. Heç nəyimiz yoxdu.

— Nəyimiz olmalıydı ki?

— Boy, kişi, sən elə bil başqa dünyadan zənbilnən gəlib düşübsən bura. Guya qayda-qanunlarımızı bilmirsən. Guya heç görməyibsən camaat uşağını necə evləndirir?!

— Bilirəm, görürəm. Ancaq, arvad, aç qulağını, yaxşı-yaxşı eşit, mən o cür eləməyəcəyəm. Yəni eləyə də bilmərəm. Bizim camaat qudurub. Vallah, qudurub, billah, qudurub. Toyu da, evlənməyi də şan-şöhrətə döndəriblər. Gərək komplekt olsun, gərək pal-paltarı importnı olsun, gərək mebeli importnı olsun. Bu adamlar niyə başa düşmür ki, xoşbəxtlik bunlarda döyül?! Yox, yox. Mən belə eləməyəcəyəm. Gözaltısı-zadı var gədənin?

— Yoxdu deyəsən. Kimin adını çəkirəm, daş atıb başını tutur. «Elə lat-lüt bizə qalıb?» — deyir. Deyirəm, ay oğul, elə biz özümüz də eləyik də. Biz gərək özümüzə bab adamın ətəyindən yapışaq, qapısına gedək! Deyir, yox, ana. Mən siz deyən məcnunlardan döyüləm. Mənnən işiniz olmasın. Dədəmə de, məni ticarətə düzəltsin, qalanıynan işiniz olmasın.

Nəzər bu sözü eşidən kimi dikəldi və ucadan:

— Nə? — dedi. — Ticarətə?

— Hə. — Bikə xanım bu sözü lap astadan pıçıldadı.

— Ona denən boynunun ardını görəndə ticarəti də görər. Bunun iştahına bax. Elə bir bu qalmışdı. — Nəzər yerində otura bilməyib ayağa qalxdı, stolun dövrəsində gəzindi. Bikə daha heç nə deməyib fikrə getdi.

Hava artıq qaralırdı. Gün qərbdəki dağların başından aşhaaşdaydı və sanki dağların başında asılıb qalmış iri bulud tayasına yenicə od düşmüşdü, amma hələ alovlanmamışdı, eləcə közərirdi. Nəzər əlini belinə vurub batmaqda olan günəşə xeyli baxdı, baxdı və ürəyinə qəribə bir duyğu axıb doldu; ömrünü o günəşin ömrünə bənzətdi Nəzər. Günəş qürub edirdi, sabah dünyanın o başından yenə o boyda, o gözəllikdə, o işıqlıqda zühur edəcəkdi, aləmi nura qərq edəcəkdi, yer üzünün gözəlliklərinə işıqlı gözləri ilə baxıb sevinəcəkdi, sevindirəcəkdi. Ancaq Nəzərin yolu — yalnız qüruba idi, geriyə qayıtmaq üçün heç bir güman-iman yox idi, bu dünyaya təzədən bir də gəlmək, sevinmək, sevindirmək; bütün insanlar kimi, ona da nəsib deyildi. Hayıf! Kaş insanın bax o günəş kimi, gedib dolanıb müəyyən bir müddətdən sonra bir də bu dünyaya qayıdıb uzun illər yaşamaq yox, heç olmasa baxmaq, doyunca tamaşa eləmək, sonra getmək imkanı olaydı. Kaş olaydı. Amma hayıf ki, belə bir imkan verilməyib. Və bu, qürub çağının hüznlü qəribliyi içində bayaqdan bəri dolu ürəyini boşaltmağa çalışan Nəzərin ruhunu bir az da sıxıb, onu kədərləndirdi. Araya uzun, vahiməli bir sükut çökdü. Nəzər qəmli baxışlarını batmaqda olan günəşin uzaqdan nə isə adamın hisslərini, duyğularını isidən işığına dikdi, xeyli vaxt heç nə demədən, həsrətlə baxdı, baxdı.

Bikə xanım Nəzərin incə, həssas təbiətinə yaxşı bələd olduğu üçün belə hallarda dinib-danışmazdı, xəyallarını, düşüncələrini pərən-pərən salmaqdan çəkinərdi. Bikə xanım bilirdi ki, o, şairanə bir ürək sahibi, söz sərrafı idi, hər kəlmənin, sözün mənası, tarixi, hardan meydana gəlməsi, sonralar necə dəyişdiyi barədə dəqiqələrlə, saatlarla danışardı. Qazandığının çoxunu ömrü boyu kitaba vermişdi. Bikə xanım hərdən and içərdi ki, dünyada onun ərinin oxumadığı bir kitab yoxdu. Üç otağın biri onun kitabxanasıydı, taxtadan rəflər düzəltmişdi, səqfə qədər içinə kitab düzmüşdü. Özü də, gecənin nə vədəsi gəlib ondan filan kitabı istəsəydin, yalan olmasın, indicə əliynən qoyubmuş kimi gözüyumulu gedib götürərdi. Həyatdan, öz ömrünün dərslərindən öyrəndiyi kimi, o, kitablardan da az şey, az hikmət götürməmişdi. Ona görə onun söhbətlərindən doymaq, yorulmaq bilmirdi heç kəs. O olan məclislərdə qeybət, dedi-qodu olmazdı. Yas yerlərində mollanın özü də onun danışığından ləzzət alıb həvəslə qulaq asardı. Rayon mərkəzinə, məktəblərə şairlər, yazıçılar qonaq gələndə o məclisi təşkil eləyənlər mütləq Nəzəri axtarıb tapmalıydılar; xüsusi hörmətlə, maşında gətirib həmin hörmətli qonaqla-

rın yanında oturdardılar. Klub müdirləri, məktəb direktorları görüşü açıb gələnlərə «xoş gəlmisiniz» deyəndən sonra sözü Nəzər müəllimə verirdilər.

Nəzər müəllim özünə məxsus bir təmkinlə, sözləri aydın və aramla deyə-deyə elə gözəl danışardı, gələn şairin əsərlərini elə təhlil eləyər, şerlərindən əzbər parçalar deyərdi ki, hamının, elə şairin özünün də ağzı açıla qalardı. Yazıçı olsaydı gələn, onun da haqqında eləcə, ürəkdolusu söz deyərdi. Alim olsaydı da elə… Buna görə idi ki, Nəzər müəllimin sorağı Bakıda da geniş yayılmışdı, böyük şair və yazıçılardan tutmuş cavanlara — qəzetdə beş-altı şeri dərc olunan, ya bir-iki əl boyda kitabçası çıxan qələm sahiblərinə qədər az qala hamısı onu yaxşı tanıyırdı. Onlardan Nəzərə avtoqrafla öz kitablarını göndərənlər də az deyildi.

Nəzər kitabı elə-belə, oxumaq xatirinə oxumurdu. Əlinə qələm alırdı, yaxşı sözlərin, misraların, sətirlərin altından xətt çəkib böyründə «əla!», «afərin!» — deyə yazardı, pis, xoşuna gəlməyən fikirlərin yanına iri bir nida işarəsi qoyub «Bu olmadı!», «Çox pis!», «Səndən qabaq bunu çox deyiblər, bala!» və s. yazardı. Bəzən bununla ürəyi soyumayanda ərinmədən, əsl bir tənqidçi səliqəsi ilə, ya müəllifin özünə, ya redaksiyaya, ya da Yazıçılar İttifaqına iri bir məktub göndərərdi. Və bu məktubda o yazı barədə düşündüklərini yazardı.

… Bu ağır və dilsiz sükut uzun çəkdi; Bikə xanım axırda dözə bilməyib:

— Nə uzun fikrə getdin, kişi? — deyəndə Nəzər xəyaldan ayrıldı və ah çəkdi.

— Heeççç… Günəşin batmasına baxırdım, arvad. O gedir, sabah yenə qayıdıb gələcək. Amma… mən yox.

Nəzər kölgəli baxışlarını qarşıdakı dağların yanğın düşmüş, qızılı zirvəsindən çəkərək qəmli-qəmli gülümsündü.

ON ÜÇÜNCÜ FƏSİL

Qışın oğlan çağıydı: Yer-yurd qar altında qalmışdı. Yol-riz bağlanmışdı. Qocaların dediyinə görə, son otuz ildə bu yerlərə belə qalın qar yağmamışdı. Qəribə idi ki, şaxta da yox idi. Adamları, malqaranı, toyuq-cücəni ancaq «qar», «qış» sözünün özündən axıb gələn soyuq üşüdüb büzüşdürürdü. Damların buxarılarından göyə qalxan ağ-boz tüstü kəndən üstünə bulud kimi yayılır, cənubdan əsən yüngül

küləyin nəfəsiylə şimala doğru axıb gedirdi.

İki pəncərənin arasındakı «Elektron» televizoru asta ayaqda özözünə danışırdı. Nəzər ona heç qulaq da asmır, döşəkçənin üstündə oturub, ayaqlarını da irəli uzadaraq kitab oxuyurdu. Bikə xanım isə istisi adamı uzaqdan vuran dəmir sobanın üzərində boranı tumu qovurdu. Ürəyində isə Nəzərə deyiləsi söz qovrulurdu. Uzaqdan başladı arvad:

— Deyirəm görəsən sən o məktəbdən gedəndən sonra işlər nə təhərdir orda? Yəqin Əli müəllimin ruhunu hər gün təhqir eləyir o qansız? — Nəzər «məktəb» sözünü eşidən kimi kitabı kənara qoydu. — Sən gərək məktəbdən getməyəydin!..

— Peşiman deyiləm, Sədnikin qızı. Mənim orda meydanım çox dar imiş, mən orda bir-iki əclafla döyüşürmüşəm. İndi işlədiyim idarənin isə əli çox uzundu, sən təsəvvür elədiyindən də uzundu. İndi mən tək deyiləm, indi mənim az qala bir ordum var, hər müəssisədə, idarədə, kolxozda adamım var, Sədnikin qızı. Elə hesab elə, evimdə oturanda belə, mən lap ucqar kənddə də kolxoz sədrinin, anbardarın, briqadirin bir çöpü burdan götürüb ora qoymağını da görürəm, bilirəm.

Bikə xanım güldü:

— Ta denən televizorsan da.

Nəzər o dəqiqə etiraz elədi:

— Yox, televizor yox, arvad. Televizor ancaq göstərir, amma görmür. Mən isə həm görürəm, həm göstərirəm, arvad.

Bikə gülümsündü:

— Nə təhər yəni, ay kişi? — Bikənin səsində bir maraq duyuldu.

— O təhər ki, — Nəzər nə fikirləşdisə, ətraflı izah eləməkdən vaz keçdi. — Yox, bu o qədər də vacib deyil, sənin heylə işlərdə işin olmasın.

— Onsuz da mən hər şeyi bilirəm. Camaat danışır, — deyə sobanın üstəki tumları dəsmalla sivirib boşqaba tökdü, ərinin qabağına qoydu.

Nəzər yerində qurcalandı:

— Nəyi danışır camaat?

Bikə xanım dəmir sobaya odun atdı, maşa ilə qurdaladı və bayaqdan, lap söhbətin əvvəlindən ürəyində qaynatdığı mətləbi deməyin məqamı çatdığını düşünüb ehtiyatla xırdalamağa başladı:

— Mən təvəqqe eləyirəm, qulaq asasan. Mənim sözümü kəsəndə fikrim dağılır, çaş-baş qalıram. Hə, üz-gözünü turşutma. Sən bilirsən ki, mən havayı söz danışan adam deyiləm…

— Bilirəm, bilirəm, Sədnikin qızı. Sən mənim ağıllı arvadımsan…

— Sən gərək məktəbdən getməyəydin, Nəzər. Sən el-oba içində qazandığın o böyük izzət-hörməti o məktəbdə qazanmışdın. Sən bütün bu camaatın sevimlisi olmuşdun, ağsaqqalı olmuşdun. Sən ömür qoymuşdun, saç ağartmışdın orda. Gərək elə Əli müəllim kimi lap əldən-dildən düşənəcən oradan qaçmayaydın, ayrılmayaydın, Nəzər. İki-üç, sən deyən kimi, faşist uşağı faşistin əl-qolunu bağlamışdın, qabağına durmuşdun, elə bəs idi. Orada iki-üçünün əl-qolunu sən bağlayardın, o biri məktəbdə bir başqası, kifayət idi. Hərə iki-üç beləsinin gözünün odunu alsa, onlar heç nə eləyə bilməzdilər.

Nəzər qurcuxdu, ancaq Bikə xanım əlinin işarəsi ilə ona susmaq işarəsi verdi, o, sözünü uddu.

— Bilirəm, demək istəyirsən ki, hamı sənin kimi deyil, ola bilmir. Razıyam. Çoxu «mənə nə ey» — deyib çox şeyə göz yumur, ancaq o zaman dillənirlər, səslərini çıxarırlar ki, bir balaca özlərinin mənafeyinə toxunasan — gəl onda qiyamətə bax! Başlayırlar ki, ədalət yoxdu, qanun yoxdu, nə bilim, nə, nə… Bunları mən də bilirəm, hamı da bilir. Bu, camaatın qanına, iliyinə, sümüyünə işləyib artıq. Bunları düzəltmək çətindi, çox çətindi, bəlkə heç mümkün deyil. Gördün o Mirağanın başına nə oyun açdılar o oğlanı avtomobil müfəttişləri döyəndə qahmar çıxdığına görə? Sənin gözünün qabağında adam döyürlər, sən dözə bilmirsən, müdafiə edirsən. Səni də ona qatıb tuturlar. Düzdü, qəzetin köməyi ilə onların ikisini də buraxdılar, o azğınların, vəzifəsini başa düşməyənlərin cəzasını verdilər, işdən qovdular. Ancaq nə olsun. Ədalətsizlik, haqsızlıq oldu və onu yüz adam gördü, eşitdi — bu adamların sabah gözünün qabağında birini öldürsələr də, mən inanmıram, onlar döşlərini irəli verib onu müdafiə eləsinlər. Çünki göz qorxdu, inam öldü.

Nə isə, gül kimi hörmətin var idi, hamı başına and içirdi, bilirsən. Ancaq bu nəzarətə keçəndən, qırx ildə zərrə-zərrə qazandığın o hörməti demək olar ki, itiribsən, kişi.

— Niyə ki? — Nəzərin pırpız qaşları çatıldı. — Neyləmişəm ki?

— İndi… sənə bilirsən nə deyirlər?

— Nə deyirlər ki?

— Ayama qoyublar, kişi, Nəzarət Nəzər. Çox vaxt heç Nəzər də demirlər, eləcə Nəzarət deyirlər, vəssalam. Nəzarət başını hər yerə soxur, az qalıb Nəzarət gecələr evlərdə ər-arvadın necə yatdığına da nəzarət eləsin, — deyirlər. Görünür, ələ salırlar. Bu, sənin nəyinə lazım idi, axı. Mənim gözüm görə-görə sən camaatın gözündə kiçilirsən, hörmətsiz olursan. Bu, mənim ürəyimi ağrıdır, kişi. Bu, mənə dərd olub, içimi söküb dağıdır. Axı, sən katib deyilsən! Nəyinə lazımdı kim neyniyir. Pensiyaya çıxmayaydın gərək, indi ki, çıxıbsan, oturaydın yerində, ömrümüzün-günümüzün bu qürub çağında urvatdan düşməyəydin, — deyib Bikə xanım doluxsunaraq qəhərləndi, səsi ilişdi və dünyada çox qiymətli bir şey itirmiş adam kimi, əlini dizinə çırpıb ayağa qalxdı. Dolan gözlərini əri görməsin deyə üzünü yana çevirdi. Arvadının qalxdığını görüb Nəzər də ayağa durdu. Çoxdan oturmuşdu deyə qıçı uyuşmuşdu, sağ ayağını yerə basanda barmağının ucundan ta kürəyinəcən bir giziltinin keçdiyini hiss elədi, — sol — yaralı qıçı üstə ağırlığını saldı. Elə yerindəcə, hövsələsiz halda dedi:

— Səhvsən, Sədnikin qızı. Əvvəla, bunu camaat deyə bilməz, o beş-üç faşistin ya özü, ya qohum-əqəbaları, simsarları olar bu sözləri deyənlər. Eybi yoxdu, qoy desinlər. Bu, mənim üçün şərəfdi. Ona görə heç ürəyini sıxma. Deməli, mənim atdığım güllələr hədəfə dəyir, lap gözünün içindən dəyir. Camaat ayrıdı, Bikə. Beş-üç nəfər oğru-əyri heç vaxt camaat olmayıb. Camaat — xalqdı, eldi. Sən onların alqışını eşitməyibsən. Camaat — o əli qabarlı, beli gecələr yuxusunda da sız-sız sızıldayan o zəhmət adamlarıdı ki, gözləri baxa-baxa o beş-üç əclaf onların haqqını kəsir, yeyib qudurur, harınlayır, sonra da onların özünü adam hesab eləmir — bax, o adamlar məni çox istəyir, hörmət eləyir. Əsas da budu.

Deyirsən, katib deyilsən… Mən ona kömək eləyirəm — hamımızın borcudu ona kömək eləyək, yoxsa tək çətin olar. Gərək ictimaiyyət — sən, mən, o, biz hamımız onun köməkçisi olaq, Sədnikin qızı. Bir də nə olar. Qoy mən Nəzarət olum. Nəzər Nəzarət. Adın elə bir əhəmiyyəti yoxdu.

ON DÖRDÜNCÜ FƏSİL

Günəş çoxdan başı nizəyə bənzər dağların dalında gizlənmişdi, zirvəyə səpələnmiş, sərilmiş axırıncı qızılı tellərini də asta-asta çəkib arxasınca aparmışdı. İlk axşamın qatı qaranlığı tarlaları, yolları, ağacları bağrına basıb udmuşdu — axşamın o vədəsiydi ki, hər şey qaynayıb bir-birinə qarışmışdı; bir az keçəcəkdi, qaranlıq adiləşəcəkdi, göz qaranlığa alışacaqdı və sonra hər şey də öz tutqun, qara görkəmini alacaqdı.

Göylər hələ qapqaraydı, orda-burda təkəm-seyrək közərən ulduzlar səmanın qara-boz sifətini işıqlandıra bilmirdi. Yerdə, çöllərdə, tarlalarda bir az əvvəl eşidilən hay-küy, səs-səmir çəkilib yox olmuşdu; hər yan dilsiz bir sükut içində, sanki bütün günü əlləşib-vuruşan, yorulmuş bir adam kimi, əl-ayağını yığışdırıb mürgüləməyə hazırlaşırdı. Bəli, təbiət dincəlmək istəyirdi.

Nəzər kişi də xəndəyin üstündə haçansa, kim tərəfindən əkildiyi bilinməyən söyüdün dibində, sol qıçını irəli uzadaraq kürəyini ağacın gövdəsinə söykəyib siqaret çəkirdi: qaranlıqda onun «Avrora»sı gecəböcəyi –işıldaquş kimi tez-tez görünüb yox olurdu. Tütünün aci iyinə baxmayaraq, üç-dörd ağcaqanad vızıltı-dızıltı ilə Nəzərin gah qulağının dibində, gah burnunun ucunda uçuşurdu. Nəzər tez-tez üzünü, boynunun ardını şapalaqlayırdı, neştərini dərisinə sancıb qanını sormaq istəyən ağcaqanadı öldürmək istəyirdi, ancaq vura bilmirdi. «Dızz-vızz… Vızzz-dızzz!..»

Nəzər sağ yanağına taraz bir şapalaq ilişdirdi. Bu dəfə ağcaqanadı məhv etdiyinə inanaraq qaranlıqda əlinin içinə baxdı, ancaq bir şey görə bilmədi. Zəhlətökən vızıltını təzədən eşidəndə dilləndi:

— Vay sizin nəsliniz kəsilsin! — dedi. — Lap «misserşmidt»kimi vızıldayırlar şoqəriblər.

Qəribə idi ki, Nəzər harda, haçan ağcaqanad görürdü, səsinivızıltısını qulağı alırdı, qeyri-iradi cəbhədə keçirdiyi günləri gəlib yadına düşürdü: onda Kursk ətrafındaydılar, elə ilin bu vədəsiydi və Nəzərgilin piyada polku səngərlərdə daldalanmışdı. Arxada topçular gizlənmişdi. Səhərə yaxın, hava işıqlanar-işıqlanmaz, almanlar hava hücumuna başladılar və on iki «misserşmidt» onların mövqeyinin üstündə bax, bu ağcaqanadlar həndəvərində vızıltı ilə uçan kimi, uçmağa, yerə bomba yağışı səpələməyə girişdilər. Səngərlər uçurdu, dağılırdı, qışqıran kim, torpaq uçqunu altında qalan kim, əlində avtomatı, çığıra-çığıra

irəli cuman kim, iki addım atmamış biçilib yerə tökülən kim… Topçular atırdılar, yer-göy titrəyirdi. Nəzər səngərin lap qurtaracağındaydı, bir az aralı bomba düşmüşdü, səngər aradan qırılmışdı. Dəmir dəbilqəsi, üst-başı toz-torpaq içindəydi; gözlərini tez-tez gedib-qayıdan «misserşmidt»lərdən çəkə bilmirdi. Zenitçilər o «ağcaqanad»ları bir-bir dənləyirdi. Göydə partlayanı da vardı, yana-yana, uğultu qopara-qopara yerə burnu üstə düşüb dağılanı da vardı.

Nəzər sayırdı, sanki ona vurulan təyyarələri saymaq tapşırılmışdı. Əslində heç kəs heç nə tapşırmamışdı, Nəzər elə-belə, maraq üçün sayırdı və yadında saxlamağa çalışırdı. «Misserşmidt»lərin üçü qalmışdı və onlardane biri — 44 nömrəli, xaç nişanlısı xüsusilə cəld idi, təyyarə pilotun əlində elə bil oyuncaq idi və o, o boyda maşını istədiyi an gah endirir, gah qaldırır, gah kəlləmayallaq aşırır, xülasə, imkan vermirdi ki, vursunlar. O, havada şığıyıb yerə bomba yağışı yağdırdıqca, gözlərini göydən çəkməyən Nəzər ürək çırpıntısı ilə yanıb qıvrılırdı, «bax, indicə vuracaqlar səni, köpəyoğlu!» — deyirdi. Və nəhayət, 44-ü vurdular. Təyyarə alovlandı, arxasınca qalın tüstü buraxa-buraxa sürətlə üzüaşağı şığıyanda Nəzər özünü saxlaya bilməyib ucadan «urra!» — deyə qışqırdı və elə o an da səhv elədiyini başa düşüb sol əlilə öz ağzını yumdu — elə bil başqa adamın ağzını yumurdu. Birdən təyyarənin üstündən bir qutu vıyıltı ilə yuxarı qalxdı; Nəzər başa düşdü ki, pilot katapult elədi. Bu, doğrudan da beləydi. Az sonra təyyarədən uzaqlaşan o qara qutu ağ, günbəzvari bir paraşütə çevrildi və ağır-ağır yerə enməyə başladı. Bir az o yanda, kiçik təpənin ətəyinə ox kimi sancılan təyyarə dəhşətli bir gurultu qoparıb partladı. Pilot havada süzən ağ günbəzi səngərdən o yana yönəltməyə can atırdı, ancaq sabah yelinin səmti onu düz Nəzərin üstünə gətirirdi. «Gəl, gəl, köpəyoğlu, indi sənin atanı yandıracam!» — deyə Nəzər avtomatını hazırladı. Pilot tappıltı ilə Nəzərin beş-altı addımlığında yerə düşdü, yıxıldı, qalxıb çiynindəki brezent bağlını özündən kənar eləmək və qaçmaq istəyirdi ki, Nəzər səngərdən dikəlib özünə də yad gələn bir səslə qışqırdı:

— Faşist köpəyoğlu, kaput!

Səsə-qışqırığa səksənən pilot dərhal iki əlini də göyə qaldırdı. O, arıq, ucaboylu, göygözlü cavan bir adam idi. Çiynindəki paqonlardan bilinirdi ki, baş leytenantdı. Sifətində meyit rəngi vardı. Hava soyuq deyildi, ancaq pilot əsirdi. Bu, yəqin qorxudan idi.

Nəzər avtomatı sinəsinə qaldırıb azərbaycanca:

— Ə, köpəyoğlu, sən idin bayaqdan yeri-göyü yandıran? — deyirdi. Nişan alanda, pilot udqundu, uzun boğazındakı qoz boyda hülqumu qalxıb-endi və o, gözlərini yumdu.

Nəzər birdən qəzəbini boğub ayıldı və fikirləşdi ki, onu vurmağa ixtiyarı yoxdu, diri tutub aparmalıdı, komandanlığa təhvil verməlidi. Bunu o yaxşı bilirdi, ancaq qəzəbindən, hirsindən unutmuşdu.

Güllənin açılmadığını görən pilot, qorxa-qorxa gözlərini açıb yazıq-yazıq Nəzərə baxdı və əllərini bir az da yuxarı qaldırıb:

— Fris kaput! — dedi.

— Hə, fris kaput! — Nəzər qışqırdı. — Bə niyə durubsan orda buz üstə çıxan dana kimi?

Pilotun tərpənmədiyini görüb:

— Bəri gəl, fris, — dedi və əlilə gəlmək işarəsi verdi.

Pilot iki-üç addım irəlilədi. Nəzər o tərəfə, təpə ətəyinə baxıb birdən səngərdən çıxdı və pilota yaxın gəlib:

— Düş qabağıma, faşist köpəyoğlu, — dedi. Səngər uçub dağılmışdı, yoldaşlarının bir qismi torpaq altında qalmışdı. Nəzər səngərin qırağı ilə yeriyir, yaralananlara, parça-parça olan meyitlərə baxa-baxa qabağınca addımlayan pilota deyirdi:

— Bunların qanı sənin boynundadı, köpəyoğlu. Yeri, yeri, orda sən öz cəzanı alacaqsan.

… «Vızz-dızz», şart! Nəzər qulağını iynələyən ağcaqanadı «şillələdi» və şillə səsinə xəyaldan yarımçıq ayıldı. Artıq ay doğmuşdu. Gecə bir az açılıb durulmuşdu. Göyün düz qübbəsində buludlar arasında yumru şar kimi süzən ayın ağ-sarı işığı, söyüdün mehdən asta-asta titrəşən yaşıl yarpaqları arasından süzülüb Nəzərin qabağında, tapdanıb hamarlanmış torpağın üstündə ağ abbasılıqlar kimi dəbərişirdi, yarpaqlar tərpəndikcə ağ abbasılıqlar yerini tez-tez dəyişirdi.

Nəzər gözünü torpaq yola zilləmişdi, sağ qolunun dirsəyini qatladığı sağ dizinin kündəsinə dayamış, çənəsini də ovcunun içinə qoymuşdu. Bu yol vaxtilə işlək yol olmuşdu, burdan körpünün üstündən iki istiqamətə haçalanırdı; biri rayon mərkəzinə gedirdi, o biri, çalanın yanından sağa burulub əlli-altmış kilometrdən sonra qonşu respublikaya uzanan əsas yola qovuşurdu. Ancaq üç il bundan qabaq, təzə asfalt magistral çəkilib qurtarandan sonra, bu yol bağlanmışdı. Bağlanmışdı deyəndə, uçurulub dağıdılmamışdı, sadəcə yaddan çıxarılmışdı. Arabir bu kənddən o kəndə traktor, lafet, araba, atlı, bəzən də piyada gedəndə yol, az qala «sevindiyindən» «dirilmək»

istəyirdi. Yolu da yol eləyən gəl-getdi, insan ayağıdı, maşın təkəridi. Bunlar olmasa yol ölür.

Nəzər özündən yaşlı adamlardan, son vaxtlar oturub-durduğu, dostluq elədiyi bəzi cavanlardan da eşitmişdi ki, ilin bu vədəsində, yəni bostan, tərəvəz məhsullarının təzə-təzə çıxan vaxtı, hamının unudulmuş sandığı bu yol, qısa müddətə olsa da, dirilib canlanır, bir çoxlarının yadına düşürdü. Başqa şəhərlərə, rayonlara oğurluqla-əyriliklə mal aparmaq istəyənlər məhz bu yoldan istifadə edirdilər. Çünki əsas yol şlaqbaumla bağlanırdı, kontrol-dispetçer punktları işə başlayırdı, milis, DAM, nəzarət işçiləri yollara səpələnirdilər. Amma di gəl ki, bu alverçilər elə bil gözübağlıcaydılar, elə bil, tilsimli paltar geyirdilər, onların yanından necə gəlib-gedirdilərsə, bir də görürdün, Rostovdan, Novosibirskdən, nə bilim daha haralardan soraqları gəlirdi. Nəzər bu müəmmanı heç cür başa düşə bilmirdi. Keçən iləcən — yəni hələ təqaüdə çıxmamış belə şeyləri eşidəndə inanmaq istəmirdi. «Filankəs Novosibirskə getmişdi, bir maşın sarımsaq aparmışdı — otuz min pul gətirib!» «Əşi, heylə şey olmaz, canım!» — Bunu Nəzər deyirdi. «Filankəs iki maşın pomidor-xiyar aparıb Xabarovska, iyirmi beş min qatlayıb qoyub cibinə!» «Əşi, heylə şey olmaz!» — Bunu da Nəzər söyləyirdi. Sonra, rayonda, müxtəlif tədbirlərdə, məhsul bayramında, toyda, yasda, Nəzər həmən adını ondan-bundan eşitdiyi adamların geyiminə, keçiminə, oturub-duruşuna, xeyirdə-şərdə pul xərcləmələrinə gözaltı fikir verirdi və görürdü ki, deyəsən deyilənlər düzdü, çünki bu filankəslərin yerişindən yer titrəyirdi az qala, dingding dingildəyirdilər, vaxtlarının çoxunu yol üstdəki «Yaxşı yol» restoranında keçirir, işdə-idarədə seyrək-seyrək görünür və hörmətə-izzətə gələndə də, yuxarı başda olurdular. Onlar maaş üstə əsmirdilər, bazarda, dükanda ayın-oyun alanda çənə vurmağı şənlərinə sığışdırmırdılar. Düzdü, bu adamlar çox deyildi, barmaqla saymaq olardı, ancaq var idilər bunlar, bunları görməmək mümkün deyildi. Və Nəzər onları çox yaxşıca görürdü, ancaq üzlərinə bir söz deyə bilmirdi, çünki ixtiyarı yox idi. Sadəcə ürəyində «faşist uşağı faşist» deyirdi, vəssalam.

Fikirləri burda qalırdı. Torpaq yolla bir maşın gəlirdi, faraları gecənin qaranlığını iki işıq xəncəri kimi kəsirdi. Nəzər beynini yoran düşüncələrdən xilas olub sevincək əlini yerə dirəyərək qalxdı. «Həriflər gəlir!» — dedi bərkdən və yolun qırağına çıxdı. Bu ara uzun qulaqlarını şəkləmiş, hoppana-hoppana qaçan boz bir dovşan gözü

işığa düşdüyündən kənara çıxa bilməyib düz onun üstünə doğru qaçmağa başlayanda Nəzər öskürdü və dovşan özünü sola atıb qamışlığa soxuldu.

Maşın Nəzərin tuşuna çatanda yavaşıdı, gəlib yanında dayandı. Motor asta ayaqda işləyirdi, ancaq sürücü işığı çatan kimi söndürdü.

Kabinədən kepkalı bir baş çıxdı. Nəzər, qaranlıq olsa da maşının ağzınacan yeşiklərlə dolu olduğunu — bunun ya pomidor, ya xiyar olacağını fəhmlə başa düşüb qımışdı. Oğlan ədəblə salam verdi:

— Axşamın xeyir, day-day…

— Aqibətin xeyir, oğul.

— Biz bu balaca yolu azmışıq deyəsən. Bu Zərrəbin yoluna necə çıxmaq olar, day-day?

— Hə. Çox asan. Elə mən də o tərəfə gedirəm.

— Həri? Onda min, day-day… — Kepkalı oğlan kabinənin qapısını açıb özü sürücüyə tərəf sığındı. — Egləş, day-day.

Nəzər qatlanmayan qıçı üstə dayanıb sağ ayağını pilləkənə qoyaraq qalxdı, kabinədə oturub qapını çırpdı.

— Sür, alə, getdik, — deyə kepkalı oğlan sürücünü dümsüklədi.

Nəzər o dəqiqə başa düşdü ki, kepkalı oğlan şəhər uşağıdı, özü də malın sahibidi. Sürücü dinib-danışmırdı.

— Day-day, hansı yolnan sürək? — Sağnan, solnan?

— Sağnan, bala. Mən sizi — bunu deyəndə Nəzər kişi udqundu və qaranlıqda bic-bic qımışıb davam etdi — mən sizi elə kəsə yolnan aparacam ki, heç ruhunuz da inciməyəcək. Lap kəsə yolnan! Görürəm, şəhərdən gəlibsiz. Bəs nə əcəb o asfalt yoldan çıxıbsız?

— Kəndə getmişdik…

— Hə… Deyəsən xiyar-pomidordu yükünüz — Nəzər zənnini yoxlamaq istədi.

— Həri. — Səksənən kimi oldu oğlan. — Nədən bildüz, day-day?

— Təzə-tər xiyarın ətri uzaqdan adamın burnuna gəlir. Nəzər yaxşı bilirdi ki, xiyarın, pomidorun iyi yoxdu. Elə-belə demişdi bunu.

— Həri? Bah atonnan. Gör nə xiyardu ha. Deyirsən uzaqdan gəl-gəl deyir, həri?

Nəzər gülməyini güclə saxlayıb ömründə ilk dəfə:

— Həri, — dedi və sonra ciddiləşib — inşallah, səfəriz Rusiyyət tərəfədi, hə? — deyə xəbər aldı.

Kepkalı oğlan maşın işığında Nəzərə baxmışdı, bayaqdan da yanında çəpəki göz qoymuşdu — adi adam idi, orqan işçisinə-filana oxşamırdı. Ona görə, ürəyi buz kimiydi.

— Həri, — deyə kepkalı oğlan gecə onlara böyük məmnuniyyətlə yol göstərən bu şikəst kişidən heç şübhələnməyərək düzünü boynuna aldı. — Həri. İndi Rusiyyət camaatı pomidordan-xiyardan sarı sinov gedir. Nöşün ki, orda hələ yetişməyib. Bilirsən də, oralar soyuq olan yerlərdi. Gec yetişir…

— Hə. Eşitmişəm. — Nəzər müştüyünü çıxartdı, bir dənə «Avrora» sancdı ucuna. Bu zaman kepkalı oğlan da köynəyinin döş cibindəki qutudan bir gilə siqaret götürüb damağına qoydu və qaz alışqanı ilə əvvəlcə NəzəriN. Sonra özünün siqaretini yandırdı.

— Çox sağ ol, oğlan. Sənin adın nə oldu.

— Adım? Adım… İbaddı, day-day. Soruşmaq ayıb olmasın, bəs sənin adun nədü?

— Nəzərdi mənim adım.

— Çox yaxçı, Nəzər day-day…

Nəzər siqaretinə qullab vurub:

— Amma, İbad, mən sənin yerinə olsaydım, maşınımın ağzını döndərərdim düz Bakıya, — dedi.

İbad bir şey anlamayıb:

— Bakıya? — deyə təəccüblə xəbər aldı.

— Hə, Bakıya.

— Bakıda nə var, Nəzər day-day?

— Niyə, Bakıda bazar yoxdu?

— Var.

— Məgər Bakıdakı adamlar xiyar-pomidor yemək — nübar eləmək istəmir?

— Nöşün, istiyir. Hə, səni başa düşdüm, day-day… Amma iş alayı cürədi, day-day.

— Yəni nə cürnədi? Acığına gəlməsin, a, İbad, söhbətdi də, eləyirik. Yola körpü salmaq üçün.

— Həri, həri. Elə mən də söhbət aşığıyam. Yoxsa bunun kimi — sürücünü göstərdi — ağzına su alıb, oturub. Ətağa cəddi, Bakıdan o kəndə, kənddən də bura gələnəcən əgər bundan «hə»dən, «yox»dan başqa bir söz eşitmişəmsə, atam Sonquluya lənət. Hələ mən onun dərdin çəkirəm ki, bu uzaqlıqda yolu mən bunnan necə gedəcəm.

Bayaqdan bəri birinci dəfə sürücünün gur səsi eşidildi:

— Mən yolnan danışıram.

— Kimnən danışırsan? — İbad təəccüblə xəbər aldısa da, sürücü sözlərini təkrar eləməyə ərindi. Ondan bir cavab ala bilməyəcəyinə inanıb Nəzərə sarı döndü:

— Kimnən danışıram deyir?

— Deyir yolnan danışıram.

İbad ona çəpəki nəzər saldı, ancaq yenə üzünü Nəzərə çöndərdi:

— Əntiqə adamdı ey, sən öləsən. — Yenə sürücüyə baxdı: — Alə, adam da dilsiz-ağızsız yolnan danışar? — Sürücü sükanı sağa-sola hərləyirdi, dillənmədi. İbad kinayə ilə:

— Həri, həri, sən yolnan danış, mən də day-daynan. Heç bilmədim nədən söhbət eləyirdik? — dedi.

Nəzər yadına saldı:

— Deyirdin ki, məsələ alayı cürnədi. — Nəzər eynən onun sözlərini təkrar elədi.

— Həri, həri, alayı cürnədi məsələ, day-day. İş bundadı ki, indi Bakıda xiyar-pomidorun nübar vaxtı olsa da, ucuzdu, day-day.

— Neçəyədi yəni?

— Məsəlçün, xiyar beş manat, pomidor altı-yeddi manat.

— Bu ucuzdu? Evini allah tiksin: xiyar beş manata pomidor altı-yeddi manata ucuzdu?

— Həri, həri. O da iki-üç günlükdü, sonra beli sınır, olur lap şor qiymətinə.

— Bəs o apardığın yerdə neçəyədi, İbad?

İbad, şirin, dadlı bir şey tapmış uşaq kimi əlini əlinə sürtdü:

— Ux, orda çox bahadı, day-day. Bu xiyar-pomidor ki, var ha, indi aparıram, sağ-salamat aparıb çıxarda bilsəm, kiloyu on manatdan fır-fır fırıldayacaq, heç ayağı da yerə dəyməyəcək. Həri. Nöşün ki, nübardı, nöşün ki, soçnıdı, vitaminnidi, azerbaycanskidi, day-day. Elə ki, bir dəfə car çəkib deyirəm ki, oqurtsi, pomidor iz solneçnoqo Azerbaycana — növbənin bir ucu burda olur, o biri ucu gedir çıxır Söyünbala açıqlığına.

— Hara? — Nəzər kişi qımışdı. — Söyünbala açıqlığına?

— Eh, çaşdım, day-day. Söyünbala açıqlığı məhəlləmizdi.

— Hə, yoxsa elə bildim ki, orda da Söyünbala açıqlığı var. Tanıyıram, cavan vaxtı o məhəllədə kvartirant qalmışam.

— Həri? — İbad sevindi. — Day deynən məhlə uşağımızsan ki…

Nəzərin bu ədəbsiz və çənədən boş oğlandan ilk anlardan nə isə xoşu gəlməmişdi. Bu sözləri eşidəndə lap çiyrindi. Ancaq hövsələsini basıb bir şey demədi, tələbəlik illərini xatırlayıb gülümsündü:

— Bir abadlıq işi-zadı görüblər orda? Ya elə otuz-qırx il qabaqkı kimidi?

— Həri. Ancaq fikir var. Sökəcəklər, yeni, uca-uca binalar tikəcəklər. Planın da çəkib asığlar küçənin qurtaracağından. Planı qəşəngdi, çox qəşəngdi, day-day.

Nəzər bu söhbətin yersiz olduğunu elə başlayan kimi başa düşmüşdü. Əsas məsələni unutmaq olmazdı. Odur ki, sözü hərləyib yenə pomidorun-xiyarın üstünə gətirdi.

— Belə… pomidor, xiyar… Soçni, vitaminni… iz solneçnoqo Azerbaydjana… — Nəzər güldü — Ay səni, İbad.

— Həri, həri. Özü də oranın adamları çox qulturnıdı. Oçurda dava-dalaş saldı nədi. Yox, yox. Quzu kimi, cınqırlarını da çıxartmadan, bir-birinin dalınca düzülürlər. Həri. Yoxsa bizimkilər kimi. Hələ oçura durmağı da bilmillər bizimkilər.

— Yaxşı, xiyarı, pomidoru neçədən almısan?

— Hoptum üç manatdan. Həri. Düz beş tondu. On beş min nağd-dəlləzi vərmişəm.

— Bəs, — Nəzər başı ilə sürücüyə işarə elədi — bu yollarnan danışan oğlana nə qədər vermisən?

— Buna? Buna min beş yüz. Həri. Düz min beş yüz. Yolda da yeyib-içməyi mənim şotumadı.

Nəzər fikrində hesabladı: on beş min, üstə gəl min beş yüz, yolda da yeməkləri-içmələri, başqa xərcləri də ən azı min manat. Hamısı on yeddi min yarım. Elə yuvarlaq götürsək, on səkkiz min. Vay dədə, vay. Gör nə qədər puldu bu. Və Nəzər ürək ağrısı ilə bunu da düşündü ki, onun heç vaxt bu qədər pulu olmayıb və çətin ki, bundan sonra da olsun. «Yox, olmayacaq. Vallah, olmayacaq, billah, olmayacaq».

— Yəqin yolda rast gəldiyin milisə, QAİ-yə də bir filan qədər xərcin çıxacaq, heylədimi?

— Həri. Day onu deməzlər. İki min də onlarçün ayırmışam. İt aparan hesab olsun. Amma allah eləsin o mərdimazar uşağına rast gəlməyək heç.

«Mərdimazar uşağı» — bu sözlər Nəzərin qulağını cırmaqladı və ürəyində bu ədəbsizi söydü: «faşist oğlu faşist». Yəqin heç orta təhsili də yoxdu — iyirmi mini var amma…»

Ani sükutdan sonra Nəzər:

— Ancaq, vallah, mən sənin yerinə olsaydım, bu əziyyəti çəkməzdim, bu uzaq yolu getməzdim, — dedi.

— Nöşün, day-day? Sən mələsənin ancaq bir tərəfini fikirləşirsən, day-day. O biri tərəfi alayı cürnədi, day-day.

— O hansı tərəfidi, bala?

— O tərəfidi ki, olar da — yəni rusiyyətdəkilər də bizim qərdeşlərimizdi, day-day. Heç insaf deyil ki, biz indi təzə-tər xiyar, pomidor yeyək, olar qalsın baxa-baxa. Necə olsa yaxçı deyil. Belənçik yaxçı düşmür, day-day.

— Sən onun fikrini nahaq çəkirsən, İbad, — deyə Nəzər ürəyində onun «diplomlu julik» olduğunu yəqin etdi. — Onların fikrini sən nahaq çəkirsən. Dövlət özü onların payını göndərir. Bax, elə biri bizim rayonumuz. Bu il yüz iyirmi min ton pomidor, xiyar, kələm göndərəcəyik. Bu, hələ təkcə bizim rayonun planıdı. O biri rayonlar da var. Üst-üstə hesab eləyəndə onlar heç də bizimkilərdən az tərəvəz almır hər mövsümdə.

— Eh, ay day-day. Sən deyəsən belə şeyləri başa düşmürsən. Acığıva gəlməsin, ha, ərk eləyirəm. Nöşün ki, bir var məgəzin pomidoru, bir də var, bazar pomidoru.

İbad hələ çox danışacaqdı; Nəzər qabağa baxıb gördü ki, yol azalıb. Rayonun işıqları görünürdü. Körpünü keçib əsas yola çıxmalıydılar indicə. Ancaq Nəzər qoymadı körpüyə çatsınlar.

— Sağa burul, bacı oğlu. Nədən ki, körpünün üstündə sizi saxlayarlar, ilişərsiz. Bax, bu torpaq yolnan sür. Düzdü, bir balaca içəri girəcəyik, amma eybi yoxdu. Seyrəklikdi oralar.

Sürücü Nəzər deyən yolla sürdü. Bəndin üstündən aşandan azca sonra Nəzər:

— Hə, mən çatdım. Bu daş binanın böyründə əylə, bala, — dedi. Və çönüb İbada baxaraq əlavə elədi: — Aclığınız, susuzluğunuz varsa, düşün, bir hovur dincəlin.

— Yox, day-day, sağ ol. Yolçu yolda gərək, — dedi İbad və ona təşəkkür elədi — sağ ol ki, yolu göstərdiz.

— Dəyməz, — deyərək Nəzər qapını açdı və yerə enəndə elə

bil göydən ucaboy, tösmərək bir milis işçisi zənbilnən düşdü düz Nəzərin böyrünə. Və gülə-gülə:

— Nəzər dayı, sənsən? — dedi. — Deyəsən qonaqların var, hə?

— Hə, Balamirzə, bunları qəbul elə, səhər yola salarlar. Bizim bazara bir maşın pomidor-xiyar gətiriblər.

— Baş üstə, Nəzər dayı, — və kabinəyə baxdı, özünü təqdim elədi: — milis kapitanı Balamirzə Əliyev.

Sürücünün matı-qutu qurumuşdu. Yenə əvvəlki kimi ağzına su alıb susurdu, yanında susub qalmış İbada baxırdı. İbad isə özünü elə itirmişdi ki, heç bilmirdi gördüyü yuxudu, yoxsa həqiqətdi? Kapitanın baz-burutuna diqqət yetirir, çıxış yolu axtarır, lakin ağlına heç nə gətirə bilmirdi. Nəzər yerdə, kabinənin böyründə dayanıb siqaretini sümürürdü. İbad, nəhayət, başını çölə uzadıb Nəzərə:

— Adə, ay mərdimazar, sən bizi hara gətirmisən? — dedi və nə isə dodaqaltı söydü.

— Hara lazımdı, ora gətirib, vətəndaş, — deyə Balamirzə dilləndi. — Bura milis idarəsidi.

— Həri? Milis idarəsi? — Bunu deyən İbad idi və bu sözü təkrar edib maşının hələ də söndürülməmiş işıqlarının altında, irəlidə, dəmir darvazalı binanın qabağındakı qara lövhəyə zərli hərflərlə yazılmış «Milis idarəsi» sözlərini oxuyandan sonra inandı ki, ilişib və yaman yerdə axşamlayıb.

Fısıldaya-fısıldaya bu sözləri deyə bildi:

— Namərd. Alə, belə də namərdlik olar?

— Uzun danışma, sənədlərini görüm. — Balamirzə üzünü sürücüyə tutub: — Sən də sür maşını milis idarəsinin həyətinə. Hə, tərpən, vaxtı itirmə, — söylədi.

Kapitan Əliyev onları növbətçi kabinetinə gətirərək sənədlərini alıb nə isə yazmağa başlayanda İbad dilini işə saldı:

— Yoldaş nəçənnik, yazma, sən mənim canım, yazma. Alə, musürman döyülük?

Balamirzə ciddiləşdi:

— Danışığına fikir ver, Həsənov. Bura sənin üçün bazar deyil, milis idarəsidi. «Alə» nədi?

— Həri, həri, baxışdayın, çaşdım. Çox xahiş eləyirəm, oformit eləməyin.

— Olmaz.

— Əşi, nöş olmur ey, hörməti hörmət, minnəti də minnət. Xəcalətüvüzdən çıxaram, vallah, yoldaş kapitan.

Balamirzə güldü, yaşının əllidən keçməsinə baxmayaraq birinə də zədə düşməmiş ağ, mirvari kimi dişləri qalın dodaqları arasından göründü:

— Heç bilirsən sizi kim tutub? Bilirsən o kişi kimdi?

— Yoox. Kimdi ki?

— O Nəzarət Nəzərdi, Həsənov. Bizim Xalq Nəzarəti komitəsinin sədridi.

— Bu? Bu ha?

— Hə.

— Alə, baxışdayın, yoldaş kapitan, mən elə bilmişəm heləbelə adamdı. Vay sənin. Gör ha. Gör kimə rast gəlmişik, sən mənim canım. — Sonra İbad divar dibində lal-dinməz oturub nə isə fikirləşən sürücüyə sarı döndü: — Alə, eşidirsən? Alə, bu narodnı kontrol imiş ey. Başa düşürsən, bu narodnı kontroldu? Ya sənin heç vecüvə deyil? Alə, sənin də pravon-zadın gedir də. Bir kəlmə ağzuvu aç də. Yoxsa yenə yollarnan danışırsan? Həri?

Sürücü laqeyd-laqeyd qımışdı, heç nə söyləmədi.

Balamirzə qələmini işlədə-işlədə dedi:

— Odur ki, nahaq dil-ağız eləmə, Həsənov. Nəzər müəllimin kəsdiyi başın sorğu-sualı yoxdu. Süleyman müəllim də aktivdə bərk asıb-kəsib ki, bu rayondan bir pomidor-xiyar…

Birdən İbadın üzü işıqlandı. Cəhəngləri gəlib qulağının dibində dayandı və ağzının qızıl dişlərinin şöləsi nazik dodaqlarında əks elədi. Və yumruğunu iri, çapıq alnına zərblə ilişdirdi:

— Alə, Süleyman müəllim? Süleyman müəllim dediz, yoldaş kapitan? Katibi deyirsiz də, həri? Həmidovu da, həri?

— Hə, yoldaş Həmidovu deyirəm. Necə bəyəm, tanıyırsan yoldaş Həmidovu?

— Vay sənin. — O, üzünü yenə sürücüyə çevirdi. — Alə, bu necə olub mənim yadımdan çıxıb bayaqdan? Alə, həri. Alə, o Süleymandı. Bizim qohumumuz… Vay sənin.

Balamirzənin qələmi kağızın üstdə ilişib qaldı.

— Qohumundu?

— Alə… baxışdıyın, qohum nədi, lap can-ciyərdi. Maxan tap-

şırmışdı ey mənə. Kirt yadımdan çıxıb. Alə, o, Bakıya hər gələndə əvvəl bizə dəyir, sonra iclasa-zada gedir. Lapbir öylü kimiyik…

— Elə şey olmaz?

— Həri, həri. Telefonu var sizdə?

— Kimin?

— Katibin də.

— Hə. Ancaq mən verə bilmərəm.

— Nöşün?

— İcazə yoxdu.

— Elə şey olmaz. Mən xahiş eləyirəm, onun telefonunu verin mənə, qalanıynan sizin işiviz olmasın.

Balamirzə belə şeylərin çox şahidi olmuşdu. Çətinliyə düşən, ilişən bir neçə adam katibin dostu, qohumu, tanışı olduğunu söyləmiş, ancaq yoxlayanda məlum olmuşdu ki, yalan deyirlər, katibin belə qohumu, tanışı yoxdu. Ancaq İbadın sevinməyindən, canfəşanlıqla katibin telefonunu istəməyindən nə isə inanmaq istədi ki, o, yalan danışmır. Bu, onu ürəkləndirdi və telefon nömrəsini söylədi. İbad sevinə-sevinə, tam bir arxayınlıq içində yaxın gəlib dəstəyi götürdü və nömrəni yığdı.

— Süleyman müəllim? Sizsiz? Salammələyküm. Mənəm. Tanımadız? İbadam da. Fatma xanımın qardaşı. Həri, həri. Sağ olun. Yaxçıdu. Salam-duası var. Yox, sağ olun. Süleyman müəllim. İndi gələ bilməyəcəyəm. Bura qonaq gəlmişdik. Həri, həri. Sizə gələn dəfə gələrəm. İndi? Milis idarəsindən. Həri, həri. Dostumuz beş-on yeşik pomidor-xiyar qoyub. Onu da sizin uşaqlar tutub gətiriblər bura. Həri? Nəçənnik? Yoldaş kapitan burdadı. Həri, Əliyev yoldaş… Baş üstə, bu daağa verirəm trubkanı ona… Baş üstə, deyərəm mamama.

İbad dəstəyi kapitana uzatdı və özü siqaret alışdırdı, sürücüyə göz vurdu. Balamirzə dəstəyi əlinə alan kimi ayağa qalxdı və katiblə danışmağa başladı:

— Bəli, yoldaş Həmidov. Kapitan Əliyevdi. Bəli. Nəzər müəllim gətirib. Bəli, bəli. Baş üstə, yoldaş Həmidov, baş üstə. Yox, yəqin bilməyib, yoxsa… gətirməzdi. — Balamirzə güldü: — Onu da düz buyurursuz, yoldaş Həmidov. Nəzər dədəsi də olsa gətirərdi. Bəli. O da elə adamdı da… Bu saat taparam Nəzərin özünü. Bəli, sizin sözünüzü çatdıraram ona, mütləq çatdıraram. Aparıb ötürər, yoluzaq eliyər. Arxayın olun. Sağ olun, yoldaş Həmidov.

Kapitan dəstəyi asdı və İbada baxıb güldü:

— Bəs bunu qabaqcadan deyə bilməzdin?

— Deyirəm, kirt yadımdan çıxmışdı. Hə, nə dedi?

Balamirzə İbada cavab vermədi, yazdığı kağızı cırdı, ovcunda sıxcalayıb böyründəki zibil qutusuna tulladı və:

— Al, bu sənin pasportun. Bu da sənin pravan… — deyib ayağa qalxdı; İbad pasportunu cibinə qoyub sürücünün sənədlərini də özünə verdi və mənalı-mənalı qımışdı.

Dəhlizə çıxdılar. Balamirzə o tərəf-bu tərəfə nəzər saldı. Nəzər müəllimi görməyib ucadan çağırdı:

— Nəzər müəllim, ay Nəzər müəllim.

Qapısı açıq otaqdan Nəzərin səsi eşidildi; burulub içəri boylandı. Nəzər telefonla danışırdı:

— Hə, Sədnikin qızı, beş ton. Hə, nə az, nə də çox. Yağlı tikədi. Uşaqsan, Nəzərin gözündən hara yayına bilər. Yaxşı, məndən nigaran olma. Yaxşı, gecən xeyrə qalsın. Maşını? Maşını buraxmışam. Teyyub Bakıya gedib. Niyaran olma.

Nəzər qımışa-qımışa, özündən razı halda Balamirzəyə baxıb gülümsündü.

Balamirzə içəri girib qapını çəkdi:

— Deyəsən arvadağaya hesabat verirdin, hə?

— Hə də. Mən bu rayonun narodnı kontroluyam, Sədnikin qızı da mənim. Neyləyim. Gərək ona hesabat verəm.

Balamirzə bic-bic güldü.

— Nəyə gülürsən, Balamirzə? — Nəzər şübhəli-şübhəli soruşdu. — Oformit elədin? Ə, nəyə gülürsən? Ə, yoxsa açıb buraxdın bu faşist uşağını?

Balamirzə stul çəkib əyləşdi:

— Nəzər müəllim, iş ayrı cürdü.

— Necə yəni ayrı cürdü?

— Heç bilirsən tutduğun kimdi?

— Kimdi?

— Süleyman müəllimin qohumu…

Nəzərin sifəti dartıldı, üzünə bir təəccüb ifadəsi qondu, ağ pırpız qaşları qalxıb alnının ortasına gəldi.

— Elə şey olmaz.

— Vallah.

— Nə danışdığındı, ay Balamirzə?

— Elədi, Nəzər müəllim. Yanımda götürdü zəng elədi. Birevli kimidilər. Bəli. Hələ evə də dəvət elədi, gedə razı olmadı.

— Nə dedi bəs?

— Dedi, Nəzər müəllim indi də mənim adamlarıma sataşır? Dedi, aç burax, getsin. Dedi hələ Nəzəri də tap, qoy özü yoluzaq elə-sin onu. Hə, həl-həlbət tap dedi.

Nəzər qalxdı. İşimiz var da, — söylədi və iki addım da atıb: — Ə, bəs demədin bu faşist uşağı faşistin alnına yazılmayıb ha, kimin qohumudu, nəyidi, — deyib sanki cavab gözlədi.

— Yox, demədim, Nəzər müəllim.

— Belə olur da. Amma belə olmamalıdı, Balamirzə. Vallah be-lə olmamalıdı, billah, belə olmamalıdı.

Balamirzə lal-dinməz dəhlizə çıxdı. Nəzər də onun dalınca. İbad dayanıb gözləyirdi. Nəzərə qəzəblə baxdı, ancaq sonra gülə-gülə:

— Hə, Nəzər day-day, — dedi. — Belənçik-belənçik işlər.

Nəzər dillənmədi.

İbad kapitandan soruşdu:

— Süleyman müəllimin tapşırığını Nəzər day-daya başa saldın?

— Mən sizi aparıb ötürməyəcəm, — Nəzər qapqara boğulub qə-zəblə söhbətin nə barədə olduğunu başa düşdüyünü oğlana bildirdi.

İbad sakit, soyuqqanlı bir tərzdə:

— Süleyman müəllim tapşırıb, — dedi. — Sən mənim canım, elə demədi katib, yoldaş kapitan?

Balamirzə oğlana cavab verməyib üzünü Nəzərə çevirdi:

— Mən özüm aparardım, Nəzər müəllim. Ancaq idarədə heç kəs yoxdu, mən dejurnayam. İndi ta keçib, bu «Yaxşı yol»acan ötür uşaqları, sonra özləri gedərlər. Həm də birdən bizimkilərə rast gəlsə-lər, başa sal, işləri olmasın. Yoxsa elə səhərəcən siz tutub gətirəcək-siz, biz buraxacağıq.

Nəzərin dişi bağırsaqlarını kəssə də, Süleymanın dalınca ürə-yində deyinsə də, çarəsiz halda, qabağa düşüb həyətə yendi. Bir az sonra… maşın milis idarəsinin həyətindən çıxdı.

… Yenə kabinədə üçü oturmuşdu. Ancaq indi Nəzər müəllimi İbad sürücü ilə öz arasına salmışdı. Küsülü adam kimi heç biri danış-mırdı. Sürücü onsuz da lal idi. Nəzər isə hirsindən dinmirdi. İbad, kefi kök idi deyə, fit çalırdı və qəsdən Nəzəri cırnatmağa çalışırdı.

«Yaxşı yol» restoranının tuşuna çatanda Nəzər dilləndi:

— Hə, burdan o yana yol rahatdı. Elə düz gedərsiz. İndi saxla, mən düşüm.

Sürücü ayağını qazdan çəkəndə İbad onun böyrünü dümsüklədi və Nəzərə:

— Yox, day-day, — dedi. — Bizi lap o aşırımacan aparacaqsan, həri, Süleyman əmim deyib.

— Ə, saxla sənə deyirəm.

Sürücü maşının sürətini artırdı. O da çəkdiyi qorxunun acığını bununla çıxırdı.

— Yox, gedəcəyik. Hələ ora xeyli yol var. Bir də, indi sən düşüb qayıdacaqsan, yenə bizi sizin uşaqlar tutacaqlar. Mən deyəcəm katibin adamıyam, onlar inanmayacaqlar. Həri, sən yaxçı bilirsən ki, onlar adama, adamın sözünə inanmırlar. Həri, yaxçı bilirsən. Özün dünya görmüş adamsan, day-day. Amma, acığıva gəlməsin, sən yaxçı adam deyilsən, day-day. Adam kişi olar, həri, kişi.

— Ə, sən kişilik nəyə deyirsən? — Nəzər hirsindən fıs-fıs fısıldadı.

— Kişilik? Kişilik bilirsən nədi, alə? Bu yaşa gəlmisən, saç-saqqal ağartmısan, hələ də bilmirsən kişilik nədi? Kişilik odu ki, adamın qolundan tutub düz yola çıxardasan. Ta sənin kimi, azanı düz yola çıxarmaq əvəzinə aldadıb birbaş milisə gətirmək kişilik deyil, day-day.

— Başa düşən olsaydın, bilərdin ki, mən səni elə düz yola çıxarırdım, bala. Amma qanmadın. Eybi yox. Get, amma bil ki, bu yol ki, sən tutmusan, uzağa gedəmmiyəssən, axırı ilişib bədbəxt olassan. Vallah olassan, billah, olassan. Bax, indi getdiyin bu yolun ucu bilirsən harda qurtarır?

— Harda qurtarır?

— Düz ağzıbirin qapısında, bala.

— Ağzıbir nədi, kişi?

— Ağzıbir bilirsən nədi? Qazamat, türmə, bala. Başa düşdün? Ya yenə sayım?

— Ged, alə, ged. Yox bir hamam.

— Bir sözdü dedim. Vaxt gələr, ağzın yananda, qanarsan. Ancaq onda gec olacaq, vallah, gec olacaq, billah, gec olacaq.

İbad iki saatdan bəri çəkdiyi ağrını, acını tikanlı sözlərilə azalt-

maq istəyirdi:

— Sənin saçın-saqqalın ağarıb, ancaq ağlın ağarmayıb, day-day. Sən bu qədər yaşamısan, görəsən elə-belə, bu cür yaşamısan? Həri? Bu cür də yaşayacaqsan? Eləsə vay sənin arvadının, uşağının halına. Sən bu dünya deyilən şeydən heç nə qanmamısan. Bilmirsən ki, insan dünyaya bir dəfə gəlir, sonra… daha heç nə yoxdu. Odur ki, yaxçı yaşamalıdı insan. Yeməlidi, içməlidi, kef çəkməlidi, ürəyi nə istəyir, onu da dadmalıdı. Bunun üçün isə nə lazımdı? Pul. Həri, pul, day-day. Pulun var, kişisən. Yoxdu, füüü — o, dodaqlarını irəli uzadıb uzun-uzadı üfürdü — vozdux. Bildin, voxdux. Pul isə öz-özünə gəlib girmir adamın cibinə, day-day. Gərək əlləşəsən, vuruşasan, özünü oda-közə vurasan, onda pul gələr. Yoxsa, zaraza, gəlmir, gəlmək istəmir!

— İşlə də!.. İşləsən…

— Hm… — İbad onun sözünü göydə kəsdi. — Fu! İşlə. Söz tapıbsız… işlə. Alə, işləyənə nə verirsüz? Bax, bu oğlan, — deyə o, sürücünü göstərdi — helə bilirsən işdəmir? İşdiyir. Özü də canidilnən işdiyir. On il avtobusnan stroykanın fəhlələrini şəhərdən yığıb Mərdəkana aparıb, Mərdəkandan şəhərə qaytarıb. Ayda yüz iyirmi manat pul veriblər. Nədi, alə, yüz iyirmi manat, heç nə. Üç uşağı var, arvadı da işləmir — canı nasazdı. Bu beş başa yüz iyirmini böl, çatdır, xərclə görüm necə xərcləyirsən. Özü də şəkil kimi oğlandı. Yaxçı geyinib-keçinib şəhərə çıxsa, mən ölüm, heç kəs bilməz ki, bu şoferdi, elə bilərlər ki, görəsən hansı zamministirdi, ya ministirdi. Həri! Elə bilərlər. İndi bu təzə maşını götürüb — bandabazadan! İndi deyəcəksən bandabaza nədi? Deyəcəksən ki, alə, bizim zamanada bandabaza olar? Həri, olar. Həri, var. Orda işləsən, bilərsən, var bandabaza və bilərsən nə deməkdi bandabaza. Üç min verib bu maşina. Həri, düz üç min. Hökumət bu maşını verir bazaya, qanunnan o maşın bazada işləyənnərə verilməlidi. Özü də növbəynən. Ancaq növbə gözləyən kimdi? Heç kəs. Kimin pulu var, odu birinci. On il işlə, maşının sökülüb dağılsın, atılmalı olsun, əgər pul verməsən müdirə sənin canın elə o maşında çıxacaq. Amma mən, dünən gələni sabah aparıb nəçənniyin qabağına üç min manat qoyum, elə həmin gün bir təzə maşın götürüm, həri, bu ölsün, — o, üzünə bir şapalaq çəkdi, — həri. Ya elə mənim özüm, uzağa nöş gedirik? Mən…

Nəzər hikkəsindən heç qulaq da asmırdı. Fikrinə gəlirdi ki, bu cavan oğlanın niyyəti ayrıdı deyəsən. Odur ki, birtəhər maşından düşüb

canını qurtarmaq haqda düşünürdü. Ancaq bəhanə tapa bilmirdi.

— A bala, saxla görək bu drandaletini.

İbad yenə sürücünün böyrünü basdı və:

— Hara tələsirsən ey, söybət eləyirik özümüzçün. Sən demiş, yola körpü salmaq lazımdı, ya yox? Həri, həri, lazımdı, — dedi.

Nəzərin açıq-aşkar narahat olduğunu görsə də, özünü o yerə qoymayıb ləzzət ala-ala davam elədi:

— Mən pis oğlanam? Yox, sən mənim canım, düzünü de, mən pis oğlanam? Yox, gül kimi oğlanam, day-day. Mən indi xərcləmək, yaşamaq istəyirəm. Onunçun isə pul lazımdı. Düzdü, maxan mənə korluq vermir və Süleyman əminin də bir əli bizim üstümüzdədi. Palpaltarımızı vərir, xərcliyimizi vərir. Ancaq yenə azdı, çatmır. — Sözü bura çatanda İbad birdən alnına vurdu, yersiz danışdığını başa düşüb xırp susdu və bu sükutun şübhə doğura biləcəyini də anlayıb:

— Kişilik deyirsən. Nə kişilik, alə? — dedi. — Pulsuz nə kişilik?

Amma Nəzər onun axırıncı sözlərini yaxşıca tutmuşdu və Süleymanın bu oğlana, Fatma xanıma, anasına nə yolla, hansı tellə bağlı olduğunu dumanlı şəkildə olsa da başa düşmüşdü, oğlanın birdən-birə susmağının da səbəbini anlamışdı. Bayaqdan bəri onun əlindən yığdığını iki kəlmə acı sözə qatıb oğlana yedirtməyin əsl məqamı çatdığını hiss eləyib:

— Hər halda, mən belə düşünürəm ki, maxanının hesabına yaşamaq da bir kişilik deyil, — söylədi və o, cavab verib qanını qaraltmasın deyə dərhal əlavə elədi:

— İbad, bura bənddi ha. Çatmışıq. Oğlana denən əyləsin maşını.

— Doğrudan! Çatmışıq? — Boylandı qaranlığa — Həri, həri, bənddi. Nəzər tərpəndi, İbad qapını açıb yerə hoppandı, Nəzər ağır-ağır düşdü. Üz-üzə dayandılar.

— Burdan mərkəzə neçə kilometr olar? — İbad soruşdu.

— Olar da. On-on iki kilometr.

— Hə, indi bu yolu, kişi, piyada, qıçını çəkə-çəkə gedərsən və yolda da fikirləşərsən ki, mərdimazarlıq yaxçı şey deyil — bu, sənə dərs olar, day-day.

— Mən mərdimazar deyiləm. Mənim… axsamağıma da lağ eləmə. Mənim qıçımda faşist mərmisinin qəlpəsi var. Mən vətən yolunda…

İbad şit-şit güldü:

— Yaxçı söz tapıbsız. «Vətən yolunda, vətən yolunda…» Vətən yolunda ölənlərin heç səsi də çıxmır. Deyəcəksən ölünün də səsi çıxar? Siz — dirilər qoysaz, ölənlərin də səsi çıxar. Amma elə siz «mən, mən» deyib bağırırsız. Nədi, nədi, iki-üç güllə atıbsız nemesə, bəziniz Biləcəridən o yana getməyib, bəziniz ölənlərin ordenini, medalını asıbsız yaxavuzdan, şəstlə gəzirsiz, hökumət də, sağ olsun, sizinçün spesməgəzinnər açıb. Nə difsit mal mal, sizin məgəzindədi. Siz ala bilərsiz, biz yox. Bax, bu oğlan getmişmiş məgəzinə, xalça varmış, yaxçı xalçaymış, almaq istəyirmiş. Deyiblər yox, veterannarçundu bu. Bu da deyib ki, mənim də atam müharibə iştirakçısıdı. Deyiblər, zəhmət çəkib özü gəlib alsın. Deyib axı, atam orda, frontda ölüb, nə təhər gəlib alsın? «Ölüyə xalça düşmür» deyiblər. O da gedib bir piyaniskə veteran tapıb, cibinə əlli manat pul qoyub, o xalçanı alıb. Amma sizə düşür. Mən özüm maşınımçun təkər axtarırdım. Dedilər «Olimp» məgəzinində var. Getmişəm, qız mənə deyir veteranlar üçündü, qədeş. Əgər onlara lazım olmasa, bəlkə birtəhər düzəldərəm. Hirs vurdu kəlləmə, dedim, bacı, ağ eləmisiz lap. Az qalmısızki, məsələn, mən evlənmək istəsəm, bir qız tapsam, ona da deyəsiz ki, vətəndaş, hələ dayan, görək veteranlara cavan qız lazım deyil ki. Lazım olmasa, evlənə bilərsən. Həri, elə beləcə də dedim. Güldü qız, həri, çox güldü. «Onlara hörmət eləmək borcumuzdu, qədeş, onnar olmasaydı, indi biz yox idik» — dedi. İndi sən də deyirsən, qıçında nemes qəlpəsi var. Səhv eləyirsən, day-day. Qəlpə sənin qıçında yox, ürəyindədi, day-day. Sənin ürəyin çürükdü, boşdu, day-day. Başqasının çörəyinə bais olan ürək çürükdü, lap çürükdən də çürükdü. Sən vətən yolunda ölsəydin, bundan min dəfə şərəfli olardın, alçaq! — deyərək, gözlənilmədən Nəzərin döşündən itələdi, cəld qalxıb kabinəyə girdi. Maşın toz qaldırıb nərilti ilə irəli şığıdı.

İbadın zərbəsindən səntirləyib yıxılmaqdan özünü güclə saxlayan Nəzər dodaqları əsə-əsə, uzaqlaşdıqca dal işıqları xırdalaşıb kiçilən maşının arxasınca baxıb:

— Ay sənin! Faşist oğlu faşist! — dedi və əlini ürəyinin üstünə qoyub yerə oturdu.

… Nəzər, İbad deyən kimi, qıçını çəkə-çəkə (bu söz onu yaman yandırmışdı, hələ indiyəcən bu sözü onun üzünə beləcə şax deyən olmamışdı) yolun qırağı ilə ağır-ağır addımlayırdı. Bu gün başına gələn bu qəribə əhvalata və xüsusilə sırtıq və həyasız oğlanın deyiklərinə heç cür inanmaq istəmirdi; elə bilirdi, çox qatmaqarışıq, mən-

tiqsiz, başı-ayağı olmayan əcaib bir yuxu görüb. Başa düşə bilmirdi, həzm eləyib axırını bir yerə çıxarda bilmirdi Nəzər. Həyatın çox üzünü, sərtliklərini, amansızlıqlarını görmüşdü, heç vaxt təmkinini əldən verməmişdi, səbirlə ölçüb-biçib hər şeyi yerbəyer eləmişdi, nəyin niyə belə olduğuna aydın cavab vermişdi. Ancaq indi çaşıb qalmışdı. Gündüz fəalların iclasında katibin odlu, parlaq çıxışına salonun axırıncı cərgəsində oturub qulaq asan Nəzər, açığı, ürəyində bir fərəh də duymuşdu. «Sağ ol, Sülü!» — demişdi öz-özünə. — «Yaxşı danışırsan». Həqiqətən, Süleymanın sözlərində bir kəskinlik, bu camaata, rayonun təsərrüfatına, planlara ayıq-sayıq bir nəzərlə baxıb qiymət verən bir katibin ürək çırpıntılarını duymuşdu Nəzər.

«— Əvvəl evin içi, sonra çölü, yoldaşlar! Bu il bol bostan-tərəvəz məhsulumuz var. Açıq deyirəm, bu rayonun ərazisindən bir kilo tərəvəz respublikadan kənar yerlərə satılmaq üçün aparılsa, özümüzdən küsün. Milisə, nəzarətə, QAİ-yə tapşırırıq bu işi, hərənizin öz sahəsini müəyyən etmişik. Kimin sahəsindən bir maşın keçib pomidor, xiyar… aparsa, o yoldaş partbileti ilə cavab verəcək. Sonra məndən inciməyin… Yoxsa, nə təhər olur, bu camaat əkir, becərir, özü dadmamış, bir çox işbazlar, alverçilər bir də görürsən yığıb apardı! Belə olmamalıdır… Yoxsa… biz ərzaq proqramını…»

Yaxşı sözlər idi. Ancaq bəs bu — indi Nəzərin gördüyü nə idi? Süleymana bərk acığı tutmuşdu, pərişan olmuşdu kişi.

Ancaq, o söyüd ağacı altında bir az əvvəl birdən-birə hardansa peyda olan bu qırışmal İbad deyilən gədə, onun bu yaşda, bu məqamda başına (Süleymana güvənib) gətirdiyi müsibət (Nəzər, doğrudan da bunu özü üçün böyük müsibət və təhqir hesab edirdi) siqaretini tüstülədə-tüstülədə addımlayan Nəzəri daha çox pərişan eləmişdi.

Bu qatqarışıq yuxudan ən çox yadında qalanı və bütün varlığını sarsıdanı İbad idi. Bu, onun üçün gözlənilməz bir «tapıntı» idi. Nəzər indiyəcən elə bilirdi ki, o, bu həyatın hər gününü bilir. Amma bu oğlanla görüşdən sonra başa düşmüşdü ki, yox, hələ onun bilmədiyi çox şeylər varmış. Bu dünyanın Süleymanlarından, Şakirlərindən, Mikayıllarından, Müseyiblərindən, Mustafalarından başqa, bir İbadları da varmış ki, çox qəddar imişlər, ən müqəddəs şeyləri belə ayaq altına atıb tapdalamağa qadir imişlər. Bunların hamısı dəhşətliydi Nəzər üçün. Əgər cərgələsəydi və ixtiyarı olsaydı, ilk zərbəsini bu İbadlara vurardı, onları yox eləyərdi və uf da deməzdi. Baxırsan, hamısı bir ovucdu, azdı, ancaq necə qorxuludu, necə dəhşətlidi, necə

sirayətedicidi bunlar, aman allah. Və bunlar hardan peyda olurlar, kimdi, nədi bunları belə qoruyan, saxlayan, yaşadan? — Heç kəs. Onların hamısı, əgər diqqətlə axtarsan, bir-biriylə bağlıdı, bir-biriylə qohumdu, tanışdı və bir-birini yaşadırlar bunlar. Yoxsa, bunlar tək olsalar, neyləyə bilərlər? — Heç nə? Nəzər qıçını çəkə-çəkə (qəribəydi ki, hər addımını atanda o İbadın) dediyi sözü yenidən eşidən kimi olurdu və acıqcan qıçını çəkməmək, qatlayıb yerimək istəyirdi, lakin təəssüf ki, bacarmırdı və bu da qəribəydi ki, o, bu sözü eşidəndən sonra dizinin kündəsinin altında küt bir ağrı başlamışdı, sümüyü sızıldayırdı elə bil, qəlpə, adının çəkildiyini eşitmişdi və «mənəm, mən burdayam!» — deyərək öz varlığını hiss elətdirmək istəyirdi) gedirdi və bir də onda ayıldı ki, yanında bir yük maşını dayandı. O qədər özünə qapılmışdı ki, nə motor səsini eşitmişdi, nə də onu nurlandıran və yanından şığıyıb keçərək qabağı da aydınlaşdıran o işıqları görməmişdi.

Qulağının dibində kal, yuxulu bir səs eşitdi:

— Day-day, bu yol Bakıya gedir?

Nəzər bu «day-day» sözündən səksənib səs gələn səmtə çönmüşdü.

Nəzərin hirsi soyumamışdı. Bayaq, İbad onun döşündən itələyib gedəndən sonra, bir anlığa Süleymana da nifrət eləyib: «əh, o belə eləyəndən sonra, mənə nə düşüb?» — deyə düşünmüşdüsə, iki-üç dəqiqə keçməmiş, bu fikri özündən uzaqlaşdırmışdı, «yox, Nəzər onda bu sən olmazsan!» — demişdi və «öldü var, döndü yoxdur» qərarına gəlmişdi.

Bu dəfəki ovunu qanuni olaraq gətirmişdi. Maşın milis idarəsinin qabağında dayananda artıq saat ikinin yarısıydı. Onu, həyətdə maşından düşən kimi, yenə Balamirzə qarşılamışdı.

— Təhvil al, bala. Ümid eləyirəm ki, bunlar Süleymanın qohumları deyil. — Balamirzənin bir söz deməsinə imkan verməyib: — Nəçənnik burdadı? — deyə soruşdu.

— Hə, burdadı. — Balamirzə əsnəyə-əsnəyə söylədi və maşının yanında dayanıb nəsə pıçıldaşan iki nəfərə yaxınlaşdı. Nəzər daş pillələrin elə birincisinə qədəm qoymuşdu ki, milis idarəsinin rəisi Bəhmən Ağayev qapı ağzında göründü. Pilləkən başında Nəzəri görən kimi dedi:

— O, Nəzər, sənsən? Ha, ha. Əşi, deyir, bu gecə yaman qan eləmisən. Yaxşı, yağlı…

— Ta demə, Bəhmən.

Bu zaman Bəhmənin gözü Balamirzə ilə gələn iki nəfərə sataşdı və Nəzərə əhəmiyyət verməyərək:

— Ba, ə, Nüsrət? Ə, sən burda neynirsən bu gecə gözü? — deyə onlardan birinə — panamalı, boz plaş geymiş kişiyə müraciət edəndə, Nəzərin başına elə bil bir qazan qaynar su tökdülər; Kişi elə yerindəcə quruyub qaldı, tərpənməyə taqəti belə olmadı.

Nüsrət deyilən kişi, adını eşidib qamətini düzəltdi və iti addımlarla, Balamirzəni də arxada qoyub irəli cumdu, iri əlini irəli uzadıb rəislə çox mehriban görüşdü:

— Ə, yoxsa səni də Nəzər tutub gətirib, hə?

Nüsrət güldü:

— Hə, heylədi, Bəhmən qağa.

— Ay Nəzər, bu gecə sənə nə olub, yuxunu-zadı qarışdırmayıbsan ki? Gah katibin adamını tutursan, gah milis rəisinin adamını tutursan, kişi?!

Nəzər altdan yuxarı polkovnikə baxdı, sonra dönüb Nüsrətə ötəri nəzər saldı və mənalı-mənalı:

— Hə, düz deyirsən, mən yuxumu qarışdırmışam, — dedi. Və ağır addımlarla yola düzəldi.

Arxadan gülüş səsi eşidilirdi — onlar ucadan gülürdülər.

Bu qaranlıq gecədə Nəzərin üzünə baxan olsaydı, gözlərinin qəzəbdən yaşardığını görərdi.

ON BEŞİNCİ FƏSİL

Qərib kabinetə girəndə, səsə başını qaldıran Nəzər, gözlərinə inanmadı; çünki oğlu, o, bu idarədə işləməyə başlayandan nəinki bura ayaq basmamışdı, heç onun həndəvərinə belə dolanmamışdı. Ona görə Nəzər qorxdu ki, yəqin nə isə olub. Qorxu içində, stoluna doğru inamsız addımlarla yaxınlaşan oğlunun salamını da almamış, tələsik dilləndi:

— Səndən nə əcəb, ay oğul? Yoxsa bir hadisə-zad olub?

Qərib əlini vaxtından qabaq tökülüb, seyrəlməyə başlamış saçına çəkərək:

— Yox, əşi, heç nə olmayıb. Gərək bir şey olsun ki, gəlim? — söylədi.

— Belə çıxır da. Mədəniyyət eviynən buranın arası heç yüz addım deyil, bu vaxta qədər bir dəfə də qapını açıb içəri girməmisən.

— Sən iş adamısan. — Nəzər oğlunun səsindəki kinayəni duydu, ancaq üstünü vurmadı. — Mane olmaq istəməmişəm, dədə. Bizim kimi bekarçılıqdan milçək tutmursan ki…

— Otur görüm. — Nəzər oğluna yer göstərdi, sonra əl atıb böyrünə, ayağının altına qoyduğu soyutmazdan təmiz stəkana çay süzüb Qəribin qabağına sürüşdürdü. — Bir stəkan çay iç, yanğın yatsın. Görürəm, dilin-dodağın təpiyib.

— Hə, yaman istidi, heç nəfəs almaq olmur. Deyirsən yanı çay yanğı yatırandı?

— Bə nədi? Siz cavanlar elə bilirsiz, yayda ancaq sərin pivə ilə ürəyin, ciyərin atəşini söndürmək olar. Yox, oğul. Yayda, yayın cırramasında yanğını yatıran çaydı, qışın zəlo-zəlo vaxtında da canı qızdıran çaydı. İşlərin nə təhər gedir, a bala?

— Gedir də. «Üç badam, bir qoz» öyrədirəm xorumuza. Amma heç cür öyrədib qurtara bilmirəm. Axmaqlar yekə adamlardı, ancaq bir yerdə bir ağızdan bir «qoz» sözünü də deyə bilmirlər.

— Niyə?

— Nə bilim. Gələn də yoxdu. Birini tutub gətirirsən, o biri qaçır.

Qərib istəyirdi desin ki, bu mədəniyyət evində işləmək heç cür mümkün deyil, çünki rayonun rəhbər təşkilatları incəsənətə fikir vermirlər, güc-bəla ilə ordan-burdan adam tapıram, yalvarıb-yaxarıb dərnəklərə, özfəaliyyətə, xora yazıram, amma qoymurlar — deyirlər, işin-gücün bu vaxtı nə xor, nə özfəaliyyət, a bala. Plan yanır — sən də kef hayındasan. Səhər də elə özləri məni çəkəcəklər məhşər ayağına ki, bəs Qərib Nəzəroğlu, niyə işləmirsən? Hanı sənin konsertin, hanı sənin mədəni-kütləvi işin?» Bunları deməkdən vaz keçdi, çünki onun gözlərinin qabağında bu saat ağ «Jiquli» cilvələnirdi — başqa heç nə yox. O, elə pərvazlanmışdı, elə ruhlanmışdı, xəyal öz qanadlarına alıb elə aparmışdı ki, burada, atasının qabağında oturmağına baxmayaraq, özünü Yasinin hər gün kəhər at kimi, iki-üç dəfə qaşovladığı, yuyub-sildiyi o cağ maşının sükanı arxasında hiss eləyirdi; maşın düz-hamar Bakı yolunda yel kimi uçurdu, pəncərənin şüşəsini də açıq qoymuşdu — hər yan cəhənnəm odu içində zəbanə çəkib yansa da, onun üzünə, sinəsinə yel dəyirdi, köynəyinin yaxasını şaqqıldadırdı və qəribəydi ki, Qərib bu şaqqıltını da eşidirdi. Arxada isə düm

ağ paltar geymiş qız oturmuşdu, çiyinlərinə tökülmüş qara saçlarını külək oynadıb üz-gözünə çırpırdı və bunu qabağındakı aynadan görən oğlan indiyəcən duymadığı qəribə bir həzz alırdı. Bu da qəribəydi ki, Qərib o qızı tanımırdı, adını bilmirdi, gözlərinin rəngini də xatırlamırdı. Qız arxadan nəsə deyirdi, gülürdü, ancaq o, heç nə başa düşmürdü. Elə sürürdü o ağ maşını, o maşın da az qala asfalt yoldan qopub qanad gətirirdi, uçmağa başlayırdı…

— Heç deyəsən mənim sözlərimə qulaq asmırsan, ay oğul. Göylərdəsən elə bil, — deyəndə Qərib doğrudan da səksənən kimi oldu, uzun kirpiklərini qırpıb atasına, o yan-bu yanına baxdı və özünü o ağ maşında uçan yox, yerdə, bu kiçik otaqda görüb çaşqın-çaşqın:

— Yoox, — dedi, — qulaq asıram.

— Mənə heç vaxt yalan danışma, oğul, — deyə Nəzər ciddiləşdi — bu sözü sənə neçə dəfə demişəm, amma bil ki, indi axırıncı dəfə deyirəm. Hə, hə, o yan-bu yan eləmə, mənim gözümdən tük də yayına bilməz. Mən görürəm, bayaqdan sənin özün burdasan, amma fikrin-zikrin ayrı yerdədi. İndi de görüm nə olub?

Atasının həssaslığının çox şahidi olmuşdu, elə bil bu kişidə nə isə gözdən ürəyi oxumaq qabiliyyəti vardı. Və həmişə də özünə söz vermişdi ki, heç nə gizləmək lazım deyil, onsuz da o hər şeyi görür, nə qədər məharətlə içini-ürəyini, əməlini ört-basdır eləmək istəsən də, faydası yoxdu — açıq desən, udarsan, xoşuna gələrsən Nəzərin. Lakin öz ürəyiylə bacara bilmirdi, iş elə gətirirdi ki, o, həmişə sözü birbaşa yox, dolayısı ilə, dolanbac yollarla gələ-gələ demək istəyirdi və nəticədə uduzurdu, pərt olurdu. Bir də buna heyrət eləyirdi ki, bu kişi nə qədər də hövsələlidi, səbirlidi, təmkinlidi. Qəribdə bu səbir, bu dözüm yox idi…

Bayaqdan bu cansıxıcı söhbətin tez qurtarmasını istəyən Qərib, indi, atası sualı kəsəsinə qoyub cavab tələb eləyəndə başlamağa çətinlik çəkirdi.

— Hə, niyə susursan, dillənsənə?

— Dədə, sən… mən…

— Ədə, nə məkkildəyirsən, de görüm nə deyirsən?

— Dədə, mən… — deyə, nəhayət, o, bütün gücünü toplayıb mətləb üstünə gəldi — mən Yasinin işi üçün gəlmişəm yanına.

Nəzər Yasinin adını eşidən kimi pırpız qaşlarını çatıb qaşqabağını salladı. Qəribin gözlərindəki ümid, sevinc qığılcımları öləzidi.

— Yasinin nə işi üçün, ay oğul? — Nəzərin səsi quru və sərt idi.

— O işi üçün də… Yağ məsələsi…

— Hm. Belə de. Özü gəlmişdi sənin yanına?

— Hə, dədə. Özü gəlmişdi. Yazıq ölüb ayaq üstə. Yalvardı ki, sənə deyim, o aktı cırıb atasan. Mən indiyəcən heç kəsin xahişini eləməmişəm səndən, dədə. O, Yasin tay-tuşdu mənimlə. Yaxınıq, çox yaxınıq. Xahiş eləyirəm…

— Heç bilirsən o neyləyib?

— Neyləyib ki? Deyir, bir az yağ satmışam.

— Bir az? Faşist oğlu faşist. Sənin yanına xahişə gəlir, səni də aldadır. Adə, bir qutu yağ bir azdı? Özü də kilosunu neçəyə versə yaxşıdı? Səkkiz manata. Bir qutu yağ. Bu heç bilirsən nə deməkdi? O deməkdi ki, Məmmədin evində iyirmi kilo yağ olacaq, amma qırx ailənin evində bir qram da yağ olmayacaq. Niyə? Məmməd allahın bacısı oğludu? Ya Yasini ora ona görə qoyublar ki, yağ yox, vicdanını tərəzinin gözünə qoyub satsın?

— İndi bir işdi də olub, dədə. Oformit eləmə. Özü də bilirsən, sənə necə deyim… Bilirsən, mənim ən böyük arzumu yerinə yetirir Yasin. Əgər sən bu işi düzəltsən.

Nəzərin qaşları gözlərinin üstündən qalxıb alnının ortasına gəldi:

— Nə arzunu, a bala?

— Dədə, mən… — Qərib yağlı tikə görmüş ac adam kimi udqundu — mən həmişə maşın almaq arzusu ilə yaşamışam. Mənim tay-tuşlarımın çoxunun maşını var — bunu sən özün yaxşı bilirsən. Mənim yoxdu, dədə. Sən də mənə maşın ala bilməyəcəksən. Müəllim olanda da ala bilmədin. İndi heç ala bilməyəssən, dədə. Amma mən istəyirəm, dədə, çox istəyirəm.

Nəzər maraqlandı:

— Hə, Yasin deyir ki, sənə maşın alacaq?

— Yox ey, almır ey, öz maşınını verir mənə. Deyir, sən öl Qərib, dədənnən o aktı al, cır at, ləğv elətdir, bax bu maşını keçirirəm sənin adına. Guya satır da mənə? İnanmırsan?

— …

— İnanmırsansa, bax, bu da açarları. Verib mənə. Deyir…

Nəzər ayağa qalxdı, Qəribin əlində cingildətdiyi açarlara baxdı və oğlanın gözləmədiyi halda yumşaq bir səslə:

— Hə? Lap açarları da verib? — deyə soruşdu.

— Bə nədi? Yasin sözübütöv oğlandı, dədə. Anam canı, elə yalvarırdı ki, daş da olsa, əriyərdi. Deyirdi, məni Nəzər müəllimin qılıncından xilas elə, ömrüm boyu sizin hamınızın quluyam. Hələ bunu da dedi ki, əgər maşın lazım deyilsə, nağd pul verim, beş min, on min — nə qədər istəyir verim, təki məndən əl çəksin.

— Demək, on minə gücü çatar?

— Əlbəttə, çatar. On min onun üçün nə puldu ki, dədə. On ilə yaxındı ki, ticarətdədi.

— Hə… Yığıb demək.

— Bə nədi? Camaat qaz vurur, qazan doldurur.

Qərib sevincək olmuşdu. Açarlar əlinin içində isinmişdi, doğmalaşmışdı elə bil. Kişinin belə yumşaq-yumşaq danışmağından ürəyi atlanmışdı. «Şükür ki, deyəsən, saçının-saqqalının çal vədəsində, nəhayət, ağıllanmağa başlayıb kişi. Başa düşüb ki, belə yaşamaq olmaz. Yəqin o dəfə Arif haqqında dediklərim başına batıb. Amma yaman dedim ha. Adə, hamı yeyir. Kimin əlinə harda nə düşür yeyir. Bu isə, bədbəxtin oğlu, elə bil heç bu dünyanın adamı döyül. Yox, yola gəlir kişi. Ay allah, yola gəlir» — deyə düşünürdü ki, Nəzər soruşdu:

— Sən bilirsən ki, Məmmədi tək mən tutmamışam mağazadan yağı çıxaranda?

— Hə, bilirəm. Yanında Balamirzə də olub — milis kapitanı.

— Bəs onu neyniyək?

— Əşi, o, heç. Onnan özü danışar. Onun da haqqını verəcək. Əsas qorxusu səndəndi, dədə.

— Yəni mən belə qorxulu olmuşam?

— Hə, dədə. Sənin heç özünün də xəbərin yoxdu ki, bu bazar-dükan adamı səndən necə tük salır. Belə getsə, heç ticarətdə-zadda bir adam da qalmayacaq, hamı başını götürüb qaçacaq. Neçəsi özü deyib — ta ticarətdə də ticarətlik qoymadı Nəzər kişi. Quru-quru papağı günə yandırmağın heç bir mənası yoxdu.

— Yəni belə?

— Hə, vallah, dədə. Olanı belədi, düzü belədi.

Oğlunun bu sözləri Nəzərin ürəyinə yağ kimi yayılırdı. Ancaq bu fərəhi o adamlara — «papaqlarını quru-quru günə yandırmaq istəməyənlərə», «qaz vurub qazan dolduranlara» olan qəzəbi örtüb azaldırdı. Əslində kişi, indi onlardan da çox, oğluna qəzəbliydi. «Gör necə düşünür bu uşaq, aman allah. Necə zəifdi, necə nəfsinin quludu.

Bizim nəsildə belə adam olmuyub, heç olmuyub. Hamısı gözü-könlü tox adamlar olub. Yox, deyəsən bu uşaq babasına çəkib. Bu belə getsə, axırı nə olacaq görəsən?» Qəzəbini hələ də üzə vurmurdu, ürəyindəki təəssüf hissi içini yandırırdı, hardasa ona yazığı da gəlirdi, ələ salıb gülmək də istəyirdi.

— Köhnə maşındansa pul yaxşı döyülmü? — Ağır-ağır nəfəsi daralırmış kimi soruşdu. — Bir var onun maşınını adına keçirəsən, bir də var gedib təzə maşın götürəsən. Hansı yaxşıdı?

Qərib gül kimi açıldı:

— Əlbəttə, nağd pul yaxşıdı. On min istəyərəm. Sonra özümüz götürərik. Sən Süleyman müəllimə desən, elə günü sabah verər ispolkom. Yox? Verməz?

— Verər… — Nəzərin gözləri yol çəkdi. Qəribə elə gəldi ki, kişi qəti qərarını bildirmək üçün düşünür. Sevincdən par-par parlayan gözlərini atasına zilləmişdi, gözləyirdi. Nəzər əlini stolun sağ siyərməsinə atanda Qəribin ürəyi əsdi: «Aktı çıxardır, indi ya özü cıracaq, ya da verəcək mənə, deyəcək apar Yasinin yanında, lap gözünün qabağında cır ki, inansın. Əvvəl pulu al, sonra cır ha. Yoxsa aldadar. O köpəyoğlu elə adamdı ki, doğma dədəsini də aldadar. Yox, ay dədə, arxayın ol, mən uşaq ha döyüləm. Narahat olma».

Amma gözlədiyinin əksinə — o, akt-filan yox, siyirmədən pul çıxarıb oğlunun qabağına qoydu:

— Götür bu pulu, maaş almışam, get, Ataxandan bir kostyum al özünə. Qorxma, öz qiymətinə verəcək. Kostyumun lap köhnəlib. — Çaşıb qalmış, gözlərini döyən Qəribə baxıb gülə-gülə əlavə elədi: — Təzə maşını bu köhnə kostyumda sürməyəcəksən ki. Yaraşmaz.

Bu son sözləri elə dedi ki, rişxəndi, lağı hiss etməmək mümkün deyildi. Qəribin rəngi ağardı:

— Məni bayaqdan sarıyırdın?

— Adə, qırışmal. — O, ayağa qalxdı — bəs sən mən boyda kişini sarımaq, ələ salmaq, el gülüncü eləmək istəyirsən? Utanmırsan heç? Sən atana belə hörmət eləyirsən? Get, o faşist oğlu faşistə de ki, ağlı özgələrə getməsin, Nəzəri pulla satın almaq olmaz.

Qərib ayağa durub əlini başına çəkdi, atasına sərt-sərt baxıb qapıya sarı addımlayanda Nəzər:

— Ə, pul qaldı, — dedi, lakin o, geri dönmədi, bir söz də deməyib kabinetin qapısını çırpıb çıxdı.

Nəzər «uff» eləyib başını əlləri arasına aldı.

ON ALTINCI FƏSİL

Yüngül yay mehi əsirdi, tut ağacının yaşıl yarpaqları həzin gecə nəğməsi pıçıldayırdı. Budaqdan asılmış beşyüzlük elektrik lampasının həndəvərində cücülər, kəpənəklər, pərvanələr bir-birinə toxuna-toxuna uçurdular. Həyət qəribə bir sakitlik içində mürgü vururdu.

Nəzər mizin arxasında, öz yerində oturmuşdu, qara telefonu qabağına qoymuşdu. Bikə xanım da, Qərib də qarşı tərəfdə əyləşmişdi. Dinib-danışan yox idi, lal-dinməz hər kəs öz çayını içirdi.

Nəzər əl atıb böyründəki qəzeti götürdü, göz gəzdirdi, nəyisə axtarıb tapdı və öz-özünə danışırmış kimi:

— Taxıl biçinində hələ ki, birinciyik, — söylədi. Qərib bu sözləri eşidib üzünü yana çevirdi, ancaq Bikə xanım, ərinin sözünü boş buraxmamaq üçün soruşdu:

— Ayın iyirmi beşinə doldurarsız planı, həy?

Nəzər qəzeti kənara qoyub:

— Qəribə söz deyirsən ey, ay Bikə, — dedi. — Fikir vermişəm, tək sən belə deyilsən, camaatın bir qismi sənin kimi deyir: «doldurarsız». Niyə «sız» axı, Bikə? Elə çıxır ki, bunun sizə heç dəxli yoxdu, hə? Guya taxıl, pambıq tək mənimdi, Süleymanındı. Axı, elə deyil, hamımızındı. Doldurarıq. Bax, gərək hamı belə desin.

Bikə xanım güldü:

— Ay kişi, yəni o mənada dedim ki, siz — sən. Süleyman, vəzifəli adamlar bu işnən məxsusi məşğulsuz.

— Hə, düz deyirsən. Məşğuluq, çox ciddi məşğuluq, arvad. Özü də biz doldurmuruq planı, əslində — bu camaat doldurur, zəhmət adamı doldurur. Bilirsən, bu il, maşallah, nə taxıl var? Plan dolacaq, öhdəlik dolacaq — buna söz ola bilməz. Bunlardan sonra da hələ nə qədər taxılımız olacaq, Bikə. Çöllərə çıxıram, zəmilərə baxıram, ürəyim dağa dönür. Hər şeyin başı çörəkdi. Çörək ki, bol oldu, elə hesab elə hər şeyin var. Xırmanlar dolub daşır, daşımağa, məntəqəyə təhvil verməyə maşın çatdıra bilmirik. Bakıdan əlli maşın göndəriblər. Yenə çatdırmaq olmur. Özü də bilirsən nə buğdadı? Kəhrəba-zad yalandı bu buğdanın yanında. Adam istəyir elə çiy-çiy yesin.

Bikə xanım ağzını doldurub nə isə demək istəyirdi ki, telefon cingildədi. Arvad daha dinmədi. Nəzər dəstəyi götürdü.

— Bəli, eşidirəm. Hə, mənəm, Cura? Ay səlammələyküm, nə

təhərsən? Yaxşı ol, kişi. Kim? Briqadir Rauf? Hə, hə. Elə şey olmaz, canım. Vay, faşist oğlu faşist. Dəqiqdi? Bir maşın buğda. Kimin həyətinə? Hə, hə. Qaynıdı deyirsən? Onun telefonunu ver mənə. Adı nədi onun? Qaynının, qaynının. Mürsəl. Hə, Mürsəl. — Nəzər ani olaraq fikrə getdi, gözlərini qıyıb qımışdı və ucadan dedi: — Cura, sən göz-qulaqda ol, mənə tez-tez zəng elə. Lap indi boşaldırlar? Hə, lap yaxşı. Qoy boşaltsınlar. İndi mən onlara o buğdanı təzədən maşına yığdırım, sən də ordan tamaşa elə, özünçün qarnını tutub gül doyunca. Hə, hə. Ancaq sən gözdən qoyma, gör o buğdanı hara aparacaqlar. Yaxşı, sağ ol. Əlaqə saxla ha.

Dəstəyi asdı. Arvadına baxdı:

— Faşist oğlu faşist. Görürsən. Bir maşın buğdanı sürdürüb düz qaynının həyətinə, boşaltdırır. Bu da mənim briqadirim.

— Kimdi o elə? — Bikə xanım xəbər aldı.

— Biri var, yaltağın biridi. Üstəlik oğruymuş da.

Nəzər kiminsə nömrəsini yığdı və arvadına göz vurdu:

— Alo? Salam. Bu, Mürsəlin evidi? Ay sağ ol, qızım. Dədən hardadı? Həyətdədi? Yox, çağırma, yavaşca get, qulağına de, o maşını boşaldırlar ha, təzədən yükləsinlər, çünki Nəzarət Nəzər xəbər tutub. Yəqin indi harda olsa özünü yetirəcək; taxılı sizin həyətdə tutsa, qanı getdi. Hə, tez de, qızım. Yoxsa pis olar. Sağ ol, — deyərək dəstəyi asdı. — Belə köpəkoğlunu tutdurub qoduqluğa basdırmayasan, neyniyəsən. Özləri başlarını bıçağa sürtürlər də.

Bikə xanım dedi:

— O Yasin biçarənin işi nə oldu, ay kişi?

Nəzər cavab verməmiş Qərib kinayə ilə dilləndi:

— Nə olacaq, ərin böyük, lap böyük yaxşılıq elədi, basdırdı dama. Beş il stroqi rejim verdilər. Ev-eşiyini də müsadirə elədilər, maşınını da aldılar. Dörd körpə uşağı qaldı belə.

— Vay, vay.

— Canı çıxaydı, eləməyəydi. Uşaqlarını çox istəyən adam, heylə iş tutmaz.

— Nə bilirsən, bəlkə elə o uşaqlarını çox istədiyindən elə eləyirmiş.

— Necə, uşaqlarını çox istədiyindən oğurluq eləyirmiş?

— Hə,də. Uşaqlarını yaxşı, firavan dolandırmaq üçün. Elə bilirsən hamı uşaqlarını, ailəsini sənin kimi saxlamalıdı?

— Mən necə saxlamışam ki? Pis saxlamışam sizi?

Qərib əlini evə, anasına uzadıb:

— Bunun nəyinə sən yaxşı deyirsən ki? — deyə çımxırdı. — Bu, bəyəm yaşamaqdı? Gün-rüzgardı bu?

— Bəs sən nə istəyirdin? İstəyirdin mən də gedim oğurluq eləyim, rüşvət alım, təmiz adımı ləkələyim, sonra da gedim girim türməyə? Sən bunu istəyirdin? Sən bunu istəyirdin ki, mən də Mikayıl kimi gedim, ailəm, uşaqlarım qalsın başsız? Yasin kimi gedim?

— Yox, mən elə demirəm.

— Bəs nə təhər deyirsən? Sənin sözündən elə çıxır ki, mən oğru olsaydım, sənincün daha yaxşı olardı?

— Əşi, nə oğru, rüşvətxor salmısan ey. Sən heç oğurluq da eləyə bilməzsən. Sən kim idin ki, kim də sənə rüşvət verəydi. Budu, indi Nəzarətdə işləyirsən. Səndən qabaq da orda işləyən vardı. — Qaz vurdu, qazan doldurdu. Yüz il də xərcləsə qurtaran deyil yığdığı. Tuturdu — alırdı, buraxırdı. Əti havayaydı, yağı havayıydı, palpaltarınacan havayı gəlirdi. Hörməti də ki, hörmətdi. İndi hamı başına and içir Arifin. Orda oturma, burda otur — deyirlər. «Kişi» deyirlər. Amma sən, bir ilə yaxındı işləyirsən, hələ bir çöpünü də görməmişik. Üstəlik gözükölgəli də olmuşuq.

— Niyə, niyə gözükölgəli olmusan? — Nəzər hövsələsini güclə basırdı. — Nə pis iş tutmuşam ki, sən də gözükölgəli olasan?

— Ta neyniyəcəksən? Camaatın içinə də çıxmaq olmur. Bu az müddətdə neçə adam tutdurmusan?

— Adam yox, denən neçə oğru, rüşvətxor tutdurmusan?

— Oğru, rüşvətxor adam deyil?

— Yox, oğru, rüşvət alan adam deyil. Ləyaqəti olan oğurluq eləməz, rüşvət almaz.

— Əh, — deyə Qərib durub getdi yatmağa — Bikə xanımın əhvalı pozuldu. Ata-bala bir-biriylə dil tapıb danışa bilmirdi. Fikir vermişdi, həmişə sözləri çəp gəlirdi və bundan arvad yaman xiffət eləyirdi. İndi də ərinə dil-ağız eləmək istədi:

— Ay kişi, qanını qaraltma, sən allah. Cavandı, hələ başa düşmür çox şeyi.

— Yox, arvad, onun beyni düz deyil, fikri düz deyil. O əqidə ki, onda var, əmələ gəlib — bilmirəm də hardan, necə əmələ gəlib, — məni çox nigaran qoyur. Allah onun axırını xeyir eləsin. Gözüm

heç su içmir bu uşaqdan. Oğruya, əyriyə haqq qazandıran sabah gedib onların cərgəsində dayana bilər — buna mənim şübhəm yoxdu, Bikə.

— Allah eləməsin, ay kişi.

… Bikə xanım da stəkan-nəlbəkini yığışdırıb gedib yatmışdı. Nəzər tək oturmuşdu, balaca əl radioqəbuledicisindən verilən və demək olar ki, hər gecə qulaq asdığı, çox xoşladığı «Lirika dəftəri»ndən verilişinə həzz ala-ala qulaq asırdı. Cəmisi on dəqiqəlik idi bu veriliş, amma elə şirin olurdu, elə mənalı təşkil eləyirdilər ki, Nəzər doymaq bilmirdi. Nəzər radioverilişləri komitəsinə bir dəfə məktub da yazıb öz təşəkkürünü bildirmişdi. Hər gecə bir şeyə təəssüflənirdi Nəzər: veriliş tez qurtarırdı. Ancaq sonra başa düşdü ki, elə belə yaxşıdı, çoxun o qədər ləzzəti olmazdı. İndi Zeynəb Müşfiqdən oxuyurdu. «Necə əl çəkim»i yanıqlı bir səslə, Nəzərə nədənsə elə gəlirdi ki, ağlaya-ağlaya oxuyurdu:

«Bu yerlə əlləşən, göylə əlləşən,
İşıqlı dünyadan necə əl çəkim?»

Nəzər o sızıltılı misraları dinləyə-dinləyə, işdə yarımçıq qoyduğu, axırını oxumaqdan, sonuna varmaqdan qorxduğu kitabı xatırladı və peşmançılıq çəkdi ki, gərək gətirəydi o kitabı, iradəsini toplayaydı, axıra çıxaydı. Ancaq yenə öz-özünə dedi: «Yox, mən istəmirəm o rəssamın ölümünü görüm, istəmirəm. Qoy o mənim fikrimdə, xəyalımda elə həmişə diri qalsın. Qoy o «Torpaq həsrəti» əsərini tamamlasın, yarımçıq qalmasın. Görəsən doğrudan elə bir tablo var, ya yazıçı özündən uydurur? Kaş həqiqətən elə bir tablo olaydı, nəyin bahasına olursa-olsun, alardım onu, başımın üstündən asardım, baxardım, baxardım, doymazdım, ölən anda da ona dikərdim gözlərimi və bilərdim ki, ölmürəm! Onda ölüm deyilən şey qorxulu olmazdı mənim üçün! Məktub yazacağam o yazıçıya, təşəkkürümü bildirəcəyəm və o əsərin yerini soruşacağam…»

Nəzər belə düşünə-düşünə telefona baxırdı, telefon isə susurdu — Cura müəllimdən nə üçünsə hələ bir səs-səmir yox idi. Kişi, veriliş qurtaran kimi, radionun düyməsini burub söndürdü. İstəmirdi ki, aldığı ləzzəti, zövqü dalınca gələn verilişlər korlasın. Darıxıb qalxdı, evə girib öz otağında, stolun üstündəki kitabı götürdü. Qayıdıb yerində oturdu. Kitab dostu Sakit Aranlınınkıydı. Özü avtoqraf yazıb göndərmişdi. Bir vərəqini qatlamışdı, açdı. Yarımçıq qoyduğu hekayəni oxumağa başladı: «… Məmmədağa müəllim dekanlıqda tək idi, başı-

nı aşağı salıb nə isə yazırdı. Qapı cırıltı ilə açıldı və Sahir asta, sıxıntı çəkdiyi aşkar hiss olunan bir səslə:

— Müəllim, olar? — dedi.

Məmmədağa müəllim baxışlarını qaldırıb Sahiri görən kimi mehriban bir təbəssümlə gülümsündü, qələmi də vərəqin üstünə qoyaraq:

— Gəl, Sahir, gəl! — dedi. — Sahir belə qarşılanacağını gözləmədiyindən özünü itirdi, çəkinə-çəkinə otağa daxil olub, ayağının birini götürüb o birini qoya-qoya, utancaq bir tərzdə:

— Professor, mən gəldim sizə deyim ki… — dedi, lakin sözünün dalını gətirə bilmədi. Həyəcanını, sıxıldığını ilk andan duyan professor onu — dünənəcən tələbəsi olan, sonra ona arxa çevirən və bu gün artıq universiteti bitirib diplom alan bu cavan oğlanı vəziyyətdən çıxarmaq üçün:

— Əyləş, Sahir! — dedi. — Niyə ayaq üstə durmusan?

— Sağ olun, müəllim, mən ikicə dəqiqliyə gəlmişəm. Gəlmişəm ki, sizdən üzr istəyəm, müəllim. Mən cavan olmuşam, uşaq olmuşam, başa düşməmişəm, sizdən haqsız şeylər yazmışam, başqalarının — sizi istəməyənlərin sözünə inanmışam, müəllim. Dövlət imtahanında az qala infarkt olacaqdım, oxuya bilmirdim, düşünürdüm ki, onsuz da məni kəsəcəksiz. Amma siz əla verdiz.

— …

— Bu səhvimi neçə vaxtdı dərk eləmişəm, peşiman olmuşam, ancaq ha illah eləmişəm ki, sizin yanınıza gəlib üzr istəyəm, bacarmamışam, ayaqlarım, ayaqlarım gedib, ürəyim yox, utanmışam.

— …

— İndi təyinatımızı — Əsmər də, mən də — rayona almışıq, gedirik. Fikirləşdim ki, heç olmasa indi, bu gethagetdə gəlib sizdən həm üzr istəyim, həm də xudahafizləşim.

— …

— Heç dillənmirsiz, müəllim?! Demək, məni bağışlamırsız, eləmi?

Professor oğlanın boz sifətinə, uzun, sivri burnuna, iri, donba gözlərinə xeyli diqqətlə baxıb sonra, aram-aram, əsəbiləşmədən dilləndi:

— Bağışlayıram, Sahir. Hər şeyi — mənə, öz müəlliminə elədiyin bütün namərdlikləri bağışlayıram, bala. Ora-bura, imzalı-

imzasız yazdığını da, üzümə durduğunu da, tələbələr arasında məni hörmətsiz eləməyə çalışdığını da… Ancaq bircə şeydən başqa…

Sahir iri gözlərini qıyıb qaşlarını çatdı, elədiyi haqsızlıqları bir-bir xatirinə gətirməyə çalışdı, ancaq dəqiq tapa bilmədi ki, müəllimi hansını nəzərdə tutur. Soruşmağa da dili gəlmədi.

Professor «köməyinə» çatdı:

— Bilirsən nəyi bağışlaya bilmirəm, Sahir?

Sahir çiyinlərini çəkib cavab verə bilmədi.

— Yadındadı, bir dəfə mən rektorun kabinetinə girmək üçün gələndə səni onun qapısı ağzında gördüm. Katibə harasa çıxmışdı. Mən içəri keçmək istəyəndə sən ayağa qalxıb dedin ki, Məmmədağa müəllim, rektor tapşırıb ki, heç kəsi buraxmayım, yanında adam var. Mən heç nə deməyib bir az gözlədim, sonra dəhlizə çıxıb siqaret yandırdım. Var-gəl eləməyə başladım. Xeyli sonra gördüm sənin sevdiyin, gəzdiyin Əsmər xanım rektorun kabinetindən çıxdı və siz ikiniz mənim böyrümdən üzümə də baxmadan keçib getdiz. Yadına düşdü?

— Hə, — Sahir astaca dilləndi.

— Sən Əsməri də öyrədib rektorun hüzuruna məndən şikayətə göndərmişdin. Rektor hamısını mənə danışdı. Bax, bircə bunu bağışlaya bilmirəm sənə, Sahir! İndi gedirsiz. Eşitdiyimə görə, Əsmər ilə də evlənmisən. Xoşbəxt olun. Ancaq sənə, bir müəllim kimi, ağsaqqal, dünya görmüş adam kimi, bir məsləhətim var, oğul. Gedirsən, hardasa bir kollektivdə işləməli olacaqsız. Konfliktə, cəncəl işlərə rast gələ bilərsən. O zaman məndən sənə əmanət, heç vaxt Əsməri qabağa verib direktorun, nə bilim, katibin kabinetinə göndərmə. Hamı bizim rektor kimi təmiz, namuslu ola bilməz. Bir də görərsən, sənin Əsmərin kabinetə tək girdi, amma cüt çıxdı. Budu sənə son tövsiyəm, Sahir.

Sahir qıpqırmızı qızardı, başını aşağı saldı».

Nəzər, professor yanındaymış kimi, əlini şappıltı ilə dizinə vurub ucadan dedi:

— Ay gözünə dönüm,professor! Nə deyibsən, nə deyibsən! Lap ürəyimdən tikan çıxartdın. — Sonra, eləbil, oğlan qabağındaydı, ona üz tutub: — «Ə, faşist oğlu, faşist, kişisən, özün get, nə sözün var de, yoxsa arvadı qabağa vermək də kişilikdi? Düz deyir professor!»

Nəzər kitabı büküb stolun üstünə atdı, Sakit Aranlı ilə üzbəüz oturubmuş kimi ucadan dedi:

— Gözünə dönüm, Sakit! Elə nakişilərə yaxşı dərs vermisən, sağ ol! Elələri bu hekayəti oxuyandan sonra, öz arvadlarını bir də çətin müdir, rektor, katib kabinetlərinə göndərərlər, Sakit! — söylədi.

Elə bu zaman telefon səsləndi. Nəzər tələsik dəstəyi götürdü:

— Bəli, hə, hə, mənəm. Aha, aha! Xa-xa-xa!.. Nə bir olub! Aha. Hara? Hə, Hürnisəgilə… R, Mürsəlin bacısıdı də? Deməli, Raufun baldızıdı da o? Hə. Lap yaxşı. Uşaqlara denən gözdən qoymasınlar o faşist uşağı faşisti. Neçədi nömrələri? Aha… hə, yadımda saxlayaram, sonra zəng elə mənə!.. Sağ ol!

Beləliklə, Raufun tapşırığına əsasən Mürsəlin zəmi ilə xırman arasında, yoldan çıxardıb öz həyətlərinə gətirdiyi o bir maşın buğda gecə yarıdan keçəndə Hürnisənin zirzəmisinə boşaldılıb, Nəzərin zəngini eşidib təzədən maşına yükləndi, oradan da üçüncü bir həyətə — Hüsünün həyətinə aparıldı və kimsə ora da zəng vurub təhlükə olduğunu söyləyərək dəstəyi asandan sonra, əldən-dildən düşmüş Mürsəl, hava işıqlananda, yollar ağarışanda Raufu da, Uzunu da, Gödəyi də, əlbəttə, ən çox bu gecə üç dəfə adını eşitdiyi Nəzəri də yeddi mərtəbə söyüşlə yağlayıb:

— Ə, sür xırmana, mənə belə çörək lazım deyil, — demişdi. — Zəhərə qalsın belə çörəyi, istəmirəm. İstəmirəm.

… Səhərə yaxın idi, Nəzər yenicə yerinə girmişdi ki, böyrünə, kətilin üstünə qoyduğu telefon yenə haray-həşir qoparmışdı. Nəzər əsnəyə-əsnəyə:

— Eşidirəm! — dedi. — Hə, Cura, sənsən? Yox, elə indicə uzanmışdım. Kitab oxuyurdum. Əşi,elə şey olmaz! Düz xırmana apardı? Hə. Əla. Sən də əldən düşdün. Birinci növbə dərsin var? Yox? Hə, lap yaxşı. Get yat, halal olsun sənə. Sağ ol. Ta neyniyək, ay Cura. Bu faşist uşağı faşistin hamısını tutub basmaq olmur. Bu da onlarla mübarizənin bir üsuludur. Bu zalım uşağını öz başına buraxsan, təkcə kolxozu yox ey, bütün cəmiyyəti söküb-soyub öz həyət-bacalarına daşıyarlar. Hə, inan, daşıyarlar.

ON YEDDİNCİ FƏSİL

Nəzər o gün günortayacan yatdı. Yuxudan ayılanda özünü çox gümrah və yüngül hiss eləyirdi. Elə bil dünyaya təzə gəlmişdi — hava gözəl idi, həyətdə hər şey göz oxşayırdı, yerində olmayan bir çöp belə tapmaq olmazdı — səliqə-sahmana, təmizliyə baxıb ciyər dolusu

nəfəs alırdı Nəzər. Fikir vermişdi — haçan bir dələduzu yaxalayırdı, bir oğrunun, tamahkarın əlindən bir çöp saldırırdı, haqqıtapdanan bir adamın qabağına düşüb müdirin, lap katibin yanınacan gedərək ədaləti bərqərar elətdirirdi, bax, onda Nəzər belə rahat olurdu, onda Nəzər belə ciyərdolusu nəfəs alıb uşaq kimi sevinirdi.

Axşamkı buğda əhvalatını gözü qabağına gətirdikcə gülümsünürdü, əlilə bığını sığallaya-sığallaya həyətdə gəzinirdi. Bir maşın buğdanı üç dəfə boşaldıb üç dəfə də yükləmiş Mürsəlin, Uzunun, Gödəyin tərli sifətləri, islanmış maykaları lap elə bil gözünün önündəydi, hətta onların töyşük səslərini də eşidirdi elə bil.

Dərs deyəndə yaxşı bilirdi ki, ona qulaq asan uşaqların ürəyinə, beyninə, şüuruna, vicdanına nə isə yaddaqalan, ibrətamiz, hardasa, haçansa onların gərəyi olacaq hikmətlər damızdırır, yazır, həkk eləyir. Kitab oxuyanda, yaxşı verilişə qulaq asanda öz ruhu dincəlir, zənginləşir, cavanlaşır, bir azda müdrikləşirdi. Sinif divarları arasından zamanın və bir nadanın hökmüylə uzaqlaşdırılaraq indiyə qədər bütün rəngarəngliyini, ziddiyyətlərini, eniş-yoxuşlarını bəlkə də tam incəliklərilə görə bilmədiyi həyatın qaynar qoynuna atılandan, bu yeni vəzifəyə gələndən sonra Nəzər başa düşmüşdü ki, indiki işi heç də gərəksiz iş deyil — indi o, elə, camaata, dövlətə birbaşa xeyir verir — özü də bu, nağd xeyirdi, göz qabağında olan xeyirdi. Bununla da fəxr etmək olar.İşin, xeyirin böyüyü-kiçiyi yoxdu.

Çay-çörəyini yeyib-içən Nəzərin birdən yadına oğlunun ona dediyi dünənki sözlər düşdü — «səndən qabaq da Nəzarət komitəsinin sədri var idi. Tuturdu — alırdı, buraxırdı». Nəzər buna inanmaq istəmirdi, heç cür inanmaq istəmirdi. Yox, Arif belə adama oxşamırdı. Şübhəsi çoxalırdı getdikcə, nə qədər çalışsaydı da, o inam möhkəm dayana bilmirdi bu şübhənin qabağında, əriyib, uçulub tökülürdü. Və Nəzər fikrə gedib düşünürdü ki, yaxşı, əgər Arif düz işləyirdisə, niyə onun vaxtında, məsələn, adicə çayxanada bir balaca çaynik çay içən bir manat atırdı stolun üstünə, otuz qəpik əvəzinə? Ya aşxanada bir qab borş içirdin, bir-iki fal çörək yeyirdin, aşağısı iki manat, iki manat yarım alırdılar. Kababxanalarda bir pay kabab üç manat idi, bir doyumluq yeyəndə, çörəyi, göy-göyərtisiylə altı-yeddi manat alırdılar Mağazalarda satıcıların öz qiyməti vardı, malın üstünə filan qədər dövlət qiyməti yazılırdı, amma satırdılar filan qədər artığına? Allahın əlli qəpiklik siqaretləri — «Opal», «TU», «Radopi», daha nə bilim nə, bir manata satılırdı. Arif bunları görmürdümü? Yox,

görməyə bilməzdi. Bəs onda, Qərib düz demir? Uşaq deyəsən düzdanışır, axı?! Belə çıxır, doğrudan, tuturmuş — alırmış, sonra da buraxırmış? Ona görə yaxşı adam hesab eləyirlər onu? «Kişi» adlandırırlar? Kişilik budu? Bu ki, nakişilikdi, bu ki, vicdansızlıqdı!.. Sonra Nəzərin fikri dolanıb məsələnin o biri tərəfini öz aləmində təhlil etməyə başladı. Bir dəfə o, rayon mərkəzində olanda — bu, beş-altı ilin söhbətiydi — küçədə, su köşkünün yanında qoyulmuş xırdavat köşkündən siqaret almaq üçün bir manat vermiş kolxozçu kişi, bığburma satıcının pulun qalığını qaytarmadığını görüb demişdi:

— Ə, a bala, bu «Radopi» neçəyədi ki?

Oğlan dinməmişdi. Kişi təkrar eləmişdi:

— Ə, sənnənəm, neçiyədi bu zəhrimar?

— Bir manata! — demişdi oğlan.

— Sənin qoyduğun qiyməti demirəm, ə, hökumətin qoyduğu halalca qiyməti soruşuram sənnən!

Oğlan ağızucu cavab vermişdi:

— Əlli qəpiyə!

— Bəs… mənim əlli qəpiyimi niyə qaytarmırsan, ə? De görüm, niyə qaytarmırsan, hıy? Bilmək istəyirəm, dədəm dədənə borcludu, özüm özüvə borcluyam, hıy!

— Əşi, biz də verib gətiririk də. Verməsək, vermirlər iskladdan. Bunun hələ fəhlə pulu da var axı.

— Vermir, gətirmə, satma, qoy qalsın iskladda, görüm neyniyəcək, aparıb dədəsinin goruna tökəcək? Həlbət ondan da soruşan tapılar ki, a bala, niyə bu siqarettər tökülüb qalıb isklatta. Soruşan tapılar!

Böyründə dayanmış, layka geymiş bir cavan oğlan kişinin bazburtuna, geyim-keçiminə baxıb:

— Əşi, yekə kişisən, əlli qəpik nə puldu ki, onun üstə ortalığa qanıqaralıq salırsan? — demişdi.

Kişi oğlana tərs-tərs baxmışdı:

— Sən bilmirsən o əlli qəpiyi nə təhər qazanırsan, amma mən ilin doqquz ayını dizəcən su içində işləyib qazanıram, bala. Ona görə mən öz pulumu çölə ata bilmərəm. Dövlət lazım bilsəydi, elə bu zəhrimarı bir manata satardı da. Ver mənim əlli qəpiyimi. Yoxsa şikayət eləyərəm səndən.

— Al, ay kişi, sənin əlli qəpiyinə qalmamışam. Xata-balanı uzaq elə məndən.

Neçə ilin söhbəti elə bil indi olmuşdu — o suçu kişi də gözünün qabağındaydı, o laykalı oğlan da, o bığıburma satıcı da.

Darvaza cırıltı ilə açılanda Nəzər fikrindən ayrılıb başını qaldırdı və Zakirə xanımın gəldiyini görüb hədsiz sevinc içində ayağa qalxdı.

— Salam, Nəzər müəllim.

— Ay əleykəssalam, qızım, xoş gəlibsən, səfa gətiribsən. Gəl, gəl, qızım. Belə də vəfasızlıq olar, ay Zakirə? Heç demirsən, mənim Nəzər müəllimim ölüb-qalıb, bir baş çəkmirsən?

Zakirə gülə-gülə irəli gəldi, onun iri, sümüklü əlini sıxdı, üzünə, gözlərinə diqqətlə tamaşa eləyib:

— Yox, Nəzər müəllim, nə danışırsız, sizi heç unutmaq olar? — dedi. — Siz bizim əzizimizsiz. Düzü, neçə dəfə gəlmişəm, sizi evdə görməmişəm, zəng eləmişəm, götürən olmayıb. İndi də burdan keçirdim, gördüm evdəsiz, gəldim.

— Çox sağ ol, qızım. Yaxşı eləyib gəlibsən. Bura, bilirsən ki, sənin öz evindi, nə vaxt istədin, lap yatmış olsam belə, gəl oyat, oturaq, dərdləşək. Bilmirsən ki, sənin xətrini çox istəyirəm, səni öz qızlarımdan ayırmıram, Zakirə!

— Bilirəm, Nəzər müəllim. Mən də sizə həmişə müəllimim kimi, atam kimi baxmışam.

— Otur, otur, sən allah. — Zakirə oturdu.

— Necəsiz, Nəzər müəllim! Bəd nəzərdən uzaq, maşallah, yaxşısız, elə bil, bir az da cavanlaşmısız.

Nəzər Zakirənin qarşısında əyləşib şən bir əhvali-ruhiyyəilə:

— Xoş sözlər üçün sağ ol, qızım, — dedi. — Ancaq elə bir cavanlaşmaq yoxdu. Ömür keçir gedir — yeganə şeydi ki, heç cür saxlamaq mümkün deyil, çünki onu zaman çəkib aparır. Zamanı da ki, heç allah özü də tutub saxlamağa, dondurmağa qadir deyil, qızım.

— Elədi, Nəzər müəllim. Təəssüf ki, elədi. — Zakirə yüngül bir ah çəkdi.

— Özün necəsən, qızım? Evdə-eşikdə nə var, nə yox? Oğlun necədi?

— Yaxşıyam, hamımız yaxşıyıq, Nəzər müəllim. Oğlum da böyüyür.

— Neçəncidədi indi?

— Üçüncüdədi.

— Maşallah. Necə oxuyur? Gərək mənim hesabıma görə, yaxşı oxusun. Elədimi?

— Hə, əlaçıdı. Müəllim yoldaşlara tapşırmışam, üzgörənlikzad eləməsinlər, mənə görə qiymətini-zadını artırmasınlar.

— Onu yaxşı eləyirsən. Biz bəzən «hörmət» sözünün mənasını düzgün başa düşmürük, müsəlmançılığımıza salırıq; bu filankəsin uşağıdı — sıxmaq olmaz, tələb eləmək olmaz; başqalarından ayırırıq, üstün tuturuq, bir də görürsən, ağıllı-başlı bir eqoist yetişdirmişik. Sonra başlayırıq dizimizə-başımıza döyməyə ki, bu uşaq, səhər bu cavan, o biri gün bu vətəndaş, ziyalı niyə belədi, niyə belə eləyir! Buna heç cür yol vermək olmaz. Bu, hər şeydən əvvəl, onun özünün xeyrinədi, sonra, bizim, bütün cəmiyyətin!

— Yox, Toğrul ağıllı uşaqdı, maşallah. Hələ ki, şikayətim yoxdu. O gün deyirəm, oğul, böyüyəndə nə olacaqsan? Qayıdıb nə desə yaxşıdı? Deyəsən ki, anarxist olacağam. Əvvəl elə bildim səhv eşitmişəm. Təzədən xəbər aldım. Təkrar elədi: «Anarxist olacağam!» Dedim, ay bala, anarxist sözünün mənasını heç bilirsən? Dedi, niyə bilmirəm. — «Anarxist — yəni belə də, ağlına nə gəldi, onu eləyən!..» Dedim, ədə, mən bu sözün nə demək olduğunu universitetin ikinci kursunda güclə öyrənmişəm, sən bunu hardan bilirsən? Dedi — televizordan, radiodan!

Nəzər güldü:

— İndi uşaqlar çox tez yetişir, qızım. Əsr, ayrı əsrdi, zaman ayrı zamandı. İndi insan tez yetişir, demək olar, lap kosmik sürətlə yetişir. O qədər informasiya mənbəyi var ki, beyin hamısını qəbul edə, həzm edə bilmir, çatdırmır. Ona görə də yaş, məlumatdan, inkişafdan geri qalır. Ağıl, zəka ömrü, təbii ömrü ötüb keçir. Məsələn, beş yaşında uşaq on-on iki yaşlı uşaq kimi, iyirmi yaşlı cavan iyirmi beş, iyirmi səkkiz yaşlı cavan kimi düşünüb, ölçüb-biçir. Sən çalış o anarxist olmaq fikrini öldür onun beynində, Zakirə. Nizamlı, ölçülü-biçili bir rejim yarat onun üçün. Uşağın həyatı, ürəyi, beyni zavoddan təzəcə çıxmış, hələ köklənməmiş saat mexanizmi kimi bir şeydi — əvvəlcədən necə qursan, kökləsən, axıracan elə gedəcək.

— Düz deyirsiz, Nəzər müəllim. Mən fikir verirəm, bizim bu kəndin adamları demək olar ki, uşaq tərbiyəsi ilə məşğul olmurlar. Daha doğrusu, məşğul olmağa vaxt tapmırlar.

— Hardan tapacaqlar yazıqlar. Səhər gedib bir də axşam qayı-

dırlar. Bağçada, məktəbdə nə gördülər, nə götürdülər — budu uşaqlarınkı. Axşam valideyn işdən gəlir — azyaşlılar yatmış olur onda, bir az böyüklər də yorğun-arğın, yarıyuxulu olurlar. Səhər də onlar durmamış çıxıb gedirlər. Uşaq, demək olar ki, doyunca valideyn üzü görmür. Nə kolxoz sədrimiz, nə kənd soveti sədrimiz bu barədə düşünür. Onları ancaq iş, plan maraqlandırır. Vəssalam, fikirləşmirlər ki, bu uşaqlar bizim gələcəyimizdi, bu uşaqlar sabah bu kənddə səni, məni əvəz eləyəcək adamlardı. Onlar göz açıb burda yaşadığı on beş, iyirmi il ərzində atalarını, analarını səhər çölə, tarlaya işə gedən görürlər. İnsan da istirahətsiz yaşaya bilərmi? Axı insanın fiziki imkanı tükənməz deyil! Müharibədən qabaq, hələ kolxozlar təşkil olunan vaxtlar, cümə günləri camaat işə çıxmazdı, dincələrdi, evinə, uşağına, həyət-bacasına baxardı, bazarına-dükanına gedərdi, qonaq gedərdi, qonaq qəbul eləyərdi. Qulluqçu kimiydi kolxozçu. Səkkiz-doqquz saatını işlərdi, gələrdi.

— Bəs niyə ləğv elədilər bunu, Nəzər müəllim?

— Hm. Ləğv elədilər! Kim ləğv elədi? Sən elə bilirsən, Şura hökuməti əmr verib bunu aradan götürdü? Yox, qızım. Biz özümüz eləmişik bunu. Bizim sədrlərimiz, katiblərimiz qeyri-qanuni ləğv eləyiblər. Hansı respublikaya gedirsən, get, məsələn, Rusiyanın hansı kolxozuna gedirsən get — bazar günü işləyən bir kolxozçu tapa bilməzsən, qızım. Hamı o günü eynən qulluqçular kimi istirahət eləyir. Və bir kişi də gəlib deyə bilməz ki, İvan Fedoroviç ya Mariya İvanovna, sən bu gün niyə işə çıxmamısan? Bilir ki, belə deməyə haqqı yoxdu, ona görə də demir.

Niyə sənin sədrin belə şərait yaratmır? İmkanımız yoxdu, adamımız, şəraitimiz yoxdu? Var, hər şeyimiz var, qızım. Təkcə bir vicdan lazımdı, canıyananlıq lazımdı, vəssalam. Baxmayıblar, düşünməyiblər, indi kəndlər boşalıb xarabaya dönüb — cavanlar çıxdımı, daha geri qayıtmaq istəmir. Çünki görüblər laqeydliyi, çətinliyi, biganəliyi. Qayıtmazlar da! Özümüzük günahkar. Uşaq dünyaya göz açandan, ağlı kəsəndən gərək bağça da, valideyn də, məktəb də — hamı ona təlqin eləsin ki, bu torpaq onundu — bura onun doğulduğu yerdi, onun əcdadının qəbri burdadı. Bura, sənin üçün müqəddəsdi. Bax, bunu təlqin eləyə bilmirik.

Nəzər danışdıqca Zakirə xanım fikirləşirdi ki, bu kişinin nə böyük ürəyi, nə böyük vətəndaşlıq qeyrəti var! Yaşına baxmayaraq, Şakirin ona elədiyi haqsızlığa baxmayaraq həvəsdən düşməyib. Yenə

əvvəlki Nəzər müəllimdi, yenə odlu, alovludu. Onun kimi bir kişinin tələbəsi olduğuna görə ürəyi fərəh hissilə dolub daşırdı və hər dəfə bu barədə düşünəndə taleyindən razılıq eləyirdi.

— Qoy sənin üçün bir stəkan çay süzüm, Zakirə! — dedi Nəzər birdən sözünə ara verib böyründəki çaydana əl atanda Zakirə ondan cəld tərpəndi və ona da, özünə də çay süzdü. — Çənəm qızışıb, elə hey danışıram, sənə çay vermək yadımdan çıxıb!

— Eybi yoxdu, Nəzər müəllim. Sizin söhbətləriniz elə xoş, elə şirin olur ki, sizə hər qulaq asanda deyirəm, nə olaydı, təzədən dönüb uşaq olaydım, siz də sinfə girib təzədən bizə dərs deyəydiz, Nəzər müəllim.

— Elə möcüzələr olmur, qızım. Qədim yunan filosofu düz deyib — bir suda iki dəfə çimə bilməzsən — o suları zaman qabağına qatıb gedər-gəlməzə apardı, qızım.

Nəzər mənalı-mənalı başını tərpədib çaydan bir qurtum içdi:

— İç çayını, deyəsən soyuyub! — Zakirə balaca, ağ əlini irəli uzadıb stəkanı qaldırdı, daddı:

— İçməlidi, — dedi.

— Yaxşı, danış görək məktəbdə nə var, nə yox? İşləriniz necə gedir?

Zakirə stəkanı yerə qoyub gülə-gülə söylədi:

— Mənim yeznəm var, Firdovsi, soruşanda ki, işlərin necə gedir? Deyir: «Baldız ağa, işlərimizi elə qurublar ki, elə öz-özünə gedir!» İndi onun sözü olmasın, Nəzər müəllim, işlərimizi doğrudan da elə qurublar ki, öz-özünə gedir.

—Öz-özünə gedən iş yoxdur, Zakirə. Öz-özünə gedən iş mexaniki işdi — bizim, daha doğrusu, sizin sənətinizdə isə mexaniki iş üsulu qətiyyən yaramaz. Qaynar psixoloji çeviklik, bütün ürəyini, varlığını vermək, səbir, təmkin və bir də hər uşağın öz dünyasını, aləmini başa düşüb ona fərdi yanaşmaq — budu sizin sənətin başlıca keyfiyyətləri. Bu isə öz-özünə irəli gedə bilməz, gərək ürəyini günəş edib yandırasan ki, hər ürəkdə bir şam alışdıra biləsən.

— Elədi, Nəzər müəllim. Siz hər şeyə elə yaxşı təhlil verirsiz ki… Hər dəfə sizə qulaq asanda öz-özünə deyirəm ki, Nəzər müəllim nə olaydı, bu dediklərinin hamısını yazaydı. Gözəl pedaqoji-əxlaqi-tərbiyəvi fikirlərdi; deyirsiz, bir adam, iki adam eşidir, vəssalam. Onlardan istifadə eləyən eləyir, eləyə bilməyən eləmir, bu qulağından

alıb o biri qulağına verir. Amma yazsanız, qalar, Nəzər müəllim, hamı istifadə eləyər, gələcək nəsillər də istifadə eləyər. Bizim belə adamların təcrübəsinə, sözünə, kəlamına ehtiyacımız çoxdu, müəllim. Niyə, məsələn, rusların Suxomlinskisi var, bizim yoxdu? Suxomlinski — o böyük müəllim və gözəl insan — gördüklərini, düşündüklərini, müşahidələrini və məsləhətlərini yazıb, qoyub gedib. O, Makarenkodan sonra, indi ən böyük pedaqoqdu. Bəs hanı bizim bu günlərin Suxomlinskisi? Hanı bizim Nəzər müəllimimiz? Hayıfdı bu təcrübə, Nəzər müəllim. Yazın, çap etdirin, hayıfdı… Hər dəfə istəyirəm bunu sizə deyəm, necə olursa, yadımdan çıxır.

Nəzər müəllimin elə bil yaralı yerinə toxundular. Sanki bütün vücudunu bir ağrı gəzib dolaşdı. Bu ağrı sol qıçının diz qapağı altından — qəlpənin gizləndiyi yerdən başlamadı, yox, ürəyindən başladı. O, bircəciyi də düşməmiş ağappaq dişlərini bir-birinə sıxıb xırçıldatdı:

— Bu ayrı dərddi, qızım. Ümumən bizim ziyalı tayfasının işi müsibətdi. Bizdə sən dediyin o yüksək intellektual səviyyə çatmır, qızım. Təəssüf eləyirəm buna həmişə. Biz, bir-birimizin qədrini bilmirik. Hər kəs özünü «dahi», «əvəzedilməz» hesab eləyir. Əgər sən məndən ağıllısan, məndən biliklisən, məndən hörmətlisən — bunu mənim gözüm götürmür, nə vasitə ilə olursa-olsun, səni aradan qaldırmağa, ləkələməyə, hörmətdən salmağa çalışıram, çünki sən məni kölgədə qoyursan. Halbuki mən sənինlə fəxr etməliyəm, səndən öyrənməliyəm, başa düşməliyəm ki, sən bizim hamımıza lazımsan, məktəbimizə, maarifimizə lazımsan. Ləyaqət yaxşı şeydi, qızım. Hər kəs gərək öz ləyaqətini qorusun, mövqeyini, məqamını başa düşsün, özünü qiymətləndirə bilsin. Bizdə bu yoxdur, demək olar ki, yoxdur. Vallah, hər kəs öz yerini bilsə, hər şey yerində olar, bu qədər dediqodu, çəkişmə, intriqa, qanqaralığı, haqsızlıq olmaz, qızım. Məsələn, səhər gəlib mənə desələr ki, Nəzər müəllim, biz səni pambıq zavodunun direktoru qoyuruq, gərək mən getməyəm, razı olmayam, çünki bu işi, onun texnologiyasını, nə bilim nəyini bilmirəm. Əgər vicdanım varsa, gərək belə deyəm, qızım. «Getmirəm!» Amma, min təəssüf, mən belə demirəm, gedirəm və işləri baş-ayaq eləyirəm. Nəticəsi isə pis olur, qızım, çox pis olur. Həm özüm rüsvay oluram, həm işimiz əyilir — xalq, dövlət çox ziyan çəkir.

Zakirə xanım eynəyini düzəldib:

— Gərək Şakir deyəydi ki, mən hələ cavanam, o boyda məktəbi idarə eləməyə gücüm çatmaz, — söylədi. — Amma demədi.

— Nəinki demədi, hətta buna çox çalışdı da. Murada dedi, nazirlikdəki qohumlarına çatdırdı. Nəhayət, direktor oldu — sən məni başa düşürsən, qızım. Mən bu sözləri ona görə demirəm ki, məni direktorluqdan çıxartdılar, onu qoydular. Yox, mən belə xırda hisslərdən uzağam. Mən prinsip etibarilə deyirəm. Sözümün canı odu ki, hər kəs öz bacardığı işin qulpundan yapışmalıdır.

— Bu ilki avqust müşavirəsində bizim Məhər müəllim Şakirə yaman çəkdi, elə qədirbilmək məsələsini də dedi. Sizin haqqınızda da xüsusi danışdı.

— Sağ olsun. Eşitmişəm.

— Müəllim kollektivi yaman dirənib üzünə Şakirin. Siz məktəbdən gedəndən sonra elə bil məktəb yetimləşib, Nəzər müəllim. Neyniyirik, sizin yeriniz görünür. Və uşaq da, böyük də bunun günahını Şakir də bilir. O sizə o cür münasibət bəsləməklə özünü hörmətdən saldı. Məhər deyirdi ki, Nəzər kimi bir müəllimə hörmət bəsləməyən, bizə nə hörmət qoyacaq. Düz də deyir.

— Mən, necə deyərlər, qarnım üçün demirəm, qızım, qədrim üçün deyirəm. Mənim davam odur ki, bu, məndən sonra gələn cavan müəllimlərə — lap elə sizə — çox pis təsir eləyə bilər. Siz mənə baxıb öz qocalığınızı göz qabağına gətirər və «budu can yandırmağın, özünü həlak eləməyin axırı?» — deyib həvəsdən düşərsiniz. İnsanın isə həvəsini, inamını öldürdün, elə bil özünü öldürdün — heç fərqi yoxdu, bala! Bax, burdan yaranır biganəlik, bax, burdan yaranır laqeydlik! Bu isə çox böyük bəladır!

— Elə Məhər də bunu deyirdi, Nəzər müəllim. Eynən belə deyirdi. Murad yerindən söz atdı ki, yəni deyirsən, öz əlilə ərizə verib təqaüdə çıxan adamı biz təzədən məktəbə qaytaraq?! Bu, mümkün olan şey deyil, Məhər müəllim! Onda Məhər cavab verdi ki, mənim sözlərimi təhrif eləməyin, xahiş eləyirəm. Mən insana, kadra münasibətdən danışıram, Murad müəllim. Və sizin bu cür irad tutmağınız mənə çox qəribə gəlir, çünki ola bilər burda oturan yoldaşların çoxu bilməsin, ancaq siz yaxşı bilirsiz ki, Nəzər heç də öz xoşuna ərizə yazmayıb — onu Şakirin o qocaman müəllimə bəslədiyi buz kimi soyuq münasibəti, özbaşına hərəkətləri yazdırıb. Kollektivdə sağlam atmosfer olmayanda adam istəyir pensiya yaşı çatmamış ərizə verib getsin. Görün, yoldaşlar, iş nə yerə çatıb ki, məsələn, şəxsən mən tez qocalmaq istəyirəm, tez pensiyaya çıxım deyə. Şakir Şakirzadə bizim məktəbdə dözülməz atmosfer yaratmışdır, daha belə işləmək

mümkün deyil. Mən, yoldaş Murad Muradzadə, kollektiv adından xahiş edirəm ki… Şakir heç qoymadı Məhər sözünü bitirsin, yerindən çımxırdı: «— Sən kollektiv deyilsən, kollektivin adından danışa bilməzsən». Mən də yerimdən qalxıb onun sözünə qüvvət verdim. «Məhər müəllim düz deyir, bu, bütün kollektivin əksəriyyətinin fikridi, yoldaş Muradzadə». Onda Şakir xoruz kimi qızarmış halda: «Sizi Nəzər müəllim öyrədir!» — söylədi. Salona bir qeylü-qal düşdü ki, ağız deyəni qulaq eşitmədi. Müəllimlər sizi necə də çox istəyirmiş, Nəzər müəllim! Kaş orda olaydız, özünüz gözünüzlə görəydiz.

— Məni kövrəltmə, qızım. Bəsdi, sən allah. — Nəzər doğrudan da kövrəlmişdi. — Nəzər də bir Nəzər idi, gəldi, getdi, qızım. Mən indi bir şeyə çox sevinirəm, Zakirə. O da budu ki, adamlar dünənki, srağagünkü kimi müti deyillər. Yavaş-yavaş ayılma prosesi gedir. Bunu gücləndirmək lazımdı. Uşaqları da, cavanları da belə tərbiyə eləmək lazımdı. İnandırım səni, hamı ayıq-sayıq olsa, hamı birbirinə göz olsa, əlbir-dilbir olsa, aramızda nə oğru olar, nə qanunsuz iş tutan olar, nə rüşvət alan olar. Olmaz, vallah, olmaz, billah olmaz!

ON SƏKKİZİNCİ FƏSİL

Rayonun lap mərkəzində, dörd yol ayrıcında qoyulmuş şlaqbaumun yanında iki «Jiquli» dayanmışdı. Balamirzə burdaydı, böyründə də qoluna qırmızı lent bağlamış drujinaçı — cavan bir oğlan dayanmışdı. Ucaboy, qolsuz köynək geymiş kişi, Balamirzənin qənşərində durub əl-qol ölçə-ölçə nəsə deyirdi. Maşındakılar söhbətin uzandığını görüb bir-bir yerə düşür, mübahisə eləyənlərin başına yığışırdılar. Səkkiz-on nəfərdilər. Altısı qadındı, bir uşaq da vardı.

Nəzər qıraqlarına akasiya ağacları əkilmiş səki ilə ağır-ağır gəlirdi. Oğluyla olan bir az əvvəlki söhbətdən yaman dilxor olmuşdu. Qəribin, öz doğma oğlunun onunla belə danışması kişini pərt eləmişdi. Təəssüflə fikirləşirdi ki, bu uşaq — yəni Qərib onu hələ də yaxşı tanımır. Ürəyi sıxılmışdı, həyətə yenmişdi, bir adam axtarmışdı ki, dərdləşsin, danışsın, fikrini dağıtsın. Sürücü yox idi — hə, demişdi benzin doldurmağa gedəcək.

Baş küçəyə sallanmışdı. Heç kəsə rast gəlməmişdi. Bütün idarələr, müəssisələr bağlıydı. Elə bil rayon mərkəzində həyat ölmüşdü, bir ins-cins gözə dəymirdi. Kinoafişaları üçün düzəlmiş ikiayaqlı taxta elanlar lövhəsinə qırmızı mürəkkəblə yazılmış bir şüar gözünə

dəydi: «Hamı — pambıq tarlalarına». Nəzər dodaqlarını bir-birinə sıxdı. Hər yanı bulud aldı və qara buludların arxasından sıyrılıb çıxan başqa bir şüar göründü gözlərinə: «Hər şey cəbhə üçün». Hə, bu, müharibə vaxtının ən yadda qalan, ən hökmlü şüarıydı. Təkcə yazmırdılar — hara gedirdin deyirdilər də. «Hər şey cəbhə üçün».

Dörd il yarım o şüar Nəzərin demək olar ki, yol yoldaşı olmuşdu. İndi də budur: Pambıq — zərbəçi cəbhədir.

Nəzər onlara yaxınlaşırdı. Hələ danışıqlarını qulağı almasa da, bilirdi söhbət nəyin üstədir. Pambığın qızğın vaxtıydı, necə deyərlər, məmə deyəndən pəpə yeyənə qədər hamı çöldə, tarladaydı. Bu şlaqbaumu da Süleymanın tapşırığı ilə bura qoyub iki nəfər də dayanmışdı ki, gələnin, gedənin yolunu kəsib, maşından salıb ağızlarını heç olmasa dörd-beş saatlığa pambıq tarlasına döndərsinlər; nə yığsalar, qənimətdi — qırılan qoşundandı. Bu məsələ o gün iclasda ortalığa gələndə Nəzər etiraz eləmişdisə də, sözünə fikir verən olmamışdı.

İndi budur, o işi həyata keçirirlər.

Nəzər yaxınlaşanda Balamirzə ucadan deyirdi:

— Yox, olmaz. Buraxa bilmərəm, ay yoldaş.

— Yoldaş kapitan, mən insan kimi sizə deyirəm — biz qonağıq, toya gedirik, — deyə həmin ucaboy kişi kim bilir neçənci dəfə izah eləyirdi. — Biz toya gəlmişik, ay kapitan, pambıq yığmağa yox. Başa düşürsən ya yox?

— Mən başa düşürəm. Amma olmaz, bizə də tapşırıblar.

— Kim tapşırıb axı? — Kişi əsəbi-əsəbi qışqırırdı.

Balamirzə sakit-sakit başı ilə yaxından görünən rayon partiya komitəsinin binasına işarə eləyirdi:

— Ordan tapşırıblar.

Kişi o tərəfə boylanıb:

— Ora haradı, ay kişi, — deyə soruşanda Balamirzə yenə arxayın-arxayın cavab verirdi:

— Raykomdu da.

— Raykom belə tapşırıq verə bilməz.

— Verib də.

— Axı, ay yoldaş, heç yerdə belə qanun yoxdu. Raykom necə belə tapşırıq verə bilər axı? Burda bəyəm Sovet hökuməti-zadı yoxdu?

— Ey, ey, ağzını təmiz saxla ha. İndi səni pambıq tarlasına yox, bilirsən hara göndərərəm? Necə yəni Sovet hökuməti-zadı yox-

du? Bu nə sözdü sən danışırsan?

Nəzər lap böyürlərində dayanmışdı. Bu söhbət ürəyini ağrıdırdı. «Bax, belə eləyirlər ha, adamlarda nifrət hissi yaradırlar. Bax, mən bunun üçün deyirdim ha, yoldaş katib, — deyə sanki Süleyman yanındaymış kimi ona müraciət eləyirdi. — Sənin üçün beş kilo pambıq bir insanın ürəyində Sovet hökumətinə olan məhəbbətə zədə düşməsindən qiymətlidi?»

Qolunda qırmızı sarğı olan oğlan uzun boğazını irəli uzadıb özünün də burada vəzifə başında olduğunu xatırlamaq üçün dilləndi:

— Pambığın öz qanunları var, ay şəhərli əmi. O, heç nəyi gözləmir. Yetişdi, açıldı, gərək dərəsən, yığasan. Sən bir vətəndaş kimi, bu dəstəni də götürüb gedib o tarlada, hansındakı bizim arvad-uşaq səhərin gözü açılandan gecə düşənə qədər pambıq yığır, iki-üç saat bizə kömək eləsən, dünya dağılar? Əksinə, lap yaxşı olar. Radioda, televizorda bar-bar bağırırsız, ay şəhərin kəndə köməyi belə gəldi, elə getdi. Gəlmisiz, əlimizə düşmüsüz, eləyin də bu köməyi, biz də görək.

— Adə, cüllüt, sən şəhərə gələndə mən səni tutub gətirirəm zavoda ki, mənə kömək elə? — deyə bayaqdan susub gah Balamirzənin, gah da uzun kişinin ağzına baxan ikinci kişi sözə qoşuldu. — Hə, nə gözlərini döyürsən? Sən mənim zavodumda işləyə bilərsən heç? İşləyə bilməzsən. Bax, bunlar — kənarda dayanıb peşiman-peşiman bu mübahisənin nəylə bitəcəyini gözləyən arvad-uşağı göstərdi — bunlar heç pambıq yığana oxşayırlar? Səni inandırım ki, onlar heç jivoy pambığın üzünü də görməyiblər.

Kişi kök idi, cüssəli idi, elə zəhmlə danışdı ki, drujinaçı susdu və düşündü ki, doğrudan da, o elə bu il üç-dörd dəfə Bakıya gedib — heç kəs onun qolundan tutub mədənə, zavoda, fabrikə, müəssisəyə aparmayıb. Ağlına batdı və dönüb Balamirzəyə fikir verdi. Bu zaman ucaboylu adam drujinaçının qabağına gəldi:

— Ay oğul, ay qardaş, nə vətəndaş, vətəndaş salmısan, nə kömək deyib boğazını yırtırsan? Bax, mənim bir oğlum Ağsuda pambıq yığır bu saat — universitet aparıb. O biri qızım da Puşkindədi — o da pambıq yığır. Pedaqoji institutdan aparıblar. Daha nə istəyirsiz? Bu kömək deyil?

Nəzəri öskürək tutdu. Səsə çevrildilər. Balamirzə onu görən kimi, elə bil kimləsə vuruşan gücsüz bir uşaq atasını qəfil gördü və sevincək:

— Hə, bax, budur, Nəzarət komitəsinin sədri də gəldi, — dedi. — Nəzər müəllim… — o, müraciət edib nəsə demək istəyirdi ki, Nəzər dəsmalı ilə ağzını silib irəli yeridi. Ucaboy kişi də nəhayət, danışa biləcəyi, başa sala biləcəyi bir adam tapıbmış kimi ona sarı çevrildi. Ancaq Nəzər onların heç birinə imkan vermədən söylədi:

— Bayaqdan söhbətinizi eşidirəm. Siz toya gedirsiz. Mübarəkdi toyunuz. Xoşbəxt olsunlar, qardaş. Ay Balamirzə, aç o şlaqbaumu, burax çıxıb getsinlər. — Balamirzə tərəddüd elədi.

— Aç, aç.

— Katib…

— Katibə deyərəm mən buraxmışam. Sən aç, qoy getsinlər. Pambıq az qalıb bizim insanlığımızı da əlimizdən alsın.

— Çox sağ olun, müəllim. — Ucaboy dedi. — Sonra Balamirzəyə: — Paqon gəzdirirsən, amma hayıf — dedi.

Balamirzə dartındı, ancaq nə fikirləşdisə dayandı. Kök kişi isə «cüllüt» adlandırdığı drujinaçıya gülə-gülə barmaq silkələdi:

— Həlbət, Bakıda əlimə keçərsən, səni tutub gətirərəm BMZ-yə, qoyaram stanokun dalına, deyərəm kəççi qərdeş, indi də sən mənə kömək elə, görüm necə eləyirsən. Vətəndaş kəççi.

Onlar hay-küylə maşınlara doluşdular. Nəzərə əl eləyə-eləyə yola düşdülər. Nəzər də gülümsünüb doğma adamlarını yola salırmış kimi əlini havada yellədi və sonra Balamirzəyə sarı döndü:

— Ə, heç onların dediklərini siz həzm eləyə bildiz? Başa düşdüz olar sizə nə dedilər? Yox. Hardan başa düşəcəksiz, ay yazıqlar. Siz buyruq qulusuz — əmr versinlər, siz də yerinə yetirin. Vəssalam. Ta baş işlətmək, o əmri saf-çürük eləmək, xeyrini-ziyanını götür-qoy eləmək sizin nəyinizə lazımdı ki?

Balamirzə Hərbi xidmətdə öyrənib bərk-bərk yadında saxladığı kəlamı avtomat kimi üyüdüb tökdü:

— Əmr müzakirə olunmur, Nəzər müəllim.

— O əsgərlikdədi, Balamirzə, müharibə vaxtındadı.

— Ay Nəzər müəllim, — «cüllüt» dilləndi — biz neyniyək, bizə deyirlər, biz də eləyirik.

Balamirzə udqundu:

— Əşi, baş açmaq olmur sizin də işinizdən. Ağayev deyir ki, katib tapşırıb — bir adam da buraxmayın, basın hamısını pambığa. Sən də ayrı cür deyirsən… Adam heç bilmir hansınızın sözünə qulaq

assın.

— Adam qanunun sözünə qulaq asmalıdı, Balamirzə, — deyə Nəzər bığlarını tumarladı.

ÜÇÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Kaş Ələmdar gəlməyəydi, kaş Simuzər onda evdə olmayaydı, harasa getmiş olaydı, kaş onun o soyuq, ürək yaxan sözlərini eşitməyəydi. Amma hayıf ki, gəlmişdi, demişdi, o da eşitmişdi.

O zaman bir əlilə günahsız və məsum qızın uçurub viran qoyduğu, yerlə yeksan elədiyi, o biri əlilə də yaşına heç cür yaraşmayan o isti nəvazişləri, çılğın öpüşləri ilə tikib qurmağa, ovutmağa, bədbəxtliyini, gərəksizliyini unutdurmağa çalışdığı və unutdurduğu könül dünyasını bu boyda ayrılıqdan sonra, gəlib təzədən xarabazara döndərərək getmişdi. Həmin o məşum gün — səhər tezdən, hamı yatmışkən, pilləkən qayıdıb yatağına girmiş, çarəsiz-çarəsiz gözlərinin qorasını sıxmış, için-için ağlamışdı. Bir azdan qalxıb süfrə açan, ortalığa çay-çörək qoyub kişiləri səşər yeməyinə dəvət eləyən Səltənət xanım yavaşca sivişib qızının otağına keçmişdi, silkələyib çağırmışdı:

— Qalx, ay ömrüm-günüm! Ay qız, Simuzər!

Amma qız özünü eşitməməzliyə vurmuşdu. Ana onu bir az da bərk silkələyərək dümsükləmişdi:

— Aaaz, ölüm yuxusuna-zada getməyibsən ki! Qalxsana.

— E, qoy yatım. — Üzünü divara çevirib mələfəni başına çəkmişdi.

— Ay qız, ayıbdı. Dağdan ağır kişi gəlib. Dur, heç olmasa, adam balası kimi bir salam ver, sonra gəl nə qədər yatırsan, yat də.

— …

— Aaz, axı sən belə döyüldün? Nə oldu sənə birdən-birə? Bu kişi gələndən sənin vələdin niyə belə dönüb, ay çərxi dönməmiş? — Susmuş, nəsə fikirləşib birdən, qorxa-qorxa əlini onun böyrünə qoyub tərpədərək yavaşcadan xəbər almışdı: — Aaaz, ay günü qara gəlməmiş, yoxsa bu kişiyə vurulub eləmisən, hıy?

Simuzər yerinin içində çırpınmış və qəzəblə:

— Allah vurmuşdu onu! — demişdi. Ani olaraq ürəyinə axıb dolan bu nigarançılıqdan da qurtaran Səltənət xanım, naəlac qalıb, pərişan halda eyvana çıxanda Ələmdarı ayaq üstə görərək:

— Bıy, bə niyə belə tez, Ələmdar qardaş? — demişdi. — Siz heç nə yemədiz ki?

— Hə, yemədi, — Müseyib də bikef dillənmişdi.

— İştaham yoxdu, Səltənət xanım. Mən səhərlər həmişə bir stəkan acı çay içirəm. Yolçu da yolda gərək. Hava sərinkən gedək…

— Bizdən Sulduz bacıya çoxlu salam deyin. Sən allah, Ələmdar qardaş, bu dəfə gələndə onu da gətirin.

— Yaxşı. — Ələmdar Simuzərin yatdığı otağın qapısına boylanmışdı. — Məndən də Simuzərə salam deyərsiz. — gülümsünmüşdü və ər də, arvad da bu təbəssümdə bir inciklik his eləmişdi.

Ələmdar getmişdi, ancaq öz rəhmsiz əllərilə Simuzərin od vurub yandırdığı ürəyindən qalxan tüstünü görməmişdi, duymamışdı. Maşına minib yola düşən kimi o görüşü, o tənəli sözləri, ani qısqanclığı unutmuş, ağ balığın qarnında salafanın içinə qoyulmuş «Niqolay başları» sanki qara maşının baqajından çıxaraq gəlib onun gözlərini qamaşdırmışdı, yolunu rahat, könlünü xoş eləmişdi.

Simuzər o yatan düz üç gün üzüqoylu yatmışdı; heç nə yeməmiş, heç kəslə danışmamış, atasının-anasının təkidinə baxmayaraq, həkim də çağırtdırmağa icazə verməmişdi. O üç günü qız taleyini götür-qoy eləmiş, Ələmdarın lal Bəhram barədə dediyi sözlər elə hey qulaqlarını deşmiş, ürəyini cırmaqlamışdı. Bəhram canlı-cüssəli, qəşəng oğlan idi — Simuzərin ucaboy, enlikürək oğlanlardan xoşu gəlirdi. Ancaq axı o lal idi — onunla necə yaşaya bilərdi Simuzər? Danışmağı, deməyi, gülməyi sevən o, bircə kəlmə kəsməyə belə qadir olmayan Bəhramla necə ömür sürə bilərdi? Bəhram ona, Ələmdar kimi «Sənə qurban olum, Sim», «Sən gözəlimsən mənim, Sim!», «Sənsiz mənim həyatım çox mənasız olardı, gözəlim!» — sözlərini, şübhəsiz ki, deyə bilməyəcəkdi və əgər deyə bilməyəcəkdisə, onda bu sözləri sərasər yeddi il eşitmiş və bundan əvəzsiz zövq, ləzzət almağa öyrəşmiş Simuzər necə yaşayardı? Bu, həyatmı olardı, ərarvadlıqmı olardı!.. Yox, yox. Bu, cənnətdən çıxıb cəhənnəmə düşmək kimi bir şeyə bənzərdi və Simuzər buna dözə bilməzdi, əsla dözə bilməzdi!

Lal Bəhram söhbətinin ortalığa gəlməsi Simuzəri elə bil ayıltmışdı. İndiyə qədər o, Bəhramı demək olar ki, görməmişdi, daha doğrusu, görmüşdü, ancaq fikir verməmişdi. Onu adam-kişi hesab eləməmişdi. Bəhramla əl-qol işarəsi ilə — lal dili çox danışmışdı. Əmrlər vermişdi, «filan işi elə», «filan şeyi gətir» demişdi, o oğlan da robot kimi, heç bir səhvə yol vermədən əlüstü həmin işi yerinə yetirmişdi. Və yalnız indi, tək-tənha yerinin içində oturub düşünəndə

xəyalının, xatirələrinin, yaddaşının gözüylə görüb başa düşmüşdü ki, Bəhram bu evdə hamıdan çox, ancaq Simuzərin tapşırıqlarını yerinə yetirəndə uşaq kimi necə sevinir, qara, işıqlı, iri gözləri necə parıldayır sevinc içində! İndi-indi yadına salırdı ki, Simuzər Bakıdan qayıdıb gələndən sonra o lal oğlan — adicə bir əşya, qulluqçu hesab elədiyi Bəhram necə də dəyişib! Qız işə gedəndə də, axşam evə dönəndə də Bəhramı uzaqdan, ya hovuzun, ya qarajın yanında, ya da bağın içində dayanaraq diqqətlə ona baxan, baxışları ilə yola salan və qarşılayan görərdi, lakin buna heç bir məna və əhəmiyyət verməzdi. Çünki Simuzər, lap açığı, onu adam yerinə qoymazdı, ondan utanıb çəkinməzdi — ona görə ki, o lal idi! «Məgər lal insan deyil? Məgər onun ürəyi, hissləri yoxdu? Məgər onun sevməyə, sevilməyə haqqı yoxdu?» — Simuzər ürəyində birdən-birə, Ələmdar o sözləri deyərək çıxıb gedəndən sonra doğmuş bu suallardan xoflanmışdı. Niyə indiyəcən o, bu barədə düşünməyib! Təəccüb eləyirdi. «Kim bilir, bəlkə atam Bəhramı elə mənə görə çəkib qanadının altına? Bəlkə elə onun da fikri belədi, hə? Bəlkə atam mənim bədbəxt olduğumu bilir? Bilir? Bilirsə, hardan bilir? Amma atam aləmin çoxbilmişidi! Hiss eləyir bəlkə? Bəs onda niyə susur, niyə o əclafın — Ələmdarın başını kəsmir? Yox, xəbərsizdi atam, xəbərsizdi yazıq! Yoxsa məni doğrardı, ona da gücü çatmasaydı, məni doğrardı!»

Simuzər bu suallardan yaxa qurtaran kimi, yenə o lal oğlan gəlib dayanmışdı gözlərinin qabağında. «Hm. Qəribədi. Bu bədbəxt məni sevir! Hə, hə, sevir! Necə olub mən indiyəcən bunu başa düşməmişəm? Ələmdar mənim ürəyimi, hisslərimi öldürüb! Ələmdar mənim gözlərimi bağlayıb, dünyaya baxmağa qoymayıb!». Elədi ki, var. Bizə yad bir adam gələndə, kimləsə məni danışıb-gülən görəndə... Bəhram qara bulud kimi dolur! O adama qəribə bir qəzəblə baxır. Heç nə deyə bilmir — eləcə qəzəblə baxır və gözlərini, sifətini bir kədər bürüyür…» «Yox, Bəhram. Sən belə xam xəyallara nahaq düşmüsən! Mən sənin tayın deyiləm, oğlan! Sənin lə mənimki tutmaz!..»

Çırpıntılar, sayıqlamalar içində birdən bir işıq yanmışdı beynində: Ələmdar təcrübəli, görüb-götürmüş adamdı — o, boş yerə bu lal oğlanı ona dayiq görməzdi. Bəlkə… Bəlkə… O, bu yolla Simuzərin qəbahətinin üstünün heç vaxt açılmayacağını nəzərdə tutub belə məsləhət görmüşdü!.. Bəhram — laldı, aldığı qızın — Simuzərin günahkar olduğunu heç kəsə açıb deməyə iqtidarı-imkanı olmayacaqdı!

O, danışa bilmədiyinə görə Simuzərdən haqq-hesab da istəyə bilməyəcəkdi! Qışqıra-qışqıra, gözlərinə qan sağılmış halda: «… Kimdi o əclaf! Kimdi, adını de! Adını de, sənə deyirəm!.. De, onun başını it başı kimi kəsməsəm, mən heç kişi deyiləm!» — deyə bilməyəcəkdi! Amma lal olanda nə olar? O hər şeyi başa düşəcəkdi ki! «Yox! Lal adamla yaşamaq bu əzablardan da artıq əzabdı!» Amma Ələmdarın acığına Simuzər necə də ərə getmək istərdi indi. Elə lap indi. Bu gün, sabah. Beş gün sonra. Özü də onun acığına, qəşəng, cavan, bəy balasına oxşayan bir oğlana! Pulu da olmasın, evi də olmasın,vəzifəsi də olmasın. Sadəcə cavan olsun, yaraşıqlı olsun. Sevsin Simuzəri. Onda Simuzər həmin oğlanı — ərini yanına salıb, bir bəhanə ilə Ələmdarın hüzuruna gedər, şəstlə təqdim edərdi: «Tanış olun, bu mənim həyat yoldaşımdı», «Onda baxardım, görərdim necə yanıb-yaxılırsan, görərdim təpəndən tüstü necə göylərə bülənd olur! Axx, səni də yandırardım!»

Və birdən… o uzun, şaqqalı, enlikürək, iki aydan bəri onu hər gün işə gedərkən, yol ayrıcında dayanıb gözləyən, uzaqdan həsrətlə baxan, ancaq yaxınlaşmağa cürət eləməyən oğlan yadına düşmüşdü Simuzərin! Bütün bədəni isinmişdi, ciyərləri elə bil genişlənmişdi, rahat nəfəs almışdı. Kim idi o? Kimin oğluydu? Bilmirdi. Bircə onu bilirdi ki, mədəniyyət sarayında işləyir. Bu il martda, Qadınlar bayramı münasibətilə Rayon partiya komitəsinin təşkil etdiyi yığıncağın rəsmi hissəsi qurtarıb bədii hissəsi başlayanda o oğlan səhnəyə çıxıb qadın haqqında gözəl bir şer demişdi. Onda Simuzərin fikri-xəyalı Bakıda, Ələmdarın yanında olduğu üçün, nə oğlanın adını yadında saxlamışdı, nə də qəşəngliyini görmüşdü. Ancaq sonra, iki ay bundan qabaq o oğlanı hər gün eyni yerdə dayanan görəndə və diqqətlə ona baxdığını hiss eləyəndə xatırlamışdı ki, o həmin şer söyləyən oğlandı. Bir həftə bunu təsadüf hesab eləmişdi. Lakin günlər keçəndən sonra başa düşmüşdü ki, o, elə-belə dayanmır burda. Hətta lap bu yaxınlarda, darvazadan həyətə girəndə qanrılıb geri baxanda onun dalınca gəldiyini görüb əvvəl təəccüblənmişdi, sonra qəribə bir sevinc axıb dolmuşdu içinə və ürəyini titrətmişdi. Və elə bu zaman ona nədənsə elə gəlmişdi ki, bax bu sevinci o, — Ələmdar Bakıdan, öz kabinetindənmi, evindənmi, bağındanmı baxıb görür — tez özünü yığışdırmış, ciddiləşmiş və oğlanın qarasınca deyinmişdi də.

«Axmaq olmuşam gör nə qədər! Sən demə, onun heç yadına da düşmürmüşəm!»

İki-üç dəfə də Simuzər onu xəstəxanada görmüşdü. Bir kərə də oğlan onun kabinetinin qapısını açıb içəri boylanmışdı: həkim başını aşağı salıb nə isə yazırdı. Qapının açıldığını da hiss eləmişdi. Ancaq kimsənin içəri girmədiyini görüb dikələndə o oğlanın iri, qara, parlaq gözlərinin ona dikildiyini görmüşdü. Tanıyıb özünü itirən kimi olmuşdu.

— Buyurun! — demişdisə də, oğlan qapını ehmalca örtüb yox olmuşdu. Simuzər marağını saxlaya bilməyib dəhlizə çıxmışdı — oğlanı görə bilməmişdi.

Sonra Simuzərə sözsüz-sovsuz aydın olmuşdu ki, oğlan kimdisə, ona vurulub. Bir yandan sevinmişdi — qadın kimi. Bir yandan da… dərdi yadına düşüb kədərlənmişdi. «Yox! Yrx! Mən heç kəsə ərə getməyəcəyəm! Gedə bilməyəcəyəm! Ələmdar qoymaz. Ələmdar məni heç kəsə verməz», «Səni heç kəsə verməyəcəyəm, Sim! Yoxsa… mən ölərəm, Sim! Bağrım çatlar, inan!»

«Amma… indi özü deyir get! Demək, yalanmış o sözlərin hamısı, aman allah. Sevmirmiş məni, sevmirmiş, sevmirmiş! Əsl sevən adamın dili necə gələr ki, öz istədiyinə, həyatının mənası adlandırdığına öz diliylə desin get başqasına! Yox, sevmirmiş!»

Ən təəccüblüsü bu olmuşdu ki, o, üç gün, yorğan-döşəyində yanıb-yanıb qovrulandan sonra, zəif, taqətsiz addımlarla səhər-səhər evdən işə getmək üçün küçəyə çıxanda o ucaboy oğlanı azca aralıda dayanıb siqaret çəkə-çəkə darvazaya baxan görmüşdü və qeyri-iradi həyəcanlanmışdı. Oğlan da deyəsən özünü itirib təzəcə alışdırdığı siqareti əlindən salmışdı.

Simuzər qıçları bir-birinə dolaşa-dolaşa küçə ilə addımlamışdı. Addım səslərindən başa düşmüşdü ki, oğlan yerindən qopub dalıyca gəlir. Ürəyi çırpınmışdı. Oğlan tuşuna çatmışdı; üç-dörd qədəm yanaşı yerimişdilər. Birdən oğlanın tutqun səsini eşitmişdi:

— Xəstələnmişdiz, doktor?

Simuzər, adəti üzrə, onu acılamaq istəmişdi, ancaq Ələmdarın sözlərini yadına salıb bu fikrindən daşınmışdı. Dinməməyi daha münasib sayıb cavab verməmişdi.

— Deyirəm, xəstələnmişdiz doktor? Üç gündü işə çıxmırsız…

Simuzər yanakı oğlana baxıb mümkün qədər mülayim:

— Siz kimsiz ki, mənnən haqq-hesab istəyirsiz? — deyəndə oğlan:

— Mən Qəribəm, — demişdi.

Simuzər oğlanın onun sualına cavab vermədiyinə gülümsünmüşdü:

— Buralı deyilsiz?

— Buralıyam, Simuzər xanım. Sadəcə adım Qəribdi.

— Oo, siz mənim adımı da bilirsiz.

— Mən sizin haqqınızda hər şeyi bilirəm, Simuzər xanım.

Bu sözlər gözlənilməz olmuşdu. Simuzərin vücudunu titrətmə tutmuşdu və ayağı qəfildən büdrəmişdi. Ağ, uzundaban ayaqqabısının nazik dabanı qopub yerə düşmüşdü.

— Vay, kablukum sındı. — Qız çönüb qorxu, tələş içində və eyni zamanda yazıq-yazıq oğlana baxmışdı. Və əyilib ayaqqabısının dabanını yerdən götürüb o yan-bu yana fikir vermişdi. Evdən əlli-altmış metr aralanmışdı; istəmişdi geri qayıtsın, ayaqqabısını dəyişsin. Ancaq iki addım atmamış dayanmışdı, çünki qıçının biri gödək, biri uzun idi — belə yerimək gülünc idi. Və qəribədi ki, Qərib də buna gülürdü.

— Niyə gülürsüz? Burda gülməli nə var? — Simuzər qəzəblənmişdi, sonra özü də ona qoşulub gülmüşdü.

— Bir dəqiqə dayanın, mən gedib ananızdan ayrı ayaqqabı alım gətirim.

— Siz mənim anamı da tanıyırsız?

— Tanımıram, tanış olaram da!

Qəribin bu çevikliyi Simuzərin xoşuna gəlmişdi.

— Sizə zəhmət olmaz?

— Yox, nə danışırsız?! Xoşdu.

— Onda… anama deyin o qara ayaqqabılarımı versin.

— Baş üstə, Simuzər xanım!

Qəribin gedib-qayıtmağı heç beş dəqiqə də çəkməmişdi. Əlində qəzetə bükülmüş ayaqqabılar, tövşüyə-tövşüyə ona çatanda, Simuzər baxıb görmüşdü ki, Səltənət darvaza ağzına çıxıb tamaşa eləyir.

— Ay sağ olun…

— Qəribə arvaddı ananız. Az qala anket doldurmaq istəyirdi. Kimsən, kimin oğlusan… Yəqin siz də heyləsiz? Heyləsiz? Heylə suallar verəssizsə, ondan bəri başdan deyim — mən Nəzər müəllimin oğluyam.

Simuzər ayaqqabıları dəyişib təzələri geyəndən, köhnələri qəzetə büküb əl çantasına qoyandan sonra:

— Hansı Nəzər müəllimin? — deyə xəbər almışdı və anasına əl eləyib yoluna davam eləmişdi.

— Nəzarət Nəzərin — Qəribin özü də bilmədən atasının adını ayaması ilə dilinə gətirmişdi.

— Belə de də. Tanıdım. O gün müaviniynən — nədi o qızın adı? Hə, Xuraman. Gəlmişdi bizim xəstəxanaya. Gəzdi, dolandı. Deyəsən narazı getdi. Bir söz deməyib sizə?

— Yox, mən onunla belə şeylər barədə danışmıram, Simuzər xanım.

— Hm. Ciddi adamdı. — Danışırdı, amma oğlanın… «Mən sizin haqqınızda hər şeyi bilirəm» deməsini heç cür yadından çıxarda bilmirdi. «Hardan? Necə axı? Bəlkə… Ələmdar?.. Yox, bu ola bilməz!»

— Ta srağagün səhər tezdən sizdən gedən o kök kişi kim idi?

Yenə əsməcə tutmuşdu Simuzəri. «Görüb. Evimizin böyürbaşına hərlənirmiş!»

— Hansı kişi?

— O qara maşınla gedən kişi!

— Hə, o? Əmimdi.

— Əmindi? Bəyəm Müseyib qağanın qardaşı da var?

— Qardaşı deyil. Naziridi.

— Naziri?

— Hə.

— Deyirəm axı hökumət maşınıydı…

Oğlanın onun haqqında doğrudan da çox şeyi bildiyini hiss eləyən Simuzərin nitqi batmışdı. Susub qayğılı-qayğılı yoluna davam eləmişdi. «Bəlkə… Ələmdar doğru deyir: lal belə suallar verib adamı çaşdıra bilməzdi!»

— Nə olmuşdu, xəstələnmişdiz?

— Hə.

— Həkim də xəstələnər? Biz xəstələnəndə sizin yanınıza qaçırıq, bəs siz xəstələnəndə…

— Sizin xəstələndiyinizi mən görməmişəm. Xəstələnsəydiz, heç olmasa bu bir il ərzində bir dəfə xəstəxanaya gələrdiz.

Qərib azca susub neçə dəfə xəstəxanaya — Simuzəri görmək üçün getdiyini fikrində sayıb demişdi:

— Son iki ayda altı dəfə xəstələnmişəm, gəlmişəm sizin xəs-

təxanaya…

— Mən sizi görməmişəm.

— Gəlmişəm. Ancaq sizi görən kimi sağalıb qayıtmışam, Simuzər xanım.

Qız bu sözlərin mənasını yaxşı başa düşüb xoşbəxt-xoşbəxt gülümsünmüşdü və elə o dəqiqə özünə heyrət eləmişdi: ona elə gəlmişdi ki, bu sözləri eşidən, gülümsəyən Simuzər, onun əvvəllər tanıdığı Simuzər deyil. Yox, o deyil. Kimin, hansı oğlanın cürəti vardı ki, yaxınlaşıb Simuzərə belə sözlər desin! Qız onun gözünü deşərdi. Və nə qədər oğlanı beləcə qaçırtmışdı!

«— Adam tapmısan?»

«— Hə, tapmışam!»

Onda, üç gün qabaq Ələmdara açıqca bu cür cavab vermişdi. «Hə, tapmışam». «Onda tapmamışdım, onda acığımdan belə demişdim. Ancaq indi doğru deyirəm — tapmışam, Ələmdar! Səndən cavan, səndən qəşəng!.. Görsən, bağrın çatlayacaq, Ələmdar».

… Qərib yalan demirdi. Gözü səhərlər başıaşağı xəstəxanaya gedən, axşamlar da… başıaşağı evə dönən, küçədə, məclisdə, işdə bir kəsin üzünə belə baxmayan bu qızı çoxdan tutmuşdu. Öyrənmişdi, kimin qızıdı, haranı bitirib. Müseyibin qızı olduğunu biləndən sonra isə, fikri qətiləşmişdi. Gəlməsəydi də, razılıq verməsəydi də, götürüb qaçacaqdı. «Yox, Müseyib adamın nəslini sildirər yer üzündən!»

Bugünkü söhbət isə Qəribin könlünü yaman açmışdı. «Ə, gərək adamı allah istəyə. Yoxsa ha hoppan-düş. Ayaqqabı da yaxşı yerdə sındı. Anasını da görüb tanış oldum. Yamanca arvaddı ha!» «Yox, Müseyib verməz qızını mənə! Oxumadım, hayıf. Bunu bəhanə eliyəcəklər, verməyəcəklər. Tuzdu Müseyib qağam rayonda. Qapısında hökumət adamlarının maşını dayanır, o, sənə zarafat gəlməsin».

İKİNCİ FƏSİL

Uzun,üstünə bəzəkli müşənbə salınmış stolun arxasında qabaq-qənşər iki adam oturmuşdu. Ev yiyəsi Müseyib idi — başının sarı saçları seyrəlib tökülmüşdü, kipgirdə ətli sifəti, qonur, qaynar gözləri qəribə bir parıltı ilə yanırdı. Qonağı — Nəzər müəllimdi. Gözlənilməz qonaq idi. Müseyib küçə qapısında təsadüfən rast gəlmiş, belə fürsəti çoxdan gözləyən adam kimi, hədsiz sevinc içində onun qoluna

girmiş, demək olar ki, kişini zorla çəkib həyətə salmışdı. Nəzərin ilk anlardakı çaşqınlığı az sonra keçib getmiş, qırışığı açılıb sərbəstləşmişdi. Yanıyca yan basa-basa yeriyən ev sahibi darvaza arxalarınca öz-özünə çırpılan təki gövdəsinə qətiyyən yaraşmayan cır səslə üzünü eyvan tərəf tutub hay-küylə demişdi:

— Ay uşaq, ay Simuzər, gör bizə kim gəlib! Elimizin ağsaqqalı, bizim Qəribin atası.

Birinci mərtəbənin pillələri qabağında bəstəboylu, yaraşıqlı, xurmayı hörüklərindən birini sol sinəsi üstə atmış Simuzər ürkək və nigaran baxışlarla gələn qonağa baxıb ədəb-ərkanla salam vermişdi:

— Xoş gəlmisiz, Nəzər müəllim!

— Oho, sən Nəzər müəllimi tanıyırsan, qız?

— Niyə tanımıram? Onu rayonda tanımayan var ki? Bizim xəstəxanaya da gəlmişdi… Ancaq… deyəsən narazı getmişdi. Hə, Nəzər müəllim?

— Düzü, hə, qızım. O xəstəxananı nümunəvi eliyə bilərsiz. O boyda kollektivin var. Sən bir az möhkəm olsan, yaxşıdı. Sənin özünə də dedim: ordakı alveri yığışdırmaq lazımdı. Amma elə çıxır ki, yalandı. Pulludu. Cərrah xəstədən pul alır? Alır! Can həkimi alır? Alır! Pul verməsən, sənin xadimələrin mələfəni, dəsmalı dəyişmir! Ta bunun nəyi pulsuz oldu, qızım?

— Mənciyəz hələ indiyəcən bir kəsdən bir manat da almamışam.

— Sən almamısan, ancaq sənin işçilərin alıb, indi də alır, qızım. Elə bil, bu, yazılmamış qanundu. Həkim xəstənin əlinə baxır. Xəstələr də öyrəşiblər. Verməsələr, yaxşı müalicə olunacaqlarına inanmırlar sanki.

— Düzdü, Nəzər müəllim. Onun səbəbi var.

— Bilirəm.

— O dəfə, bizim xəstəxanada olanda mən sizə izah elədim — maaş azdı, həkim dolana bilmir. Ona görə almağa məcburdu.

— Sən də mən deyəni deyirsən, qızım. Bunu hamı başa düşür. Bircə yuxarıda oturanlarımızdan başqa. O irəli katibə deyirəm. O da deyir doğru deyirsən. Ancaq neyləmək olar? Maaşı mən təyin eləmirəm ki!

Simuzər xəyalında Qəriblə atasını müqayisə eləmişdi: «Necə də oxşayırlar bir-birinə!»

Oğlunun ürəyindən, arzularından, indi qarşısında dayanıb danışan Simuzərlə tanışlığından xəbərsiz olan Nəzər isə özlüyündə

«Ölmüş qəşəngdi, ancaq hayıf ki, baxtı yoxdu. Zeynal bu qız haqqında deyirdi də. Müseyibin nazirinin adamıdı. Atası özü də bilir. Öz əliylə aparıb təslim eləyib qızını! Pay atonnan. Gör nə qəribə işlər olur ey! Vəzifə, pul hərisliyi gör insanı necə miskin hala salır. Kim bilir, bəlkə Zeynal böhtan deyir? Axı nazir onu çıxartdı, yerinə Müseyibi qoydu. Acıqcan deyir bəlkə Zeynal! Olmazmı?» Amma sonralar da fikir vermişdi: Müseyib Ələmdarla birevli kimiydi. Bunlar onlarda, onlar bunlarda. Bunu başqalarından da eşitmişdi Nəzər. Rayonda gözə görünməz, üzə vurulmaz bir kölgə gəzirdi bu qəşəng qızın adının üstündə.

— Eh, nə isə… — Nəzər qız barədəki düşüncələrinə, həm də o maaş məsələsinə xitam vermək üçün dillənəndə Müseyibin də ürəyincə oldu:

— Əşi, biz balaca adamlarıq, — dedi. — Dünyanın dərdi bizə qalmayıb ki!.. Mən çox fikir vermişəm, hara gedirsən, hamı işdən, idarədən danışır. Adam lap bezib. İdarədə iş, qonaqlıqda iş, iclasda iş! Başını götürüb qaçırsan evə ki, bir az qulağın o söz-söhbətdən uzaq olsun, beynin dincəlsin, heç özün də bilmirsən havaxt genə bu iş zəhirmar gəlib düşür ortalığa. Deyirəm, yəqin bu da bir xəstəlikdi də. Ta buna başqa nə ad vermək olar!

Nəzər dillənmədi.

Simuzər isə ayrı şey fikirləşirdi: «Yəqin Nəzər bizi öyrənməyə gəlib, tanış olmağa gəlib! Qərib göndərib yəqin. Amma elə bir məsələ olsaydı, mənə deyərdi də! Bəlkə heç kişi oğluna bir söz deməmiş durub gəlib! Olar da! Nə isə… Qərib bərk yapışıb məndən». Elə bu düşüncədən qızın canı isindi. Həyət-bacaya göz gəzdirdi. Yox, səliqəsizlik, sahmansızlıq yox idi, hər şey yerində idi. Və bundan sevindi Simuzər.

Müseyib üzünü qızına tutaraq.

— Sən belə elə, qızım, — dedi. — Bir yaxşı süfrə hazırla. Nəzər əminlə başımızı açaq, bir əməllicə oturaq. Nəzər əmin hər dəqiqə bu qapıdan içəri girən adam deyil. Demişdim hovuzdan balıq çıxartsın gədə. Çıxardıb?

— Hə.

— Heç nə lazım deyil, ay Müseyib. Bir stəkan çay içərəm.

— Əşi, heylə şey olar? Buraxmaram, başın haqqı, — deyən Müseyib sonra evin kəllə tərəfinə boylanıb çağırmışdı:

— A Bəhram, a Bəhram.

Əlində bel olan ucaboylu, qara bığlı bir cavan qarajın böyründən çıxmış, mat-mat Müseyibin üzünə baxmışdı.

— Ə, o manqala od sal, bir yaxşı balıq kababı hazırla bizə!..

Oğlan Nəzərə bir baxış fırladıb heç nə deməmiş, beli qarajın qapısına söykəyib getmişdi. Müseyib pencəyinin cibindən «Kent» siqaretini çıxarmış, birini damağına qoyub yandırmış və Nəzərə sarı dönmüşdü:

— Arvadağa Bakıdadı, uşaqların yanındadı. Bir az ət-mət aparıb. Köpəy uşağının mənim kimi əlindən heç nə gəlmir. Ayda bir-iki dəfə gərək yazıq arvad baş çəksin onlara. Yoxsa acından öləllər. Əşi, bunlarınkı tələbəlik döyül ki.

— Sənin gərək ki, iki oğlun Bakıdadı da? — Nəzər də «Avrora»sını yandırmışdı.

— Hə, əmisi. Biri tibb institutundadı, o biri də hüquqda.

— Bəs bu oğlan kimdi, ay Müseyib?

— Qohumdu. Xalauşağıdı… Bir az xəstə kimidi, yəni lazıqdı, sənəti-zadı yoxdu. Gətirmişəm, uşaqlara əl-ayaqda kömək eləyir!

Müseyib havaya üfürdüyü tüstünün arxasından Nəzərə gözucu diqqət yetirmiş və birdən-birə əhvalı dəyişmişdi. Yadına Süleymanın stolu üstə gördüyü siyahı düşmüşdü. «Rayonun böyük talançıları». «Yoxlamağa gəlib mərdimazar köpək oğlu. Ay sən öləsən!.. Bax, yan-yaxıl, çatla! Elə bilirsən hər başına papaq qoyub… şalvar geyən kişidi? Bax, gör necə kişilər var dünyada! Sən niyə kişi olursan, ə? Özü də siyahidə ikinci mənim adımı yazıb!»

Nəzərin fikri həyət-bacadaydı deyə Müseyibin bir anda qaralıb sıxıldığını duymamışdı. Cah-cəlalı, yaraşığı, səliqə-sahmanı, fəvvarəli, balıqlı hovuzu camaat arasında nağıl kimi danışılan bu xanimanı öz gözləri ilə görmək çoxdankı arzusu olsa da, bunun belə asanlıqla və belə gözlənilmədən baş tutacağını ağlına da gətirə bilməzdi. İndi, həyətdə gəzdikcə, inanırdı ki, camaat düz deyirmiş. Bura doğrudan da cənnətin bir parçasıydı. Yaşıllıq göz oxşayırdı. İki mərtəbəli eyvanlı-şüşəbəndli, üstü şiferli evin içindən xəbəri olmasa da, zahiri əzəmətli bir saray təsiri bağışlayırdı. Hava çoxdan qaralıb axşam düşmüşdü, ancaq həyətdə hələ də gündüz idi — neon işıqları yanırdı. İri-iri qırmızı narlar, meynələrdən sallanan kəhrəba üzüm salxımları o işıqların altında daha da gözəl görünürdü. Dörd yanı həmişəyaşıl liqüstr kolları ilə gömgöy hasara alınmış köşkün o böyründəki hovuzun suları qara lay şüşəyə bənzəyirdi.

Nəzər məftunluqla hovuzun başına dolanmışdı və birdən göyə millənən ağ, qırmızı, yaşıl, sarı su sütunlarını görüb uşaq kimi sevinmişdi. Xırda, zərrin damcılar üzünə, saçlarına dəydikcə bədənində bir sərinlik, yüngüllük duymuş və sadəcə olaraq, hər şeyi unudaraq, gözəllikdən həzz almışdı.

Bir məftunluqla:

— Oxqay, nə gözəldi! — demişdi. Müseyib onun bayaqdan susduğunu, bir dəfə də olsa «sağlığına qismət. Gözəl şərait yaradıbsan!» — deməməsini özünə yamanca dərd eləmişdi. Çünki bu həyətə ayaq basan hər kəs — nazirdən tutmuş adicə müfəttişə qədər hamı ağız dolusu tərif-səna demişdi həmişə. Müseyib fikirləşmişdi ki, onlar paxıl deyildilər, ürəkləri böyük idi, necə deyərlər, qonşularını iki inəkli istəyənlər idilər ki, bəlkə özləri də bir inəkli olsunlar. Amma Nəzər Nəzər yox! «Paxıl, dargöz!..»

— Bizim Tapdıq da buna bənzər bir hovuz düzəldib!

— Tapdıq kimdi?

— Bizim kürəkən. Ancaq onunku şüşədəndi.

— Necə yəni şüşədən? Şüşədən də hovuz olar?

— Olar, Müseyib. Boş su, araq, şampan şüşələrindən qayırıb.

— Gözəldi?

— Çox. İki göz istəyir tamaşa eləsin!

Müseyibin gözləri parıldadı:

— Sən belə elə, Nəzər müəllim. O Tapdıqdan — kürəkənindən soruş, gör onu hansı usta düzəldib! Mən də elə bir hovuz istərdim.

— Onu Tapdıq özü düzəldib!

— Özü?

— Hə. Beş-altı il fağır oğlan zəhmət çəkib!

Müseyib susdu və Nəzərin bu «özü!» sözünə xüsusi məna verdi: «Hərif demək istəyir ki, Tapdıq öz halal zəhmətiylə düzəldib, amma sən bir ətək pul verib qayıtdırmısan bu hovuzu».

Müseyibə Nəzərin ürəyi məlum idi. Bəli, kişi öz dəst-xəttilə katibə rayonun ən hörmətlisi, nüfuzlu və vəzifəli adamlarının bir çoxunun adını yazıb vermişdi və onları dəlilsiz-sübutsuz «böyük talançı» adlandırmışdı. O bir vərəq kağızı, tamamilə təsadüfən, Süleymanın yanından Bakıya zəng eləyərkən görüb gözucu oxumuş, az qala dili tutulmuşdu. Yaxşı ki, Bakı gec cavab vermişdi və bu vaxtdan istifadə eləyib toxtamışdı. Süleymanın Nəzərə bəslədiyi ehtiramın, mə-

həbbətin əndazəsini bildiyindən susmuş, məsələni açıb-ağartmamış və özünü heç o yerə qoymamışdı. Ona da Müseyib deyərdilər! Cırtqozluq eləmək, ölçüb-biçməmiş söz demək, iş görmək onun adəti deyildi və məhz buna görə də o, uzun-uzun illər idi ki, pambıq qəbulu məntəqəsinin müdiriydi. Bir əjdaha kimi katib yola salmışdı, çox yoxlamalardan qupquru çıxmışdı. Sadəlövh adamların nəzərində Müseyib pambıq üstündə əsən bir adam idi. Qramın, kiloqramın qədrini bildiyini dəfələrlə sübut eləmişdi və hətta neçə dəfə onu, maşını saxlatdırıb məntəqəyə gələn yollarda lafetlərdən asfalta tökülmüş pambıq əlçimlərini əyilib yığan görmüşdülər.

— Hayıfdı, bala, elin varıdı.

Müseyibə bu da qəribə gəlirdi ki, Süleyman da ona Nəzərin siyahısı barədə heç nə demirdi. Hər görüşəndə sözü hərləyib-fırlayıb Nəzərin işi-gücü üstünə gətirirdi, hətta onu katibə tərifləyirdi də:

— Çox ağıllı iş gördün Nəzəri Nəzarətə gətirməkdə. Təmiz adamdı. Gözü-könlü toxdu. Bu yaxınlarda rayponun sədri paltosunun lap köhnəldiyini görüb ona bir «Diplomat» palto verib ki, geyin, Nəzər müəllim. Qiymətini soruşub. Deyib yox, qardaş, mənim heylə pulum yoxdu. Bu paltoynan bu qışı da birtəhər yola verərəm. Mustafa deyib: Əşi, sənə bunu heyləcə bağışlayıram, götür, ağsaqqalımızsan.

— Götürüb?

— Yox, durub çıxıb gedib…

Müseyib həqiqətən olmuş bu əhvalatı katibə bilə-bilə təfsilatı ilə danışmışdı ki, o siyahıda Mustafanın adı da var idi və üçüncü yerdəydi.

Lakin Süleyman Müseyibə yenə o siyahı barədə bir söz qaçırtmamışdı ağzından. Onda Müseyib düşünmüşdü: «Ya Süleyman da o fikirdədi, onunla birgə nə isə bir tədbir hazırlayır, ya da inanmayıb, əhəmiyyət vermir onun yazdığına». Ancaq bunlardan hansıdı? Müseyib ayırd eləyə bilməyib nigaran-nigaran yaşayırdı.

İndi ona və dostlarından bir çoxuna «talançı» damğası basan və isti yuvasına su calamaq istəyən Nəzər qonağı idi, evindəydi. Kişi qaynayırdı içində. Amma bu müddətdə səbirlə ölçüb-biçmişdi, azı yüz kərə götür-qoy eləmişdi, adı siyahıda olan adamlara da hələ bir söz deməməyi qərara almışdı. Bunun əsası var idi; çünki Nəzərin aman-zaman oğlunun — Qəribin son vaxtlar deyəsən quşu onun aman-zaman qızı Simuzərə qonmuşdu. Bu sevdanın təfərrüatını, necə, hardan başlandığını bilmirdi, ancaq onu bilirdi ki, oğlan artıq bu

evə ayaq açıb, gəlir-gedir. Səltənət xanım ondan yaman razılıq eləyirdi. «Ağıllı gədədi — deyirdi, — kişi, allah yetirib, səs eləmə». Üç-dörd dəfə Müseyibin özü də göz qoymuşdu, insafən təmiz uşağa oxşayırdı; Qərib həyatı, zəmanəni başa düşən oğlan idi deyəsən, mühakimələri xoşuna gəlirdi. Qızın isə… vaxtı keçirdi. Onun tayları çoxdan ərə getmiş, oğul-uşaq sahibi olmuşdu. Qızının Bakıda tələbə yoldaşlarından birinə ərə getməməsi, qayıdıb rayona gəlməsi bir ata kimi ona yamanca yer eləmişdi. Halbuki, o, bunu çox istəyirdi. Hər şəraiti yaradardı. Elə Ələmdar da elə demirdimi? Ancaq qız nə üçünsə buna qol qoymamışdı. Hərdən ürəyinə gəlmişdi ki, Ələmdarla Simuzərin arasında nə isə var. Ancaq bu fikri boğmuşdu içində. O gün — Ələmdar gələndə qızın onunla görüşmək istəməməsi bu şübhəni yenidən oyatmışdı. Amma: «Yox, bu, ola bilməz» — demişdi. Ona görə Qəribin indi peyda olması Müseyibi də, arvadını da çox sevindirirdi. Di gəl ki, Nəzərin o siyahı məsələsi… işləri yaman korlayırdı.

Müseyib çaşıb qalmışdı. Əgər Nəzər Müseyiblə qohum olmaq istəyirdisə, bəs bu həngamə nəydi? Bəlkə oğlunun niyyətidən heç xəbəri yoxdu? Yox, elə şey olmaz.

Müseyibin ürəyində iki hiss çarpışırdı: biri qəzəb idi — istəyirdi didib-dağıtsın, parçalansın, aparıb qarajın dalında o lal gədə ilə köməkləşib başını kəssin, quylasın torpağa Nəzəri. Biri ümid idi — bəlkə o, xoş niyyətlə gəlib, Müseyibin ağzını aramaq istəyir? Bir tərəfdən bütün cah-cəlalını nümayiş elətdirmək, əzəmətini göstərib Nəzərin ürəyinə dağ çəkmək, onu sındırmaq, «yan, öl, pişiyin əli ətə çatmaz, deyər — çiydi» — söyləmək istəyirdi, o biri yandan isə… qorxurdu Nəzərdən, çəkinirdi, qızının taleyini düşünürdü və yenə bu anlaşılmaz, nə istədiyini dərk edə bilmədiyi kişinin üzünə, içindəki, qəlbindəki qatmaqarışıq, təzadlı düşüncələri gizləyib gülümsəməyə çalışırdı.

… Bəli, Simuzərin səliqə ilə açdığı stolun arxasında indi iki Müseyib əyləşmişdi. Birini Nəzər görürdü — qabağındaydı, danışırdı, qulluq eləyirdi. «Napaleon» konyakı süzürdü. O biri isə… Onu Nəzər görə bilmirdi, oxuya bilmirdi, dərk etməkdə aciz idi.

— Yox, mən içən deyiləm, Müseyib.

— Əşi, nə danışırsan? Bu, içki deyil ki, məcundu, dərmandı, vallah. Napaleon rəhmətlik özü bundan içirmiş həmişə. Deyirlər hər döyüşə gedəndə… bu məcundan yüz-yüz vururmuş.

Nəzər güldü:

— Şükür ki, mən heç kəsnən döyüşə getməyə hazırlaşmıram…

Elə-belə deyilən bu sözlər Müseyibin kefini açdı… «Yox, xoş məramla gəlib».

— Əlbəttə, bizim kimnən nə işimiz var? Biz sadə zəhmət adamlarıyıq. Beş günlük dünyadı, gəlmişik, gedəsiyik. Heç olmasa… bu beş günün ikisini-üçünü adam kimi yaşayaq özümüzçün. — Büllur qədəhi onun qarşısına qoydu. — Götür, Nəzər kişi, sən bu gün bizim evə qədəm basmaqnan məni də, ailəmi də çox şad eləmisən. İnan, balalarımın canı haqqı, o qədər şadam və xoşbəxtəm ki, ta söz tapıb deyə bilmirəm. Götür, sən allah, xoş gəlmisən, ay elimin-obamın ağsaqqalı. — İçdi, üz-gözünü turşutmadan qədəhi yerə qoydu, bir şokolad qırığı atdı ağzına. Nəzərin içmədiyini görəndə incik halda:

— Ba, bu olmadı ki, Nəzər müəllim, vallah, içməsən, inciyərəm. Götür, sən allah…

Nəzər az-az içərdi. Toyda, məclisdə. Müseyiblə içmək ürəyincə deyildi. «Napaleon» konyakının isə ömründə heç dadına da baxmamışdı. Müseyibin təkidi və bir də maraq üstün gəldi. Yarıkönül götürdü qədəhi:

— Sağ ol, Müseyib… — deyərək içdi.

— Nuşi-can. Bax, bu şokoladı da at ağzına. — Özü əlilə verdi Nəzərə. — Əla. Görürsən, nə xoş ətri var? Hə, indi ye… Balıq da «svejidi» lap. Bakılılar demişkən, öz bağımızdandı.

Doğrudan da süfrə gözəl idi. Bəhram deyilən qohumu ağ balığı xına kimi qızarmışdı. Göy-göyərtisi, narşərabı da əlaydı. Simuzərin süfrəsində isə bir dənə də eyib yox idi. Az bir müddətə belə stol açmaq hər qızın, qadının işi deyildi.

Nəzər ac idi, iştahla yeyirdi. Konyak isə… beynində xoş bir ovqat yaradırdı yavaş-yavaş.

Qəribə idi: birdən Nəzər özünü ikiləşmiş hiss elədi: bir Nəzər içindəydi — o, Müseyibin bu gününə-rüzgarına nifrət bəsləyirdi. Çünki, bu cah-cəlal halal zəhmətin barı deyildi, oğurluqdu, elin-obanın malıydı. Və hələ bu içəridəki Nəzər, ancaq baxırdı, öyrənirdi, susurdu. Ona elə gəlirdi ki, Müseyib, Nəzərin içindəki Nəzərdən xəbərsizdi. Amma səhv eləyirdi: Müseyib onun içindəki Nəzəri çoxdan — Süleymanın stolu üstdəki o kağızı oxuyandan görmüşdü, tanımışdı.

Bu həyətə qədəm basdığı ilk anlardan bir nigaranlıq da axıb dolmuşdu ürəyinə. «Bizim Qəribin atası…» Müseyib qızına bayaq onu belə tanıtdırmışdı. «Qəribi bunlar hardan tanıyır? Qərib hara, bu

ailə hara? Özü də «bizim Qərib». Bu sual beynində dolanırdı, rahatlığını əlindən almışdı.

Müseyib konyakdan süzdü. Nəzər etiraz eləmədi.

— Bunu şəxsən sənin sağlığına içmək istəyirəm, Nəzər müəllim. Sən bizim ziyalılarımızın gözüsən. Bütün ziyalılarımız sənin kimi olsaydı, nə dərdimiz vardı. Sən Nəzarətə gələndən… rayonda işlər qaydasına düşür yavaş-yavaş. İndi fikir verirəm — satıcıların, məişət xidmətçilərinin gözü dörddü — birdən Nəzər gələr, birdən Nəzarət görər. Düzü, bu, mənə çox ləzzət eləyir, Nəzər müəllim. — Nəzər əlində çəngəl ona qulaq asırdı və təəccübünü içinə salıb susurdu. «Oğrunun böyüyü… Gör necə ustalıqla pərdələnir? Ay sən öləsən. Məni avam hesab eləyirsən? Eybi yoxdu, Müseyib… Rəhmətlik Sabir bil bu gün sənə baxıb deyib: «Özü lum-lum udur batində, amma zahirdə dediyi mənaya bir bax» — Müseyib davam edirdi. — O gün Süleymana da danışmışam sənin barəndə. Demişəm belə-filan. Nəzər müəllim… qayda yaradır. Tale səni bizim camaatımıza çox görməsin, kişi. Sağ ol, sənin sağlığına, qardaş.

— Sağ ol, Müseyib.

İçdilər…

Məclis uzanırdı, Müseyib gözləyirdi. Təcrübəsindən bilirdi ki, içki ən azdanışan adamın da dilini açır; bəzən lap sirr kimi ürəyində saxlamağa çalışdığın şeyin də nə zaman ortalığa qoyulduğundan, faş olduğundan xəbərin olmur. Üçüncü qədəhi Süleymanın sağlığına ötürmüşdülər. Müseyib burada da ustalıqla Süleymanın bu rayona katib gəlməsini az qala böyük səadət adlandırmışdı. «Süleyman sənin şagirdin olub, Nəzər müəllim. Bu sənin üçün ən böyük iftixardır. Müəllimə bundan böyük xoşbəxtlik təsəvvür eləmirəm, ustad. O da səni çox istəyir».

Amma Nəzər gülümsünməklə kifayətlənmişdi. Görünür, Nəzər hələ də açılmamışdı. Müseyibə diqqətlə qulaq asırdı, hərdən başını tərpətməklə sözünü təsdiq eləyirdi, hərdən isə qəribə bir şəkildə qımışırdı. O qımışanda Müseyib udqunurdu, tikəsi boğazından güclə keçirdi; bu, çörək yemək deyildi, başdan-ayağa əzab idi Müseyib üçün. Hələ indiyəcən o, belə məclisə düşməmişdi: həmişə özünü ərkyana, ağayana aparan, buyruq verən, çox zaman masabəyilik eləyən Müseyib indi çaşıb qalmışdı. Nə açılan kimi açıla bilirdi, nə də təslim olan kimi təslim olurdu. Gözü ağzında idi: bəlkə Nəzər bir ağıllı-başlı söz deyə.

Yenə süzdü. Bu dəfə sarı simə toxunmaq istəyirdi:

— Nəzər kişi, sənin də üç uşağın var, mənim də. Bu uşaqlar üçün yaşamışıq — onlar dünyaya gələndən sonra. Çalışdığımız, vuruşduğumuz da uşaqlar üçündü. Heylə deyildi?

— Elədi. — Nəzər quruca təkrar elədi.

— Sənin uşaqlarından təkcə Qəribi tanıyıram. — Nəzər qulaq kəsildi. — Qərib, mənə elə gəlir ki, çox tərbiyəli, başıaşağı, ağıllı oğlandı. Onun gələcəyinə çox inanıram.

Nəzər özünü saxlayammadı:

— Onun gələcəyi yoxdu, Müseyib.

Müseyib udqundu:

— Nə? Gələcəyi yoxdu?

— Hə.

— Niyə, ay kişi?

— Biləcəyi olmayanın gələcəyi də olmaz, Müseyib.

— Hə, sən oxumağını deyirsən? Əşi, mən də deyirəm görəsən bu kişi nəyi deyir? Əşi, o boş şeydi… Əslində, oxumağın vaxtı keçib indi, Nəzər müəllim. Oxumağa indi heç nə vermirlər. Gərək özün zirək olasan. Oğullar var ki, dördüncü sinfi güclə qurtarıb, amma daşdan pul çıxarır.

Nəzər yenə qımışdı:

— Və bir gün də o daş düşür başına, yediyini-içdiyini burnundan tökür.

Müseyibin nitqi yenə batdı, çünki Nəzərin qımışdığı yenə çoxmənalı, eyhamlıydı.

— Nə bilim, ay Nəzər müəllim. Həyat elə bir kitabdı ki, hərə bir cür oxuyur, bir cür başa düşür. — Susdu. — «Yox. — Yox, bu ağız aramağa, elçiliyə gələn adama oxşamır. Elə olsaydı, o, öz oğlunun belə qoparağını götürməzdi». — Nə isə, deyirəm uşaqların sağlığına içək, xoşbəxt olsunlar.

— Amin, — dedi Nəzər və bayaqdan bəri dilinə gətirdiyi sözlərdən deyəsən elə bircə bu kəlməni ürəkdən söylədi. Hər halda Müseyibə belə göründü.

Nəzər saatına baxıb ayağa qalxanda Müseyib təəccübləndi:

— Hara, belə, Nəzər müəllim?

— İdarəyə getməliyəm.

— Əşi, Simuzər kofe hazırlayır. Bir fincan kofe içərsən, sonra

gedərsən.

— Yox, kofe ilə heç aram yoxdu. Şam üçün çox sağ olun. Simuzər xanıma da mənim təşəkkürümü yetirərsən.

— Heç yaxşı olmadı…

— Lap əla oldu, Müseyib. Bundan əlası heç təsəvvürümə də gəlməz.

— Qoy zəng eləyim, şofer gəlsin…

— Yox, yox, gəzə-gəzə gedəcəyəm. Hava yaxşıdı.

Nəzər qıçını çəkə-çəkə gedəndən sonra, Müseyib qayıdıb stolun arxasında əyləşdi. Süfrəyə pərişan-pərişan tamaşa elədi. Cəmi iki tikə balıq yemişdi Nəzər. Konyak şüşəsinin dibində lap az qalmışdı. Qədəhə tökmədən, elə şüşədəcə başına çəkib içdi. Bir gilə üzüm atdı ağzına. Eyvana sarı boylandı:

— Simuzər. — Çağırdı. Qız qapıda görünəndə: — Bir dənə araq gətir bura, qız, — söylədi. Simuzər əlində araq gəlib atasını tək görəndə təəccübləndi:

— Bə Nəzər müəllim hanı, ay dədə?

— Cəhənnəm olub getdi. Adam döyülmüş ki. Köpəyoğlunun qarnının altını bilmək olmur. Hardadı o gədə?

— Hansı gədə, ay dədə?

— Sənin Qəribini deyirəm də.

Qız başını aşağı saldı, yavaşcadan:

— Gələcək, — dedi.

— Hə? — Müseyib sevindi. — Gələcək? Haçan?

— Dünən demişdi axşam saat 10-da gələcəyəm.

— Nə yaxşı. Qoy gəlsin. Dədəsindən bir təməsük annamadım. Nə adamlığı adamlıqdı, nə yeməyi yeməkdi, nə içməyi içməkdi çolaq köpəyoğlunun. Hə, mısmırığını sallama, qız. Sənin yanında söyürəm də.

— Birdən Qəribin yanında da…

— Sən dədəni beləmi tanıyırsan? Niyaran olma. Buranı sahmana sal, çirkli qabları-zadı yığışdır. — Boş konyak şüşəsini ona sarı sürüşdürdü. — Hayıf bu «Napalyon»dan. Hər gədə-güdə nə bilir «Napalyon» konyakı nədi?

Simuzər heç nə demədən qab-qaşığı üst-üstə yığıb apardı. Stolla eyvan arasındakı yolda Bəhram qabağına çıxdı, gözlərini qızın üzünə zillədi və sanki baxışları ilə: «Sən niyə əziyyət çəkirsən, mən

ölməmişəm ki, ver mən aparım» — söylədi və əllərini irəli uzadaraq qabları ondan aldı. Simuzər Bəhrama baxıb özü də hiss eləmədən mehriban-mehriban gülümsündü. Oğlanın sifəti bu təbəssümdən elə bil işıqlandı və qız o an, Bəhramın özünü necə də xoşbəxt hiss elədiyini duyaraq ciddiləşdi. Qəribə idi — yenə Ələmdar yadına düşdü və onu ürəyində söydü: «Sən elə deməsəydin, mən heç bu lal köpəkoğlunu görmürdüm, axı. Bunu istəyirdiz? İndi sənin Simuzərin bu lal gədənin üzünə baxıb gülümsünür» — düşündü və irəli addımladı. Bəhram arxasınca gəlirdi. Simuzər oğlanın iti, isti baxışlarını kürəyində, saçlarında, ayaqlarında hiss edirdi. Baxmasa da, görməsə də duyurdu bunu. «Görərsən indi bu lal adamın ürəyindən nələr keçir. Görəsən, o, danışa bilsəydi, nə deyərdi mənə? Necə deyərdi? Hayıf, danışa bilmir. Amma gözləri… dilindən yaxşı danışır, gözləri hər şeyi deyir». Bəhram qab-qaşığı mətbəxə qoyandan sonra, Simuzər, gəlib qarşısında əmrə müntəzir halda dayanan oğlana həm dililə, həm də sağ əlini qulağının dibinə qoymaqla:

— Sən get yat, Bəhram, — dedi. — Bay-bay elə.

Bəhram qızın nə söylədiyini başa düşdü, yenə gülümsündü və qıza elə gəldi ki, yazıq, onun bu sözündə də özünə qarşı bir qayğıkeşlik hiss eləyib bəxtəvərləşdi.

Və çıxıb getdi.

Müseyib arağı açıb qədəhini doldurdu, içdi. Elə bil böyük bir sıxıntıdan qurtarmışdı. Uşaq kimi sevinirdi. Ən başlıcası isə o idi ki, çoxdan qəlbini üzən bir nigarançılığa bu gün, bu axşam son qoymuşdu: Nəzər onu sevmir, Nəzərin onu görməyə gözü yoxdu. Oğlunu da qoymayacaq Simuzəri alsın. Müseyibə də bunu bilmək kifayət idi. Bu həqiqəti dərk edəndən, beynində, ürəyində qətiləşdirəndən sonra o, yenə araq süzüb su kimi nuş-can elədi və dindar adamlar kimi başını göylərə — allahın dərgahına qaldıraraq: «Ay tanrı, özün şahidsən ki, mən belə istəmirdim, mərdimazarlıq eləmək istəmirdim. O, özü elədi. Özü dedi ki, şələni qoy yerə, gəl güləşək, Müseyib. Keçinin əcəli çatanda çobanın çomağına sürtüşdüyü kimi, bu da gəlib mənə sürtüşdü. O, gərək biləydi ki, kimin bostanına daş atır. Bilmədi. Allah adama qəzəb eləyəndə, əvvəlcə ağlını alır başından. İndi mən… sənin «rayonumuzun böyük talançıları» hesab elədiyin adamları yığaram başıma, əhvalatı açıb deyərəm. Sənə bir toy tutduraram ki, adın da yadından çıxar, bir də qələt eləyərsən bizim birimizin adını dilinə gətirməzsən. Elə bircə prokurora danışsam ha, bəsindi, Nəzər. Am-

ma Qəribə də heyifim gəlir. Yaxşı uşaqdı. O biri yandan da… Qərib elə onsuz da yetim kimidi də. O boyda cavanın geyimi yox, pulu yox, maşını yox, ev-eşiyi yox. Nəzər kimi atanın olmağı ilə olmamağının Qəribə bir isti-soyuğu yoxdu. Ağlı olar, alaram qanadımın altına, ev-eşik sahibi eləyərəm, yaşayar, olar beş kişidən biri».

Həyət qapısının açılması Müseyibin fikirlərini qırdı. Gələn Qərib idi. Kişini köşkdə, miz arxasında tək-tənha oturan görüb bir az addımlarını yavaşıtdı, utanırdı. Müseyibdən. Zəhmli adam idi. Sözü qəti deyirdi, şax deyirdi — bu isə Qəribin xoşuna gəlirdi. Onun nəzərində gələcək qayınatası bütöv adam idi ki, Qərib də, öz aləmində, özünü belə hesab eləyirdi. Elə birinci dəfə onu bura görəndən, Səltənətlə him-cim eləyib məsələnin nə yerdə olduğunu başa düşəndən sonra, Müseyib, çəkinmədən üzünü oğlana tutub demişdi: «Sıxılıb-eləmə. Utancaq kişilərdən mənim zəhləm gedir, oğul. Öz evin hesab elə buranı. Atanı da tanıyıram, yaxşı kişidi…»

Ondan sonra Qəribin qırışığı bir balaca açılmışdı. Amma bununla belə, Qərib həmişə hörmət-izzət pərdəsini qoruyur, ədəb-ərkan dairəsindən çıxmır, Səltənət xanıma anasından çox ehtiram qoyur, Müseyibi görəndə ayağa dururdu.

Müseyib Qəribi gördükdə ayağa qalxdı və sağ əlini yuxarı qovzayıb:

— Gəl, a bala, qaynanan səni çox istəyirmiş, — dedi. — Süfrə üstə gəlib çıxıbsan.

Qərib əl verdi.

— Otur, qənşərimdə otur, oğul, Simuzər, ay Simuzər, — deyə eyvana sarı boylananda qızın gəldiyini görüb kiridi.

Simuzər mehriban və gülümsər baxışları ilə Qəribə salam verib astadan da:

— Xoş gəlmisən, — söylədi.

— Sağ olun. — Qərib də güclə eşidiləcək bir səslə dilləndi.

— Acından ölürəm, qız. Günorta yediyimin üstəyəm. — Müseyib qızına altdan-yuxarı baxdı. Simuzər atasını o saat başa düşdü — yəni Nəzərin burda olduğunu Qərib bilməməlidir. Amma niyə? — Qız bunu anlayammadı.

Simuzər fikirli-fikirli stolun üstünü bəzədi.

— Özün də otur, qızım. Yəqin sən də acsan…

— Yox, ay dədə. Mən yemişəm.

— Bir az da bizimlə əl-qap eləyərsən.

Simuzər atasının yanında oturdu. Boylanıb çəngəl-bıçağın, duzun-istiotun yerində olub-olmadığına baxdı. Qədəhin birini götürüb Qəribin qabağına qoydu.

— Ay sağ ol, qızım. — Müseyib fərəh içində qızın bu diqqətcilliyini qeyd elədi. — Anan kimi hər şeyin yerini-yatağını bilənsən. Belə olmasaydı, ananı çoxdan boşamışdım. Yaxşı ki, sən də anana oxşamısan. — Simuzər Qəribə baxıb yenə həlim, isti bir baxışla onu əzizlədi, oğlan da gülümsündü.

— Anam səni bu mərtəbəyə çatdırıb, ay dədə. Yoxsa elə qazandığını orda-burda yeyib-içmişdin, indi də latın-lütün biriydin.

— Yalan deyirsən məgər? Vallah, düz deyirsən, qız. Mən özünə də demişəm, sizə də deyirəm, təqaüdə çıxanda, ona, yəni sənin anan Səltənət xanıma bax bu həyətdə bir heykəl qoyduracağam. — Müseyib başını irəli uzadıb Qəribin qədəhini axtardı baxışlarıyla. Araq süzdü və Simuzərə sarı döndü: qız onun bu işarəsini göydə tutaraq çəngəllə dövrədəki balıq tikəsinin ən irisini Qəribin qabağındakı yastı boşqaba qoydu, narşərab damızdırdı üstünə.

— Hə, kişi qırığı, başla görək… — Belə deyib özü də, doğrudan da ac imiş kimi, tələm-tələsik iki-üç tikə atdı ağzına. Qərib də yeməyə başladı. Bəlkə heç birinci tikəsini udmamışdı ki, Müseyib qədəhi qaldırdı. Qərib də götürdü.

— Bunu içirəm sizin ikinizin sağlığına, balalarım. Mən köhnə kişilərdən deyiləm. Əsas siz özünüzsüz, siz ki, bir-birinizi tapıbsız, bizim buna nə sözümüz ola bilər? Mən elə bilirəm, sizin xoşbəxt olmağınız üçün bir-birinizə olan məhəbbətiniz kifayətdi. Qalan hər şey mənim boynuma. Qərib, sağ ol, mənim qızım, sağ ol, — deyib qədəhini Qəribə tərəf uzatdı və qədəhlər bir-birinə dəyib cingildədi, içdi. Qəribin tərəddüd elədiyini görüb: — Ə, iç. Kişi araq içər, — dedi.

Qərib içdi. Tez balıqdan bir tikə ağzına atdı. Görünür, oğlan ac imiş. Xörəyə iştahla girişdi.

Az sonra Qəribin kefi duruldu. İndi çəkinmədən Müseyibin, Simuzərin üzünə baxa bilirdi. Hətta qıza söylədi:

— Bir-iki tikə sən də ye də! Adamın canına sinmir. Biz yeyirik, sən baxırsan! — Onun qabağına öz çəngəlilə bir qıça balıq qoydu. Simuzər nazla gülümsündü, qabaqdakı tək qızıl dişi göründü. Tənbəltənbəl çəngəlini balıq tikəsinə uzatdı.

— Ə, Qərib, bu incəsənətdə nə görmüsən? Nə var bu incəsə-

nətdə?

— …

— Yox də, soruşuram. Bax, bu sənin özfəaliyyət dəstəndə nə var axı? Mən bu yaşa çatmışam, incəsənət işçisini həmişə ac görmüşəm. Acığına gəlməsin ha. Söhbətdi də eləyirik.

— Yox, acığıma niyə gəlir, Müseyib müəllim?

— Ay oğul, mənə müəllim demə. Elə Müseyib əmi de, vəssalam. — Araq süzdü. — Hə, incəsənət əhli acdı həmişə. Sən də ha əlləş, ha vuruş, lap uzağı, qocalanacan əməkdar artist olasan, ya olmayasan.

— İşdi də, başımı qatıram, Müseyib əmi!

— Ay sağ ol. Baş qatmaqdı, gəl o başı ayrı yerdə qat da.

— Məsələn, harda?

— Məsələn… — O, bir az duruxdu. — Götür bunu içək, ağlıma bir ideya gəlib. Sağ ol, ay oğul. Getdik!

Qədəhləri toqquşdurub başlarına çəkdilər. — Məsələn, gəl bizim məntəqəyə. Sənə yüngül bir iş düzəldim, məsələn qapançıdanzaddan. Başını sal aşağı, işlə. Həm zəhmətin az olsun, həm də gözün bir şey görsün. Ayda nə qədər alırsan, a bala?

— Yüz iyirmi manat.

— Təmiz?

— Yox. Çıxırlar.

— Vay dədə, vay… Sonra Şura hökuməti və bəzi-bəzi ağzıgöyçək adamlar deyir ki, bu camaat niyə oğurluq eləyir. Ə, belə olanda eliyər də! Ə, yüz manatnan da adam dolanar? O pulnan evlənmək olar, arvad-uşaq saxlamaq olar?

Müseyibin bu sözləri Qəribin ürəyindən elə bil tikan çıxartdı.

Qərib dilləndi:

— Deyir canın çıxsın, yaşa da, saxla da! — O elə bu cür fikirləşirdi və neçə dəfə atasına da bu barədə eşitdirmişdi. İndi Müseyib peyğəmbər kimi onun qəlbindəkiləri üzünə oxuyanda, Qəribin eyni açılmışdı.

— Ə, a sənin ağlına quzu kəsim. Deyəsən, sən elə mənim adamımsan. Mənim kitab adamlarından həmişə zəndeyi-zəhləm gedib. Ə, kitablar yalandı hamısı. Onlara inananları bədbəxt görmüşəm. Həyat ayrı şeydi, oğul.

— Mən də dədəmə elə deyirəm də. Amma inanmır!

— İnanmır, qoy inanmasın!.. Yoxsa sən də onun yoluynan getmək istəyirsən, hıy?

— Yox. İstəmirəm, Müseyib əmi!

— Ay bərəkallah!.. Danışdıq!.. Sən mənim yolumnan gedərsən. Həyatda yeganə yol budu, bada! Yüz manat. Vay, allah!.. Tfu! Bu, insanı dirigözlü məhv eləməkdi!

Yenə tökdü, yenə içdilər. Müseyib hey danışırdı, keflənmədə məzəli, şirin olurdu. Qızı bunu bilirdi, Qərib isə görüb ləzzət alırdı. Çünki indiyə qədər ona evdə, ailədə, böyük yanında belə sərbəstlik verən olmamışdı. O isə həmişə azadlığa, asudəliyə can atmışdı.

— İki cür yaşamaq var. — Qəribin dili açılmışdı. — Biri — ölmədiril sürünməkdi — o pul ki, bizə verillər, onunla ancaq sürünmək olar. Bir də var yaşamaq!.. Sözün əsl mənasında yaşamaq! İstədiyini yeyirsən, istədiyini geyirsən, istədiyin yerə gedirsən. Bax, budu yaşamaq.

— Afərin, Qərib bala. Bax, burda bizim fikirlərimiz min faiz üst-üstə düşür. — Müseyib araq şüşəsinə baxıb gördü ki, boşdu. — Az, dur o xaladilnikdən bir dənə arax gətir!

— Bəsdi də, dədə!

— Dur ayağa, aaz!.. Sənin anan belə şeylərə qarışmayıb, sən də qarışma. Nə indi, nə sabah — öz evin-eşiyin olanda! Yadında saxla, eşitdin? Mənim hər sözüm — sənə vəsiyyətdi, bala! Simuzər atasının sözünü daha çevirməyib ayağa qalxanda, Müseyib əsnəyib söylədi:

— Mənim bu gün kefimə dəyməyin, kefim kökdü. Bu gün sizə — öz balalarıma bir sürpriz eliyəcəyəm. Get, gətir!

«Sürpriz» sözünü eşidən kimi, Simuzərin xatirələri oyandı, keçən, indi çox uzaqda qalan, nağıla dönən o gün — Ələmdarın Daşkənddən gətirdiyi o gözəl don, o xalat, o fransız ətri bircə anda gözlərinin qabağında canlandı. Qız özünü, qəribə idi ki, bax elə buradaca, atasının, Qəribin gözünün qabağında, o paltarda gördü. Hətta burnuna «Klima»nın ətri də gəldi. Yox, bu, ola bilməz! İnanmaq üçün baxışlarını aşağı endirib əynindəki dona baxdı — miləmil ev paltarındaydı. Burnunu çəkdi, ətir iyini də hiss eləmədi. Bəs onda qəribə deyildimi ki, səkkiz il bundan qabaq, ilk dəfə qoxuladığı ətir iyi indi açıq-aydın hiss olunsun? Qəribə deyildimi? «Görünür, xatirələrin, xəyalların gözlə görünməyən, duyulmayan ətri belə təzədən canlandırmaq, di-

riltmək, yaşatmaq qüdrəti varmış!»

Simuzər Qəribə mənalı-mənalı baxıb nazik, çatma qaşlarını yuxarı qaldırdı və ehmalca, oğrun bir göz vurub getdikdən sonra Müseyib kağız dəsmalla əllərini sildi, «Kent»dən bir siqaret götürüb alışdırdı. Ləzzətlə sümürüb tüstüsünü havaya buraxdıqdan sonra Qəribə sınayıcı bir nəzər yetirib:

— Ağızdan nə təhərsən, ay oğul? — deyə soruşdu.

Qərib bir şey başa düşmədi:

— Necə yəni?

— Deyirəm, ağızdan bütövsən, ya?.. Yəni demək istəyirəm sirr saxlayansan ya yox?

Qərib güldü:

— Baxır da nə sirdi!

— Sirrin böyüyü-kiçiyi yoxdu. Sirr elə sirdi. Gərək kişi ağzıbütöv olsun. Kişinin yanında baş kəsəllər, gərək elə orda da qalsın.

— Elədi.

Qərib hiss eləyirdi ki, Müseyib keflənib və indi nə isə çox mühüm bir şey deyəcək. Maraq onu götürmüşdü. Gözü gələcək qayınatasının ağzında idi. Simuzər qayıdanda Müseyib qalxıb səntirləyə-səntirləyə həyətin o başına getdi. Fürsətdən istifadə eləyən Qərib məst baxışlarla qıza göz yetirib pıçıltı ilə:

— Sənə qurban olum, Simi! — «Simi?» Birinci dəfədi belə deyir! O, «Sim» deyirdi, bu «Simi!» — düşündü Simuzər. — «Yenə o yadına düşdü».

— Sss. Eşidər.

Arağı alanda ağ, yumşaq biləyini sıxdı.

Simuzər tez çəkilib əvvəlki yerinə keçdi, oturdu:

— Aç iç, Qərib!..

— Baş üstə, mənim əzizim. Kişi nə «sürpriz» deyir?

Qızın cavab vermək imkanı olmadı, Müseyib qayıtdı.

— Ə, ay oğul, süz də!

— Süzmüşəm, Müseyib əmi.

— Ay sağ ol!!! — Oturdu və qədəhi götürdü. — Səltənət mənim evimin dirəyidi. O yoxdu burda deyə, sənin bu Simuzər xanımının anadan olduğu gün də yadımdan çıxıb!

— Anadan olduğu gün? — Qərib diksinən kimi oldu.

— Hə, bu gün mənim Simuzər balamın anadan olduğu gündü,

Qərib! Səni təbrik eləyirəm, qızım! Gəl səni bir maç eləyim! — Simuzər ona sarı əyildi, atası yanağından öpdü.

— Mən də təbrik eləyirəm, Simi! — Qərib pərt halda dilləndi.

Nə qədər kefli olsa da bu pərtlik Müseyibin nəzərindən yayınmadı:

— Eybi yoxdu, hələ təzəsiz! Yəqin Simuzər özü deməyib, səni xərcə salmaq istəməyib! Mənim qızım ağıllıdı, hər şeyi ölçüb biçəndi. Amma yadında saxla, bu gün Simuzərin anadan olan günüdü, Qərib!

— Mənim özümün də yadımdan çıxmışdı, ay dədə. — Qız dedi.

— Çıxar da. İşiniz-gücünüz o qədərdi ki, Onu da gərək mən yadımda saxlayam — kinayəynən söylədi. — Boş-bekar adamam da.

Əslində bu günü neçə il idi ki, qeyd eləmirdilər. O vaxt o bədbəxt hadisə baş verəndən — Müseyibin nazir ağası Simuzərin gülünü dərəndən sonra, qız dəli kimi olmuşdu, dərdini-sərini heç kəsə deməmişdi Həmin il, Səltənət xanım, qaşqabağı qətiyyən açılmayan, kölgə kimi səssiz-səmirsiz gəzib-dolanan qızının fikrini dağıtmaq üçün ad gününü keçirmək, tələbə yoldaşlarını başına yığıb könlünü açmaq istəyəndə Simuzər çığıra-çığıra demişdi:

— Lazım deyil, lazım deyil! Sən gərək mənim əvəzimə qara bir daş doğaydın, arvad! Mən sənə deyirəm: — Məclis eləsən, od vurub özümü yandıracağam. Elə bir mənə yaraşır ad günü!

«Qızın başına hava gəlib, allah! Sən özün kömək ol, ilahi!» — deyə düşünən Səltənət xanım qorxusundan:

— Yaxşı, yaxşı. — söyləmişdi. — Eləmə deyirsən, eləmərəm, qız. Ta niyə əsib-coşursan?

— Mən daha heç vaxt ad günümü keçirməyəcəyəm!

O vaxtdan bu gün — Simuzərin anadan olduğu gün «yaddan» çıxmışdı. İndi, Qəribin yanında atası bu söhbəti təzələyəndə Simuzərin bədbəxtliyi təkrarən yadına düşsə də, üstünü vurmadı, bunu adi bir söz kimi qəbul elədi, ancaq ürəyindən keçirtdi ki, o da daha atası təki artistlik eləyə bilirmiş! Qız ağlı kəsəndən çox görmüşdü ki, qonaq otağına keçəndə — stol arxasında necə də yağlı-yağlı, şirin sözlərlə tərifləyib göylərə qaldırır və sağlığına içir! Qız bu xüsusiyyəti anasında da görmüşdü və əvvəllər çox təəccüblənmişdi, heyrətlənmişdi və ilk çağlar onların ikisindən də zəhləsi getmişdi. İllər keçdikcə artıq buna adət eləmişdi, indi isə — elə bu gecə anlamışdı ki, o

da bunu bacarırmış. Və belədə, deyəsən, yaşamaq nisbətən asan imiş!

Müseyib sol əlində tutduğu açarları havada yellədi, Simuzərin qabağına qoydu. Qız əvvəl heç nə başa düşəmmədi.

— Götür, qızım, — dedi Müseyib, — bu açarları, yəni ki, o qarajda dayanan ağ ceyranı — «QAZ-24»ü sənə bağışlayıram. Ad günün münasibətilə.

Görünür, anadan olduğu günü yaddan çıxartmış qızın bu qərardan da xəbəri yoxmuş; sevinc içində açarları stolun üstündən götürüb möcüzəli bir şeyə baxırmış kimi işığın altında o yan-bu yana çevirərək tamaşa elədi. Qəribin gözünün qabağında oynatdı və birdən qalxıb atasının üzündən öpdü:

— Dədəmə qurban olum! Çox sağ ol, ay dədə!

Müseyib sol qolunu onun boynuna doladı, böyrünə sıxıb alnından öpdü:

Amma şərtim var, qızım!

— Nə şərt, ay dədə?

— Toyunuz olan günü o açarları Qəribə verəssən. Maşın ikinizindi.

Qəribin ürəyi gizildədi. Bir anlığa xəyal onu qanadlarına aldı — o, hələ üzünü görməyən «QAZ-24»ün sükanı arxasında gördü özünü. Neçə ay əvvəl o dükançı öz maşınını ona vermək istəyəndə olduğu kimi; şüşə kimi yol. Maşın uçur… Arxada saçlarını yel vurub dağıdan ağ paltarlı bir qız oturub… Maşın uçur, uçur, nəhayət, asfalt yoldan qopub eynən təyyarə kimi havaya qalxır… və günəşə doğru gedir!..

Müseyib gözlərini qıyıb Qəribə baxdı — oğlanın ayrı aləmdə olduğunu hiss eləyib Simuzərə göz vuraraq gülümsündü:

— Hə, indi içək, Qərib. Maşınınız mübarək! — Müseyibin səsini eşidən anda, Qərib səksəndi və bayaqdan əlində tutduğu qədəh birdən sürüşüb sement döşəməyə düşərək çilik-çilik oldu. Qərib də, Simuzər də eyni zamanda, bir adam imişlər kimi, heyrətlə içini çəkib peşiman-peşiman Müseyibin üzünə baxdılar. Müseyib Qəribin gözlərindəki sevinc qarışıq çaşqınlığı görüb təmkinini pozmadan:

— Eybi yoxdu, aydınlıqdı! — dedi.

Qədəhin yerə düşüb sınması Simuzəri yamanca pərt eləmişdi və o, bunu bəd fal sayaraq nə atasının, nə də Qəribin üzünə baxmadan, hər şeyi alt-üst qoyaraq, stoldan aralandı, evə getmək istəyəndə, birdən üzüm meynələri arxasında dayanaraq, iri, işıqlı gözlərini ona zilləmiş Bəhramı gördü, ayaqları bir-birinə dolaşdı. «Bəs… mən ona

dedim axı, get yat! Yatmayıb! Tənək dibindən bizə baxır! Ay sənin, Bəhram!»

Özünü görməməzliyə vurdu, açıb-ağartmadı, ağır addımlarla eyvana qalxdı, işıqları söndürdü. Ancaq yataq otağına keçmədi, eləcə, qaranlıqda, pərdələri yana çəkilmiş pəncərənin qənşərində dayanaraq neon işığı altında aydın görünən stolun ətrafında üzbəüz dayanıb nəsə danışan atasına, Qəribə xeyli tamaşa elədi. Nəhayət, onlar bağın içinə keçdi. Bu zaman Bəhram meynə dibindən çıxaraq stolun yanına gəldi. Və heç nəyə fikir vermədən, balığa, konyaka, arağa baxmadan, allaha səcdə edirmiş kimi, əyilib dizlərini yerə qoydu və Simuzərin bayaq oturduğu stulu öpməyə başladı! Stul cansızdı, bir parça taxtadı, bir tikə parçadı. Ürəyi yox, yaddaşı yox, nəfəsi yox! Amma Bəhram o cansız stulu — Simuzərin oturduğu stulu ən əziz, illər boyu görmədiyi doğmasını öpən kimi, hərarətlə busələrə qərq edirdi. Söykənəcəyindən öpürdü, oturacağından öpürdü, torpağa-sementə toxunan dörd ayağını qaldırıb onlardan öpürdü və hər şeydən qəribəsi bu idi ki, dodaqları tərpənirdi, nəsə deyirdi Bəhram! «Dəli olub nədi?» Bunu Simuzər görürdü və gördüklərinin mahiyyəti haqqında düşünmədən Ələmdarın öpüşlərini xatırlayırdı. O öpüşlər isti idi, əvəzsiz idi, onun qəlbini titrədirdi, gözlərini yaşadırdı, çünki o, — Simuzər o vaxt canlı, hissli, duyğulu bir qız idi; ürəyi, heysiyyəti, arzuları var idi. Amma o cansız stulun — o taxta-parça stulun nəyi vardı? Ürəyimi? Hissimi? — Heç nəyi yox idi!

Və birdən onun, neçə il qabaq öz rəfiqəsinə verdiyi sual yadına düşdü: «O heç sənin ayaqlarından öpür?» «Ayaqlarımdan? Yox!» «O heç sənin oturduğun stuldan öpür?»

Hansı daha çox sevirdi?

ÜÇÜNCÜ FƏSİL

Dünyası alt-üst olmuşdu: Müseyibgildən çıxandan sonra hələ də özünə gəlməmişdi — sərxoş adamkimiydi. Hara getdiyini, nə elədiyini bilmirdi. İçində söyüb-söylənirdi: «Gərək getməyəydim, görməyəydim, tikəsini kəsməyəydim o namərdin, o qeyrətsizin!»

Gördükləri heç — bunlar aydın idi. Yedikləri də heç — bunlar da olan şeylər idi. Eşitdiklərindən isə təkcə o ailənin Qəribi tanıması onun əlini-ayağını yerdən üzmüşdü. Gərək öyrənəydi, soruşaydı. Elə bil dilinə qıfıl vurmuşdular, tilsimə salmışdılar Nəzəri orda! «Deyə-

sən, torbada pişik var! Deyəsən, uşağa qırmaq atıblar. Bizim oğlan da tamahkardı, köpək oğlu. Mənə yox, babasına oxşayıb! Tamahkarın da başına ip salıb istədiyin yerə sürümək çox asan işdi. Yox! Nə qədər gec deyil, məsələ yoğunlamayıb, bunun qabağını almaq lazımdı».

Elə o gecə, hələ «Napaleon» konyakının təsiri beynindən getməmiş, düz Qəribin mənzilinə baş çəkmiş, ancaq onu evdə tapa bilməmişdi. Kəndə zəng çalıb Bikə xanımdan Qəribin evə gəlib-gəlmədiyini soruşmuşdu. Arvad nigaran-nigaran demişdi ki, gəlməyib. Sonra Nəzər Tapdıqgilə telefon eləmişdi — orda da yox idi Qərib! «Bəlkə qırışmal Bakıya-zada gedib?» Öyrəndi: ora da gedib çıxmamışdı.

O gecə elə idarədə yatıb qalmışdı. Səhərisi gün, axşam kəndə gələndə oğlunu evdə, çarpayısında yatan görüb bir az toxtamışdı. Bikə xanım Qəribin köynəklərini yuyub zirvədən asmışdı, özü də tut ağacının altında rahat-rahat oturub çay içirdi, əzvayışından, ərini gülər üzlə qarşılamağından görünürdü ki, arvadın kefi kökdü. Amma elə ilk dəqiqələrdən bu sevinc yox olub getmişdi, çünki Nəzər çox qaşqabaqlıydı və bunu Bikə xanım sezməyə bilməzdi.

— Nə olub, ay kişi? Qanın niyə qaradı?

Nəzər stol arxasında əyləşib:

— Bəs sənə nə olub ki, kefin aladağdadı? — deyə suala sualla cavab verdi. — Yoxsa… oğluyun gəlib çıxmağına belə şadsan?

Bikə xanım onun üçün bir stəkan çay süzdü:

— Bə nədi? Ona qurban olum. Gəlib. Özü də xoş xəbərnən gəlib, kişi.

— Hə?

— Hə. Amma muştuluğumu verməsən, demiyəcəyəm.

— Yəni elə xəbərdi ki, muştuluq da düşür?

— Hə, vallah!

— Nədi, yoxsa mədəniyyət naziri-zadı qoyurlar?

— Yox ey. Evlənir! Vay, çaşıb dedim a!

Nəzərin pırpız qaşları yuxarı dartıldı:

— Evlənir?

— Hə də. Axır uşaq özü dil açıb dilləndi. Gördü sənnənmənnən bir hay yoxdu.

— Yoxsa — Nəzər dünəndən ürəyinə damıb rahatlığını əlindən alan o fikri özündən, ürəyindən qovmağa, unutmağa çalışıb: —

Yoxsa, artiskaya-zada ilişib bu ağılsız, hə? — deyə fısıldadı.

— Yox ey, artistka nədi, ay kişi?

— Bə dünəndən hardadı? Axtarıram, yoxdu. İki aydı da evə gəlmir! Deyirəm bəlkə o ənlikli-kirşanlı artistkalardan birinin felinə düşüb Bakıya gedibmiş!

— Yox, yox. Nə danışırsan, ay kişi?

— Bə kimdi, kimin qızıdı? Ürəyimi çəkmə! — Nəzər qorxduğunun olacağını yəqinləşdirib bozardı. — Yoxsa Müseyibin qızından yapışıb?

Bikə xanımın təbəssümdən dodaqları yayıldı:

— Bıy, kişi, hardan bildin? Hə, odu, Nəzər!

Nəzərin gözləri yumuldu. Elə bil, ürəyini çəkib çıxardılar. Boğuq-qara rəngi avazıyıb ağardı, handan-hana gözlərini açıb arvadına zənnlə fikir verdi. Bikə xanım təşvişə düşdü bu baxışdan:

— Nədi, ay kişi? Niyə tutuldun? Sevinmirsən? Müseyib məgər pis adamdı? Rayonun üzdə olan üç-dörd kişisindən biridi. Hələ qorx ki, heç qızı verməsinlər bizə. Müseyibin, camaatın danışdığına görə, varı-dövləti yerə sığışmır. Mənə elə gəlir zor yerdən yapışıb uşaq. Müseyib kimi bir adamın yanında biz kimik ki, bizim nəyimiz var ki?

Arvadına qulaq asırdı, sözləri ürəyinin başına güllə kimi dəyirdi; öldürmürdü, amma yarımcan eləyirdi. Xəyalında, fikrində gündüz işığına qərq olmuş o cənnət həyətdə, köşkün altında açılmış o stol — «Napaleon» konyakının şüşəsi, xına kimi qızardılmış ağ balıq kababı, dili bir, ürəyi ayrı şey deyən Müseyib, hörüklərinin birini sol döşü üstünə atmış Simuzər və robot kimi əmri icra eləyən, lakin bircə kəlmə də danışmayan o lal Bəhram canlanırdı, hovuzun ağ, sarı, yaşıl, qırmızı fəvvarələri göyə millənirdi. Bikənin üyüdüb tökdüklərindən isə yalnız «Müseyib kimi bir adamın yanında biz kimik ki, bizim nəyimiz var ki?» sözləri qulaqlarında ilişib qalmışdı, elə hey təkrar olunurdu.

Ayrı vaxt olsaydı, Nəzər iri yumruğunu qeyzlə mizə çırpıb qışqırardı:

— Bəsdi, bəsdi onun-bunun var-dövlətini soxdun gözümə! Mənim təmiz adım var, Sədnikin qızı! Bu, sənə azdı?!

Lakin heç nə demirdi, yazıq-yazıq köks ötürərək arvadının tərpənən dodaqlarına tamaşa edirdi. Və onu da bilirdi ki, elə desəydi, Bikənin də cavabı hazır idi:

— Əşi, sən atovun goru, qoy oturmuşuq! Nə yapışmısan bu

«təmiz adın» quyruğundan? Quruca «təmiz ada» nə verirlər axı indiki zamanada? — Kişi xəyalına gətirəndə ki, Simuzər — Müseyibin nazir ağasıyla allah bilir nə pəstahlardan çıxmış o üzü gözəl, bəxti qara qız bu evdə gəlin ola bilər — ürəyi az qalırdı dayansın. Şübhəsiz, Simuzərlə bərabər bircə dəfə də sifətini görmədiyi o nazirin murdar, kəsif nəfəsi də gələcəkdi bu həyətə, bu ocağa. Və bu ləkəni, o murdarlığı sonra heç nəynən, hətta qannan da yumaq mümkün olmayacaqdı.

Birdən-birə Nəzərin özünə də, arvadına da, oğluna da yazığı gəldi. Güman ki, Qərib o əhvalatı eşitməyib! Eşitsə, o ağır daşı yerə qoyar, çəkilib oturar kənarda! Bəs Bikə? Bikə də bilmir axı? Yadındadı ki, o zaman Müseyibin qızının nazirlə olan o dastanını Zeynaldan eşidəndə o arvadına bu barədə heç nə deməmişdi. Nəyinə də lazım idi?!

Amma indi?! İndi bilməlidi Bikə? Bilməlidimi ki, onun qurbansadağa getdiyi, xoşbəxt görmək istədiyi oğlu necə bir qızın ətəyindən yapışıb özünə arvad eləmək istəyir?

Bax, bu sual çaşdırmışdı Nəzəri!

— Bə sən heç nə demədin, ay kişi? — Bikə aradakı sükutu pozdu.

— …

— Fikrin hardadı? Sənnən döyüləm? Niyə dinib-danışmırsan? Qabağa düşmək gərəkdi.

— …

— A kişi, yatıbsan, nədi? — Bikə xanım əsəbiləşdiyini mümkün qədər gizləməyə çalışdı. Nəzər ayağa qalxıb gərnəşərək:

— Yorğunam. Dur get yat. Mən də yatıram. Gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdı, — söylədi.

Bikə xanım mat-mat ərinə baxaraq dodaqlarını büzüb çiyinlərini çəkdi, onun bu cür mühüm, illərdən bəri gözlədiyi o gözəl xəbəri belə laqeyd, soyuqqanlı qarşılamağına təəccüb elədi, nə isə mızıldana-mızıldana evə sarı addımladı.

***

… Gecəni səhərəcən çimir də eləməyən, yüz dəfə, min dəfə bu üzü üstdən o üzü üstə çevrilən Nəzər obaşdan ayaqyolundan gələndə oğlunun qabağını kəsdi.

Qərib atasını görən kimi özünü yığışdırıb salam verdi:

— Sabahın xeyir!

— Aqibətin xeyir, Qərib. Nə təhərsən, a bala? — Nəzər içindəki kini-küdurəti boğaraq mülayim-mülayim danışmağa çalışdı. — Srağagündən səni çox axtarmışam. Yox idin!

Qərib barmaqları ilə sıx, qara tüklü başını qaşıya-qaşıya:

— Elə rayondaydım, — dedi. — Ad gününə getmişdim.

— Kimin ad günüydü?

— Bir dostumun. Sən tanımazsan!

— Səhər də yox idin!

— Onlarda yatıb qalmışdım… Lazım idi ki?

— Hə. Çox lazım idin mənə. Ananın dediyi əhvalat düzdü?

Qərib büzüşdü, başını aşağı salıb:

— Hansı əhvalat, dədə? — deyə soruşduqda Nəzər qısaca:

— Qız əhvalatı! — dedi.

— …

— Sənnənəm! Düzdü?

Qərib başını tərpətdi:

— Hə.

— Müseyibin qızıdı da?

— Odu.

— Sən hardan tanıyırsan onu, ə?

— Balnisədən.

— Yaxşı qızdı? Xoşun gəlir?

— …

— Özündən xoşun gəlir, ya dədəsindən?

— Bu nə sözdü, ay dədə?

— Yox, sən mənə de görüm: özündən xoşun gəlir, ya dədəsindən?

— Özündən…

— Fikrin ciddidi?

— Ciddi olmasaydı, deməzdim.

Nəzərin ürəyi qırılıb ayaqlarının altına düşdü. Udqundu, sonra qəti bir ədayla:

— Amma sən o qızı almıyassan! — dedikdə, Qərib başını qaldırıb atasına şax baxdı və onun dediklərini anlamamış kimi kirpiklərini döydü. Nəzər sözlərini ayrı-ayrı, xüsusi vurğu ilə bir də təkrar elə-

di:

— Sən o qızı almıyassan, Qərib!

— Niyə? — Qərib anlaşılmazlıq içində, rəngi ağarmış halda soruşdu. — Niyə ki?

— Ona görə ki, sən o qızı tanımırsan, bu bir! İkincisi, Müseyib nə mənim, nə sənin tayındı, bu da iki!

Qəribin dili bir anlığa tutuldu, nə edəcəyini, nə deyəcəyini kəsdirə bilmədi. Nəzər başlamışdı, yarı yolda dayanmaq istəmirdi. Qəribin inamını qəti qırmalı idi.

— Başa düşdün?

— …

Nəzər onun susmağından bir az sevinən kimi oldu:

— Başa düşdün, Qərib?

Eşitdiyi cavab ümidini parçaladı:

— Yox, dədə. Başa düşmədim. Onu düz deyirsən: Müseyib bizim tayımız deyil. Daha doğrusu biz Müseyibin tayı deyilik, dədə! Belə desən daha düzgün olar! Sən Müseyibi yaxşı tanımırsan, dədə. Bilmirsən o necə gözəl, qanacaqlı, əliaçıq, ürəyi geniş bir adamdı. Bunu bilməmiş deyilsən ki, bütün rayon onun başına and içir. Hörmə-ti-izzəti…

— Pulu… hə?

— Əlbəttə, həm də pulu!

Nəzərin dişi bağırsaqlarını kəsirdi.

— Qaldı ki, qızı tanımıram, — deyirsən, — Qərib davam etdi, — tanıyıram. Lap yaxşı tanıyıram, dədə!

— Tanımırsan deyirəm!.. — Nəzər səsini qaldırdı. — Tanısaydın, onun adını heç dilinə də gətirməzdin! O pis qızdı, Qərib! — Kişi bu sözü dedi, birdən-birə elə bil, ürəyinin ən ağır yükünü yerə qoydu, toxtadı və elə dalıycan, az qala yalvara-yalvara: — Başına dönüm, oğul, məni bu boyda el-oba içində xəcil eləmə, papağımı yerə soxma, Qərib! — deyə ağlamsındı. — Uzaq ol o evdən-ailədən, kimi desən alaram sənin üçün, amma onu çıxart fikrindən. Qurban olum, çıxart ürəyindən. Başa düşürsən mən nə deyirəm?

Qərib atasının yaşarmış gözlərinə baxıb ani olaraq çaşdı, neçə saniyə sükutdan sonra qəribə bir kədərlə:

— Sən niyə istəmirsən mən xoşbəxt olam, dədə? — dedi. — Niyə qoymursan axı?

— Ay oğul, mən sənin xoşbəxtliyini istədiyim üçün belə deyirəm. İnan mənə. Özünü də, məni də yanar odun içinə atma, Qərib!

Qəribin qəlbində heç rəhm hissi yox imiş. Nəzərin titrəyən dodaqlarını, yanaqlarını isladan göz yaşlarını görmədimi, ya görməməzliyə vurdumu, soyuqqanlıqla, qəddarlıqla söylədi:

— Yox, mən o qızı alacağam, dədə!.. İki dünya bir olsa da alacağam!..

— …

Nəzər yerində dondu. Belə çoxmu qaldı, azmı, bilmirdi. Bikənin səsinə ayıldı:

— Burda niyə dayanmısan, ay kişi? Bə uşaq hardadı?

— Cəhənnəmdə! — Nəzər elə qışqırdı ki, Bikə səksənib qorxdu. Qərib evdə yox idi, çaysız-zadsız çıxıb getmişdi.

— Bismillah. Sənə nə olub, ay Nəzər? Ağlın çaşıb, nədi?

— Sənin oğlunun ağlı çaşıb, arvad! Ona denən, fikrini cəm eləsin, mənim sümüyümü it sümüyünə calamasın. Bildin? O qız onun tayı deyil.

— Niyə axı? — Bikə hikkə ilə xəbər aldı.

— Niyəsini mən bilirəm. Başa sala bilirsən, sal, salammırsan, bacılarına xəbər ver, gəlib gədəni o axmaq xülyadan döndərsinlər. Eşitdin? Yoxsa… aləmi dağıdaram!

— Başıma xeyir!

Sonra o da, havalı-havalı, səhər yeməyi yemədən həyətdən çıxıb getdi. Bikəni qəhər boğdu.

DÖRDÜNCÜ FƏSİL

Payız günəşi gözəl idi; adama ləzzət eləyirdi. Güllərin çoxu solmuşdu, ağacların yarpaqlarına sarı xallar düşmüşdü, arxlar xəzəllərlə dolurdu yavaş-yavaş. «Ənvər bağı»nın hüznlü çağları başlayırdı.

Şairin heykəlinin böyründəki oturacaqda ikisi — Nəzər müəllimlə Süleyman yanbayan əyləşmişdi. Nəzərin qanı qaraydı — oğlunun eləcə, ədəb-ərkan gözləmədən, gözlərinin içinə: «İki dünya bir olsa da, qızı alacağam!» — deyib getməsi əl-ayağını yerdən üzmüşdü, ancaq bununla belə evdə-ailədə olan söz-həkəti dilinə gətirib katibə danışmağı şəninə sığışdırmamışdı. Süleyman isə görürdü ki, müəlliminin ürəyi nəsə doludu, sözlü adama oxşayır, özü qəsdən qoluna girib

yönünü «Ənvər bağı»na çevirmişdi. Elə onun da Nəzərə deyiləsi sözü vardı: «Bağ yaxşıdı, girib-çıxan, zəng eləyən-filan yoxdu!..»

Lakin Süleyman istəyirdi ki, əvvəl Nəzər başlasın. Bir az havadan, bir az bu «Ənvər bağı»ndan, bir az bağban Şirəlidən danışıb, Nəzər axırı mətləb üstünə gəldi:

— Doğrusu, ay Süleyman, mən elə bilirdim, sən gələn kimi, bu rayonda hər şeyi yerbəyer eliyəssən. Bir-bir hamının qulağından tutub qaldırassan, işinə-gücünə, ləyaqətinə, nəhayət, vicdanına, ürəyinə baxassan, layiq olanları, təmizləri saxlayassan və öz yerində olmayanları, ləyaqətsizləri, oğruları, yalançıları dəbərdəssən, kürüyüb atassan. Ancaq görürəm yoox, az qala il yarımdı gəlibsən, di gəl, fərli-başlı, tutarlı heç nə eləməmisən; elə oturmusan, baxırsan, demək olar ki, əhəmiyyətli heç nə eləmirsən, Süleyman! Axı mən sənə lap siftə görüşlərimizdə dedim ki, ağıllı padşah köhnə vəzir-vəkilnən işləməz! Səni yeyərlər onlar dedim! Kimi tərpətmirsən? Heç kimi! Cəfərzadənin — keçmiş katibin vaxtında kim harda oturmuşdusa, harda yeyirdisə, elə orda da oturub xımır-xımır yeyir! Onda yığıb, çapıb-soyub ona verirdilər. Yoxsa indi də sənə verirlər, hə, Süleyman?

Bayaqdan siqaret çəkə-çəkə qulaq asırdı, Nəzərin sözünü kəsmirdi, daha doğrusu, kəsmək istəmirdi. Lakin indi sual birbaşa ona verilmişdi. Süleyman özü də hiss eləmədən qızardı, elə bil ürəyinin, vücudunun bütün qanı üzünə çırpıldı. Yaxşı ki, Nəzər bu anda onun sifətinə baxmırdı. «Bu qoca hər yerə başını soxur, hər şeydən xəbərdardı. Olmaya? Yox, yox, ola bilməz. Elə-belə, sözgəlişi deyir!» — düşündü və ayrı söz tapa bilməyib:

— Sən nə danışırsan, Nəzər müəllim? — dilləndi. — Doğrudanmı, sən məni…

— Yox da, mən də bilirəm elə deyil. Ancaq bəs niyə susursan, göz yumursan, Süleyman? Nəyin xatirinə?

Süleyman azca toxtadı. «Deməli… heç nə bilmir!.. Ancaq qorxuludu bu kişi. Kəşfiyyatçıya oxşayır lap! Gec-tez iy çəkəcək!»

— Bəlkə də iradlarında haqlısan, Nəzər müəllim! — Səsi tutqun idi, elə bil boğazını kimsə gözəgörünməz əlləri ilə sıxırdı. — Bəlkə də yox, tam haqlısan! Ancaq məsələ burasındadı ki, sən birini bilirsən, birini yox, Nəzər müəllim!

— Hə?

— Bəli.

— Onda zəhmət çək, xırdala, oğul! Görüm bildiyim nədi, bil-

mədiyim hansıdı?!

Süleyman siqaret yandırdı. Nəzərin qulaq kəsilib gözlədiyini görərək:

— Bildiyin budu ki, — dedi, — doğrudu, bizim rayonda rüşvət var, yalan var, oğru, öz yerində oturmayan var!..

— Bəli, var!

— Amma niyə var?

— Onun səbəblərini sənə demişəm, Süleyman. Sən o səbəbləri aradan götürməyincə — oğurluğun, rüşvətin kökünü kəsə bilməyəssən. Demişəm bunu sənə!

— Bəli, demisən. Və bunlar sənin bildiklərindi, Nəzər müəllim!

— Bildiklərimi bilirəm, Süleyman. Sən bilmədiklərimi de!

— Hə, indi qulaq as, Nəzər müəllim. Mən bu rayonda heç kəslə belə açıq danışmıram və kimsəyə də icazə verməmişəm ki, sən danışan kimi danışsın mənimlə!

— Çox sağ ol, mən bğunu başa düşürəm!

— Hə. Sən deyirsən briqadirlər sədrləri, sədrlər məni, mən də yuxarını aldadlıram; sən deyirsən: «ət, yağ, yumurta kağız üzərindədi, biz kağız yeyirik».

— Düz deyirəm də!

— Düz deyirsən, Nəzər müəllim. Lakin sənə elə gəlir ki, bunu ancaq sən görürsən, bilirsən. Axı bunu yuxarıda da bilirlər, Nəzər müəllim! Hamısı bilir! İnstruktoru da, naziri də, katibi də…

— Kişinin özü də bilir?

Süleyman susdu, o yan-bu yana nəzər saldı, ətrafda heç kəs yox idi. Buna baxmayaraq müəlliminin qulağına yavaşcadan pıçıldadı:

— Əlbəttə, bilir.

Birdən ikisi də susdu, xoflu-xoflu, bir-birinə baxmadan, demək olar ki, eyni vaxtda siqaret yandırdı. Deyəsən, araya çox namünasib gəlib düşmüş bu söhbətin yönünü, səmtini dəyişmək üçün hərəsi öz ürəyində yol-çarə axtarırdı.

— Mənim bilmədiklərim elə bunlar idi? — Nəzər söhbətin əvvəlinə qayıtdı və buna sevindi.

— Yox. Sənin hələ bilmədiklərin çoxdu, Nəzər müəllim. Sən deyirsən ki, Rayon icraiyyə komitəsinin sədri, məhkəmənin sədri, prokuror, pambıq qəbulu məntəqəsinin direktoru, raykopittifaqın sədri oğrudu, julikdi, talançıdı, siyahini də tutub veribsən mənə!

— Bəli, vermişəm! Axı bu adamlar balaca adamlar deyil. Onlar Şura hökuməti, partiya adından danışırlar, bala! Necə olur ki, sən indiyəcən başa düşmək istəmirsən ki, «krupnı» oğrular arasındasan, Süleyman! Bu oğrular elə oğrulardı ki, dövlətin, xalqın bir milyonunu, iki milyonunu çalıb-çapırlar; tutulmadılar heç, tutuldularsa, gedib uzaq başı beş-on il yatırlar, sonra qayıdıb yığdıqlarını ömür boyu bala-bala yeyib yaşayırlar özləri üçün! Bax, bunlar belə oğrulardı, Süleyman!

— Sənin dediyindən belə çıxır ki, bu adamlar kommunist deyillər, Nəzər müəllim?

— Sən elə bilirsən indi cibində partbilet gəzdirən hər adam əsl kommunistdi?

— Yox?

— Yox, Süleyman. Sən səhv eləyirsən, bala. Bu, qabaqlar belə idi. İndi vəziyyət xeyli dəyişib. İndi bir çoxu partiyaya yaxşı vəzifə, yaxşı mövqe tutmaq xatirinə keçir, cəmiyyətə, xalqına, vətəninə daha yaxşı xidmət etmək naminə yox. Təəssüf ki, — adamın ürəyi ağrıyır düşünəndə — elələri var ki, partiya sıralarına girmək üçün rüşvət də verməyə hazırdı, Süleyman. Və yenə min təəssüf — elələri də var ki, — səni partiyaya qəbul etmək üçün səndən rüşvət almağa da hazırdı.

Msüleymanın alnı düyünləndi:

— Paho. Adam heç inanmaq istəmir, vallah.

— Bəli. Mən də inanmaq istəmirdim. Ancaq həyat və gördüklərim məni inandırdı. Təmizlə natəmizə fərq qoymayanda belə olur, Süleyman.

— …

— Partiya biletləri dəyişdiriləndə uzaqda yox, elə sənin kabinetinin qabağında qəribə bir hadisə, daha doğrusu, söhbət olmuşdu. Katib Cəfərzadənin kabinetinin qapısı ağzında sədr Mikayılla fermamızın çobanı Zaman — Zaman da Zamandı ha, ömrünü halal yaşayıb, evinə bir tikə haram çörək girməyib, mərdin, qorxmazın biridi — rastlaşır. İkisi də təzə bilet alıb çıxıbmış. Elə oradaca Mikayıl partbiletini gözdən keçirirmiş. Necə olursa Zamanın nəzəri Mikayılın biletinə sataşır və təəccüb içində soruşur:

— Sənin də biletin mənimkindəndi, a Mikayıl?

— Bə nədi? Bilet biletdi də.

— Axı, gərək zənnimcə, sənin biletinlə mənim biletim arasın-

da bir fərq olmalıdı, a Mikayıl.

— Niyə ki, ay Zaman?

— Heç olmasa ona görə ki, mən səndən yaxşı qəmnistəm, a Mikayıl. Gərək bu, heç yerdə, heç nədə bilinməsə də, biletdə bilinsin axı. Yəni partiya da yaxşını pisdən, təmizi natəmizdən, oğrunu doğrudan ayıra bilmir?

— Naxırçı ki, naxırçı — deyərək Mikayıl ilan kimi fısıldayıb gedir.

Sonra isə Zamanın qara günləri başlandı, Süleyman. Mikayılı ifşa eləyib tutmasaydılar, yəqin Zaman damdaydı. İndi Zamanın sözü olmasın, axı gərək sən yaxşıynan pisi, halalnan haramı oğruynan doğrunu ayırasan, Süleyman. Yoxsa, mizan-tərəzi itər. Bax, yenə deyirəm, uzaqda yox, lap burnunun ucunda, gözünün qabağında oturan icrakom İsrayıl rüşvət alır! İnanmırsan, çağır onun ev, maşın verdiyi adamları, xəbər al! Ev verir — üç min gərək verəsən, yoxsa ala bilməzsən! Maşın verir — gərək mincə manat verəsən — yoxsa ala bilməssən!

Süleyman güldü:

— Bax, bilmədiklərindən biri elə budu, Nəzər müəllim!

— Axı, bilirəm Süleyman.

— Bilirsən ey, ancaq hamısını bilmirsən! Sən bilmirsən ki, İsrayıl o kişinin adamıdı!

Nəzərin gözlərindəki işıq öləzidi. Daha nə danışmağa, nə tərpənməyə taqəti, həvəsi yox idi. Sükut uzun çəkdi. Süleyman darıxdı, ayağa durdu.

— Belə-belə işlər, Nəzər müəllim! İndi başa düşdün və inandın ki, birini bilirsən, birini bilmirsən?

Nəzər köks ötürdü:

— Hə, başa düşdüm, Süleyman, başa düşdüm. Acığına gəlməsin, oğul, demək, sən — sən deyilsən, sən — kölgəsən, səni elə-belə qoyublar bura. Demək səni onlar idarə eləyir, sən onları yox. Amma hayıf, Süleyman. Mən sənə belə tərbiyə verməmişdim; mən səni şəxsiyyət görmək istəyirdim, kölgə yox, buyruq qulu yox. Səni qınamıram, Süleyman. Səndə günah yoxdu. Atalar yaxşı deyib: balıq başdan iylənər. Atalar bir də deyib ki, hər şeyi iylənməkdən, çürüməkdən duz saxlayar; vay o gündən ki, duz özü iylənə, çürüyə.

Süleymanın sifəti qapqara qaralıb boğuldu.

BEŞİNCİ FƏSİL

Süleymanla o günkü söhbətindən sonra Nəzər yaman pərt olmuşdu. Ümidsizləşmişdi. «Yox, düzələnə oxşamır!» — deyirdi özözünə.

— Nəzər müəllim, olar? — Qapının ağzında başına uzun dimdikli kepka qoymuş, arıq, üzü çil-çil, sarı bığlı bir oğlan göründükdə Nəzər qələmi yerə qoyub armudu stəkanı qaldırdı:

— Hə, gəl, ay Yunis! Xoş gəlmisən!

— Xoş günün olsun, Nəzər müəllim.

Oğlan çəkinə-çəkinə irəli yeridi.

— Otur, a bala.

— Yox, sağ olun…

— Nə olub, həyəcanlısan, ay Yunis? Elə bil dalınca atlı gəlir, qovurlar səni? — Oğlan doğrudan da nə isə gərginlik içində idi, otağın o yan-bu yanına göz gəzdirirdi.

— Hə? Yox!.. Sizin pulu gətirmişəm, Nəzər müəllim. — O, əlini dal cibinə salıb qəzetə bükülü pulu çıxartdı. — Çox sağ olun, allah ömrünüzü uzun eləsin. O gün yaman əlimdən tutduz! Qonaqlarımı yaxşı yola saldım. Apardım «Yaxşı yol»a, yedik-içdik.

— Əcəb eləmisən, qonağı gərək həmişə razı yola salasan.

— Qəfil rast gəldilər. Üstümdə də bir manatım vardı cəmi. Olur da. Neçə adamdan istədim, bir kişidə tapılmadı. Birdən yadıma siz düşdüz. Sağ olun ki, boş qaytarmadız.

— Baxdın onda çəkdi ki, mən də elə o gün maaş almışdım. Axşam evdə arvad deyir bə maaş almayıbsan? Maaş günlərimi Sədnikin qızı məndən yaxşı bilir. Çünki pulu alan kimi aparıb verirəm ona. Dedim yox, ay arvad, bu gün bankda nə isə pul yox imiş.

Yunisi Nəzər çoxdan tanıyırdı. Yetim oğlan idi. Heç kəsi yox idi. Oxuyub bir sənət sahibi də ola bilməmişdi. Gah keşikçi işləyirdi, gah sürücü köməkçisi, gah mağazada yük daşıyan. Son vaxtlar körpünün böyründə, dörd yol ayrıcında təzə açılmış Benzin doldurma stansiyasında Cağa İbrahim onu yanına götürmüşdü. Başqa bir oğlanla növbə ilə işləyirdi, benzin satırdı. Belə adamların həyatının incəliklərindən tam təfərrüatı ilə hali olmasa da, Nəzərin onlara həmişə rəhmi gələrdi. Özlərinə heç nə deməzdi. «Həyatdı da. Hərə ömrünü bir cür

yaşayır, nə etmək olar!» — düşünərdi. Srağagün isə həmin bu Yunis gözlənilmədən kabinetinə gəlib ondan borc pul istəmişdi. Nəzər isə… naümid eləməmişdi, yüz əlli manat pul vermişdi və dar ayaqda qalmış bir adamın əlindən tuta bildiyinə görə bütün günü uşaq kimi sevinmişdi.

Yunis bükülünü Nəzərə verdi:

— Sayın, Nəzər müəllim!..

Nəzər pulları pencəyinin qoltuq cibinə qoymaq istəyəndə Yunis az qala yalvardı:

— Siz allah sayın, Nəzər müəllim.

— A bala, sən saymayıbsan?

— Saymışam ey. Saysaz rahat olaram. Pul sayılmağı xoşduyur, Nəzər müəllim. Cağa İbrahimin bir yaxşı sözü var, deyir: ə, pulu alanda da say, verəndə də. Deyir, pul sayılanda yaman sevinir.

Nəzər güldü:

— O Cağa İbrahimin fəlsəfəsidi. Ə, kağız da sevinər?

Nəzər bükülünü açıb onluqları saydı: on beş dənə idi.

— Düzdü, Yunis!

— Hə, indi ürəyim toxtadı. Çox sağ olun. — Çıxmaq istəyəndə Nəzər onu qapı ağzında saxladı.

— A bala, rayona bu gün-sabah komissiya gələsidi. Ehtiyatlı olun ha. Sisternalarınızın artığı-əskiyi olmasın, benzin vuran aparatlarınız düz işləsin. Salyarka-zad qatmayın. İlişərsiz.

Yunis irişdi; bu dəm Nəzər o oğlanın gözlərində qəribə bir sırtıqlıq və sifətində bir rişxənd əlaməti gördüsə də, heç nə başa düşə bilmədi, ürəyində özünü diqqətsizliyinə görə danladı ki, srağagün, elə lap bu gün, bir az əvvəl Yunisin gözlərindəki o ifadəni niyə görə bilməyib? Qəribə deyildimi? Bayaq həyəcanlıydı — buz üstə çıxmış dana kimi döyükə-döyükə addım atırdı, yıxılacağından qorxan, arxadan qovulan adama oxşayırdı. İndi isə…

Yunis irişə-irişə:

— Narahat olmayın, Nəzər müəllim, — söylədi. — Benzinin qramına da söz ola bilməz. Qəmisiyə gələcəyini Cağa İbrahim bilir, bizə də tapşırıb.

— Hə? Hardan bilir?

— Cağa İbrahimin bilmədiyi şeyə qurd düşər!

Qapı ağzında elə bil çaşıb qalmışdı — getmək də istəyirdi,

getməyə də sanki ayaqları gəlmirdi. Elə bil qapı dalında dayanıb kimdənsə qorxurdu Yunis. Nəzərin gülməyi köməyinə çatdı.

Çaşqın halda soruşdu:

— Niyə gülürsüz, Nəzər müəllim?

Nəzər başını qaşıya-qaşıya:

— Ona gülürəm ki, xalq Marksdan-zaddan sitat gətirir, sən də dəqiqədə bir Cağa İbrahimdən, — dedi.

— Cağa İbrahim canlara dəyən oğlandı, Nəzər müəllim. Çörək verən kişidi. Mən isə… çörək verənin quluyam. Ondan da sitat çəkməyib, kimdən çəkəcəyəm?..

— O yaxşı sifətdi, Yunis. Adam gərək çörək verəninə ağ olmasın.

— Heylədi.

Yunis istəyirdi o yenə danışsın, ancaq Nəzər əlini qələmə atmaqla işarə verdi ki, gedə bilər. Yunis çıxdı.

Siyahını qabağına çəkdi. Beş-altı adamın adıydı. «Amma hamısı tuzdu. Qartıyıb illəmiş əjdahadı hərəsi. Yox, qanunun qarşısında boyunları tükdən nazikdi. Əvvəl pambıq qəbulu məntəqəsindən — Müseyibdən başlamaq gərəkdi. Bu saat hamısından çox yeyəni, oğurlayanı odu. Di gəl, köpəyoğlunun arxası möhkəmdi. Bakıda — nazir, burda katib, prokuror…»

Elə bu zaman kabinetin qapısı açıldı və rayon prokuroru İsrafil Quliyevi qənşərində görəndə Nəzərin qələmi əlindən düşdü.

— Bay atonnan… Ta mənim sizə sözüm yoxdu, ay yoldaş Quliyev.

İsrafil ucaboylu, arıq, sarışın saçlarını yana darayan, əllini adlamış bir adam idi. Yeddi ildi burda işləyirdi. Rayon camaatının çoxu onun gəlmə olduğunu belə unutmuşdu. Zəhmliydi. Səliqəli geyinməyi xoşlardı. Həmişə yay-qış eynək taxtardı. Gözlərinin nə rəngdə olduğunu da bilən yox idi. Özünü elə ciddi aparırdı ki, hər adam ürək eləyib ona yaxınlaşa bilməzdi. Deyib-güldüyünü də görən olmamışdı. Nəzər onu xeyli vaxtdı tanıyırdı. Hələ müəllim olarkən təsadüfən iki-üç məclisdə onunla bir yerdə olmuşdu. Fikir verib görmüşdü ki, milis də, kolxoz sədri də, hesabdar da İsrafilə xüsusi diqqət yetirir, hörmətini saxlayır, bəziləri hətta açıq-aşkar yaltaqlanır da. Nəzər bunu da aydın hiss eləmişdi ki, əttökən, adamı çimçəşdirən bu yaltaqlıqdan onun qətiyyən acığı gəlmir, hələ deyəsən bundan bir az da xoşhallanır. Görünür, ətrafındakılar onu belə öyrətmişdi və o da buna adət

eləmişdi.

«Zabitəli adamdı. Qanun keşiyində dayananın zəhmli-qırımlı olmağı yaxşıdı… Yoxsa Ağayev kimi. Elə hey dişləri ağarır. Adam tutanda da gülür zalım oğlu. Heç kəs də ondan çəkinib eləmir. Çünki kişi, özü demişkən, açıq danışmağı xoşlayır».

Nəzər təzə vəzifəyə keçəndən sonra da büro iclaslarında, başqa yığıncaqlarda İsrafilə göz qoymuşdu. Çox nadir halda söz deyərdi. Əksər hallarda elə susaraq qara çeşmələri altından danışanlara, oturanlara tamaşa eləyərdi.

İki dəfə də məhkəmə prosesində görmüşdü. Bir Mikayılın məhkəməsində, bir də çoban Ələsgərin məhkəməsində. İkisində də hüquq dilində, maddələrin nömrəsini saya-saya çox kəskin danışmışdı. Nəzərin təkcə bu yadında qalmışdı ki, o, dövlətin, kolxozun bir milyondan artıq pulunu-malını yemiş Mikayılı da, fermanın sürüsündən iyirmi qoyun satıb qızına toy eləmiş çoban Ələsgəri də az qala eyni sözlərlə tənbehləmiş, eyni qədər iş kəsilməsini tələb eləmişdi. Prokurorun fikrincə, hər ikisi sosialist mülkiyyətini dağıtmışdı.

Nəzərin qaldırdığı cinayət işlərində o, onunla çox rəsmi danışmışdı. «Yoldaş Nəzərli». «Yoldaş Nəzarət komitəsinin sədri». Onun adını söhbətlərində yalnız bu cür çəkmişdi. Və uzun müddət Nəzər prokurorun ona belə soyuq və rəsmi münasibətinin səbəbini axtarmış, lakin axırını bir yana çıxara bilməmişdi. «O yaltaqları, qorxaqları sevir deyəsən. Neyniyim, mən yaltaq olmamışam, ola bilmərəm də. Sevmir, qoy sevməsin».

Ancaq bu yaxınlarda Nəzər İsrafil Quliyevin ona bəslədiyi soyuqluğun, rəsmiyyətin səbəbini anlamışdı: sən demə, maarif şöbəsinin müdiri Murad Muradzadə oğluna prokurorun qızını alıbmış, qohum olublarmış. Sən demə, Murad, İsrafillə qohum olduğuna görə, o dəfə büroda Süleymanla elə qoz-qoz danışırmış. «Yəni Süleyman da bilmirmiş? Ola bilər xəbəri olmasın. Yəqin elə ona görə də, Süleyman burada onu yıxıb sürüsə də, sonra aradan nə qədər keçməsinə baxmayaraq bir də o məsələnin üstünə qayıtmamışdı. «Yaxşı, sənlə sonra danışarıq» — demişdi onda Süleyman. Bəs nə olmuşdu? Heç nə. Murad muradzadə öz stolu arxasında möhkəmcə oturmuşdu, qardaşı oğlu Şakir də orada, Əsgərabadda «Qırmızı məktəb»də ağız-bəhəm eləyərək bildiyini eləmişdi.

«Hə, belə de. Arxalı köpək qurd basar. Eybi yoxdu, dəvədən böyük fil far» — deyə Nəzər bu məsələni başı açılan kimi, Bakıda Maarif nazirliyində qaldıracağı qərarına gəlmişdi…

… İsrafilin yanında forma geymiş iki nəfər də vardı. Nəzər prokurorun qara çeşməkli gözlərinə baxa-baxa gülümsündü və bayaqkı sözünü izah elədi:

— Elə indicə sizin haqqınızda düşünürdüm, inanın. Telepatiyadı, nədi bu? — Ayağa qalxdı və: — Xoş gəlmisiz, — dedi. — Həmişə siz gələsiz. Buyurun, əyləşin.

İsrafil irəli gələ-gələ rəsmi tonda:

— Bilirəm, bizim haqqımızda son vaxtlar çox tez-tez fikirləşirsiz, — dedi, ürəyindən isə keçirdi: «Mənəm talançı? Dayan, sənin ananı elə ağladım ki, özün də afərin deyəsən. Alçaq».

— …

— Görürəm, bizim gəlişimizdən məmnunsuz.

— Əlbəttə. — Udqundu. — Siz də bizim bu kasıb idarənin qapısını açıb içəri girərmişsiz, yoldaş Quliyev… Buna ancaq sevinmək lazımdı.

— Amma bilsəniz niyə gəlmişik, belə sevinməzsiz.

— Hə? Nə olub ki? Yoxsa bir hadisə baş verib?

— Bəli. Təəssüf ki, elədi. — Stul çəkib oturdu. Formalı adamlar ayaq üstə dayandılar. Prokuror uzun qıçını qıçının üstünə aşırıb davam etdi: — Özü də çox pis bir hadisə.

— Axı nə olub?

Quliyev uşağa müraciət edirmiş kimi:

— Oturun, Nəzərli, — dedi.

Nəzər qeyri-iradi əyləşdi, gözlərini döyə-döyə İsrafilin şüşə gözlərinə baxdı.

— Axı nə olub? — hövsələsi daralmış halda səsini ucaltdıqda Quliyev milis işçilərinə başı ilə işarə elədi:

— Axtarın.

Nəzərin qulaqları guruldadı, gözləri qaraldı, dodaqları səyridi. Çılğıncasına:

— Nə dediz? Nəyi axtarsınlar? — deyə xəbər aldı və Quliyevin nə cavab verəcəyini gözləmədən qabağa — düz onun üstünə gələn kapitanın və kiçik leytenantın üstünə:

— Yaxın gəlməyin, yaxın gəlməyin. Vallah, dünyanı dağıdaram, — deyə elə qışqırdı ki, onlar bu qeyri-adi səsdən səksənib yerlərində dondular. — Siz nə eləyirsiz? Siz… — sözünü yarımçıq kəsib İsrafilə sarı çöndü: — Bir məni başa salın görüm bu nə oyundu, İsrafil?

— İsrafil yox, yoldaş Quliyev. — O, Nəzərin sözünə düzəliş verdi.

— Hə, yoldaş Quliyev, deyəsən siz… zarafat eləmək fikrinə düşübsüz, nədi?

— Mən iş başındayam. Mənim zarafat eləməyə nə vaxtım, nə də həvəsim var, Nəzər.

— Onda… onda məni başa sal. — O da «sənə» keçdi — bütün bunlar nə deməkdi?

— Pulları hara qoymusan?

Nəzər gözlərini döydü:

— Hansı pulları?

— Özünü avam yerinə qoyma. İndi burdan çıxan oğlandan aldığın pulları deyirəm. Hara qoymusan?

Nəzərin bircə anda qırışığı açıldı, qəfildən, heç kəsin gözləmədiyi halda əlini əlinə çırpıb ucadan şaqqanaq çəkərək elə güldü ki, üçü də döyükdü. Hətta cavan leytenant istər-istəməz düşündü: «Deyəsən, kişinin başına hava gəldi».

İsrafil isə hirslə:

— Nəyə gülürsən? — dedi. — Ağlamalıdı bu, Nəzər, gülməli deyil.

Nəzər elə yerindəcə, əyilib düzələ-düzələ, əliylə dizini döyəcləyə-döyəcləyə gülürdü:

— Ay sizin evinizəcən. Ha, ha, ha. Adə, məni öldürdüz ki, gülməkdən. Mən də deyirəm… görəsən… bəs… — hələ də çiyinləri qalxıb-enən Nəzər cib yaylığıyla yaşarmış gözlərini sildi: — Mən də deyirəm… bəs… nə olub, nə pul deyir bunlar? — Və əlini cibinə salıb çıxararaq pulları stolun üstünə atdı; onluqların dəci pozulub səpələndi. — Bunları deyirsən? Quliyev, bunları deyirsən? Bu, mənim öz pulumdu. Öz pulumdu, Quliyev. Öz halalca maaşımdı, başa düşdün? Yunis srağagün borc almışdı. Gəldi, xahiş elədi, «əlimyandıdayam» dedi, mən də verdim. İndicə, beş dəqiqə sizdən qabaq gətirib. — İsrafilin dodaqlarını bir rişxəndli təbəssüm gəzib-dolaşdı:

— O nağılları sonra danışarsan, müəllim. — O, bu «müəllim» sözünü xüsusi vurğu ilə dedi. — Hamıya əxlaq dərsi deyən, adamları düzlüyə-təmizliyə çağıran, oğrunu-rüşvətxoru tutmaq istəyən mü...əl...limm.

— Sənin məni təhqir eləməyə haqqın yoxdu. Sən səhv gəlmi-

sən, Quliyev… Bu pullar mənimdi.

— Yox, — o, cibindən çıxardığı bükülü kağıza və stolun üstə dağılmış qırmızı onluqlardan birinə gözucu baxıb: — Yox, bu pullar bizimdi, Nəzər bəy, — söylədi.

— Necə yəni sizindi?

— Çox sadə. Başa düşmürsən? Yunis dediyin o oğlan bu pulları bizdən alıb. Bu da nömrələri.

— Həə? Namərd. — Nəzərin gözləri böyüdü, dartınıb yerindən qalxmaq istədi, ancaq taqəti olmadı, zəif, titrək səslə leytenanta: — Ay oğul, o əclafı bura çağır, — deyə bildi.

İsrafil qalib bir ədayla:

— Oğlanı neynirsən? Budu oğlan, — deyərək cibindən ikinci bir kağız çıxarıb Nəzərin gözləri qabağında oynadaraq ucadan oxudu:

«Rayon prokuroru İ.M.Quliyev yoldaşa Benzindoldurma stansiyasının işçisi Yunis Bayramov tərəfindən

ƏRİZƏ

Nəzərinizə çatdırıram ki, Rayon Xalq Nəzarəti Komitəsinin sədri Nəzər Nəzərli vəzifəsindən sui-istifadə edərək məndən hər ay yüz əlli manat haqq istəyir. Mənim isə buna maddi imkanım yoxdur. Sizdən artıq dərəcədə xahiş edirəm ki, bu rüşvətxoru ifşa etməkdə mənə lazımi köməklik göstərəsiz.

İmza: Yunis Bayramov»

İsrafil kağızı büküb yenə cibinə qoyaraq:

— İndi aydındı, vətəndaş Xalq Nəzarət Komitəsinin sədri? — deyə eyhamla xəbər aldı.

— …

İsrafil kapitana sarı döndü:

— Otur, aktlaşdır. — Leytenanta isə: — Zəng elə, milis maşını göndərsin Ağayev, — dedi.

Leytenant: — Baş üstə, — deyərək Nəzərin stolu üstdəki telefona yaxınlaşdı.

Nəzər heç nə eşitmirdi, heç nə görmürdü.

… İsrafil öz kabinetinə girən kimi, Müseyibə zəng elədi:

— Qızıl balıq tordadı artıq, Müseyib. Uşaqlara tapşır, axşama bir qızıl balıq kababı bişirsinlər.

— Baş üstə.

ALTINCI FƏSİL

Bu hadisə gündüz saat on birdə baş vermişdi, on ikidə isə kənddə, Nəzərin evində telefon cingildəmişdi, bağçadan «qaçıb» həyətəbacaya baş çəkmək üçün gəlmiş Bikə xanım dəstəyi götürmüşdü:

— Bəli. Hə, mənəm.

Kim idisə, yoğun səsli bir qadındı, hal-əhval tutmadan, salamsız-kəlamsız, aşkar bir sevinclə:

— Gözün aydın, aaz, Bikə, sənin Nəzərini də tutdular. — demişdi.

Bikənin qulaqları batmışdı:

— Nəəə? Nəəə deedin? Kimdi danışan?

— Aaz, nə fərqi var kimdi? Deyirəm, Nəzəri də qolları bağlı apardılar. Qara maşında.

— Hara apardılar?

— Aaz, hara aparajaxlar — qoduxluğa. Özünün günahsız-filansız göndərdiyi adamların yanına. İndi başa düşdün?

Dəstək arvadın əlindən düşmüşdü; Bikə tappıltı ilə yerə dəymişdi.

Zəng eləyənin kim olduğu ona aydın olmamışdı. Və görünür, heç vaxt da, ölən günəcən də bilməyəcəkdi ki, o qadın kimdi.

… Süleyman həmin gün, prokurorun şəxsən özünün icra elədiyi əməliyyat nəticəsində Nəzəri aparandan səkkiz saat sonra, şər qarışan çağı gəlib çıxmış, evdən, arvad-uşağından hali olmamış yuxarı, öz kabinetinə qalxmış, ikinci katibi yanına çağıraraq xoş-beş eləyib soruşmuşdu:

— Rayonda nə var-nə yox, Cəlal?

— Sağlıqdı, Süleyman müəllim. Ancaq pis bir iş olub. Mən sizi çox axtardım, şəhərdəki evinizə zəng çaldım, Mərkəzi Komitədən soruşdum. Tapa bilmədim.

— Axı nə olub, Cəlal? — Süleymanın vücudu təşviş içində gə-

rilmişdi.

Cəlal tərəddüdlə:

— Nəzər müəllimi… götürüblər. — söyləmişdi.

Süleyman siqaret yandırmışdı:

— Necə yəni götürüblər?

— Tutublar, Süleyman müəllim.

— Nə danışırsan, Cəlal? Kim tutub?

— İsrafil. Prokuror…

— Prokuror? Nə üstə?

Cəlal əhvalatı qısaca danışmışdı Süleymana.

— Elə şey olmaz, canım. Qətiyyən ola bilməz. Mən buna inana bilmirəm, Cəlal.

— Mən də inanmaq istəmirdim, Süleyman müəllim. Ancaq, deyəsən, həqiqətdi.

Süleyman qıçlarının əsdiyini hiss eləyib kreslosuna çökmüşdü, dəhşətli, ağlasığmaz bir fəlakət eşidib sarsılmış adam kimi, dişlərini bir-birinə sıxıb xırçıldatmışdı.

— İsrafil o işə getməzdən qabaq gərək mənə deyəydi. Mənim büro üzvümü həbs edir, özü də mənə deməmiş.

— Sizi axtardı. Mənə dedi. Dedim: İsrafil, belə şey eləmə. O Nəzər o cür adam deyil. Qoy katib gəlsin, məsləhətləşək. Dedi, yox, Cəlal. Əməliyyat artıq hazırdı — mən bunu poza bilmərəm. Sənə deyirəm də, — söylədi. — Katib də gələndə bilər.

— Sanksiya verib?

— Hə. İşi şəxsən özü aparır.

— Bəs şəxsən özü niyə, Cəlal?

— Ona görə ki… Bilirsiz, Nəzər çox nüfuzlu adamdı — milis, SƏDM inspektorları, lap Dövlət təhlükəsizlik şöbəsinin işçilərinə də etibar eləməyib. Mənə elə gəlir ki, Quliyev xal toplamaq istəyir, Süleyman müəllim.

— Hm… — Süleyman əlini stola çırpmışdı. — Çort vozmi. Yox, bu ola bilməz. Nəzər kristal adamdı, Cəlal. Nəyə desən inanaram, ancaq o kişinin rüşvət almağına yox.

— Amma o benzin satan oğlan at kimi üzünə durur.

— Nə qədər gec deyil, onu qurtarmaq lazımdı.

… — Yox, Süleyman, yaxşısı budu, siz bu işə qarışmayın. Çox mürəkkəb və çirkin məsələdi. Sizin də adınızın üstünə kölgə sala

bilər. Xəbər ildırım sürətiylə yayılıb, bütün rayon camaatı dəyib birbirinə. Güman ki, hələ Bakıya da gedib çatıb. Siz onu açdırıb buraxdırsanız, onda bu rüşvət deyilən zəhirmarın qabağını heç qoşunla da ala bilməzsiz. Deyəcəklər, görəsən katibin nə interesi varmış. Mən onu çox istədiyimə görə belə deyirəm, Süleyman. — Bu sözləri, Əmiraslanov gedəndən sonra kədərli halda kabinetə gəlib kənarda büzüşərək oturmuş Müseyib deyirdi.

— Axı nə deyə bilərlər? Hamı — uşaq da, böyük də bilir ki, Nəzər mənim müəllimim olub.

— Siz bu camaatı yaxşı tanımırsız. Bu camaatın arasında ala qarğa bala çıxartmaz.

— Mənim ürəyim yanır, Müseyib. O, təmiz kişi idi axı.

— İdi, Süleyman. İndi çox şey dəyişib. Elə sənin Nəzər müəllimin də. Siz elə bilirsiz mənim yazığım gəlmir? Sizin təmiz adanızın üstündə nə qədər əsirəmsə, acığınıza gəlməsin, Nəzərin üstündə üç qat əsirəm. Deyəcəksiz niyə? Ona görə ki… sizə hələ deməmişəm, lap bu yaxında aydın olub ki, Nəzər hardasa mənim qohumumdu.

— Qohumundu? Necə qohumundu?

— Nə təhər deyim… Nəzərin oğlu… Mədəniyyət evində işləyən Qərib var ha — o, bu gün-sabah mənim kürəkənim olmalıdı, Süleyman.

— Hə?

— Bəli. Uşaqlar… necə deyərlər, bizdən xəbərsiz çoxdan alışıb-verişibləmiş. Pambıq sovulan kimi toylarını eləməliydik. Lap başımı itirmişəm. Sizin bu işə qarışmağınızı da istəmirəm, Nəzərə kömək də eləmək istəyirəm. Ancaq bilmirəm neyləyim, necə eləyim? Sizin yanınıza gəlməkdə də… məqsədim elə budu. Dedim baş başdan üstün olar…

Bu zaman qırmızı telefon — dövlət telefonu səslənmişdi. Süleyman özünü yığışdırıb dəstəyi götürmüşdü. Zəng eləyənin familiyasını çəkəndə Müseyib başa düşmüşdü ki, Bakıdandı, Respublika Xalq Nəzarət Komitəsinin sədridi.

— Hə, Osman müəllim… Elə bir şey var. Mən də indi eşitmişəm. Elədi. Çox təəssüf eləməlidi, Osman müəllim. Bəli, bütün təşkilata ağır zərbədi… Bizim üçün isə… lap biabırçılıqdı, vallah… Düzdü. Başımı soxmağa yer axtarıram. Yaxşı, sağ olun.

Süleyman danışıb qurtarandan sonra Müseyibə fikirli-fikirli

baxmışdı. Müseyib içini dolduran gizli sevinci boğmağa çalışaraq katibin nə deyəcəyini gözləmişdi.

— Bakı artıq bilir.

— Bə mən sizə nə dedim? Osman müəllim eşidibsə, deməli, Mərkəzi Komitə də bilir… Ona görə deyirəm ki, bunu gizləmək mümkün olmayacaq.

— Hm. Düzdü. — Fikirləşmişdi Süleyman — Quliyevlə danışmaq lazımdı.

— Quliyevin mən dabbaqda gönünə bələdəm, Süleyman. Nəzər adam öldürsəydi, bəlkə də İsrafil ona kömək eləyərdi. Amma rüşvət məsələsi… Bah, bah. Rüşvət sözünü eşidəndə elə bil — Müseyib burda xırp səsini kəsmişdi: yadına düşmüşdü ki, axı dostları ilə danışıb şərtləşdiklərinə görə gələn ayın axırında Ağayevin növbəsiydi — o, Süleymanın istirahətə getməsini bəhanə edərək onun «payı»nı çatdırmalıydı — indi Müseyib belə deməklə Süleymanı qorxuza bilərdi, işi pozmuş olardı — odu ki, sözü dəyişmişdi: — Nə isə… Nəzəri milis tutsaydı, yenə Ağayevlə birtəhər dil tapıb danışmaq olardı. Ağayevin tamahı qılıncdan itidi.

— Deyirsən Quliyev kömək eləməz?

— Ta hardan? Sanksiya verib artıq. Əhvalatı eşidən kimi, mən yazıb başılovlu qaçdım İsrafilin yanına. Hətta dedim, əşi, o kişi mənim qohumumdu, qabaqda xeyir işimiz var… Gör bir neyniyirsən… Daş atıb başını tutdu ki, heç cür mümkün deyil, Müseyib. Çarəsiz qalıb sizin də adınızı çəkdim, dedim, Nəzər o kişinin müəllimi olub. Heç olmasa ona xətir…

Süleyman narahatlıqla:

— Nahaq elə demisən, — demişdi.

— Nə bilim, başımı itirmişdim, istəyirdim bu iş yoğunamamış, rəsmiləşməmiş birtəhər xilas eləyim o yazığı.

— Bəs sən elə söyləyəndə Quliyev nə dedi?

— Dəhşət adam imiş. Deyir, Süleymanın müəllimi yox ey, hətta öz atam da olsa, mən qanunu poza bilmərəm, Müseyib. Ta bundan sonra nə deyəsən ona. Durdum suyum süzülə-süzülə çıxdım kabinetindən… Getdiyimə də peşiman oldum…

Süleyman siqaret yandırdı:

— O oğlan necə adamdı, Müseyib?

— Hansı oğlan?

— Nəzərin üzünə duran.

— Hə. Əşi, yetimin biridi. Kimi-kimsəsi də yoxdu. Kasıbın, əlsiz-ayaqsızın yekəsidi. Mən onu görəndə həmişə cibimdən çıxarıb pul verərdim üçdən-beşdən… Adama deyən gərək, ay Nəzər, sənin ürəyin necə gəlirdi ki, ondan ayda yüz əlli manat pul istəyirdin? O nə qazanırdı ki, o qədər də haqq tələb eləyəsən ondan? İnsaf da yaxşı şeydi də. Gərək damara baxıb qan alasan da. Univermaqdan, mağazalardan, kababxanalardan, restoranlardan, nə bilim, daha haralardan yığdığın bəs eləmirdi, gərək gəlib o yetimdən də istəyəydin?

— Sən nə danışırsan, ay Müseyib? Yəni Nəzər elə eləyirdi?

— Bə nədi? Bunu hamı danışır ki.

— Yox, ay Müseyib. Mən əksini eşitmişəm. Hamı Nəzərin qorxusundan düz işləyirdi, kimsə kimsənin qəpiyini də kəsmirdi. Deyirdilər, Nəzər rayonda rüşvətin kökünü kəsib az qala. Mən də sevinirdim.

— Məni demirsən, Süleyman. Necə sevinirdim, necə sevinirdim. Özünə də o irəli… bizdə oturub yeyib-içəndə, sənin də sağlığına badə qaldıranda demişdim. Amma sən demə yalan imiş. Nəzər ustalıqla maskalanıbmış. Demək olar hamısından alırmış. Neçəsi mənim özümə deyib.

— Onlar da indi Nəzərin üzünə dururlar?

— Yox. Nə danışırsız, Süleyman? Kim gedib öz başını iti bıçağa sürtər? Qabaqlar olsaydı dirənib deyərdilər. Ancaq bu təzə qanun — «Alan da tutulsun, verən də tutulsun» — qanunu çıxandan sonra kim rüşvət verdiyini boynuna alar? Bilmirəm bu qanunu hansı ağılnan çıxartdılar?

— Aydındı ki, rüşvətxorluğa qarşı mübarizəni gücləndirmək məqsədiylə.

— Məsələ ondadı ki, o qanunu düşünənlər işin bir cəhətini fikirləşiblər, o biri cəhətini yox. Dərindən fikirləşəndə görürsən ki, o qanun rüşvətxorluğun daha da geniş və daha gizli şəkildə rəvac tapmasına çox gözəl şərait yaradır… Siz necə bilirsiz, dost kimi, yoldaş kimi etibar edib qulağıma: «Nəzər filan qədər aldı məndən» — deyə pıçıldayan adamlar o qanunun qorxusundan üzə çıxarıb deyərlərmi ki, filan qədər vermişəm Nəzərə? Yox, üstlərinə diri ilan da salasan, deməzlər, Süleyman…

— Hm…

— Yunislə bayaq söhbət eləyirəm…

— Yunis kimdi?

— «Zapravka»da işləyən oğlanı deyirəm də. Yazıq az qalırdı ağlasın. «Adını müəllim qoyub, kommunist qoyub» — deyirdi.

— Bəlkə aralarında bir qərəz-zad var, ay Müseyib?

— Yox. Nəzər hara, Yunis hara? Bunu mən də soruşuram, and içib aman elədi. Axırda, öz aramızdı, gədəyə lap yalvardım, pul təklif elədim. «Götür ərizəni geri, bilirsən, o mənim qohumumdu, biz qudayıq, qızı bədbəxt eləmə, Yunis. Rayon dolusu ad-sanım var, məni camaat arasında bədnam eləmə, bala» — Deyir, — «Müseyib qağa, mən ərizəmi hancarı geri götürə billəm? Onda mənim özümü basallar qoduxluğa». Görürəm o yazıq da düz deyir də… Nə isə… çox pis yerdə axşamlamışıq, Süleyman. Sizin işiniz ağırdı. Xilas eləyəssiz, deyəcəklər, Həmidov da elə onun tayıdı, eləmiyəssiz, deyəcəklər Həmidov öz müəllimini tutdurdu. Mənimki lap dəhşətdi. İndi qızı onun oğluna vermiyəcəyəm, deyəcəklər, Müseyib Nəzərin adına-vəzifəsinə görə qohum olmaq istəyirdi, verəcəyəm, deyəcəklər qudası həbsxanada yatır, rüşvətxorun biri idi, nə bilim nə… Yuxarı baxırsan bığdı, aşağı baxırsan saqqal…

Süleyman otaqda gəzindi. Müseyib siqaret çəkməyə başladı. Katibin üzü bulud kimi tutulmuşdu. Çıxılmaz vəziyyət idi doğrudan da. «Kimə inanasan, ay aman. O gün dediyi sözlərə, planlarına bax, bu gün tutduğu əməllərə… Yernən göy qədər fərqi var. Eh, Nəzər müəllim… Doğrudanmı sən beləysənmiş?»

Qayıdıb yerinə keçdi, dəstəyi götürüb barmaqlarını yastı telefonun düymələrində gəzdirdi:

— Quliyev? Salam. Hə, indicə gəlmişəm. Hə. Bu Nəzərin məsələsi düzdümü? — Dayanıb dinlədi. Görünür prokuror təfsilatı danışırdı.

— Hə. Yəni onu heç cür xilas eləmək olmaz? Yox? — Hayıf. Amma… onda, Quliyev, səndən bir xahişim var. Bilirsən, o kişi mənim müəllimim olub. Təhqiqatı bacardığın qədər düzgün, obyektiv apar. Birdən səhv eləyərsən… Bu, bizə baha başa gələr… Yox, yox. Həqiqət olsa, onda heç… Özündən küssün. Mənə tez-tez məlumat verərsən… Yaxşı. Sağ ol. — Dəstəyi asmışdı, müsahibinə baxmışdı. Müseyib təəssüf eləyirmiş, yanıb-yaxılırmış kimi, başını bulayıb yanıqlı-yanıqlı köks ötürmüşdü. İçindəki Müseyibə — gözəgörünməz,

ancaq özünün tanıdığı Müseyibə, ürəyində pıçıldamışdı: «Köpəyoğlu, sən gərək diplomat olaydın…»

* * *

… Qərib həyətdə, uzun, müşəmbəli stolun arxasında müşkülmüşkül, əzizi ölmüş adam kimi oturmuşdu: qabağında Simuzər, kədərli halda sol döşünün üstündən sallanan hörüyünün ucunu qurdalaya-qurdalaya əyləşmişdi. Arabir ala gözlərini qaldırıb Qəribə baxırdı, ah çəkirdi. Oğlan isə oğurluqda tutulmuş adam kimi qıza kirpik qaldırmağa utanırdı. Bu dəqiqələrdə, niyə bədbəxt yarandığını, xoşbəxtliyə can atarkən, ona qovuşmağa az qalırkən həmişə bir əngəlin niyə ortaya çıxdığını götür-qoy eləyir və: «görünür, mən elə bədbəxt olmaq üçün yaranmışam. Mənim alnıma səadət yazılmayıb. Özü də qəribədi ki, mənim səadətimə hər zaman, hər yerdə doğma atam mane olub, sədd çəkib. Bu, daha ata olmadı, bu, bəla oldu mənim üçün» — deyirdi. Sükut uzun sürdükcə, sözlər fikirlərə, fikirlər ittihamlara çevrildikcə, Qərib bir az da tutulub qaralır, qara, qalın qaşları gözlərinin üstünə enir, onu, qənşərindəki Simuzərə daha da kədərli, bədbəxt və ümidsiz göstərirdi. Qız isə, qəribə idi ki, onun bu ağır anlarında, Qərib haqqında, indi hardasa təkadamlıq kamerada saxlanan və allah bilir nə barədə fikir eləyən gələcək qayınatası haqqında yox, o daz baş, xırda gözlü, zəhmli, hökmlü, atasının qul kimi qabağında dayandığı, ömründə ilk dəfə ona içki içizdirən, ömrünün yeddi ilini oğurlayan o nazir barədə düşünürdü. Ələmdarın ağır gövdəsi elə bil indi də qızı basıb əzirdi, iri, koppuş əlləri elə bil indi də onun ağappaq sinəsində, buxağında gəzirdi və o iri, koppuş əllərin istisini indi də vücudunda hiss eləyir, həm ikrah, həm də hardasa xoş bir gizilti duyurdu canında. Anlar qovuşduqca, nazir gözlərinin önündə əriyib yox olur, əvəzində bu ucaboy, cavan, sağlam bədənli, qüvvətli Qərib peyda olurdu və Simuzər özünü, hələ indiyəcən onu bircə dəfə də öpməmiş Qəribin qolları arasında sanıb həzz alırdı. Və Simuzər bütün bu çalpaşıq duyğular aləmindən çıxmaq, xəyalında, həyatında ilk kişi olan naziri unutmaq, yox etmək istəyinə tabe olaraq, iradəsini toplayıb Qəribin qoynuna sığınmaq arzusunu güclə boğurdu özündə. Lakin elə bu anda Simuzərin baxışları Qəribin böyründəki boş stula sataşdı. Bu həmin stul idi ki, o gün Simuzər oturmuşdu və atası, Qərib bağa keçəndən sonra, meynələrin arasından çıxıb gəlmiş Bəhram

onu — stulu öpməyə başlamışdı. O qeyri-adi hərəkət yadına düşən kimi Simuzər lalı xatırladı və başını döndərib gözləri ilə onu axtardı. «Hardadısa, indi bizə baxır». Doğrudan da elə indi — Bəhram o yanda, qarajın böyründə, köhnə stulun üstə oturub onlara tamaşa eləyirdi. Baxışları tutqun idi, yazıqlıq tökülürdü üz-gözündən Bəhramın.

Simuzər ona əhəmiyyət verməyərək Qəribə sarı çöndü:

— Nə dərin fikrə getmisən, Qərib? — deyə, nəhayət, dillənəndə oğlan, qızın səsini eşidib fikir dünyasından ayrıldı və qəmli-qəmli gülümsündü. — Darıxma, — əlavə elədi Simuzər. — Atam həmişə deyir ki, bir yandan bağlayan fələk bir yandan açır.

Qərib içindəkiləri, düşüncələrini dilinə gətirmədi. Simuzəri qorxutmaqdan çəkindi, lakin kədərinin dərinliyini, böyüklüyünü də gizləyə bilmədi:

— Mən görürəm fələk elə hey bağlamaqnan məşğuldu. Açmaqnan işi yoxdu.

Simuzər qalxıb talvardan bir qıça ağ, gündüz işığında bu üzündən baxanda o üzü, içindəki toxumları belə görünən bir salxım üzüm üzdü və onun gilələrindən üç-dördünü qoparıb zərif əllərində silib təmizləyərək, ana quş öz balasına yem verən kimi:

— Ağzını aç, — dedi və Qəribin elə o an açılan ağzına atdıqda fürsəti buraxmayan oğlan onun incə barmaqlarından öpdü, qızın bədəni gizildədi və şirin bir təbəssüm yayıldı ağ sifətinə. — Sən darıxma, Qərib, atam kişini darda qoymaz… Özünü ələ al, dünya dağılmayıb ki, — Belə deyən dönüb Bəhrama gözucu baxdı. Bəhram Qəribin onun əllərini öpdüyünü görüb gözlərini yummuşdu, başını əlləri arasına almışdı.

Qəribin qırışığı açıldı. Üzüm gilələrini dünyanın ən ləziz nemәti kimi (ona elə gəldi ki, indiyəcən hələ belə dadlı və şirin üzüm yeməyib, halbuki, öz həyətlərində də eynən həmin «gəlin barmağı» üzümdən var idi, Nəzər onu öz əlləri ilə əkmişdi və Qərib də, indiyəcən o üzümdən keçən illər boyu ən azı neçə pud yemişdi), damağı ilə əzib udduqdan sonra:

— Kişi də kişi olmadı, Simi, — dedi. — Qızınmadıq istisinə, amma kor olduq tüstüsünə. Ağlım dünyanı kəsəndən mən özümü atalı yetim hesab eləmişəm. Bilirsən, kişi bu dünyanın adamı döyül. O, gərək ya keçən əsrdə, ya da gələn əsrdə yaşayaydı. Kitablar onun başını xarab eləyib. Mən çox demişdim ona — qulaq asmamışdı. Ancaq deyəsən təzə-təzə ağıllanırdı ki, onda da belə oldu. Haqqın

yolunu tapmaq istəyəndə, ilişdi…

Bu zaman Simuzərin xanım-xatın anası, uzun, durna boğazına üç qat mirvari dolamış Səltənət, əlindəki sinidə içki, göy-göyərti, toyuq qızartması gəlib çıxdı, usta, arif baxışlarla onları süzüb, arada qızına da bir arifanə göz vurandan sonra:

— Nə lal-dinməz oturubsuz? — söylədi. — Ədə, bura bax, — Qəribə sarı çöndü. — Nədi, gəmilərin-zadın batıb? Dədəyin fikrini eləyirsən? Axıllı ol, Müseyib qağan ölmüyüb ki, o da gedib orda yatsın. Qəti kefini pozma, ye-iç, heç nəyin dərdini çəkmə, bala. Lap uzaq başı, allah eləməsin ha, elə hesab eləyərsən, sənin heç dədən yoxdu! İndiyəcən onun varlığını-yoxluğunu bilibsən? Yox! Bilməyibsən, bala. Əgər sənin dədən, başqalarınkı kimi, axıllı-kamallı dədə olsaydı, indi sənin altında maşın, evin-eşiyin, dəmin-dəsgahın olardı. Az qala otuzu haqlayıbsan, dünyada nə görübsən? Gül kimi instituta girmişdin, dalında dursaydı, oxuyardın da. İndi səsin-sorağın Küveytdən-zaddan gəlirdi. Durmadı, dura bilmədi, — deyə-deyə sinidəkiləri stolun üstə düzdü.

— Səltənət xa… — Qərib dayandı, bilmədi «xala» desin, ya «xanım». Səltənət isə, indiyə qədər elə-belə, müraciətsiz-filansız gəlib-gedən bu ağıllı (onun fikrincə) oğlanın fikrini göydə oxuyub köməyinə gəldi:

— Səltənət xanım.

— Bağışlayın. Elə mən də o cür demək istəyirdim…

— Yox, mənə gələ bilməzsən, bala. Sən istəyirdin «Səltənət xala» deyəsən mənə. Bax, kişi kimi, düzünü boynuna al, doğru deyirəm ya yox?

Qərib həqiqətən də «Səltənət xala» demək istəyirdi. Yaxınlıq, məhrəmlik olsun deyə. Ancaq Səltənət xanımın onun ürəyindən keçəni oxumağına təəccüb eləyib həqiqəti boynuna almaqdan savayı bir çıxış yolu görmədi:

— Vallah, düz deyirsiz, Səltənət xanım.

Səltənət xanım özü də Qəribin böyründə əyləşib:

— Səndən xoşum gəldi, Qəribcan, — deyib güldü. — Məndən heç nə gizlətmək lazım deyil. Mən peyğəmbər kimi adamam. Kimin harda nə yalan danışdığını, fələk də olub gizləməyə çalışsa, o saat bilirəm. Bax, Müseyib qağan gedir Bakıya, Moskvaya, Riqaya. Qayıdıb gəlir. Elə gələn gün mən bilirəm ki, o, orda nə pəstahlardan çıxıb. Əvvəllər gizlədirdi. Sonra gördü yox ey. Bilirəm hamısını, açıb

özü deməyə başladı. Boy, nə durmusan aaz, başla da. İndi deyirsən, burda sizə mən qulluq eləyim? Səndə günah yoxdu, Müseyibin qızısan da, gərək hər şey sizin qabağınıza hazır gəlsin. Ədə, uxajivat elə qıza. Vay, evini allah tiksin.

Qərib tez boşqabları götürüb Səltənət xanımın, Simuzərin qabağına qoydu. Qız fürsətdən istifadə eləyib üçüncü boşqabı da Qəribin qənşərinə itələdi. Sinidə bir araq, bir də bir şampan vardı.

— Aç bunnarı. İkisini də aç. — Səltənət xanım Qəribin dirsəyinə toxundu. O, şüşələri açınca Simuzər qablara xörək çəkdi. Qərib ancaq bu zaman gördü ki, hər qab-qaşıqdan dörd-dörd gətirib Səltənət. Ağlına gəldi ki, yəqin dördüncü Bəhram üçündü. Bəhramın adını ürəyində çəkən kimi, Qəribin qanı qaraldı. Ancaq bilmədi niyə? Çünki hissləri hələ də özünə aydın deyildi. Hardasa Simuzəri ona qısqanırdı, ancaq bu əsassız, kor-koranə duyğunu hər dəfə özündən uzaqlaşdırmağa çalışırdı. Elə bu an Müseyib həyətdə görürdü. Qərib müəlliminin gəldiyini görən şagird kimi tez ayağa qalxdı. Müseyib ona əl verib görüşərək stola ötəri göz gəzdirdi.

— Vaxtında gəlmisən, kişi, — Səltənət söylədi. — Qaynanan səni çox istəyirmiş…

Müseyib böyründəki əlüzyuyanda sir-sifətinə su çırpıb mıxdan asılmış qar kimi ağ dəsmalla da qurulanandan sonra gəlib qızının yanında əyləşəndə Simuzər qalxmaq istədi. Müseyib qolundan tutub oturtdu:

— Hara gedirsən, aaz. Kim var ki, burda? Özümüzük, bala. Özgə adam yoxdu.

Simuzər heç nə deməyib tərpənmədi. Müseyib əl atıb araq şüşəsindən Qəribə də, özünə də araq, şampan şüşəsindən isə arvadına və qızına köpükləri oynaşan şampan süzüb üzünü oğlana tutdu:

— Görürəm, qanın qaradı, bala… Mən bu gün katiblə də, Quliyevlə də, Ağayevlə də, o köpək oğlu benzinsatannan da danışmışam. Açığını deyim, vəziyyət gərgindi. Bilirsən, bu elə məsələdi ki, qorxusundan heç kəs altına girmək istəmir. Hətta katib özü də qorxur. Quliyev ki, heç. Daş atıb başını tutur. Oğlan da… ağlım bir şey kəsmir ondan. Sən belə elə… — Bir az fikrə getdi. — Sən belə elə. Sabahda, biri gündə görüş al kişiynən, eşidirsən?

— Bəli, Müseyib qağa.

— Görüş al, denən ki, əlli-ayaqlı gedirsən, kişi. Özün də yazıqsan, biz də — yəni siz də. Çarə bircə müstəntiqədi. Katibə-zada ümid

eləməsin. Çünki katib öz yanımda zəng eləyib Quliyevə dedi ki, — bu söhbət burda qalsın, ha, bunu ancaq sənə deyirəm, gələcəkdə dostunu-düşmənini tanıyasan, — dedi ki, bas getsin. Elə əclaflar — müəllimim olsa da — bizə lazım deyil. Denən ki, kişi, müstəntiqnən dil tap, danış, gör nə qədər istiyir. Nə qədər istəsə, desin verərəm, ancaq məni burdan xilas elə.

Qərib udqundu:

— Axı… Müseyib qağa, onun nəyi var ki, nə də boyun alsın.

— Adə, o boyun alsın. Düzəldərik. Bunun fikrini çəkmə. Sən axıllı oğlansan, bilirsən ki, bu dünya al-ver dünyasıdı, bala. Mən ölməmişəm. Bilirsən, oğul, bu işdə mən özüm qabağa düşərdim, ancaq hələ mənim buna haqqım yoxdu. Əgər — o, əlini qızına və Qəribə tuşlayıb əlavə elədi, — sizin aranızda rəsmi bir şey olsaydı, onda ayrı məsələ. Elə bir şey olsaydı, Quliyevin ağzı nə idi, mənim qudama girişəydi? Onun ciyərini çıxardardım. Ancaq, indi qalmışam kəsilə-kəsilə. Yaxın düşə bilmirəm. Anladınmı, ay Qərib?

— Bəli, Müseyib qağa.

— Hə, indi bismillah. Birinci qədəhlərimizi içək Nəzər müəllimin sağlığına. Gün o gün olsun ki, o, bu ütüdən salamat qurtarsın, gəlsin, bax elə burda, bu sastavda onun gəlişini qeyd eliyək. — Müseyib çəngəli pomidora sancıb: — Onu da bil ki, əgər Nəzərə on il də versələr, gedib həbsxananın içindən çıxardıb gətirəcəyəm. Mənə də Müseyib deyəllər ha, — söylədi.

— Çox sağ olun, Müseyib qağa. Allah sizi bizim üstümüzdən əskik eləməsin.

— Di vurduq, Nəzər müəllimin şərəfinə. — Müseyib arağı hortuldatdı və Qəribə, arvadına, qızına başı ilə işarə edərək: — İç, — dedi, — sən də mısmırığını sallama, ə, kişinin başına qəzavü-qədər gələr, — dedi.

Qərib oğrun baxışlarla Simuzərə göz yetirib sanki ondan içib-içməməsi barədə icazə istədi, Simuzər isə, uzun, tutaş kirpiklərini çalmaqla izn verdi. Qərib qədəhini Səltənətin və Simuzərin artıq dolu qədəhlərinə toxundurub asta-asta, süzə-süzə içdi, yerə qoyanda Müseyib ağzındakı tikəni udaraq:

— Anan bilir, ə? — deyə soruşdu.

— Xəbərim yoxdu, — dedi Qərib. — Mən bayaq eşitmişəm.

— Hm. Bilməlidi arvad. Bu xəbər bütün rayonda bomba kimi

partlayıb. Eşitmiş olar indi. Yeznələrin də eşitmiş olar. Amma hər halda sən evə dəyməlisən, arvadı sakitləşdirməlisən. Bu, sənin oğulluq borcundu, Qərib.

— Düz deyirsiz, Müseyib qağa.

— Amma indi gecdi. Səhər gedərsən.

Qərib başını tərpətdi.

Müseyib tez-tez yeyirdi, elə bil aclıqdan çıxmışdı. Yenə süzdü və qədəhini qaldırıb:

— Ə, bunnara demisən təzə xəbəri, — deyə Qəribə müraciət elədi.

— Hansı xəbəri?

— Təzə vəzifəni də.

— Vay. Tamam yadımdan çıxıb. Kişinin əhvalatı fikrimi elə çaşdırıb ki… Kirt unutmuşam…

— Nə təzə vəzifə, kişi? — Səltənət soruşdu. Simuzər Qəribə təəccüblə baxdı.

— Hə. Qəribi təbrik eliyə bilərsiz. Bu gün əmrini vermişəm.

— Oy, nə yaxşı, ay Müseyib.

— Təbrik edirəm, Qərib. — Simuzər astaca söylədi.

— Sağ olun, Müseyib qağa, sağ olun… Ölüncən…

— Yaxşı, yaxşı. Xoşuna gəlir işin?

— Hə, çox rahatdı, Müseyib qağa.

— Axı, nə vəzifədi ey, bizə də deyin də. — Səltənət hövsələsizlik elədi.

— Qapançı… — Müseyib şəstlə cavab verdi.

Səltənət dodaq büzdü:

— İşə götürürdün, bir fərli yerə qoyaydın da. Qapançı nədi?

— Arvad ki, arvad. Sən nə bilirsən qapançı nə deməkdi. Sənə işin adı lazımdı, ya pulu?

Simuzər söz atdı:

— Elə ikisi də. İkisi bir yerdə olanda yaxşıdı, ay dədə.

— Hələ işləsin. Özünü tutsun. Sonra… çəkəcəm qabağa. Fikrim budu ki, gələcəkdə öz yerimə hazırlayım Qəribi. Görək də.

— Çox sağ olun, Müseyib qağa…

— Sənin təzə vəzifən mübarək, ə. Götürün. Amma yaxşı oldu ki, bu gün tezdən əmrini verdim. Sabaha qalsaydı, çətin olacaqdı, bəlkə də heç mümkün olmayacaqdı. Nəzərə görə… mümkün olma-

yacaqdı.

— Hə. Deyəcəkdilər ki, atası… — Səltənət sözünü axıra çatdırmadan susdu.

***

… Darvazanın qabağındakı ağ "Volqa"nı görəndə Qərib başa düşdü ki, Tapdıq və Güldanə də burdadı. Həyətə girəndə tut ağacının altındakı stolun arxasında əyləşənləri görüb özünü itirən kimi oldu. İki bacısıydı, Tapdıq idi — qızlar anasının sağında, solunda, Tapdıq qənşərindəydi.

Bikə arvad oğlunu görəndə ürəkləndi, yerindən qalxıb saçlarına əl ataraq:

— Hardasan, ay oğul? Öyümüz yıxılıb ey, allah mərdimazarın öyünü yıxsın, — söylədi. Güldanə bir yandan, Güllü o biri tərəfdən Bikənin qollarını tutaraq üzünü cırmağa imkan vermədi.

— Vay-şivən qoparma, sən atovun goru, — dedi Qərib və yalnız indi, qıraqda oturandan, diqqətlə göz gəzdirəndən sonra bildi ki, Sadıq yoxdu, Güllü tək gəlib. Heç nə soruşmadı. Araya ağır, öldürücü bir sükut çökdü. Hamısı kədər içindəydi. Qızlar doluxsunmuşdularsa da, özlərini saxlayırdılar. Təkcə Bikə arvad başını yırğalaya-yırğalaya əlini dizinə çırpır, yana-yana, ancaq astadan:

— Bu nə müsibət idi ki, bizi saldın, ay Nəzər? Bizi yaman günə qoydun, ay Nəzər — deyirdi. — İndi bu camaatın üzünə necə baxacağıq, ay allah… Şakirin balaları ağlar qalsın, saldı səni dağa-daşa. Yurduna su calanmış, su caladı yurdumuza.

Tapdıq lal-dinməz oturmuşdu, açarları əlində oynadırdı. Qərib Güllünün qara donuna baxıb fikirləşirdi: «Yəqin elə bilib dədəm ölüb, qara geyinib gəlib. Kaş öləydi, bundan urvatlı olardı». Və birdən bacısından soruşdu:

— Bə Sadıq niyə gəlmədi, aaz?

Güllü döyükdü, nə cavab verəcəyini bilmədi.

— Deyirəm bə Sadıq hanı?

— Gələmmədi. İşi çoxdu…

— Hm…

Qəribin bu «hm» eləməyi Güllünün ürəyini göynətdi. «Çölüm özgəni yandırır, içim özümü… Sən Sadığı tanımırsan, ay qardaş… Mən sizə necə açıb deyim ki, gəlmədi, gəlmək istəmədi. Onda hamı-

nız ona nifrət eləyərsiz».

Həqiqətən də, Bikə telefonla əhvalatı qızına çatdırandan, o da ərinə söyləyəndən sonra Sadıq dəli olmuşdu.

— Vay, biabır oldum. İndi adamların arasına necə çıxacam? Getdi vəzifəm, karyeram. Daha mənimkindən keçmiş ola… Tfu… Yox, sən nə danışırsan, heç kəsə ağız açа bilmərəm. Qətiyyən. Gərək çalışaq buralarda heç kəs bilməsin bu işi. Yoxsa, gərək mən baş götürüb Bakıdan qaçam. Danışanda atayın ağzına çullu dovşan sığışmırdı. Ədalətdən, düzlükdən, saflıqdan dəm vururdu. Buyur, bu da sənə ədalət, düzlük, saflıq. Yox, məni bu işə qatmayın. Sən özün get, deyərsən Sadığın başı qarışıqdı, gələ bilmədi…

Güllü mat-mat ərinin üzünə baxmışdı, daha öyürüb-çöyürməmişdi, avtobusa minib gəlmişdi. Və indi bunların heç birini nə anasına, nə qardaşına-bacısına deyə bilmirdi.

Tapdıq dillənib sükutu pozdu:

— Ağlayıb-sıtqamağın yeri deyil. Çarə fikirləşmək gərəkdi. Katibə — Süleyman müəllimə demək lazımdı — hər necə olsa müəllimi olub, kişini yaxşı tanıyır. Xilas eləsə, o eləyə bilər.

— Katib boyun olmuyub, əksinə deyib ki, əgər belədisə, basın getsin…

— Hə? Nə bilirsən, Qərib? — Tapdıq soruşdu.

— Bilirəm də. Yanına adam göndərmişdim. Deyib yox…

— Onda ta denən öyümüz yıxıldı da. — Bikə xanım gözlərini sıxdı.

— Ya gərək yuxarıdan — Bakıdan çox mötəbər bir adam zəng eləyib tapşırsın, ya da gərək dədəmin özü ağırlığında pul qoyulsun… — Qərib Güllünün üzünə nəzər saldı.

— Yuxarıdan Sadıq zəng elətdirsin. Mən də maşınımı sataram. — Tapdıq fikirli-fikirli söylədi.

— Sadığı bu işə qatmayın. — Güllü dedi. Və ağlına gələn ilk yalanı uydurdu. — Özünün də işi nə isə… əyilib. Başı qarışıqdı yaman.

— Vay, Sadıq qabağa durmasa, öyüm yıxıldı… — deyə Bikə arvad yenə sağ əlini dizinə çırpıb gözlərinin qorasını sıxdıqda Qərib qeyzlə:

— Sənin öyün, ərin onun-bunun öyünü yıxmağa başlayan gündən yıxılıb arvad, — söylədi. — İndi yox.

Hamısı fikrə getdi.

***

… Zakirə ağlayırdı. Məhər onu sakitləşdirmək istəyirdi, ancaq o, toxtamaq bilmirdi.

— Mən inanmıram, inanmıram buna. Nəzər müəllim ac qalar, ancaq kimsədən rüşvət almazdı, — deyirdi Zakirə, — onu ləkələdilər, aradan götürmək üçün ləkələdilər. Çünki o, çoxunun əl-qolunu bağlamışdı.

— Düz deyirsən Zakirə. Bir dəfə, iki-üç ay bundan qabaq kişi yana-yana danışırdı ki, sən bilmirsən, Məhər, rayonda güclü mafiya var. Yeyirlər, dağıdıllar elin, dövlətin malını. Pambıqdan, sovkadan, ticarətdən milyonlar yeyillər, bala. Bu yehayeyə şura hökumətidi davam gətirir, ayrı dövlət olsaydı, çoxdan dağılmışdı.

Məhər qıyıq gözlərini geniş açıb deyirdi:

— Şakir yaman sevinir Nəzərin ilişməyinə. Mən də özümü saxlaya bilmədim dedim, a Şakir, o, sənin müəllimin olub axı, nəyinə sevinirsən?

— Yox, Nəzər müəllimi bu böhtandan xilas eləmək lazımdı, qardaş, — Zakirə içini çəkə-çəkə söyləyirdi.

— Axı necə?..

— Bilmirəm, bilmirəm, ancaq onu qurtarmaq lazımdı. Katibin yanına gedək, müəllimi olub, Bakıya, Moskvaya yazaq.

— Əh, katib. — Məhər əlini yelləyirdi — Nəzərin oğlu Qərib danışırdı ki, Süleyman yaxasını çəkib qırağa, «qanun necə deyir, elə də eləyin» söyləyib.

Hüsü kənarda dayanıb siqaret çəkirdi. Axırdı:

— Əşi, nə müəllim, nə şagird. İndi sağ gözün işığı sol gözə düşmür. Hər kəs öz papağını başında gücnən saxlayır — deyib o tərəfdə pambıq yığan uşaqların yanına getmişdi. Yer palçıq idi, göydən də narın-narın payız yağışı çisələyirdi.

***

… Söyüdün altındakı çayxanada iki kişi oturmuşdu. Biri Cura müəllim idi, o birini isə Cura tanımırdı. Rayon adamıydı amma. Qonşu stolun arxasında əyləşib çay içənlərdən kimsə Nəzərin adını çəkdi.

Cura köks ötürüb:

— Hə, yazıq Nəzəri də belə dolaşdırdılar, — deyib müsahibinin üzünə baxdı. — Nəzəri tanıyırdın?

— Nəzarət Nəzəri demirsən?

— Hə.

— Tanıyırdım. Deyillər rüşvət aldığı yerdə yaxalayıblar.

— Böhtandı. Mən o kişiyə yaxşı bələdəm. İnsafən, elə eləyən adam deyildi. Ləyaqəti hər şeydən üstün tutardı.

— Nə ləyaqət, ay kişi? İndi məgər adamlarda ləyaqət qoyublar qalsın? Mən heç kəsə inanmıram. Hamı deyir bu təzə katib alan deyil. İnanmıram. Bu rayona son iyirmi-iyirmi beş ildə ondan çox katib gəlib-gedib — hamısı da yeyib gedib, kişi. Köçəndə gecəynən köçüblər ki, nələr apardıqlarını görən olmasın.

Qoca, uzun demisinə tənbəki doldurub alışdırlı və birdən Curadan soruşdu: — Səni vəzifə başına qoysalar, yeməzsən?

— …

Cura nə cavab verəcəyini bilməyib gözlərini döydükdə qoca qətiyyətlə dindi:

— Görürsən? Fikirləşirsən. Gətirib qoyurlar meşoxnan pulu, ovuc-ovuc qızılı qabağına, gözün elə qamaşır, bir də görürsən insafı da, ləyaqəti də, partbiletini də yaddan çıxartmısan, kişi. Pul, sərvət köpəyoğlu şeydi.

— Nə bilim, vallah.

— Yox, yox. Mən dünya görmüşəm, sən mənim yanımda uşaqsan, bala. Heylədi. Dedilər: «Peyğəmbər gəlir». Soruşdular: «Ağzı var?» Cavab verdilər: «Bəli». Dedilər: «Hə, onda o da yeməyə gəlir».

YEDDİNCİ FƏSİL

Hər şey yuxu kimi gəlirdi ona. Ağlı kəsəndən bəri çox yuxular görmüşdü, ancaq beləsini — bu cür qarmaqarışıq, əvvəli-axırı bilinməyən, baş-ayaq, heç yana, heç nəyə yozulmayanını gördüyünü xatırlamırdı Nəzər.

Nitqi tutulmuşdu, idarəsindən milis şöbəsinə qədər olan yolda

— maşında, maşından düşürüləndə, içəri gətiriləndə, üstü-başı axtarılıb qolundan qırx il ona sədaqətlə qulluq eləmiş köhnə «Pobeda» saatı açılıb stolun üstünə qoyulanda bircə kəlmə belə danışa bilməmişdi. Elə bil robota döndərmişdilər onu, nə demişdilər, müti qul kimi yerinə yetirmişdi. Elə bil, bütün bunlar onun yox, başqa, tamam kənar, yad bir adamın başına gətirilirdi və o da uzaqdan dayanıb səssiz kino kimi tamaşa eləyirdi.

İndiyəcən görmədiyi, tanımadığı, ya görüb fikir vermədiyi dolu bədənli, qara bığlı, ucaboy milis nəfəri onu qabağına salıb uzun dəhlizin o başındakı qapıya sarı aparanda da elə bilmişdi ki, kiminsə yanına aparır, orada danışdıracaqlar, sonra deyəcəklər: «Çıx get, Nəzər müəllim, adamı belə qorxuzarlar, ha. Zarafat üçün bağışla».

Dəhliz boyu, qıçını güclə çəkə-çəkə addımlayanda, bir ara ona nədənsə elə gəlmişdi ki, indi girəcəyi kabinetdə yəqin ki, Süleymanı oturmuş görəcək. Çünki, əgər bu zarafat idisə, bu rayonda Süleymandan başqa kimsə belə zarafat eləyə bilməzdi onunla. Əslində, heç Süleymanın da o cür eləməyə haqqı yoxdu. «Kefi gəlib də. Eliyir də. Neyniyəsən».

Ancaq milis nəfəri o qara dəmir qapılı otağı açıb, onu demək olar ki, içəri itələyəndə (çünki otaq boş idi, adamın üstünə vahimə axıb tökülürdü içəridən və bunu hiss eləyəndə Nəzər öz xoşuna daxil olmaq istəməmişdi) və həmin ağır qapı arxasınca şaqqıltı ilə çırpılıb bağlananda baş düşmüşdü ki, bura ağzıbirdi — kameradı. Gözə dəyən heç nə yox idi; üstünə haçansa qara rəngli olub indi artıq bozarmış, neçə yerdən partlamış müşəmbə çəkilmiş taxt idi, vəssalam. Əlçatmaz, çox hündür tavanın ortasında bir çıraq yanırdı, lap yuxarıda, yenə əlçatmaz sağ divarda dəmir şəbəkəli kiçik bir pəncərə vardı. Çırağın şüşəsi otuzluq ya da qırxlıq idi, otağı güclə işıqlandırırdı. Döşəmə sement idi və sement döşəmədən qəribə bir soyuqluq axıb vücudunu üşüdəndə sarsıldı. Bədəninin — qollarının, əllərinin tükləri biz-biz dursa da, sifətini, alnını tər basdı. Qıçları titrəməyə başladı. Başının firlandığını, indicə yıxılacağını hiss eləyib özünü iki addımlığındakı taxta zorla yetirib oturdu. Taxt cırıldayıb silkələndi. Kürəyini və başını daş divara söykədi.

Bəli, bu kameradı, təkadamlıq kamera.

«Bircə bunu görməmişdin, bunu da gördün, Nəzər» — dedi özözünə. «Avrora»sını çıxarıb qutunun içinə nəzər saldı, gilələri saydı: on yeddi gilə siqaret qalmışdı. «Qaydasında çək, Nəzər» — tapşırdı

özünə. Nəzər başqa bir adamla danışan kimi danışırdı, sözləri bərkdən deyirdi və qayıdıb təkrar soruşurdu: «Eşitdin?», «Başa düşdün?» Təbii ki, bu sualların cavabını verən yox idi və əslində heç lazım da deyildi.

Bir siqaret götürdü qutudan, baş və şəhadət barmaqları arasında yumşaltdı, lakin yandırmadı. «Yaxşı, deməli, sən o faşist oğlu faşistdən — Yunis deyilən o namərddən rüşvət almısan, hə?

— …

— Almamısan, Nəzər. O səndən yalvara-yalvara borc almışdı və bayaq da borcunu qaytarırdı. Yaxşı-yaxşı fikirləş. Elə deyil?

— …

— Elədi, elədi, Nəzər. Bəs onda… həmişə yazığın gələn, taleyinə acıdığın, ömründə heç bir pislik eləmədiyin o namərd köpəyoğlu sənin niyə elə qəsdinə dursun, Nəzər? Soruşuram da, niyə sənə böhtan, şər atsın, hə?

— …

— Burda bir səbəb olmalıdı axı. Elə bir səbəb ki, Yunis orqana müraciət eləməyə, oradan nömrələnmiş pul götürməyə məcbur olsun. Varmı elə səbəb? Xatırlayırsanmı, yadına salırsanmı?

— …

— Yoxdu elə səbəb, Nəzər. Bəs… onda o gədə… niyə elə həyəcanlıydı sənin yanına gələndə? Çaş-baş idi, elə bil… nə isə çox qəribə idi davranışı. Hətta sənə də birtəhər göründü… Bəlkə onu yoldan çıxaran, öyrədən var? Hə?

— Yəqin ki, belədi. Amma kimdi o? Müseyib? Olmaz. Qohum olmaq, qızını oğluma vermək istəyir. O eləməz… Eləyərmi?

— …

— Yox, eləməz… Bəs onda… kim? Mən axı… Dayan, dayan… Sən axı… bu rayonun… böyük talançılarını rüsvay, ifşa eləmək istəyirdin? Siyahisini də tutmuşdun, Süleymana vermişdin. Yadına düşürmü?

— …

— Hə. Vermişdin, Nəzər. Başqa heç kəsə deməmisən. Hətta Xuramana da — o qorxmaz, ürəyi sənin ürəyi kimi yanan o qıza da deməmisən. Yəni Süleyman… bu mafiya dəstəsi ilə, bu quldurlarla əlbir olub?

— …

— Yox, yox. Sən nə danışırsan, Nəzər?

Amma ürəyinə axıb dolan şübhə elə bil çiyinlərindən tutub qaldırdı, durub gəzindi, bayaqdan saxladığı siqareti yandırdı və acgözlüklə sümürdu.

«— O siyahidəki adamlar… İcrakom, məhkəmə sədri, prokuror, milis rəisi… Amma bu adamların Yunislə nə əlaqəsi ola bilər, hə?

— …

— Heç nə. O biri tərəfdən də… bu Yunis deyilən mərdimazar… Öz ağlı ilə… məni ləkələmək, bədbəxt eləmək, aradan götürmək fikrinə düşməz, qətiyyən düşməz. Bu, onun ağlının işi deyil. Onun arxasında dayanan olmalıdı, mütləq olmalıdı… Kimdi bu, ilahi? Ürəyim partladı, kimdi bu?

— …

— Yox, belə olmaz. Özünü ələ al, Nəzər. Tezliklə hər şey aydınlaşar. Təkcə sən dözümlü ol, sakit ol. Elə elə, ürəyin partlamasın. Sən gərək bu ütüdən-qurğudan tərtəmiz çıxasan, sübut eləyəsən ki, günahsızsan, böhtana düşmüsən. Sübut eləməsən, yaşamağa haqqın yoxdu, adamların, dərs dediyin cavanların, bu camaatın, arvad-uşağının üzünə baxmağa haqqın yoxdu, Nəzər».

Qayıdıb taxtda arxası üstə uzandı. «İndi yəqin bütün rayona yayıldı bu bəd xəbər. Nəzər müəllim rüşvət alıb. Dəhşətdi, müsibətdi. Sən bundan sonra necə yaşaya bilərsən, Nəzər?»

Gözlərini yumdu, çox keçmədi, tavanda yanan o tək çıraq da sanki söndü və bütün aləm qatı bir qaranlığa qərq oldu — divarlar da yox idi, o dəmir qapı da yox idi, çölün düzüydü sanki, ancaq yenə hər yan zülmət içindəydi. Ətrafında divar-hasar olmasa da, o qaranlıq içində hara üz tuturdusa, alnı, başı görünməz bir divara dəyirdi, geri qayıdırdı. Qaçırdı fikrində, xəyalında. Tövşüyürdü, nəfəsi çiyinlərindən çıxırdı. Ancaq heç yana gedib çata bilmirdi. Haçansa gözlərini açanda yenə özünü o qara tabuta bənzəyən o qara taxtın üstündə görüb… təzədən xatırladı: «Hə, bura kameradı».

Sol qolunu irəli uzadıb vaxtı bilmək istədi, saat qolunda yox idi. O kabinetdə açıb götürdüklərini xatırladı. «Düz eləyirsiz… Bura düşən adama saat lazım deyil. Bura düşən andan vaxt dayanır sənin üçün, ölür, donur vaxt. Bir də burdan çıxanda vaxt başlayacaq sənin üçün. Çıxmasan, heç…

«Amma görəsən… doğrudan saat neçədi? Yoxsa səni gətirib bura saldıqları yadlarından çıxıb? Axı səni dindirməlidilər, soruşmalı-

dılar, üzləşdirməlidirlər…»

Və birdən… yerindən sıçradı, irəli cumub sağ əlini yumruqlayaraq dəmir qapıya aramsız zərbələr endirməyə başladı. Əli ağrıyırdı, ancaq yenə döyəcləyirdi dəmir qapını. Hay verən isə… yox idi. Həvsələsi tükəndi və qışqırdı:

— Eyy, orda kim var? Eşitmirsiz?

Dəhlizdə, cırıldayan döşəmədə ayaq səsləri eşidiləndə toxtadı və yalnız bu zaman gördü ki, o dəmir qapının düz ortasında düymə boyda bir gözlük də var. Əyilib sağ gözünü o deşiyin üstə qoydu. Dəhliz də alaqaranlıq idi. Kimsə yaxınlaşdı, qapını şaqqıltı ilə açdı. Qarşısında otuz beş-qırx yaşlı, arıq, burnunun ucu qartal dimdiyi kimi aşağı dartılmış bir milis peyda oldu və Nəzər anşıra bilmədi ki, bu, bayaq onu bura gətirəndi, ya ayrısıdı. Çünki qəzəbindən heç fikir də verməmişdi.

— Ə, ögüz kimi nə bağırırsan? — Və Nəzəri təpədən-dırnağa süzdü. — Gecənin bu vaxtı nə olub, ə, heyvərə?

Bu sözləri eşidəndə Nəzər nə soruşacağını, keşikçini niyə çağırdığını yadından çıxardıb heyrətdən bərəlmiş gözlərini lap-lap döyərək matı-qutu qurumuş halda çaşıb qaldı. Yuxuydu bu? Bayaqkı qaranlıq aləmdə də belə şey görməmişdi Nəzər.

«Yox, görmürsən, yuxuludu, səni tanımadı, Nəzər. Tanısaydı, belə kobudluq eləməzdi». Hüznlü bir səslə:

— Mən Nəzər müəlliməm, bala. — söylədi.

Milis başını yana əyib təəccüblə:

— Doğrudan? — dedi.

— …

— Doğrudan sən Nəzər müəllimsən?

— Doğrudan… — Nəzər sadəlövhlüklə cavab verdi.

— De, sən öl, Nəzər müəlliməm?

«Faşist oğlu faşist, oxumuş adamdı. Əbdürrəhim bəyin hekayəsi yadına düşüb» — deyə ürəyində dolandırdı, acı bir təəssüf içini yandırıb qarsaladı, dili daha söz tutmadı, çünki o sözlərin dalıyca nə eşidəcəyini bilirdi:

— Elə isə… gəl min boynuma. Mənim bax bu iki gözüm aydın ki, sən Nəzər müəllimsən. Əbləh adam. Elə bu qiymətli məlumatı vermək üçün çağırmısan məni?

Nəzər heç özü də bilmədi haçan ikinci siqareti yandırıb damağına aldı və havaya üfürdüyü tüstü arxasında kədər dolu gözlərini

milisə zilləyib istehza ilə astadan:

— Sözlərindən görürəm oxumuş adama oxşayırsan, Əbdürrəhimbəydən-zaddan misal gətirirsən. Sən doğrudan məni tanımırsan? — deyə soruşanda milis, sağ əlini sağ yambızındakı qoburun üstündə gəzdirə-gəzdirə:

— Niyə tanımıram? — dedim. — Sən o Nəzər müəllim deyilsən ki, vəzifəyə keçən kimi, bu az müddətdə neçə-neçə oğulu indi özün düşdüyün bu ağzıbirə saldırıb arvad-uşağını, anasını mələr qoymusan? Bəs sən bilmirdin ki, atalar deyib: «Gen qaz, dərin qaz, axırda özün düşərsən?» Ə, a vicdansız, on qəpiyin, bir maşın taxtanın, iki yüz qram yağın da üstdə adam adamı tutdurub bədbəxt eliyər? Orden verəcəkdilər sənə? Ay verdilər ha, ala bedey verərlər, — deyə baş barmağını iki barmağının arasına salıb Nəzərin gözləri qabağında oynatdı. Nəzərin rəngi ağappaq ağardı. Siqaretinə qullab vurub dişlərini bir-birinə elə sıxdı ki, çənəsi ağrıdı, əlini saxlayıb hövsələsini basdı:

— Oğrudular onlar…

— Hm. Bəs sən nəsən? Sən oğru deyilsən? Onlar hardasa risk eləyirlər, özlərini oda-közə vururlar, min qorxu içində balalarına bir tikə çörək pulu qazanırlar. Sən isə hazırın naziri olmaq istəyirdin, hə?

Nəzərin boğazı qurudu, zorla:

— Sən doğrudan milissən? — deyə bildi.

— Bəs yalannan? Ə, yalannan da milis olar?

— Yox, inana bilmirəm. Sənin libasın milis libasıdı, ürəyin milis ürəyi deyil. — Bir anlığa susub əlavə elədi: — Amma sənə söz verirəm: burdan çıxan kimi, sənin o milis libasını əynindən çıxartdırmasam, mən heç dədəmin oğlu deyiləm.

Milis kinayə ilə dişlərini ağartdı:

— Çıxsan, çıxartdırarsan. Qaldı ki, dədən… Ay yazıq, sən heç bilirsən ki, kimin oğlusan?

Nəzəri elə bil ildırım vurdu, başında bir şaqqaşuruq qopdu, gözlərinin qabağında şimşəklər çaxdı və o, özünə gələndə qapını üzünə bağlı görüb elə durduğu yerdəcə axıb sement döşəməyə düşdü…

Gecənin nə vaxtıydısa qapı açıldı — bu dəfə səssiz-səmirsiz açıldı, gələn kim idisə çağırışsız gəlmişdi. Nəzər hələ də döşəmənin üstə uzanmışdı. Ürəyinə, ləyaqətinə dəyən zərbələr elə zərbələr idi ki, onu elə ağrıtmışdı ki, bundan sonra nə olacağı daha qorxulu deyil-

di. Elə ilk gündəcə, elə bu dörd divar arxasındaca adını bilmədiyi o milis onu dirigözlü öldürmüşdü.

Qapı örtüldü. Kimsə barmaqlarının ucunda ona yaxınlaşdı. Yanında çömbəldiyini ondan bildi ki, üzündə isti nəfəs gəzdi. Gələn, çiynindən tutub silkələdi. Nəzər gözlərini açanda başının üstündə saqqallı bir adamın dayandığını gördü, tanıya bilmədi. Saqqallı adam gər, qəzəbli səslə dedi:

— Qalx, Nəzər, qalx, bax mənə!..

Nəzər dikəldi və qarşısındakına fikir verdi.

— Tanımadın?

— …

— Mənəm, Xuduşam, Nəzər.

— Xuduş? — Nəzər doğrudan da heyrətlə içinə çəkdi.

— Hə, Xuduş. Tanıdın məni? Sənnənəm, tanıdın məni?

— Hə… «Bir maşın taxta… məktəb tikintisi. Hə, odu. Xuduşdu. Gör nə günə düşüb?»

— Məni… bu günə sən qoyubsan, Nəzər. Yaxşı ki, tanıdın. Tanımasaydın, sənə əl qaldırmazdım. Onun ləzzəti olmazdı, ürəyimdən tikan çıxmazdı. Nəzər.

— Nə tikan?

— Bax, bu tikan, — deyərək Xuduş iri yumruğunu Nəzərin təpəsinə, qarnına ilişdirməyə başladı. Elə qəzəblə, elə yana-yana döyürdü ki, kişi zərbələrdən heç gözünü açа bilmirdi. Xuduş cavan idi, güclü idi, zərbələri sərrast idi.

Nəzər yalnız:

— Ə, neynirsən? — deyə bildi. Sonra Xuduş o biri əlilə onun ağzını yumdu.

— Öldürəcəyəm səni, köpək oğlu. Qanını içəcəyəm, alçaq.

Vururdu. Nəzər haldan düşəndən sonra, qarnına elə bir təpik ilişdirdi ki, kişi «hıqq» eləyib bayıldı — içini sancı bıçaq kimi doğradı.

— Yox, burada səni hələ öldürmürəm, səni orda — həbsxanada öldürəcəyəm, köpəkoğlu. Onsuz da sən mənim həyatımı pozubsan.

Eşidirdimi, eşitmirdimi? Xuduş üçün bunun fərqi yox idi.

— Ə, ta bəsdi. — Yavaşcadan, pıçıltı ilə deyilmiş bu səsə o, geri qanrıldı. — Gəl bu yana. Baş-gözünü partlatmadın ki? Qan-filan yoxdu ki?

Xuduş kameradan svişib çıxdı.

— Yox, sağ ol, xalanəvəsi. Axır ki, sənin də bir xeyrini gördüm. Hələ indiyəcən mənə heç kəs belə yaxşılıq eləməyib. İndən belə istəyirlər mənə lap on il versinlər, heç vecimə də deyil. Ürəyimi soyutdum.

… Qapı açılanda Nəzər taxtın üstündə oturmuşdu. Qarnını sancı hələ doğrayırdı. Başı bərk ağrıyırdı. Qorxu ilə qapı ağzındakına baxdı. Axşamkı milis deyildi. Xuduş da deyildi. Cavan, tökmə bədənli, qırmızı sifət oğlan Nəzəri görən kimi:

— Nəzər müəllim, bu sizsiz? — heyrət içində soruşdu.

— …

— Ay müəllim, siz hara, bura hara? Heç gözlərimə inana bilmirəm, vallah. Növbətçi bayaq deyir ki, Nəzərdi on doqquzuncu kamerada. Amma heç fikrimə gətirmirəm ki, bu, siz ola bilərsiz…

— …

— Özünüzü pis hiss eləyirsiz? Həkim çağırtdırım?

Nəzər süst, laqeyd halda dedi:

— Sağ ol, ay bala. Heç nə lazım deyil. Ancaq mənə de görüm, bu axşam növbətçi olan milisionerin adı nə idi?

— Qafar. Qafar Qılıcov. Necə məgər?

— Heç elə-belə. Ox… nə isə, başım ağrıyır, bala…

— Bəlkə bir şey lazımdı, ay Nəzər müəllim?

— Heç nə lazım deyil, oğul. Sən, əgər bacarırsansa, bircə yaxşılıq elə mənə… Katibə — Süleyman Həmidova… çatdır ki, mən burdayam. Ya yanıma gəlsin, ya… məni yanına çağırtdırsın.

— Çalışaram, Nəzər müəllim!.. Amma bu nə müsibətdi bilmirəm!

— Ta demə, oğul. Açıb-ağartmalı deyil…

SƏKKİZİNCİ FƏSİL

Süleymanın kefi kök idi. Üz-gözü gülürdü — az qala hər kəslə şən-şən danışır, hətta zarafat da eləyirdi, çünki planın dolması haqqında dünən Bakıya — lap kişinin özünə məlumat vermişdi və ondan çox xoş sözlər eşitmişdi: «Afərin! Bax belə! Sən mənim ümidlərimi doğrultdun! Görünür, səhv eləməmişəm, Süleyman. Sənin gələcəyin haqqında düşünməyinə dəyər! Öhdəliyi də yerinə yetirməlisən, ha!

Birdən arxayınlaşarsan, ha! Onda aramız dəyər, Süleyman! Onda gərək… biletini qoyub, papağını götürüb gedəsən!..»

Bu sözlər Süleyman üçün dünyanın hər mükafatından qiymətli idi. Elə qanadlanmışdı ki, dünən, camaatın əl-ayağı raykomun binasından çəkiləndən sonra, ertədən şərtləşdikləri kimi, Müseyib gilə getmişdi.

Müseyib yaxşı, naz-nemətlə dolu bir məclis təşkil elətdirmiş, səhər saat dördə qalanacan yeyib-içmişdilər. Hələ məclis başlamazdan qabaq, Müseyib Süleymanın qulağına yavaşca pıçıldamışdı:

— Ürəyiniz kimi istəyir, çağıraq! Yeməyimiz-içməyimiz boldur, şükür allaha.

— Heç kəsi. Dostları dəvət elə! Vəssalam!

Müseyib, izahatsız-filansız, icraiyyə komitəsinin sədrini, prokuroru, rayonun sədrini onca dəqiqənin içində tapdırıb gətirtmişdi. Süleymanın şərəfinə tostlar deyilmiş, badələr qaldırılmışdı, günün qəhrəmanı kimi. Orada, o məclisdə hər şeydən danışmışdılar: hətta lətifə söyləyib qarınlarını tuta-tuta gülmüşdülər də. Nəzər isə… heç yada da düşməmişdi. Halbuki, Nəzər onun yolunu, sözünü necə gözləyirdi.

Tapdıq qayınatasını zamına götürmək istəmişdi. Nəzər razı olmamışdı: «Yox, bu ləkəynən mən buradan çıxa bilmərəm. Mən tərtəmizəm, təmiz də çıxmalıyam, bala, burdan! Zamın nədi? Mən neyləmişəm ki?»

Özünü onların yanında sındırıb Xuduş tərəfindən döyüldüyünü dilinə gətirməmişdi. Bədəninin, qabırğalarının, qarnının ağrılarına birtəhər dözə-dözə, arvadına, qızlarına, Qəribə və Tapdığa təskinlik vermişdi.

Üç gün keçəndə başa düşmüşdü ki, kəndirini möhkəm kəsiblər. Qərib, adını çəkmədən Müseyibin məsləhətlərini atasına çatdırmışdı, kişi bilmərrə etiraz eləmişdi: «Sən nə danışırsan, ay oğul? Müstəntiqə pul təklif eləmək — günahını boynuna almaq deməkdir, mən bunu ölsəm də eləmərəm. Nəzər — rüşvət boyun olsun? Yox, yox, əsla!»

— Onda qalassan burada, xilas ola bilməyəssən, dədə!

— Süleyman qoymaz, qoymaz Süleyman!

— Süleyman qaçır dalından, dədə. Ona ümid olma!

— Qaçmaz, Süleyman mərd adamdı, qaçmaz!

İkinci gün olan bu görüşdən və söhbətdən üç gün sonra, yanına

müstəntiq Hilalov gəlib onu hərbə-zorba ilə, təhqir edə-edə dindirməyə başlamışdı.

Hilalov elə birincn gəlişində demişdi:

— Boynuna alassan, Nəzər! Nahaq yerə özünü də, bizi də incitmə!

Lakin Süleyman gəlməmişdi; bəlkə də gələ bilməzdi, katibə yaraşmazdı. Amma, axı onu yanına çağırtdıra bilərdi. Bunu da eləmirdi Süleyman.

Bu gün, rayon fəallarının iclası olmuşdu. Bütün kolxozların sədrlərini, qabaqcıl briqadirləri, manqa başçılarını, təhkimçiləri salona yığıb böyük qələbənin necə əldə edildiyindən, kişinin qələbə raportunu eşidərkən nə cür sevindiyindən həvəslə-şövqlə danışmışdı Süleyman. Və adamların ünvanına yaxşı, ürəyəyatan sözlər demişdi. Fəalların iclası lap bayram iclasına dönmüşdü. Sonra katib, büro üzvlərindən başqa, salondakıların hamısına getmək icazəsi vermişdi:

— Gedin, dincəlin, dostlar! Sizə dincəlmək halaldı. Büro üzvləri isə qalsın!.. Özü də qalxağın mənim kabinetimə. Bəlkə Bakıdan zəng-zad oldu.

Yarım saatdan sonra, kabinetdə hamı yerbəyer olub əyləşəndə, Süleyman Sünbülün gətirdiyi təzədəm çaydan bir qurtum içib boğazını yaşlayaraq:

— Sizi ona görə saxlamışam ki, — dedi, — görək bizim Nəzər müəllimin işini necə həll eliyək! Bir az bundan qabaq arvadı gəlmişdi yanıma… Ağlayırdı…

İcraiyyə komitəsinin sədri İsmayıl başını xoruz kimi qaldırıb:

— Nəzərin məsələsi artıq həll olunub, Süleyman! — dedi və ətrafındakılara baxıb əlavə elədi: — Sənin müəllimindi, bilirik, ancaq elə çirkin adam bizim partiya təşkilatının üzvü ola bilməz, Süleyman!

İsrayılın sözü qətiydi və bu qətiyyəti Süleyman aydın başadüşdü:

— Hə?

— Bəli!

Süleyman döyükdü, çaşıb nə edəcəyini bilmədi. Çönüb prokurora baxdı:

— Sən nə fikirdəsən, Quliyev? — Belə eləməyinə o dəqiqə peşiman oldu Süleyman. Gərək unutmayaydı ki, İsrayılın sözü burda oturanlar üçün qanundu.

— Mən… Mənim fikrim budu ki, rayonun namusunu, izzətini, şərəfini qoruyaq, Süleyman! Baxın, biz bu qədər iş görmüşük, planları yerinə yetirmişik, kişi dünən sizə o cür gözəl sözlər deyib. Biz razı ola bilmərik ki, Nəzər kimi moşenniklər, dildə camaatımıza əxlaq dərsi deyən, əl altda isə ayrı işlər görən adamlar vəzifə başında qalsın, bizim təmiz adımızı ləkələsin! Qətiyyən razı ola bilmərik, Süleyman! — İsrafil bu sözləri deyib eynəyinin şüşələrini cib yaylığı ilə sildi və bunu elə etdi ki, yenə heç kəs onun gözlərinin rəngini görə bilmədi. — Nəzər təcrid olunmalıdı, bir var adi adam belə eləyə, bir də var müəllim eləyə. Şəxsən mən özüm nəzarət eləyirəm bu işə!

— Yəni doğrudan Nəzər rüşvət alıb? Ya… bu uydurmadı, İsrafil? Süleyman çaydan bir qurtum da içib prokurordan xəbər aldı.

— Əlbəttə, alıb, Süleyman! Sən elə bilirsən ki, sənin Nəzər müəllimin o vaxtlar gördüyün Nəzər müəllimdi? Yox, canım?!

— İstintaq aparmısız?

— Əlbəttə.

— Nəticəsi?

— Nəticəsi budu ki, Nəzər — rüşvətxordur. Hilalov danışdırır. İfadə verdi ki, Yunis gəldi mənim yanıma, dedi ki, qonaqlarım var, cibimdə isə pulum yoxdu, mənə yüz əlli manat ver, onları yola salım. Guya Yunis deyib ki, «Yaxşı yol»a aparmaq istəyirəm qonaqlarımı. Yoxlamışıq, dediklərinin biri də düz çıxmır: Həmin gün — yəni noyabrın birində Yunis benzindoldurma stansiyasında olub, «Yaxşı yol» restoranına heç getməyib! Demək, Nəzər yalan deyir. Demək, Yunis işdə olub və restorana da getməyib!

— Hm. — Süleyman mızıldandı.

— Bəli. Süleyman, mən sənin onu nə qədər çox istədiyini bilirəm. Müəllimindi! Amma, gərək məni bağışlayasan. Mən rüşvətxoru heç cür açıb buraxa bilmərəm. Hətta atam olsa da, açıb buraxa bilmərəm! Bir də… özü boynuna alandan sonra… bizim haqqımız yoxdu ki, onu məsuliyyətdən azad eliyək!

— Deyirsən özü boynuna alır?

— Bəs necə!

Süleyman fikrə getdi. Susub büro üzvlərinə baxdı. Heç kəs nə işarə elədi, nə bir söz dedi, ən yaxın hesab elədiyi və demək olar ki, hər gün ya kabinetində, ya da güllü-çiçəkli həyətində dərdləşdiyi, söhbət elədiyi Müseyib də — Nəzərin təzə qohumu da çiyinlərini

çəkdi və işarə ilə: «Özün bilən məsləhətdi!» — söylədi. Araya dərin bir sükut çökdü. Katib danışmadığına görə, kimsə dillənib bir söz demirdi. Amma arada pıçhapıç gəzirdi, kabinetdəki adamlar bir-birinin qulağına nə isə pıçıldayırdı. Süleyman çaşbaş qalmış vəziyyətdə:

— Hər halda mən istəyirəm onu görəm! — söylədi.

Aparatın partiya təşkilat katibi — əlində çəlik olan və rayonda hamının «çolaq Rahib» adlandırdığı kişi, qorxa-qorxa Süleymana baxaraq:

— Süleyman müəllim, biz bu gün onu partiyadan çıxartmaq qərarına gəlmişik, — dedi. — İlkin istintaq materiallarını dəqiq öyrənib bu qərara gəlmişik ki, Nəzər müəllim, həqiqətən cinayətkardı və Yunisdən rüşvət alıb! Ona görə, ilk partiya təşkilatının qərarını biz, raykomun bürosunun müzakirəsinə təqdim eləyirik və Rayon Xalq Nəzarəti Komitəsinin keçmiş sədri, kommunist Nəzər Nəzərlinin partiya sıralarında qalmağını qeyri-qanuni sayaraq, necə deyərlər, bütün məhəbbətimizə və hörmətimizə baxmayaraq…

Süleyman onun sözünü kəsdi:

— Nəzər indi hardadı? — Belə deyib prokurora, milis idarəsi rəisinə baxdı. — Haradadı indi o?

Ağayev ayağa qalxaraq iri qarnını irəli verdi:

— Bizdədi, yoldaş Həmidov.

— Hə? Sizdədi? Göstəriş ver, gətirsinlər bura! Mən onu görmək istəyirəm, Ağayev! Süleyman qətiyyətlə dilləndi.

— Lazım deyil, Süleyman! — Bu sözləri prokuror dedi. — Məsləhət deyil! Mən ölü, siz qalı, onu bura gətirsəz, qanınız tamam qaralacaq.

— Niyə?

— Çünki o, zəhər tuluğudu, Süleyman!

— Siz səhv eləyirsiz İsrafil müəllim! Görünür siz o kişini yaxşı tanımırsız! Tanısaydız, elə deməzdiz. O kişi bizim rayonun ən ağıllı, ən müdrik adamıdı, İsrafil müəllim! — Bayaqdan susub danışmayan Rayon istehsalat idarəsinin rəisi Baba İsgəndərovun gözlənilmədən, birdən-birə dediyi bu sözlər hamını təəccübləndirdi və adamlar çevrilib ona baxdılar. Baba uzun sifət, başının ortasının tükü tökülmüş, yaşı əllini haqlamış bir adam idi. Gəncədə, uzun illər bundan qabaq, Qurbanla bir yerdə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdi, lap əvvəl

briqadir, sonra kolxoz sədri, sonra da İstehsalat idarəsinin rəisi olmuşdu. Bütün rayonda yeganə adam idi ki, hər katibin dövründə öz zəhməti, təmizliyi və qabiliyyəti ilə seçilmiş, sevilmiş və üzdə olmuşdu, hətta «Oktyabr» kolxozunun sədri işlərkən «Lenin ordeni» də almışdı. Və ən maraqlısı bu idi ki, vaxtilə Süleymanın təhsil aldığı Əsgərabad orta məktəbində, o «Qırmızı məktəb»də oxuyarkən Nəzər müəllim ona da dərs demişdi. Nəzər bir çox şagirdləri kimi, Babanı da yadında saxlamamışdı, çünki Baba gözə girən deyildi, təvazökar idi. Nəzər isə onun yadında qalmışdı.

— Bəli, siz tanımırsız onu! Yoxsa… belə deməzdiz! Əgər biz bu gün Nəzər müəllimi, siz deyən kimi, rüşvət almaqda müttəhim ediriksə, onda gərək… — Baba hirsindən sözünü tamamlaya bilmədi, əlini yelləyib susdu.

— Onu gətizdir bura, Ağayev. Neçə vaxtdı elə hey xəbər göndərir ki, mən onu qəbul eləyim, dinləyim.

Ağayev katibin dediyini çevirmədi, çıxılmaz vəziyyətdə qalmış adam kimi, dönüb prokurorun üzünə ani nəzər saldı və qara şüşələrdən heç nə oxuya bilməyib kabinetdən çıxdı.

Bu baxışın nə demək olduğundan xəbərsiz olan İsrayıl bayaqkı amirliklə:

— Qoy gəlsin, qoy Süleyman da öz müəllimini yaxşı tanısın! — söylədi. — Mən görürəm, biz deyəndə o inanmaq istəmir!

Rahib qıçını çəkə-çəkə, çəliyini parket döşəmədə taqqıldata-taqqıldata irəli — Süleymanın qabağına gəldi və əlindəki vərəqləri ona verərək:

— Qərar layihəsidi, yoldaş Həmidov, — dedi. — Tanış olun, bəlkə qeydiniz-zadınız oldu!

Süleyman kağızları ondan alıb:

— Ə, savadsız, sənə neçə dəfə demişəm lahiyə yox, layihə! — söylədi.

— Bağışlayın, yoldaş Həmidov, ta demərəm! — deyərək Rahib qıpqırmızı qızararaq keçib yerində əyləşdi.

Süleyman yazılanları nəzərdən keçirməyə başladı. Oxuduqca qaşları qalxıb-enirdi.

— Bunları sən özün yazmısan, Rahib?

— Bəli, yoldaş Həmidov.

— Adam nə isə inanmaq istəmir ey, Rahib. O savadnan bu sa-

vad düz gəlmir heç!..

— Heylə də savadsız deyil, Süleyman! — Quliyev qabaqcadan oxuyub tanış olduğu qərarı da, Rahibi də müdafiə elədi. — Nədə də olsa, belə sənədlər yazıb tərtib eləməkdə mahirdi Rahib!

— Çox sərtdi! — Süleyman astaca dedi.

— Ondan yumşaq olmaz, yoldaş Həmidov! — Rahib prokurorun sözlərindən bir az ürəkləndi. — Onda ləzzəti olmaz!..

— Sən bunda da ləzzət axtarırsan, Rahib? — deyə Baba ömrü boyu yıxılanın başını kəsməyə hazır olan bir adam kimi tanıdığı Rahibə ikrah hissilə baxdı. Rahib nə isə demək istəyirdi ki, qapı açıldı, qabaqca Ağayev, dalıyca Nəzər və sağında-solunda da iki nəfər milis kabinetə daxil oldular.

Hamının baxışı qeyri-ixtiyari Nəzərə zilləndi. Gur, ağappaq saçlarını qırxmışdılar. Üzü isə tüklüydü — saqqadı düm ağ idi, qaşları kimi. Burda oturanlar heç biri onu indiyəcən belə halda görməmişdi: boz pencəyi, şalvarı əzik-üzük idi. Arıqlamışdı kişi. Bu on günü ancaq su içmişdi və bir də siqaret çəkmişdi. Süleyman öz müəllimini bu kökdə görcək əlləri ilə üzünü qapadı — onun gözlərinə baxa bilmədi. Sarsılmışdımı, utanmışdımı? — təyin etmək çətin idi. Otağı sükut bürümüşdü, heç kəs cınqırını belə çıxartmadan, Ağayevin arxasınca, milislərin müşayiəti altında, qıçını çəkərək irəliləyən Nəzərdən gözünü ayıra bilmirdi.

«Yazıq Nəzər müəllim… Gör səni nə hala salıblar?» — Baba düşündü.

İsrafil ürəyində: «Alçaq. Mən «krupnı» talançıyam, hə? Adamın anasını belə ağladarlar» — dedi. Heç kəs görmədi ki, o qara şüşələr altındakı gözləri sevinc içində necə gülür.

Müseyib: «Hə, nə təhərsən, qohum? Ağıllandın? Yox, sən gedib beş-on il yatmasan, ağlın başına çətin gələr» — dedi özlüyündə. — «Heyif, oğlunun toyunda iştirak eləyə bilməyəssən».

İsrayıl: «Mənə sataşanın, bostanıma daş atanın yurduna su calayaram, ocağını keçirərəm» — dedi qəlbində.

Nəzəri görən kimi əlləri ilə üzünü örtən Süleyman xəyalının qanadlarında otuz-otuz beş il bundan qabağa uçdu bircə anda. Atası İmran kişinin müharibə qurtarandan üç il sonra onu yanına salıb Cürəlidən Əsgərabada gətirməsini, ilk dəfə Nəzəri gördüyü dəqiqələri, aralarındakı söhbəti, onuncunu bitirəndə evlərindəki xudmani qonaqlığı, müəl-

liminin ona verdiyi xeyir-duasını çoxdan gördüyü yuxu kimi xatırladı. Sonra… onu sinifdə gördü Süleyman… Qıçı ağrımasın deyə həmişə stol arxasında oturar, ya da ayaq üstə, bir yerdə dayanıb danışardı Nəzər. Sonra, haçansa, hə, gərək ki, Moskvada təhsil alarkən müəlliminin necə böyük məhəbbətlə, dərin iftixar hissilə ona yazdığı o isti, kövrək məktub… yadına düşdü. Sonra… otuz il keçəndən sonra… bax o köşkdəki ilk görüş… gözü önündə canlandı.

Bir igidin ömrünə bərabər bu illərdə Nəzər müəllimlə bağlı nə xatirə vardısa, hamısı, hamısı kino lenti kimi zehninin, xəyalının güzgüsündə kəsik-kəsik görünüb yox oldu…

— Yoldaş Həmidov, müttəhim gətirilmişdir. — Ağayev az qala hamının ürəyini çəkən bu cansıxıcı sükutu pozub dağıtmaq üçün belə deyəndə, Süleyman əllərini üzündən çəkdi və qorxaq, cəsarətsiz, bəlkə də xəcalətli baxışlarını Nəzər müəllimin üzündə, üstbaşında gəzdirdi. Nəzər ona baxırdı — qonur gözlərində kinmi idi, qəzəbmi idi, nifrətmi idi, — Süleyman ayırd eləyə bilmədi. O, dilsiz, amma əslində çox şeylər söyləyən o baxışlara dözməyib Nəzərin sağında, solunda dayanan milislərə üz tutaraq:

— Siz çöldə gözləyin, — dedi. — Qorxmayın. Nəzər müəllim heç yerə qaçan deyil.

Nəzər Süleymanın səsini eşidirdi, ancaq nə dediyini dərk eləyə bilmirdi, key kimi eləcə donub qalmışdı. Bircə onu hiss eləyirdi ki, bu səs otuz-otuz beş il qabaq o «Qırmızı məktəb»də, o kəllayı sinif otağında, parta arxasında əyləşib əlini çənəsinə dayayan o sısqa, sarışın oğlanın nazik boğazından çıxan səsə oxşamır; o səs titrək idi, qorxaq idi, ancaq bu səsdə bir qətiyyət vardı, hökm vardı.

Nəzər kabinetdə oturanlara gözucu baxdı; hamısını tanıyırdı və hər birinin ayrı-ayrılıqda əməllərindən xəbərdardı. Bunların içində… tək bircə nəfər vardı ki, Nəzər onun təmizliyinə and içə bilərdi: — Baba İsgəndərov. Qalanların hərəsinin, necə deyərlər, bir quyruğu vardı. Bir də… Süleyman idi… Ondan da son vaxtlar şübhəliydi Nəzər. Deyəsən o da… «haqqın yolu»nu tapmışdı. Əgər elə olmasaydı, Süleyman dürüst tanıdığı, bildiyi, pəstahalarından məlumatı olan bu adamları başına yığıb beləcə oturmazdı, bir iş görərdi — cəzalandırardı, tutdurardı. Yoxsa buna nə ad vermək olardı ki, indi oğrular doğruların taleyini həll eləyirdi? Yox, hissiyyatı, ürəyi Nəzəri heç vaxt aldatmayıb…

İncimişdi Süleymandan. Öz şagirdindən, vaxtilə çox istədiyi,

uğurlarına sevinib güvəndiyi Süleymandan çox incimişdi. Ürəyi doluydu Nəzərin… Elə doluydu ki… Ancaq hələ susurdu.

Milislər, söz katibin ağzından çıxan kimi, dabanları üstə fırlanıb qapı ağzında görünməz olduqda Süleyman asta, kədərli bir səslə:

— Axşamın xeyir, Nəzər müəllim, — söylədi.

— …

— Əyləş, Nəzər müəllim.

— …

Susmağı öldürücü idi. Bu sükut Süleymanı çaşdırdı. Ancaq elə bu zaman Nəzərin səsi eşidildi:

— Süleyman, ayın birindən mənim dünyadan xəbərim yoxdu, əgər mənə — öz qoca müəlliminə zərrəcə hörmətin qalıbsa, düzünü de — şura hökumətini yıxıblar? — Nəzərin sualı o qədər gözlənilməz və sərt idi ki, oturanlar, elə Süleymanın özü də eşitdiyinə inanmadı. Süleyman gözlərini döydü.

Nəzər daha qətiyyətlə:

— Yox, düzünü de, şura hökumətini yıxıblar? — deyə təzədən xəbər aldı.

Sual aydın idi. Süleyman, o, sözlərini ikinci dəfə təkrar eləyəndə başa düşdü ki, elə birinci dəfə də belə demişdi. Və Süleyman da eynən o cür də eşitmişdi. Çaşqın halda gülümsündü:

— Nə danışırsan, Nəzər müəllim? Şura hökumətini kim yıxa bilər? Denikinlər, Kolçaklar yıxa bilmədi, faşistlər yıxa bilmədi…

— Düzdü, onlar yıxa bilmədi. Amma bax bunlar, — o, əlilə oturanları göstərdi, — bax, siz yıxarsız, Süleyman. Bəlkə də yıxıbsız artıq. Əgər yıxmayıbsızsa, bəs bu nədi, Süleyman? — deyərək o, birdən çılğın bir hərəkətlə əl atıb pencəyinin altındakı ağ köynəyinin yaxasını cırdı və gömgöy bədənini, sinəsini, qabırğalarını ona göstərdi. — Bəs nədi bunlar? — Əyilib şalvarının balaqlarını çırmaladı, qara-qançır qıçlarını göstərdi. — Bəs nədi bunlar, Süleyman? Sizi ədalətiniz belə zəfər çalır? Şura hökumətinin hansı qanununda belə yazılıb, Süleyman?

Oturanlar, o cümlədən Süleyman indi başa düşdü ki, Ağayev, Quliyev nə üçün Nəzərin bura gətirilməsini istəmirmişlər.

Süleymanın gözləri böyüdü:

— Kim eləyib bunu belə?

— Bax, bunlar, — o, prokurora tərəf əl uzatdı. — Bu faşistlər,

Süleyman.

— Bu nə biabırçılıqdı? — Katib, Quliyevdən soruşdu. — Sizə kim icazə verib?

— Mənim xəbərim yoxdu. — Eynəkli adam çiyinlərini çəkdi.

— Bu, ən azı vəhşilikdi. — Baba belə deyib gözlərini yumdu, baxa bilmədi.

— Bil və agah ol, Süleyman, mən rüşvət almamışam, almamışam, inan, almamışam.

— Özün etiraf edibsən, Nəzərli. — Prokuror sərtliklə söylədi.

— Hə, etiraf etmişəm. Sənin o Hilalovun mənə o qədər əzab verib, o qədər döyüb, öldürüb, təzədən dirildib ki, məcbur olub qol qoymuşam. Gördüm, açıq-aşkar öldürür. Qol qoydum… Amma almamışam. Mən rüşvət almamışam. Bax sən almısan, bax, sən də almısan, sən də, sən də… — deyə o, prokurora, icrakoma, Ağayevə və s. tərəf barmağını uzatdı. — Lap elə sən də almısan, Süleyman. Sən də almısan. Sən də… — deyə o, əsəbiliklə Babaya sarı dönəndə birdən dayandı. — Yox, sən almamısan, sən almamısan! Bunların içində bircə sən təmizsən, Baba! Qalan hamınız almısız! Almısız!

— Bu bizi təhqir eləyir, Süleyman. — İcrakom səsini ucaltdı. — Səni təhqir eləyir. Belə olmaz.

Süleyman tutulmuşdu, əlindəki qələmi stolun üstə yavaşca vura-vura müəlliminə baxırdı: «Kişi başını itirib deyəsən… Məni də bunlara qatır».

Prokuror yerində qurcuxub:

— Sən hələ saxtakarlıq da eləmisən. Atanın zəhmətkeşlərin qanını içən Canəli bəyə qoşulub xaricə qaçdığını tərcümeyi-halında, sənədlərində gizlətmisən, bununla da uzun illər partiyanı aldatmısan. Biz də gör nə qədər vaxt maymaqlıq göstərib balalarımızın, cavan nəslin tərbiyəsini sənin kimi siyasi cəhətdən ləkəli və şübhəli adama etibar eləmişik, — söylədi və Nəzərin bu gözlənilməz ittihamdan donub qaldığını görərək axırıncı zərbəsini vurdu: — Atan Kərim Türkiyədədi, İrandadı? Hə? Niyə cavab vermirsən? Heç əlaqə saxlayırsan?

— …

— Satqının oğlu bundan artıq olmaz.

Nəzər yazıqlaşdı, büzüşüb balacalaşdı. Öldüyü, qaldığı, qaçdığı bilinməyən, yeganə övladının üzünü belə görməyən Kərimin namə-

lum taleyinin zərbəsi, düz altmış iki ildən sonra, indi, burada heç gözlənilmədən, fırtınaya düşmüş Nəzərin başından elə dəydi ki, gözlərində od parladı, səmtini, müvazinətini itirdi. Anasının — Səlminaz alvadın o zaman, Kərim haqda — əri haqda dediyi sözlər qulaqlarında səsləndi: «Gözləmə onun yolunu, bala. O, yaxşı adam deyilmiş… Pis adam olmasaydı, məni, hələ dünyaya gəlməmiş səni — qız ya oğlan olduğunu bilmədən, üzünü görmədən… qoyub getməzdi, oğul…»

— Mən… atamın heç üzünü də görməmişəm…

Prokuror rişxəndlə:

— Bu, daha pis. — deyib güldü. — «Atasından xəbərsiz».

— …

Süleyman Quliyevə baxıb narazılıqla başını yellədi.

Bu zaman Rahib yerindən qalxaraq:

— Nəzər Nəzərli, — dedi, — partiya təşkilatının yekdil qərarına əsasən, sən keçmişini gizlədiyinə və kommunistə yaraşmayan nalayiq hərəkətlərinə görə partiya sıralarından çıxarılırsan!

— Nə?

— Bəli, çıxarılırsan partiya sıralarından. Xahiş edirəm, partbiletini stolun üstə qoyasan.

— Yox, onu eləyə bilməyəcəyəm, Süleyman, — deyə o, Rahibə yox, katibə müraciət elədi, — mən o bileti sizə verə bilmərəm. Sizin əlləriniz təmiz deyil. Mənim biletim müqəddəsdi. Mən onu odun-alovun içində, səngərdə almışam, Süleyman. Onu sizə verə bilmərəm.

— Sənin deməyinlə deyil ki? — Rahib söylədi. — Qərar var.

— Sən nahaq artistlik eləyirsən, Nəzər. Bura sənin üçün teatr deyil. — İcrakom əsəbiləşdi. Və sonra üzünü Süleymana tutdu:

— Səsə qoy.

Süleyman… İsrayılın gözlərində parlayan qəzəbi görərək çarəsiz-çarəsiz, yavaşcadan dilləndi:

— Kim bu qərarla razıdısa, əlini qaldırsın. — Nəzər Süleymana nifrətlə baxdı və dönüb oturanlara ötəri nəzər saldı. Əllər qalxmışdı… Süleyman da əllərə baxıb öz əlini qaldırdı.

— On nəfər… Kim əleyhinədi? Hə, sən, Baba?

— Bəli, mən, yoldaş Həmidov. Mən qətiyyən bu qərarla razı deyiləm və onu yanlış, əsassız və ədalətsiz hesab eləyirəm. Nəzər

müəllim kimi kommunisti… — Babanı qəhər boğdu və daha danışa bilmədi.

Araya sükut çökdü. Nəzərin gözləri alacalanıb doluxsundu. Bir addım irəli gəlib Süleymanın qənşərində dayandı və:

— Heyif səndən, Süleyman, — dedi. — Bunlar səni də yedilər, səni də uddular. Heyif. Rəhmətlik İmran — sənin atan o vaxt deyirdi: «öz ata-anasının, doğma ocağının qədrini bilməyən el-obanın qədrini bilməz, Nəzər». Rəhmətlik deyirdi: «Bu boyda rayonun, bu qədər camaatın taleyini nahaq tapşırdılar Süleymana». Düz deyirmiş kişi. Mən inanmaq istəmirdim onda, amma… indi inandım…

Süleymanın rəngi ağardı və dodaqları titrədi. Daha dözməyib Quliyevə, Ağayevə müraciətlə:

— Bu qocanın doğrudan da başı xarab olub!!.. — söylədi. — Nə danışdığını bilmir daha. Basın getsin. Eşidirsiz? Basın getsin. Orda ağlı gələr başına.

Dedi və ayağa qalxdı. Tələsik bir siqaret yandırdı.

Nəzər ona uzun sükut içində baxdı, baxdı, handan-hana:

— Nə olar, eybi yoxdu, — dedi. — Onu bil ki, haqq incələr, amma üzülməz, Süleyman. Haqqın çırpınan qəlbini nahaq həmişə didib, parçalayıb, yemək istəyib, ancaq yeyə bilməyib, heç vaxt yeyə bilməyib. — Sonra çevrilib Babaya sarı addımladı. Hamının gözü onda idi. Kabinetdə milçək uçsaydı səst eşidilərdi. Babanın qənşərində dayandı, tələsik bir hərəkətlə sağ əlini pencəyinin sol qoltuq cibinə salaraq partiya biletini çıxartdı, son dəfə vidalaşırmış kimi gözünün qabağına tutaraq baxdı, baxdı. Yerindən tərpənməyə taqəti olmayan Baba altdan-yuxarı sarsıntıdan, həyəcandan, on gün dörd divar arasında çəkdiyi əzablardan tamam qocalıb arıqlamış və əlləri tufan qabağında titrəyən kimi əsən qoca müəlliminə baxdıqda o:

— Bu bileti sənə tapşırıram, oğul. Başqa heç kəsə verə bilmərəm — söylədi. — Onların — sol əlini oturanlara tərəf uzatdı, — natəmiz əli mənim bu təmiz, qan tökə-tökə, od-alov içində aldığım biletimə toxunsa, bağrım çatlar, inan, Baba, bağlım çatlayar. — Və partbileti həyəcanlanmış Babanın ovcuna qoydu. Baba heç özü də bilmədi ki, haçan ayağa qalxdı, bileti əlində tutduğu halda Nəzəri qucaqlayıb sinəsinə çəkdi, sonra ondan azca aralanıb kövrək bir səslə:

— Darıxma, Nəzər müəllim, darıxma, — dedi.

Nəzər Süleymana sarı döndü və onun ağarmış sifətinə ötəri baxıb:

— Mən… indi öz dərdimi yox, bunun dərdini çəkirəm ki, mənim qəzavü-qədərimi eşidəndən sonra bu rayonda daha heç kəs darda qalan heç kəsə əl tutmayacaq, yaxşılıq eləməyəcək, Süleyman. Siz yaxşılığı, təmizliyi öldürdüz, Süleyman, yerində isə biganəlik toxumu əkdiz, — dedi və qonur gözlərindən axan, ağ saqqalını isladan göz yaşını əlinin arxasıyla silərək kəskin bir hərəkətlə geri döndü.

DÖRDÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Xoşbəxtlər üçün zaman hiss olunmadan ötüb keçir, bədbəxtlər üçün isə… Bədbəxtlərin saatının əqrəbinin ucundan sanki ağır daş asılır, dəqiqələr saatlar, saatlar günlərə, günlər aylara, aylar illərə dönüncə yaddaşın az qala bağrı çatlayır, ürəyi çərləyir, həvəslər daralır, hətta ömür də yanıb-yanıb qurtarır bəzən.

Nəzər bu gün altı il idi ki, burada-həbsxanadaydı və ona elə gəlirdi ki, altımış ildir buradadı, elə burada anadan olub, burada böyüyüb, burada qocalıb. Bu altı ildən o yana heç nə olmayıb-nə anası Səlminaz arvad olub, nə komsomol keçib, nə Əfzəl Əliyevlə qaçaq tutmağa gedib, nə universitetdə oxuyub, nə müharibədə olub; Bəlkə də xanım da olmayıb, uşaqları da olmayıb. Heç nə olmayıb. Yox imiş heç nə. Bütün bunları yuxuda görürmüş yəqin, yaxud xəyalında yaradıbmış…

O zaman Bikə xanımın Tapdığın Bakıya üç dəfə, Moskvaya iki dəfə gedib gəlməsinə, Baba İskəndərovun, Zakirənin səlahiyyətli orqanlara məktubla, teleqramla müraciət eləməsinə, Ali məhkəməsinin işi iki dəfə təzədən baxılmaq üçün geri qaytarmasına baxmayaraq, Nəzərə, necə diyərlər, çığırda-çığırda səkkiz il həbs cəzası kəsmişdilər: çünki Yunis Bayramov sözündən-böhtanından əl çəkməmiş, müstəntiq Hilalov istintaqın nəticəsinin üstündə möhkəmcə dayanıb, prokuror Quliyev tələbindən dönməmişdi. Ona görə ki, bu yoldan geri dönmək olmazdı, tüpürüləni yalamaq olardı. Əgər dönsəydilər, onda gərək bu adamları özləri gedəydilər. O biri tərəfdən onda gərək İcrakomun - əslində bütün rayonun böyüyü-ağası sayılan İsrayılın qəzəbinə düçar olaydılar, ondan sonra isə katiblə - Süleymanla üzgöz olaydılar. Çünki Nəzər orada, kabinetdə onların hamısının gözünün içinə çox ağır ittihamlar irəli sürmüşdü, təhqir» eləmişdi.Belə şeylər isə bağışlamaq onların qanun kitabında yazılmamışdı. Bu işdə birinci katibin tutduğu mövqe hamıdan çox Babanı çaşbaş salmışdı. Süleymanın yaxşı tanıdığı və nə yuvanın quşu olduğunu gözəl bildiyi o adamların-Müseyibin, İsrayılın, Ağayevin tərəfinə keçdiyini və onların dediyini söylədiyini görəndə Baba əvvəlcə qulaqlarına və gözlərinə inanmamışdı, diqqətlə söz-söhbətin gedişinə bir də fikir vermişdi. Yox, yanılmırdı. Süleyman hətta əl qaldıranda da İcra-

koma baxmışdı, onun dalıyca, qətiyyətsiz olsa da, əlini qaldırmışdı. «Öz müəlliminin məhvinə, ləkələnməsinə fərman verən, qol qoyan namərd şagird!» Bu, Babanı yaman sarsıtmışdı və elə o andaca da yerindən qalxıb bu qərarın əleyhinə çıxmışdı. Amma gözünə döndüyüm Nəzər də sözünü demişdi. Yaxşı demişdi. «Nəzər kimi təmiz və peyğəmbər adam – rüşvətxor? Niyə? Niyə axı? Kim eləyir bunu? Özümüz. Bəli, özümüz.» - Baba uzun müddət bu suallar əlində çırpınmışdı.

Səkkiz ay davam edən çək-çevirdən, haqla-nahaqqın qılınc-qalxanla döyüşündən, nəhayət, arxası güclü nahaqq haqqın dizlərini günün günorta çağı, hamının gözünün qabağında yerə qoyandan sonra Nəzərə səkkiz il iş kəsiləndə, məhkəmənin qərarı ilə onun şəxsi əmlakı da müsadirə olunmuşdu. Həm qəribə idi və həm də ağlamalı idi ki, müəllimin «şəxsi əmlakını» aparmağa gələnlər onun evindən ancaq iki maşın kitab apara bilmişdilər, vəssalam. İllərlə, lap cavanlıq çağlarından yığmağa başladığı o kitabların aparıldığını eşidəndə Nəzərin az qala ürəyi dayanmışdı. Çünki ona gün kimi aydın idi ki, o özü haçansa, ömür vəfa eləsə, həbsxanadan qayıdıb gəlsə də, o kitablar bir də geri qayıtmayacaq. Kişi yana-yana düşünmüşdü ki, onun kimi ziyalının qədrini bilməyən bir rayonda o kitabların qədir-qiymətini bilən adamlar çətin ki, tapılsın.

Məhkəmə salonu adamla doluydu o gün. Eşidən, bilən gəlmişdi. Qohum-əqrəba qabaq cərgədə oturmuşdu. Bikə yas yerinə gələn adam kimi, qara örpək bağlamışdı.Güldanə də, Güllü də qara paltar geyminmişdi. Nəzər müttəhimlər kürsüsündə oturub büzüşmüşdü, başını qaldırıb heç kəsin üzünə baxmırdı, prokurorun, məhkəmənin, şahidin-bir sözlə, çıxış edənlərin nə dediklərini də sanki eşitmirdi. Elə bil, onu yox, ayrısını mühakimə eləyirdilər. Keyləşmişdi sanki. Düşünə də bilmirdi elə bil. Üç saatdan artıq çəkən içlasın sonunda, hakimin çox qəliz hüquqi dildə dörd-beş dəqiqəlik nitqindən ancaq səksən il həbs cəzasına məhkum edilsin –sözlərini başa düşən Bikə Yooxx. – deyib qıyyə çəkəndə bütün zaldakılar səksənmiş və Nəzər özü də yalnız bu zaman qanrılıb arvadına gözucu baxaraq sarsılmışdı. Hakim səs-küy qaldıranları nizam-intizama dəvət eləyəndən sonra üzünü Nəzərə tutub:

– Vətəndaş müttəhim, son sözünüz, xahişiniz varmı?-dedikdə o, ayaqa qalxaraq sakit, kədər dolu bir səslə:

– Mənim günahım yoxdur, - demiş və oturmuşdu.

Sonra onu milis işçiləri qabağına qatıb aparanda arvadı, qızları, kürəkəni və oğlu dalıycan qapıya sarı addımlamış, ancaq çata bilməmişdir heç biri. Bikə ağlaya-ağlaya:

– Nəzər, bizi qoyub hara gedirsən? - deyirdi, qızları isə:

– Ata-ata diyə fəryad qopardırdı. Qərib donmuşdu, yerində Tapdığın gözləri yaşarmışdı. Zakirə hıçqırırdı. Müsibət o qədər böyük idi ki, Bikə, əlləri Nəzərin dalınca uzalı olduğu halda, elə o uzun və alaqaranlıq dəhlizində bayılıb özündən getmişdi, gedən yaddan çıxmışdı, qalxanın-yıxılanın başına yığışmışdılar.

İKİNCİ FƏSİL

Nəzər altı il idi ki, burada – bu ağzıbirdəydi və bu altı ildə beş il universitetdə, altımış iki il o azad dünyada yaşaya-yaşaya öyrəndiklərindən, götürdüklərindən qat-qat çox şey görüb öyrənmişdir. Sən demə, o, heç nə bilmirmiş, dünya deyilən, bir gözü ağlayan, bir gözü gülən bu qəribə aləmi tanımırmış. Sən demə arvadı Bikə, oğlu Qərib: Sən kitablarla yaşayırsan, kişi həyat kitablarında yazılan, göstərilən kimi deyil, kişi! – deyəndə haqlıymışlar. Bir ömür özümü də, dərs dediyim o uşaqları da aldatmışam. Bu dünyanı olduğu kimi onlara tanıtdıra bilməmişəm. Hardan tanıtdıra bilərdim ki, heç özüm onu yaxşı tanımırmışam. Ədalətdən, insafdan, təmizlikdən, vicdandan, namusdan danışmışam ömrüm boyu, yeni insan tərbiyə eləməyə çalışmışam ömrüm boyu. Zülm, haqsızlıq, zorakılıq, ədalətsizlik, ağaqul qaldı iyirminci ildən o yana.» – demişəm, özüm inanmışam buna, başqalarını da inandırmağa çalışmışam. «Dünyanın ən ideal, ən təmiz cəmiyyətidi, sovet adamı isə dünyanın ən kamil insanıdı.» - demişəm və bu fikri başqalarına da aşılamaq üçün nə az, nə çox, düz qırx il boğaz yırtmışam, aman allah! Məgər Mikayıl, Şakir, Müseyib, İsrayıl, İsrafil, Ağayev, Süleyman, Xuduş, Hilalov və bax, bu hündür hasarlı həbsxanada oturanların çoxu mən bədbəxtin xəyalında yaratdığı, təsəvvüründə canlandırdığı, təbliğ elədiyi «Sovet adamı»dı?

Bura – həbsxana o uca hasarın o üzündəki böyük və rəngarəng dünyanın daha maraqsız, daha çirkin və daha dəhşətli kiçik bir nümunəsi idi. Orada, heç olmasa bir gözəllik vardı, sevinc də olurdu hərdən-birdən, sən sərbəst idin, hara istəyirdin, kimin yanına istəyirdin, gedə bilərdin. Ancaq burada…Yox, burda nə sevinc var, nə

sərbəstlik var, ola da bilməz olmamalıdır da. Bura düşənləri daha adam hesab eləmirlər, onlara adam olduqlarını unutdurmağa çalışırlar. Bu dörd divar arasında olan beş il, on il ömür sürməyə məcbur olanlar, burdan çıxandan sonra adam kimi yaşaya bilmirlər, tərcümeyi-hallarındakı, alınlarındakı ləkə, damğa onların tək özlərini yox, nəslini də oğul-uşağını gözü kölgəli eləyir, azad, sərbəst yaşamağa qoymur. Yəqin helə buna görədir ki. Bir çoxu o azad dünyada yaşaya bilmədiyindən təzədən qayıdıb o dörd divar arasına düşür. Bu altı ildə Nəzər neçə beləsini öz gözləri ilə görmüşdü və ürəyi ağrımışdı. Nəzər bunu da başa düşmürdü ki, o azad dünyada olduğu kimi, burada da pullular, qoluzorlular, zəiflər,pulsuzlar, vicdanlılar, vicdansızlar var. Qumar əxlaqsızlıq, morfi… hər şey var, hər şey… Nəzəri bu, hər şeydən çox təcübləndirirdi ki, orda adamlar rüşvət aldığına görə tuturlar, ora göndərirlər. Deməli, rüşvət pisdi. Amma burada da Nəzər rüşvətin ayaq tutub yeridiyini görəndə yer ayağının altından qaçırdı. Qapıçı rüşvət alır, nəzarətçi rüşvət alır. Pulun varsa, səni ağır işə göndərmirlər. Pulun varsa, sənə ayrıca otaq ayırırlar, rəngli televizor verirlər, arvadın gəlib yanında qala bilər. Pulun, adamın yoxsa, ümumi barakda, otuz-qırx adamın arasında, çirkin, üfunətin içində yaşa! Yaşa görüm necə yaşayırsan! Eşitmişdi ki, həbsxanaların, məhbusların özlərini xüsusi, yazılmamış qanunları var, amma inanmamışdı. İndi inanırdı.Buna elə o vaxt, altı il bundan qabaq, qarlı bir qış günü, şər qarışan vaxtı gətiriləndən az sonra, yekəpər nəzarətçi onu qabağına qatıb iyirmi birinci baraka salandan bir saat keçməmiş inanmışdır Nəzər.

Bakıda adam çox idi: otağın ortasındakı balaca stolun ətrafında beş-altı nəfər əyləşmişdi. Tavandan asılmış otuzluq lampanın işığı zəif idi, bu işiğa qəzet belə oxumaq olmazdı. Üstəlik, o qədər siqar da çəkmişdilər ki, demək olar içəridə heç nə görmək olmurdu: elə bil duman idi, tüstü idi.Nəzərin ilk növbədə gözü bunu aldı ki, stol arxasında oturanlar kart oynayırlar. Nəzarətçini görən kimi, əllərilə kartların üstünü örtməyə çalışdılar. Ancaq yekəpər nəzarətçi görmüşdü. Əlini bığına çəkib qımışdı və yuxarı başda, damağında çubuq olan çal saçlı kişiyə başı ilə işarə elədi:

– Deyəsən əlin gətirib, hə? Görürəm, kefin kökdü, Cuma.

– Əlimin ixtiyarı nədi gətirməsin, nəçənnik! Başın haqqı, özüm kötüyün üstünə qoyaram, baltaynan çappalayıb ataram o yana. Bax, belə. – deyə Cuma adlanan çalsaç sol əlini yuxarı qaldırıb sağ əlinin üstünə balta kimi endirdi, sonra onun böyründə dayanmış Nəzərə

altdan yuxarı zəhmli bir baxış fırlatdı:

– Nədi, təzə adam gətirmisən?

– Hə.

– Nəçidi?

– Deyir müəlliməm.

– Əh, sən də adam tapıb gətiribsən də.

Nəçənnik, müəllim özü nədi ki, nəyidə ola? Harda lat-lüt var, bura ötürürsən, yağlılarını isə o yana, Dadaşın yanına!

– Bu gecəlik qalsın burda, görək səhər rəis hara göndərir, Cuma. Sonra nəzarətçi irəli gəlib stolun üstdəki pullara baxıb, ac adam kimi udqundu. Bu, Cumanın gözündən qacmadı, bir iyirmi-beşlik götürüb ona uzatdı. Kişi pulu alan tək tələsik:

– Çox sağ ol. - deyib barakdan çıxdı.

Nəzər istədi onun dalınca qayıdıb çıxsın, ancaq o, qapını bağladı və getdi. Nəzər yerindəcə donub qaldı. Handan-hana gözü bu tüstü dumana alışdı, otağa fikir verdi. Neçə adam divar dibində, döşəmənin üzərinə uzanıb yatmışdı. Neçəsi isə kürəyini divara söykəyib oturmuşdu. Qapı ağzında yanakı uzanmış arıq, saqqallı kişi, alltan yuxarı Nəzərə baxıb:

– A, müəllim, niyə ayaq üstə durubsan, ürəyin istəyən yerdə otursana. Yoxsa təklif gözləyirsən? – söylədi

– Çox sağ ol. – deyəndə onu sürəkli bir öskürək tutdu. Nə qədər elədi saxlaya bilmədi öskürəyini: elə bil, sinəsinə acı tüstü doldurmuşdular. Gözləri yaşardı.

Bu zaman Cumanın səsi eşidildi:

– Ə, müəllim, çuxotkasan sən?

– Yooxx. – deyə Nəzər nəfəsini dərib gözlərinin yaşını silə-silə cavab verdi. Səsindəki yazığlığı özü də hiss eləyib sıxıldı, büzüşdü. Əlindəki torbası sürüşüb yerə düşdü. Uzanmış kişi əl atıb torbanı üstdən yoxladı: Nəzər o saat hiss elədi ki, yemək axtarır.

– Heç nə yoxdu. – dedi. Uzanmış adam azca kənara çəkilib böyründə ona yer verdi: Nəzər bu sözsüz təklifi başa düşüb çömbəltmə oturdu. Havası çatmırdı, boğulurdu. Köynəyinin yaxasını açdı. Yox, faydası yox idi: nəfəsi tıncıxırdı. Canının hayında ikən Cumanın amiranə səsini eşitdi:

– Ə, məəllim, nə qədər pulun var?

– …

– Sənnənəm ey. Eşitmirsən?

Nəzərin şalvarının dal cibində iki yüz manatı var idi: yatıb

qalxanda Tapdıq ovcuna basmışdı, «Lazım olar» - demişdi.

– Ə, Maşalla, bu məəllim deyəsən kardı. Dur, onun o şalvarının dal cibindəki o pulları çıxart, gətir bura! – deyə Cuma divar dibində mürgü vuran adama sarı baxdı. O, ayağa qalxanda Nəzər gördü ki, ucaboy, şaqqalı, gözləri cin gözü kimi qaynayan bir adamdı. Ağır addımlarla ona tərəf gələndə uzanmış arıq kişi yavaşca pıçıldadı:

– Nəyin varsa, ver. Əgər döyülmək istəmirsənsə…

Maşalla deyilən adam ona çatıb heç nə demədən qolundan tutaraq qaldırdı. Cuma deyən kimi, əlini Nəzərin şalvarının dal cibinə salıb bükülü səkkiz iyirmi beşliyi çıxartdı, pullara baxıb qımışdı, təzədən çiynindən basıb oturtdu və geri dönüb əlindəkini Cumanın qabağına qoydu. Cuma kartları yerə atıb pulu saydı, əlini bığına çəkib qımışdı və üzünü Nəzərə tutub:

– Hm. Pis döyül, məəllim. Sənin maaşını kəsdim: hər ay bu qədər verəcəksən. Başa düşdün? Ya təkrar eləyim?

– …

– Ə, Maşalla, deyəsən o məəllim başa düşmədi. Onu başa sal.

Uzanmış adam tez pıçıldadı:

– Denən başa düşdüm. Yoxsa o döyəcək səni…

– Başa düşdüm – dedi tələsik Nəzər. Çünki döyülməkdən qorxurdu. Ömründə ilk dəfə Nəzəri Xuduş döymüşdü – həyatı boyu kimsəyə, hətta ən cığal, ipə-sapa yatmayan şagirdinə belə bir çırtma vurmağa əli qalxmamış Nəzərin ürəyindən elə o gecə – rayon milisinin saxlama otağında dünyanın əşrəfi sayılan insanın eyni zamanda necə də qəddar və hələ yetkinləşməyən bir varlıq olduğu fikri keçmişdi. Ancaq o, bu bəd və naqis düşüncəni özündən, içindən kənara qovmağa, unutmağa çalışdığı günlərdə – onu danışdırmağa apartdırmış müstəntiq Hilalovun da eynən Xuduş kimi hərəkət etdiyini - onu, o təmiz, o günahsız, o qəlbi insaf və ədalət hissiylə dolu olan adamı döydüyünü, təmkinlə, səbirlə danışmaq əvəzinə, əliylə, təpiyiylə vura-vura zorla protokola qol çəkdirməyə çalışdığını görəndə həmin məşum və sarsıdıcı fikir yenidən beynində, ürəyində yurd salıb qalmışdı. Hilalov sonrakı istintaqlarda Nəzəri o qədər vəhşicəsinə döymüşdü ki, onun gəldiyini hiss eləyəndə, addım səsi eşidəndə yazıq kişi şaxta altında qalmış üryan adam kimi əsirdi, hətta lap axıra yaxın o boyda kişi özünü taxta çarpayının altına təpirdi. İndi, böyründə uzanmış adam-hər kim idisə xeyirxah insan idi - astaca: «Denən başa düşdüm. Yoxsa döyəcəklər səni» - deyəndə, neçə vaxt bundan qabaq Xuduşun və Hilalovun onun başına, qarnına,

qabırğalarına rəhimsizcəsinə endirdiyi o bihuşedici ağır zərbələrin ağrılarını vücudunda təzədən hiss eləyib təzədən əsməyə başlayan Nəzər dərhal, demək olar ki, heç nə düşünmədən cavab verdi:

– Başa düşdüm. – Belə dedi, ancaq bunun nə demək olduğunu yaxşı dərk eləmədi. Maşalla da bu sözləri eşidib durmağa deyəsən ərindi və beləliklə Nəzər döyülməkdən xilas oldu o gecə. Qapının ağzında çönbəltmə oturmuş Nəzər buna çox sevinirdi, onu başa salan kişiyə minnətdarlıqla baxırdı, xoş söz demək istəyirdi, lakin heç nə tapıb deyə bilmirdi. Qatmaqarışıq, çalpaşıq fikirində birçə bu dolanırdı ki, Cuma onun dal cibində pul olduğunu axı hardan bilirdi? Beynində bayaqdan elə hey bu sual dolanırdı, ancaq cavab tapa bilmirdi. Axırı bu qərara gəldi ki, bu, tamamilə təsadüfi bir şey idi və onun üstündə baş sındırmağa dəyməz.

… Nəzər elə qapının ağzında, kürəyini divara söykəyib yatmışdı. Əslində, buna yatmaq demək olmazdı, sadəcə gözlərini yummuşdu və talehi barədə düşünürdü. Səhərə az qalırdı. Dustaqlar uyumuşdu - hər kəs öz yerində rahatlanmışdı. İşığıda söndürmüşdülər. Yeganə çarpayıda Cuma xorna çəkirdi. Tüstüdən, üfunətdən nəfəs almaq mümkün deyildi, ancaq qəribə idi ki, o adamların heç vecinə gəlmirdi. Görünür, adət eləmişdilər.

Kimsə pıçıltı ilə adını çəkəndə o hərasan gözlərini açdı: o, adını heç kəsə deməmişdi, heç kəs də ondan adını soruşmamışdı, bayaqdan, o, bura qədəm basandan nəzarətçini ağzından alıb hamı «məəllim» deyə müraciət eləmişdi. İndi budur, qulağının dibində adını çəkirdilər:

– Nəzər…

– Ha? Kimdi?

– Kilimçidi, Nəzər.

Nəzər ağzını açdı desin ki, «kilimçi kimdi?» - qabağında sallağı oturmuş adam onun ağzına əlindəki qurğuşun «beşbarmaqla» elə bir zərbə endirdi ki, o, «Axx» - eləyib bayıldı. Gözlərindən od parladı bir anlığa. Ağrıdan yumrulub yumağa döndü. Bilmədi kim idi, hardan peyda oldu bu zalım. Neynəmişdi, nə günahın sahibiydi? Bu sualları səhər tezdən, hava işıqlananda özü özünə verirdi. Hələ heç kəs oyanmamışdı. Alaqarandıqda başını aşağa əyib pencəyinin, köynəyinin yaxasına baxdı: qan quruyub laxtalanmışdı. Əlini dodaqlarında gəzdirdi-şişmişdi. Çənəsi bərk ağrıyırdı. Partladığından onsuz da birbirinə dəyməyən dodaqları arasında barmağını gəzdirdi və yalnız bu zaman başa düşdü ki, qabaqda üç dişi yoxdu. Yerəmi düşmüşdü,

qarnınamı getmişdi - bilmirdi. Yatanlara sarı göz gəzdirdi, qanrılıb qapıya baxdı: qapı bağlıydı. Deməli, çöldən gələn olmamışdı: onu vuran kim idisə, içərdəkilərdəndi. Amma kim.

Və bu «üç diş» otuz yeddinci ildə, orta məktəbi bitirib Bakıya oxumağa gedərkən Səlminaz arvadın danışdığı əhvalatı yadına salmışdı: Canəli bəy həyətdə,bağın içində basdırdığı qızılların küp qarışıq çıxarıb öz daxmasında,ocağın içində quylamış Kərimin-Nəzərin adını eşidib üzünü görmədiyi atasının ağzına çəliklə elə vurmuşdu ki, üç dişi bir anda qırılıb həsirin üstünə düşmüşdü. Anasının söhbətindən bu da yadındaydı ki, Canəli bəy elə ortalıqdakı küpdən üç qızıl onluq götürüb Kərimə vermiş və ədayla demişdi: «Gedib dişlərini düzəltdirərsən. Qoy desinlər ki, Canəli bəyin nökərlərinin də dişləri qızıldı.» Onda da üç diş, indi də üç diş… Qəribə deyildimi? Bu, təsadüf idimi ya taleyin anlaşılmaz sirlərindən biriydi?

Barakın qapısı açılanda birinci Nəzər çölə atdı özünü. Dəsmalıyla ağzını tutmuşdu deyə, nəzarətçi heç nə başa düşmədi. Nəzər ağ və yumşaq qar üstə iz qoya-qoya kənara çəkildi, ciyər dolusu nəfəs alıb azca özünə gəldi. Sonra cibindən kiçik əl güzgüsünü çıxarıb sir-sifətinə baxanda…qəhər onu boğdu, dəhşətli bir şey görmüş kimi, güzgünü qaytarıb tez cibinə qoydu. Və çönüb barakdan bir-birinin dalınca bayıra çıxan dustaqlara göz qoymağa başladıqda… Xuduşu gördü və tükləri soyuqdan yox, qəzəbdən, bəlkə də qorxudan biz-biz oldu. Xuduş sırıqlı geymişdi, başına isə dovşan dərisindən olan köhnə papaq qoymuşdu. Saqqal buraxmışdı. Özü də əvvəlki Xuduş deyildi, xeyli arıqlamışdı. Nəzərə baxıb şit-şit dişlərini ağardırdı. O dəqiqə Nəzərin yadına hələ rayonda ikən Xuduşa elə milis idarə-sində onu yumruqlaya-yumruqlaya təpikləyə-təpikləyə dediyi sözlərə gəlib düşdü və kişi uçundu. «Səni burda öldürmürəm, amma orda, həpsxanada öldürəcəm.» İndi ona hər şey aydın idi: Xuduş o barakda imiş. Nəzərin gətirildiyini görüb heç cınqırını da çıxartmamış, gecə keçib hamı şirin yuxuya gedəndən sonra yavaşca ona sarı ilan sürünmüş və vurmuşdu. Ayrı cür ola bilməzdi.

Xuduş Nəzərin partlamış dodaqlarına baxıb arzusuna çatmış adam kimi gülümsəyə-gülümsəyə yanındakı gedən boyluq, arıq dustağa neçə pıçıldadı, yaxın gəlmədi, salam vermədi, özünü elə göstərdi ki, guya Nəzəri heç tanımır. Bunun isə nə demək olduğunu Nəzər çox yaxşı başa düşdü və qeyri-iradə olaraq fikridnə dolandırdı: «O köpək oğlu məni öldürəcək. Mən onu öldürməsəm, o məni

öldürəçək. Adamı belə qatil eləyirlər, aman allah».

Nəzər həmin gecə üç dişini itirmişdi, ancaq səhər isə əvəzində vaxtilə Canəli bəyin vurub saldığı o üç diş müqabilində Kərimə - atasına verdiyi o üç qızıldan da qat-qat qiymətli bir şey tapmışdı: bu həbsxananın rəisi, polkovnik Şirin Şirinov idi. Şirin uca boylu, üzgözündən nur yağan, saçları seyrəlib ağarmağa başlamış, həlim, mehriban bir adam idi. O kişi ilə bir-iki saat oturub söbət eləyən hər kəs heyrətini və təccübünü heç cür gizləyə bilmirdi ki, o necə olub gəlib bu sistemə düşüb: onun əynindəki libasla xasiyyəti heç vəchlə bir-birinə uyuşmurdu.

Nəzər helə həmin gün, səhər-səhər Şirinin yanına gəlib dərdini danışmış, başına gələn qəzavü-qədəri lap əvvəlindən axırına qədər söyləmişdi. Şirin Nəzərin «delo»sunu qabağına qoyub söbəhətini dinləmiş, çox mütəəssir olmuşdu. Elə ilk dəqiqələrdən Nəzər onun necə təmiz və həssas qəlbə malik olduğunu duyub elə sevinmişdi ki, göynəyən dodaqları da, düşmüş dişləri də yadından çıxmışdı.

Şirin dağlı balası idi: elə o da Nəzər kimi müəllim imiş. Əvvəllər, lap xidmətinin başlanğıcında çətin tərbiyə olunan uşaqlarla, az sonra həddi-buluğa çatmamış cani uşaqlarla işləmiş, bu yolda çox zəhmətlər çəkmiş, can qoymuş və öz dairəsində böyük hörmət qazanmışdı. İllər keçdikcə hörməti kimi, rütbəsi də artmışdı Şirinin. Ötən iyirmi-iyirmi beş il ərzində nə qədər adam onun əlinin altından gəlib keçmişdi, nə qədər sınıq qəlb, şikəst tale görmüş, ovundurmağa, sevindirməyə çalışmışdı. İstəyinə nail olanda – bir cavanı həyata, zəhmət dünyasına qaytaranda yerə-göyə sığışmamışdı. İstəyi baş tutmayanda – «heyif səndən, ay oğul. Sən öz-özünün qatilinsən!» - deyib məyus olmuşdu.

Sonra onu böyütmüşdülər. Bu həbsxananın rəisi qoymuşdular. Şirin günlərin birində görmüşdü ki, o, bir xəzinə üstündə oturub – heç özünün də xəbəri yoxdu. Bu xəzinə – onun gördüyü, tanıdığı, üç il, beş il, on, on iki il ömrünü bu divarlar, tikanlı məftilli hasarlar arasında keçirən, ya qayıdıb təzədən təzə həyata atılan, ya elə burdaca məhv olan, unudulan adamların taleyidi – bunları yazmaq lazımdı, hərəsi bir kitabdı. «Sən yazmasan, bəlkə də heç kəs yazmayacaq, Şirin. Hansı yazıçı gəlib burada bu məhbuslar arasında aylarla yaşayar, öyrənər, sonra gedib əsər yazar? – Heç kəs.» Bəli, Şirin o adamların çoxunun taleyini qələmə almışdı və xoşbəxtlikdən o yazıları çap da eləmişdilər.

Söhbətləri bura çatanda məlum olmuşdu ki, Nəzər onun kitablarının (dörd kitabı çıxmışdı) hamısını oxuyub, o kitablar onun kitabxanasında var.

Daha doğrusu var idi. İndi hanı o kitabxana, o kitablar? Nəzər yanıqlı bir ah çəkmişdi o zaman. Nəzər Şirinin kitablarından elə həvəslə danışmışdı ki, təbiətən təvazökar olan, özünü heç vaxt yazıçı saymayan, həvəskar hesab eləyən polkovniki lap mütəəssir eləmişdi. Kişinin sevindiyindən gözləri yaşarmışdı.

«Mən elə bilirdim mənim yazdıqlarım təkcə elə dustaqlar oxuyur!» – demişdi.

Taleyindən, tanrısından - hər yerdən əli üzülən, inamını itirmiş Nəzərin çıxardığı …Şirin…bu altı ildə demək olar ki, onu hər xata-baladan qorumuşdu. Xuduşu ayrı həbsxanaya köçürmüşdü, kişiyə… klub müdirliyini tapşırmışdı, ağır, fiziki iş görməyə qoymamışdı. Şirin gözəl ziyalı imiş, ziyalı qədiri bilən imiş xoşbəxtlikdən. Rəisin Nəzəri çox istədiyini görən dustaqlar da, hətta buranın atamanı sayılan Cuma da ona hörmət eləmişdi. Nəzər klubda can qoymuşdu. Köhnə səliqəsiz tərtibadı da dəyişmişdi. Şüarları təzədən yazmışdı, tək bircəciyini: «Qoy ədalət zəfər çalsın»ı xeyli düşünəndən sonra gözləri qəribə bir parıltıyla işıldaya-işıldaya divardan qopararaq çırıb, övkələyib zibil qutusuna atmışdı, çünki hiss eləmişdi ki, o sözləri harda yazıb yapışdırmaq münasib olsa da, burda yeri deyildi, heç olmasa ona görə ki, Nəzər burda idi. Hər dəfə bu kluba girəndə onun gözlərini deşəcəkdi o sözlər. Və iri, qırmızı həriflər yazılmış gözəl «Ədalət» sözü Nəzərdən utanıb qapqara utana bilərdi. «Lent otağı»nı elə gözəl, səliqəli bəzəmişdi ki, girən çıxmaq istəmirdi. Stendlər düzəldirdi. Hər bayram münasib. Zəngin kitabxana yaratmışdı. Tez-tez ədəbi-bədii gecələr təşkil eləyirdi, artistləri, şair və yazıçıları siyasi işlər üzrə rəis müavini podpolkovnik Hacı Əliyevin vasitəsilə görüşə dəvət edirdi.Kino qonaq qara olmayan vaxtlarda isə, Nəzər özü müxtəlif həyati mövzularda dustaqların qabağında danışırdı. Doğrudur, qabaq dişləri olmadığından, bir çox sözlər fışıltı ilə çıxırdı ağzından, ancaq məhbuslar buna adət eləmişdilər və demək olar ki, heç fikir də vermirdilər. Çünki sözləri mənalı və kəsərli idi. Əgər Nəzər yorulmasaydı, səhərəcən dinləməyə hazır idilər. Həm hər dəfə nə isə öyrənirdilər, həm də qulpundan daş asılan vaxdı öldü-rürdülər.

«Dərya Nəzər» - dustaqlar onu belə tanıyırdılar. Nəzərin burada yeganə sevinci bu klub idi-bu yaşadırdı onu.

Elə birinci il, Nəzər uşaqlarının, qohum-əqrabasının yanına gəlməsini qadağan eləmişdi. Ona görə yox ki, onları görmək istəmirdi. Xeyr, bu deyildi səbəb. İlk vaxtlar Bikə xanım Tapdıqla (Qərib heç bu fikrə düşməmişdi də) Nəzəri görməyə gələndə kişi öyrənmişdi ki, xərci-xəracatı çox çıxır bu görüşlərin. Əgər onun üçün yetmiş, uzaq başı yüz manatlıq şey gətirirdilərsə, görüş almaq üçün, içəri keçmək, çağırtdırmaq və s. üçün yüz əlli, iki yüz xərcləri çıxırdı. Qapıçıya ver, nəzarətçiyə ver, çağırana ver. Nəzər bunu eşidəndə özünü saxlaya bilməyib demişdi: «Pay atonnan! Adə, bu rüşvət nə qorxusuz şeydi, hətta həbsxananın özünə də gəlib çıxıb ha. Ta mənim sözüm yoxdu. Yox, gəlməyin. Lazım deyil. Mənə heç nə gərək deyil. Belə getsə, siz lat-lüt olarsız, acından ölərsiz. Günah sahibi olmaq istəmirəm. Sadəcə, məktub yazarsız, bəsimdi. Mən də sizə məktub yazaram. Eşidirsiz? Gəlməyin bir də. Gəlsəniz, qabağınıza çıxmayacağam ha.»

Nəzərin sözü qanun olmuşdu – düz altı il idi ki, yanına heç kəs gəlmirdi. Arvadından, uşaqlarından, nəvələrindən, öz doğma ocağından yana burnunun ucu göynəyirdisə də, dözürdü. «Gündə bir xəbər eşidib nigaran olmaqdansa, heç nə eşitməyib nigaran qalmaq daha yaxşıdı. Bir ölüm-itim olmasın. Gedim hamısını sağ-salamat görüm, bəsimdi. Allah göstərməsin, ölüm-itim xəbəri gəlsə, ürəyim partlar. Burdan çıxmağa, əfin-dəfn eləməyə getməyə qoymayacaqlar. Onda isə mənim bağrım çatlar. Ancaq mən… nəyin bahasına olursa-olsun, burdan sağ-salamat çıxmalıyam, gedib Yunisin, Müseyibin, İsrayılın, Süleymanın gözlərinin içinə baxmalıyam, üzlərinə tüpürməliyəm. Əgər Tanrı varsa, bu arzumu ürəyimdə qoymamalıdı.»

Ötən illərdə, ancaq məktublar gəlmişdi. O kağızlarda isə, şükür, «evdə sağ-salamatlıq» idi. Elə özünün də yazdığı kağızlarda iki-üç cümlə olurdu: «Yaxşıyam, nigaran olmayın. İnşallah görüşərik.»

Ancaq… keçən il… məktublarında həmişə «yaxşı» olan Nəzərin ağzı əsəbdən əyilmişdi. Alt dodağı sola dartılmışdı, sol gözü də balacalaşmışdı. Üzünü qırxmaq üçün cibində gəzdirdiyi balaca güzgüdə özünü bu halda görəndə kişinin bədənini soyuq tər basmışdı. İlk çağlar dustaqlardan bərk utanmışdı, ancaq həftələr keçəndən sonra…daha fikir verməmişdi, bu günü ilə də barışıb oturmuşdu. Bircə buna sevinmişdi ki, nə yaxşı Bikə, uşaqlar gəlmir – onu belə görsəydi, Bikənin yəqin ki, ürəyi partlardı.

Amma sən demə, Nəzərin görəcəyi gün daldaymış… Bu il, qışın oğlan çağında diz qapağı altında faşist qəlpəsi gizlənmiş sol

qıçını da dizdən yuxarı həbsxana xəstəxanasında kəsmişdilər. Simləməyə başlamışdı – kəsilməsəydi, qanqrena eləyəcəkdi… Nəzər heç cür razı olmurdu, «Qoy ölüm, canım qurtarsın!» - deyirdi, lakin Şirin təkid elədi, başa saldı, yola gətirdi. «Sən yaşamalısan, Nəzər müəllim, sən haqq olduğunu sübut eləməlisən», - dedi. Qıçını kəsdilər, əvəzində iki qoltuq ağacı verdilər.

Nəzər məktublarında yenə yazırdı: «Yaxşıyam. Nigaran olmayın. İnşallah, tezliklə görüşərik.»

ÜÇÜNCÜ FƏSİL

Bu gün qəribə gün idi — onun ad günüydü. Yəqin Bikə xanım evdə tək-tənha, ürəyində, yada qızlarının birinin yanında təmtəraqsız, sevincsiz ya da eləyirdi bu günü. Bəxtəvər çağlarında bu gün tezdən, yerindən qalxanda cavanlıq illərindən adət elədiyi kimi, Bikə gəlib ərinin alnından öpərdi və gülə-gülə:

– Böyük oğlan olasan, Nəzərim. – deyərdi. Qocalanan bura düşməmişdən qabaqkı il də Bikə elə belə demişdi:

«Böyük oğlan olasan.»

Nəzər gülmüşdü:

– Ta qocalmamışam, arvad, helə demə.

– Mənim üçün sən həmişə cavansan, kişi, cavan oğlansan.

«Yəqin indi…» Bikə bu sözləri ürəyində dedi.

Biz isə klubda, lilonim salınmış döşəmənin üstə, qoltuq-ağaclarının sağında, solunda yerə atıb oturmuşdu və qabağına sərdiyi ağ lay kağızda fırça ilə şüar yazırdı. Qələbə günü münasibətiylə stend düzəltirdi və beynində, xəyalında həmin günü xatırlamağa çalışırdı. Cəbhə yoldaşları, məhrumiyyətlər, yaralanması, o sarı faşistin arıq, uzun sifəti, təyyarələrin vıyıltısı,top, mərmi,güllə səsləri… Və sonra…ad günü… Tək-tənha, ürəyindəcə yad elədiyi ad günü… Kövrəltmişdi. Gələn il də bu gün burda olacaqdı; yəqin onda da tək olacaqdı və eynən beləcə, ya da barakda, yenə xatirələrə dalacaqdı…Qabaqda hələ düz yüz səksən beş gün var. Ayaq səsləri eşidib əl saxladı, açıq qapıya sarı baxdı:

– Nəzər müəllim, səni nəçənnik çağırır. – Gələn cavan, orta boylu, uzun dimdikli kepka qoymuş bir oğlan idi-Nəzər zənlə baxsa da tanıya bilmədi. Görməmişdi. «Yəqin təzə gələnlərdəndi».

– Day-day, deyir tez gəlsin.

– Tez gəlsin?

– Həri…

Nəzər fırçanı rəng qutusuna qoyaraq qoltuq ağaclarına sarı uzandı, əlini yerə dirəyərək qalxdı. Oğlan içəri girib yanında dayanmışdı. Görünür, həqiqətən yeni gətirilən məhbuslardan idi, çünki otağa çox diqqətlə tamaşa eləyirdi, divardakı şəkilləri, plakatları, şüarları nəzərdən keçirirdi.

Qaranlıqda üz-üzə gəldilər. Kepkalı oğlan içini çəkdi:

– Aaa, bu sənsən, Nəzər day-day tanımadın məni?

– Yox tanıyamadım. Bəs sən məni hardan tanıyırsan, oğlum? Mənim müəllim olduğumu nədən bilirsən?

– Müəllim olduğunu nəçənik dedi. Amma sən gərək məni tanıyasan axı, Nəzər day-day?

Zənlə baxdı:

– Xatırlayammıram,oğul.

– Nöşün, yadında deyil, neçə il qabaq, gecə yol azmışdıq ha, səndən yol soruşduq ha, səndə bizi… milisə gətirdin ha. Həri, həri.Sən o Nəzərsən…

Nəzərin sola dartılmış alt dodağı səyridi:

– Hm. Yadıma düşdü…Gərək ki, adın…

– Həri, İbaddı.

– Hm…

O gecəki qəribə və ürəyini ağrıdan mənzərə birər-birər yadına düşdü, söhbətlərini xatırladı. İbadın lap axırda onun arxasından vurub yıxması, neçə il bundan qabaq olsa da, təzədən ürəyini göynətdi. O gecə bütün çılpaqlığıyla, nifrəti əzabları ilə hafizəsində canlandı. O gecə Nəzərin imkanı olsaydı, bu İbadı, o Ağayevi, o Süleymanı dişiylə, dırnağıyla didib məhv eləyərdi. Amma onda yox idi elə imkan. Sonra da heç vaxt olmadı, ola da bilməzdi. Çünki İbad Balamirzənin şəhadətinə görə, Süleymanın adamı idi.

Amma aradan gör neçə il keçmişdi, o hirslər, o nifrət öləziyib soyumuşdu. Ancaq o zaman, elə maşının kabinəsində ikisinin arasında olan o söhbət, tam təfərrüatı ilə xəyalında canlanmışdı. Nəzər onda bu İbada demişdi: «Bu yol ki, sən gedirsən, bilirsən hara gedir?» «Hara gedir?» «Ağzıbirə.» «Ağzıbir nədi elə?» «Ağzıbir həbsxanadı, türmədi, bala.» «Həri?» «Həri.»

Nəzər bu söhbəti xatırlayıb bu ad günündə,bu gözəl və qəmli gündə, o zaman peyğənbərcəsinə dediyi o sözlərin doğru çıxdığına sevinmişdi. Nəzər üçün o maraqlı deyildi ki, İbad-ozaman taleyinin,

nəhayət, bura gətirib çıxaracağı gün kimi məlum olan oğlan. İndi, Şirin Şirinovun tapşırığı ilə gəlib onu çağırırdı. Yox, maraqlı bu idi ki, İbad indi həbsxanada idi və Nəzər səkkiz il bundan qabaq bu günü görmüşdü, demişdi.

Nəzər qoltuqağacına dirənib, sol dodağı əsə-əsə:

– Gəlmisən, bala? – deyə soruşmuşdu.

– Həri, gəlmişəm. Sən deyən o ağzıbirə gəlmişəm, day-day. Sən düz deyirmişsən o vaxt. Ancaq mən başa düşməmişəm.

– Başa düşsəydin, çəkilib oturardın, halal zəhmətinə sığınsaydın, indi burda görüşməzdik, İbad.

– Həri, düz deyirsən, Nəzər day-day. Ancaq mənə de görüm, sən burda neyniyirsən? Sən ki, qanunun, ədalətin keşiyində möhkəm durmuşdun, cani-dildən ona qulluq eləyirdin, bəs sən niyə gəlib bura düşmüsən, hə? Tutaq mən tüfeyli idim, alverçi idim, axmaq idim…

Bəs sən?

–…

– Gör nə gündəsən? Ağzın-gözün əyilib, qıçını kəsiblər. Nəzər bu illər ərzində dözməyə adət eləmişdi. Təhqirlərə dözməyi öyrətmişdilər ona burda. Onun yalnız gücü bunu çatmışdı ki, İbada qəzəbli bir baxış fırlatmışdı və çəliklərinə söykənərək ondan uzaqlaşmışdı.

Bu sözləri ona yox, ürəyində demişdi:

«Haqsızlığa dözmək bəlkə də haradasa mümkündü, ancaq nadanlığa dözmək çətindir, Nəzər. Haqsızlıq sənin ürəyini partlada bilmədi, lakin nadanlıq partladacaq, vallah, partladacaq, billah. Partladacaq. Ey tanrı özün məni bu nadanlardan hifz elə.»

…Bu gün həqiqətən qəribə gün imiş…

Nəzər həbsxana rəisinin kabinetinə daxil olanda, Şirin azca əyilərək enli sinəsini stola dayıyıb nəyi isə diqqətlə oxuyurdu. Qapının açıldığını, kiminsə içəri girdiyini hiss eləyərək başını qaldırıb Nəzəri qarşısında görəndə belini düzəltdi, girdə, yaraşıqlı sifətində bir mehribanlıq, qara gözlərində bir sevinc parladı və yaxın dostunu, həmdəmini görübmüş kimi şadlıqla:

– Xoş gördüy, ay Nəzər kişi. – dedi- Gəl, gəl, əyləş. Əşi yenə aya-günə dönübsən, heç bu tərəfdə görünmürsən daha.

Çağırsam gəlirsən, çağırmasam yox.

Şirin boş vaxtı, imkan olanda, təzə hekayələr olanda Nəzəri yanına çağıtdırırdı, otağında oturardılar. Qabaqlarında çay, ya dərdləşər, ya da Nəzərin hekayələrini oxuyub müzakirə edərdilər. Nəzər

bura düşəli Şirinlə ünsiyət tapılan milis polkovnikinin – bu sadə və qabiliyyətli qələm sahibinin ilk oxucusu olmuşdu. Şirin onun incə zövqünə, sözü-sözdən seçməsinə vurulmuşdu - ən yaxşı məsləhətçi, rəyçi, redaktor idi Nəzər. Onun bəyəndiyi yazını Şirin çox arxayınçılıqla qəzet-jurnal redaksiyalarına aparardı.

– Xoş günün olsun, Şirir. Görürəm, işin çoxdur, mane olmaq istəmirəm. Elə özümün də başım qarışıq olur. Bayramlar ki, dalba-dal düşüb, ona görə kluba əl gəzdirirəm, başımı qatıram. Günləri sayıram-deyərək keçib Şirinin qənşərində yox, divarın dibindəki stolların birində oturdu, qoltuq ağaclarının böyründəki stola söykəndi, ani olaraq baxışlarını dolandırıb Şirinin başı üstündəki portretə - Dzerjinskinin şəklinə baxıb, bir az əvvəl klubda o köntey İbaddan eşitdiyi o köntey, qəlbağrıdan sözlərin acısını yaddan çalışaraq, zorla gülümsündü: - Deyirəm, ay Şirin, tanrı sənin ömrünü uzun eləsin, nə yaxşı ki, sən varmışsan burda, sən olmasaydın, mən dözməzdim, indiyə çoxdan tələf olmuşdum. Sən yaxşı ziyalısan, Şirin. Ziyalılıq nə diplomnandı, nə dərəcədəndi, nə rütbədəndi. Şirin mən professor, akademik görmüşəm, amma ziyalı deyil. Mədəniyyəti yox, qabiliyyəti yox. Mən çoban görmüşəm, kolxozçu görmüşəm, təpədən - dırnağa ziyalıdır. Danışdırıqca həzz alırsan…

Şirin təvazökarlıqla əynindəki milis formasına işarə ilə:

– Mən adicə milisəm, Nəzər kişi. – dedi.

– Məsələ heç də libasda, formada deyil, Şirin. Daxili mədəniyyətdədi. Ürəkdədi, tərbiyədədi, Şirin…

– Düzdür, Nəzər kişi..

– İnsanın ki, ləyaqətini tapdaladın, mənliyini öldürdün, ləkələdin, elə bil ki, onun özünü öldürmüsən. Bu, başa düşən üçün, güllələnməkdən də betərdi. Məni o vaxt güllәsəydilər, daha yaxşı olardı. Çünki insan olub insan kimi yaşamaqdan, düşünməkdən məhrum edilmək ölümdən pisdi həqiqətən. Bu altı ildə mən ancaq sənинlə danışanda, ancaq səni bax bu kabinetinə gələndə özümü dustaq yox, insan eləmişəm. Qalan yerdə hər addım başı, mən dustaq olmuşam.

Adamlar necə kobudlaşıblar, necə qəddarlaşıblar, ilahi.

Şirin o dəqiqə hiss elədi ki, yəqin yenə kimsə qocanın xətrinə dəyib, bu həssas insanın qəlbini qanadıb. Hər dəfə belə şey olanda, məsələni yerli-yataqlı öyrənib Nəzərin könlünə toxunan adamı tənbeh eləyən, «cəzalandıran» Şirin, indi bunun fərqinə varmadan onu sevindirməyə çalışdı:

– Dustaqxanayla sənin aranda daha bir şey qalmayıb, Nəzər kişi..

– Nə danışırsan, canım? Necə bir şey qalmayıb? Düz bir il dörd ayım qalır hələ… - deyib köks ötürdükdə Şirin uşaq kimi məzlum-məzlum gülümsündü:

– Yox, Nəzər kişi. Səni bu gün buraxıram gedirsən evinə.

Nəzər qulaqlarına inanmadı. Sağ-salamat gözü alacalandı, pırpız qaşları yuxarı dartıldı:

– Nə danışırsan, Şirin? Mənimlə belə zarafat eləmə, Şirin, ürəyim partlayır. Çiyinləri tez-tez qalxıb-enməyə başladı, yalvarıcı baxışlarını ona zilləyib udqundu.

– Yox, zarafat eləmirəm, Nəzər kişi. Səni təbrik eləyirəm, müəllim.. Bax, budur, al oxu, SSRİ prokurorluğundan sərəncam gəlib. İndicə almışam. – Şirin üstünə qırmızı möhür vurulmuş, parıldayan kağızı ona verdi. Nəzər əsən əlini uzadıb vərəqi aldı və gözləri önünə gətirdi. Bir an sonra o kağız Nəzərin əlindən sürüşüb yerə düşdü, başı isə sinəsinə endi. Şirin həyacanla stolun arxasından qalxıb ona sarı cumdu:

– Nəzər müəllim, Nəzər müəllim!.. – diyə qorxu içində onun başını qaldırıb üzünü yüngülcə şapalaqladı. – Əşi, sənə nə oldu? Sonra dönüb qrafindən su gətirdi.

– Al iç, toxta…

Nəzər gözlərini handan-hana açaraq…tappıltı ilə yerə yıxıldı. Büsbütün özünü itirmiş Şirin, kişinin qollarından tutub qaldırdı və stulda oturtdu. Stolun üstündəki jurnalı əlinə alıb,

– Əşi, sənə nə oldu birdən-birə?

Nəzər əl atıb köynəyinin yaxasını açdı və çətinliklə:

– Ta demə, Şirin… Öldüm, təzədən dirildim… Getdim o dünyaya, yenidən qayıtdım…- Pencəyinin cibindən siqaret çıxarıb, Şirin onun papirosunu yandırdı, keçib yerində əyləşərək özü də bir siqaret alışdırdı.

– Məni lap qorxuzdun, ay Nəzər kişi..

– Hələ də inana bilmirəm…Elə bil içimi çevirdilər, özümü unutdum… Qıçımın olmadığını da unutdum, durub cölə qaçmaq istədim ki, mən azadam, mən azadam…Aman allah, mən azadam. Şirin səni and verirəm balalarının canına, doğrudan mən azadam? Doğrudan bu gün məni buraxırsan?

– Əlbəttə, Nəzər kişi. Buraxıram. Sən bu gün evə gedəcəksən… Düzdü, məndən olsaydı, səni bir gün də burda saxlamazdım,

amma neyləyim, mən də buyruq quluyam – mən bu kağızlara səndən çox inanmalıyam, Nəzər kişi..

– Hə, - köks ötürdü – Təssüf ki, bizdə canlı insana yox, kağıza daha inanırlar ki, bunda da böyük təhqir yoxdu.

– …

– Yaxşı, bu necə olan işdi, ay Şirin. Axı mənim bir il dörd ayımmm…

– Hə, elədi ancaq bilirsən səni kim vaxtından qabaq buraxdırıb?

– Yox… Kim?..

Şirin daxili bir qürur hissi ilə:

– Sakit Aranlı.. Sənin yazıçı dostun.. – söylədi.

– Sakit Aranlı?

– Bəli, o dəfə, üç ay bundan qabaq bura görüşə gələndə…

– Hə, hə. Mən bura gələndə yazığın gözləri kəlləsinə çıxdı. İnanmadı.

– Görüşdən sonra… mənə burda oturub çay içəndə dedi ki, təmiz adam idin Nəzər müəllim. Onu nəyin bahasına olursa-olsun xilas eləmək lazımdı. Yox, Nəzər müəllimi qurtaracağam. O bizim gözəl ziyalımızdı. Hayıfdı belə adamlar. Düz Kremilə yazaçam. Məndən də lazımi məlumatlar aldı Sakit Aranlı.

– Nəzərin gözləri yaşardı.

…O vaxt, üç ay bundan qabaq həbsxanaya, dustaqlarla görüşə çağırıldığını biləndə Sakit çox sevinmişdi. Çünki ora, o dörd divar arasına günahlı-günahsız düşən admlarla, onların qəmli həyatı və taleyi ilə yaxından tanış olmaq bir qələm sahibi kimi onun çoxdankı arzusu idi. O, həyatın özünü bəzək-düzəksiz, göründüyü kimi yazmağı xoşlayırdı. Bunun üstündə başı çox ağrısa da, neçə əsəri məhz bu səbəb üzündən işığa həsrət qalıb arxivində yatsa da, bu adətindən əl çəkə bilmirdi. Ürəyi deyəni, gözü görəni yazmışdı həmişə. Həbsxanaya gedə-gedə bunu düşünmürdü ki, yəni, maraqlı bir insan talehi ilə rastlaşır və qismət olsa, əlindəki romanı qurtardıqdan sonra onu qələmə alar. Ancaq heç ağlına gətirməzdi ki, onun gələcək əsərinin qəhramanı çoxdan tanıdığı, dost saydığı, ədəbiyyatın, sənətin xiridarı və bilicisi hesab elədiyi, hər təzə kitabını avtoqrafla göndərib sevindirdiyi, ən başlıcası ilə qocaman və müdrik bir müəllim kimi sevdiyi Nəzər müəllim olacaq. Sakit, Nəzəri burada, həbsxananın həyətində tanınmaz halda görəndə əvvəlcə gözlərinə inanmamışdı, səhv elədiyini, kiminləsə qarışıq saldığını güman eləmişdi. Nəzər bilirdi ki, Sakit gələcək. Bunu ona İslah əmək düşərgəsinin siyasi

işlər üzrə rəis müavini podpolkovnik Hacı Əliyev demişdi və bu xəbərdən Nəzər həm sevinmişdi, həm məyus olmuşdu: sevinmişdi ki, Sakit gələcək-neçə il idi görmürdü. Məyus olmuşdu ki, Sakitin yanında utanacaq. Hələ özünü xəstəliyə vurub bu görüşdə iştirak eləməmək fikrinə də düşmüşdü. Ancaq Sakitə olan məhəbbəti çəkəcəyi xəcalət hissini üstələmişdi, klubu sahmana salıb çox sevdiyi yazıçının əsərlərinin sərgisini təşkil eləmişdi, şəklini böyüdüb kitablarının üstündən asmışdı, səhnədəki uzun mizin üstünə vazada qərənfil qoymuşdu.

Yox, Sakit səhv eləmirdi:qarşısındakı Nəzər müəllim idi.

– Sən…Nəzər müəllim deyilsən?

– Xoş gördük, Sakit. Mənəm. Təccüb eləyirsən ki, Nəzər hara, bura hara, hə?

– Hə də. – deyərək Sakit sarılmış halda irəli yeriyib onun əlini sıxmışdı. Nəzər isə hər iki əlini qoltuqağaclarından ayırıb Sakiti qucaqlamışdı. Sakit geri çəkilib Nəzəri təpədən-dırnağa süzmüşdü və özü də hiss eləmədən gözləri yaşarmışdı.

– Dünyada da, Sakit. - deyə Nəzər də kövrəlmişdi.

– Çoxdan burdasan?

– Altı ilə bir şey qalmayıb.

– Baho. Deyirəm axı, sənə necə kitab göndərmişdim, bir cavab almamışam. Fikirləşirəm ki,..

– Burda niyə dayanmışıq? Gəl mənim iqamətgahıma. Orda azadlıqda müəllim idim, burada klub müdiriyəm.

Nəzər Sakit Aranlını içəri aparmışdı. Sakit klubun səliqəsəhmanını, öz şəkilinə, kitablarına gözucu baxıb heç nə deməmiş, elə qapı ağzındakı otrucaqda oturmuşdu. Nəzər də qoltuqağaclarını kənara qoyaraq böyründə əyləşmişdi. Hər ikisi bir müddət susub siqaret yandıraraq bir-birinə baxmış, qəmli-qəmli gülümsünmüşdülər. Nəhayət, Sakit Aranlı:

– Ay kişi, danış görüm bu nə müsibətdi sənin başına gəlib?- demişdi. Nəzər siqaretinə dərin bir qüllab vurub köks ötürərək əhvalatı yerli-yataqlı danışmışdı Sakitə. Sakit çox kədərlənmişdi.

– Belə də vicdansızlıq olar? «Qara məni basınca, mən qaranı basım» eləyiblər lap.

– Hə. Elə etdilər. Ürəyim partlayır, inan. Balalarımın ölmüşünə, əgər bir zərrəcə günahım olsaydı, hec cınqırımı da çıxarmazdım, inan. Amma yoxdur günahım. Vallah yoxdu, Sakit.

– Bəs şikayət-zad eləmədin?

– Necə eləmədim? Bakıya, Moskvaya. Yazmadığımız idarə qalmadı, Sakit. Eşidən olmadı səsimizi, qardaş hara yazdıq, elə bil quyuya düşdü.

– Elə şey olmaz ki.

– Mən də həmişə elə bilirdim ki, harda da olsa, bizdə, bizim cəmiyyətimizdə elə şey ola bilməz. Amma sonra inandım ki, daha doğrusu, inandırdılar ki, olarmış, qardaş. Haqsızlıq, ədalətsizlik düzü-dünyanı ağzına alıb aparır, heç kəs heç kəsin kitabını oxumur indi. Hamı ancaq özünü düşünür. Bu torpağın, bu camaatın qeydinə qalan yoxdur, qardaş. Rayon rəhbərliyindən tutmuş lap Bakıda oturan böyüklərimizə hamısı öz ailəsini öz xalqı, öz kabinetini isə vətəni hesab edir az qala. Vəzifə, stol, partbilet üstündə əsirlər. Onların çı-xışlarına qulaq asıram, yazılarını oxuyuram, hamısı kommunizimdən, xoşbəxt həyatdan, güzərandan danışır. Düz deyirlər onlar. Onlar həqiqətən kommunizmdə yaşayırlar. Xüsusi maqazinləri var? Var. Xüsusi xəstəxanaları var? Var. Hətta xüsusi qəbiristanları da var. Ta bu nə bərabərlik oldu, bu nə yoldaşlıq, bu nə qardaşlıq oldu, qardaş? Axı Lenin belə deməmişdi. Amma sən bax camaatımızın güzəranına. Ürəyin ağrıyır. Torpağımızı öldürüblər. Xəbərin var? Uşaqlarımız şikəst doğulur. Xəbərin var? Bu millətin sabahı nə olacaq? Düşünür-süz? - Yox. Sizi bunların heç biri düşündürmür. Deyirsən yaz-mamışam? Kimdən yazırsan, şikayətini onun üzərinə göndərirlər. O da «Sən məndən şikayət edirsən?» - deyib sənin atanı təzədən yandırır. Düz söz demək olmur, düz söz deyənin gözünü deşirlər, qardaş. Şikayətlərin çoxu gedib yerinə-yurduna çatmır. Sən tarixi yaxşı bilirsən. Nəsrəddin şahı – İranda əlli il padşahlıq eləyən Nəsrəddin şahı deyirəm. Hə onu bir gün Mirzə Rza adlı qeyrətli bir oğul vurub öldürdü. Şahın yerinə taxta oturan oğlu Müzəffərəddin həmin Mirzə Rzadan soruşdu ki, mənim atam sənə neyləmişdi ki, onu qətlə yetirdin? Mirzə Rza dedi: «Şəxsən mənə heç nə. Amma mən İranı əziz vətənimin bu ağır, dözülməz vəziyyəti haqda, onun var-yoxunun bir ovuc daxili istimarçılar və xaricilər tərəfindən insafsızcasına soyulub talan olunması haqqında atana düz beş dəfə yazıb müraciət eləmişdim, imdad istəmişdim. Birinə də cavab vermədi.» Müzəffərəddin dedi: «Sənin məktubların axı atama gəlib catmamışdı.» Mirzə Rza söylədi: «Bax helə ona görə öldürdüm sənin atanı. Ona görə öldürdüm ki, məmləkətdə elə şərait yaratmışdı ki, mənim - bu torpağın bir oğlunun, bir vətəndaşının səsi, sözü öz padşahına gedib çatmırdı?» Yəni deyirsən mən də, haqq səsi-sözü

eşidilməyənlər də belə eləsinlər? Axı bu düz yol deyil. Axı bir bürokratı öldürəcəyəm, siz sabah onun yerinə eynən onun kimi «plan», «bayraq», «molades» dalınca qaçan, ancaq özünü düşünən, düz söz eşitməyən başqa bir bürokratı gətirib qoyacaqsız. Yox. Belə yaşamaq olmaz. Mən ancaq bir şeyi yəqin bilirəm: sabah bu xalq sizin hamınızı, onun ciyərini yeyib onu görməyənləri, onun harayına arxa çevirib ona biganə olanları, sözünü eşitməyənləri divara söykəyib güllələyəcəklər. Vallah güllələyəcəklər, billah güllələyəcəklər.

Nəzər yana-yana, sözləri sınıq dişləri arasından fışıltı ilə cıxararaq danışırdı. Sakit, həmişə olduğu kimi, sakitcə, təmkinlə oturub qulaq asırdı. Nəzər özünü unudmuşdu, dərd ona güc gəlmişdi deyə sanki qarşısında oturanın kim olduğunu yadından cıxarmışdı. Nəzərin axırıncı sözlərini eşidəndə o, qacmışdı və Nəzər də bunu görmüşdü. Kişi Sakitin qımışmağını görən kimi ayılmışdı və oğurluq üstə tutulmuş uşaq təki Sakitin üzünə baxıb günahkarcasına:

– Məni bağışla, sən allah, Sakit. - söyləmişdi. - Deyəsən mənim əsəblərim pozulub lap son vaxtlar. Bu dörd divar arasında adam dəli olar, qardaş. Mən…Yaxşı bilirəm, sən adi bir qələm sahibisən, əlində nə ixtiyarın var ki. Amma yox. Bunları sən bilməlisən, yaxılmalısan, qardaş. Yazmasan, tarix səni bağışlamaz, bu xalq səni bağışlamaz. Mənim isə sadəcə ürəyim doluydu, qəbr eləyirdi dərdim, ona görə bunları sənə dedim. Məni bağışla, sən allah, Sakit. Yox-yox, Nəzər kişi. Nə danışırsan? Mən səni başa düşürəm. Bu dərdlərin hamısı mənə tanışdı və bilirsən ki, mən bütün ömrüm boyu belə şeylərə biganə qalmamışam. Deyiblər də, çap eləməyiblər də, amma dözmüşəm. Susmamışam, yazmışam. Məndə də belə bir inam olub ki, belə olmaz, belə getməz və getməyəcək də. Sənin danışdıqların isə hamısı həqiqətdi, kişi. Ancaq dünənin həqiqətidi. Bu dərdlər qeyrəti, mənliyi olanların, əsl kommunistlərin hamısını illər uzunu düşündürüb. Açıq, tribunalardan bu həqiqətləri deyənləri gedib, öldürülüb, çürüdülüb. Deyə bilməyənlər yazıb saxlayırlar, indi çıxardırlar ortalığa. Ağıllı, qeyrətli oğlanlarımız həmişə düşünüb, kişi. Ancaq mən bir şeyə təəccüb eləyirəm: məgər siz burada qəzet-jurnal oxumursunuz, radioya qulaq asmırsınız? İndi məmləkətdə yeni yellər əsir, kişi. İndi aləm sökülüb təzədən qurulur, İndi..

Nəzər onun sözünü kəsmişdi:

– Qəzetdə oxuyuruq, jurnal da. Bilirik ki, əsməyinə əsir. Ancaq biz yazıqlar o qədər yalan eşitmişik ki, deyirik bəlkə bu da yalandı. Adam nə qədər yalan eşidər, aman allah. «Yalançının evinə

od düşdü, yandı, heç kəs inanmadı.» - məsələsini bilməmiş olmazsan, Sakit.

– Yox-yox, Nəzər kişi, bu, yalan deyil, bu, həqiqətdi: özü də böyük həqiqətdi.

Nəzər ağzını doldurub daha nə isə demək istəmişdi ki, pod-polkovnik Hacı Əliyev içəri girmişdi. Rəisin, qonağı öz kabinetində gözlədiyini söyləmişdi. Bununla da onların söhbəti yarımçıq kəsilmişdi. Sakit qapıdan çıxanda beynində, qəlbində sabah yazacağı təzə romanın bir az qəmli, bir az qəzəbli nəğməsi doğulurdu və bundan hələ Nəzərin xəbəri yox idi.

DÖRDÜNCÜ FƏSİL

…Bu gün doğrudan da qəribə gün imiş …

Nəzər dəftərxanadan lazımi sənədləri almış, Şirinlə qardaş kimi qucaqlaşıb öpüşmüş: «Səni ömrüm boyu unutmayacağam, Şirin.»-deyib and içmiş, kluba gəlmiş, ortada dayanıb son dəfə dərdivarı gözdən keçirmiş, bu illərdə dostlaşıb qaynayıb-qarışdığı, indi işdə olan iki dostluq yoldaşına məktub yazaraq vidalaşmışdı.

Altı il bundan qabaq girdiyi, çox qəribə olsa da, indiyəcən bircə dəfə də çıxmadığı o dəmir darvazalı, keşikçili qapıdan çıxırdı. Gələndə əlində bir balaca bağlama vardı, gedəndə…qoltuğundakı iki qoltuğağacından başqa heç nəyi yox idi. Dişləri burada qalmışdı, gözü və ağzı burada əyilmişdi. Dizdən yuxarı sol qıçı, içində də faşist qəlpəsi bu hasarlar arasında yox olmuşdu. Bunlar zahirən itirdiyi şeylər idi. Dişlərini düzəltdirə bilərdi, yaxşı həkimin əlinə düşsəydi, gözü, ağzı da müalicə olunan ayağına da protes qayırtdıra bilərdi. Amma…ömrünün o altı ilini… geri qaytara bilərdimi? Bilərdilərmi?

Qapının ağzında dayanmışdı. Fikri pərişan idi. Siqareti adəti üzrə, müştüyündə tüstülənirdi. Buraxıldığına hələdə inana bilmirdi: ona elə gəlirdi ki, irəli yerisə, cavan, sarışın, çiynində avtomat, kəmərində fin pıçağı olan keşikçi oğlan qabağını kəsib: «Ey, hara gedirsən? Geriyə dön.» - deyəcək. Ancaq onun gözlədiyinin əksi olaraq, keşikçi mehribanlıqla:

– Niyə çıxıb getmirsən, kişi? – dedi. –Yoxsa getməyə yerin yoxdu?

– Yox, yerim var, bala. Amma mən bura belə gəlməmişdim axı. – deyib qoltuqağaclarını yerdən üzüb qoşa qanad kimi yuxarı

qaldırdı. Keşikçi oğlan onun nə demək istədiyini başa düşüb kövrəldi və üzünü yana çevirdi. Elə bu zaman…üstü örtülü bir dustaq maşını yavaşıyıb qapı ağzında dayandı. Sürücünün yanında əyləşmiş cavan, çevik bir milis kapitanı kabinədən yerə hoppanıb maşının arxa tərəfinə keçdi və az sonra…qollarıbağlı üç nəfəri qabağına qatdı:

– Haydı, – dedi. – Cəld olun, cəld olun.

Nəzəri birdən elə bil ilan çaldı. Bütün bədəni uçundu. Milis kapitanının qabağında addımlayanlardan biri Süleyman, biri Müseyib, o biri isə İsrayıl idi. Nəzər qışqırmaq, onlara nə isə demək istədi, ancaq səsi içində boğulub qaldı. Heç kəsin yox, təkcə Süleymanın gözləri Nəzəri aldı, bu gözlənilməz görüşdən özünü itirib bircə anlığa ayaq saxladı, baxdı. Süleymanın qoltuqağaclarına söykənmiş adama diqqət yetirdiyini görən Müseyib də, İsrayıl da… çöndü. Ancaq o şikəst adamı tanıya bilmədilər.

Nəzərin dili tutulmuşdusa da, gözləri danışırdı: o gözlərindən sanki qığılcım səpələnirdi Süleymanın üstünə. Süleyman o alışıb-yanan baxışlarından qorxaraq tələsik üzünü çevirdi və iti addımlarla qapıya sarı yeridi. Ona həmin anda elə gəldi ki, indicə nə isə dəşətli bir şey olacaqdı: bütün onlardan daha dəhşətli… Maşından düşəndə dəmir darvazanı görüb ürəyinə vahimə düşmüş, ayağının biri gedən, biri getməyən həbsxanaya Süleyman demək olar ki, qaça-qaça girdi və bunu həssas Nəzər hiss elədi. Ancaq bu qəzəbinin üstünə su çiləmədi. Kişi durduğu yerdəcə yanıb-yaxılırdı ki, niyə o onlara - o ürəksizlərə, o vicdansızlara heç nə diyə bilmədi. «Buna da min şükür.» - dedi ürəyində. – «Buynuzsuz qoçun qisasını buynuzlu qoçda qoymursan, ey tanrı.» Qəlbindəki ağır yükü, niskili elə oradaca, həbsxana qapısındaca yerə qoyan, ruhən yüngülləşən, özünü çox bəxtəvər hesab eləyən Nəzərin neçə il bundan qabaq, kluba müdir qoyulduğu gün divardan qoparıb, cırıb ayağı altına atdığı o təmtəraqlı şüar yadına düşdü, öz-özünə pıçıldadı:

– O şüarın vaxdı indidi, qardaş. Onu indi yazıb hər yerə yapışdırmaq olar. «Qoy ədalət zəfər çalsın.»

– Nəzər şüşə kimi hamar Bakı-Mərdakan yolu ilə şütüyən yaraşıqlı və təmiz avtobusda qabaqda, əlillər üçün düzəldilmiş yerdə oturub Sakit Aranlı ilə uzaqbaşı bir saatdan sonra olacaq görüşü xatırlayıb uşaq kimi gülümsəyirdi. Qərara almışdı ki, əvvəlcə Sakit Aranlının – öz xilaskarının evinə getsin, görüşsün və onun qələm tutan əlindən öpsün öz dərin minnətdarlığını bildirsin, sonra Güllügilə gedər. Ancaq Nəzər bu xoş gündə bu arzusuna çata bilmədi:

Sakit Aranlı evdə yox idi, bağa getmişdi. Qapıdan kor-peşman qayıdan Nəzər bilmirdi və bilə də bilməzdi ki, Nəzər özü fikrən, xəyalən bax bu anlarda Sakitin yanındadı, qəlbindədi: onun talehini yazır.

BEŞİNCİ FƏSİL

– Kto tam?

Nəzərin ürəyi titrədi-nəvəsinin səsiydi. Gör neçə ildi eşitmirdi.

– Kto tam?

– Mənəm, aaz, köpək qızı. Babadı, baba. «Bəlkə bu zalım balası heç «baba»sözünü bilmir?» – deyə düşünüb əlavə elədi: «»Dedulya.»

Qapı yalnız bundan sonra açıldı və Nəzər qabağında saçları qırmızı bantlı, məktəbli forması geymiş Seyranəni görəndə elə astanada, əllərini qoltuqağaclarından ayırıb onu qucaqladı.

– Mənim əzizim…

– Seyranə babasının qolları arasına sığındı. Öpüşdülər.

– Dedulya. S priyezdom, dedulya. Proxodi, proxodi.

Nəzər içəri keçdi. Biz onu, Sadıxın həmişə elədiyi kimi, mətbəxə yox, qonaq otağına apardı. Nəzər qoltuqağaclarını divara söykəyib divanda oturdu və həsrət dolu baxışlarını nəvəsinə zilləyib baxdı, baxdı.

– Oy, a qde tvoya noqa? – sanki indicə görüb heyrətlə soruşdu.

– Kəsdilər, mənim balam. – Sözü dəyişdi. – Neçəncidəsən indi?

– V pyatom.

– Maşallah, ta böyük qız olmusan. Bəs dədən hanı, aaz?

– Kto, paxan?

– Hə, dədən.

– Paxan davno uyexal. – Seyranənin səsində bir kədər duyuldu. – On nas ostavil i uyexal.

– Hara, aaz?

– On v Moskvu jivyot seças. Rabotayet v sovmine. İ tam jenilsya. Nas zabıl sovsem.

Nəzər susdu, siqaret yandırdı. «Mən elə əvvəldən bilirdim o zatı qırıq adamdı, dəyanətsizdi, namərddi.»

– Bəs anan hanı, mənim balam?

– Mama? Ne znayu. Ya tolko çto so şkolı.

– Bu zaman… yataq otağının dığır-dığır şüşəli qapısı açıldı və Güllü, saçları dağınıq, yarımyuxulu halda, əynində gecə köynəyi otağa girdi və:

– Kimnən danışırsan, Seyranə? – deyə xəbər alanda qız sevincək:

– Ma, deduly priexal i bez noqi. - dedi. Güllü birdən divanda oturmuş, tək ayaqlı, gözü, ağzı əyilmiş atasını görcək elə dəhşətlə qışqırdı ki, Seyranə də, Nəzər də səksəndi. Və helə həmin an, yataq otağından, əynində ancaq alt paltarı olan ucaboy, şivə kimi saçları yana daranmış, qara qaş, qara göz bir kişi özünü onların yanına atıb:

– Nə olub. Ağəz? – deyə qışqırdı.

Nəzər oğlanı o dəqiqə tanıdı: bu, Sadıxın nazir müavini olarkən sürücüsi işləyən və elə o vaxtlar Nəzərin qəribə bir sövqi-təbii ilə görmək istəmədiyi adam idi. Güllü də, oğlan da caşıb qaldı, nə edəcəklərini bilmədilər. Ortalığa ağır bir sükut çökdü. Hər şey aydındı: izaha-filana ehtiyac yoxdu. Nəzərin içi cevrildi elə bil, bədəni od tutub yandı sanki. Gözlərinin qabağında bu cah-cəlallı otaq elə bil tərpəndi, alt-üst oldu. Başını qaldırmadan, bu dəqiqə səssiz səmirsiz gözlərindən yaş axıdan Güllüyə, heç nə başa düşmədən çaşıb qalmış nəvəsinə baxmadan, ayağa qalxdı, əlini uzadıb qoltuqağacını götürdü, beli əyilmiş halda qapıdan çıxdı… Elə bil o tək ayağıda yox idi - sanki qoltuqağacları üstündə addımlayırdı. Torpaqdan üzülmüşdü elə bil. Qapı arxasınca öz-özünə örtüləndə… Güllünün hönkirtisi eşidildi. Körpə çağlarında ciyərparalarının ağlamasına dözə bilməyən Nəzər üçün bu səs yad idi indi. Yox yad deyildi, sadəcə yox ili o səs, yox idi o səsin sahibi. Əvəzində Nəzərin ürəyində…bəxtəvər keçmişlərdən gələn başqa, məsum bir uşaq səsi ağlayırdı…

ALTINCI FƏSİL

Rayonun girəcəyində yeganə benzin doldurma stansiyasına çatanda şər qaralmışdı. Meydan çıraqban idi. Bir dənə də maşın gözə dəymirdi. Ətrafında söyüd ağacları əkilmiş köşkün də işığı yanırdı. Nəzər çox həyacanlıydı. Yol boyu danışmamışdı: benzin satan və kiminsə sözüylə onu da «satan» o alçaq və mərdimazar Yunis Bayramov deyilən o oğlan gözünün qabağından çəkilib getməmişdi. Yola baxmışdı - onu görmüşdü, maşının içinə baxmışdı - onu görmüşdü, gözlərin yummuşdu - yenə onu görmüşdü. İndi budu, gəlib çatıb.

Ürəyi uçuna-uçuna siqaretini söndürüb maşının arxa qapısının külqabısına basandan sonra, Bakıdan kirayələdiyi «Jiquli»nin sürücüsünə dedi:

– Beş-altı dəqiqə məni gözlə, eloğlu. Bu oğlana bir kəlmə söz deyəcəyəm. Onu deyim gedək. Sənə benzin lazım deyil ki?

– Yox, qayıdan baş dolduraram.

Nəzər qapını açıb qoltuqağaclarını böyründən gördüyü və köşkə sarı getdi. «Yunis. Yunis Bayramov.» Oğlanın o həyasız sifəti də, gözləri də yadındaydı. Min il sonra, hətta o dünyada da görsəydi, tanıyardı. Başını girdə pencərədən içəri uzatdı. İşıqda oğlunun üzü aydın görünürdü. Bay səni, «O deyil, Yunis deyil.»- fikir sarsıtdı onu, üşüdü kişi..

– Salam, ay bala..

– Əleykə. - dedi cavan oğlan.

– Mənə Yunis lazımdı.

– Kim? Yunis?

– Hə, Yunis Bayramov. Burda benizin satan işləyir. Yəqin onun növbəsi deyil, hə, bu gün?

Oğlan stolunda qurcalandı:

– Onun növbəsi çoxdan qurtarıb, əmi..

– Haçan olacaq bir də?

– Heç haçan. Çünki Yunis… çoxdan yoxdu, əmi. Görünür, sən gəlməsən, bilmirsən…

– Hə, Çoxdan olmamışam buralarda… Məni başa sal görüm necə yəni yoxdu? Ölüb?

– Yox öldürüblər.

Nəzər susub udqundu. Ani sükutdan sonra:

– Necə yəni öldürüblər? – deyə soruşdu, qəribə bir sevinc içində ürəyinə bir fikir axıb doldu: «Qərib öldürüb, mənim intiqamımı alıb.» Və elə o hissin təsiri ilə tələsik soruşdu: – Kim öldürüb, ay oğul?

Bu sualı verəndə çox arxayın idi ki, benzin satanın dilindən oğlunun adını eşidəcək. Ancaq belə olmadı, oğlan ayrı şey söylədi:

– Bilinmədi. Qanı batdı getdi. Güllə ilə vurmuşdular, pullarını da aparmışdılar… pis adamın qanı halaldı, əmi.

– Pis adam idi Yunis?

– Bilirsən necə? Çox əclaf imiş. Rayonda danışırlar ki, o, bir təmiz adamın – Nəzər müəllim varmış burda – onun yalandan üzünə durub tutdurubmuş. Nahaqdan o cür hörmətli adamı…

– Nəzər onun sözlərinə axıracan qulaq asmadı, lal-dinməz çönüb maşına sarı yollandı.

YEDDİNCİ FƏSİL

Kəndin işıqları yanırdı. Kənd axşamlarına məxsus qəribə bir sakitlik mürgüləyirdi hər yanda. Əl-ayaq çəkilmişdi. Maşın «Qırmızı məktəbin» yanından keçəndə Nəzərin ürəyi tel-tel oldu, qəhər boğdu onu. Üzünü yana çevirdi. Bu taxta körpüdü. O kolxoz idarəsidi: pəncərələrindən işıq gəlir. «Yəqin Qurban iclas eləyir.» Küçələrə asfalt döşənmişdi. Dirəklərdə yanan uzun neon lampaları hər yanı çıraqban eləmişdi.

– Hə, budur saxla, ay oğul. Gəldik çatdıq. Çoxdan çıxmışdım evimdən, daha doğrusu, zorla, çıxartmışdılar.- deyə yol boyu susan Nəzər yalnız indi, taxta darvazanın ağzında ürəklənib sürücünü öz dərdindən hali elədi.. Düş, qonağım ol, yol gəlmisən, yorğunsan, yatıb dincələrsən. Səhər tezdən də gedərsən. Gör arvadım necə sevinər.

– Yox, əmi, sağ ol. Gərək axşam balalarımın yanında olam. Mən getməyənəcən uşaqlarım yatmır, həmişə evində-eşiyində…

– Nə deyim, özün bilən məsləhətdi. – Çıxardıb sürücünün pulunu artıqlaması ilə verdi.

– Çox verirsən, əmi.

– Halal xoşun olsun.

Maşın çıxıb gedəndən sonra Nəzər darvaza qabağında tək qalıb həyətə sarı boylandı və…gözlərinə inanmadı: onların həyətində, hasarın içində, üzü qibləyə tikilmiş ikimərtəbəli bir ev ucalırdı. İkinci mərtəbəsinin, gur işıqları göz qamaşdırırdı. Ani olaraq, «Deyəsən səhv eləmişəm axı.» – deyə düşündü, döyükdü. İrəli gəldi. Vaxtı ilə özünün düzəltdiyi cırıldayan taxta darvazanı tanıdı, itələyib açdı. Yox,öz həyəti, öz bağça-bağıydı. Bax, o üç otaqlı köhnə ev, o tut ağacı…Onun altındakı qayırma taxta miz. Taxta … «Bəs bizim həyətdə bu ikimərtəbəli ev?» Nəzər caşıb qaldı. Aynabənddən səslər gəlirdi. Qadın , uşaq səsi…

Çönüb qapı-bacaya göz gəzdirdi. Tut ağacından vaxtı ilə asdığı elektrik lampası yanmasa da böyründəki o müəmmalı, təzə imarətin işığı buranı tutqun-tutqun göstərirdi. Evin qapısından qıfıl asılmışdı. Həyəti ot, ələf basmışdı: hər şey xəbər verirdi ki, burda çoxdan adam

yaşamır. Bikənin səliqə-səhmanından əsər belə yoxdu. Nəzərin içindən soyuq bir külək əsib keçdi, başı gicəlləndi, özünü birtəhər taxta yetirib oturdu. Siqaret yandırdı. On-on beş dəqiqə elə beləcə, qımıldanmadan, dərin bir kədər içində susub dincəldi. Qəribə idi: elə bil birdən kimsə, gözə görünmədən həyət-bacanı bir anın içində silib-süpürüb əvvəllər olduğu hala gətirdi, hər şeyi öz yerinə qoydu, hətta Nəzər arvadının, uşaqlarının səsini də eşidən kimi oldu. Sevindi. Ancaq… sən demə, bu, xəyal imiş. Başını qaldırıb məyus-məyus tut ağacının təzə, hələ tam böyüyüb əl olmamış yarpaqlarına tamaşa elədi. Yüngül meh əsirdi, balaca, yaşıl yarpaqlar elə bil onun gəlişi münasibətilə çəpik çalıb öz dillərində nəsə pıçıldayır, nəsə deyirdilər. Nəzər titrəyən əlini uzadıb tut ağacının digir-digir gövdəsinə sürtdü, canına bir istilik axıb doldu elə bil.

– Salam, ay mənim sevimli tut ağacım, tanımadın məni? Mənəm ey, Nəzərəm ey.

Tutun yarpaqları xəfif-xəfif xışıldayırdı. Aynabənddən gələn səslər arasında Bikənin səsini tutmağa çalışdı. Yox idi. «Bikə burda olsaydı, qapıya qıfıl vurmazdı, həyət-bacanı belə saxlamazdı. Yəqin tək qala bilməyib yazıq. Yəqin Güldanəgilə köçüb. Bəs Qərib hanı axı? Bəlkə bu imarəti Qərib tikdirib? Yox, canım. Onun bu qədər pulu hardaydı, acından günorta dururdu.»

Yarım saatdan çox oturdu beləcə. Axırda səbri tükəndi, qalxıb ağır-ağır təzə imarətin qarşısına gəldi. Səslədi:

– Ay ev yiyəsi.

Cavab gəlmədikdə bir az da ucadan çağırdı və eyni zamanda qoltuqağacının ucunu məhəccərə vurub taqqıldatdı. Danışıq kəsildi, aynabəndin pilləkəni başında uzun xalat geymiş bir qadın göründü və Nəzər altdan yuxarı ona baxdı, ancaq tanıya bilmədi. Bu zaman içəridən iki uşaq – beş yaşlı bir qız, üç yaşlı bir oğlan çıxıb analarının yanına gələrək ətəyindən tutub dayandılar və aşağıda durmuş kişiyə maraqla tamaşa eləməyə başladılar. Qız anasından soruşdu:

– Bu çolaq dilənçi kimdi, ana?

– Kəs səsini. – dedi qadın və bir addım irəli yeriyib: – Kimi istəyirsiz? – deyə xəbər alanda…Nəzərin başına elə bil bir qazan qaynar su tökdülər. Tanıdı. Bu, Simuzər idi, Müseyibin qızı Simuzər. Aman allah. Demək, Qərib dediyini eləyib, ona evlənib. Yəqin bu uşaqlar da Qəribin balalarıdı. «Öl, Nəzər, ölən günündür. Bu, sənin gəlinindi, o uşaqlar da sənin nəvələrindi, sənin familini daşıyacaqlar. Hə, indi hər şey aydındı: Bikəyə baxmayıblar. O da baş götürüb çıxıb

gedib qızının yanına. Bu imarət də Qəribindi. Yəqin Müseyibin pullarına tikdirib.»

– Kimi istəyirsiz, ay kişi?

– Heç…Səhv gəlmişəm.. – deyib geri döndü Nəzər. Və buna sevindi ki, Simuzər onu tanımamışdı. «Hardan tanıyaydı? Heç tanınmalın qalıb ki?» Təzə imarətin işığının altından çıxıb öz həyətinin alaqaranlığında görünməz oldu. «İndi Qərib gələcək. Heç görmək də istəmirəm. Nə qədər burdan tez getsəm, o qədər yaxşıdı. Qoy görməsin məni.»

Çöldə, taxta darvazanın qabağında dayandı. Ayağının taqəti yox idi. Əvvəl istədi Zakirgilə getsin. Ancaq fikrindən daşındı: «Bu kökdə onun gözünə görünə bilmərəm. Bir maşın düşsəydi, Güldanəgilə gedərdim…»

Yenə bir siqaret yandırdı. İkinci qullabı vurmuşdu ki, bir maşın gəldi. Faralarının işığı elə güclüydü ki, Nəzərin gözlərini qamaşdırdı və o üzünü yana çevirdi. Bir az əvvəl maşın arzulayan Nəzər, indi düşündü: «Qoy məni indi heç kəs görməsin, tanımasın.»

Lakin ağ rəngli «Volqa» Nəzərin böyründəki təzə dəmir darvazanın qənşərində dayananda ürəyi quş ürəyi kimi çırpındı: «Qəribədi, aman allah. Hə, odu, ondan başqa kim ola bilər?» İstədi təzədən qayıdıb həyətə girsin, hətta bir addım da atdı; lakin hansı qəribə bir hiss idisə – Nəzər o qədər çaşqın idi ki, bu hissin atalıq duyğusu olduğunu da anlaya bilmirdi – onu yerindəcə dayandırdı və o, çönüb maşına baxdı. Sükan arxasındakı adam yerə düşdü. Nəzər indicə bayılacağından qorxaraq qoltuqağaclarına möhkəm söykəndi. Ancaq… maşından düşən Qərib deyildi. Onun boyu Qəribinkindən gödək idi. Maşın faralarının gur işığı altında darvazanı açmağa gedəndə…Nəzər onu tanıdı. Bəhram idi. Müseyibgildə o vaxt, özü də hiss eləmədən məhvinə fərman verildiyi o gecə bircə dəfə gördyüyü lal oğlan. Kabab bişirən nökər. «Bəlkə Qəribin sürücüsüdü?» – deyə beynindən keçirdi və maşının içinə nəzər saldı. Yox, Qərib yox idi. «Qərib kimdi ki, onun sürücüsü də olsun?»

Bəhram onu görmüşdü, amma heç əhəmiyyət verməmişdi. Maşın darvazadan həyətə girəndə Nəzər də yola düzəldi. Gedirdi, ancaq ömrünün bu həyətdə keçən illərini, xatirələrini, arvadının, uşaqlarının ayaq izlərini, səslərini və ürəyini qoyub gedirdi və indidən bilirdi ki, o heç vaxt bir də bu həyətə qayıtmayacaq.

SƏKKİZİNCİ FƏSİL

Nəzər qızıgilin qıfılsız darvazasını qoltuqağaclarının ucu ilə itələyib açanda və həyətə girəndə saat birə işləmişdi. Sakitlik idi. Yuxarı evlərin işığı sönmüşdü, ancaq qapı-baca çıraqban idi. Ortalıqda dayanıb ətrafa göz gəzdirdi, qulaq verib dindi. O tərəfdən, hovuzdan o yana, bağın içindən səs gəlirdi.

Eşidib ürəkləndi.

– Ay ev yiyəsi, allah qonağı istəyirsiz? – Nəzər yorğun-yorğun dillənəndə, ağacların arasından iki adam çıxdı, üzü bəri gəldi və qoltuqağaclarına söykənmiş Nəzəri görəndə Güldanə «Vay.» - diyərək irəli cumdu:

– Ay ata, sənsən? Ay qədəmlərinə qurban olum,xoş gəlmisən, səfa gətirmisən.

Özünü yetirib kişini qucaqladı, cod tüklü üzündən öpdü, qolunu boynuna doladı.

– Qədəmlərinə qurban olum, ay ata.

– Mənim balam. Xoş gördük. Necəsən, mənim balam?.. Di yaxşı ağlama, sən allah. Yoxsa mən də ağlayaram ha.

Güldanə geri çəkildi, yalnız bu zaman gördü ki, atasının bir ayağı yoxdu, sol gözü keçilib, dodağı əyilib… O, bunu görəndə Nəzərlə Tapdıq sarmaşmışdı. Ata-bala kimi. Bir-birini öpür, sevinc göz yaşları axıdırdılar. Güldanə əlini ağzına qoyub dodaqlarını dişləri arasında ha sıxırdısa da, gözlərinin yaşını saxlaya bilmirdi.

– Kaş gözlərim kor olaydı, ay ata.. Kaş öləydim, səni bu cür görməyəydim. Yandım, ay allah, yandım, ay tanrı.

– Di yaxşı, mənim balam. Sevin ki, sağ gəlib çıxmışam…

– Bay, ə, sənə nə olub? – Tapdığa təpindi. – Ə. Kişidə ağlayar? Ta bu olmadı. Yox, olmadı…- Nəzər hər ikisinin boynuna əl salıb sakitləşdirdi.

Güldanə toxdayandan sonra:

– Bəs niyə xəbər eləmədin, ay ata? Qabağına çıxardıq, gəlib lap ordan gətirərdik… – dedi.

– Hə, gərək yazaydın, tel vuraydın…

– Heç özüm də bilmirdim. Elə bu gün deyiblər, bu gün də çıxıb gəlmişəm… uşaqlar yatıblar, hə? Salamatdılarmı barı?

– Hə, babası, sağlıqdı eyzən… Boy, bə burda niyə durmusan, çıx yuxarı..

Tapdıq onun qolundan tutub, təəssüflə başını bulaya-bulaya

ağır addımlarla pilləkənləri bir-bir qalxıb aynabəndə gəldilər.

– Uşaqları oyatma, qoy yatsınlar. Elə-belə yataqlarında üzlərinə baxacam. Harda yatıblar?

– Buradadılar, babası…

Nəzər orta otağa girdi: iki çarpayı arasından yanan gecə lampasının zəif işığında mışıl-mışıl yatmış Elşənlə Elnura tamaşa elədi, yavaşca ayağının ucunda ehtiyatla yaxın gəlib alınlarından öpdü…

– Bə Gültəkin qızım hanı?

– Moskvadadı, babası… Lomonosov adına Dövlət Universitetindədi, bioloq olacaq…

– Olsun, olsun…

Tapdıq onunla eyvana qayıtdı. Nəzər bayaqdan dilinə gətirməsə də gözləri ilə həyət-bacada, eyvanda, aynəbənddə Bikə xanımı axtarırdı. Kişiyə elə gəlirdi ki, o, indicə otaqların birindən çıxacaq, sevinclə, qışqıra-qışqıra, ağlaya-ağlaya onun üstünə atılacaq, boynunu qucaqlayıb üzündən öpəcək, sir-sifətini, kəsilmiş qıçını görüb: «Eybi yoxdur, Nəzərim, elə belə də qəbulumsan, şükür ki, sağ-salamat gəlmisən.» – deyəcək. Amma Bikə xanım yox idi.

– Bə Bikə hanı, Tapdıq? – nəhayət dözməyib soruşdu.

Tapdıq bu sualı bayaqdan gözləsə də, bir anlığa tutuldu, qanrılıb qapıya sarı boylandı, - Güldanəni axtardı baxışları ilə. Ancaq yox idi Güldanə. Çaşqın halda:

– Yaxşıdı, Nəzər müəllim. – söylədi.

Nəzər onun gözlərinin içinə zənn ilə baxaraq nigarançılıq qarışıq bir əsəbliklə:

– Soruşuram Bikə hanı, sən isə deyirsən yaxşıdı. Məgər xəstədi ki?

– Hə, yox…

Nəzərin elə bil o tək ayağını qılıncla vurub saldılar.

Yıxılmasın deyə aynəbəndlə iki pəncərə arasındakı divana çökdü, qoltuqağacları tappıltı ilə döşəməyə düşdü.

– Ta denən ölüb də… - deyərək əlləri ilə üzünü qapayıb yerindəcə büzüşərək yumağa döndü, çiyinləri qalxıb endi.

Aynəbəndə çıxan Güldanə atasının ikiqat olub xısın-xısın ağladığını və Tapdığın sifətinin ağappaq olduğunu görüb başa düşdü ki, Nəzər Bikənin öldüyündən xəbər tutub. Səssizcə gəlib böyründə oturdu, ona sığınıb ağlar səslə:

– Biz də yetim qaldıq, sən də, ay ata. – dedi.

… Çimmədi. Bütün günü ağzına bir loxma olmasa da, çörək də

yemədi. Bolluca çay içdi, çoxluca siqaret çəkdi.

Güldanə yalvarıb təkid eləyəndə Nəzər qəmli-qəmli dedi:

– Bu gün o qədər sevinmişəm ki, bütün ömrümə bəs eləyər.

Bu gün o qədər qəm yemişəm ki, o da bütün ömrümə bəs eləyər, qızım. Doğru deyirlər, sevinclə qəm qapıbir qonşudu. Yol yoldaşıdı.

– Ta özünü üzmə, ay ata, qurbanın olum. Görünür, bəxtimiz belə imiş. Əlimizdən nə gəlir ki…

Tapdıq dedi:

– Mən özüm heç kəsi qoymadım yazsın… Fikirləşdim…

– Yaxşı eləmisən, oğul. Mən gedəndən sonra burda olanları bilsəydim, orda, o dörd divar arasında bağrım çatlardı. – Susub yenə siqaret yandırdı və yalnız indi hiss elədi ki, qızı da, kürəkəni də, onun çəp gözünə, əyri ağzına, kəsik qıçına baxmamağa çalışırlar: «Yəqin ona görə ki, mən unutmayım.» Sonra elə ortalığa, amma elə əslində Tapdıqa müraciət elədi: – Hə, indi yerli-yataqlı danış görüm məndən sonra nələr olub, necə olub.

Tapdıq bu sualın ona aid olduğunu başa düşüb xeyli fikirləşəndən, olub keçəni xatırlayandan sonra sözə başladı:

– Sənə iş verilən, məhkəmə salonundan çıxarılıb aparılan gün yazıq arvad çox pis hala qaldı. Elə orda ürəyi getdi. Təcili yardım çağırdım. İynə vurdular, naşatır tutdular burnuna, axırı ayıltdılar. Maşına qoyub gətirdim evə. Güldanə üç ay yanından əl çəkmədi. Nə qədər elədik ki, gəl bizdə qal, «Yox» deyib dirəndi, Elə hey ağlayırdı, öz-özünə danışırdı. Yaxşılaşandan, Güldanə evə dönəndən sonra, sən demə, hər gün durub gedirmiş milis idarəsinə. «Nəzərimi verin» – deyirmiş. Milis idarəsinin rəisi Ağayev söyləyərmiş ki, Nəzər yoxdu burda, apardılar sənin gülməşəkər Nəzərini «Yox, mən özüm görmüşəm, Nəzəri bura salıbsız, verin mənim Nəzərimi. Onun günahı yoxdu, verin Nəzərimi.» Bir belə, iki belə… Nəhayət Ağayev qovalayır onu. «Yoxsa səni də tutub salarıq ağzıbirə, ay arvad. Əl çək yaxamızdan.» Salın, tutun. Heç olmasa onunla bir yerdə ollam. – deyirmiş ağlaya-ağlaya.

Sonra… Süleymanın yanına ayaq açır. Çox gedir, demək olar ki, hər gün qapısını kəsdirib səni istəyir. Axır ki, Süleyman hövsələdən çıxır: «Deyəsən sənin də başın Nəzərin başı kimi xarab olub, arvad. Rədd ol burdan, bir də səni buralarda görsəm, milis çağırtdıracağam.»- deyir. Sonra ta getmədi. Çəkilib xanənişin oldu. İşə də çıxmadı.

– Yazıq bir təhər yaşayırdı yenə. Qərib onun ağrına çıxdı. Qardaşımdı, qarğış eləməyə dilim gəlmir. – Güldanə ağlamsındı. – Anamı o diri gözlü öldürdü.

– Hə, sən gedəndən dörd ay keçməmiş, Qərib dirəndi ki, evlənirəm. «El-oba qınayar, güləllər bizə, ay Qərib. – dedim. – Sən heç bilirsən neyləyirsən? Bizi gülünc eləmə.» Dedi: «Əh, tüpürüm hamısına.» Dedim: «Axı sənin heç nəyin yoxdu, Biz Müseybin qapsına nəynən gedəcəyik?» dedi: «Hər şey almışam, vermişəm.»

– Bəs demədin hansı pulnan, ay küçük?

– Sən demə, biz bilmirmişik, hələ sən tutulmamış Müseyib onu pambıq qəbulu məntəqəsinə qapancı düzəldibmiş. Orda qaz vururmuş, qazan doldurumuş. Dedim, axı dədən bu işə razı deyildi, qayıdıb gələndə sən o kişinin üzünə necə baxacaqsan? Dedi ki sənin işin olmasın, bunun heç kəsə dəxli yoxdur. İyirmi gündən sonra toydu…İstəyirsiz gəlin, istəmirsiz yox. – Özünüz bilərsiz. Qərəz, nə başını ağrıdım, evdə-eşikdə yox, restoranda Müseyib elə toy çaldırdı ki, hələ indiyəcən bizim mahalda mən elə toy görməmişəm. Bizlərdən, ancaq mən getdim. Getməyə də bilməzdim. Bax, Simuzəri qərib bu cür aldı.

– Almadı, Simuzərə ərə getdi denən. – Nəzər cılğınlıqla öz münasibətini bildirdi. – Bifər, qeyrətsiz.

– Sonra Qərib az bir müddətdə həyətdə bir imarət ucaltdı ki, iki göz istəyir tamaşasına dursun. Gedib kənardan da olsa baxıbsan. İndi üç uşağı var.

– Bə özü hansı cəhənnəmdədi?. Gözümə dəymədi, yox idi o imarətdə.

Tapdıq ah çəkdi:

– Hə, Qərib indi həbsxanadadı.

– Həbsxanada? – Nəzər qeyri-iradi heyrətləndi. – Həbsxanada?

– Bəli.

– Hə də, ta Müseybi tutanda onu da tutacaqdılar da…

– Yox, Qəribi Müseyibdən qabaq aparıblar.

– Yox adam öldürüb Qərib.

– Hə? – Nəzərin boğazı qurudu. – Qərib… Adam öldürüb? Sən nə danışırsan, a Tapdıq?

– Hə. Sən demə, Müseyibin Bakıdakı naziri – adı gərək ki, Ələmdar idi, Güldanə?

– Adı qara gəlsin, Ələmdar idi.

– Sən demə, onunla bu Simuzərin belə də, - o susub münasib

söz axtardı, - necə deyim, yaxınlığı varmış. Bir gün Qərib gəlir, görür ki, onlar…

Nə isə…naziri vurmuşdu.

– Əlini qana batırırdı, gərək o ləçəri də vuraydı.

– Elə onu da çapalamışdı. Amma üzü pis imiş, ölmədi. – Güldanə söylədi.

***

… Həmin gün nazirlikdə kollegiya yenicə qurtarmışdı, müavinlər, şöbə müdirləri, dəvət olunanlar Ələmdar Qədirovun geniş, sərin kabinetini tərk edib çıxmışdılar. Nazir çox danışmışdı, sıxmalını sıxmışdı, tərif olunmalını tərifləmişdi, hətta arada bir dəfə bərk əsəbləşmişdi də. Başı güyüldəyirdi, dodaqları qurumuşdu. İşə təzə götürdüyü qəşəng katibəsinin armudu stəkanla gətirdiyi pürrəngi çaydan içə-içə fikirində götür-qoy eləyirdi ki, sabah bazar günüdü, özüm də yamanca yorulmuşam, bir dəli şeytan deyir get Simuzərin yanına. Bu gün nədənsə tez-tez yadına düşürdü Simuzər. İndi isə onun adını ürəyindən keçirən kimi, yorğun sifətinə bir işıq qonmuşdu, əhvali-ruhiyəsi dəyişib yüngülləşmişdi, xatirələri təzələnmişdi. O dəfə xətrinə dəydiyi, incitdiyi, bəlkə də nahaq yerə qısqandığı Simuzərin məhzun görkəmi gəlib gözləri önündə cilvələnmişdi, qız, xəyalının aynasında ona kədərli, məzəmmətedici baxışlarla baxmışdı və sanki Ələmdarı səssiz-sözsüz yanına çağırmışdı. Həsrəti güclüydü. Gedəcəyini qətiləşdirəndən sonra əl atıb telefonun dəstəyini götürərək evə, arvadı Sulduz xanıma zəng vurub:

«Ceyranım mən təcili rayona getməli oldum, nigaran qalma.» - demək istəmişdi. Ancaq…ancaq buradaca, yatsaydı, yuxusuna da girməyəcək bir hadisə baş vərmişdi: dəstəyi qulağına tutub öz nömrələrini yığanda birdən Sülduz xanımın səsini eşidib təəccüblənmişdi: arvadı kimləsə danışırdı. Aydındı: telefon xətti qarışmışdı. Əvvəlcə bu gözlənilməz təsadüfdən özünü itirən Ələmdar sonra maraq üzündən özünü ələ alıb cınqırını da çıxarmamışdı: «Qəribədi, kimlə danışır?» Ancaq nigarançılığı çox çəkməmişdi - Sulduz xanımla bir nazik səsli qız danışırdı.

Söhbətin əvvəlindən xəbəri yox idi, lakin həmin nazik səsli qız, demək olar ki, ağlaya-ağlaya Sulduza deyirdi:

– Siz qadınsız, məni başa düşün, Sulduz xanım. Mən məcburam sizə zəng eləməyə, ayrı çarəm yoxdu. Qurban olum. Başına

dönüm, böyük bacım ol, əl çək o oğlandan, Möhtəşəmdən əl çək. Qurban olum, o sənin tayın deyil, o sənin oğlun yerindədi. Möhtəşəm mənim nişanlımdı, bacı. Payızda toyumuz olasıdı.

– Sən onu çox istəyirsən, qız? - Qızdan eşitdikləri Əlamdarı tərlətmişdi, kabinet başını fırlanmışdı, az qalmışdı dəstək əlindən mizin üstinə düşsün, lakin çox böyük iradə bahasına birtəhər özünü ələ alıb söhbətin davamına qulaq asmışdı. İndi isə arvadının rişxənd dolu səsini eşidəndə kişi kreslosunda qeyri-ixtiyarı qalxıb təzədən oturmuşdu. – O da səni çox istəyir, qız?

– Hə, əvvəllər çox istəyirdi, Sulduz xanım. Məni bir gün görməyəndə dəli olardı az qala. Sənə rast gələndən sonra…bilmədim neylədin, necə elədin, Möhtəşəm məndən soyudu.

– Ha, ha. – Qızın ağzını yamsıladı Sulduz. – Neynədin, necə elədin..Sən elə bilirsən arvadlıq asanddı? Gərək kişini özünə bağlaya biləsən, onu əldə saxlaya biləsən, qızz. Sənin adın nə oldu?

– Adım Xoşgüldü.

– Oo, nə yaxşı adın var, qız. Xoşgül. Özündə qəşəngsənmi barı adın kimi?

– Nə bilim, Sulduz xanım. Amma onu çox istəyirəm. O, mənim həyatımdı, Sulduz xanım. Onsuz mən yaşaya bilmərəm, dəli ola-ram, vallah. Mənə rəhmin gəlsin. Onu qov yanından, üz göstərmə, razı olma mən bədbəxt olum, Sulduz xanım.

– Sən doğrudan lap uşaqsan, qız. Kim, hansı qadın öz xoş-bəxtliyini əlindən verər?

– O səni sevmir axı, Sulduz xanım. O sənin malına, puluna görə gəlir yanına. Mən bilirəm, sizin pulunuz çoxdu, cürbəcür kostyumları sən alırsan ona, o maşını da sən alıbsan ona.

– Bunları Möhtəşəm deyib sənə?

– Yox. O heç mənimlə danışır ki, bir söz də desin? Mən özüm bilirəm. Sizin pulunuz çoxdu deyə başqalarını bədbəxt eləyəcəksiz? Allaha xoş getməz, Sulduz xanım.

– Bura bax, Xoşgülsən, Gülxoşsan, nəsən bilmirəm. Möhtəşəm mənimdi. Onu sən yox ey, sənin dədən də gəlsə, vermərəm heç kəsə. Qulaqlarını yaxşı aç, yaxşı eşit. Möhtəşəm məni sevir, mən də onu.

– Axı sənin ərin var. Dağ boyda ərin…

– Onun ər boyuna qamış ölçüm. Onun nəyi ərdi? Onun adı mənimdi, özü yox.

– …

– Eşitdin? Başa düşdün? Möhtəşəm səni almayacaq, qız. İndidən get başının çarəsini qıl. Bildin?

– Onda… onda məndən incimə, Sulduz xanım. Onda mən sənin o biqeyrət ərinin qabağını kəsib hər şeyi olduğu kimi deyəcəyəm ona. Qoy bilsin sən nə yuvanın quşusan.

– Xox. Qorxduq.

Xətt bu yerdə ayrılmışdı və dəstək Ələmdarın əlindən düşmüşdü. Qəfil tufana uğramış adam kimi bir müddət nə baş verdiyini, nə eləməli olacağını və bütün bunların altında gizlənmiş böyük faciənin dəhşətini dərk edə bilməmişdi. Key kimi hərəkətsiz oturub gözlərini yummuşdu. Ona elə gəlmişdi ki, güclü, qarşısı alınmaz bir sel stolun üstünə düşüb uğuldayan telefon dəstəyindən axıb kabinetə dolub Ələmdarı qabağına qataraq harasa naməlum bir səmtə aparır, içində daşa-qayaya çırpacaq, məhv eləyəcək. Amma gözlərini açanda kreslosunda oturduğunu görüb azca toxtamışdı. Dəqiqələr ötüb keçmiş, Ələmdarı çağlamış o qatmaqarışıq, anlaşılmaz hisslər durulub səngimişdi. Telefonda eşitdiyi o gözlənilməz söhbət, Xoşgül adlanan o yazıq qızın dedikləri, indiyəcən çox böyük məharətlə onu aldadıb başına papaq qoyan arvadının ona verdiyi həyasız və sırtıq cavablar təzədən qulaqlarında çınlamağa başlamışdı. Bu söz-söhbətin içində «Möhtəşəm» adı, «biqeyrət» sözü və bir də «Onun nəyi ərdi? Onun adı mənimdi, özü yox.» sözləri daha çox beyninə yazılmışdı və elə hey təkrarlanıb ürəyini cırmaqlayırdı, beyninə ağır çəkic zərbələri kimi dəyirdi. Tanışlarını, bilişlərini gözlərinin qabağında canlandırırdı, lakin Möhtəşəm adlı oğlanı görə bilmirdi, tanıya bilmirdi. «Kim ola bu əclaf?» - sualı beynində, ürəyində fır-fır fırlanırdı, amma cavabı yox idi bu sualın. Oğlandan necə deyərlər, əli üzüləndən sonra, arvadının kölgəsini qılınclamışdı: «Ləçər, həyasız. Mənim pulumla o əclafa kostyum, maşın alırmış. Mən də fil qulağında yatıbmışam. Sənin də qapını döydülər, Ələmdar. Aşına doğradığın, qaşığına çıxdı. Gec-tez çıxmalıydı da. Off. İndi mən neyləyim, aman allah. Öldürüm? Boşayım? Ya gözlərimi yumum, heç özümü o yerə qoymayım? Öldürsəm, boşasam…özüm də məhv olacağam. Yox.» suallar bir-birinin dalınca çözələnirdi, ancaq Ələmdar bu sualların heç birinə cavab verəcək halda deyildi. Ürəyi hövl eləmişdi, əl atıb seyfi açaraq yarımçıq konyak şüşəsindən armudu stəkanı ləbələb doldduraraq başına çəkmişdi, sonra bir stəkan da içmişdi. Beş-on dəqiqə keçmiş içki öz işini görmüşdü və Ələmdarın başını dumanlatmışdı. Gedəndə katibəyə də heç nə söyləməmişdi.

…Saat üçdə nazirin qara maşını Əgkərabadda Qəribin təzə tikdirdiyi imarətin darvazası ağzında dayanmışdı. O, Süleymana da, Müseyibə də dəyməmiş birbaşa bura - Simuzərin yanına gəlmişdi, sürücüsünə də nəsə tapşırıq verib harasa göndərmişdi. Maşından düşən kimi Ələmdar Simuzərin hələ yanları məhəccərlənməmiş eyvanda ayaq üstə dayanıb asma beşiyi yüyrüyən görüb toxtamış, yalnız bundan sonra sürücünü buraxıb arxayın həyətə keçmişdi. Yeganə nigarançılığı bu idi ki, Simuzərin qaynanası Bikə arvad ola bilər. Göz gəzdirib köhnə kömənin qapısını bağlı görüb sevinmişdi. Ələmdar hiss eləyirdi ki, Bikə arvad onu sevmir və hər dəfə bu evə gələndə Qəribin anası qaralıb boğulurdu, bir şeyi bəhanə eləyərək çıxıb gedirdi. Qərib isə o boyda nazirlə dost olmağıyla öyünürdü və anasına onu yerli-yersiz tərifləyirdi. Yazıq Bikə isə bir qadın, sövqi-təbiisi ilə hiss elədiyi o incə mətləbi açıb-ağarda bilmirdi.

O zaman, Simuzər Qəribə ərə gedəndə Müseyib Ələmdarı da, Sulduz xanımın qızının toyuna dəvət eləmişdi. Ancaq Ələmdar arvadını bahalı bir hədiyyə ilə göndərib, özü işinin çoxluğunu bəhanə edərək gəlməmişdi. Və bu, Simuzərə yaman yer eləmişdi, bir də heç vaxt onun üzünə baxmayacağına və dindirməyəcəyinə möhkəm söz vermişdi. Lakin toydan bir il sonra Ələmdar Müseyibgilə gəlmiş, hələ əriylə atası evində yaşayan və bir uşaq anası olmuş Simuzərin ayaqlarına düşüb çox bahalı bir brilliant üzük bağışlayaraq könlünü ala bilmişdi. Göz-könül oxşayan üzükdən daha artıq Ələmdarın:

– Sənsiz yaşaya bilmirəm, Sim. Səni unuda bilmirəm, Sim. – deyə dil tökməsi Simuzərin qəlbini yumşaltmışdı, özünə verdiyi sözü unutdurmuşdu, onlar təzədən barışmışdılar. Xoşbəxtlikdən o gün evdə heç kəs olmamışdı, onlar bir yerdə qalıb köhnə xatirələri təzələmiş, aralıqdakı giley-güzarı unutmuş, yenə canbir qəlbdə olmuşdular. Axşamcağı Qərib qayıtmışdı, Simuzər onları tanış eləmişdi. Və Ələmdarın, dediyinə görə, Qəribdən-Simuzərin həyat yoldaşından çox xoşu gəlmişdi, hətta söz arası eşitdirmişdi ki, gələcəkdə onu, Müseyib təqaüdə çıxanda, qayınatasının yerinə-vəzifəsinə qoymaq fikri var. Bu sözlər, əlbəttə, Qəribin canına yağ kimi yayılmışdı və dişlərini ağardıb gülmüşdü. Simuzər isə Ələmdarın necə bir ustalıqla adamları ələ ala bilmək qabiliyyətinə baxıb heyrətlənmişdi. Beləliklə, hələ o vaxt. Qəribin Simuzərə vurulduğu vaxtlar ürəyində baş qaldırmış şübhəni onun öz arvadının köməyi ilə Ələmdar məharətlə silib atmış, yox eləmişdi. Sadəlövh Qərib burada, rayonda Müseybə nə qədər söykənmişdisə, şəhərdə də Ələmdarı elə böyük,

ondan da əzəmətli bir arxa-dayaq hesab eləməyə başlamışdı. İndi o da, eynən qayınatası kimi, Bakıya ayaq basanda Ələmdar Haşımca - təzə «qağasına» baş çəkməmiş geri dönmürdü və hətta Simuzərə də şəhərə gəzməyə gedəndə, təkmilləşdirmə kurslarına gedəndə bərk-bərk tapşırırdı ki, mehmanxanada-zadda qalmasın, onlara düşsün. «Nədən ki, mehmanxanalar pisdi, min yerdən min cür həlləm-qəlləm adamlar gəlir ora. Bu isə öz evimizdi. Həm də ayrı yerdə qalsan, Ələmdar qağanın xətirinə dəyə bilər.»

Simuzər indi Ələmdarı qapıda görəndə yaman sevinmişdi. Tavandakı qarmaqdan asılmış beşiyi tərpədib pilləkənin başına qaçmışdı və onu gülər üzlə qarşılamışdı:

– Xoş gəlmisən, mənim nazirim. – deyə gülə-gülə qabağına qaçmışdı.

Simuzər nə qədər şad idisə, Ələmdar bir o qədər tutqun qanıqara idi və bu, Simuzərin nəzərindən qaçmamışdı:

– Nə olub? Niyə kefin yoxdu? Yoxsa xəstələnmisən, allah eləməmiş?

– Yox. Yorğunam, Sim. – Ələmdar bütün yol boyu içini söküb dağıtmış dərdini Simuzərdən gizləmişdi.

– Özünü tamam fəda eləmisən işə. Yoxsa elə bilirsən axırda heykəl qoyacaqlar sənə? Canına-başına fikir vermirsən.Belə olmaz.

– Düz deyirsən, Sim. – Ələmdar köks ötürmüşdü, beşikdəki çağaya baxıb Simuzərə sarı dönmüşdü. – Özün necəsən, Sim, əzizim?

– Yaxşıyam

– Elə bir baş bura, sənin yanına gəlmişəm. Yaman darıxmışam sənin üçün, Sim.

– Mən də. Ürəyimə dammışdı ki, bu gün gələcəksən. Bayaq-dan gözüm elə yoldaydı.

– Qərib nə təhərdi?

– Qəribdi də. Pul qazanmaq üçün özünü oda-közə vurur. Səhər evdən çıxanda dedi ki, bəlkə Bakıya getdim, iki-üç günlük işim var

– Nə yaxşı, nə yaxşı. Qaynanan da deyəsən işdədi.

– Hə. Danışmıram onunla.

– Yaxşı eləyirsən. İlan arvada oxşayır.

– Hə.

Simuzər qonağını içəri aparmışdı. Böyük və yaraşıqlı otaq yaxşıca bəzənmişdi. Sərin iti-bağa açılan pəncərənin yuxarı tərəfinə qoyulmuş kondisionerdən ürək sərinlədən bir hava axıb dolurdu içəri. Alaqaranlıqdı otaq. Simuzər əl atıb işığı yandırmışdı, ev nura qərq

olmuşdu. Elə bil buna bənd imiş, Ələmdar çevrilib Simuzərin boynunu qucaqlamışdı, onun ipək kimi yumşaq, xurmayı saclarını qoxlaya-qoxlaya öpüb oxşamışdı, nəfəsi tıncıxa-tıncıxa:

– Səni çox istəyirəm Sim – demişdi. Simuzər həyəcandan titrəyən ağ, incə əlini onun üzündə-gözündə gəzdirəndə ağladığını hiss eləyib mütəəssir olmuşdu, bir addım geri çəkilərək Ələmdarın həqiqətən yaşarmış gözlərini görüb:

– Ta niyə ağlayırsan, ay dəli? – deyə soruşmuşdu. Ələmdar əlinin dalıyla gözlərini silib uşaq kimi gülünmsünməyə çalışmışdı. Simuzərə elə gəlmişdi ki, Ələmdar sevindiyindən belə kövrəlib ağlayır və bundan bir qadın kimi çox fərəhlənmişdi. "Sevir. Sevir" Simuzər bilmirdi ki, Ələmdar onu gördüyünə görə yox, açıb-bükə bilmədiyi öz dərdini düşünür gözlərinin yaşını saxlaya bilmir. Hardan biləydi?

… Xoşbəxtlik idimi, bədbəxtlik idimi – demək mümkün deyildi. Ancaq o gün Qərib Bakıya gedəsi olmamışdı, axşamcağı öz maşınıyla evə qayıtmışdı. Simuzər də gözə dəymirdi. "Yəqin yatıbdı" – deyə səs salmadan, barmaqlarının ucunda yataq otağının qapısını itələyib açanda… Gözlərinə inanmamışdı. Ələmdar Simuzərnən çarpayıda yanaşı uzanmışdı, başını Simuzərin açıq sinəsinin üstünə qoymuşdu. Qərib yerində qurumuşdu, nə tərpənməyə, nə də qışqırıb bir söz deməyə taqəti olmuşdu. Sonra … Ağlına gələn ilk fikrin təsiri altında səssiz-səmirsiz geri çəkilmiş, mətbəxdə divardan asılmış ət baltasını qapıb təzədən, dəli kimi qışqıra-qışqıra içəri cummuşdu…

– Sonra nə oldu, a Tapdıq? – Nəzər həyəcanla soruşdu.

– Nə olacaq, ara qarışdı, məssəb itdi. Qəribi tutdular. Qısqanclıq üstündə olduğuna görə gülləmə vermədilər, on il iş kəsdilər.

– Hm. Mən dedim eləmə, oğul, sümüyümüzü it sümüyünə calama. Qulaq asmadı. Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar. Yaxşı, bəs o lal gədə, o nökər Qəribin evində nə gəzir?

– Yaşayır da. Hökümlü-hikmətli Səltənət xanım gətirib qoyub qızının yanında. Deyir uşaqlara baxır.

– Hm. – Nəzər ah çəkdi. – Müseyib özü çirkab içində idi, bizi də çəkib saldı o çirkabın içinə. Bişərəf məni də bişərəf elədi.

Tapdıq kədərlə davam elədi:

– Qərib Ələmdarı öldürən gün yazıq arvadın da ürəyi partladı. El adətiylə götürdük.

– Harda dəfn elədiz?

– Rəhmətlik Səlminaz arvadın yanında.

– Səhər məni apararsız ora.

– Əlbəttə, Nəzər müəllim, gedərik.

– Yazıq anam yalqız keçinmişdi.

– Hə. Qəbri nurnan dolsun. Yazıq çox əziyyət çəkdi. Nigaran da getdi. Mən anamı ikinci dəfə itirdim elə bil. O mənə qayınana yox, ana olmuşdu.

– Yaxşı, o əclafları, o ev yıxanları açıq mühakimə elədilər, ya…

– Açıq, Nəzər müəllim. Mədəniyyət sarayında. Məxluq əlindən tərpənmək olmurdu, inan. Necə deyərlər, iynə atsaydın, yerə düşməzdi. Camaatın çoxu çöldə qalmışdı. Məhkəmə bir aydan çox çəkdi.

– Sən gedə bilmişdinmi barı?

– Hə, əvvəldən axıra qədər. Aman allah, bunlar necə adamlar imiş? Qurd kimi ağız-ağıza yatırmışlar sən demə. Birləşibmişlər, ancaq eyni zamanda da hər kəs özü üçün çalışırmış. Gizli yarış gedirmiş aralarında – kim daha çox götürə bilər. Cılız, şəxsiyyətsiz adamlar imişlər. Siz gərək orda olaydız, Nəzər müəllim, görəydiz dünən bir-birinə dost deyən, duz-çörək kəsən, sədaqət andı içən bu adamcıqlar bir-birini necə keçi qiymətinə satırdılar dar ayaqda. Bu onun üzünə dururdu, o bunun. Gərək öz gözlərinizlə görəydiniz, Nəzər müəllim. Rayonu söküb dağıdıblarmış, bizim xəbərimiz yoxmuş. Elə təkcə Süleyman on yeddi milyon yeyibmiş.

-Vay dədə. – Nəzərin pırpız qaşları yenə alnının ortasına qalxdı. Siqaret yandırdı. – O qədər pulu da yemək olar? Neynəyirmiş o pulları?

– Soruşdular. O pulun üç milyonunu bilirsiz hardan çıxartdılar?

– Evindən?

– Yox əşi. Rəhmətlik İmran kişinin qəbrindən.

– Nə danışırsan, a Tapdıq?

– Hə, həqiqət belədi.

– Yazıq İmran. Sağlığında pendir-çörəklə dolanan yazıq. Ta denən o kişinin qəbri də od tutub yanır ki? Amma Süleyman əvvəllər belə deyildi. Onu ətrafındakılar döndərib dəyişdirirdilər.

– Hə. Onun da üstü açıldı. Sən demə, bütün işlərin mayası İcrakom imiş. Hər şeyin ağası o imiş. Kim hansı vəzifiyə getməlidi, kim nə qədər verməlidi, kim tutulub aradan götürülməlidi. Hamısı onun əmiriylə icra olunurmuş. Sən demə bu ilanlara zəhər verən o kərtənkələ imiş. Sən demə, yuxarıda lap böyük adamı varmış. Ona

arxayınmış.

– Hə, bunu mən bilirdim. Süleyman o zaman məni başa salmışdı.

– Amma bu namərdlər ona da namərdlik elədilər. Satdılar onu da.

İcrakom məhkəmədə açıqca dedi ki, biz bu işləri öz başımıza eləməmişik. Ağa deyib «Sür dərəyə», biz də sürmüşük. Eh, nə isə. Gözünə döndüklərim hərəsinə on beş il iş kəsdilər. Düzünü deyim ki, bu hökmlə camaatın ürəyindən tikan çıxartdılar. Biz yazıqlar da indiyəcən elə bilirmişik ki, bizim rəhbərimiz-katibimiz, prokurorumuz, hökümətimiz var, milisimiz var. Sən demə bandit dəstəsi imiş.

– Hm. Dəhşətdi. Quzunu qurda tapşırırmışdılar. Mən Süleymana elə bunu deyirdim. Başa düşmədi. O qurdlara qoşuldu. O qurdlar əvvəl məni yedilər, Süleymana da bu işdə mənə qahmar çıxmadı. Özünü də məhv elədilər axırda.

Güldanə təzədən çay gətirdi. Nəzər isti çaydan bir qurtum içib ağzının acısını aldı və soruşdu:

– Bəs o mərdimazar oğlu Yunisi kim öldürmüş olar, a Tapdıq?

Tapdıq bir az fikrə gedib xatırlıyırmış kimi qaşlarını çatdı və söylədi:

– Qəribədi ki, Yunisi Qəribin toyu olan geçə öldürdülər. Mənə elə gəlir ki, Yunisi elə Müseyib özü öldürüb. Çünki mənim gözüm onda idi. Arada camaat şirincə yeyib içəndə, Müseyib yarım saatlığına yox oldu. Qayıdanda özündə-sözündə deyildi, çox həyəcanlı idi. Yamancada içirdi. Toyda kapitan Balamirzə də mənim yanımda oturmuşdu. Bir azdan kimsə gəlib onun qulağına pıçıldadı ki, bəs Yunisi öldürüblər. Kapitan toydan çıxıb hadisə yerinə getdi. Sonra mən çox götür-qoy elədim və fəhmnən belə başa düşdüm ki, - bu mənim mülahizəmdi, bəlkə də səhv eləyirəm, - Yunisi öyrədib sənin üzünə durquzan elə Müseyibin özü imiş. Yunis ağzından söz qaçırar deyə onun ağzını yummaq lazım deyildi? Yumdu da.

… Tapdıq gümanla-zənnlə deyirdi bu sözləri. Amma nə qədər qəribə olsa da, elə həqiqətdə də belə olmuşdu. O gecə Qəribin toyuna gələnlər yerlərini rahatlayıb oturandan, ortalığa düzülmüş ağbaş araq şüşələri açılıb başları dumanlandırmağa başlayandan az sonra, Müseyib lal-dinməz, öz maşınında aradan xəlvəti çıxmışdı, on dəqiqə sonra benzin doldurma stansiyasının çıraqban həyətində maşını əyləyib köşkə sarı addımlamışdı. Yunis pulları yenicə sayıb dəcləmiş, siyirmənin gözünə atmışdı. Müseyibi görüb təəccüblənmişdi

Yunis. Çünki Müseyib indiyəcən bircə dəfə də bu sükan arxasında oturub benizin doldurmağa gəlməmişdi. Onun heyrətini artıran bir də bu idi ki, qızının toyuydu bu gecə və Yunis bunu yaxşı bilimrdi. Cəld ayağa qalxıb onun qarşısına çıxmaq istəyirdi ki, Müseyib köşkün balaca pəncərəsi ağzına yetirdi özünü, başını içəri uzadıb mümkün qədər arxayın səslə:

– Ə, otur. Zəhmət çəkmə, otur. – söyləmişdi. – Sən bilmirdin ki, bu gün mənim qızımın toyudu? – Müseyibin ağzından gələn araq iyi uzaqdan onu vurmuşdu.

– Bilirdim, Müseyib qağa. Mübarəkdi, xoşbəxt olsunlar, qoşa qarısınlar. Gəlmək istəyirdim, ancaq Cağa İbrahim qoymadı. Dedi: «Sən qal, işində ol, sən getməsən, dünya dağılmaz, amma mən getməsəm, ayıbdı o kişidən.»

– Nə qədər pulun var, ə, yanında? – deyə bir başa mətləb üstünə gəlmişdi. Çünki vaxtı itirmək olmazdı, gələn, görən ola bilərdi.

– İki mindən bir az artıqdı, Müseyib qağa.

– Bəri ver, görüm. – Yunis çaşıb qaldığını hiss edib əlavə eləmişdi: – Ə, gözlərini niyə döyürsən? Başa düşmədin dediyimi?

– Ba…şa düş…dümmm… Ancaq…

– Nə ancaq, ə, küçük. Tez elə görüm. Sənə ta pul lazım olmayacaq.

– Niyə, Müs…

– Çünki səni indi öldürəcəyəm, Yunis. Yoxsa yadından çıxıb? Ə, Nəzər sənə neynəmişdi?

– Nəzər? Heç nə .

– Bə niyə onun üzünə durdun, ə?

– Sən dedin, mən də elədim də.

– Ə, adama çox şey deyərlər, hamısını eləyər? Bəlkə biri gəlib diyəcək ki, özünü beş mərtəbədən at, atassan? Bəlkə biri sabah gəlib deyəcək Müseyibin üzünə dur, durassan?

– Yooxxx…

– Yalan deyirsən, durassan, haramzada! Mən səni yaxşı tanıyıram. Nəzərin üzünə necə dayandın, eləcədə sabah mənim üzümə dayanarsan.

– Yox, vallah, dayanmaram, Müseyib qağa. Tikə-tikə doğrasalar da, dayanmaram. – Yunis qorxudan əsmişdi, rəngi avazımışdı. Durub qaçmaq da ürəyindən geçmişdi, ancaq bunun mənasız olduğunu anlayıb əlləri əsə-əsə siyirmədən pulları çıxarıb Müseyibin qabağına qoymuşdu: - Götür bunları, ancaq məni…

– Kəs səsini, ə. – Müseyib iri əlini irəli uzadıb pulları qamarlamış, cibinə qoymuşdu: – Amma heç kəsə bir kəlmə də. Bildin?

– Bildimmm, Müseyib qağa. Ölənəcən qulunam. – Yunis arxayın olmuşdu ki, Müseyib daha onu öldürməyəcək. – Cağa İbrahimə deyərəm gəlib əlimdən zorla aldılar pulları. Tanıyammadım kim idi…

Ancaq bu zaman …güllə acılmışdı və Yunis vəhşi kimi qışqırıb başını mizin üstünə qoymuşdu.

…– Bə toy gecəsinə niyə saxlayırdı o çərxi dönmüş? Başqa vaxd öldürə bilməzdi? – Ərinin fikirlərini birinci dəfə eşidən Güldanə xəbər aldı.

– Bu çox incəliklə düşünülmüş bir işdi, Güldanə. Sən deyən kimi, əgər Yunisi başqa vaxt öldürsəydi, onda gərək Qəribi tutaydılar. Çünki orqan da, elə cammat da düşünəcəkdi ki, Yunis Qəribi öldürüb. Ona görə ki, Yunis Qəribin atasını tutdurub. Bunu isə Müseyib istəməzdi-çünki Simuzəri sırımaq lazım idi, Qərib onun əlinə göydən düşmüşdü. Doğrudan da sonra Qəribi dindirdilər. Amma məlum oldu ki, Qərib o gecə toyda idi, Qərib o gecə bəy idi. Heç nə deyə bilmədilər, tutacaq tapmadılar.

– Bə onda özü niyə öldürürdü, başqa adam tapıb yollaya bilməzdi, a Tapdıq? – deyə Güldanə yenə sadəlöhvcəsinə xəbər aldı.

– Tapa bilərdi, qızım. – deyə Tapdığın məntiqinə və mühakiməsinə heyran olan Nəzər bir az da dərinə getdi. – Amma bu ona sərf eləməzdi. Sirri olduğuna görə Müseyib neçə vaxdı Yunisin yanında dili gödək idi. Onu oradan götürüb başqa birisinin yanında dili gödək olmaq sərfəli olmazdı Müseyib üçün. Heç kəsə etibar eləməyəndə adam məhz belə hərəkət eləyir, bala. Həmin işi özü görür-şahidi olmasın deyə.

– Düzdü, Nəzər müəllim. Ancaq mənə bir şey qaranlıqdı.

– Nə?

– Müeyib sənin qəsdinə niyə durmalı idi? Sən ona neyləmişdin?

– Hə, burda məsələ belədi. Nəzarət komitəsinin sədri seçiləndən az sonra mən Süleymanın yanına gedib rayonumuzun bütün böyük, vəzifəli rüşvətxorlarının, oğrularının, talançılarının siyahısını təqdim elədim. O siyahıda Müseyibin də adı vardı. İndi düşünürəm ki, - çox güman ki, belə də olub. – Ya Süleyman həmin siyahını özü vermb onlara, ya da stolunun üstündə görüblər, götürüblər. Mən o siyahının qurbanı oldum, bala. Adları o qara siyahıda olan adamlar məni bax buna görə bu günə saldılar. Mən bilirdim onlar güclüdülər.

Ancaq mən bu qeyri-bərabər döyüşdə Süleymana - onun simasında partiyaya, həqiqətə arxayın idim. Təəssüf ki… Yaxşı, indi Süleymanın yerinə kimi qoyublar?

– Ta «qoymurlar» katibi, Nəzər müəllim. İndi seçirlər.

– Eşitmişəm. Amma nə isə inana bilmirəm.

– Yox, inan. İndi heylədi.

– İndi kimdi katib?

– Baba. Baba İskəndərov. İstehsalat idarəsinin rəisi vardı ha, onu.

– Nə yaxşı, nə yaxşı. Təmiz adamdı, vicdanlıdı, ədalətlidi. O vaxt Süleymanın bürosunda da təkcə o idi ləyaqətli. O zaman məni partiyadan çıxardanda partbiletimi Süleymana yox başqa büro üzvlərinə yox, məhz Babaya təhvil verdim.

– Eşitmişəm. Süleymanın və başının dəstəsini darmadağın edəndən sonra, katibiylə iki nəfər namizəd var idi. Birini Bakıdan göndərmişdilər. Mərkəzi komitənin instruktoru idi, o biri də Babaydı. Gizli səs verməyə buraxdılar - Bakıdan gələn qaldı qutuda. Çünki heç kəs tanımırdı onu.

Baba isə yekdilliklə katib seçildi.

– Baba yaxşı kadrdı, ziyalıdı. Demək, köhnə «sostav» getdi, hə?

Güldanə sevinc hissiylə dedi.

– Hə, getdi. Hamısının tufağı dağıldı. Apardılar hamısını. Səni göndərdikləri yerə özlərini apardılar, ata.

– Gördüm, qızım. Elə bu gün, o ağzı birdən çıxanda onları gətirdilər. Qapının ağzındaca qarşılaşdıq. Bu də talehin bir qisməti imiş bəlkə. Süleyman gördü məni, tanıdı da. Amma hayıf…

– Niyə hayıfsılanırsan, Nəzər müəllim?

– Ona hayıfsılanıram ki, onlarla danışa bilmədim, bala. Bu, məni yaman yandırır. Çünki oraya düşəndə arzum bircə bu olub ki, mən nəyin bahasına olursa-olsun yaşamalıyam, ölməməliyəm, sağ-salamat çıxıb gəlməliyəm. Süleymanı, Müseyibi, Yunisi, Ağayevi, Hilalovu tapmalıyam, onların gözünün içinə baxmalıyam. Sadəcə baxmalıyam. Görüm onlar mənim gözümün içinə necə baxacaqlar. Bütün bu illəri bax bu arzuyla yaşamışdım, qismət olmadı. Yox, bu arzuma çatmamış ölməyəcəyəm. Yaşayacağam, onların qayıdıb gəlməsini gözləyəcəyəm, ürəyimdə qövr eləyən sözlərimi deyib… sonra rahat dünyadan köçəcəyəm.

– Arzuna çatasan, Nəzər müəllim.

– Sağ ol, bala. Onları yıxan pambıq oldu da?

– Hə, Nəzər müəllim, pambıq. Hamımızın «ağ qızıl» adlandırdığımız pambıq, həqiqətdə elə əsl qızıl imiş. Onu min zillətnən əkib-becərən, üstündə əsim-əsim əsən, yığıb təhvil verən bu yazıq camaat heç bilmirmiş. Milyonlar imiş pambıq, milyardlar imiş. O «ağ qızıl» kimin üçünsə ağ gün imiş, kimin üçünsə qara gün imiş. Nəzər müəllim. – Tapdıq yerində qurcalanıb əlavə elədi. – İndi, bu qədər əziyyətlərdən, itkilərdən, məhrumiyyətlərdən, göz yaşlarından sonra yeganə təsəllimiz budur ki, pambıqla başımızı kəsənlərin hamısının başını elə pambıqla kəsdilər.

– Allaha qurban olum, verdi cəzalarını.

– Allaha yox, qızım. Ədalətə de, ədalətə. Mən elə o vaxt yazıq Bikəyə elə hey deyirdim ki, günlərin bir günündə nağıllarımızda olduğu kimi, bir ağ atlı oğlan gəlib var səsi ili hamıya car çəkib deyəcək ki, ay yoldaşlar, ay insanlar, ay vətəndaşlar, belə yaşamaq olmaz. Çünki böyük Lenin belə deməyib, vallah belə deməyib, billah belə deməyib. Şükür, şükür ki, gəldi o ağ atlı oğlan - o ədalət, nəhayət gəlib çıxdı. Ancaq hayıf,Bikə onun gəldiyini görməmiş, haqsızlıqlar əlində çırpına-çırpına köçdü dünyadan.

DOQQUZUNCU FƏSİL

Nəzərn həbsxanadan çıxması çox böyük sürətlə rayona yayılmışdı. Eşidən-bilən, dost-tanış axışıb həm başsağlığına, həm də gözaydınlığına gəlirdilər. Əlbəttə, çoxu müəllim idi gələnlərin. Zakirə Nəzəri görəndə uşaq kimi ağlamışdı. Nəzər ona toxtaqlıq verib güclə sakitləşdirmişdi. Nəzər Zakirədən öyrənmişdi ki, Süleymangil tutulandan az sonra Murad Muradzadəni maarifdən, Şakiri məktəb direktorluğundan götürmüşdülər. İndi «Qırmızı məktəbin» direktoru Zakirə idi. Təbii ki, Şakir gəlməmişdi. Zakirənin dediyinə görə utandığından gələ bilmirdi.

Bunu eşidəndə Nəzər başqaları da eşitsin deyə ucadan demişdi:

– Yaşayanda gərək elə yaşayasan ki, sağlığında özün utanmayasan, öləndən sonra da övladın, qohum-əqraban.

Nəzər Tapdığın uzun aynəbənddə təşkil elədiyi məclisin yuxarı başında otururdu. Dinib-danışmırdı. Adamlara qulaq asır, gələndə: «Son qəmin olsun, allah rəhmət eləsin.» - deyənlərin demək olar ki, hamısına eyni sözlərlə dil-ağız eləyirdi.

Məclisə təşrif gətirənlərin elə ilk baxışda onun necə qocaldı-

ğını, tamam şikəst olduğunu görüb çaşdıqlarını, həyacanlandıqlarını Nəzər açıqca duyurdu, pərt olurdu. Amma neyləyə bilərdi? Dözməliydi, oturmalıydı.

Vaxtı ilə uca boyu, qəşəng sifəti, iri, qonur gözləri olan, sol qıçını azca çəkməsiylə uzaqdan tanınan Nəzəri, sağ gözü qıyılıb kiçilmiş, dodağı əyilmiş, təkqıç görməyə adət eləməsi üçün bu camaata hələ çox vaxt lazım idi. İkinci, üçüncü dəfə gördüyü adamların yanında o qədər də sıxılmırdı – ilk dəfə rast gəldiyi adamdan isə yaman utanırdı və bu elə hiss idi ki, Nəzərin fikrincə, onu, ancaq sonradan şikəst olanlar başa düşə bilərdi. Bu hiss bir də ona görə Nəzərə daha çox əzab verirdi ki, onu ikinci dəfə yaşayırdı. Birinci dəfə qırx üç il bundan əvvəl müharibədən sol qıçı şikəst qayıdanda anası, sonra kənd, daha sonra isə rayon adamları onun axsadığını görəndə yaşamışdı o hissi. Ancaq vaxt dolanıb keçdikcə, hamı buna adət eləmişdi, çoxuna elə gəlmişdi ki, Nəzər elə əvvəldən axsaq olub. Onun şax, düz yeriyən çağlarını az qala unutmuşdular – Səlminaz arvad da, Bikə xanım da, elə Nəzərin özü də. Yox, Nəzər unuda bilmirdi. – Təzə, tanış olmayan adam görəndə, bir də diz qapağının altındakı qəlpə tərpənib ağrı verəndə, kişi şikəst olduğunu kədərlə xatırlayırdı.

İndi də bu adamlar onun şikəstliyinə adət eləyəcəkdilər, öyrəşəcəkdilər. Yenə təkcə Nəzər bunu yaddan çıxara bilməyəcəkdi, çünki hər gün qoltuqağaclarını götürməliydi, hər gün güzgü qabağında dayanıb üzünü taraş eləməliydi. Və şikəstliyini görüb əzab çəkməliydi.

Vaxt yelə dönüb ötürdü, qanadı sınıq quşa bənzəyən Nəzər çətinliklə olsa da, yavaş-yavaş həyatın adi axarına qoşulur, nəvələrinin dərslərinə baxır, cümə axşamları isə Tapdığın maşınında Bikə xanımın və anasının qoşa qəbrini ziyarət eləyirdi. Qəbirlərin yanında gül kolları əkmişdi, dörd dənə küknar ağacı basdırmışdı.Mayın axırında, sinəsinin, beyninin tufanı, qayğıları azalıb səngiyəndə, Tapdıq rayon mərkəzindən Nəzərin yuxusunda da görə bilməyəcəyi və ağlına gətirməyəcəyi elə bir xəbər çatdırdı ki, kişinin təzəcə sakitləşib toxtamağa başlamış ürəyi təzədən dəniz təki çalxalandı, bulandı.

Tapdıq tələsə-tələsə dedi:

– Nəzər müəllim, dur geyin, rayon mərkəzinə aparacağam səni.

– Noolub, ay oğul? Xeyirdimi? – deyə hovuzun qırağında dayanıb balıqlara tamaşa eləyən Nəzər nigarançılıqla soruşdu.

– Bilirsən, Canəli bəyin nəvəsi gəlib.

– Canəli bəy kimdi, a Tapdıq?

– Canəli bəy də. Sənin atan Kərim kişinin bəyi var imiş ha.

– Hə. Hə. Canəli bəy… Nə danışırsan, a Tapdıq? Heylə şeymi olar? Gör neçə ildi gedib.

– Özü gəlməyib ey, əşi, Canəli bəyin nəvəsi gəlib. Amerikadan gəlib. Sən demə, bəy o vaxt gedəndə «Əzgilli dərədə» qızıl basdırıbmış. Nəvəsi indi gəlib ki, o qızılları çıxartsın, iyirmi beş fayızın götürsün özünə, necə ki, qanun deyir, qalanını da versin Şura hökumətinə. Balamirzə var ey, milis idarəsinin təzə rəisi, o danışdı mənə.

– Bə bu nəvə hardan bilir ki, babası qızılları harda basdırıb?

– Balamirzə deyir ki, Canəli bəy çoxdan ölüb, onun oğlu Murad da qocalıb, xəstədi. Kişi ölməmişdən qabaq Murada vəsiyyət eləyib, qızılları basdırdığı yerin xəritəsini çəkib verib Murada. Deyib ki, dünyanın işini bilmək olmaz, bir də gördün fələyin çərxi tərsinə dövran elədi, ya sən, ya uşaqların vətənə qayıtmalı oldu – bax, burdadı qızıllar. İndi Murad da öz oğlu Cəbrayıl bəyi göndərib.

– Gör ha.

– Balamirzə dedi ki, həl-həlbət, get Nəzər müəllimi gətir, Cəbrayıl bəylə görüşsün – bəlkə dədəsindən bir xəbər-zad öyrənə bildi.

Nəzərin rəngi ağappaq ağardı. Elə bil kişinin dili tutuldu, dodağı səyridi. Handan-hana özünə gəlib:

– Hə, düz deyir, gedək, bilməmiş olmaz. Görəsən o yazıq sağdı, ya… Yox, indiyə qalmaz… Kim bilir…

– Hər halda əgər Canəli bəyə qoşulub gedibsə, bir şey bilər Cəbrayıl bəy.

– İndi hardadı o?

– Balamirzə dedi bir azdan Bakıdan gələn iki yoldaşnan gedəcəklər «Əzgilli dərəyə». Bir də fəhlə götürəcəklər ki, o xəritədə manşırlanmış yeri qazıb qızılları çıxartsınlar… Balamirzə də orda olacaq.

… «Əzgilli dərə» kəndin üç-dörd kilometrliyində idi. Dağın ətəyində idi – cır nar, cır əzgil, cır armud ağaclarından, bir də moruqdan başqa bir şeyi yox idi. Uşaq vaxtı Nəzər bura çox gəlmişdi, yoldaşları ilə oynamışdılar, güləşmişdilər, ot biçib mal-heyvana gətirmişdilər. Hər kol, hər ağac yadında idi Nəzərin.

Tapdığın maşını «Əzgilli dərəyə» çatanda, beş-altı nəfərdən

ibarət dəstə, artıq qocalıb qupquru qurumuş iri armud ağacının yanında dayanmışdı. Tapdıq maşını «Qaz-69»un böyründə saxladı, ikisi də düşüb dəstəyə yaxınlaşdı. Balamirzə onları görən kimi əliylə işarə eləyib çağırdı və yanında dayanmış uca boylu, səliqə ilə geyinmiş qulağına nə dedisə, o, qanrılıb Nəzərə baxıb gülümsündü. Onun otuz, otuz iki yaşı ancaq olardı. Nazik bığı, iri ala gözləri var idi və sifətindəki mehribanlıq uzaqdan diqqəti cəlb eləyirdi. Yaxınlaşdılar. Balamirzə özünə məxsus ərkyanalıqla üzünü qonağa tutub:

– Cəbrayıl bəy, lütfən tanış olun, babanız Canəli bəyin nökəri Kərimin oğlu – sizə dediyim Nəzər müəllim bax, bu kişidir. – söylədi. – Sizi görməyə gəlib.

Nəzər oğlanın irəli uzanan əlini hərarətlə sıxdı:

– Xoş gəlmisiniz, Cəbrayıl bəy.

– Çox şadam, Nəzər kişi – dedi Cəbrayıl bəy təmiz azərbaycan dilində. Nəzər fikirləşdi: «Nə əcəb amerikada öz ana dilimizi unutmayıb? Külü qoyum başına, mənim nəvəm burda mənnən öz dilimizdə danışa bilmir».

– Hə, Nəzər müəllim, indi soruş atanı. Cəbrayıl bəy nə bilsə deyər – deyə Balamirzə arada yaranan gərginliyi azaltdı. Yalnız bundan sonra Nəzər fikrini cəmləyib çoxdan, lap çoxdan, otuz yeddinci ildə anasının Canəli bəy, əri Kərim və qızıl əhvalatı barədə danışdıqlarını qısaca Cəbrayıl bəyə nağıl elədi. Cəbrayıl bəy Havana siqaretinə qüllab vura-vura diqqətlə qulaq asırdı. Üz-gözündən hiss olunurdu ki, Cəbrayıl bəy bu əhvalatı bilmir, eşitməyib.

– Həmin gecə bəy, arvad-uşağını da, atamı da götürüb ov adıynan çıxıb gedib. Düz altmış səkkiz ildi. Nə bəydən, nə atamdan indiyə qədər bir xəbər eşitməmişik.

Cəbrayıl bəy başını yellədi:

– Yox, mən… Kərim adlı adam görməmişəm. Eşitməmişəm də.

Babamla getmiş olsaydı, atam Murad bəy bilərdi. Yox, Kərim haqqında mən bizim ailədə heç bir söhbət eşitməmişəm.

Nəzər dönüb Tapdığa baxdı. Tapdıq dodaqlarını büzüb çiyinlərini çəkdi. Araya sükut çökdü.

Cavan bir oğlan təmkinlə, tələsmədən yeri qazırdı. Bakıdan gələn iki nəfər kişi aralarında nəsə danışa-danışa oğlanın qazdığı yerə baxırdılar. Birdən oğlan qışqırdı:

– Küp. Ə, küp.

Hamı boylandı. Balamirzə qabağa çıxıb gödək boğazını irəli uzadaraq:

– Hanı, a Səlim? – dedi. Oğlan peşmançılıqla cavab verdi:

– Küp döyülmüş, nəçənnik. – Sümükmüş. Vay, ə, bura qəbristanlıq olub nədir? Adam kəlləsidi, nəçənnik, bu.

Bakıdan gələn kök kişi amiranə bir səslə:

– Ehtiyatla. Gen götür, gen götür, Səlim. – söylədi.

Hamı donub qalmışdı. Səlim iki metr eni, iki metr uzunu olan sahəni səliqə ilə, son dərəcə ustufca qazırdı. Beşinci təpgəcdə nəhayət, küp göründü. Ancaq…Böyründə də…adam skeleti.

Nəzər uçundu, Cəbrayıl bəy çaşqın-çaşqın döyükdü. Yarım metrə yaxın hündürlüyü olan və ağzı möhkəm bağlanıb sarınmış küpün dibində, çömbəltmə vəziyyətində, başını küpün böyrünə söykəmiş skeleti görəndə ağamların üstünə elə bil su çiləndi. Heç kəs dinib-danışa bilmədi. Səlim küpün üzünün torpağını təmizlədi, sonra skeletə baxdı, istədi əlini sümüyə tərəf uzatsın, ancaq nəsə üşürgələnib dayandı. Bakıdan gələn kök kişi bərkdən söylədi:

– Bir ora baxın, qafa tası üç yerdən deşikdi. Deyəsən kəllə yeridi. Skeleti ehtiyatla çevir, Səlim. Orda güllə olmalıdı, diqqətnən bax torpağa.

Səlim skeleti çevirdi, küpün dibinə baxdı, güllə-filan yox idi. Kəllənin alt çənəsi aralı idi, qaralmış dişləri görünürdü. Üst çənənin qabaqdan üç dişi yox idi.

Nəzərin gözləri qaranlıq gətirdi.

– Bay, puldu ki, bu. – deyə Səlim yerdən güllə əvəzinə bir dənə girdə dəmir pul götürdü, baş barmağı ilə şəhadət barmağı arasında sürtüb təmizlədi. Kök kişi dedi:

– O, qızıl onluqdu.

Səlim iki dənə də o puldan tapdı. Hər şey aydın idi Nəzərə. O üç qızıl onluq Canəli bəyin atasına dişlərini düzəltdirmək üçün verdiyi pullar idi. Skeletin üst çənəsindən düşmüş o üç dişi də Canəli bəy öz çəliyi ilə vurub salmışdı. Birdən Nəzər:

– Dədə, ay dədə! – deyə elə qışqırdı ki, oradakıların hamısı səksəndi. Tapdıq yüyürüb Nəzəri qucaqlayaraq saxlamasaydı, kişi çuxura, atasının sümüklərinin üstünə düşəcəkdi. Küp yaddan çıxmışdı.

ONUNCU FƏSİL

Nəzər atasının sümüklərini bir gecə evdə saxladı. Qonum-qonşu, eşidən-bilən axışıb gəldi. Ağlamaqdan gözləri qızarmış Gül-

danə, camaat dağlışıb seyrələndən sonra çəkinə-çəkinə atasını yanlayıb dedi:

– Bəlkə Güllüyə zəng eləyim gəlsin, ata.

Kişi tərs-tərs qızına baxdı:

– Sənə o dəfə demədimmi ki, onun adını mənim yanımda çəkmə. O adda qızım yoxdu mənim. Bildin? Bax, sənə vəsiyyət eləyirəm, mən öləndə o üstümə gəlməsin, eşidirsən? Qərib gəlməyəcək onsuz da. Gələ bilməyəcək, gəlməsin. Mən çörəyimi halal eləmirəm, eşidirsən?

Güldanə hıçqırdı.

… Kərimin sümüklərini Canəli bəyin qızıl küpünün yanından tapılması lap nağıla oxşayırdı: hərə bir cür yozur, kimi inanırdı, kimi inanmırdı. Göz yaşları üzünə yox, ürəyinə axan, zahirdə özünü təmkinli aparıb içəridə kəm taleliyinə yanıb-yaxılan Nəzərə isə hər şey aydın idi. Tapılan sümüklərin atasının olduğuna zərrəcə şübhə eləmirdi. Çünki o vaxt mərhum Səlminaz arvad əhvalatı yerli-yataqlı danışmışdı ona. Skeletin üst çənəsinin üç dişi yox idi. Səlminaz danışmışdı ki, o zaman, qızıl küpü Səlminazın işarəsi ilə ocağın içindən tapılanda, özünə gəlmiş Canəli bəy, əlindəki çəliklə Kərimin ağzına elə vurmuşdu ki, onun qabaqdan üç dişi sınıb həsirin üstünə düşmüşdü və sonra bəy, küpdən üç dənə qızıl onluq götürüb Kərimin ovcuna basaraq, "Gedib dişlərini düzəltdirərsən. Qoy baxanlar görsünlər ki, Canəli bəyin nökərinin də dişləri qızıldandı, qoy yanıb-yaxılsınlar." – demişdi. Kərim də o üç qızılı alıb keçə şalvarının sağ cibinə qoymuşdu. Küpün yanından tapılan o üç qızıl həmin üç qızıl idi. Təkcə bu iki dəlil kifayət idi ki, Nəzər küpün yanından tapılan sümüklərin atasınınkı olduğuna inansın. Ona görə Nəzər heç nə demirdi, siqaretini tüstülədirdi və tüstü dumanları arasından anasının bu sözlərini də xatırlayırdı ki, həmin gün bəy deyib, "A Kərim, o qara qoçu kəsərsən, yaxşı bir kabab eləyərsən. Sübh çağı ova gedəsiyik. Muxtar bəy bizimlə gedəsidi." Səhər Səlminaz ayılanda görüb ki, baba köçüb, yurdu qalıb. Kərim də o gedən gedib.

Nəzərin yaddaşı buracan işləyirdi, bunda o yana gedə bilmirdi. Dünənəcən xəyalı atasının adı, sorağı dalınca İrana, Türkiyəyə, Amerikaya, daha nə bilim haralara uçub gedirdi. Dünəndən isə "Əzgilli dərə"də bənd alıb dayanırdı.

… O gecə Canəli bəy arvad-uşağını, vəzncə yüngül, qiymətcə ağır şeylərini, qızıl-gümüşünü atlara yükləyib Kərim yuxudaykən oğlu Muradın qabağına qatıb yola salmışdı. Səhərə yaxın, saat dörd

radələrində isə ikisi yola düzəlmişdi. Bəy qara kəhərdə idi, Kərim qaşqa ata minmişdi. Kənddən çıxmışdılar. "Əzgilli dərə"yə çatanda bəy, kəhərin başını çəkmişdi və atdan enmişdi:

- Düş, a bala. Bax burda, bu ağacın dibində bir çuxur qaz.

- Çuxur? Çuxuru neynirsiniz, bəyim? – Kərimin canından bir soyuq üşütmə keçmişdi və fikrinə gəlmişdi ki, deyəsən bəy dünənki oğurluğuna – qızıl küpünü götürüb ocağın içində basdırdığına görə onu öldürmək istəyir, qəbrini də özünə qazdırır. «Canəli bəy xəyanəti bağışlayan deyil. Gərək gecəykən Səlminazı da götürüb çıxaydım aradam.» Belə düşünüb yazıq-yazıq qaranlıqda bəyin üzünə baxdı. Bəy onun fikrindən keçəni oxumuş kimi qımışıb demişdi:

– Ağciyər olma, ə. Mən səni öldürən deyiləm. Qaz, bu qızıl küpünü burada basdıracağıq. Al, bu da beldi, özüm götürmüşəm. – Yəhərin böyründən gödək saplı bir bel çəkib Kərimin qabağında yerə sancdı. – Amma cəld ol, hava işıqlanmamış buradan çıxaq gedək.

Kərim bir az toxdayıb özünə gələndən sonra heç nə demədən beli götürüb bəyin ayağı ilə işarə elədiyi yeri qazmağa başlamışdı. Gen qazmışdı, dərin qazmışdı bəyin göstərişiylə. Sonra yenə bəyin göstərişi ilə küpü qara kəhərin belindəki böyük xurcunun sağ gözündən çıxarıb çuxurun içinə qoyanda Canəli bəyin səsini eşitmişdi:

– Kərim, mənnən gedirsən?

– Hara, bəyim? – Kərim elə çuxurun içindən soruşmuşdu.

– Xaricə. İrana, Türkiyəyə. Ayağımız hara apardı, ora. Ta bizim burada qalmağımızdan keçmiş ola. Bolşovoylar gəlirlər. Onları da tanıyırsan da. Əvvəlcə məni bəy olduğuma görə divara söykəyib güllələyəcəklər. Sonra da səni… Mənim nökərim olduğum üçün.

– Yox, bəyim. Mən gedə bilmərəm. Səlminazı o vəziyyətdə qoyub hara gedə bilərəm, bəyim?

– Demək, getmirsən, hə?

– Yox, bəyim. Allah bağışlamaz.

– Bəs…oğurluq eləyəndə heç Allahdan qorxmurdun, namərd?

– …

– Yəqin fikirləşirsən ki, Canəli bəy axmaqdı, qızıllarını basdırıb çıxıb gedir. O gedən kimi, arın-arxayın gəlib bu qızılları çıxardıb apararsan, qoyarsan başının altına, sonra xımır-xımır yeyərsən, hə?

– Yox, bəyim.

– Yalan deyirsən, it küçüyü! Gözünün içinəcən yalan deyirsən. Amma onu görə bilməyəcəksən!

Sonra sübhün alaqaranlığında üç dəfə atəş açılmışdı. Kərim heç cınqırını da çıxarda bilməmişdi, dizləri bükülmüşdü, əlləri ilə başını qamarlayıb küpün dibinə çökmüşdü. Canəli bəy tapançasının lüləsini üfürüb qoburuna qoymuşdu, beli götürüb küpün də, Kərimin də üstünü torpaqlayıb ayaqlamışdı, kənardan bir neçə çim yaşıl otlu torpaq gətirib tökmüşdü. Sonra… çuxasının cibindən yaylıq çıxardıb alnının tərini silərək başını qaldırıb göylərə baxmışdı. Topa-topa qərbə tərəf axan qara buludların arxasından ay, nəhəng tək göz kimi Canəli bəyin bu əməlinə sanki tamaşa eləyirdi. Bəy, əlini şəvə saqqalına çəkib astaca.

– Allah, özün keç günahımdan. – deyə pıçıldamış, qara kəhərə minib köç-külfətinin dalınca çapmışdı.

… Səhərisi, axşam çağı Kərimi Səlminazının yanında-arvadının və üzünü görmədiyi yeganə oğlunun üzünü görmədiyi, səsini eşidib nəfəsini duymadığı, istisinə qızınmadığı, tüstüsündən isə az qala kor olduğu oğlu Nəzər basdırırdı.

Axşam Tapdığın həyətində qurulan təziyyə məclisində xeyli adam var idi. Keçmiş vərəqlənir, tarix yada salınırdı. Kapitan Balamirzə Əliyev elə şirin danışırdı ki, elə bil o vaxt, Canəli bəy Kərimi öldürəndə oradaymış.

– Canəli bəy Kərimə çalanı qazdırıb. Özünün də təpəsinə elə oradaca üç güllə çaxıb. Güllələrin qurğuşununu da tapdılar uşaqlar. Görünür bəy Kərimə deyib, - Gedək bizimlə. O isə razı olmayıb. Onda Canəli bəyin Kərimi öldürməkdən savayı çarəsi qalmayıb. Çünki bəy gedəndən sonra, qızılların yerini bilən Kərim, şübhəsiz, gəlib onları apara bilərdi. Bəli. Bakıdan gələn yoldaşlar da elə mənim kimi fikirləşirlər.

Nəzər əlini üzünə dirəyib Balamirzənin söhbətinə key kimi quluq asırdı. Məclisdəki kimsə xəbər aldı:

– Nəçənnik, indi o Cəbrayıl bəyə həmin qızılların iyirmi beş fayızını verəcəksiz də? Gör əlli kilo qızılın iyirmi beş fayızı neçə kilo eləyir, ə?

– On iki kilo.

– Vay dədə vay!

– Cəbrayıl bəyə bir qram də qızıl verməyəcəyik. Nədən ki, onun babası tünbətün günahsız adamı öldürüb. Hələ sağ olsaydı, onu cinayət məsuliyyətinə də cəlb eləyərdik. Hayıf ki, ölüb.

– Cəbrayıl bəyi onun əvəzinə tutmaq olmaz?

– Yox. Onun nə günahı var ki? – Balamirzə belə deyəndə

gözləri Nəzərin kədərlə baxan gözlərinə sataşdı və günahkarmış kimi başını aşağı salıb susdu.

Gecədən xeyli keçmiş, camaat dağılışıb ancaq ailə üzvləri qalanda rayon partiya komitəsinin təzə katibi Baba İskəndərov gəlib çıxdı. Babanı görən kimi Nəzər ayağa qalxdı. Çox mehriban görüşdülər. Baba Nəzərin arıq, çəlimsiz vücudunu sinəsinə sıxıb alnından öpdü və doluxsunmuş halda:

– Xoş gəlmisən, mənim əziz müəllimim. Həmişə evində-eşiyində, el-oba içində - dedi.

Nəzər uşaq kimi kövrəldi:

– Çox sağ ol, ay oğul. Ömrün uzun olsun. Zəhmət çəkmisən.

– Borcumdu, Nəzər müəllim.

– Səni də təbrik edirəm, oğul.

– Sağ ol, Nəzər müəllim.

Onlar uzun mizin arxasında oturdular. Tapdıq hər ikisinə çay gətirdi. Xeyli ordan-burdan danışdılar, dərdləşdilər. Söhbət hərlənib-fırlanıb Canəli bəyin üstünə, onun Kərimi qətlə yetirməsi məsələsinə çatanda Nəzər kədərli-kədərli dedi:

– Yadındadı da, Baba, o eynəkli canavar-Quleyivi deyirəm ey, - o vaxd büroda məni ittiham eləyirdi ki, atama xaricə qaçdığını gizləmişəm. "Türkiyədədi? İrandadı? Yenə əlaqə saxlayırsan?" faşist oğlu faşist.

– Hə, yadımdadı, Nəzər müəllim, hər şey yadımdadı.

– Sən demə, yazıq kişi burada, gözümün qabağında, "Əzgilli dərə"də uyuyurmuş, heç xəbərim yoxmuş. Ondan incimiş olsa da, biçarə anam elə nigaran köçdü dünyadan. İndi heç olmasa sümükləri qovuşa bildi. Gec də olsa, mənim də gözlərim yollardan yığıldı, tənəli sözlərdən canım qurtardı. – Barmaqları əsə-əsə siqaret yandırdı, acgözlüklə sümürdü və dərdli-dərdli əlavə elədi, – Deməli bəy öldürdü, məni də…özümünkülər öldürmək istəyirdi. Faşistlər öldürə bilməmişdi, ancaq… özümünkülər…

Baba, müəlliminin yamanca kövrəldiyini, indicə uşaq təki ağlayacağını hiss eləyib sözünü yarımçıq kəsdi:

– Qəm yemə, Nəzər müəllim. Keçmiş ola. Unut getsin.

– Nə danışırsan, Baba? Mənə edilən bu zülümləri necə yaddan çıxarmaq olar, oğul? Mənim heç bir günahım yox idi axı…

– Mən elə onda da inanırdım ki, sən təmizsən. Səni o vaxt nahaqdan ləkələdilər, partiyadan haqsız çıxartdılar…

– Amma mən özümü partiya sıralarından çıxarılmış hesab

eləmirəm, oğul. Partbilet-kağızdı. Biri vermişdi, o biri aldı. Mənim partbiletim mənim məsləyimdi! Onu isə mənim əlimdən heç kəs ala bilməz, heç vaxt, heç kəs ala bilməz, Baba.

Elə bu zaman…Nəzər müəllim çadırın arxa tərəfində danışıq səsi eşidib susdu. Danışanları o dəqiqə tanıdı. Nəvələri idi - Elmanla Elcan idi. Artıq böyüyüb yekə oğlan olmuş, yeddinci sinifdə oxuyan nağılpərəst Elcan ciddiyyətlə qardaşına deyirdi:

– Yox, Qardaşxan müəllim düz demir, qaqaş. Doğrudu, adamlar danışanda "Vicdan" söyləyir, amma yazıda "Vicdan" olmalıdı. Səhər dərsdə özünə söyləyəcəm ki, siz düz demirsiz, Qardaşxan müəllim.

Nəzər Elcanın sözlərini eşidib qanadlandı, dərdlərini unutdu, nəvəsinin qətiyyətində, cəsarətində özünü, öz ürəyini, öz keçmişini görüb Babaya nikbinliklə göz vurdu:

– Kiçik nəvəmdi. Xasiyyətdə eynən mənə oxşayır. Kaş taleyi mənim taleyimə oxşamasın.

… Oxşayacaqdımı? Oxşamayacaqdımı? Dünyanın işlərini bilmək olurmu?

SON

1981-1988
BAKI – ŞÜVƏLAN

KİTABIN İÇİNDƏKİLƏR

ROMAN

Dünyanı tanı 10

ƏLİBALA QÜDRƏT OĞLU HACIZADƏ

Ə S Ə R L Ə R İ
X CİLDDƏ

VI CİLD

Bakı – 2005

Nəşriyyatın direktoru: **Hafiz Abıyev**
Nəşriyyat redaktoru: **Qabil Xeyrullaoğlu**
Korrektor: **Nurlanə Qasımlı**
Operator: **İradə Həsənli**
Çapçı: **Mircəlal Kazımov**
Cildçi: **İlyas Cəlilov**

Çapa imzalanmışdır: 15.08.2005. Sifariş № 34. Formatı 84x108$^{1/32}$.
Həcmi 31,25 ç.v. Tirajı 1500 nüsxə.

Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi,
Bakı şəh. H.Cavid pr. 29 A. Tel.: 4393972